Müasir Azərbaycanın qurucusu,
dahi şəxsiyyət, ümummilli lider
HEYDƏR ƏLİYEVİN
əziz xatirəsinə həsr olunur

HEYDƏR ƏLİYEV

100

QR kodu skan edərək videoçarxları izləyə bilərsiniz

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Dövlət İmtahan Mərkəzinin Tədbirlər Planına uyğun olaraq, Dövlət İmtahan Mərkəzi Elm və Təhsil Nazirliyi ilə birgə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə "İlk Prezident təqaüdçüləri" layihəsini təqdim edir.

Dövlət İmtahan Mərkəzi "İlk Prezident təqaüdçüləri"ndən bəziləri ilə ünsiyyət saxlayıb onlardan ulu öndərimizlə keçirilən görüşü necə xatırladıqlarını, həmin görüşün təhsil və karyeralarındakı rolu, bir şəxsiyyət və dövlət xadimi kimi Heydər Əliyev haqqında düşüncələrini bildirməyi xahiş etmişdir.

Dövlət İmtahan Mərkəzinin rəsmi internet səhifəsində "Heydər Əliyev İli" boyunca ilk Prezident təqaüdçüləri ilə silsilə videoçarxlar təqdim olunacaq.

Gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək təhsilin əsas istiqamətlərindən olmalıdır; xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, onları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin ən müqəddəs borcu olmalıdır.

Heydər ƏLİYEV

Biz elə etməliyik ki, gələcəkdə ölkəmizin uğurlu və uzunmüddətli inkişafını elm, biliklər, texnologiyalar müəyyən etsin. Elmi-texniki tərəqqi hər bir ölkə üçün onun gələcəyini müəyyən edən ən mühüm amildir. Xüsusilə XXI əsrdə ölkələrin gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı olacaqdır. Ona görə uşaqlarımız, gənclərimiz bilikli, savadlı olmalıdırlar, dünyada gedən yenilikləri bilməlidirlər. Əlbəttə ki, müəllim heyəti də təhsilin yüksək səviyyəsini təmin etməlidir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

2022/2023-cü TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU VƏ ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARI NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ

M.M.Abbaszadə, O.Y.Şelaginov, F.K.Əhmədov
S.A.Quliyev, E.T.Şirinov

GİRİŞ

Müasir mərhələdə təhsil, iqtisadiyyat, mədəniyyət və sosial sahələrdə həyata keçirilən islahatların nəticəsi olaraq ölkəmiz dinamik inkişaf yolu ilə inamla irəliləyir, onun beynəlxalq aləmdə nüfuzu güclənir. Respublikamızda hər bir sahədə müşahidə olunan fasiləsiz inkişaf tendensiyası özünü təhsil sektorunda da göstərir. Bu inkişafın əsasında Ulu Öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən aydın və ardıcıl strateji kurs dayanır. Heydər Əliyev dövlətçilik tariximizdə dərin, silinməz izlər qoyan, Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyətlərdən biri kimi milli qürur mənbəyimizdir. Onun həyatı, fəaliyyəti, dövlətə, xalqa xidmətləri həmişə öyrənilməli, vətəndaşlıq mövqeyinin, milli özünüdərkin formalaşdırılmasında örnək göstərilməlidir. Ulu Öndərin görkəmli dövlət xadimi kimi fəaliyyəti Azərbaycan Respublikasının strateji yol xəritəsi kimi çox əhəmiyyətlidir. Ümummilli lider Azərbaycana rəhbərliyinin birinci dövründə xalqın milli dirçəlişinə nail oldusa, hakimiyyətinin ikinci dövründə ölkəni parçalanmaq təhlükəsindən qurtardı. Ulu Öndər Azərbaycan Respublikasına rəhbərlik etdiyi bütün dövrlərdə ictimai, siyasi, sosial, iqtisadi, mədəni sahələrdə üzvi bağlılığı təmin etmiş, həlli vacib olan vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirməyə nail olmuşdur.

O, Azərbaycanın müstəqilliyinin qorunmasında gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü bildirir, onları daha yaxşı təhsil almağa, vətənpərvər bir insan kimi yetişməyə səsləyirdi. Buna nail olmaq üçün isə Azərbaycanda elmin və təhsilin inkişafına xüsusi diqqət yetirirdi. Həmin diqqət və qayğının nəticəsidir ki, bilavasitə onun rəhbərliyi ilə elm və təhsil sahəsində məqsədyönlü islahatlar aparılmış, dünyada sınanmış qabaqcıl texnologiyaların tətbiqi dəstəklənmiş, bütün sahələrdə inkişafın əsası kimi elm və təhsilin üstün rolu əsaslandırılmışdır.

Ümummilli lider cəmiyyətin inkişafında peşəkar kadrların rolunu yüksək qiymətləndirirdi. Belə kadrlar isə elmi biliklərə dərindən yiyələnməklə, müasir çağırışların tələblərinə cavab verməklə, mükəmməl təhsil almaqla, səriştəli mütəxəssislər kimi yetişməklə formalaşa bilər. Bunun təməli isə ali təhsil pilləsində qoyulur. Ona görə də ali təhsil müəssisələrinə tələbə qəbulu dövlətin mühüm əhəmiyyətli sahələrindən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Ulu Öndər bu məsələni həmişə diqqət mərkəzində saxlamış, ali məktəblərə qəbulda şəffadlığın, obyektivliyin təmin olunması, eləcə də tələbə adını qazanan gənclərdə motivasiyanın yaradılması üçün əhəmiyyətli qərarlar qəbul etmişdir. Təhsil sahəsində yüksək nailiyyətlər əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şəraitin yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə 3 sentyabr 2001-ci ildə imzalanan müvafiq Fərmanla Prezident təqaüdünün təsis edilməsi bu xoş məramın məntiqi nəticəsi kimi çox əhəmiyyətlidir. Ulu Öndər həmin Fərmana uyğun olaraq, 2001/2002-ci tədris ilində qəbul imtahanlarında yüksək nəticə əldə etmiş 25 tələbəyə Prezident təqaüdünün verilməsi ilə bağlı Sərəncam imzalamışdır.

Ümummilli lider Heydər Əliyev təhsilimizin böyük qayğıkeşi olaraq, hər il ali məktəbə yüksək balla daxil olan gənclərlə Prezident sarayında görüş keçirir, onları təbrik edir, öz tövsiyələrini verirdi. Bu isə sonrakı illərdə ali təhsil pilləsinə qəbul olanlar arasında yüksək bal toplayanların sayının artmasında əhəmiyyətli rol oynamışdır. Həmin görüşlərdə Ulu Öndər Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının işini yüksək qiymətləndirmiş, qəbul prosesinin daha da təkmilləşdirilməsi məqsədilə öz tövsiyə və tapşırıqlarını vermişdir. TQDK bu tapşırıqları özünün fəaliyyət planı kimi müəyyənləşdirmiş və onların icrasına nail olmuşdur. DİM bu gün də fəaliyyətində həmin tapşırıqları rəhbər tutur.

Sevindirici haldır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, siyasi mütəfəkkir, tarixin parlaq dühası, zamanın böyük fenomeni Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Bu Sərəncamla əlaqədar olaraq Dövlət İmtahan Mərkəzi Tədbirlər Planı hazırlamışdır. Mərkəz həmin plana uyğun olaraq silsilə tədbirlərin keçirilməsinə başlayıb. Elm və Təhsil Nazirliyi ilə birgə "İlk Prezident təqaüdçüləri" layihəsi həmin plana uyğun həyata keçirilir. Layihə çərçivəsində 2001 və 2002-ci illərdə Prezident təqaüdünə layiq görülmüş şəxslərdən həmin görüşün təhsil və karyeralarındakı rolu və ümummilli lider haqqında düşüncələrini bildirmək planlaşdırılıb. Bu məqsədlə "Heydər Əliyev İli"ndə ilk Prezident təqaüdçüləri ilə silsilə videoçarxlar təqdim olunacaq.

Dövlət İmtahan Mərkəzi rəhbərliyinin və kollektivinin Qaradağ rayonu Müşfiqabad qəsəbəsi ərazisində keçirilən ağacəkmə aksiyasında iştirakı da Mərkəzin Tədbirlər Planına uyğun həyata keçirilmişdir. Aksiyanın məqsədi ətraf mühitin mühafizəsinə xüsusi həssaslıq göstərən ümummilli liderin ekoloji tarazlığın qorunması ilə bağlı gördüyü işləri davam etdirməkdir.

Mərkəzinin Tədbirlər Planına uyğun olaraq 9 fevral 2023-cü ildə Dövlət İmtahan Mərkəzi və "LANDAU School" məktəb kompleksinin birgə layihəsi əsasında Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibətilə hazırlanmış "Tarix" vəsaitinin təqdimat mərasimi keçirilmişdir. Bu cür tədbirlərin il ərzində davamlı şəkildə keçirilməsi planlaşdırılıb.

DİM 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlilini də "Heydər Əliyev İli"nə ithaf edir.

Təqdirəlayiq haldır ki, Ulu Öndərin ideyaları əsasında Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və icra edilən dövlət proqramları da təhsil sistemində keyfiyyətcə yeni inkişafa, yüksək nəticələrin əldə edilməsinə geniş imkan və şərait yaradır. Ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsinin əsas hədəfləri çoxşaxəli, səmərəli və innovasiyayönlü iqtisadiyyatın formalaşdırılması, elmin, təhsilin, mədəniyyətin və ictimai həyatın digər sahələrində yeni nailiyyətlərin əldə olunmasıdır. Respublikamızın rəhbərliyi bunları nəzərə alaraq təhsil sisteminin inkişafına böyük önəm verir, onu dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi ön plana çəkir və nəticə etibrı ilə bu sahədə kompleks proqramlar həyata keçirilir.

Prezident İlham Əliyev gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədi ilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrin reallaşdırılmasında iştirakına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədi ilə 2011-ci ildə Gənclər Fondu yaradılmışdır. Sevindirici haldır ki, ölkə rəhbəri tərəfindən bu sahəyə diqqət və qayğı ilbəil artır.

Bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən hər islahat, baş verən hər bir hadisə, ilk növbədə Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdır. Ölkə rəhbəri cənab İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində respublikamızda müasirləşmə strateji hədəf olaraq müəyyən-ləşdirilmiş, təhsil yeni texnologiyalara çıxış imkanlarını genişləndirmək, azərbaycançılıq ideyalarına sadiq olan, yaradıcı düşünən şəxsiyyət yetişdirmək, müasir təfəkkürlü, rəqabət qabiliyyətli kadrlar hazırlamaq məqsədi ilə dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qəbul edilmişdir. Buna nail olmaq üçün tələbə qəbuluna mütəxəssis hazırlığının çox mühüm strateji əhəmiyyətli tərkib hissəsi kimi yanaşılır. Gənclərin təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədi ilə bu sahəyə diqqət və qayğı ilbəil artır. Təhsilin əlçatanlığının genişləndirilməsi istiqamətində görülən işlərlə bağlı qeyd etməliyik ki, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Prezident Sərəncamına əsasən ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanında iştirak üçün ilk dəfə müraciət etmiş abituriyentlərin, həmçinin qeyd olunan Sərəncama 2021-ci il mayın 7-də edilmiş dəyişikliyə əsasən əlavə olaraq 5 kateqoriyaya (ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları; şəhid ailəsinin üzvləri; valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar; məcburi köçkün statusu olan şəxslər; I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar) aid şəxslərin imtahanlarda iştirakı üçün tələb edilən məbləğin ödənilməsinin dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi tələbə qəbulunun stimullaşdırılmasında mühüm rol oynamışdır.

Məlum olduğu kimi, abituriyentlər son 3 ildə koronavirus pandemiyası ilə əlaqədar ənənəvi olmayan qaydalarla və çətin şəraitdə imtahan verməli oldular. Bu illər ərzində Dövlət İmtahan Mərkəzi qəbul kampaniyasını Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi bütün şərtləri yerinə yetirməklə həyata keçirdi. Abituriyentlərə maksimum dəstək olmaq məqsədi ilə qəbul kampaniyasının bütün mərhələlərində onlara imtahana hazırlıqla bağlı lazımi kömək göstərildi. COVID-19 pandemiyasının şərtləndirdiyi mürəkkəb epidemioloji vəziyyətin və onun yayılmasının qarşısının alınmasına yönəldilmiş tədbirlərin tədris prosesinə təsirini nəzərə alaraq, Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla buraxılış və qəbul imtahanları fənlərinin proqramları yenidən nəzərdən keçirildi.

2021-ci ildən tarix fənni üzrə imtahan proqramına "Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi)" mövzusu daxil edilib. Bu mövzunun qəbul imtahanı proqramına daxil edilməsini tarixi zərurət kimi qiymətləndirmək olar, çünki Vətən müharibəsindəki möhtəşəm zəfər hər birimizin qürur mənbəyidir. Vətən müharibəsi zamanı məhz güclü, intellektual ordumuz, yüksək ixtisaslı kadr potensialımız və milli təhsil sisteminin yetirmələri olan gənclərimizin sayəsində ölkəmizin zəfər çalması reallaşdı. Bu bir daha müasir dünyada hər bir ölkənin gələcəyinin onun təhsilinin səviyyəsi ilə nə dərəcədə bağlı olduğunu göstərir.

Qətiyyətlə deyə bilərik ki, bu tarixi qələbənin qazanılmasında ümumtəhsil müəssisələrimizdə vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə qurulması da əhəmiyyətli rol oynamışdır. Zəfərimiz təsdiqlədi ki, təhsil, bilik və təcrübə hətta ən çətin məsələləri həll edə bilən böyük gücdür.

Respublikamızın mövcud potensialı ölkəmizdə ali təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməlidir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da ölkəmizdə insan kapitalının inkişaf etdirilməsi, onun ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə qoşulması prosesində rəqabətqabiliyyətli olması və hər bir təhsilalanın müasir bilik, bacarıq və vərdişlərə yiyələnməsinin təmin edilməsi təhsil sisteminin başlıca vəzifələri kimi irəli sürülür. Bu vəzifələrin həlli məqsədi ilə Azərbaycanda insan kapitalının inkişafında fasiləsizliyin (ömürboyu təhsilin) təmin edilməsi, məktəbəqədər və ümumi təhsil də daxil olmaqla, peşə təhsilli və ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, eləcə də "elm-təhsil-istehsal" əlaqələrinin təkmilləşdirilməsi istiqamətində müvafiq proqramların hazırlanması və həyata keçirilməsi sahəsində işlər davam etdirilir. Doğrudan da, daha keyfiyyətli insan kapitalının formalaşdırılması maddi və mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verə bilər.

Ali təhsil müəssisələrində hazırlanan mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması prioritet istiqamətlərdən biri olmalıdır. Bu, müasir dünyada gedən qloballaşma, rəqabət və informasiya cəmiyyəti quruculuğu proseslərində yüksək peşəkarlıqla çalışa biləcək kadr potensialının hazırlanması üçün çox vacibdir.

Dövlətin təhsil siyasətini həyata keçirən qurumlardan biri kimi Dövlət İmtahan Mərkəzi Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi dövlət proqramlarını, verdiyi fərman və sərəncamlardan irəli gələn vəzifələri yerinə yetirmək üçün məqsədyönlü işləri davam etdirir. 2022-ci ildə tələbə qəbulu kampaniyasının və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının təşkili və keçirilməsi ilə əlaqədar görülmüş işlər də bu fəaliyyətin tərkib hissəsidir.

Dövlət İmtahan Mərkəzi 2022/2023-cü tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulunu "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparır. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

2022/2023-cü tədris ili üçün respublikanın ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul qaydaları, qəbul proqramları, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elanları "Abituriyent" jurnalının 1-ci nömrəsində dərc edilərək ictimaiyyətə çatdırılmışdır. Eyni zamanda jurnalda hər bir fənn üzrə test tapşırığı modellərinə uyğun nümunələr təqdim edilmişdi ki, qəbul imtahanlarında hansı model, tip və mürəkkəblik dərəcəsinə malik test tapşırıqlarının təklif ediləcəyi barədə abituriyentlərin əvvəlcədən təsəvvürü olsun.

Qəbul imtahanlarına müstəqil şəkildə (repetitor xidmətindən istifadə etmədən) hazırlaşanlara kömək məqsədi ilə təcrübəli ekspertlərin internet vasitəsilə imtahan fənləri üzrə video-məsləhətləri təşkil edilmiş, abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırıqlarının izahı verilmiş, yol verdikləri səciyyəvi səhvlər araşdırılmışdır. "Videomühazirə" adlanan bu layihənin ikinci mərhələsində tanınmış mütəxəssis-ekspertlər tərəfindən bütün fənlər üzrə qəbul proqramlarının mövzularını əhatə edən mühazirələr nümayiş etdirilmişdir. Mühazirələrdə nəzəri materiallar test tapşırıqlarının həlli ilə müşayiət olunmuşdur. Layihədə bölgələrin qabaqcıl və təcrübəli müəllimləri də iştirak etmilər.

İmtahanların məzmunu formalaşdırılarkən ənənəvi test tapşırıqları ilə yanaşı, yeni tipli – yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar da tətbiq olunmuşdur. Şagird və abituriyentlərin yeni tipli test tapşırığı modelləri haqqında təsəvvürlərini genişlən-dirmək və onlarla işləmək vərdişlərini inkişaf etdirmək üçün belə tapşırıqların fənlər üzrə nümunələri "Abituriyent" jurnalında dərc olunmuş, eyni zamanda sınaq imtahanlarında yoxlamadan keçirilmişdir. Belə tapşırıqlar abituriyentlərin bilik və bacarıqlarının hərtərəfli üzə çıxarılmasına, əldə olunmuş biliklərin praktikada tətbiqi mexanizmlərinin inkişaf etdirilməsinə, mənimsəmənin dörd səviyyəsinin (bilik, anlama, tətbiqetmə və bacarıq) yoxlanılmasına, xüsusilə də qiymətləndirmədə yüksək hazırlıqlı abituriyentlərin fərqləndirilməsinə imkan vermişdir.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq imtahanlar üçün sual kitabçalarının çapını həyata keçirmək üçün layihələndirilmişdir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib.

DİM-in Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Xaçmaz, Göyçay, Şirvan, Şəmkir və Bərdə şəhərlərində fəaliyyət göstərən regional bölmələrinin xətti ilə görülən işlərin həcmi xeyli artmışdır. Bölmələrin səmərəli fəaliyyəti sayəsində rayonlarda çalışan müəllimlər yalnız təşkilati tədbirlərə deyil, elmi-metodiki işlərə də cəlb edilmişdir. Beləliklə, respublika üzrə bu sahəyə marağı olan müəllimlər üçün geniş imkanlar yaradılmışdır ki, bu da qəbul kampaniyasının keyfiyyətinə müsbət təsir göstərir.

Qəbul imtahanlarına hazırlıq ərəfəsində gənclərin öz bilik səviyyələrini yoxlamaları, test imtahanının texnologiyasına bələdliyi və imtahana psixoloji cəhətdən hazır olmaları üçün respublikanın bütün bölgələrini əhatə etməklə, müvafiq texnologiyalara uyğun təşkil olunmuş sınaq imtahanları keçirilmişdir. Eyni zamanda, DİM abituriyentlərin istədikləri vaxt fərdi qaydada internet vasitəsilə sınaq imtahanında iştirakı üçün xüsusi proqram hazırlamışdır. Həmçinin imtahanlara hazırlaşanlar və tədris prosesində istifadə üçün 4-11-ci sinif dərsliklərinin hər bir tədris vahidi (8 800 tapşırıq), hər bir mövzusu (28 535 tapşırıq) üzrə onlayn sınaq variantları, eləcə də buraxılış və qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 2 onlayn sınaq variantı hazırlanmış və otk.az portalında yerləşdirilmişdir. Bundan əlavə, 5-8-ci siniflər üzrə şagirdlərin biliyinin qiymətləndirilməsi üçün sınaq sual kitabçaları, 9 və 11-ci siniflər üzrə buraxılış sınaq sual kitabçaları, habelə bütün qruplar və alt qruplar üzrə sınaq sual kitabçaları da nəşr edilmişdir.

Xüsusi qabiliyyət tələb edən ixtisasları seçən abituriyentlərə elmi-metodiki kömək məqsədi ilə "Xüsusi qabiliyyət imtahanları" jurnalının 1-ci və 2-ci nömrələri nəşr edilmişdir. Jurnalın 1-ci nömrəsində ali təhsil, 2-ci nömrəsində isə orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar dərc edilmişdir.

İmtahan rəhbərləri və nəzarətçiləri imtahanlara hazırlaşdırmaq istiqamətində həm paytaxtda, həm də ayrı-ayrı bölgələrdə çoxsaylı tədbirlər həyata keçirilmişdir. İmtahan rəhbərləri bazasının zənginləşdirilməsi məqsədi ilə AMEA-nın elmi-tədqiqat institutları, eləcə də bir sıra dövlət qurumlarının nümayəndələri imtahanlarda rəhbər qismində iştirak etməyə cəlb olunmuşdur. Bazaya ilk dəfə daxil edilən imtahan rəhbərləri ilə xüsusi seminar-məşğələlər keçirilmiş, təlimata uyğun təcrübə və səriştə əldə etmələri üçün onlar öncə sınaq, sonra qəbul imtahanlarında iştirak etmişlər.

İşə vicdanla yanaşan, səriştəli və məsuliyyətli müəllimlər hesabına nəzarətçilər bazasının zənginləşdirilməsinə də xüsusi diqqət yetirilib. Yanvar ayından etibarən Bakı şəhəri ilə yanaşı, ölkənin digər bölgə mərkəzlərində də nəzarətçi-müəllimlərlə seminar-məşğələlər təşkil olunub. Seminar-məşğələlərdə müəllimlərə qəbul imtahanı prosesinin idarə olunması hərtərəfli izah edilib, imtahan texnologiyasına aid öyrədici film nümayiş etdirilib.

İlin ilk aylarından etibarən həm paytaxtda, həm də bölgələrdə imtahan üçün nəzərdə tutulan 100-dən çox binaya baxış keçirilmiş, onların imtahana yararlılıq səviyyəsi yoxlanılmış, texniki pasportları dəqiqləşdirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti qurumlarla birgə iş aparılmışdır. İmtahan binaları haqqında yenilənmiş məlumat "İmtahan yerləri bazası"na daxil edilmişdir. İmtahan keçirilən binaların təhlükəsizlik baxımından yoxlanılması üçün lazımi tədbirlər həyata keçirilmişdir.

Dövlət İmtahan Mərkəzinin göstərdiyi həm elektron, həm də ödənişli xidmətlərdən faydalanmaq istəyən hər bir istifadəçi (abituriyent, bakalavr, namizəd) şəxsi kabinet yaratmışdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilir. İstifadə edilmiş xidmətlər, imtahan nəticələri və digər məlumatlar istifadəçinin şəxsi kabinetində öz əksini tapır. Kabinet yaradılan zaman onun pul hesabı da açılır. Hesaba lazımi miqdarda vəsait əlavə etmək üçün müxtəlif ödəniş üsullarından yararlanmaq olar. Həmin vəsait DİM-in göstərdiyi xidmətlərə görə ödəniş üçün istifadə edilir.

Tam və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının nəticələri, əvvəlki illərin məzunları üçün isə buraxılış imtahanı qaydasında keçirilən qəbul imtahanının nəticələri əsasında aparılmışdır.

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında ixtisas seçimi ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələri açıqlandıqdan sonra ali təhsil müəssisələrinin boş qalan yerlərinə ərizə qəbulu ilə eyni vaxtda – sentyabrın 2-dən 7-dək aparılmışdır. Abituriyentlərə həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilmişdir. Onlar öz ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərmək imkanı qazanmışlar.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu aprelin 5-dən 25-dək internet vasitəsilə aparılıb. Qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat isə "Abituriyent" jurnalının 3-cü nömrəsində təqdim olunub.

Respublikanın ümumtəhsil müəssisələrində ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanlarını DİM tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan

şagirdlər üçün - Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri üzrə, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - rus dili, riyaziyyat və xarici dil fənləri üzrə mərkəzləşdirilmiş qaydada keçirmişdir. Hər iki təhsil səviyyəsi üzrə keçirilən imtahanlarda şagirdlərə, ümumilikdə 85 test tapşırığı təqdim edilmişdir. "Abituriyent" jurnalının xüsusi buraxılarına müvafiq olaraq buraxılış imtahanı proqramları və test tapşırığı nümunələri daxil edilmişdir.

Buraxılış imtahanlarının mütəşəkkil qaydada keçirilməsi məqsədi ilə "Şagird–məzun" sistemi üzrə buraxılış imtahanlarında iştirak edəcək şagird kontingentinin seçilməsi, imtahan mərkəzlərinin müəyyənləşdirilməsi, imtahan rəhbərləri və zal nəzarətçilərinin imtahanlara hazırlığı, test bankının zənginləşdirilməsi, proqram təminatının hazırlanması, eləcə də təşkilati tədbirlər istiqamətində geniş hazırlıq işləri görülmüşdür. İmtahanlar regionlar üzrə qruplaşdırılaraq ayrı-ayrı günlərdə keçirilmiş, şagirdlərin rahatlığının təmin olunması üçün yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də təşkil edilmişdir.

Məlum olduğu kimi, buraxılış və qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar təhsil proqramları (kurikulumlar) əsasında hazırlanır. Bunu nəzərə alaraq, DİM-də kurikulumlar əsasında qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə bağlı imtahan fənləri üzrə hazırlıq kursları təşkil edilmişdir. Kurslarda elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər və pedaqoji yönlü ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq ixtisas üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak etmişlər. Gələcəkdə həmin şəxslər tapşırıq müəllifi, ekspert və imtahan materiallarının yoxlanılmasında marker kimi Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edə biləcəklər.

Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu bu il də internet vasitəsilə aparılmışdır. Bu üsul ərizə təqdimetmə prosedurunu sadələşdirməklə bərabər, abituriyentlərin buraxa biləcəyi məntiqi səhvlərin qarşısını almağa da imkan yaradır. Abituriyentlər DİM-in müəyyən etdiyi müddət ərzində özləri barədə tələb olunan məlumatları göstərməklə "Elektron ərizə" doldurmuşlar. Ərizə qəbulu elanının tam mətni, "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası "Abituriyent" jurnalının 2022-ci il 2-ci nömrəsində ictimaiyyətə təqdim olunmuşdur.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, müsabiqə şərtləri, qəbul aparılan ixtisasların planı, o cümlədən dövlət sifarişi üzrə qəbul aparılan yerlərin proqnozu "Abituriyent" jurnalının 4-cü nömrəsində verilmişdir. Proqnozda qəbul aparılan ixtisasların siyahısı, yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin adları daxil edilmişdir.

2022-ci ildə abituriyentlərə eyni zamanda ali təhsil müəssisələrinin həm I-IV ixtisas qruplarına (hər hansı biri və yaxud ikisi üzrə) daxil olan ixtisaslar, həm V ixtisas qrupuna daxil olan ixtisaslar, həm də tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmək imkanı yaradılmışdır. I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi hər qrup üzrə iki dəfə (iki cəhd) keçirilmişdir. İxtisas seçmək hüququ olan abituriyentlər müsabiqə şərtlərini ödədikləri halda, eyni vaxtda I-IV ixtisas qruplarının hər hansı biri və ya ikisi, o cümlədən III ixtisas qrupunun DT və TC altqrupları və V ixtisas qrupu üzrə ixtisas seçimində iştirak etmişlər. Hər ixtisas qrupu üzrə imtahan vaxtından bir neçə gün əvvəl abituriyentlərə internet vasitəsilə "İmtahana buraxılış vərəqələri" əldə etmək imkanı yaradılmışdır.

Bütün abituriyentlər üçün ixtisas seçimi və müsabiqə eyni vaxtda – ali təhsil müəssisələrinə bütün qəbul imtahanları başa çatdıqdan sonra keçirilmişdir.

Müxtəlif təyinatlı imtahanların mütəşəkkil keçirilməsində Daxili İşlər Nazirliyi, "Azərbaycan Hava Yolları" Dövlət Konserni, Səhiyyə Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının peşəkarlığı mühüm rol oynamışdır.

Hər ixtisas qrupu üzrə qəbul imtahanı keçirildikdən sonra abituriyentlərin imtahan balları internet vasitəsilə elan edilmiş, onların düzgün ixtisas seçiminə kömək məqsədi ilə hər bir ixtisas qrupunun abituriyentləri üçün «İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?» adlı vəsait çap edilmişdir. Vəsaitdə dövlət sifarişli və ödənişli əasalarla təhsil, Azərbaycan və rus bölmələri üzrə ayrılıqda və hər iki bölmənin birgə müsabiqəsinə aid qəbul planları verilmiş, müsabiqəyə buraxılma şərtləri, eyni zamanda müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasına dair məlumatlar təqdim olunmuşdur.

Abituriyentlərin ixtisas seçimi zamanı düzgün istiqamət götürmələrinə kömək məqsədi ilə ali və orta ixtisas təhsili müəssisələrinə ötənilki qəbul imtahanlarında formalaşmış keçid balları haqqında məlumatlar da ayrıca vəsaitlərdə təqdim edilmişdir. Abituriyentlərə ixtisas seçimi zamanı "Bakalavr ixtisasları" adlı vəsaitlərdən yararlanmaq da tövsiyə olunmuşdur. Bu vəsaitlərdə hər bir ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması, ixtisasın xarakteristikası, təyinatı, bu və ya digər ixtisas üzrə hazırlanan bakalavrlara

təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları şərh olunmuş, onların gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər avqustun 16-dan 28-dək internet vasitəsilə ixtisas seçimi etmişlər. Abituriyentlər qəbul qaydalarına əsasən imtahan verdikləri ixtisas qrupuna (qruplarına) aid 15-dək ixtisas kodunu seçə bilərdilər.

Ali təhsil müəssisələrinə müsabiqə və yerləşdirilmənin nəticələri ictimaiyyətə həm "Abituriyent" jurnalı, həm internet, həm də mobil operatorlar – "Azercell", "Bakcell" və "Nar Mobile"-nin müvafiq xidmətlərindən istifadə yolu ilə elan edilmişdir. Jurnalda qəbul olanların siyahısı ilə yanaşı, təhsili həm ödənişli əsaslarla, həm də dövlət sifarişi əsasında olan yerlərə qəbul aparılan ixtisasların minimal keçid balları, dövlət sifarişi üzrə qəbul olan abituriyentlərin ali təhsil müəssisələri və ixtisaslar üzrə paylanması, müsabiqənin birgə aparıldığı ixtisaslar üzrə plan yerlərinə Azərbaycan və rus bölmələrindən qəbul olan abituriyentlərin sayı haqqında məlumatlar, ali təhsil müəssisələrinin müvafiq ixtisaslarına müsabiqədənkənar (test və qabiliyyət imtahanlarından azad olunmaqla) qəbul olmaq hüququna malik olan abituriyentlərin siyahısı təqdim olunmuşdur.

2022-ci ildə respublikanın ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarında 73 min 429 abituriyent iştirak etmişdir. Onların 16.12%-i 0-100, 26.67%-i 100-200, 21.96%-i 200-300, 25.61%-i 300-500, 9.64%-i isə 500-700 bal toplamışdır. Abituriyentlərdən 2077 nəfər 600 və daha çox bal toplamışdır. Yüksək bal toplayanlar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edirlər. Yüksək nəticə göstərənlər I qrupda 1081, II qrupda 142, III qrupda 344, IV qrupda 510 nəfərdir.

DİM ali təhsilin ikinci səviyyəsi olan magistraturaya qəbul imtahanının məzmununun və qiymətləndirmə mexanizminin təkmilləşdirilməsi işlərini 2022-ci ildə də davam etdirmişdir. Magistraturaya qəbul aparılan ixtisaslaşmalar 75 qəbul proqramı üzrə qruplaşdırılmışdır. Bakalavrlara kömək məqsədi ilə "Magistr" xüsusi buraxılışının müxtəlif saylarında qəbul proqramları, qəbul qayda və elanları, ixtisas seçiminə dair tövsiyə və cədvəllər, test tapşırığı nümunələri, aparılmış müsabiqənin nəticələri, keçid balları və digər zəruri məlumatlar çap olunmuşdur.

Magistraturaya ərizə qəbulu internet vasitəsilə aparılmışdır. Bakalavrlara magistraturaya qəbul imtahanında iki dəfə iştirak etmək hüququ verilmişdir. 2022-ci ildə 1-ci imtahan fevralın 20-də, 2-ci imtahan isə mayın 29-da keçirilmişdir. İmtahanda bakalavrların ümumi intellekt səviyyəsi (məntiqi təfəkkürü), xarici dil və informatikadan bilik səviyyələri test üsulu ilə yoxlanılmışdır. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarına qəbul olmaq istəyən və müəyyən edilən müsabiqə şərtini ödəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra əlavə olaraq qabiliyyət imtahanı vermişlər. İmtahanlar Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələri nəzərə alınmaqla, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının yarada biləcəyi təhlükənin qarşısının alınması üçün görülən tədbirlərə uyğun olaraq xüsusi sosial izolyasiya qaydalarına riayət olunmaqla təşkil edilmişdir. Müəyyən edilmiş müsabiqə şərtlərini ödəyənlər ixtisas seçiminə buraxılıb. Hər bir bakalavrın 20-dək ixtisaslaşma kodunu seçmək imkanı var idi. Qəbulun nəticələri iyulun 8-də DİM-in internet saytında elan olunub və "Magistr" jurnalının 5-ci sayında dərc edilib. Qəbulun nəticələrinə əsasən 11510 bakalavr magistraturaya qəbul olunub, onlardan 1033-ü qeydiyyatdan keçməyib, 2511 yer isə boş qalıb. Bu səbəbdən avqustun 8-dən 14-dək boş qalan yerlərə ixtisaslaşma seçimi aparılıb. Bu mərhələdə 1848 nəfər (onlardan 100-ü birinci ixtisaslaşma seçimində iştirak etməyib) iştirak edib və onların 761-i magistraturaya qəbul olub (onlardan 551-i qeydiyyatdan keçib). Beləliklə, ixtisaslaşma seçimində 14379 nəfər (qəbul imtahanında iştirak edənlərin 69.05%-i) iştirak edib və 11028 nəfər (ixtisaslaşma seçimində iştirak edənlərin 76.70%-i) magistraturaya qəbul olub.

Rezidenturaya qəbul 2022-ci ildə də mərkəzləşdirilmiş qaydada test üsulu ilə iki mərhələdə keçirilmişdir. Birinci mərhələdə namizədlərin baza ali tibb təhsili istiqamətinə uyğun baza fənləri, ikinci mərhələdə isə ixtisas fənləri üzrə bilikləri yoxlanılmışdır. Cari ildə ilk dəfə olaraq namizədlərə baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iki dəfə iştirak etmək hüququ verilmişdir. Qəbul imtahanının I mərhələsinin 1-ci cəhdində iştirak etmək üçün ərizələrin qəbulu 2022-ci il mayın 26-dan iyunun 4-dək, 2-ci cəhdində iştirak etmək üçün isə iyulun 16-dan 22-dək internet vasitəsilə aparılmışdır. İmtahanın I mərhələsinin 1-ci cəhdi iyunun 20-də, 2-ci cəhdi avqustun 4-də, II mərhələsi isə sentyabrın 26-da keçirilmişdir.

Rezidenturaya qəbul qaydaları və qəbul elanı, baza və ixtisas fənləri üzrə qəbul proqramları, namizədlərin cavab verməkdə çətinlik çəkdikləri bəzi test tapşırıqlarının elmi-metodiki izahı və tövsiyələr, test tapşırığı nümunələri və digər zəruri məlumatlar "Rezidentura" jurnalının 2022-ci il tarixli 1-ci və 2-ci nömrələrində

çap olunmuşdur. Qəbul imtahanının ikinci mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisaslar və plan yerləri haqqında məlumatlar, rezidenturaya qəbul imtahanının I mərhələsinin nəticələrinin ötən illə müqayisəli təhlili və tövsiyələr, 2021-ci ildə rezidenturaya qəbul müsabiqəsində formalaşmış keçid balları və digər elmi-metodiki materiallar jurnalın 3-cü nömrəsində dərc edilib ictimaiyyətə çatdırılmışdır.

Rezidenturada təhsil almaq üçün 1643 namizəd ərizə verib. Onların 39.44%-ni (648 nəfər) oğlanlar, 60.56%-ni (995 nəfər) qızlar təşkil edib. Sənəd verənlərin 603 nəfəri (36.70%) əsas (baza ali) tibb təhsilini 2022-ci ildə başa vurub. Onlardan 221 nəfəri oğlan (36.65%), 382 nəfəri isə qızdır (63.35%). İmtahanın I mərhələsində iştirak etmək üçün 1521 namizəd ərizə vermiş və onlardan 496 nəfəri III, IV və ya V kurs tələbəsi olmuşdur. I mərhələdə iştirak edən 1506 namizəddən (o cümlədən 495 nəfər III, IV və ya V kurs tələbəsi) 518-i (o cümlədən 205 nəfər III, IV və ya V kurs tələbəsi) "məqbul" almışdır. "Məqbul" alanlardan 205-nin III, IV və ya V kurs tələbəsi olduğunu nəzərə alsaq, 313 namizədin imtahanın II mərhələsində iştirak etmək hüququ qazandığı məlum olur. Bu namizədlərin 264-ü II mərhələdə iştirak etmək üçün ərizə vermişdir. Bundan başqa, əvvəlki illərdə rezidenturaya qəbul imtahanının I mərhələsində iştirak edərək "məqbul" qiymət alan 618 nəfər də II mərhələdə iştirak etmək üçün ərizə vermiş, bununla da ərizələrin sayı 882 olmuşdur. İmtahanın II mərhələsində iştirak edən 880 namizəddən 584-ü müsabiqə şərtlərini ödəmiş və ixtisas seçimində iştirak hüququ qazanmışdır. İxtisas seçimində 548 namizəd iştirak etmiş, onlardan 460-ı rezidenturaya qəbul olmuşdur. Müsabiqənin nəticələri internet və "Rezidentura" jurnalının 4-cü nömrəsində ictimaiyyətə açıqlanmışdır.

DİM 2022-ci ildə də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işləri intensiv şəkildə davam etdirmiş, bu sahədə bir sıra yeni layihələr həyata keçirmişdir. İKT ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, rezidenturaya, orta ixtisas təhsili pilləsinə qəbul prosesində, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarında, dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmiş və yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Mərkəzin ictimaiyyətə göstərdiyi 18 elektron xidmət növündən hesabat ilində 12 milyon 171 min dəfədən çox istifadə olunmuşdur. Bunlar dövlət qurumlarının icraatında olan elektron xidmət layihələri arasında ən çox istifadə olunan layihələrdəndir.

"Açıq hökumətin təşviqinə dair 2012–2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 2-ci bəndində göstərilir ki, dövlət orqanları öz fəaliyyətləri barədə müntəzəm olaraq ictimaiyyətə məlumat verməli, bu məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməli, illik məruzələr tərtib etməli və internet səhifələrində açıqlamalı, mətbuat konfransları keçirməli və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməlidirlər. Bu prinsipləri öz fəaliyyətində rəhbər tutan Dövlət İmtahan Mərkəzi mütəmadi olaraq qəbul kampaniyasının mərhələləri ilə bağlı ictimaiyyəti hərtərəfli məlumatlandırmaqla qəbul prosesinin şəffaflığının təmin edilməsinə böyük önəm vermişdir.

Müasir dövrdə önəmli məsələlərdən biri inkişafın ən başlıca əsaslarından olan informasiyanın açıqlanmasıdır. Bu, informasiya sahibinin mühüm vəzifəsidir. Həmin vəzifə ilə bağlı müddəalar "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu"nda təsbit olunmuşdur. Qanunun 29-cu maddəsinə əsasən informasiya sahibi cəmiyyətin maraqlarını daha asan və daha operativ şəkildə təmin etmək, çoxsaylı informasiya sorğularını azaltmaq məqsədi ilə malik olduğu, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılmış, yaxud əldə olunmuş informasiyanı ictimaiyyətə açıqlamalıdır. Qanunda belə informasiyalara "ümumiləşdirilmiş statistik məlumatlar" aid edilir.

DİM-in apardığı ənənəvi elmi-statistik təhlillərdə təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgələr və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəriyə malik rayon və məktəblər, ali təhsil müəssisələrinin reytinqi, bakalavriat və magistratura səviyyələrinə, orta ixtisas təhsili pilləsinə və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlər öz əksini tapıb. Eyni zamanda aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Tələbə qəbulunun gender aspektləri" ("Qadınlar statistikada"), "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar, həmçinin hər bir rayonun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar hazırlanıb. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

DİM elmi-statistik təhlil nəticəsində əldə etdiyi informasiyanı – ümumiləşdirilmiş statistik məlumatları "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu"na və "Abituriyent" jurnalının nizamnaməsinə uyğun olaraq açıqlayır və əldə olunmuş nəticələri nəşr edərək ictimaiyyətin istifadəsinə verir.

1. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU

2022/2023-cü tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulu DİM tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparılıb. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidmətinin təhsil müəssisələri) tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

Cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə yaranmış şəraitə uyğun olaraq, imtahanların təşkili zamanı Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələri nəzərə alınmışdır.

Abituriyentlər ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 2022-ci il martın 4-dən 17-dək internet vasitəsilə elektron ərizə vermişdir. Bunun üçün onlar *ekabinet.dim.gov.az* internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetlərinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet (*eservices.dim.gov.az/erizebak/erize*) səhifəsinə daxil olaraq "Abituriyentin elektron ərizəsi" formasını doldduraraq təsdiq etmişdir (etdirmişdir).

2022-ci il 4-17 mart tarixlərində aparılan ərizə qəbulunda iştirak etməyən 2022-ci ildə buraxılış imtahanı vermiş cari ilin məzunları və 2021-ci ildə buraxılış imtahanı (qəbul imtahanının birinci mərhələsi) vermiş əvvəlki illərin məzunları üçün aprelin 6-dan 25-dək elektron ərizə qəbulunda iştirak imkanı yaradılmışdır. Eyni zamanda, martın 4-dən 17-dək elektron ərizələrini təsdiq etmiş abituriyentlərə, əlavə olaraq, ixtisas qrupu seçməyə, həmçinin tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə müsabiqədə iştirak etmək üçün ərizələrində müvafiq düzəlişlərin edilməsinə icazə verilmişdir.

Ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanı iki mərhələdə həyata keçirilmişdir. İmtahanın ikinci mərhələsi iki dəfə keçirilmiş və abituriyentlərə fərqli ixtisas qrupu üzrə və yaxud eyni ixtisas qrupu üzrə ikinci dəfə də imtahan vermək üçün şərait yaradılmışdır. Müsabiqədə iştirak ödənişli olmuşdur. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" **Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən** ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) qəbul imtahanında (imtahanın ikinci mərhələsinin yalnız bir cəhdində) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur. Bu kateqoriyadan olan abituriyentlər III ixtisas qrupunun DT və TC altqruplarının hər ikisini seçdikləri halda, onlar coğrafiya fənni üzrə fərq imtahanında iştirak etmək üçün əlavə olaraq ödəniş etmişdir. **Eyni sərəncamın 1.3-1.7-ci bəndlərinə əsasən** aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) qəbul imtahanında (bütün mərhələ və cəhdlər üzrə) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir:

- *Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;*
- *şəhid ailəsinin üzvləri;*
- *valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;*
- *məcburi köçkün statusu olan şəxslər;*
- *I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.*

Ərizənin təsdiqi DİM-in informasiya sistemlərində abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər *(1987-2004-cü il təvəllüdlü (31.07.2004-cü il tarixədək anadan olmuş) 35 yaşınadək olan kişi cinsli abituriyentlər onların ya müddətli həqiqi hərbi xidmət keçməsi, ya çağırışdan möhlət hüququnun olması və ya çağırışdan azad edilməsi barədə məlumat*

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin elektron-məlumat bazasında əks olunduğu halda) elektron ərizələrini elektron ərizə səhifəsinə daxil olaraq özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3. Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər;

2. 1.1, 1.2, 1.3 və 1.4-cü yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq **Sənəd Qəbulu Komissiyalarında (SQK)** təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni "Abituriyent" jurnalının 2022-ci il 2-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Ərizə qəbulu ilə bağlı bütün məlumatlar operativ şəkildə DİM-in internet saytında da yerləşdirilib. Bundan başqa, "Abituriyentin elektron ərizəsi" formasının doldurulması qaydası televiziya kanallarında abituriyentlərə dəfələrlə izah olunub. SQK-lar hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 9-dan 17-dək fəaliyyət göstəriblər:

Bakı şəhərində:

DİM-in Bakı şəhərində yerləşən inzibati binaları:

- *Bakı ş., Nəsimi r., Abdulvahab Salamzadə küç., 28*
- *Bakı ş., Nərimanov r., Koroğlu Rəhimov küç., 108A*

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi;*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu	*DİM-in Regional Bölməsi.*

Xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil almaq istəyən abituriyentlər də 1-ci və 2-ci bənddə göstərilən müddətdə və qaydada elektron ərizələrini təsdiq etməklə (etdirməklə) yanaşı, müvafiq ali təhsil müəssisələrinin müəyyən etdikləri xüsusi prosedurlardan keçiblər.

2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinə qəbul beş ixtisas qrupu üzrə aparılıb. I–IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı iki mərhələdən ibarət olub. Abituriyentlər qəbul imtahanının birinci *(maksimal toplanıla bilən bal – 300)* və ikinci *(maksimal toplanıla bilən bal – 400)* mərhələlərindən topladıqları ümumi balların cəminə *(maksimal toplanıla bilən bal – 700)* əsasən ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak ediblər. Cari ilin məzunları üçün qəbul imtahanının birinci mərhələsinin nəticəsi kimi onların buraxılış imtahanında əldə etdikləri nəticələr götürülüb.

2021-ci ildə buraxılış və ya qəbul imtahanının I mərhələsində iştirak edən abituriyentlər üçün imtahanın birinci mərhələsinin nəticəsi kimi keçən il topladıqları balları nəzərə alınmışdır. Onlara cari ildə keçirilən qəbul imtahanının I mərhələsində də iştirak etmək üçün şərait yaradılmış və bu iki imtahandan istədikləri imtahanın nəticəsi ilə müsabiqədə iştirak etmək imkanı yaradılmışdır.

Qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə imtahan fənləri, tapşırıqların sayı və balların hesablanma qaydası 1.1 saylı cədvəldə təqdim olunur. Bu mərhələdə şagird və abituriyentlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara, ümumilikdə, üç fənn üzrə 85 tapşırıq təqdim edilib. İmtahanın müddəti 3 saat olub.

Cədvəl 1.1

Fənnin adı	Tapşırıqların sayı	Nisbi balın hesablanması düsturu
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	- Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq:qapalı tipli 3 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq; - Qapalı tipli 16 tapşırıq; - Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 4 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq. **Cəmi: 30 tapşırıq**	$\frac{100}{37}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$ **Maksimal bal: 100**
Azərbaycan (rus) dili	- Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; - Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 tapşırıq (cəmi 20 tapşırıq); **Cəmi: 30 tapşırıq**	$\frac{5}{2}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$ **Maksimal bal: 100**
Riyaziyyat	- Qapalı tipli 13 tapşırıq; - Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq; - Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq. **Cəmi: 25 tapşırıq**	$\frac{25}{8}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,\ kod)}+\ +n_{d(qapalı)})$ **Maksimal bal: 100**

Qeyd. 1. $n_{d(açıq,\ kod)}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\ yazılı)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilib.

3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}, \frac{1}{2}, \frac{2}{3}$ və ya 1 balla qiymətləndirilib.

Abituriyentin qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cəmlənib. Fənlər üzrə nisbi ballar yuxarıdakı cədvəldə göstərilən qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb. Tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Qəbul imtahanının ikinci mərhələsində abituriyentlərə hər fənn üzrə 30 tapşırıq (ümumilikdə 90 tapşırıq) təqdim olunub. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tipli idi. Açıq tipli tapşırıqlardan 5-i cavabların kodlaşdırılması tələb olunan hesablama, seçim və ya uyğunluğu müəyyən etmək tipli tapşırıqlar olub. Digər açıq tipli 3 tapşırıq isə yazılı şəkildə cavablandırılması tələb olunan, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən situasiya, mətn və mənbə əsasında cavablandırılması tələb olunan tapşırıqlar olub - riyaziyyat, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə situasiya, Azərbaycan (rus) dili və ədəbiyyat fənləri üzrə mətn, tarix fənni üzrə isə mənbə əsasında cavablandırılması tələb olunan tapşırıqlar olub. İmtahanın müddəti 3 saat olub.

Abituriyentin qəbul imtahanının ikinci mərhələsi üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar 1.2 saylı cədvəldə verilmiş müvafiq çəki əmsallarına vurulmaqla cəmlənib. Hər bir fənn üzrə nisbi bal aşağıdakı qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb:

$$\boldsymbol{NB = NB_q + NB_a},$$

burada NB – fənn üzrə nisbi bal; NB_q – qapalı tipli tapşırıqlar üzrə nisbi bal; NB_a – açıq tipli tapşırıqlar üzrə nisbi baldır.

Qapalı və açıq tipli test tapşırıqları üzrə nisbi ballar isə aşağıdakı qaydada hesablanıb:

$$\boldsymbol{NB_q} = \left(\boldsymbol{D_q} - \frac{1}{4}\boldsymbol{Y_q} \right) \cdot \frac{100}{33}$$ (hesablamanın nəticəsi mənfi alınarsa, $\boldsymbol{NB_q=0}$ götürülür),

burada $\boldsymbol{D_q}$ *– qapalı tipli tapşırıqlar üzrə düzgün cavabların sayı;* $\boldsymbol{Y_q}$ *– qapalı tipli tapşırıqlar üzrə yanlış cavabların sayıdır.*

$$\boldsymbol{NB_a = (D_{kod} + 2D_{yazılı}) \cdot \frac{100}{33}}$$

burada D_{kod} *– cavabların kodlaşdırılması tələb olunan açıq tipli (hesablama, seçim, uyğunluğu müəyyən etmək) tapşırıqlar üzrə düzgün cavabların sayı;* $D_{yazılı}$ *– yazılı şəkildə cavablandırılması tələb olunan, situasiya, mətn və mənbə əsasında hazırlanan açıq tipli tapşırıqlar üzrə balların cəmidir. Bu tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0,* $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ *və ya 1 balla qiymətləndirilib.*

Açıq tipli tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Cədvəl 1.2

QƏBUL İMTAHANININ İKİNCİ MƏRHƏLƏSİNİN İMTAHAN FƏNLƏRİNİN İXTİSAS QRUPLARI (ALTQRUPLARI) ÜZRƏ ÇƏKİ ƏMSALLARI

İxtisas qrupları	İmtahan fənləri	Çəki əmsalları
I qrup	Riyaziyyat	1.5
	Fizika	1.5
	Kimya	1
II qrup	Riyaziyyat	1.5
	Coğrafiya	1.5
	Tarix	1
III qrup DT altqrupu	Azərbaycan (rus) dili	1.5
	Tarix	1.5
	Ədəbiyyat	1
III qrup TC altqrupu	Azərbaycan (rus) dili	1.5
	Tarix	1.5
	Coğrafiya	1
IV qrup	Biologiya	1.5
	Kimya	1.5
	Fizika	1

Abituriyentlər V ixtisas qrupu üzrə ali təhsil müəssisələri və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə müsabiqədə yalnız qəbul imtahanının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) və qabiliyyət imtahanının nəticələrinə (tələb olduğu halda) əsasən iştirak ediblər.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən və imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödəyən abituriyentlər imtahanların nəticəsi elan olunduqdan sonra V qrup üzrə 2022-ci il mayın 11-dən 27-dək, I qrup üzrə iyulun 29-dan avqustun 3-dək, III qrup üzrə isə iyulun 21-dən 24-dək *eservices.dim.gov.az/erizebak/qabiliyyet* internet səhifəsinə daxil olub seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" **Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən** ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) cari ildə seçdikləri (qeydiyyatdan keçdikləri) **ilk komissiya** üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur. **Eyni sərəncamın 1.3-1.7-ci bəndlərinə əsasən** isə aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) cari ildə seçdikləri (qeydiyyatdan keçdikləri) **bütün komissiyalar** üzrə qabiliyyət imtahanlarında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir:

– *Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;*

- *şəhid ailəsinin üzvləri;*
- *valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;*
- *məcburi köçkün statusu olan şəxslər;*
- *I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.*

Qabiliyyət imtahanları DİM-in təşkil etdiyi xüsusi komissiyalar tərəfindən mərkəzləşdirilmiş qaydada aparılıb. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə yaranmış şərait nəzərə alınaraq DİM tərəfindən imtahanların təşkili zamanı Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələri nəzərə alınıb. Qabiliyyət imtahanları Bakı şəhərində ali təhsil müəssisələrinin təsviri sənət istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Bakı şəhəri 167 saylı tam orta məktəbdə, musiqi sənəti istiqamətli ixtisasları üzrə Bülbül adına orta ixtisas musiqi məktəbində, memarlıq ixtisası üzrə Azərbaycan Memarlıq və İnşaat Universitetində, teatr, kino və xoreoqrafiya sənəti istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Bakı Xoreoqrafiya Akademiyasında, ilahiyyat istiqamətli ixtisası üzrə Azərbaycan İlahiyyat İnstitutunda, bədən tərbiyəsi və idman istiqaməti üzrə imtahanlar Gənclər və İdman Nazirliyinin təklifi əsasında 5 zonada keçirilib. Bədən tərbiyəsi və idman istiqaməti üzrə qeydiyyatdan keçmiş cari ilin ümumi təhsil müəssisələrinin məzunları imtahanı bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhərin (rayonun) aid olduğu imtahan mərkəzində veriblər. Digər abituriyentlər isə imtahanı ərizələrində göstərdikləri faktiki yaşadıqları şəhərin (rayonun) aid olduğu imtahan mərkəzində veriblər. Təşkilati baxımdan edilmiş bu yenilik abituriyent məmnunluğuna səbəb olmuşdur. Qeyd edilən istiqamət üzrə imtahanların təşkili Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə birgə həyata keçirilib.

Qabiliyyət imtahanları ali təhsil müəssisələri üzrə Bakı şəhərindən əlavə, Naxçıvan, Gəncə, Tovuz, İsmayıllı, Xaçmaz və Lənkəran şəhərlərində təşkil edilib. Karantin rejiminin yaratdığı əlavə çətinliklər nəzərə alınaraq Naxçıvanda yaşayan abituriyentlərin (subbakalavrların) qabiliyyət imtahanları onlayn şəkildə keçirilib (bədən tərbiyəsi və idman istiqaməti istisna olmaqla) və onların qiymətləndirilməsi Bakıda təşkil edilmiş QİK-lər tərəfindən aparılıb. Ümumilikdə, 50 Qabiliyyət İmtahanı Komissiyası (QİK) təşkil edilib və onlardan 17-si onlayn fəaliyyət göstərib. Bədən tərbiyəsi və idman istiqamətinə aid bütün imtahanlar ənənəvi qaydada keçirilib.

Cari ildə təxminən 17 min abituriyent üçün xüsusi qabiliyyət imtahanları təşkil edilib. İmtahanlar 17 iyun 2022-ci il tarixindən 8 avqust 2022-ci il tarixinədək keçirilib.

Dövlət İmtahan Mərkəzi ilin əvvəlində qabiliyyət imtahanlarının keçirilməsi qaydaları, qəbul proqramları, imtahanlara hazırlığa dair metodiki tövsiyələr, qiymətləndirmə meyarları və digər materialları "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Xüsusi qabiliyyət imtahanları" jurnallarının müvafiq saylarında dərc edərək qabiliyyət imtahanlarına hazırlaşanların istifadəsinə verib.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının yekun nəticəsi ixtisasın xüsusiyyətindən asılı olaraq məqbul və ya balla qiymətləndirilib. Abituriyentin xüsusi qabiliyyət tələb edən ixtisasları seçmək və onların kodlarını ərizəsində qeyd etmək hüququ qazanması üçün onun qabiliyyət imtahanından yekun nəticəsi və test imtahanında topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olmalı idi. Abituriyentlərə öz ərizələrində xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilmişdi. Seçim imkanlarının bu şəkildə genişləndirilməsi, bir tərəfdən, xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbulda müsabiqə vəziyyətinin artmasına, digər tərəfdən isə müsabiqə zamanı seçimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir. Qeyd edək ki, I–IV qruplardan hər hansı birinə və yaxud ikisinə (o cümlədən III ixtisas qrupunun DT və TC altqruplarına) ərizə verən abituriyentə, eyni zamanda V qrupa da ərizə vermək və qoyulan tələbləri ödədiyi halda, bu qrup üzrə də müsabiqədə iştirak etmək imkanı yaradılmışdı.

Dövlət İmtahan Mərkəzi gənclərin xüsusi qabiliyyət tələb edən ixtisaslara meyil və marağını artırmaq, onların qəbula hazırlığına kömək məqsədilə əvvəlki illərdə olduğu kimi, bu il də xüsusi qabiliyyət tələb edən ixtisaslara dair metodiki materiallar hazırlayıb və müxtəlif maarifləndirici tədbirlər həyata keçirib. Qeyd olunanlarla yanaşı, 2015-ci ildən etibarən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə (I qrup "Memarlıq" və III qrup "İslamşünaslıq" və "Jurnalistika" ixtisasları istisna olmaqla) ayrıca bir qrup – V qrup yaradılmış, qəbul imtahanının struktur və məzmun tərkibi dəyişdirilmişdir. Nəticədə, ötən illərlə müqayisədə V qrup üzrə müsabiqə vəziyyəti dəfələrlə artmışdır. Qeyd edək ki, cari ilin məzunları V qrup üzrə müsabiqədə əlavə qəbul imtahanı vermədən, bilavasitə buraxılış imtahanlarının nəticələri əsasında iştirak ediblər. Bununla yanaşı, 2021-ci ildəki imtahanın nəticəsi 2022-ci ildə öz qüvvəsini saxlamış və 2021-ci ildə V qrup üzrə qəbul imtahanında iştirak edən, həmçinin tam orta təhsili 2021-ci ildə bitirərək buraxılış imtahanında iştirak edən abituriyentlər müsabiqə şərtlərini ödədikləri halda, həmin imtahanların nəticələri əsasında 2022-ci ildə V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək imkanı əldə etmişdir.

Cari ildə V ixtisas qrupunda qabiliyyət imtahanının verilməsi tələb olunan ixtisaslar üzrə ayrılan 3650 plan yerinə 5517 abituriyent (subbakalavr) iddia etmişdi. Qeyd edək ki, 2015-ci ildə bu ixtisaslara ayrılan 2355 plan yerinə 4293, 2016-cı ildə 2854 plan yerinə 3993, 2017-ci ildə 3067 plan yerinə 3939, 2018-ci ildə 3307 plan yerinə 3593, 2019-cu ildə 3462 plan yerinə 4971, 2020-ci ildə 1034 plan yerinə 1406, 2021-ci ildə isə 3615 plan yerinə 5207 nəfər iddia edirdi.

Bu il I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən "Memarlıq" ixtisası üzrə müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən az olmayan abituriyentlər buraxılmışdı. V qrupun xüsusi qabiliyyət tələb edən (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) "Rejissorluq" ixtisası üzrə müsabiqədə ümumi balı 100-dən, "Xoreoqrafiya sənəti (sahələr üzrə)" ixtisası üzrə ümumi balı 30-dan, digər ixtisaslar üzrə isə ümumi balı 60-dan az olmayan abituriyentlər iştirak etmişdir. Qeyd edək ki, bu ixtisaslara qəbul olan abituriyentlərin qəbul imtahanlarında topladıqları orta ballar (I qrupda "Memarlıq" istiqaməti üzrə 381.07, III qrupda "İlahiyyat" istiqaməti üzrə 214.37, "Jurnalistika" istiqaməti üzrə 377.38, V qrupda "Təsviri sənət" istiqaməti üzrə 133.02, "Musiqi sənəti" istiqaməti üzrə 112.07, "Teatr, kino və xoreoqrafiya" istiqaməti üzrə 93.62, "Bədən tərbiyəsi və idman" istiqaməti üzrə 116.58 bal) müsabiqə şərtlərindən xeyli yüksək olub.

2022/2023-cü tədris ili üçün V ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə, ümumilikdə, 4010 plan yeri ayrılmışdı (bundan əlavə, 83 yerə müsabiqədənkənar qəbul aparılıb). 10521 nəfər (10169 abituriyent və 352 subbakalavr) V qrupun ixtisasları üzrə müsabiqədə iştirak edib. Onlardan 5517-si qabiliyyət imtahanını müvəffəqiyyətlə verib. Bu il xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və bu ixtisaslar üzrə müsabiqədə iştirak etmiş abituriyentlərin və subbakalavrların sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 1.3

İSTİQAMƏTLƏR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN VƏ SUBBAKALAVRLARIN SAYI

İstiqamət	İxtisas qrupu	Qəbul planı	Müsabiqədə iştirak edən abituriyentlərin və subbakalavrların sayı
Memarlıq	I	155	225
İlahiyyat	III	36	38
Jurnalistika	III	260	494
Təsviri sənət	V	937	1195
Musiqi sənəti	V	667	625
Teatr, kino və xoreoqrafiya sənəti	V	214	206
Bədən tərbiyəsi və idman	V	1832	3492
Xüsusi qabiliyyət imtahanı tələb olunmayan ixtisaslar üzrə			
Təsviri sənət	V	360	6867

Müsabiqə zamanı abituriyentlərin seçdikləri ixtisaslar "Abituriyentin elektron ixtisas seçimi ərizəsi" formasında göstərilən ardıcıllıqla nəzərə alınmış və abituriyent topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilmişdir. Seçdiyi ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün abituriyentin topladığı ümumi balı ilə yanaşı, imtahanın ikinci mərhələsi üzrə yığdığı bala da tələblər (müsabiqə şərtləri) müəyyənləşdirilmişdir. Bu tələblər, bir qayda olaraq, qəbul imtahanlarının nəticələrinin elmi-statistik təhlili əsasında formalaşır. Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, I–IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin qəbul planında nəzərdə tutulmuş qəbul yerlərini həmin qruplarda nəticələri yüksək və orta bal diapazonunda yerləşən abituriyentlərin hesabına tam doldurmaq mümkün deyil. Odur ki, müsabiqə vəziyyətini yüksəltmək məqsədilə müsabiqədə iştirak etmək üçün fənlər üzrə nisbi bala heç bir məhdudiyyət tətbiq edilməmişdir.

Ümumilikdə, müsabiqəyə buraxılma şərtləri aşağıdakı şəkildə müəyyən olunmuşdur:

• **I qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb. I ixtisas qrupunun "Riyaziyyat", "Fizika" və "Kompüter elmləri" ixtisasları üzrə müsabiqədə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər iştirak edib.

Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

I ixtisas qrupunun “Meliorasiya mühəndisliyi”, “Texnologiya müəllimliyi” və “Ekologiya mühəndisliyi” ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

“Aqronomluq”, “Balıqçılıq”, “Meşəçilik”, “Şərabçılıq”, “Torpaqşünaslıq və aqrokimya”, “Yerquruluşu və daşınmaz əmlakın kadastrı” və “Zoomühəndislik” ixtisasları, həmçinin Azərbaycan Dövlət Aqrar Universitetinin “Aqromühəndislik” və “Meliorasiya mühəndisliyi”, Lənkəran Dövlət Universitetinin “Aqromühəndislik” ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

• **II qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıb.

II ixtisas qrupunun “Marketinq”, “Biznesin idarə edilməsi”, “Turizm bələdçiliyi” və “Turizm işinin təşkili” ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılıb.

• **III qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak ediblər.

Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti istisna olmaqla) “Tərcümə (dillər üzrə)”, “Filologiya (xarici dil və ədəbiyyatı üzrə)” və “Xarici dil müəllimliyi (dillər üzrə)” ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti istisna olmaqla) “Beynəlxalq münasibətlər” ixtisasının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

III ixtisas qrupunun “Muzey, arxiv işi və abidələrin qorunması”, “Sosial iş” və “Regionşünaslıq (regionlar üzrə)” ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak edib.

• **IV qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak edib.

IV ixtisas qrupunun “Ekologiya” ixtisası üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılıb.

“Bağçılıq və tərəvəzçilik”, “Baytarlıq təbabəti”, “Bitki mühafizəsi” və “Su bioehtiyatları və akvakultura” ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edib.

• **V qrup** üzrə ixtisas seçimində qabiliyyət imtahanı üzrə yekun nəticəsi və qəbul imtahanında topladığı ümumi balı cədvəl 1.4-də göstərilən şərtləri ödəyən abituriyentlər iştirak edib.

I, III və V qrupların qəbul planında qarşısında ulduz "*" (qabiliyyət imtahanının nəticəsi məqbulla qiymətləndirilən) və ya iki ulduz "**" (qabiliyyət imtahanının nəticəsi balla qiymətləndirilən) işarəsi olan ixtisasların müsabiqəsində qabiliyyət imtahanından yekun nəticəsi və qəbul imtahanından topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olan abituriyentlər iştirak edib. Onlara həmin qruplar daxilində digər ixtisasları da seçmək imkanı verilib.

Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı, qabiliyyət imtahanlarının nəticələri məqbulla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qəbul (cari ilin məzunları üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılıb. Qabiliyyət imtahanı komissiyaları üzrə müsabiqə şərtləri 1.4 saylı cədvəldə təqdim edilir:

Cədvəl 1.4

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri

İxtisasın adı	**Minimal bal**	**II mərhələ üzrə minimal bal**	**Qabiliyyət imtahanının yekun nəticəsi**
I ixtisas qrupu			
Memarlıq	200	-	məqbul
III ixtisas qrupu *(DT altqrupu)*			
Jurnalistika	200	100	məqbul
V ixtisas qrupu			
Məşqçilik Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi Musiqi müəllimliyi Təsviri incəsənət müəllimliyi	60	-	məqbul
Rejissorluq	100	-	6(bal)
Dekorativ-tətbiqi sənət (sahələr üzrə) Dizayn (sahələr üzrə) İnstrumental ifaçılıq (sahələr üzrə) Vokal sənəti (sahələr üzrə) Dirijorluq (sahələr üzrə) Bəstəkarlıq Musiqişünaslıq Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə) Aktyor sənəti Operator sənəti Rəngkarlıq Qrafika Heykəltəraşlıq	60	-	6(bal)
Xoreoqrafiya sənəti (sahələr üzrə)	30	-	6(bal)

QEYD: I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən ixtisaslarının müsabiqəsi zamanı test imtahanı üzrə ümumi balları eyni olan abituriyentlərin qabiliyyət imtahanı üzrə yekun balları da nəzərə alınıb.

Abituriyentlər qəbul qaydalarına əsasən imtahan verdikləri ixtisas qrupuna (qruplarına) aid 15-dək ixtisas kodunu seçə bilərdilər. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər avqustun 16-dan 28-dək internet vasitəsilə ixtisas seçimi etmişdir.

Orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslərə (subbakalavrlara) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququ verilmişdir. Tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu 2022-ci il mayın 12-dən iyulun 1-dək internet vasitəsilə aparılmışdır. Ərizə qəbulu ilə bağlı ətraflı məlumat "Abituriyent" jurnalının 2022-ci il 2-ci sayında təqdim olunmuşdur.

Subbakalavrlar ixtisas seçimində iştirak etmək üçün qəbul olmaq istədikləri ixtisasların kodlarını avqustun 16-dan 28-dək "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etmişdir. Onlar yalnız orta ixtisas təhsili pilləsində və ya yüksək texniki peşə təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçmək imkanına malik olmuşdur. Qəbul aparılan ixtisasların uyğunluğu Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla, Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuşdur. Dövlət hesabına ali təhsil almış şəxslərə yalnız ödənişli əsaslarla ayrılmış yerləri seçmək hüququ verilmişdir. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları, eləcə də "ADA" Universitetinin və Bakı Ali Neft Məktəbinin ixtisaslarını seçə bilməyiblər. Xüsusi qabiliyyət tələb edən ixtisasları isə yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müvafiq müsabiqə şərtlərini ödəyən subbakalavrlar seçə bilmişdir.

İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində (V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar istisna olmaqla) əvvəlcə abituriyentlərin, bundan sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılmışdır. V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar üzrə müsabiqə isə abituriyentlər və subbakalavrlar arasında eyni vaxtda keçirilmişdir. Eyni yerə iddia edən abituriyent və subbakalavrın qabiliyyət imtahanı üzrə yekun balı bərabər olan hallarda üstünlük abituriyentə verilmişdir. Cari ildə qəbul imtahanında iştirak etmiş subbakalavrlar isə öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları ballarla ümumi qaydada (abituriyent kimi), həm də subbakalavr kimi qəbul imtahanında iştirak etmədən orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsində bitirdikləri ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak ediblər.

Beynəlxalq səviyyədə akkreditasiya olunan "Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme)", "Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education)" və "Yüksək yerləşdirmə (Advanced Placement)" təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq imkanına malik olub. Bu imkandan yalnız "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na əsasən Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan verərək "məqbul" qiymət alan abituriyentlər istifadə edə bilib. Bu kateqoriyadan olan abituriyentlərə yalnız yuxarıda qeyd olunan təhsil proqramları üzrə təhsil aldıqları dildə tədris olunan ixtisasları seçmək imkanı verilib.

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul üçün minimal bal (və ya qiymət) tələbləri təhsil proqramları üzrə aşağıdakı cədvəldə təqdim olunub:

Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu üçün minimal tələblər

	Proqramlar	Müsabiqədənkənar qəbul üçün minimal tələblər	
		Ödənişli əsaslarla qəbul üçün	Dövlət sifarişi əsasında qəbul üçün
1.	Beynəlxalq Bakalavriat Diplom Proqramı	**25** ("Hüquqşünaslıq" və "Tibb" ixtisasları üzrə - **30**)	**35**
2.	Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni üzrə)	**C**	**B**
3.	Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni üzrə)	**3**	**4**

Qeyd: "Müvafiq üç imtahan fənni" dedikdə **I ixtisas qrupu** üzrə riyaziyyat, fizika və kimya fənləri, **II ixtisas qrupu** üzrə riyaziyyat, coğrafiya və tarix fənləri, **III ixtisas qrupu (DT altqrupu)** üzrə Azərbaycan dili və ya rus dili, tarix və ədəbiyyat fənləri, **III ixtisas qrupu (TC altqrupu)** üzrə Azərbaycan dili və ya rus dili, tarix və coğrafiya fənləri, **IV ixtisas qrupu** üzrə isə biologiya, kimya və fizika fənləri nəzərdə tutulur.

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu aşağıdakı qaydada aparılıb:

1. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq hüququna malikdirlər.

2. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- Beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;
- IX-XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yer tutmuş şəxslər;
- Beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.

3. Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibinin isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ vardır. "Müsabiqədənkənar qəbulun aparıldığı ixtisaslar", "Beynəlxalq fənn olimpiadalarının siyahısı", "Respublika fənn olimpiadalarının siyahısı" və "Beynəlxalq müsabiqələrin və yarışların siyahısı" Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarında əks olunmuşdur (**http://www.e-qanun.az/framework/42536**).

4. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müsabiqədənkənar qəbulu üçün sənədlərin qəbulu və ixtisas seçimi DİM tərəfindən müəyyən olunan müddətdə və qaydada aparılmışdır.

Ali təhsil müəssisələrinə bu il 51826 plan yeri ayrılıb.

Qəbul planı ötən illə müqayisədə 3.68 faiz artırılıb.

2022/2023-cü tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə qəbul üçün 51826 yer ayrılıb. Bunlardan 534 yer qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər (187 yer "ADA" Universitetinə SAT balına əsasən, 190 yer "ADA" Universitetinə "ADA" məktəbinin məzunu kimi qəbul olunanlar) tərəfindən tutulub. Qalan yerlərdən 37791-i Azərbaycan bölməsi, 3284-ü rus bölməsi, 10217-si isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulub. Ümumilikdə, qəbul planındakı 43409 yer (534 yer müsabiqədənkənar) dövlət, 8417 yer isə özəl ali təhsil müəssisələrinin payına düşürdü.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında qəbul üçün 23192 yer nəzərdə tutulmuşdu. Bunlardan 120 yer qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər tərəfindən tutulmuşdur.

1.1 və 1.2 saylı şəkillərdəki diaqramlarda qəbul planında müsabiqə əsasında qəbul üçün ayrılmış yerlərin paylanması təsvir olunub:

QƏBUL PLANI



Şəkil 1.1



Şəkil 1.2

Müsabiqədənkənar qəbulu nəzərə almasaq, ötən illə müqayisədə bu il dövlət ali təhsil müəssisələrinin qəbul planında 2.90% (1209 yer), özəl ali təhsil müəssisələrinin qəbul planında isə 6.18% (490 yer), ümumilikdə isə 1699 yer (3.43%) artım müşahidə edilmişdir. Müsabiqədənkənar qəbul ötən illə müqayisədə 139 yer, bütövlükdə qəbul planı isə 3.68% (1838 yer) artmışdır.

Plan yerlərinin dövlət sifarişi və ödənişli əsaslarla təhsil üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2022-ci ildə Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün ayrılan yerlər 0.61% azalmışdır. Qeyd etmək lazımdır ki, cari ildə hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlər ümumi plan yerlərinin cəmi 19.71%-ni təşkil etmişdir. Bu göstərici 2021-ci ildə 20.56%, 2020-ci ildə 23.27%, 2019-cu ildə 21.25%, 2018-ci ildə 21.44%, 2017-ci ildə 14.80%, 2016-cı ildə 18.73%, 2015-ci ildə 13.95%, 2014-cü ildə 13.87% olduğu halda, 2013-cü ildə 56.18% olmuşdu. 2013-cü illə müqayisədə son doqquz ildə həyata keçirilən bu cür dəyişiklik arzuolunmaz haldır. Çünki bəzən Azərbaycan və rus bölmələrinin abituriyentləri eyni test tapşırıqlarına cavab verdikləri halda, plan yerlərinin ciddi bölgüsü və müsabiqə vəziyyətinin fərqli olması nəticəsində bu bölmələrin eyni ixtisasları üzrə tam fərqli keçid balları yaranır. Plan yerləri birgə müsabiqə üçün ayrıldıqda isə həmin yerlərə bölməsindən asılı olmayaraq daha hazırlıqlı gənclər qəbul olunur.

2022-ci ildə 11-ci sinif məzunlarının sayı 90697 nəfər, hər 100 məzuna düşən plan yerlərinin sayı 57.1 olub. 2021-ci ildə bu göstərici 60.1, 2020-ci ildə 61.2, 2019-cu ildə 59.9, 2018-ci ildə isə 54.7 olub. Ötən illə müqayisədə hər 100 məzuna düşən plan yerlərinin azalması məzunların sayının (83157 nəfərdən 90697 nəfərə) plan yerlərinin sayına (49988 yerdən 51826 yerə) nisbətən daha çox artmasıdır. Dövlət sifarişi üzrə bu göstəriciyə nəzər salsaq, görərik ki, 2022-ci ildə hər 100 məzuna düşən yerlərin sayı 25.6, 2021-ci ildə 27.1, 2020-ci ildə 26.9, 2019-cu ildə 24.8, 2018-ci ildə isə 14.4 olub. 2019-cu ildə 2018-ci illə müqayisədə bu dərəcədə kəskin artımın səbəbi dövlət sifarişi üzrə ayrılan yerlərin kəskin artması (birdən-birə 11871 yerdən 19842 yerə) ilə əlaqədardır.

Bu il ali təhsil müəssisələrinə müsabiqədə iştirak etmək hüququ qazananların 90.42%-i Azərbaycan, 9.58%-i isə rus bölməsinin abituriyentləri idi. Qeyd edək ki, hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin hesabına Azərbaycan bölməsinin abituriyentləri qəbul planının minimum 73.68, maksimum 93.60%-ni, rus bölməsinin abituriyentləri isə minimum 6.40, maksimum 26.32%-ni tuta bilərdilər.

İxtisas qrupları (o cümlədən III ixtisas qrupunun DT və TC altqrupları), ali təhsil müəssisələri, dövlət sifarişi və ödənişli əsaslarla təhsil və bölmələr üzrə plan yerlərinin sayı haqqında tam məlumat 1.5 –1.7 saylı cədvəllərdə təqdim olunur.

Cədvəl 1.5

2022/2023-CÜ TƏDRİS İLİ ÜÇÜN RESPUBLİKANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU PLANI

İxtisas qrupu	QƏBUL PLANI													
	Müsabiqə əsasında qəbul												Müsabiqədənkənar qəbul	Ümumi
	Azərbaycan bölməsi üçün			Rus bölməsi üçün			Hər iki bölmənin birgə müsabiqəsi üçün			CƏMİ				
	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi		
I	11747	525	12272	935	0	935	2553	510	3063	15235	1035	16270	149	16419
II	7254	2160	9414	595	0	595	1028	1040	2068	8877	3200	12077	130	12207
III	9424	2182	11606	1270	0	1270	688	1395	2083	11382	3577	14959	168	15127
III (DT)	8559	1882	10441	1045	0	1045	612	1275	1887	10216	3157	13373	109	13482
III (TC)	865	300	1165	225	0	225	76	120	196	1166	420	1586	59	1645
IV	3069	100	3169	300	0	300	152	355	507	3521	455	3976	4	3980
V	1330	0	1330	184	0	184	2346	150	2496	3860	150	4010	83	4093
CƏMİ	**32824**	**4967**	**37791**	**3284**	**0**	**3284**	**6767**	**3450**	**10217**	**42875**	**8417**	**51292**	**534**	**51826**

Cədvəl 1.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA TƏLƏBƏ QƏBULUNUN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ

İxtisas qrupu	Qəbul planı (ümumi)	Dövlət sifarişi			
		Müsabiqə əsasında qəbul	Müsabiqədən-kənar qəbul	Ümumi	
				Sayı	faizi
I	16419	10464*	23	10487	45.22
II	12207	4031	1	4032	17.39
III	15127	4561	11	4572	19.71
III (DT)	13482	4281	11	4292	18.51
III (TC)	1645	280	0	280	1.21
IV	3980	2525**	2	2527	10.90
V	4093	1491	83	1574	6.79
CƏMİ	**51826**	**23072**	**120**	**23192**	**100.00**

Cədvəl 1.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyent-ləri üçün	Rus bölmə-sinin abituri-yentləri üçün	Hər iki böl-mənin abitu-riyentlərinin birgə müsa-biqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	4952	790	455	6197
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	2489	215	710	3414
3	Azərbaycan Texniki Universiteti	2055	195	105	2355
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	1559	130	585	2274
5	Azərbaycan Tibb Universiteti	730	95	12	837
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3494	200	50	3744
7	Azərbaycan Dövlət İqtisad Universiteti	3129	510	200	3839
8	Azərbaycan Dillər Universiteti	1345	345	95	1785
9	Bakı Slavyan Universiteti	880	285	0	1165
10	Bakı Mühəndislik Universiteti	680	0	220	900
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	256	185	0	441
12	"ADA" Universiteti	0	0	348	348
13	Bakı Musiqi Akademiyası	30	0	120	150
14	Azərbaycan Milli Konservatoriyası	55	0	153	208
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	200	10	426	636
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	60	0	240	300
17	Azərbaycan Turizm və Menecment Universiteti	450	25	25	500

* Əlavə olaraq maksimum 315 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

** Əlavə olaraq maksimum 105 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Cədvəl 1.7 (ardı)

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Cəmi
18	Bakı Xoreoqrafiya Akademiyası	85	34	0	119
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	0	0	1672	1672
20	Milli Aviasiya Akademiyası	210	75	256	541
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	155	15	30	200
22	Bakı Ali Neft Məktəbi	0	0	260	260
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	100	0	40	140
24	Naxçıvan Dövlət Universiteti	1365	0	25	1390
25	Naxçıvan Müəllimlər İnstitutu	430	0	0	430
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	1480	150	90	1720
27	Gəncə Dövlət Universiteti	1661	15	30	1706
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	375	10	620	1005
29	Sumqayıt Dövlət Universiteti	1489	0	0	1489
30	Mingəçevir Dövlət Universiteti	1310	0	0	1310
31	Lənkəran Dövlət Universiteti	1800	0	0	1800
32	Azərbaycan Kooperasiya Universiteti	880	0	320	1200
33	Azərbaycan İlahiyyat İnstitutu	72	0	0	72
34	"Azərbaycan" Universiteti	825	0	50	875
35	Qərbi Kaspi Universiteti	0	0	1105	1105
36	Xəzər Universiteti	0	0	1070	1070
37	Bakı Avrasiya Universiteti	960	0	0	960
38	Bakı Qızlar Universiteti	440	0	0	440
39	"Odlar Yurdu" Universiteti	205	0	795	1000
40	Bakı Biznes Universiteti	910	0	15	925
41	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	450	0	15	465
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	225	0	80	305
	CƏMİ	**37791**	**3284**	**10217**	**51292**

İxtisaslar üzrə ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulunun proqnozu 1.1.5 saylı cədvəldə təqdim olunub (bax: səh. 212-228).

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün
91532 nəfər abituriyent ərizə vermişdi.
Ərizələrin sayı ötən ildəki ilə müqayisədə 16.42% çoxdur.

Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 91532 abituriyent ərizə vermişdi. Onların 2229-u orta ixtisas, 178-i ali (2-ci ixtisas kimi), qalanları isə tam orta təhsillidir. Sənəd verənlərin sayı ötən ildəkindən 12910 nəfər çox idi.

Yalnız orta ixtisas təhsili müəssisələrinə (tam orta təhsil bazasında) sənəd verənləri də (7557 nəfər) nəzərə alsaq, o zaman ərizə verənlərin sayı bütövlükdə 99089-a bərabər olacaq (1.3 saylı şəklə bax).

Qeyd edək ki, abituriyentlərə, eyni zamanda həm I–IV qruplardan hər hansı birinin və yaxud ikisinin (o cümlədən III qrupun DT və TC altqruplarının) ixtisasları üzrə, həm də V qrupun ixtisasları (xüsusi qabiliyyət tələb edən musiqi, incəsənət və idman ixtisasları) üzrə müsabiqədə iştirak etmək imkanı yaradılmış, 61823 abituriyent (62.39%) bu imkandan yararlanmışdır. Ümumiyyətlə, 12314 abituriyent (12.43%) yalnız I-IV qruplara, 10287 abituriyent (10.38%) yalnız V qrupa və 7108 abituriyent (7.17%) həm orta ixtisas təhsili müəssisələrinə, həm də I–IV qruplara daxil olan ixtisaslara qəbul olmaq üçün ərizə verib. I–IV qruplar üzrə ərizə verən abituriyentlərdən 1170-i (1.44%) iki ixtisas qrupunu seçmişdir.

Ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin 51.53%-ni (47168 nəfər) oğlanlar, 48.47%-ni (44364 nəfər) isə qızlar təşkil edib.

QRUPLAR ÜZRƏ ƏRİZƏLƏRİN PAYLANMASI



Şəkil 1.3

Bölmələr üzrə ayrı-ayrılıqda ali təhsil müəssisələrinə ərizə verən abituriyentlərin cinsi tərkibinə nəzər saldıqda mənzərənin bir qədər fərqli olduğunu müşahidə edirik. Belə ki, Azərbaycan bölməsində oğlanlar (51.68%) sayca üstünlük təşkil edib, rus bölməsində isə oğlanlarla (49.97%) qızların (50.03%) nisbi sayı, demək olar ki, bərabər olub.

Müasir informasiya texnologiyalarının tətbiqi sayəsində Dövlət İmtahan Mərkəzində gənclər haqqında çoxşaxəli informasiya bazası formalaşdırılmışdır. DİM hər il qəbul imtahanlarının nəticələri əsasında "Qəbul imtahanlarının nəticələrinin gender aspektləri", "Neft-qaz profilli ixtisaslar statistikada" və "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" adlı təhlili materiallar da hazırlayaraq "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc edir.

Cari ildə 19967 subbakalavr qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq üçün ərizə vermişdir.

Qeyd edək ki, qəbul kampaniyasında iştirak etmiş subbakalavrlara öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları bal ilə ümumi qaydada, həm də qəbul imtahanlarında iştirak etmədən orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsində bitirdikləri ixtisaslara uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə (subbakalavr kimi) iştirak etmək imkanı verilmişdir. Ərizə verən subbakalavrlardan 14918-i (74.71%) ixtisas seçimində yalnız subbakalavr kimi, 409-u (2.05%) yalnız abituriyent kimi, 437-si (2.19%) isə həm abituriyent, həm də subbakalavr kimi iştirak etmişdir. 4203 (21.05%) subbakalavr isə ixtisas seçimində iştirak etməmişdir.

ƏRİZƏ VERƏN SUBBAKALAVRLARIN PAYLANMASI



Şəkil 1.4

2022-ci ildə ümumtəhsil müəssisələrinin 90697 məzunu olmuşdur.
Ötən illə müqayisədə məzunların sayı 7540 nəfər artmışdır.

Son iki ildə məzunların sayında artım müşahidə olunmuş, 2020-ci illə müqayisədə məzunların sayı 13.60% artmışdır. Son illər sənəd verənlərin say tərkibində cari ilin məzunlarının payı da artmışdır. Bu il isə sənəd verənlər arasında cari ilin məzunlarının payı ötən ilə nisbətən təxminən 1.4% artmışdır. Eyni zamanda onların mütləq sayında da artım müşahidə olunmuşdur. Belə ki, builki məzunlar cari ildə sənəd verənlərin 84.14%-ni (74993 nəfər) təşkil etmiş və ötən illə müqayisədə ərizə verən cari ilin məzunlarının sayı 12011 nəfər artmışdır. Müqayisə üçün bildirək ki, 2010-cu ildə ali təhsil müəssisələrinə sənəd verənlər arasında həmin ilin məzunlarının payı 55.63%, 2011-ci ildə 58.39%, 2012-ci ildə 58.84%, 2013-cü ildə 60.66%, 2014-cü ildə 64.05%, 2015-ci ildə 66.04%, 2016-cı ildə 68.31%, 2017-ci ildə 75.83%, 2018-ci ildə 77.86%, 2019-cu ildə 87.54%, 2020-ci ildə 80.52% və 2021-ci ildə 82.76% olmuşdu. Göründüyü kimi, 2010-cu ildən etibarən sənəd verənlərin arasında əvvəlki illərin məzunlarının payı əsasən getdikcə azalmış, cari illərin məzunlarının payı isə artmışdır. Bunun əsas səbəbi hər il ali təhsil müəssisələrinə qəbul üçün ayrılan plan yerlərinin ciddi şəkildə artırılması və nəticədə qəbul olanların sayı artdıqca, növbəti il üçün əvvəlki illərin məzunları arasında qalığın, yəni qəbul olmayanların azalmasıdır.

Sənəd verənlərin ümumtəhsil məktəbini bitirmə illəri üzrə tərkibi aşağıdakı cədvəl və diaqramda təqdim olunur.

Cədvəl 1.8

Ümumtəhsil məktəbini bitirdiyi il	Abituriyentlərin sayı	Abituriyentlərin sayı ümumi saya nisbətən, %-lə
2013-cü və ondan əvvəlki illər	2603	2.92
2014	362	0.41
2015	381	0.43
2016	398	0.45
2017	451	0.51
2018	604	0.68
2019	775	0.87
2020	1191	1.34
2021	7367	8.27
2022	74993	84.14



Şəkil 1.5

Ali təhsil müəssisələrinə qəbul üçün ayrılmış yerlərin 31.72%-i I qrupun, 23.55%-i II qrupun, 29.16%-i III qrupun (o cümlədən 26.07%-i DT altqrupunun və 3.09%-i TC altqrpunun), 7.75%-i IV qrupun, 7.82%-i isə V qrupun payına düşür. Ötən illə müqayisədə plan yerləri II qrupda 10.58% azalmış, I, III, IV və V qruplarda isə müvafiq olaraq 4.60, 17.28, 0.33 və 5.11% artmışdır (bax: səh. 24, cədvəl 1.10).

I ixtisas qrupu üzrə ən çox plan yeri "İnformasiya texnologiyaları" (1272 yer), "Kompüter mühəndisliyi" (992 yer) və "Kompüter elmləri" (707 yer) ixtisaslarına, II ixtisas qrupu üzrə "İqtisadiyyat" (1928 yer), "Biznesin idarə edilməsi" (1527 yer) və "Maliyyə" (1371 yer) ixtisaslarına, III ixtisas qrupu üzrə "Xarici dil müəllimliyi (ingilis dili)" (1360 yer), "İbtidai sinif müəllimliyi" (1260 yer) və "Sosial iş" (1225 yer) ixtisaslarına, IV ixtisas qrupu üzrə "Tibb" (587 yer), "Ekologiya" (585 yer) və "Psixologiya" (335 yer) ixtisaslarına, V ixtisas qrupu üzrə "Məşqçilik" (1335 yer), "Dizayn" (735 yer) və "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" (497 yer) ixtisaslarına ayrılmışdır.

İxtisas qrupları üzrə qəbul planları və abituriyent ərizələrinin paylanması 1.9 saylı cədvəldə təqdim edilir. Abituriyentlərin istəklərinin qruplar üzrə paylanmasına diqqət yetirək. Bu il abituriyentlərin 37.02%-i (33884 nəfər) I qrupa, 23.18%-i (21215 nəfər) II qrupa, 23.93%-i (21904 nəfər) III qrupa, 5.91%-i (5412 nəfər) IV qrupa, 78.78%-i isə (72110 nəfər) V qrupa, bunlardan isə 1170 abituriyent I-IV qruplardan hər hansı ikisinə (iki müxtəlif qrupa), 61823 abituriyent V qrupla yanaşı, digər qruplardan birinə də ərizə vermişdi. III qrupa ərizə verən abituriyentlərin 79.81%-i (17481 nəfər) yalnız DT altqrupunu, 0.80%-i (175 nəfər) yalnız TC altqrupunu, 19.39%-i (4248 nəfər) isə DT və TC altqruplarının hər ikisini seçmişdir.

Cədvəl 1.9

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İXTİSAS QRUPU	Qəbul planı				Ərizələrin sayı		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Ümumi	Azərb. bölməsi	Rus bölməsi	Ümumi
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	12272	935	3063	16270	31105	2779	33884
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	9414	595	2068	12077	19405	1810	21215
III	Humanitar, pedaqogika ixtisasları	11606	1270	2083	14959	19875	2029	21904
III	DT alqrupu	10441	1045	1887	13373	19747	1982	21729
III	TC altqrupu	1165	225	196	1586	3829	594	4423
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3169	300	507	3976	4657	755	5412
V	İncəsənət, musiqi, idman ixtisasları	1330	184	2496	4010	66739	5371	72110
CƏMİ		**37791**	**3284**	**10217**	**51292**	**83539**	**7993**	**91532**

Qəbul planının və abituriyent ərizələrinin son iki il üzrə müqayisəli təhlili (bax: cədvəl 1.10) göstərir ki, bu il ali təhsil müəssisələrinə qəbul planının 3.43% artmasına baxmayaraq, ərizələrin sayının 16.42% artması müsabiqə vəziyyətinin 12.62% artmasına səbəb olmuşdur. Müsabiqə vəziyyəti III ixtisas qrupunda azalmış, I, II, IV və V ixtisas qruplarında isə artmışdır.

Cədvəl 1.10

2021 VƏ 2022-Cİ İLLƏR ÜZRƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ

İxtisas qrupu	Qəbul planı (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2021	2022	fərq, %-lə	2021	2022	fərq, %-lə	2021	2022	fərq, %-lə
I	15554	16270	+4.60	28605	33884	+18.45	1.839	2.083	+13.27
II	13506	12077	-10.58	16758	21215	+26.60	1.241	1.757	+41.58
III	12755	14959	+17.28	21035	21904	+4.13	1.649	1.464	-11.22
IV	3963	3976	+0.33	5005	5412	+8.13	1.263	1.361	+7.76
V	3815	4010	+5.11	55985	72110	+28.80	14.675	17.983	+22.54
CƏMİ	**49593**	**51292**	**+3.43**	**78622**	**91532**	**+16.42**	**1.585**	**1.785**	**+12.62**

("-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir)

Cari ildə ən yüksək müsabiqə vəziyyəti V ixtisas qrupunda (17.98) olub. Müsabiqə vəziyyətinə görə ikinci yer I ixtisas qrupuna (2.08), sonrakı yerlər isə II (1.76), III (1.46) və IV ixtisas qruplarına (1.36) aid olmuşdur.

Ötən ilə nəzərən III ixtisas qrupunda plan yerlərinin artımı (17.28%) ərizələrin artımından (4.13%) çox olduğundan müsabiqə vəziyyəti zəifləyib. Lakin nəzərə almaq lazımdır ki, cari ildə "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisasları II qrupdan III qrupa keçirilib və ayrıca altqrupa (TC) daxil edilib. Müqayisəni bu cür aparanda, yəni qeyd olunan ixtisaslar üzrə ayrılan yerləri 2021-ci ildə III qrupa daxil edəndə, əslində, bu qrupda müsabiqə vəziyyətinin (bu halda 2021-ci ildə müsabiqə vəziyyəti 1.491-ə bərabər olur), demək olar ki, ötən illə müqayisədə dəyişmədiyini görürük.

V ixtisas qrupuna daxil olan ixtisaslar üzrə müsabiqə vəziyyətinin yüksək olması, əsasən, I–IV qruplardan hər hansı birinə və yaxud ikisinə ərizə verən abituriyentlərə həm də V qrupa ərizə vermək imkanının yaradılması ilə bağlıdır. Nəzərinizə çatdırırıq ki, abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün öncə V qrupa ərizə verməli və qabiliyyət imtahanı vermək üçün müvafiq komissiyalar üzrə qeydiyyatdan keçməlidirlər. Bu cür ərizə verən abituriyentlərin sayı çox olsa da, qabiliyyət imtahanı vermək üçün qeydiyyatdan keçən və imtahanda iştirak edən abituriyentlərin sayı ərizə verənlərdən az olub.

Bildiyimiz kimi, cari ildə subbakalavrlara qəbul imtahanında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak imkanı yaradılmışdır. Nəticədə, 14888 subbakalavr bu imkandan yararlanmış, onların 34.67%-i I, 35.54%-i II, 18.71%-i III, 12.28%-i IV və 1.91%-i V qrupa ərizə vermişdir. Subbakalavrlar diplomlarındakı ixtisaslara uyğun olaraq bir neçə ixtisas qrupu üzrə müsabiqədə iştirak edə bilərdilər və bəzi subbakalavrlar da bu imkandan yararlanmışdır.

İxtisas qrupları üzrə qəbul planı ilə ərizələrin sayı arasında qeyri-tarazlıq vardır.

I və V qruplarda ərizələrin, III qrupda isə plan yerlərinin nisbi çəkisi böyükdür.

2022-ci il üçün ali təhsil müəssisələrinin qəbul planının, abituriyent və subbakalavr ərizələrinin qruplar üzrə paylanması 1.6 saylı şəkildə əksini tapıb. Təhlil göstərir ki, ixtisas qrupları üzrə qəbul planı və ərizələrin nisbi çəkiləri arasında qeyri-tarazlıq vardır. Bu halın əyani şəkildə nümayiş etdirilməsi üçün ali təhsil müəssisələrinin qəbul planının və abituriyentlərlə subbakalavrların ərizələrinin nisbi saylarının ixtisas qrupları üzrə paylanmasına 1.7 saylı şəkildə diqqət yetirək. Göründüyü kimi, ümumi qəbul planının III ixtisas qrupu üçün ayrılmış hissələri ərizələrin müvafiq ixtisas qruplarına düşən hissələrindən böyük, I və V ixtisas qruplarında, əksinə, kiçik, II və IV ixtisas qruplarında isə, demək olar ki, eynidir. III qrupda plan yerlərinin çox, ərizələrin sayının nisbətən az olması müsabiqə vəziyyətinə də mənfi təsir göstərib. Nəticədə, hazırlıq səviyyəsi o qədər də yüksək olmayanlar ali təhsil almaq imkanı əldə ediblər. Bu baxımdan, gələcəkdə ali təhsil müəssisələrinə plan yerləri ayrılarkən mövcud reallıqlar nəzərə alınmalı, qəbul planında kəskin sıçrayışlar edilməməli, perspektivlər müəyyən olunmalı, bir sözlə, uğurlu qəbul planı siyasəti aparılmalıdır.

2022-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ SAYI
(abituriyentlər və subbakalavrlar)



Şəkil 1.6

2022-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ NİSBİ SAYI (%-lə)
(abituriyentlər və subbakalavrlar)



Şəkil 1.7

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planları arasındakı fərqi göstərən diaqram 1.8 saylı şəkildə təqdim edilib. Diaqramdan göründüyü kimi, özəl ali təhsil müəssisələri əsasən humanitar və iqtisadiyyat ixtisasları üzrə mütəxəssis hazırlığı həyata keçirir. Abituriyentlər özəl ali təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı mövqelərdə göstərdiklərindən bu təhsil müəssisələrinin çoxunda müsabiqə vəziyyəti aşağı olur. Onlar ərizələrinin ilk mövqelərində əsasən dövlət ali təhsil müəssisələrinin ixtisaslarını kodlaşdırırlar. 2022-ci ildə sənəd verən abituriyentlər arasında özəl ali təhsil müəssisələrinin ixtisas kodlarını ərizələrində birinci yerdə göstərənlər cəmi 7.82%, subbakalavrlar arasında isə cəmi 10.78% olub. 2000-ci illərin birinci yarısında bu göstərici 0.67% olmuşdu. İyirmi ilə yaxın vaxt keçməsinə baxmayaraq, bu sahədə irəliləyiş çox cüzidir. Bu baxımdan, hazırda da özəl ali təhsil müəssisələrinə qəbul olanlar əsasən dövlət ali təhsil müəssisələrinə qəbul ola bilməyənlərdir ki, onların da böyük əksəriyyətinin biliyi kafidən yuxarı deyildir. 2010-cu ilə qədər yalnız ödənişli əsaslarla təhsil verdiyi üçün özəl ali təhsil müəssisələrinə əsasən bu cür abituriyentlərin qəbul olması həmin müəssisələrin dövlət ali təhsil müəssisələri ilə rəqabət aparmaq imkanlarını məhdudlaşdırırdı. Bu gün özəl ali təhsil müəssisələri dövlət ali təhsil müəssisələri ilə dövlət sifarişi əsasında qəbul aparılan yerləri tutmaq üçün rəqabət aparmaq, ümumiyyətlə, daha bilikli gəncləri özlərinə cəlb etmək imkanına malikdirlər. Bunun üçün isə onlar həm təhsilin səviyyəsini qaldırmalı, həm də yüksək intellektli tələbələrə təhsil haqqının məbləğində əhəmiyyətli güzəştlər etməlidirlər. Təəssüf ki, bir çox özəl ali təhsil müəssisələri bu məsələdə o qədər də maraqlı deyil. Ümumiyyətlə, ayrı-ayrı ali təhsil müəssisələrinə qəbul olan gənclərin bilik səviyyələri bir-birindən ciddi şəkildə fərqlənir (bax: səh. 463, cədvəl 6.9). Hesab edirik ki, bu amil mütləq birinci kursların tədris planlarında nəzərə alınmalıdır.

2022-Cİ İLDƏ DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI



Şəkil 1.8

Adətən abituriyent ali təhsil ocağını seçməzdən əvvəl valideynləri, dostları, tanışları ilə məsləhətləşir, maraq göstərdiyi ixtisasların hansı təhsil müəssisələrində olması, həmin təhsil müəssisələrində təhsilin səviyyəsi, biliyin qiymətləndirilməsi meyarları, ali təhsil müəssisəsini bitirdikdən sonra iş yeri tapmaq imkanları, gələcək diplomunun ölkə daxilində və xaricdə tanınması ilə maraqlanır. Bütün bunları nəzərə alaraq, abituriyent meyil göstərdiyi ixtisasların aid olduğu ali təhsil müəssisələri arasında seçim aparır və üstünlük verdiyi ali təhsil müəssisəsinin (müəssisələrinin) ixtisaslarını ərizəsində müxtəlif mövqelərdə qeyd edir.

Müəyyən bir ixtisasın və həmin ixtisasın tədris olunduğu təhsil müəssisəsinin nüfuzundan asılı olaraq ixtisaslar üzrə müsabiqə vəziyyəti fərqli olur. Bildiyimiz kimi, son illərdə abituriyentlər topladıqları balları öyrəndikdən sonra ixtisas seçirlər, beləliklə də böyük nüfuza malik olan ixtisasları öz ərizələrində yalnız yüksək bal toplamış abituriyentlər qeyd edirlər. Nəticədə, bu cür ixtisaslar üzrə müsabiqə vəziyyəti yüksək olduğu üçün keçid balları və orta ballar da yüksək olur.

Cədvəl 1.11-də ayrı-ayrı ali təhsil müəssisələrinin ixtisaslarına qəbul olan abituriyentlərin qruplar üzrə orta bal göstəriciləri təqdim edilir. I ixtisas qrupu üzrə Bakı Ali Neft Məktəbi (651.500), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (605.295), "ADA" Universiteti (594.426), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (586.576), II ixtisas qrupu üzrə "ADA" Universiteti (582.663), Bakı Ali Neft Məktəbi (524.058), III ixtisas qrupu üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (566.323), "ADA" Universiteti (555.185), Milli Aviasiya Akademiyası (542.576), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (532.626), IV ixtisas qrupu üzrə isə Azərbaycan Tibb Universitetinin (603.874) ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri digər ali təhsil müəssisələri ilə müqayisədə daha yüksəkdir. Cədvəldən göründüyü kimi, yüksəkhazırlıqlı abituriyentlərin Bakı Ali Neft Məktəbinə, Azərbaycan Tibb Universitetinə, "ADA" Universitetinə, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına meyil və marağı olduqca böyükdür.

Özəl ali təhsil müəssisələri arasında yüksəkhazırlıqlı abituriyentlər Xəzər Universitetinə üstünlük verirlər. Cari ildə bu universitetin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri I qrup üzrə 480.784, II qrup üzrə 350.927, III qrup üzrə 367.858, IV qrup üzrə 385.106 bal olmuşdur. Digər özəl ali təhsil müəssisələrinə və regionlarda fəaliyyət göstərən dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin orta bal göstəriciləri isə aşağı olub.

I ixtisas qrupu üzrə Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri), Bakı Avrasiya Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri), II ixtisas qrupu üzrə Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Lənkəran Dövlət Universiteti, Bakı Qızlar Universiteti, "Azərbaycan" Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan şəhəri), "Odlar Yurdu" Universiteti, Bakı Biznes Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Qərbi Kaspi Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Avrasiya Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri), III ixtisas qrupu üzrə Bakı Avrasiya Universiteti, Azərbaycan Kooperasiya Universiteti, IV ixtisas qrupu üzrə Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri), Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri) və Azərbaycan Kooperasiya Universitetinin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri 250-dən aşağı olub. Ümumiyyətlə, son illərdə II qrupa daxil olan ixtisaslara yüksəkhazırlıqlı abituriyentlərin meyili azalmışdır. Bu səbəbdən həmin qrupda müsabiqə vəziyyətinin olmasına baxmayaraq, qəbul olanlar arasında zəif hazırlıqlı abituriyentlər çoxalmışdır.

V ixtisas qrupu üzrə orta bal göstəricisi yüksək olan ali təhsil müəssisələri kimi Azərbaycan Dövlət İqtisad Universiteti (198.719) və Bakı Mühəndislik Universitetini (190.427) qeyd etmək olar. Bu göstəricilərin yüksək olması qeyd olunan ali təhsil müəssisələrində V ixtisas qrupu üzrə xüsusi qabiliyyət imtahanı tələb etməyən "Dizayn" ixtisasına qəbulun aparılması ilə bağlıdır.

Cədvəl 1.11

AYRI-AYRI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN QRUPLAR ÜZRƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ (2022-Cİ İL ÜZRƏ)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Ümumi (I–IV qruplar üzrə)	V qrup
1	Bakı Dövlət Universiteti	403.292	298.800	423.546	427.046	403.074	107.534
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	414.061	301.714			401.188	---
3	Azərbaycan Texniki Universiteti	324.087	251.986			315.360	---
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	316.955	238.080			304.313	141.750
5	Azərbaycan Tibb Universiteti				603.874	603.874	---
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	394.672	309.746	368.653	379.333	370.824	121.802
7	Azərbaycan Dövlət İqtisad Universiteti	439.621	398.167	443.115	297.528	405.988	198.719
8	Azərbaycan Dillər Universiteti			417.157		417.157	---
9	Bakı Slavyan Universiteti			318.384	482.907	320.480	---
10	Bakı Mühəndislik Universiteti	410.696	291.399			384.365	190.427
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	586.576	427.100	532.626		498.299	---
12	"ADA" Universiteti	594.426	582.663	555.185		576.289	---
13	Bakı Musiqi Akademiyası					---	124.940
14	Azərbaycan Milli Konservatoriyası					---	105.931

Cədvəl 1.11 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti		267.343	323.574		310.186	122.304
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	255.380		269.092		266.807	150.670
17	Azərbaycan Turizm və Menecment Universiteti	257.452	266.034	354.467		297.727	---
18	Bakı Xoreoqrafiya Akademiyası					---	75.391
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası		250.452		413.496	326.091	117.119
20	Milli Aviasiya Akademiyası	401.153	306.639	542.576		403.140	---
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	394.472				394.472	---
22	Bakı Ali Neft Məktəbi	651.500	524.058			627.322	---
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	605.295	476.713	566.323		539.054	---
24	Naxçıvan Dövlət Universiteti	318.270	330.295	408.315	480.455	381.155	100.850
25	Naxçıvan Müəllimlər İnstitutu	244.004		312.498	---	296.714	84.200
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	240.701	253.167		229.833	241.622	97.945
27	Gəncə Dövlət Universiteti	346.673	238.717	385.222	318.254	331.984	115.717
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	217.120	180.449		184.533	200.384	144.191
29	Sumqayıt Dövlət Universiteti	291.383	243.571	346.365	296.266	300.012	117.163
30	Mingəçevir Dövlət Universiteti	293.293	196.066	342.973	242.673	274.894	---
31	Lənkəran Dövlət Universiteti	250.581	233.119	323.927	282.710	269.588	88.046
32	Azərbaycan Kooperasiya Universiteti	226.166	199.241	214.669	180.652	211.365	---
33	Azərbaycan İlahiyyat İnstitutu			257.597		257.597	---
34	"Azərbaycan" Universiteti	314.400	220.327	276.799		263.120	---
35	Qərbi Kaspi Universiteti	296.489	198.326	257.957	311.085	265.093	112.088
36	Xəzər Universiteti	480.784	350.927	367.858	385.106	396.554	131.998
37	Bakı Avrasiya Universiteti	236.717	193.249	247.751		233.460	---
38	Bakı Qızlar Universiteti	324.876	221.857	311.781	259.764	307.376	---
39	"Odlar Yurdu" Universiteti	266.185	207.557	277.279	259.794	253.939	165.088
40	Bakı Biznes Universiteti	250.674	203.868	252.436		226.521	---
41	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	255.823	211.862	268.766		248.527	---
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası		195.126	292.958		267.372	---

1992–2022-ci illər ərzində ali təhsil müəssisələri üzrə ən yüksək müsabiqə vəziyyəti 2008-ci ilə, ən aşağı müsabiqə vəziyyəti isə 2019-cu ilə təsadüf edir.

1.9 saylı şəkildə bütövlükdə ali təhsil müəssisələrinə ayrılan plan yerləri və ərizələrin illər üzrə dinamikası təqdim olunub.

1992–2022-ci illər üzrə plan yerləri və abituriyent ərizələrinin dinamikasının müqayisəli təhlili göstərir ki, bu illər ərzində ali təhsil müəssisələrinin qəbul planı 3.06 dəfə, abituriyent ərizələrinin sayı isə 2.27 (subbakalavrlarla birlikdə 2.64) dəfə artıb. İllər üzrə bu göstəricilərin dinamikası müxtəlif olub. Abituriyent ərizələrinin sayının əvvəlcədən proqnozlaşdırılmasına baxmayaraq, qəbul planları tərtib edilərkən heç də həmişə abituriyentlərin gözlənilən sayı nəzərə alınmayıb. Ali təhsil müəssisələri üçün plan yerləri ən çox 2022-ci ildə, ən az 1993-cü ildə ayrılıb. Abituriyent ərizələrinin sayı isə ən az 1992-ci ildə, ən çox 2008-ci ildə olub. Ötən illər ərzində ən aşağı müsabiqə vəziyyəti 2019-cu ilə təsadüf edir. Qeyd etmək lazımdır ki, müsabiqə vəziyyətinin aşağı olması qəbulun keyfiyyətinə mənfi təsir göstərir, ixtisaslar üzrə keçid ballarının aşağı düşməsinə səbəb olur.



Şəkil 1.9

Mayın 8-də və iyunun 12-də qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahanı veriblər.

Dövlət İmtahan Mərkəzi "Azərbaycan Respublikasında Dövlət dili haqqında" qanunu rəhbər tutaraq qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən test imtahanı keçirir. Bu il "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən imtahan iki dəfə – mayın 8-də (Bakı, Naxçıvan, Abşeron, Sumqayıt, Xaçmaz, Quba, Qusar, Gəncə, Mingəçevir, Şəmkir, Tovuz, Zaqatala, Qax, Qəbələ, Şəki, Balakən, Göyçay, Bərdə, Yevlax, Lənkəran və Şirvan) və iyunun 12-də (Bakı) keçirilib. İmtahanda abituriyentlərə fənn kurikulumu əsasında hazırlanmış 27-si qapalı tipli və 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli olmaqla, ümumilikdə, 30 test tapşırığı təqdim edilib. Tapşırıqların yerinə yetirilməsinə 1 saat 30 dəqiqə vaxt ayrılmışdır. İmtahanın nəticələri "məqbul" və "qeyri-məqbul"la qiymətləndirilmiş və "məqbul" alan abituriyentlər ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqəyə buraxılmışdır. Qapalı tipli tapşırıqlar üzrə

hər düzgün cavab 1 balla, yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar isə markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməmişdir. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalı idi. 2021-ci ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılıb.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri Azərbaycan dili (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, həmin nəticələr əsas götürülüb və onlar "məqbul" almış hesab olunub. İmtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunub və onlar Azərbaycan dili (dövlət dili kimi) fənnindən yenidən imtahan veriblər.

Mayın 8-də keçirilən I imtahanda iştirak edən 8704 abituriyentdən 7060-ı, iyunun 12-də keçirilən II imtahanda iştirak edən 850 abituriyentdən isə 518-i "məqbul" alıb. Qeyd edək ki, keçirilən imtahanlarda "qeyri-məqbul" alan və yaxud imtahanlarda iştirak etməyən abituriyentlər (qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verənlər) 2022-ci ildə ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqədə iştirak etmək hüququnu itiriblər.

I–IV qruplar üzrə imtahanlara 13014 nəzarətçi, 2329 imtahan rəhbəri cəlb olunub. Onların hər birinin fəaliyyəti təhlil edilib və qiymətləndirilib.

Hər il qəbul imtahanlarının idarə olunmasına elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin yüzlərlə nümayəndəsi, imtahanların gedişinə nəzarət işinə isə minlərlə məktəb müəllimi cəlb olunur. Dövlət İmtahan Mərkəzi imtahanların düzgün və obyektiv idarə olunmasına, zallarda nəzarət prosesinin təlimata uyğun həyata keçirilməsinə böyük diqqət yetirir və bu sahədəki fəaliyyətini mütəmadi olaraq təkmilləşdirir. Təsdiq edilmiş iş qrafikinə uyğun olaraq respublikanın bütün rayonları üzrə ümumtəhsil müəssisələrində nəzarətçi bazasına əlavə edilmiş yeni və təcrübəsi az olan zal nəzarətçilərinə yanvar və fevral aylarında təlimlər keçirilib, zal nəzarətçiləri imtahan qaydaları üzrə təlimatlandırılıb. Nəzarətçilərdə imtahan prosesi barədə daha aydın təsəvvür yaratmaq üçün təlimlərdə videomateriallar və hazırlanmış xüsusi təqdimatdan istifadə olunub, onlara DİM tərəfindən hazırlanmış "Zal nəzarətçisi üçün təlimat" kitabçası təqdim edilib. Təlimlər eyni vaxtda respublikanın digər bölgələrində də keçirilib.

Bu il ali təhsil müəssisələrinə I – IV ixtisas qrupları üzrə qəbul imtahanlarına bütövlükdə 13014 nəfər, o cümlədən Bakı şəhərinin rayonlarından 4623 (Yasamal rayonu – 365, Binəqədi rayonu – 665, Səbail rayonu – 248, Xətai rayonu – 740, Xəzər rayonu – 247, Nərimanov rayonu – 388, Suraxanı rayonu – 395, Sabunçu rayonu – 619, Nəsimi rayonu – 361, Qaradağ rayonu – 175, Nizami rayonu – 420), Sumqayıt şəhərindən 601, Abşeron rayonundan – 547, Naxçıvan MR-dan – 480, Gəncə şəhərindən – 931, Şəki şəhərindən – 666, Mingəçevir şəhərindən – 197, Lənkəran şəhərindən – 504, Şuşa rayonundan – 11, Qubadlı rayonundan – 60, Laçın rayonundan – 15, Zəngilan rayonundan – 30, Şirvan şəhərindən – 337, Sabirabad rayonundan – 206, Göyçay rayonundan – 345, Bərdə rayonundan – 637, Xaçmaz rayonundan – 556, Şəmkir rayonundan – 468, Qazax rayonundan – 76, Ağstafa rayonundan – 181, Zaqatala rayonundan – 16, Ağcabədi rayonundan – 28, Kürdəmir rayonundan – 117, Salyan rayonundan – 468, Cəlilabad rayonundan – 9, Masallı rayonundan – 164, Quba rayonundan – 63, Neftçala rayonundan – 47, Astara rayonundan – 37, Ağdaş rayonundan – 17, Yevlax rayonundan – 15, Lerik rayonundan – 17, Göygöl rayonundan – 16, Samux rayonundan – 14, Tovuz rayonundan – 12, Saatlı rayonundan – 12, Ucar rayonundan – 43, İsmayıllı rayonundan – 26, Hacıqabul rayonundan – 15, Tərtər rayonundan – 15, Qəbələ rayonundan – 14, Beyləqan rayonundan – 13, Balakən rayonundan – 12, Qusar rayonundan – 14, Oğuz rayonundan – 10, Daşkəsən, Xızı, Goranboy, Şabran, Yardımlı, Ağsu, Füzuli və Qax rayonlarından birlikdə – 26, Milli Elmlər Akademiyasından – 303 nəfər nəzarətçi kimi cəlb olunmuşdu. Bunlardan 4305 nəfəri zal nəzarətçisi sertifikatı almış nəzarətçilərdir.

İmtahanda iştirak edən nəzarətçilərin fəaliyyəti imtahan rəhbərlərinin məlumatlarına və DİM-ə daxil olan şikayət məktublarına əsasən araşdırılmışdır. İmtahanı aşağı səviyyədə keçirən, köçürmə hallarına yol verən, təlimati qaydaları pozan nəzarətçilər bazadan çıxarılmış və onların siyahıları inzibati tədbirlər görülmək üçün Elm və Təhsil Nazirliyinə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinə və müvafiq Regional Təhsil İdarələrinə göndərilmişdir. Nəzarətçilərin böyük əksəriyyəti təlimati qaydalara əməl etmiş və bu dövlət əhəmiyyətli tədbirin həyata keçirilməsində üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmişdir.

Ali məktəblərə qəbul imtahanlarının ikinci mərhələsinin keçirilməsi üçün 596 imtahan mərkəzindən istifadə olunmuşdur. İmtahanın təhlükəsizliyinin təmin olunması məqsədilə binalara buraxılış rejimini təşkil etmək üçün Daxili İşlər Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin xətti ilə 1602 əməkdaş, 229 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

Qəbul imtahanlarının I mərhələsi aprelin 3-də 18 müxtəlif imtahan mərkəzində keçirilmişdir. Cari ilin məzunları üçün I mərhələnin nəticəsi kimi buraxılış imtahanının nəticəsi əsas götürülmüşdür. Qəbul imtahanlarının I mərhələsinin keçirildiyi mərkəzlər və onlara aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri) aşağıdakı cədvəldə təqdim olunmuşdur:

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ I MƏRHƏLƏSİ

İmtahan mərkəzləri	İmtahan mərkəzlərinin əhatə etdiyi şəhərlər (rayonlar, yaşayış məntəqələri)
Bakı	Bakı, Şamaxı, Qobustan
Qazax-Ağstafa	Qazax, Ağstafa, Tovuz
Şəmkir	Şəmkir, Gədəbəy
Şəki	Şəki, Zaqatala, Balakən, Qəbələ, Qax, Oğuz
Bərdə	Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Beyləqan, Xocavənd, Laçın
Sabirabad	Sabirabad, İmişli, Füzuli
Lənkəran	Lənkəran, Astara, Lerik, Yardımlı, Masallı
Naxçıvan	Kəngərli, Naxçıvan, Babək, Ordubad, Sədərək, Culfa, Şərur, Şahbuz
Sumqayıt	Sumqayıt, Xızı, Siyəzən
Abşeron	Abşeron
Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Naftalan
Mingəçevir	Mingəçevir, Goranboy, Yevlax, Ağdaş
Göyçay	Göyçay, Ucar, İsmayıllı
Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
Şirvan	Şirvan,Hacıqabul, Saatlı
Salyan	Neftçala, Salyan, Biləsuvar
Cəlilabad	Cəlilabad
Xaçmaz	Quba, Qusar, Xaçmaz, Şabran

Cari ildə ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi iki cəhd üzrə olmaqla iki dəfə keçirilmişdir. İmtahanlarda kütləviliyin və təmas hallarının qarşısını almaq məqsədilə abituriyentlərin sayı nəzərə alınaraq hər bir ixtisas qrupu üzrə imtahanlar müxtəlif imtahan mərkəzlərində, əsasən, ayrı-ayrı günlərdə keçirilmişdir. İmtahanların 1-ci cəhdində abituriyentlərin sayının çox olması nəzərə alınaraq I ixtisas qrupu üzrə imtahanlar 2 gündə təşkil olunmuş, 2-ci cəhdində isə I və IV ixtisas qrupları üzrə abituriyentlərin sayı az olduğu üçün bu qruplar üzrə imtahanlar eyni gündə keçirilmişdir.

İmtahanların ikinci mərhələsinin 1-ci cəhdi III ixtisas qrupunun abituriyentləri üçün mayın 21-də, II ixtisas qrupunun abituriyentləri üçün mayın 22-də, I ixtisas qrupunun abituriyentləri üçün iyunun 4-də və 5-də, IV ixtisas qrupunun abituriyentləri üçün isə iyunun 5-də keçirilmişdir. 1-ci cəhd üzrə imtahanların keçirilmə qrafiki aşağıdakı kimidir:

I-IV İXTİSAS QRUPLARI ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ II MƏRHƏLƏSİ (1-ci cəhd)

İxtisas qrupu (imtahan tarixi)	Bölgələr üzrə imtahan mərkəzləri	Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)
III ixtisas qrupu (21.05.2022) **II ixtisas qrupu (22.05.2022)**	Bakı	Bakı, Abşeron Şamaxı, Qobustan
	Sumqayıt	Sumqayıt, Xızı
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Goranboy, Naftalan
	Mingəçevir	Mingəçevir, Yevlax, Ağdaş
	Şəmkir	Şəmkir, Gədəbəy
	Ağstafa	Qazax, Ağstafa, Tovuz
	Şəki	Şəki, Oğuz, Qəbələ, Balakən, Zaqatala, Qax
	Göyçay	Göyçay, İsmayıllı,Ucar
	Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
	Bərdə	Bərdə, Beyləqan, Tərtər, Xocavənd, Ağcabədi, Ağdam
	Şirvan	Şirvan, Hacıqabul, Saatlı
	Sabirabad	Sabirabad, İmişli, Füzuli
	Lənkəran	Lənkəran, Astara, Lerik
	Masallı	Masallı, Yardımlı
	Salyan	Salyan, Neftçala, Biləsuvar, Cəlilabad
	Xaçmaz	Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən
	Naxçıvan	Kəngərli, Naxçıvan, Babək, Ordubad, Sədərək, Culfa, Şərur, Şahbuz
I ixtisas qrupu (04.06.2022)	Bakı	Bakı
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux
	Qazax-Ağstafa	Qazax, Ağstafa, Tovuz
	Şəki	Şəki, Oğuz, Qəbələ
	Göyçay	Göyçay, İsmayıllı, Ucar
	Bərdə	Bərdə, Beyləqan, Tərtər, Xocavənd, Ağdam
	Sabirabad	Sabirabad, İmişli, Füzuli
	Lənkəran	Lənkəran, Astara, Lerik
	Salyan	Salyan, Neftçala, Biləsuvar
	Xaçmaz	Xaçmaz, Şabran, Siyəzən
I və IV ixtisas qrupu (05.06.2022)	Bakı	Bakı - (IV qrup); Abşeron, Şamaxı, Qobustan - (I və IV qruplar)
	Sumqayıt	Sumqayıt, Xızı - (I və IV qruplar)
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux - (IV qrup); Goranboy, Naftalan, Mingəçevir, Ağdaş - (I və IV qruplar)
	Şəmkir	Qazax, Ağstafa, Tovuz - (IV qrup); Şəmkir, Gədəbəy - (I və IV qruplar)
	Şəki	Şəki, Oğuz, Qəbələ - (IV qrup); Balakən, Zaqatala, Qax - (I və IV qruplar)
	Göyçay	Göyçay, İsmayıllı, Ucar - (IV qrup); Kürdəmir, Zərdab, Ağsu - (I və IV qruplar)
	Bərdə	Bərdə, Beyləqan, Tərtər, Xocavənd, Ağdam - (IV qrup); Ağcabədi, Yevlax - (I və IV qruplar)
	Şirvan	Sabirabad, İmişli, Füzuli - (IV qrup); Şirvan, Hacıqabul, Saatlı - (I və IV qruplar)
	Lənkəran	Lənkəran, Astara, Lerik - (IV qrup); Masallı, Yardımlı - (I və IV qruplar)
	Salyan	Salyan, Neftçala, Biləsuvar - (IV qrup); Cəlilabad - (I və IV qruplar)
	Xaçmaz	Xaçmaz, Şabran, Siyəzən - (IV qrup); Quba, Qusar - (I və IV qruplar)
	Naxçıvan	Kəngərli, Naxçıvan, Babək, Ordubad, Sədərək, Culfa, Şərur, Şahbuz - (I və IV qruplar)

İmtahanların ikinci mərhələsinin 2-ci cəhdi III ixtisas qrupunun abituriyentləri üçün iyulun 6-da, II ixtisas qrupunun abituriyentləri üçün iyulun 7-də, I və IV ixtisas qruplarının abituriyentləri üçün isə iyulun 21-də keçirilmişdir. 2-ci cəhd üzrə imtahanların keçirilmə qrafiki aşağıda təqdim olunan cədvəldə öz əksini tapmışdır:

I-IV İXTİSAS QRUPLARI ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ II MƏRHƏLƏSİ (2-ci cəhd)

İxtisas qrupu (imtahan tarixi)	Bölgələr üzrə imtahan mərkəzləri	Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)
III ixtisas qrupu (06.07.2022) II ixtisas qrupu (07.07.2022)	Bakı	Bakı, Abşeron, Şamaxı, Qobustan
	Sumqayıt	Sumqayıt, Xızı
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Goranboy, Naftalan, Mingəçevir
	Şəmkir	Şəmkir, Gədəbəy, Qazax, Ağstafa, Tovuz
	Şəki	Şəki, Oğuz, Qəbələ, Balakən, Zaqatala, Qax
	Göyçay	Göyçay, İsmayıllı, Ucar, Kürdəmir, Zərdab, Ağdaş, Ağsu
	Bərdə	Bərdə, Beyləqan, Tərtər, Xocavənd, Ağcabədi, Yevlax, Ağdam
	Şirvan	Şirvan, Hacıqabul, Saatlı, Sabirabad, İmişli, Füzuli
	Lənkəran	Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı
	Salyan	Salyan, Neftçala, Biləsuvar, Cəlilabad
	Xaçmaz	Xaçmaz, Şabran, Siyəzən, Quba, Qusar
	Naxçıvan	Kəngərli, Naxçıvan, Babək, Ordubad, Sədərək, Culfa, Şərur, Şahbuz
I və IV ixtisas qrupu (21.07.2022)	Bakı	Bakı, Abşeron, Şamaxı, Qobustan
	Sumqayıt	Sumqayıt, Xızı, Siyəzən
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Goranboy, Naftalan
	Mingəçevir	Mingəçevir, Yevlax, Ağdaş
	Şəmkir	Şəmkir, Gədəbəy, Tovuz
	Ağstafa	Qazax, Ağstafa
	Şəki	Şəki, Oğuz, Qəbələ, Balakən, Zaqatala, Qax
	Göyçay	Göyçay, İsmayıllı, Ucar
	Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
	Bərdə	Bərdə, Beyləqan, Tərtər, Xocavənd, Ağcabədi, Ağdam
	Şirvan	Şirvan, Hacıqabul, Saatlı, Sabirabad, İmişli, Füzuli
	Lənkəran	Lənkəran, Astara, Lerik
	Masallı	Masallı, Yardımlı, Cəlilabad
	Salyan	Salyan, Neftçala, Biləsuvar
	Xaçmaz	Xaçmaz, Şabran, Quba, Qusar
	Naxçıvan	Kəngərli, Naxçıvan, Babək, Ordubad, Sədərək, Culfa, Şərur, Şahbuz

Abituriyentlər V ixtisas qrupuna aid ixtisaslar üzrə müsabiqədə yalnız qəbul imtahanlarının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) nəticələrinə əsasən iştirak etmişdir. Ümumiyyətlə isə imtahanlarda I–IV qruplar üzrə 73429, V qrup üzrə 71840 (orta ixtisas təhsili müəssisələri üzrə birlikdə 86265 nəfər) abituriyent iştirak etmişdir.

C.Naxçıvanski adına və H.Əliyev adına hərbi liseylərə qəbul olmaq istəyənlər iyulun 31-də imtahan verib. Hərbi Tibb Məktəbinin feldşer ixtisasını seçənlər isə Dövlət İmtahan Mərkəzi və Müdafiə Nazirliyinin birgə razılığına əsasən bu il ayrıca qəbul imtahanı vermədən, müsabiqədə 11-ci siniflər üzrə buraxılış imtahanında topladıqları bal əsasında iştirak etmişlər. Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul olmaq istəyən və buraxılış imtahanı verməyən şəxslər imtahanlarda şəhər və rayonların qrafikinə uyğun iştirak ediblər.

İmtahanların gedişi barədə ictimaiyyətə geniş informasiya çatdırılması, həmçinin qəbulda şəffaflığın təmin olunması məqsədilə kütləvi informasiya vasitələri nümayəndələrinin imtahanlarda iştirakına geniş şərait yaradılmışdır. Bunun üçün imtahan ərəfəsində və imtahanın keçirildiyi dövrdə DİM-in Direktorlar Şurasının sədri kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransları keçirmişdir. Mərkəz artıq on doqquz ildir ki, qəbul imtahanlarının gedişini hər saatdan bir özünün internet saytında işıqlandırır və prosesin hər bir məqamına dair fotoşəkillər təqdim edir.

Qəbul imtahanlarının birinci mərhələsinin test kitabçaları aprelin 3-də keçirilən imtahanlar üçün 30 mart-3 aprel, I–IV ixtisas qrupları üzrə keçirilən imtahanların ikinci mərhələsinin 1-ci və 2-ci cəhdlərinin sual kitabçaları isə mayın 21-də və 22-də keçirilən imtahanlar üçün 16-22 may, iyunun 4-də və 5-də keçirilən imtahanlar üçün 31 may-5 iyun, iyulun 6-da və 7-də keçirilən imtahanlar üçün 1-7 iyul, iyulun 21-də keçirilən imtahanlar üçün 15-21 iyul tarixlərində DİM-in binasında qapalı rejimdə hazırlanmışdır. İmtahanlarda istifadə edilən test tapşırıqları bankdan kompüter proqramı vasitəsilə avtomatik olaraq seçilmişdir. Hər bir qrupun abituriyentlərinin bilik səviyyəsinə uyğun qaydada seçilən test tapşırıqları DİM-də fəaliyyət göstərən fənn seminarlarının müəyyənləşdirdiyi standartlara uyğun olmuşdur. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların hər iki mərhələsi üçün 4 variantda (A, B, C, D) tərtib edilmiş və beləliklə, köçürmə hallarının qarşısının alınması məqsədilə çoxvariantlılıq təmin olunmuşdur.

Mayın 21-də keçirilən 1-ci cəhd üzrə imtahanda III ixtisas qrupunun abituriyentləri, o cümlədən DİN-in Polis Akademiyasının və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasları və DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə təhsil almaq istəyən abituriyentlər imtahan vermişdir. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Abşeron, Şəmkir, Qazax, Mingəçevir, Şəki, Bərdə, Şuşa, Ağcabədi, Göyçay, Kürdəmir, Qubadlı, Laçın, Zəngilan, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba, Xaçmaz, Ağstafa, Daşkəsən, Göygöl, Samux, Tovuz, Xızı, Yevlax, Balakən, Qəbələ, Oğuz, Tərtər, Ağdaş, İsmayıllı, Ağsu, Beyləqan, Neftçala, Saatlı, Astara, Lerik və Qusar rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1988 nəfər zal nəzarətçisi, 355 nəfər imtahan rəhbəri, 268 nəfər buraxılış rejimini aparan əməkdaş, 37 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

Mayın 22-də keçirilən 1-ci cəhd üzrə imtahanda II ixtisas qrupunu seçən abituriyentlər iştirak etmişdir. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Daşkəsən, Şəmkir, Göygöl, Samux, Ağstafa, Sumqayıt, Abşeron, Mingəçevir, Yevlax, Şəki, Bərdə, Şuşa, Ağcabədi, Tərtər, Göyçay, Ucar, Kürdəmir, Ağdaş, İsmayıllı, Ağsu, Qubadlı, Füzuli, Beyləqan, Laçın, Zəngilan, Şirvan, Sabirabad, Neftçala, Salyan, Lənkəran, Astara, Lerik və Cəlilabad, Masallı, Quba, Qusar və Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 2115 nəfər zal nəzarətçisi, 378 nəfər imtahan rəhbəri, 246 nəfər buraxılış rejimini aparan əməkdaş, 36 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyunun 4-də keçirilən 1-ci cəhd üzrə imtahanda I ixtisas qrupunu seçən abituriyentlər, o cümlədən Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında, Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişdir. İmtahanın idarə olunmasına Bakı, Gəncə, Daşkəsən, Şəmkir, Göygöl, Samux, Qazax, Ağstafa, Tovuz, Sumqayıt, Abşeron, Yevlax, Şəki, Zaqatala, Balakən, Qəbələ, Oğuz, Bərdə, Şuşa, Ağcabədi, Tərtər, Göyçay, Ucar, Ağdaş, İsmayıllı, Ağsu, Füzuli, Beyləqan, Zəngilan, Sabirabad, Neftçala, Salyan, Saatlı, Lənkəran, Astara, Lerik, Masallı, Quba, Qusar və Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1969 nəfər zal nəzarətçisi, 356 nəfər imtahan rəhbəri, 250 nəfər buraxılış rejimini aparan əməkdaş, 34 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyunun 5-də keçirilən 1-ci cəhd üzrə imtahanda I və IV ixtisas qruplarını seçən abituriyentlər, o cümlədən Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında, Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyinin

Akademiyasının “Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi” və “Yanğın təhlükəsizliyi mühəndisliyi” ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişdir. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Göygöl, Samux, Sumqayıt, Abşeron, Xızı, Şəki, Zaqatala, Balakən, Bərdə, Ağcabədi, Tərtər, Göyçay, Ucar, Ağdaş, İsmayıllı, Qubadlı, Beyləqan, Zəngilan, Şirvan, Hacıqabul, Neftçala, Salyan, Lənkəran, Astara, Quba, Qusar və Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1528 nəfər zal nəzarətçisi, 281 nəfər imtahan rəhbəri, 190 nəfər buraxılış rejimini aparan əməkdaş, 27 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyulun 6-da keçirilən 2-ci cəhd üzrə imtahanda III ixtisas qrupunu seçən abituriyentlər, o cümlədən DİN-in Polis Akademiyasının və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının “Hüquqşünaslıq” ixtisasları və DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin “İctimai təhlükəsizlik və idarəetmə” ixtisası üzrə təhsil almaq istəyən abituriyentlər imtahan vermişdir. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Abşeron, Şəmkir, Samux, Goranboy, Yevlax, Şəki, Bərdə, Şuşa, Ağcabədi, Göyçay, Ucar, İsmayıllı, Ağsu, Qubadlı, Beyləqan, Laçın, Zəngilan, Şirvan, Hacıqabul, Neftçala, Sabirabad, Salyan, Lənkəran, Astara, Lerik, Masallı, Quba və Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1551 nəfər zal nəzarətçisi, 276 nəfər imtahan rəhbəri, 205 nəfər buraxılış rejimini aparan əməkdaş, 26 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyulun 7-də keçirilən 2-ci cəhd üzrə imtahanda II ixtisas qrupunu seçən abituriyentlər iştirak etmişdir. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Samux, Sumqayıt, Abşeron, Goranboy, Yevlax, Şəki, Bərdə, Şuşa, Ağcabədi, Göyçay, Ucar, İsmayıllı, Ağsu, Qubadlı, Beyləqan, Laçın, Zəngilan, Şirvan, Hacıqabul, Sabirabad, Neftçala, Salyan, Lənkəran, Astara, Lerik, Masallı, Quba və Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1473 nəfər zal nəzarətçisi, 262 nəfər imtahan rəhbəri, 168 nəfər buraxılış rejimini aparan əməkdaş, 29 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyulun 21-də keçirilən 2-ci cəhd üzrə imtahanda I və IV ixtisas qruplarını seçən abituriyentlər, o cümlədən Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının “İnformasiya təhlükəsizliyi” ixtisasında, Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının “Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi” və “Yanğın təhlükəsizliyi mühəndisliyi” ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişdir. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Göygöl, Samux, Qazax, Ağstafa, Tovuz, Sumqayıt, Abşeron, Mingəçevir, Yevlax, Şəki, Zaqatala, Balakən, Qəbələ, Qax, Oğuz, Bərdə, Şuşa, Ağcabədi, Tərtər, Göyçay, Ucar, Kürdəmir, Ağdaş, İsmayıllı, Qubadlı, Füzuli, Beyləqan, Laçın, Zəngilan, Şirvan, Hacıqabul, Sabirabad, Neftçala, Salyan, Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad, Masallı, Quba və Qusar rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 2390 nəfər zal nəzarətçisi, 421 nəfər imtahan rəhbəri, 275 nəfər buraxılış rejimini aparan əməkdaş, 40 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

I qrup üzrə sənəd verən abituriyentlərin 65.43%-ni oğlanlar, 34.57%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 29081 nəfəri (85.83%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 3 nəfəri xarici ölkələrin vətəndaşları, 34 nəfəri ali təhsilli şəxslər, 342 nəfəri isə orta ixtisas məktəblərinin məzunlarıdır.

II qrup üzrə sənəd verən abituriyentlərin 62.59%-ni oğlanlar, 37.41%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 17553 nəfəri (82.74%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 7 nəfəri xarici ölkələrin vətəndaşları, 24 nəfəri ali təhsilli şəxslər, 482 nəfəri isə orta ixtisas məktəblərinin məzunlarıdır.

III qrup üzrə sənəd verən abituriyentlərin 24.94%-ni oğlanlar, 75.06%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 18662 nəfəri (85.20%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 11 nəfəri xarici ölkələrin vətəndaşları, 72 nəfəri ali təhsilli şəxslər, 443 nəfəri isə orta ixtisas məktəblərinin məzunlarıdır.

IV qrup üzrə sənəd verən abituriyentlərin 25.04%-ni oğlanlar, 74.96%-ni isə qızlar təşkil etmişdir. Abituriyentlərin 4496 nəfəri (83.07%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 2 nəfəri xarici ölkələrin vətəndaşları, 31 nəfəri ali təhsilli şəxslər, 98 nəfəri isə orta ixtisas məktəblərinin məzunlarıdır.

İmtahanlarda oğlanların ən yüksək nisbi sayı I ixtisas qrupunda (65.43%), qızların ən yüksək nisbi sayı isə III ixtisas qrupunda (75.06%) olmuşdur.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq DİM-in keçirdiyi imtahanlar üçün sual kitabçalarının çapı və komplektasiyasını həyata keçirir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların hər iki mərhələsi üçün 4 variantda (A, B, C, D) hazırlanmışdır. Qəbul imtahanlarının birinci mərhələsində sual kitabçalarının xarici dil blokunda "Abituriyentin elektron ərizəsi"ndə "İmtahan verəcəyi xarici dil" bölməsində seçilən xarici dilə uyğun test tapşırıqları təqdim olunub. Xarici dil fənni blokuna daxil olan alman, fransız və ingilis dili fənləri üzrə test tapşırıqları Azərbaycan və rus bölmələri üçün, rus dili, ərəb və fars dili fənləri üzrə test tapşırıqları isə yalnız Azərbaycan bölməsi üçün hazırlanmışdır.

Beləliklə, aprelin 3-də 8, mayın 21-də 8, mayın 22-də 16, iyunun 4-də 8, iyunun 5-də 16, iyulun 6-da 8, iyulun 7-də 16, iyulun 21-də 16, iyulun 31-də (hərbi liseylər üzrə) 4 adda test kitabçası hazırlanıb. Ümumilikdə, bu imtahanlarda 8360 test tapşırığından istifadə olunub.

I–IV ixtisas qrupları üzrə imtahanlarda 73429 nəfər abituriyent iştirak etmiş, onların 66717-si Azərbaycan, 6712-si rus bölməsini təmsil etmişdir. İmtahanların gedişinin hər bir məqamı, eləcə də sonrakı proseslər – testlərin ekspertizası və etalonların müəyyənləşdirilməsi, imtahan protokollarının araşdırılması DİM-in internet saytında operativ şəkildə işıqlandırılmışdır. Qəbul imtahanlarının birinci mərhələsi üzrə nəticələr imtahanların keçirilməsindən 20 gün sonra, ikinci mərhələsi üzrə nəticələr isə təxminən 15 gün sonra (birinci mərhələ üzrə aprelin 3-də keçirilən imtahanların nəticələri aprelin 23-də, ikinci mərhələ üzrə mayın 21-də və 22-də keçirilən imtahanların nəticələri iyunun 7-də, iyunun 4-də və 5-də keçirilən imtahanların nəticələri iyunun 17-də, iyulun 6-da və 7-də keçirilən imtahanların nəticələri iyulun 22-də, iyulun 21-də keçirilən imtahanların nəticələri isə avqustun 3-də) elan edilmişdir. Nəticələrin elanı DİM-in internet saytı və mobil operatorların telefon xidmətləri vasitəsilə həyata keçirilmişdir. Bununla yanaşı, hər bir abituriyentə internet vasitəsilə cavab kartı və cavab vərəqinin ön və arxa üzlərinin qrafik təsvirləri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olmaq imkanı da yaradılmışdır.

DİM hər imtahandan sonra həmin imtahanda istifadə olunan test tapşırıqlarının düzgün cavablarını DİM-in "Youtube" kanalı vasitəsilə elan etmiş, Mərkəzin məsul əməkdaşları və fənn ekspertləri birbaşa efir vaxtında test tapşırıqları, eləcə də imtahanların gedişi ilə bağlı abituriyentləri və pedaqoji ictimaiyyəti maraqlandıran sualları cavablandırmışdır. Bu tədbir həm abituriyentlərin onları maraqlandıran suallara cavab almaları, həm də imtahan prosesinin şəffaflığının təmin edilməsi baxımından əhəmiyyətli olmuşdur. Abituriyentlərin ballarının hesablanması üçün xüsusi proqram hazırlanmış, DİM-in və "Abituriyent" jurnalının internet saytlarında yerləşdirilmişdir. İstifadə üçün çox sadə olan bu proqramda abituriyentlər fənlər üzrə düzgün və səhv cavablarını müvafiq mövqelərdə qeyd etməklə avtomatik olaraq nisbi və ümumi balları haqqında məlumat almış və nəticələrini çap edə bilmişlər.

Qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu və imtahanın gedişi ilə əlaqədar müraciətlərə baxılması üçün DİM tərəfindən apellyasiya komissiyası yaradılmışdır. Ötən il olduğu kimi cari ildə də apellyasiya müraciətlərinə onlayn şəkildə baxılmışdır. Apellyasiya komissiyasına müraciət etmək istəyənlər elan olunmuş tarixlərdə elektron ərizə doldurmaqla qeydiyyatdan keçmişdir. Qeydiyyatdan keçərkən onlar hansı şəkildə (videobağlantı proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesində iştirak edəcəklərini bildirmişdir. Daha sonra DİM tərəfindən bildirilən tarixdən etibarən müracət edənlərlə əlaqə saxlanılmış və apellyasiya prosesi təşkil olunmuşdur. Bu prosesdə qəbul imtahanının birinci mərhələsi üzrə 574, ikinci mərhələsi üzrə isə 3241 müraciətə baxılmışdır. İmtahanlar üzrə apellyasiya müraciətləri üçün qeydiyyat tarixləri və apellyasiya proseslərinin başlanma tarixləri aşağıdakı kimidir:

Qəbul imtahanlarının birinci mərhələsində iştirak edənlər üçün

- 3 apreldə keçirilən imtahanlar üzrə qeydiyyat tarixləri 26 – 28 aprel, apellyasiya prosesinin başlanma tarixi 4 may;

Qəbul imtahanlarının ikinci mərhələsində iştirak edənlər üçün

1-ci cəhd imtahanları üzrə

- II və III qruplar üzrə qeydiyyat tarixləri 8 – 10 iyun, apellyasiya prosesinin başlanma tarixi 12 iyun;
- I və IV qruplar üzrə qeydiyyat tarixləri 20 – 22 iyun, apellyasiya prosesinin başlanma tarixi 21 iyun.

2-ci cəhd imtahanları üzrə

- II və III qruplar üzrə qeydiyyat tarixləri 23 – 25 iyul, apellyasiya prosesinin başlanma tarixi 25 iyul;
- I və IV qruplar üzrə qeydiyyat tarixləri 4 – 6 avqust, apellyasiya prosesinin başlanma tarixi 5 avqust.

İxtisas seçimi abituriyentlərin imtahan nəticələri (balları) elan olunduqdan sonra aparılıb.

Müsabiqə şərtlərini ödəyən abituriyentlər müsabiqədə iştirak etmək üçün avqustun 16-dan 28-dək internet vasitəsilə ixtisas seçimi aparıb və ixtisas seçimi ərizələrini təsdiqləyiblər. Test imtahanlarının nəticələrinə əsasən 68886 abituriyent ali təhsil müəssisələrinin ixtisaslarına keçirilən müsabiqədə iştirak etmək hüququ qazanıb. İxtisas seçimi zamanı abituriyentlərə kömək məqsədilə hər bir ixtisas qrupu üzrə bir sıra məlumatlar, o cümlədən plan yerlərinin sayı, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması haqqında məlumatlar ayrı-ayrı kitabçalar şəklində, eləcə də ali təhsil müəssisələrinin ixtisasları üzrə 2021-ci ildə tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc edilmişdir.

Qəbul imtahanlarının nəticələrinə əsasən I ixtisas qrupu üzrə 19032, II ixtisas qrupu üzrə 9805, III, IV və V ixtisas qrupları üzrə, müvafiq olaraq, 16736, 4130 və 55690 nəfər müsabiqədə iştirak etmək hüququ əldə edib (1.12 saylı cədvələ bax). Hər ixtisas qrupu üzrə ayrı-ayrılıqda abituriyentlərin topladıqları balların paylanması 6.10-6.19 saylı cədvəllərdə təqdim edilib (bax: səh. 464-467).

Cədvəl 1.12

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANMIŞ ABİTURİYENTLƏRİN PAYLANMASI

İxtisas qrupu	Qəbul planı				Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı		
	Azərbaycan bölməsi	Rus bölməsi	Birgə müsabiqə aparılan ixtisaslar	Cəmi	Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi
I	12272	935	3063	16270	17365	1667	19032
II	9414	595	2068	12077	8900	905	9805
III	11606	1270	2083	14959	15075	1661	16736
III (DT)	10441	1045	1887	13373	14956	1617	16573
III (TC)	1165	225	196	1586	2707	438	3145
IV	3169	300	507	3976	3538	592	4130
V	1330	184	2496	4010	51111	4579	55690
CƏMİ	**37791**	**3284**	**10217**	**51292**	**62284**	**6602**	**68886**

İxtisas seçimində 51498 abituriyent iştirak edib. Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 25.24%-i (17388 nəfər) arzu etdikləri ixtisaslara qəbul olmaq üçün kifayət qədər yüksək bal toplamadıqlarına, yaxud xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul olduqlarına görə qəbul kampaniyasının ixtisas seçimi mərhələsində iştirak etməyib. Bundan əlavə, ixtisas seçimində 15226 subbakalavr da iştirak edib. Qeyd edək ki, müsabiqədə abituriyent kimi iştirak etmək üçün müraciət edən subbakalavrlardan müsabiqə şərtlərini ödəməyənlər ixtisas seçimi mərhələsində yalnız subbakalavr qismində ərizə veriblər.

İxtisas seçimi mərhələsində ərizə verən abituriyentlərin 10645 nəfəri, subbakalavrların 1330 nəfəri ərizəsində ali təhsil müəssisələrinin yalnız dövlət sifarişi əsasında ayrılmış yerlərini, 12507 abituriyent və 5927 subbakalavr isə yalnız ödənişli əsaslarla ayrılmış yerlərini seçib. Yalnız ödənişli əsaslarla ayrılmış yerləri seçənlərin 1265-i (930 abituriyent və 335 subbakalavr) ərizələrində yalnız özəl təhsil müəssisələrinin ixtisaslarını göstərib. İxtisas seçimi mərhələsində ərizə verən abituriyentlərin 55.04%-i (28346 nəfər), subbakalavrların 52.34%-i (7969 nəfər) ərizəsində həm dövlət sifarişli, həm də ödənişli əsaslarla olan yerləri qeyd etmişdi.

Müsabiqə və yerləşdirmənin nəticələri ixtisas seçimindən dərhal sonra açıqlanıb. İlkin mərhələdə ali təhsil müəssisələrinə 48841 nəfər qəbul olub, qəbul planı 95.22% dolub.

Müsabiqə və yerləşdirmənin nəticələri avqustun 31-də DİM-in internet saytı, AZERCELL, BAKCELL, NARMOBILE və NAXTEL telefon xidmətləri vasitəsilə elan olunub, sentyabrın 1-də isə "Abituriyent" jurnalının 6-cı sayında dərc edilib. Burada ixtisaslar üzrə keçid balları da təqdim olunub.

Qəbul imtahanlarının nəticələrinə əsasən birinci mərhələdə ali təhsil müəssisələrinə 48841 nəfər (o cümlədən 43914 abituriyent və 4927 subbakalavr) qəbul olub və qəbul planı 95.22% yerinə yetirilib. Qəbul olanların 44401 nəfəri Azərbaycan, 4440 nəfəri isə rus bölməsini təmsil edib. Onlardan dövlət sifarişi üzrə qəbul olanların sayı, müvafiq olaraq, 21061 və 1983 nəfərdir. Qəbul olan abituriyentlər və subbakalavrlar haqqında ayrı-ayrılıqda və ümumiləşdirilmiş məlumatlar cədvəl 1.13-də təqdim olunub.

Cədvəl 1.13

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	16270	13497 (9734)	1250 (895)	14747 (10629)	90.64
II	12077	7921 (3596)	781 (320)	8702 (3916)	72.05
III	14959	12240 (4225)	1333 (331)	13573 (4556)	90.73
IV	3976	2939 (2077)	343 (188)	3282 (2265)	82.55
V	4010	3082 (1176)	528 (249)	3610 (1425)	90.02
CƏMİ	**51292**	**39679 (20808)**	**4235 (1983)**	**43914 (22791)**	**85.62**
	Subbakalavrlar				
I	16270	1149 (0)	47 (0)	1196 (0)	7.35
II	12077	2728 (43)	128 (0)	2856 (43)	23.65
III	14959	351 (0)	25 (0)	376 (0)	2.51
IV	3976	406 (179)	2 (0)	408 (179)	10.26
V	4010	88 (31)	3 (0)	91 (31)	2.27
CƏMİ	**51292**	**4722 (253)**	**205 (0)**	**4927 (253)**	**9.61**
	Bütövlükdə				
I	16270	14646 (9734)	1297 (895)	15943 (10629)	97.99
II	12077	10649 (3639)	909 (320)	11558 (3959)	95.70
III	14959	12591 (4225)	1358 (331)	13949 (4556)	93.25
IV	3976	3345 (2256)	345 (188)	3690 (2444)	92.81
V	4010	3170 (1207)	531 (249)	3701 (1456)	92.29
CƏMİ	**51292**	**44401 (21061)**	**4440 (1983)**	**48841 (23044)**	**95.22**

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinə ümumilikdə 46897 nəfər qəbul olub, qəbul planı 91.43% dolub.

Nəticələr elan edildikdən sonra sentyabrın 2-dən 7-dək ali təhsil müəssisələrinin boş qalan yerlərinə əlavə qəbul elan olunub. Əlavə qəbul elanı, boş qalan plan yerləri haqqında məlumatlar və müsabiqə şərtləri "Abituriyent" jurnalının 7-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Əlavə yerləşdirmə zamanı əsas qəbulda yüksək müsabiqə şəraiti olan ixtisaslarda müsabiqədən keçməyən yüksək bal toplayan gənclərin ixtisas seçimlərini bir daha dəqiqləşdirmələrinə, boş qalan yerlərdən öz istəklərinə uyğun olanlarını seçmələrinə şərait yaradılıb. Müsabiqəyə buraxılma şərtləri bu mərhələdə də dəyişdirilmədən birinci mərhələdə olduğu kimi saxlanılıb.

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi eyni vaxtda elan olunub. Hər iki müsabiqə üçün abituriyentlərdən ərizə qəbulu internet vasitəsilə həyata keçirilib. Abituriyentlərə internetdə bir ərizə formasında həm ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının 20-dək kodunu istədikləri ardıcıllıqla qeyd etmək imkanı verilib. Bu mərhələdə də müsabiqə ümumi qaydalara müvafiq olaraq abituriyentin seçdiyi ixtisasların ardıcıllığına uyğun şəkildə aparılıb və abituriyent müsabiqədən keçdiyi birinci ixtisasa qəbul olub. Hər iki müsabiqəyə birlikdə 13853 ərizə daxil olub. Ərizələrin yalnız 1369-unda ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının kodları qeyd olunub. Beləliklə, ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinin qəbul planının dolma göstəricisi 95.22%-dən 91.43%-ə düşüb (qəbul olan bəzi şəxslər qeydiyyatdan keçmədiyinə görə).

Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri nəzərə alınmaqla ali təhsil müəssisələrinə qəbul olanların sayı haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir.

Cədvəl 1.14

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT (ƏLAVƏ YERLƏŞDİRMƏ VƏ QEYDİYYAT NƏZƏRƏ ALINMAQLA)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	16270	13503 (9817)	1208 (906)	14711 (10723)	90.42
II	12077	7812 (3602)	755 (316)	8567 (3918)	70.94
III	14959	12089 (4289)	1306 (327)	13395 (4616)	89.54
IV	3976	2782 (2076)	318 (191)	3100 (2267)	77.97
V	4010	3037 (1208)	504 (244)	3541 (1452)	88.30
CƏMİ	**51292**	**39223 (20992)**	**4091 (1984)**	**43314 (22976)**	**84.45**
	Subbakalavrlar				
I	16270	839 (0)	38 (0)	877 (0)	5.39
II	12077	2092 (42)	99 (0)	2191 (42)	18.14
III	14959	164 (0)	17 (0)	181 (0)	1.21
IV	3976	248 (166)	0 (0)	248 (166)	6.24
V	4010	82 (38)	4 (1)	86 (39)	2.14
CƏMİ	**51292**	**3425 (246)**	**158 (1)**	**3583 (247)**	**6.99**
	Ümumi				
I	16270	14342 (9817)	1246 (906)	15588 (10723)	95.81
II	12077	9904 (3644)	854 (316)	10758 (3960)	89.08
III	14959	12253 (4289)	1323 (327)	13576 (4616)	90.75
IV	3976	3030 (2242)	318 (191)	3348 (2433)	84.21
V	4010	3119 (1246)	508 (245)	3627 (1491)	90.45
CƏMİ	**51292**	**42648 (21238)**	**4249 (1985)**	**46897 (23223)**	**91.43**

Əlavə yerləşdirmə və qeydiyyatın nəticələrini nəzərə almaqla ayrı-ayrı ixtisas qruplarında qəbulolma göstəricilərinə nəzər salaq:

I ixtisas qrupu üzrə qəbul imtahanında 29827 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 49.45%-i, rus bölməsi üzrə isə 47.94%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı bütövlükdə (subbakalavrlar da nəzərə alınmaqla) 95.81% yerinə yetirilib.

II ixtisas qrupu üzrə imtahanda iştirak edən abituriyentlərin sayı 18928 nəfər olub. Onların Azərbaycan bölməsi üzrə 45.26%-i, rus bölməsi üzrə isə 45.24%-i tələbə adına layiq görülüb, qəbul planı 89.08% dolub.

III ixtisas qrupu üzrə qəbul imtahanında 20631 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 64.61%-i, rus bölməsi üzrə isə 67.99%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı 90.75% yerinə yetirilib.

IV ixtisas qrupu üzrə qəbul imtahanında 5053 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 64.15%-i, rus bölməsi üzrə isə 44.41%-i tələbə adına layiq görülüb, qəbul planı 84.21% dolub. Bu göstərici digər ixtisas qrupları ilə müqayisədə ən aşağı göstəricidir.

V ixtisas qrupu üzrə qəbul imtahanında 71840 abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 4.57%-i, rus bölməsi üzrə isə 9.42%-i tələbə adına layiq görülüb. Qəbul planı 90.45% dolub.

Göründüyü kimi, imtahanda iştirak edənlər arasından ali təhsil müəssisələrinə qəbulolma faizi I və IV ixtisas qrupları üzrə Azərbaycan bölməsində, III və V ixtisas qrupları üzrə isə rus bölməsində daha yüksəkdir, amma II ixtisas qrupu üzrə hər iki bölmədə, demək olar ki, eyni səviyyədədir. Müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlər arasında isə V ixtisas qrupu istisna olmaqla, digər qruplarda qəbulolma faizi Azərbaycan bölməsində daha yüksəkdir. Ümumilikdə götürdükdə, Azərbaycan bölməsində ali təhsil müəssisələrinə qəbul olanlar imtahanlarda iştirak edənlərin 48.00%-ni, müsabiqədə iştirak etmək hüququ qazananların isə 62.97%-ni təşkil edir. Rus bölməsində bu göstəricilər, müvafiq olaraq, 52.67 və 61.97%-dir.

Qəbulolma göstəricilərinin təhsil müəssisələrinin kateqoriyaları üzrə təhlili göstərir ki, dövlət ali təhsil müəssisələrinə 40088, özəl ali təhsil müəssisələrinə isə 6809 nəfər qəbul olub. Dövlət ali təhsil müəssisələrinin qəbul planı 93.50%, özəl ali təhsil müəssisələrinin planı isə 80.90% dolub.

Ali təhsil müəssisələrinə 3583 subbakalavr qəbul olunub və onların 6.89%-i dövlət sifarişi üzrə, 93.11%-i isə ödənişli əsaslarla ayrılan yerlərə qəbul olunub. Qəbul olunan subbakalavrların 65.50%-i (2347 nəfər) dövlət, 34.50%-i (1236 nəfər) özəl ali təhsil müəssisələrinə qəbul olunub. 1.14 saylı cədvəldən göründüyü kimi, subbakalavrların böyük əksəriyyəti (85.63%-i) I və II qrup ixtisaslarına qəbul olunub. Dövlət sifarişi üzrə qəbul olunanlar arasında bu qrupların payı 17%, ödənişli əsaslarla qəbul olunanlar arasında isə 90.71%-dir.

Subbakalavrların böyük hissəsi "Mühasibat" (542 nəfər), "İqtisadiyyat" (535 nəfər), "Maliyyə" (477 nəfər), "Menecment" (254 nəfər), "Dövlət və bələdiyyə idarəetməsi" (162 nəfər), "Kompüter mühəndisliyi" (128 nəfər), "İnformasiya texnologiyaları" (118 nəfər), "Baytarlıq təbabəti" (116 nəfər) və "Məktəbəqədər təhsil" (105 nəfər) ixtisaslarına qəbul olub. Bu ixtisaslara qəbul olan subbakalavrlar bütövlükdə ali təhsil müəssisələrinə qəbul olan subbakalavrların 68.02%-ni təşkil edir.

Müsabiqə zamanı bir yerə bir neçə subbakalavr iddia etdiyi hallarda onların diplom ballarının orta göstəricisi əsas götürülüb və bu göstəricisi digərlərindən yüksək olan subbakalavr həmin yerə yerləşdirilib. Ali təhsil müəssisələrinə qəbul olan subbakalavrların orta diplom balı 81.725 olub. Bu göstəriciləri aşağı olan subbakalavrlar əsasən "Mədən mühəndisliyi" (64.286 bal) və "İnformatika müəllimliyi" (67.882 bal) ixtisaslarına, yüksək olan subbakalavrlar isə əsasən "Xarici dil müəllimliyi (ingilis dili üzrə)" (94.239 bal), "Kitabxanaçılıq və informasiya fəaliyyəti" (93.349 bal), "Biologiya" (93.338 bal), "Statistika" (92.608 bal), "Turizm işinin təşkili" (92.514 bal), "Musiqişünaslıq" (91.220 bal) və "Kommunikasiya sistemləri mühəndisliyi" (90.042 bal) ixtisaslarına qəbul olub.

2022-ci ildə Elm və Təhsil Nazirliyinin təqdim etdiyi siyahıya əsasən ödənişli əsaslarla qəbul aparılan bir neçə ixtisasın (bax: səh. 14-16) müsabiqəsinə ümumi balı 150-dən, II mərhələ üzrə balı 50-dən az olmayan abituriyentlər buraxılıb. Həmin ixtisaslara ayrılan plan yerlərinin 93.49 faizi dolub. Bu göstərici I ixtisas qrupunda 95.51, II ixtisas qrupunda 96.56, III ixtisas qrupunda 92.29, IV ixtisas qrupunda isə 73.50% olub. I ixtisas qrupunda Elm və Təhsil Nazirliyi tərəfindən təklif olunan bu tədbir o dərəcədə də effektli olmayıb, dörd ali təhsil müəssisəsi istisna olmaqla qalan bütün ali təhsil müəssisələrində təklif olunan ixtisaslar üzrə formalaşan keçid balları 200 baldan yuxarı olub.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında və ödənişli təhsil üzrə abituriyent və subbakalavrların qəbul nəticələrinin paylanma diaqramlarını nəzərdən keçirək (şəkil 1.10, 1.11 və 1.12).

QƏBULUN NƏTİCƏSİ



Şəkil 1.10



Şəkil 1.11



Şəkil 1.12

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmiş abituriyentlərin 48.41%-i və müsabiqədə iştirak edən subbakalavrların 23.33%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul olanların 49.52%-i dövlət sifarişi əsasında (98.94%-i abituriyentlər, 1.06%-i subbakalavrlar), o cümlədən 46.76%-i dövlət (99.00%-i abituriyentlər, 1%-i subbakalavrlar), 2.76%-i özəl (97.84%-i abituriyentlər, 2.16%-i subbakalavrlar) ali təhsil müəssisələrində, 50.48%-i isə ödənişli təhsil üzrə (85.91%-i abituriyentlər, 14.09%-i subbakalavrlar), o cümlədən 38.72%-i dövlət (88.28%-i abituriyentlər, 11.72%-i subbakalavrlar), 11.76%-i özəl (78.10%-i abituriyentlər, 21.90%-i subbakalavrlar) ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Beləliklə, imtahanda iştirak edən abituriyentlərin 51.59%-i (46160 nəfər) ali təhsil müəssisələrinə qəbul olmamışdır. Təqdim edilən rəqəmlər qəbul prosesində həm rəqabəti, həm istəkləri təmin edilməyənlərin sayının nə qədər çox olduğunu, həm də qəbul prosesinin kütləviliyini, ağır və məsuliyyətli iş olduğunu göstərir.

DİM bu işin məsuliyyətini dərk edərək qəbul kampaniyasının tam şəffaf keçməsini təmin etmək məqsədilə onun bütün mərhələlərində görülən tədbirlər barədə ictimaiyyəti müntəzəm olaraq məlumatlandırmışdır. Qəbul imtahanlarında iştirak etmiş hər bir gəncin imtahan nəticələri haqqında məlumatlar arayış formasında imtahanın keçirildiyi vaxtdan təxminən 15-20 gün sonra internetdə yerləşdirilmişdir. Arayışda abituriyentlərin hər fənn üzrə ayrı-ayrılıqda düzgün və səhv cavabları, nisbi balları göstərilmişdir. Eyni zamanda hər bir abituriyentə internet vasitəsilə cavab kartı və cavab vərəqinin ön və arxa üzlərinin qrafik təsvirləri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olmaq imkanı verilmişdir. Bunun əsasında onlar öz imtahan nəticələrini ətraflı təhlil etmək imkanına malik olmuşdur.

Abituriyentlərin imtahan balları elan edildikdən sonra onların düzgün ixtisas seçiminə kömək məqsədilə DİM tərəfindən bütün ixtisas qruplarının abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər çap edilib. Vəsaitlərdə plan yerlərinin sayı, hər bir qrup üzrə müsabiqə şərtləri, həmçinin müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanma histoqramları cədvəl şəklində təqdim edilib. Cədvəldən istifadə edən müsabiqə iştirakçıları öz imtahan göstəricilərinin bu bal sıralanmasındakı yerini müəyyən etmək və ötən illərdə qəbul imtahanlarında ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə almaqla uğurlu seçim etmək imkanı qazanıblar.

Ötən il olduğu kimi, bu il də DİM-də Apellyasiya Komissiyası bir neçə mərhələdə fəaliyyət göstərmişdir. Hər bir ixtisas qrupu üzrə imtahan keçiriləndən sonra apellyasiyada imtahanın gedişi və qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu ilə əlaqədar müraciətlərə baxılmışdır. Apellyasiya Komissiyasının tərkibində şöbə müdirləri və müəllimlərdən ibarət işçi qrup fəaliyyət göstərmiş, testlərlə bağlı suallara mütəxəssislər tərəfindən hərtərəfli izahat verilmişdir. Qəbul imtahanlarının ikinci mərhələsində iştirak edənlər üçün apellyasiya komissiyaları aşağıda göstərilən tarixlərdə fəaliyyət göstərmişdir:

1-ci cəhd imtahanları üzrə

- II və III qruplar üzrə qeydiyyat tarixləri 8 – 10 iyun, apellyasiya prosesinin başlanma tarixi 12 iyun;
- I və IV qruplar üzrə qeydiyyat tarixləri 20 – 22 iyun, apellyasiya prosesinin başlanma tarixi 21 iyun;

2-ci cəhd imtahanları üzrə

- II və III qruplar üzrə qeydiyyat tarixləri 23 – 25 iyul, apellyasiya prosesinin başlanma tarixi 25 iyul;
- I və IV qruplar üzrə qeydiyyat tarixləri 4 – 6 avqust, apellyasiya prosesinin başlanma tarixi 5 avqust.

Hər ixtisas qrupu üzrə abituriyentlərin istəyinə daha çox uyğun olan, ərizələrdə daha çox birinci yerdə göstərilən ən nüfuzlu ixtisaslar müəyyən edilib.

Hər bir ixtisas üzrə müsabiqə vəziyyəti təkcə həmin ixtisası seçən abituriyentlərin sayından deyil, həm də həmin ixtisas üçün ayrılmış plan yerlərinin miqdarından asılı olur. Bir qayda olaraq, abituriyentlərin sayının artması müsabiqə vəziyyətinin yüksəlməsinə, plan yerlərinin artması isə müsabiqə vəziyyətinin aşağı düşməsinə səbəb olur. Bu baxımdan, müsabiqə vəziyyəti ixtisasın nüfuz səviyyəsini tam ifadə edə bilməz. Nəzərə alsaq ki, ərizədə birinci yerdə göstərilən ixtisas abituriyentin istəyinə ən çox uyğun olandır, deməli, ixtisasın nüfuzunu həmin ixtisasın abituriyent ərizələrində birinci yerdə göstərilməsinin sayı əsasında müəyyənləşdirmək daha düzgün olar. Aparılan müqayisə zamanı müsabiqəsində iştirak etmək üçün ümumi bala qoyulan tələb 200-dən az olan ixtisaslar nəzərə alınmamışdır. Bu qayda ilə hər qrupun ən nüfuzlu ixtisası müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, bu il abituriyentlər Azərbaycan bölməsində I qrupda ən çox Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə", III qrupda Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili üzrə)", IV qrupda Azərbaycan Tibb Universitetinin "Tibb", V qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Dizayn (sahələr üzrə)" ixtisasına üstünlük vermişdir (cədvəl 1.15). I ixtisas qrupu istisna olmaqla digər bütün ixtisas qruplarında Azərbaycan və rus bölməsinin abituriyentlərinin seçimi eyni olmuşdur (cədvəl 1.16). I ixtisas qrupunda rus bölməsinin abituriyentləri Azərbaycan Dövlət İqtisad Universitetinin "İnformasiya texnologiyaları" ixtisasına üstünlük veriblər.

Cədvəl 1.15

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Azərbaycan bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərilənlər	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	Riyaziyyat müəllimliyi (Bakı Dövlət Universiteti)	304	38.19
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	511	45.18
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	629	38.45
IV	Tibb (Azərbaycan Tibb Universiteti)	659	71.32
V	Dizayn (Azərbaycan Dövlət İqtisad Universiteti)	1061	44.51

Cədvəl 1.16

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Rus bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərilənlər	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	İnformasiya texnologiyaları (Azərbaycan Dövlət İqtisad Universiteti)	47	13.02
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	62	44.29
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	75	41.21
IV	Tibb (Azərbaycan Tibb Universiteti)	59	71.95
V	Dizayn (Azərbaycan Dövlət İqtisad Universiteti)	207	42.24

Oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük veriblər.

"Abituriyentin ərizəsi"ni dolduran gənc öz ərizəsində ixtisas qrupunu qeyd etməklə, əslində, özünün bu və ya digər ixtisaslara istəyini, marağını ifadə edir. Bu amil nəzərə alınaraq ixtisas qrupları üzrə abituriyentlərin istəyini ifadə edən kəmiyyət göstəricisi hesablanıb. Bu zaman ixtisas seçimi aparan abituriyentlərin neçə faizinin həmin ixtisas qrupuna müraciət etməsi nəzərə alınıb. Hər bir abituriyentin istəyi nəzərə alınmaqla hesablanan belə göstərici əsasında ölkənin bütün abituriyentlərini təmsil edən ortastatistik abituriyentin (ayrılıqda oğlan və qız) ixtisas qruplarından hər birinə görə istəyi faizlə müəyyən edilib. 1.17 saylı cədvəldə hesablamanın nəticələri təqdim olunur (bu il hər bir abituriyent eyni zamanda həm V, həm I–IV qruplardan birini və ya ikisini seçə bilmişdir, ona görə qruplar üzrə faizlərin cəmi 100-dən çox alınır).

Cədvəl 1.17

ORTASTATİSTİK OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI

№	OĞLAN ABİTURİYENT						QIZ ABİTURİYENT					
	Azərb. bölməsi			Rus bölməsi			Azərb. bölməsi			Rus bölməsi		
	Qrup (altqrup)	İstək		Qrup (altqrup)	İstək		Qrup (altqrup)	İstək		Qrup (altqrup)	İstək	
		sayla	%-lə		sayla	%-lə		sayla	%-lə		sayla	%-lə
1	V	36165	83.77	V	2852	71.41	V	30574	75.74	V	2519	62.99
2	I	20198	46.78	I	1972	49.37	III	14913	36.95	III	1529	38.23
3	II	12234	28.34	II	1044	26.14	III (DT)	14862	36.82	III (DT)	1508	37.71
4	III	4962	11.49	III	500	12.52	I	10907	27.02	I	807	20.18
5	III (DT)	4885	11.31	III (DT)	474	11.87	II	7171	17.77	II	766	19.15
6	III (TC)	1217	2.82	IV	216	5.41	IV	3518	8.72	IV	539	13.48
7	IV	1139	2.64	III (TC)	194	4.86	III (TC)	2612	6.47	III (TC)	400	10.00

Cədvəldən göründüyü kimi, V ixtisas qrupu istisna olmaqla, oğlan və qızların ixtisas qruplarına münasibətləri fərqlidir. Əvvəlki illərdə olduğu kimi, bu il də hər iki bölmənin ortastatistik oğlan abituriyentinin istəyi ən çox Riyaziyyat, fizika və mühəndislik (I qrup) və İqtisadiyyat və idarəetmə (II qrup) ixtisaslarınadır. Azərbaycan bölməsində oğlanların 75.12%-nin, rus bölməsində isə 75.51%-nin istəyi bu iki ixtisas qrupuna yönəlib. Bu rəqəmlər oğlan abituriyentlərin texniki, iqtisadiyyat və idarəetmə ixtisaslarına marağının nə dərəcədə yüksək olduğunu göstərir. Bununla belə, qeyd etmək lazımdır ki, oğlanların I ixtisas qrupuna istəyi II qrupa nəzərən əhəmiyyətli dərəcədə yüksəkdir. Azərbaycan və rus bölmələrində oğlan abituriyentlərin I qrupa istəyi II qrupla müqayisədə müvafiq olaraq 2018-ci ildə 1.72 və 1.65 dəfə, 2019-cu ildə 1.90 və 1.86 dəfə, 2020-ci ildə 2.14 və 2.25 dəfə, 2021-ci ildə 1.70 və 1.74 dəfə, 2022-ci ildə isə 1.65 və 1.89 dəfə yüksək olub.

Ortastatistik qız abituriyentin humanitar ixtisaslardan ibarət III ixtisas qrupuna istəyi daha yüksəkdir. Əvvəlki illərdə rus bölməsinin qız abituriyentləri II ixtisas qrupuna daha çox maraq göstərirdilər və son illərdə onların bu ixtisas qrupuna meyli bir qədər azalıb. 2018-ci ildə rus bölməsindəki qız abituriyentlərin 23.08%-i, 2019-cu ildə 19.37%-i, 2020-ci ildə 17.82%-i, 2021-ci ildə 20.10%-i, 2022-ci ildə 19.15%-i II ixtisas qrupunu seçib.

IV ixtisas qrupunda qızların ixtisas maraqları (istəkləri) oğlanların maraqlarından Azərbaycan bölməsində 3.3, rus bölməsində 2.5 dəfə yüksəkdir. Onu da qeyd edək ki, IV qrup üzrə ixtisas seçimi mərhələsində iştirak edən qız abituriyentlərin sayı oğlanlardan 3.88 dəfə yüksək olub.

Cari ildə də V ixtisas qrupuna həm oğlan, həm də qız abituriyentlərin maraqları yüksək olub. V ixtisas qrupuna istəyin bu dərəcədə yüksək olması daha çox cari ilin məzunlarına görədir. Bildiyimiz kimi, cari ilin məzunlarının V ixtisas qrupu üzrə ixtisasların müsabiqəsində buraxılış imtahanının nəticələri əsasında iştirak etmək imkanı olmuşdur və onlar əlavə imtahan verməmişlər. Həmçinin cari ilin məzunları ali təhsil müəssisələrinə qəbul kampaniyasında ilk dəfə iştirak etdikləri üçün onların iştirakı dövlət büdcəsi tərəfindən maliyyələşdirilmişdir. Qeyd olunan səbəblərə görə cari ilin məzunları ərizələrində həm də V ixtisas qrupunu seçmişlər, baxmayaraq ki, faktiki olaraq onların bir çoxunun bu qrupa aid olan ixtisaslara maraqları çox az olub və yaxud heç olmayıb. Qeyd edək ki, ixtisas seçimi mərhələsində iştirak edən abituriyentlərin cəmi 19.75%-i (oğlanların 24.21%-i, qızların 15.64%-i) V qrupa daxil olan ixtisasları öz ərizələrində qeyd edib.

Bakı şəhərinin Qaradağ rayonu, Siyəzən, Salyan və Neftçala rayonlarının oğlan abituriyentləri ənənəvi olaraq yüksək faizlə I qrupun ixtisaslarını seçiblər.

Respublikanın ayrı-ayrı bölgələrini təmsil edən oğlan və qız abituriyentlərin və subbakalavrların ixtisas qrupları üzrə istəklərinin paylanması müəyyənləşdirilib. Abituriyentləri və subbakalavrları bu və ya digər ixtisas qrupuna nisbətən daha çox meyil göstərən bölgələr 1.18 saylı cədvəldə təqdim olunub.

Cədvəldən göründüyü kimi, Siyəzən, Qusar, Qazax, Salyan, Neftçala, Ağstafa, Xaçmaz rayonlarında, Sumqayıt şəhərində, eləcə də Bakı şəhərinin Qaradağ və Suraxanı rayonlarında oğlanlar yüksək faizlə (uyğun olaraq, 71.83%, 69.51%, 64.98%, 63.75%, 63.49%, 61.08%, 57.53%, 60.56%, 60.57% və 59.88%) texniki ixtisaslar qrupunu seçiblər. Əvvəlki illərdəki qəbulun nəticələri də göstərir ki, bu bölgələrdə oğlanların texniki ixtisaslara maraqları yüksəkdir və bu, bir ənənəyə çevrilib. Buna səbəb həmin bölgələrdə dəqiq fənlərin, xüsusən riyaziyyat və fizika fənlərinin tədrisi səviyyəsinin yüksək olması, həmçinin texniki elmlərlə bağlılığı olan sənaye müəssisələrinin mövcudluğudur. Şübhəsiz, müəllimin nüfuzu, yüksək təhsili və pedaqoji bacarığı da şagirdlər arasında fənnin daha dərindən öyrənilməsini şərtləndirir. İxtisas seçərkən isə gənclər ən yaxşı bildikləri fənnin daha çox əhəmiyyət kəsb etdiyi ixtisas qrupuna üstünlük verirlər.

Bu il Şuşa, Şamaxı, Babək, Ordubad, Qobustan, Lənkəran, Saatlı, Şahbuz, Cəlilabad, Gədəbəy, Lerik, Tərtər, Xaçmaz, Qazax, Bakı şəhərinin Sabunçu, Xəzər, Xətai və Qaradağ rayonlarında qızlar humanitar ixtisaslara daha çox üstünlük veriblər.

Cədvəl 1.18

RESPUBLİKANIN BÖLGƏLƏRİNİ TƏMSİL EDƏN OĞLAN VƏ QIZLARIN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
I	Siyəzən rayonu (71.83), Qazax rayonu (64.98), Salyan rayonu (63.75), Neftçala rayonu (63.49), Ağstafa rayonu (61.08), Bakı ş. Qaradağ rayonu (60.57), Sumqayıt şəhəri (60.56), Qusar rayonu (60.31), Tovuz rayonu (56.07), İsmayıllı rayonu (56.01), Astara rayonu (55.15)	Siyəzən rayonu (42.26), Zərdab rayonu (39.20), Qax rayonu (36.43), Sumqayıt şəhəri (36.12), Qubadlı rayonu (35.85), Samux rayonu (34.94), Kürdəmir rayonu (34.86), Tovuz rayonu (34.74), Salyan rayonu (34.72), Neftçala rayonu (34.60)	Qusar rayonu (69.51), Bakı ş. Suraxanı rayonu (59.88), Xaçmaz rayonu (57.53), Bakı ş. Qaradağ rayonu (56.67), Bakı ş. Nizami rayonu (55.16), Bakı ş. Xətai rayonu (54.01), Quba rayonu (52.83), Bakı ş. Xəzər rayonu (52.63), Sumqayıt şəhəri (51.38), Bakı ş. Yasamal rayonu (49.21)	Abşeron rayonu (30.00), Xaçmaz rayonu (29.27), Bakı ş. Binəqədi rayonu (23.47), Quba rayonu (23.21), Sumqayıt şəhəri (22.45), Bakı ş. Nəsimi rayonu (21.89), Bakı ş. Xətai rayonu (21.68), Bakı ş. Nərimanov rayonu (21.57), Bakı ş. Yasamal rayonu (21.39), Bakı ş. Suraxanı rayonu (20.78), Bakı ş. Xəzər rayonu (20.00)
II	Xocavənd rayonu (48.00), Naxçıvan şəhəri (47.04), İmişli rayonu (43.02), Ağsu rayonu (42.69), Ağcabədi rayonu (42.44), Babək rayonu (41.89), Ordubad rayonu (41.13), Ağdam rayonu (40.81), Kəlbəcər rayonu (40.10), Laçın rayonu (40.10)	Xocalı rayonu (40.20), Zaqatala rayonu (37.35), Bakı ş. Yasamal rayonu (31.20), Cəbrayıl rayonu (30.14), Balakən rayonu (29.33), Lerik rayonu (28.83), Ağsu rayonu (27.96), Kəlbəcər rayonu (27.59), Xaçmaz rayonu (27.16), Zərdab rayonu (26.80), Lənkəran rayonu (26.77)	Bakı ş. Nəsimi rayonu (33.23), Gəncə şəhəri (31.10), Bakı ş. Nərimanov rayonu (30.83), Sumqayıt şəhəri (29.28), Quba rayonu (28.30), Bakı ş. Yasamal rayonu (27.31), Bakı ş. Binəqədi rayonu (26.74), Bakı ş. Xətai rayonu (26.71), Bakı ş. Xəzər rayonu (26.32), Abşeron rayonu (25.64)	Bakı ş. Nərimanov rayonu (25.10), Bakı ş. Səbail rayonu (24.36), Bakı ş. Nəsimi rayonu (24.32), Bakı ş. Xətai rayonu (23.47), Bakı ş. Xəzər rayonu (23.33), Bakı ş. Binəqədi rayonu (20.26), Bakı ş. Yasamal rayonu (20.15), Bakı ş. Qaradağ rayonu (20.00), Abşeron rayonu (20.00)
III	Saatlı rayonu (17.83), Ordubad rayonu (17.73), Kəlbəcər rayonu (17.64), Şirvan şəhəri (16.75), Yardımlı rayonu (16.67), Lerik rayonu (15.86), Gədəbəy rayonu (15.35), Cəlilabad rayonu (15.32), Şuşa rayonu (14.10), Şamaxı rayonu (13.99), Ağdam rayonu (13.96), Mingəçevir şəhəri (13.91)	Şuşa rayonu (45.18), Şamaxı rayonu (44.84), Babək rayonu (44.66), Ordubad rayonu (44.29), Qobustan rayonu (42.67), Saatlı rayonu (41.57), Şahbuz rayonu (41.35), Cəlilabad rayonu (41.24), Gədəbəy rayonu (41.10), Lerik rayonu (40.99), Tərtər rayonu (40.70), Qazax rayonu (40.22), Bakı ş. Sabunçu rayonu (40.03)	Bakı ş. Sabunçu rayonu (16.32), Bakı ş. Nəsimi rayonu (15.73), Bakı ş. Binəqədi rayonu (15.28), Bakı ş. Nizami rayonu (14.68), Bakı ş. Nərimanov rayonu (13.83), Bakı ş. Yasamal rayonu (13.09), Gəncə şəhəri (13.07), Abşeron rayonu (12.82), Bakı ş. Suraxanı rayonu (12.57)	Bakı ş. Sabunçu rayonu (42.49), Lənkəran rayonu (42.11), Bakı ş. Xəzər rayonu (41.11), Xaçmaz rayonu (40.65), Bakı ş. Xətai rayonu (40.05), Bakı ş. Qaradağ rayonu (40.00), Sumqayıt şəhəri (39.80), Bakı ş. Suraxanı rayonu (39.61), Quba rayonu (39.29), Bakı ş. Binəqədi rayonu (37.30)

Cədvəl 1.18 (ardı)

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
IV	Culfa rayonu (5.88), Ucar rayonu (5.64), Cəlilabad rayonu (5.21), Qax rayonu (5.13), Goranboy rayonu (4.97), Masallı rayonu (4.95), Yardımlı rayonu (4.89), Saatlı rayonu (4.74), Tovuz rayonu (4.66), Göygöl rayonu (4.55)	Ordubad rayonu (19.18), Naxçıvan şəhəri (17.15), Şahbuz rayonu (16.35), Yardımlı rayonu (14.19), Qusar rayonu (13.86), Şəmkir rayonu (13.66), Bərdə rayonu (13.52), Şərur rayonu (13.18), Göyçay rayonu (13.10), Qəbələ rayonu (13.04), Gəncə şəhəri (13.03)	Qusar rayonu (13.41), Bakı ş. Səbail rayonu (7.84), Bakı ş. Sabunçu rayonu (7.37), Bakı ş. Nərimanov rayonu (6.32), Bakı ş. Nəsimi rayonu (5.93), Gəncə şəhəri (5.65), Bakı ş. Nizami rayonu (5.16), Abşeron rayonu (5.13), Bakı ş. Qaradağ rayonu (5.00)	Lənkəran rayonu (28.07), Qusar rayonu (21.51), Gəncə şəhəri (20.34), Bakı ş. Səbail rayonu (16.73), Quba rayonu (16.07), Bakı ş. Nizami rayonu (15.23), Bakı ş. Suraxanı rayonu (14.29), Bakı ş. Yasamal rayonu (14.18)
V	Şərur rayonu (89.39), Babək rayonu (88.50), Xocavənd rayonu (88.00), Ağstafa rayonu (86.76), Samux rayonu (86.42), Naxçıvan şəhəri (86.36), Goranboy rayonu (85.09), Şəmkir rayonu (85.03), Gəncə şəhəri (84.80), Tərtər rayonu (84.04)	Babək rayonu (77.81), Samux rayonu (76.51), Ağcabədi rayonu (76.28), Goranboy rayonu (76.25), Daşkəsən rayonu (76.19), Naxçıvan şəhəri (75.89), Göygöl rayonu (73.89), Zərdab rayonu (72.80), Şəmkir rayonu (72.48), Gəncə şəhəri (72.24)	Bakı ş. Xəzər rayonu (86.32), Gəncə şəhəri (81.27), Abşeron rayonu (81.20), Bakı ş. Sabunçu rayonu (75.26), Bakı ş. Qaradağ rayonu (71.67), Xaçmaz rayonu (71.23), Bakı ş. Nizami rayonu (70.63), Bakı ş. Binəqədi rayonu (70.14)	Gəncə şəhəri (72.54), Abşeron rayonu (70.00), Bakı ş. Xəzər rayonu (67.78), Bakı ş. Xətai rayonu (58.67), Bakı ş. Nərimanov rayonu (58.04), Bakı ş. Binəqədi rayonu (57.56), Bakı ş. Sabunçu rayonu (56.99), Bakı ş. Yasamal rayonu (56.97), Bakı ş. Nizami rayonu (55.47), Bakı ş. Nəsimi rayonu (54.86)

Qeyd: Seçmədə qəbul kampaniyasında iştirak etmək üçün müraciət edənlərin sayı Azərbaycan bölməsində 100-dən, rus bölməsində isə 50-dən az olmayan bölgələr iştirak edir.

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında abituriyentlərin 42.79%-i 200-dən az bal toplamışdır.

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda (bax: şəkil 1.13 və 1.14) təsvir edilib. Qəbulda toplanılması mümkün olan maksimal bal 700-dür. 0-700 bal diapazonunu şərti olaraq (0-200), (200-300), (300-500), (500-700) intervallarına bölərək, ənənəvi "2", "3", "4", "5" qiymətləri ilə analogiyasını yaratsaq, görərik ki, bu il abituriyentlərin 42.8 faizi imtahandan "2", 22.0%-i "3", 25.6%-i "4", 9.6%-i isə "5" qiymət alıb (bax: şəkil 1.13). Ötən il bu göstəricilər, uyğun olaraq, 44.3%, 20.3%, 25.5%, 10% olmuşdur. Göründüyü kimi, bu il "2" və "5" qiymət alanların faizi nisbətən azalmış, "3" və "4" qiymət alanların faizi isə nisbətən artmışdır. Təbii ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərin topladıqları balların paylanması strukturunda və qəbul planında baş verən dəyişikliklər qəbul olan abituriyentlərin ballarının paylanmasında da öz əksini tapmışdır. Qəbul olanların topladıqları balların paylanma diaqramından (şəkil 1.14) görünür ki, onların 33.8%-ni "3", 43.8%-ni "4", 15.8%-ni isə "5" qiymət alanlar təşkil edib. Ötən il bu göstəricilər, uyğun olaraq, 29.9%, 47.2%, 18.0% olub.

V ixtisas qrupu üzrə ərizə verib qəbul imtahanında (cari ilin məzunları üçün tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında) iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri isə aşağıdakı diaqramlarda (bax: şəkil 1.15 və 1.16) təsvir edilib. Bu imtahanlarda toplanılması mümkün olan maksimal bal 300-dür. Şəkil 1.15-dən göründüyü kimi, qəbul (buraxılış) imtahanlarında iştirak edən abituriyentlərin 48.20%-nin topladığı bal 100-dən aşağıdır. Qəbul olan abituriyentlər arasında 30-dan az bal toplayan yoxdur və abituriyentlərin yarıdan çoxu (51.74%) 100-150 bal intervalında nəticə göstərib (şəkil 1.16).

Təəssüflə qeyd etmək lazımdır ki, bu il Siyəzən, Şabran, Ağsu, Xocalı, Beyləqan, Lənkəran, Xaçmaz, Sabirabad, Daşkəsən rayonlarının və Gəncə şəhərinin cari il məzunlarını təmsil edən abituriyentlərin 20%-dən çoxunun qəbul imtahanlarında topladığı bal 100-dən aşağı olmuşdur.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(I–IV qruplar üzrə)



Şəkil 1.13

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(I–IV qruplar üzrə)



Şəkil 1.14

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(V qrup üzrə)



Şəkil 1.15

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(V qrup üzrə)



Şəkil 1.16

Məlum olduğu kimi, "Abituriyentin ərizəsi" formasına ayrı-ayrı fənlər üzrə attestat qiymətləri də daxil edilir. Ərizədə qeyd olunan qiymətlər əsasında abituriyentlərin orta attestat qiymətləri hesablanaraq, onların qəbul imtahanlarında topladıqları ballarla müqayisəsi aparılmışdır. Cədvəl 1.19-da attestat qiymətlərinə görə müxtəlif səviyyədə yerləşən cari ilin məzunlarının qəbul imtahanlarında topladıqları balların paylanması təqdim edilir. Bu cədvələ əsaslanaraq, attestatda bütün qiymətləri "5" olan abituriyentlərlə bütün qiymətləri "3" olan abituriyentlərin imtahan ballarını müqayisə edək. Tam orta məktəbi bütün fənlərdən "3" qiymətlə başa vuran məzunların 94.51%-nin qəbul imtahanlarındakı nəticələri də çox zəif – 0–200 bal intervalında olub. "5" qiymətlə bitirən məzunların isə yalnız 35.21%-i attestat qiymətlərini doğrulda bilib. Bu da məktəblərdə verilən aşağı qiymətlərin obyektiv olduğunu, yüksək qiymətlərin isə nisbətən şişirdildiyini göstərir.

Əlbəttə, obyektiv qiymətləndirilmə aparılarsa, təhsilin bir pilləsində əldə olunmuş nailiyyətlər digər pilləyə keçiddə nəzərə alınmalıdır. İndiki halda isə ali təhsil müəssisələrinə qəbul zamanı attestat qiymətləri nəzərə alınaraq bunun əsasında abituriyentin nəticəsinə hər hansı bal əlavə edilərsə, əla qiymətlərini doğrultmayan "əlaçılar" öz biliyi hesabına bal toplayanları sıxışdırıb onları ali təhsil müəssisələrinə qəbulda üstələyə bilərlər. Digər tərəfdən, bu cür addımın subyektivliyə bir qədər də yol açmayacağına zəmanət vermək çətindir. Odur ki, biz məktəb və qəbul göstəriciləri arasında yüksək korrelyasiya ($r>0.9$) olmayanadək attestat qiymətlərinin qəbulda əlavə bal kimi nəzərə alınmasının tərəfdarı deyilik.

Qiymətləndirmə ilə bağlı qeyd olunan problem digər amillərlə yanaşı, həm də tam orta təhsil standartlarının yerlərdə eyni qaydada tətbiq edilməməsindən irəli gəlir. Qiymət meyarlarının məktəblərdə bir-birindən ciddi fərqlənməsi nəticəsində eyni hazırlıqlı şagirdin biliyi bir məktəbdə (rayonda) "əla", digər məktəbdə (rayonda) "kafi" qiymətləndirilir. Dövlət İmtahan Mərkəzi ümumtəhsil müəssisələrində qiymətləndirmənin vahid standartlar əsasında aparılması işinə kömək məqsədilə məktəb proqramlarına uyğun olaraq şagirdlərin biliyinin yoxlanılması və qiymətləndirilməsi üçün fənlər üzrə test kitabları nəşr edib. Kitablar Elm və Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiq edilib. Bu kitablarda qiymətləndirmənin 5 və 9 ballıq sistemdə standartları da təqdim olunub ki, hər bir məktəb bunun əsasında öz şagirdlərinin biliyini vahid qiymətləndirmə sistemi ilə ölçmək imkanı əldə etsin.

Cədvəl 1.19

ATTESTAT QİYMƏTLƏRİ VƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASI

SEÇMƏLƏR		CƏMİ	BAL İNTERVALLARI				
			0-100	100-200	200-300	300-500	500-700
İmtahan iştirakçıları	sayı	73429	11836	19585	16122	18808	7078
	faizi	100.0	16.12	26.67	21.96	25.61	9.64
İmtahan iştirakçıları (2022-ci ilin məzunları)	sayı	63018	9238	15525	13779	17639	6837
	faizi	100.0	14.66	24.64	21.87	27.99	10.85
2022-ci ilin məzunları (əlaçılar)	sayı	12006	149	907	1762	4961	4227
	faizi	100.0	1.24	7.55	14.68	41.32	35.21
2022-ci ilin məzunları (orta attestat balı 4.5-5 intervalında yerləşənlər, 4.5 daxil olmaqla)	sayı	18396	888	3636	4803	7085	1984
	faizi	100.0	4.83	19.77	26.11	38.51	10.78
2022-ci ilin məzunları (orta attestat balı 4-4.5 intervalında yerləşənlər, 4 daxil olmaqla)	sayı	17577	2507	5570	4657	4290	553
	faizi	100.0	14.26	31.69	26.49	24.41	3.15
2022-ci ilin məzunları (orta attestat balı 3.5-4 intervalında yerləşənlər)	sayı	8330	2382	3181	1737	966	64
	faizi	100.0	28.60	38.19	20.85	11.60	0.77
2022-ci ilin məzunları (orta attestat balı 3-3.5 intervalında yerləşənlər, 3.5 daxil olmaqla)	sayı	5344	2437	1876	728	297	6
	faizi	100.0	45.60	35.10	13.62	5.56	0.11
2022-ci ilin məzunları (orta attestat balı "3" olanlar)	sayı	1147	803	281	53	10	0
	faizi	100.0	70.01	24.50	4.62	0.87	0.00

Fənlər üzrə məktəb qiymətləri ilə qəbul imtahanlarında toplanılan balların müqayisəsi üçün abituriyentlərin hər bir fənn üzrə topladıqları balların məktəb qiymətləri ilə korrelyasiyası da araşdırılıb. Məlum olub ki, ümumtəhsil müəssisələrində nisbətən obyektiv qiymətləndirmə ana dili, riyaziyyat və xarici dil fənləri üzrə aparılır. Bu fənlər üzrə korrelyasiya əmsalı 0.58-0.59 intervalındadır. 2014-cü ildə xarici dil üzrə korrelyasiya əmsalı 0.42-yə bərabər olub. Amma son altı ildə buraxılış imtahanı fənləri siyahısına xarici dil fənni də daxil edildikdən sonra bu göstərici 0.58-ə yüksəlib. Ədəbiyyat, tarix, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə korrelyasiya əmsalları 0.33-0.46 intervalındadır.

2014-2022-Cİ İLLƏRDƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASININ MÜQAYİSƏSİ (BÜTÜN MƏZUNLAR NƏZƏRƏ ALINMAQLA)



Şəkil 1.17

Məlum olduğu kimi, 2015-ci ildən V qrup və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul cari ilin məzunları üçün buraxılış imtahanlarının nəticələri əsasında həyata keçirilib. Ona görə də V qrup ixtisaslarına və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər I–IV qruplar üzrə imtahanlarda iştirak etməyiblər. Nəticədə, 2014-cü illə müqayisədə 2015, 2016 və 2017-ci illərdə I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən cari il məzunlarının respublika üzrə bütün məzunların sayındakı payı 65.67%-dən müvafiq olaraq 58.71, 59.16 və 63.34%-dək azalmış, 2018 və 2019-cu illərdə əksinə olaraq bu pay müvafiq olaraq 67.33 və 72.41 faizə qədər artmış, 2020, 2021 və 2022-ci illərdə isə qismən azalaraq, müvafiq olaraq 70.97, 68.95 və 69.48% təşkil etmişdir. Ötən illər ərzində xüsusi qabiliyyət tələb edən ixtisaslara (V qrup) və orta ixtisas təhsili müəssisələrinə qəbul olanların əksəriyyətinin qəbul imtahanında 0–100 və 100–200 intervalında bal toplayanlardan ibarət olduqlarını nəzərə alsaq, deyə bilərik ki, 2014-cü illə müqayisədə 2015, 2016, 2017, 2018, 2019, 2020, 2021 və 2022-ci illərdə qəbul imtahanı ballarının paylanma spektrinə daxil olan orta və yüksək bal intervallarında (200–300, 300–500, 500–700) heç bir əhəmiyyətli dəyişiklik baş verməməlidir. Doğrudan da, 1.17 saylı şəkildən göründüyü kimi, ciddi dəyişiklik yalnız 0–100 intervalında bal toplayanların nisbi sayındadır. 200–300, 300–500 və 500–700 intervallarında bal toplayanların mütləq saylarını təhlil etdikdə görürük ki, 2015, 2016, 2017, 2018, 2019, 2020, 2021 və 2022-ci illərdə bu intervallarda nəticə göstərənlərin sayı 2014-cü illə müqayisədə qismən artıb (2014-cü ildə bu intervallar üzrə nəticə göstərən abituriyentlərin sayı, müvafiq olaraq, 9509, 12863 və 5440-a, 2015-ci ildə 9702, 13182 və 6153-ə, 2016-cı ildə 9713, 13589 və 6501-ə, 2017-ci ildə 9256, 14088 və 6865-ə, 2018-ci ildə 10036, 15049 və 8062-yə, 2019-cu ildə 11810, 17854 və 7266-ya, 2020-ci ildə 12240, 16732 və 6434-ə, 2021-ci ildə 11859, 16290 və 6623-ə, 2022-ci ildə isə 13779, 17639 və 6837-yə bərabər olub).

Bundan əlavə, hər bir fənn üzrə attestat qiyməti "kafi" və "əla" olan abituriyentlərin qəbul imtahanlarında müvafiq fəndən topladıqları nisbi balların bal intervalları üzrə paylanma histoqramları təhlil edilib. Məlum olub ki, fənlər üzrə attestat qiymətləri "3" olan abituriyentlərin əksəriyyəti qəbul imtahanlarında da analoji nəticə göstəriblər. Belə ki, bu abituriyentlərin ayrı-ayrı fənlər üzrə 74–96%-i 0–40 intervalında nisbi bal

toplamışdır. Deməli, yuxarıda da qeyd etdiyimiz kimi, ümumi təhsil məktəblərində verilən aşağı qiymətlər müəyyən edilmiş vahid standartlara xeyli dərəcədə uyğundur. Ancaq, təəssüf ki, "əla" ilə qiymətləndirmədə bunun əksini görürük (bax: cədvəl 1.20). Bu, özünü coğrafiya (II, III qruplar), kimya (I, IV qruplar) və tarix (II, III qruplar) fənləri üzrə qiymətləndirmədə daha qabarıq göstərir. Coğrafiya fənnindən əlaçı abituriyentlərin 40.27%-nin, kimya fənnindən 28.77%-nin və tarix fənnindən 27.39%-nin uyğun fənlər üzrə qəbul imtahanının II mərhələsində topladıqları nisbi balları 20-dən az olmuşdur. Əlaçı abituriyentlərin 80-100 bal intervalındakı nəticələrinə nəzər saldıqda görürük ki, bu abituriyentlərin ayrı-ayrı fənlər üzrə yalnız 5-23%-i 80–100 bal intervalında nəticə göstərərək özlərinin attestat qiymətlərini doğruldublar. Belə zəif nəticə göstərənlərin sayının çox olması fənlərin aşağı səviyyədə tədris olunması və qiymətləndirmədə standartlara əməl edilməməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, burada təhlil olunan göstəricilər qiymətləndirmənin respublika üzrə vəziyyətini ifadə edir. Lakin hər bir bölgənin fərqli göstəriciləri də ola bilər. Biz, sadəcə, bu sahədə problemlərin olduğunu və onun təhlil edilərək aydınlaşdırıla bilinməsi imkanlarını göstərdik. Bu baxımdan, hər bir bölgə müvafiq qaydada nəticələrini təhlil edib mövcud problemlərini üzə çıxara və onların həll olunması üçün tədbirlər görə bilər. Bölgələrdə bu işin hətta müəllimlər səviyyəsində də təhlil edilməsi mümkündür.

Cədvəl 1.20

FƏNLƏR ÜZRƏ ATTESTAT QİYMƏTLƏRİ "ƏLA" OLAN ABİTURİYENTLƏRİN NİSBİ BAL İNTERVALLARINA GÖRƏ PAYLANMASI (2022-Cİ İLİN MƏZUNLARI)

FƏNN		CƏMİ	BAL İNTERVALLARI				
			0 – 20	20 – 40	40 – 60	60 – 80	80 – 100
I mərhələ üzrə							
Ana dili	sayı	33320	568	2896	7827	13584	8445
	faizi	100.00	1.70	8.69	23.49	40.77	25.35
Riyaziyyat	sayı	24174	3207	5219	5147	5354	5247
	faizi	100.00	13.27	21.59	21.29	22.15	21.71
Xarici dil	sayı	30229	1954	5443	9053	8046	5733
	faizi	100.00	6.46	18.01	29.95	26.62	18.97
II mərhələ üzrə							
Ana dili (III qrup)	sayı	11170	975	1710	2522	3425	2538
	faizi	100.00	8.73	15.31	22.58	30.66	22.72
Ədəbiyyat (III qrup)	sayı	12106	1830	2571	3718	3142	845
	faizi	100.00	15.12	21.24	30.71	25.95	6.98
Riyaziyyat (I, II qruplar)	sayı	14684	3171	3204	3041	2822	2446
	faizi	100.00	21.59	21.82	20.71	19.22	16.66
Tarix* (II, III qruplar)	sayı	18477	5061	3885	3834	3483	2214
	faizi	100.00	27.39	21.03	20.75	18.85	11.98
Fizika (I, IV qruplar)	sayı	16255	4154	3434	2965	2783	2919
	faizi	100.00	25.56	21.13	18.24	17.12	17.96
Kimya (I, IV qruplar)	sayı	16040	4615	3540	2456	2219	3210
	faizi	100.00	28.77	22.07	15.31	13.83	20.01
Biologiya (IV qrup)	sayı	3361	419	721	823	777	621
	faizi	100.00	12.47	21.45	24.49	23.12	18.48
Coğrafiya (II, III qruplar)	sayı	9505	3828	2438	1679	1088	472
	faizi	100.00	40.27	25.65	17.66	11.45	4.97

* Qeyd: Tarix fənnindən göstəricilər Azərbaycan tarixi və ümumi tarix fənlərinin hər ikisindən "əla" qiymət alan abituriyentlərin göstəriciləri əsasında müəyyənləşmişdir.

Abituriyentlərin ballarının paylanma histoqramlarında assimmetriya mövcuddur
Ortastatistik abituriyentə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir.

Qəbul imtahanlarının nəticələri əsasında Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin topladıqları balların I–IV və V ixtisas qrupları üzrə paylanması müəyyənləşdirilib. Onlar cədvəl şəklində tərtib olunub (1.21, 1.22, 1.23 və 1.24 saylı cədvəllərə bax) və histoqramları (1.1, 1.2, 1.3, 1.4 saylı qrafiklərə bax) qurulub.

Qrafiklərdə Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin I–IV və V ixtisas qrupları üzrə topladıqları balların paylanma histoqramları və ədədi xarakteristikaları: riyazi gözləmə (orta qiymət) – M, abituriyentlərin seçməsini iki bərabər hissəyə ayıran bal (mediana) – Me, abituriyentlərin ballarının paylanmasında rast gəlmə ehtimalı ən yüksək olan bal (moda) təqdim edilib. Təhlil göstərir ki, I–IV ixtisas qruplarında hər iki bölmə üzrə abituriyentlərin ballarının paylanma histoqramları sağtərəfli assimmetriyaya malikdir. Bu o deməkdir ki, abituriyentlərin tam seçimində orta nəticə göstərən (Azərbaycan bölməsində 257.93, rus bölməsində 274.55 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir. Bununla belə, Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında fərqli cəhətlər mövcuddur. Bunlar aşağıdakılardır:

1. Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsində abituriyentlərin ballarının paylanma histoqramlarında assimmetriya nisbətən zəifdir. Azərbaycan və rus bölmələri abituriyentlərinin orta bal göstəriciləri arasındakı fərq ötən ilə nəzərən 14.77-dən 16.62-yə qədər artmışdır. Azərbaycan bölməsində abituriyentlərin 56.44, rus bölməsində isə 64.65%-i 200-dən çox bal toplamışdır. Digər tərəfdən, imtahanda iştirak edənlərin yarısının Azərbaycan bölməsində 227.10, rus bölməsində isə 254.37 baldan zəif nəticə göstərməsi, hər iki bölmədə abituriyentlərin hazırlığının günün tələbləri (dövlət tədris proqramları və təhsil standartları) səviyyəsində olmadığını təsdiqləyir.

2. Abituriyentlərin topladıqları balların ortastatistik[*] abituriyentin topladığı bala (seçmənin riyazi gözləmə qiymətinə) nəzərən səpələnməsi (paylanmanın dəyişkənliyi) ortakvadratik meyillə xarakterizə edilir. Ortakvadratik meyilin qiymətləri bölmələr üzrə test imtahanlarında toplanılan balların paylanmasının ədədi xarakteristikaları cədvəllərində göstərilib. Azərbaycan bölməsi üzrə bu göstərici 156.63, rus bölməsi üzrə 144.48 bala bərabərdir. Əslində, Azərbaycan və rus bölmələri üzrə toplanılan balların riyazi gözləmə (orta) qiymətləri bir-birindən fərqli olduğundan onların ortakvadratik meyillərini bilavasitə müqayisə etmək düzgün deyil. Müqayisə ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında aparılmalıdır. Belə müqayisə isə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 60.73%-ni təşkil etdiyi halda, rus bölməsində 52.62%-ni təşkil edir. Azərbaycan bölməsində ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmənin yüksək olması bu bölmənin qəbul imtahanlarında iştirak edən abituriyentlərinin bilikləri arasında daha ciddi qütbləşmənin mövcud olduğunu göstərir.

V ixtisas qrupu üzrə abituriyentlərin tam seçməsində orta bal ətrafında nəticə göstərən (Azərbaycan bölməsində 110.95, rus bölməsində 125.32 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlər sayca üstünlük təşkil edirlər. Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında bəzi fərqli cəhətlər mövcuddur. Belə ki, Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsi abituriyentlərinin ballarının paylanma histoqramlarında orta nəticə göstərən abituriyentlər daha çox üstünlük təşkil edir. İmtahanda iştirak edənlərin yarısı Azərbaycan bölməsində 101.50, rus bölməsində isə 121.30 baldan aşağı nəticə göstərib. Azərbaycan bölməsi üzrə ortakvadratik meyil 60.03, rus bölməsi üzrə 57.87 bala bərabərdir. Ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında müqayisə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 54.11%-ni təşkil etdiyi halda, rus bölməsində yalnız 46.18%-ni təşkil edir. Göründüyü kimi, ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmə hər iki bölmə üzrə yüksəkdir. Bu da o deməkdir ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərin bilikləri arasında ciddi qütbləşmə mövcuddur.

Qəbul imtahanlarının nəticələri əsasında ixtisas qrupları üzrə də abituriyentlərin topladıqları balların paylanması müəyyənləşdirilib. Onlara uyğun olan statistik sıralar jurnalın əlavələr hissəsində təqdim olunub (cədvəllər 6.10-6.19, bax: səh. 464-467).

[*] Burada ortastatistik abituriyent dedikdə, I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin bu imtahanda nümayiş etdirdikləri bilik və bacarıq baxımından ümumiləşdirilmiş obrazı nəzərdə tutulur.

Bölmə: Azərbaycan (I–IV qruplar)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə:	257.93	Minimal bal :	0.0
Ortakvadratik meyil:	156.63	Maksimal bal :	700.0
Moda :	110	Abituriyentlərin sayı :	66717
Mediana :	227.10		

Cədvəl 1.21

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	1	0.00	0.00	220 - 240	3157	4.73	53.05	460 - 480	1297	1.94	88.59
0 - 20	44	0.07	0.07	240 - 260	2922	4.38	57.43	480 - 500	1129	1.69	90.29
20 - 40	915	1.37	1.44	260 - 280	2630	3.94	61.37	500 - 520	1140	1.71	91.99
40 - 60	2702	4.05	5.49	280 - 300	2521	3.78	65.15	520 - 540	998	1.50	93.49
60 - 80	3628	5.44	10.93	300 - 320	2272	3.41	68.56	540 - 560	888	1.33	94.82
80 - 100	3854	5.78	16.70	320 - 340	2115	3.17	71.73	560 - 580	806	1.21	96.03
100 - 120	3889	5.83	22.53	340 - 360	1955	2.93	74.66	580 - 600	716	1.07	97.10
120 - 140	3652	5.47	28.01	360 - 380	1786	2.68	77.33	600 - 620	662	0.99	98.09
140 - 160	3599	5.39	33.40	380 - 400	1656	2.48	79.82	620 - 640	570	0.85	98.95
160 - 180	3483	5.22	38.62	400 - 420	1644	2.46	82.28	640 - 660	405	0.61	99.56
180 - 200	3295	4.94	43.56	420 - 440	1483	2.22	84.50	660 - 680	242	0.36	99.92
200 - 220	3175	4.76	48.32	440 - 460	1432	2.15	86.65	680 - 700	54	0.08	100.00

Qrafik 1.1



Bölmə: Rus (I–IV qruplar)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	274.55	Minimal bal :	2.3
Ortakvadratik meyil :	144.48	Maksimal bal :	677.9
Moda :	230	Abituriyentlərin sayı :	6712
Mediana :	254.37		

Cədvəl 1.22

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	220 - 240	367	5.47	46.28	460 - 480	135	2.01	89.26
0 - 20	3	0.04	0.04	240 - 260	348	5.18	51.46	480 - 500	130	1.94	91.19
20 - 40	37	0.55	0.60	260 - 280	353	5.26	56.72	500 - 520	120	1.79	92.98
40 - 60	147	2.19	2.79	280 - 300	283	4.22	60.94	520 - 540	93	1.39	94.37
60 - 80	242	3.61	6.39	300 - 320	340	5.07	66.00	540 - 560	81	1.21	95.58
80 - 100	279	4.16	10.55	320 - 340	275	4.10	70.10	560 - 580	96	1.43	97.01
100 - 120	283	4.22	14.76	340 - 360	215	3.20	73.30	580 - 600	60	0.89	97.90
120 - 140	340	5.07	19.83	360 - 380	213	3.17	76.47	600 - 620	48	0.72	98.61
140 - 160	338	5.04	24.87	380 - 400	200	2.98	79.45	620 - 640	53	0.79	99.40
160 - 180	347	5.17	30.04	400 - 420	178	2.65	82.11	640 - 660	26	0.39	99.79
180 - 200	357	5.32	35.35	420 - 440	195	2.91	85.01	660 - 680	14	0.21	100.00
200 - 220	366	5.45	40.81	440 - 460	150	2.23	87.25	680 - 700	0	0.00	100.00

Qrafik 1.2



Bölmə: Azərbaycan (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə:	110.95	Minimal bal:	0.0
Ortakvadratik meyil:	60.03	Maksimal bal:	300.0
Moda:	65	Abituriyentlərin sayı:	66488
Mediana:	101.50		

Cədvəl 1.23

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	31	0.05	0.05	100 - 110	3936	5.92	55.03	210 - 220	1173	1.76	94.06
0 - 10	41	0.06	0.11	110 - 120	3730	5.61	60.64	220 - 230	1005	1.51	95.57
10 - 20	529	0.80	0.90	120 - 130	3429	5.16	65.80	230 - 240	862	1.30	96.87
20 - 30	2444	3.68	4.58	130 - 140	3172	4.77	70.57	240 - 250	695	1.05	97.91
30 - 40	3930	5.91	10.49	140 - 150	2906	4.37	74.94	250 - 260	577	0.87	98.78
40 - 50	4180	6.29	16.78	150 - 160	2557	3.85	78.78	260 - 270	433	0.65	99.43
50 - 60	4276	6.43	23.21	160 - 170	2297	3.45	82.24	270 - 280	260	0.39	99.82
60 - 70	4499	6.77	29.98	170 - 180	2040	3.07	85.31	280 - 290	94	0.14	99.96
70 - 80	4351	6.54	36.52	180 - 190	1709	2.57	87.88	290 - 300	25	0.04	100.00
80 - 90	4355	6.55	43.07	190 - 200	1580	2.38	90.25				
90 - 100	4016	6.04	49.11	200 - 210	1356	2.04	92.29				

Qrafik 1.3



Bölmə: Rus (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə:	125.32	Minimal bal:	0.0
Ortakvadratik meyil:	57.87	Maksimal bal:	287.9
Moda:	85	Abituriyentlərin sayı:	5352
Mediana:	121.30		

Cədvəl 1.24

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	4	0.07	0.07	100 - 110	334	6.24	43.50	210 - 220	133	2.49	93.05
0 - 10	1	0.02	0.09	110 - 120	305	5.70	49.20	220 - 230	105	1.96	95.01
10 - 20	15	0.28	0.37	120 - 130	332	6.20	55.40	230 - 240	73	1.36	96.38
20 - 30	74	1.38	1.76	130 - 140	319	5.96	61.36	240 - 250	74	1.38	97.76
30 - 40	178	3.33	5.08	140 - 150	325	6.07	67.43	250 - 260	54	1.01	98.77
40 - 50	202	3.77	8.86	150 - 160	299	5.59	73.02	260 - 270	33	0.62	99.38
50 - 60	283	5.29	14.14	160 - 170	253	4.73	77.75	270 - 280	23	0.43	99.81
60 - 70	280	5.23	19.38	170 - 180	224	4.19	81.93	280 - 290	10	0.19	100.00
70 - 80	310	5.79	25.17	180 - 190	164	3.06	85.00	290 - 300	0	0.00	100.00
80 - 90	335	6.26	31.43	190 - 200	158	2.95	87.95				
90 - 100	312	5.83	37.26	200 - 210	140	2.62	90.56				

Qrafik 1.4



Məlum olduğu kimi, 2019-cu ildən orta ixtisas təhsili pilləsi, 2021-ci ildən etibarən isə yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslərə (subbakalavrlara) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququ verilmişdir. Onlar yalnız orta ixtisas təhsili pilləsində və ya yüksək texniki peşə təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçə biliblər. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları, eləcə də "ADA" Universitetinin və Bakı Ali Neft Məktəbinin ixtisaslarını seçə bilməyiblər. İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində (V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar istisna olmaqla) əvvəlcə abituriyentlərin, bundan sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılıb. V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar üzrə müsabiqə isə abituriyentlər və subbakalavrlar arasında eyni vaxtda aparılıb. Eyni yerə iddia edən abituriyent və subbakalavrın qabiliyyət imtahanı üzrə yekun balı bərabər olduğu təqdirdə üstünlük abituriyentə verilib. Bununla yanaşı, subbakalavrlara abituriyent kimi qəbul imtahanında iştirak etmək imkanı da yaradılmışdır. Qəbul imtahanında iştirak etmiş subbakalavrlar öz istəklərindən asılı olaraq həm imtahanda topladığı bal ilə ümumi qaydada (abituriyent kimi), həm də subbakalavr kimi orta ixtisas təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak etmişdir.

Qəbul imtahanında iştirak edən subbakalavrların bütövlükdə və imtahanın ayrı-ayrı mərhələləri üzrə topladıqları balların paylanmaları 1.5, 1.6 və 1.7 saylı qrafiklərdə göstərilmişdir. Qrafiklərdən də göründüyü kimi, subbakalavrların imtahan nəticələri zəifdir, histoqramlar isə sağtərəfli assimmetriyaya malikdir.

İmtahanın I mərhələsində iştirak edən 889 subbakalavrın topladıqları balların riyazi gözləməsi 83.26-ya bərabər olmuş, onların yarısı 78.1 baldan az bal toplamışdır. V ixtisas qrupuna müsabiqənin imtahanın I mərhələsinin nəticələri əsasında aparıldığını və bu mərhələdə ən azı 60 bal toplayanların müsabiqəyə buraxıldığını (xoreoqrafiya sənəti istiqaməti üzrə ən azı 30 bal toplayanlar müsabiqəyə buraxılıb) nəzərə alsaq, imtahanda iştirak edən subbakalavrların 26.32%-i (234 nəfər) müsabiqə şərtini ödəməmişdir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.5

1.6 saylı qrafikdə subbakalavrların imtahanın II mərhələsində topladıqları balların paylanması təqdim olunmuşdur. Göründüyü kimi, subbakalavrların yarısı mümkün olan 400 baldan heç 35-ni toplaya bilməmiş və riyazi gözləmə 49.07-yə bərabər olmuşdur. I-IV ixtisas qruplarına aid olan ixtisasların müsabiqəsində iştirak etmək üçün qoyulan minimal tələbi (imtahanın II mərhələsində ən azı 100 bal toplayanlar müsabiqəyə buraxılıblar) bu mərhələdə abituriyent kimi iştirak edən subbakalavrların cəmi 12.42%-i (58 nəfər) ödəmiş, qalan 87.58%-i isə 100-dən az bal toplayaraq minimal tələbi ödəyə bilməmişdir.

1.7 saylı qrafikdə də qəbul imtahanının hər iki mərhələsində iştirak edən subbakalavrların topladıqları balların paylanması təqdim olunmuşdur. Onu da qeyd edək ki, subbakalavrların ali təhsil müəssisələrinə qəbulu üçün müsabiqə onların diplom balları əsasında aparılmışdır. Apardığımız araşdırma göstərir ki, qəbul imtahanının I mərhələsində iştirak edən subbakalavrların diplom balları ilə onların imtahanda topladıqları ballar arasında heç bir stoxastik əlaqə yoxdur və korrelyasiya əmsalı 0.16-ya bərabərdir. Bu isə diplom ballarının obyektiv olmadığını və subbakalavrların ali təhsil müəssisələrinə qəbulunun onların hazırlıq səviyyələrinə görə deyil, təsadüfi qaydada aparılmasını göstərir.

Subbakalavrların I-IV ixtisas qrupları üzrə əldə etdikləri imtahan nəticələrini tam seçmə ilə (imtahanda iştirak edən abituriyentlər və subbakalavrlar (abituriyent kimi iştirak edənlər) birlikdə) müqayisə etdikdə, subbakalavrların nəticələrinin zəif olduğu nəzərə çarpır. I-IV ixtisas qrupları üzrə imtahanda abituriyent kimi iştirak edən subbakalavrların topladıqları balların riyazi gözləməsi 140.75 bal olduğu halda, tam seçmədə bu göstərici 1.84 dəfə böyük olub (259.45 bal). Onu da qeyd edək ki, imtahanda iştirak edən subbakalavrların yarısı 89.4 baldan aşağı nəticə göstərib, tam seçmə üzrə bu göstərici isə 229.9-a bərabər olub. Subbakalavrların ixtisas seçimində iştirak etdiyini nəzərə alsaq, onların göstəricilərini ixtisas seçimində iştirak edən abituriyentlərlə müqayisə etmək daha ədalətli olardı və burada biz müqayisənin daha acınacaqlı olduğunu görürük. Belə ki, ixtisas seçimində iştirak edən abituriyentlərin qəbul imtahanında topladıqları balların riyazi gözləməsi (341.83) imtahanda iştirak edən subbakalavrların analoji göstəricisindən 2.4 dəfə böyükdür.

Bütün bu qeyd olunanlar onu göstərir ki, imtahan vermədən ali təhsil müəssisələrinə qəbul olmaq imkanı əldə etmiş subbakalavrların hazırlıq səviyyəsi (imtahanın nəticələri əsasında) ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin hazırlıq səviyyəsindən çox aşağıdır. Bu isə ali təhsil müəssisələrində tədris zamanı müəyyən problemlərin ortaya çıxmasına səbəb ola bilər. Fikrimizcə, ali təhsil müəssisələrində subbakalavr kimi qəbul olanlar üçün xüsusi tədris planı hazırlanmalıdır və onların mütəxəssis kimi hazırlığı bu tədris planı çərçivəsində onlarla daha intensiv məşğul olmaqla həyata keçirilməlidir.

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.6

QƏBUL İMTAHANININ HƏR İKİ MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN ÜMUMİLİKDƏ TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.7

Müasir dünyada inkişaf və iqtisadi yüksəliş üçün ən zəruri amillərdən biri ölkələrdə keyfiyyətli təlim-tədrisi təmin edən effektiv təhsil sistemlərinin qurulmasıdır. Təhsil sistemlərində səmərəliliyi təmin edən həlledici amillərdən biri isə işlək qiymətləndirmə sisteminin yaradılması və onun təkmilləşdirilərək inkişaf etdirilməsidir.

Bu baxımdan, klassik test nəzəriyyəsi əsasında qəbul imtahanlarında istifadə edilən tapşırıqların etibarlılığı hesablanmışdır. Məlum olmuşdur ki, fənlər üzrə testlərin etibarlılıq əmsalının Küder-Riçardson (KR-20) və Split-Half metodları vasitəsilə hesablanmış qiymətləri 0.83-0.98 intervalındadır. Etibarlılıq əmsalının aşağı həddi kimi, adətən, 0.70 qiyməti qəbul edildiyindən, əminliklə təsdiq etmək olar ki, bu il qəbul imtahanlarında bütün fənlər üzrə kifayət qədər etibarlı testlərdən istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, testoloji praktikada testlərin etibarlılığı, bir qayda olaraq, 0.8-0.9 intervalında dəyişir.

İxtisas qrupuna aid olan fənlərin çəki əmsalları və fənlər üzrə testlərin etibarlılıq əmsalları nəzərə alınmaqla bütövlükdə hər bir qrup üzrə testin etibarlılıq əmsalı Mosye (Mosier) düsturu əsasında hesablanmışdır. Bütün ixtisas qrupları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, qrup testlərinin etibarlılıq əmsalları 0.94-0.98 intervalında yerləşir. Rəqəmlər göstərir ki, bu il qəbul imtahanlarında fənlər üzrə istifadə edilən testlərin kompozisiyası əsasında tərtib edilmiş qrup testləri də yüksək etibarlılıq keyfiyyətinə malik olmuşdur.

Qəbul imtahanlarına hazırlıqda sınaq imtahanlarının xüsusi yeri vardır. Bu imtahanlarda abituriyent imtahan texnologiyası ilə tanış olur, qəbul imtahanında istifadə ediləcək test modeli və imtahan meyarları əsasında öz bilik səviyyəsini qiymətləndirmək imkanı əldə edir. Abituriyentin sınaq imtahanlarında əldə etdiyi nəticələrlə qəbul imtahanındakı nəticələri arasındakı stoxastik əlaqələri müəyyən etmək məqsədilə onların müvafiq imtahan göstəriciləri (ümumi balları və fənlər üzrə nisbi balları) arasında korrelyasiya əmsalları hesablanıb və təhlil edilib. 1.25 saylı cədvəldə abituriyentlərin sınaq və qəbul imtahanı nəticələri arasında korrelyasiya əmsallarının hesablanmış qiymətləri ixtisas qrupları üzrə təqdim edilib.

Cədvəldən göründüyü kimi, bütün ixtisas qruplarında abituriyentlərin sınaq və qəbul imtahanlarının nəticələri arasında sıx stoxastik əlaqə mövcuddur. Bu əlaqələr həm imtahan fənləri üzrə toplanılan nisbi ballar, həm də ümumi ballar arasında özünü büruzə verir.

Ən yüksək stoxastik əlaqə II ixtisas qrupunu təmsil edən abituriyentlərin nəticələrində özünü göstərir. Bu qrupda abituriyentlərin sınaq və qəbul imtahanlarındakı ümumi balları arasındakı xətti əlaqənin sıxlıq səviyyəsi çox yüksəkdir və korrelyasiya əmsalı 0.91-ə bərabərdir. Qeyd etmək lazımdır ki, korrelyasiya əmsalı vahidə yaxınlaşdıqca stoxastik əlaqə funksional əlaqəyə yaxınlaşır.

II ixtisas qrupunda abituriyentlərin ayrı-ayrı imtahan fənlərindən sınaq və qəbul imtahanlarında topladıqları nisbi ballar arasındakı xətti əlaqələrin sıxlığını ifadə edən korrelyasiya əmsalları 0.780-dən (tarix fənni üzrə) 0.844-ə (riyaziyyat fənni üzrə) qədər dəyişir. Göründüyü kimi, fənlər üzrə korrelyasiya əmsalının variasiyası kiçikdir.

Fənlər üzrə nisbətən zəif stoxastik əlaqə I və IV ixtisas qruplarında fizika, III ixtisas qrupunda isə ədəbiyyat fənni üzrə müşahidə olunur. Qeyd ounan fənlər üzrə korrelyasiya əmsalları müvafiq olaraq 0.748, 0.731 və 0.714 olmuşdur.

Sınaq və qəbul imtahanlarında abituriyentlərin topladıqları ümumi ballar arasında mövcud olan belə sıx stoxastik əlaqələr imtahanlarda istifadə edilən test modellərinin yüksək etibarlılığa malik olduğunu nümayiş etdirir.

Cədvəl 1.25

SINAQ VƏ QƏBUL (II MƏRHƏLƏ) İMTAHANLARININ NƏTİCƏLƏRİ ARASINDA KORRELYASİYA ƏMSALLARI

№	İXTİSAS QRUPU	Ümumi	İMTAHAN FƏNLƏRİ							
			Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.884			0.852	0.748	0.830			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	0.905			0.844				0.780	0.822
III	Humanitar, pedaqogika ixtisasları	0.889	0.826	0.714					0.806	0.799
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.905				0.731	0.861	0.823		

Bu gün gənclərimizin aldıqları təhsilin məzmunu XXI əsrin tələblərinə cavab verməlidir. İnformasiya cəmiyyətinin formalaşdığı müasir dövrdə təhsil müəssisəsi (məktəb və ya universitet) gənclərə düşünməyi, zəruri informasiyanı müstəqil şəkildə əldə etməyi, informasiya bolluğu şəraitində düzgün istiqamət götürməyi, analitik və yaradıcı şəkildə düşünə bilməyi öyrətməlidir. Əlbəttə, bütün bu amillər qəbul imtahanlarının məzmununa da öz tələblərini verir.

DİM hər bir imtahan layihəsini tərtib edərkən, ilk növbədə onun məqsədini müəyyən edir: kimi seçirik?

Tələbə qəbulunda qarşıya qoyulan əsas məqsəd seçdiyi ixtisas üzrə ali təhsil müəssisələrində təhsilalma qabiliyyətinə malik olan abituriyentlərin seçilməsidir. Bu vəzifənin həyata keçirilməsi üçün istifadə edilən test tapşırıqları valid, yəni düzgün seçimetmə keyfiyyətinə malik olmalıdır. Bununla əlaqədar, DİM biliyin qiymətləndirilməsi üzrə beynəlxalq təcrübəyə əsaslanmaqla ardıcıl olaraq test tapşırıqlarının həm məzmununda, həm tərtibində, həm də təqdimat formalarında təkmilləşdirmə işləri aparır. Belə işlərdən biri də son illər qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə testlərdə nəzəri biliklərin bilavasitə tətbiqinə aid test tapşırıqlarının sayının artırılmasıdır. Nəticədə, qeyri-standart düşüncə və yaradıcılıq tələb edən məsələlər artdıqca abituriyentlərin bir hissəsinin topladığı bal ötən illərlə müqayisədə azalmış, lakin bununla belə, yüksək bal diapazonunda (500–700 bal) biliyin qiymətləndirilməsi və onun əsasında abituriyentlərin sıralanması daha dəqiq aparılmışdır. Bu dəyişiklik qəbul imtahanına hazırlaşarkən əzbərçiliyə üstünlük verən abituriyentlərin imtahan nəticələrinə öz təsirini göstərmişdir. Belə abituriyentlər, adətən, məktəb kursunda öyrənilən fiziki, kimyəvi və bioloji proseslərin, riyazi çevirmələrin məğzini anlamağa cəhd etmir, təbiət hadisələrinin səbəb-nəticə əlaqələrini izah etməkdə çətinlik çəkirlər. Bu gün tələbə adı qazananların, xüsusilə də 500 – 700 arasında bal toplayan gənclərin nəticələrinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, DİM ali təhsil müəssisələrinin I kursları üçün bilik və bacarıqları ali təhsil almağa imkan verən tələbə kontingenti seçmişdir.

Öz gələcəyini düşünən hər bir cəmiyyət var gücünü ona yönəldir ki, bütün təbəqələrdən olan insanların təhsil almaq imkanları maksimal dərəcədə bərabərləşsin. Təhsil sistemi gənclərə şəxsi uğur əldə etməyə, öz bacarıq və səyləri əsasında cəmiyyətdə layiqli yer tutmağa bərabər şanslar verməlidir. Qəbul imtahanlarının nəticələri bir daha təsdiq edir ki, bunun üçün ölkəmizdə real sosial lift qurulub və bu mexanizm uğurla fəaliyyət göstərməkdədir.

DİM 1992–2010-cu illərdə keçirilən qəbul imtahanlarında abituriyentlərə yalnız qapalı tipli test tapşırıqları təqdim edirdi. 2011-ci ildə ilk dəfə olaraq ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarında riyaziyyat fənni üzrə test blokuna qapalı tipli test tapşırıqları ilə yanaşı, 5 açıq tipli test tapşırığı da daxil edilmişdi. Beləliklə, bütün ixtisas qruplarında riyaziyyat fənnindən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdu. Açıq tipli test tapşırıqlarının mürəkkəblik dərəcəsi orta və çətin idi. 2012–2014-cü illərdə açıq tipli test tapşırıqlarının daxil olduğu fənlər I ixtisas qrupu üzrə fizika və riyaziyyat, II qrup üzrə coğrafiya və riyaziyyat, III qrup üzrə tarix və riyaziyyat, IV qrup üzrə isə kimya və riyaziyyat fənləri olmuşdur. Sadaladığımız fənlərdən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdur. 2015-ci ildən 2018-ci ilədək bütün ixtisas qruplarında açıq tipli test tapşırıqlarının daxil olduğu fənlərin sayı artırılmışdır. Həmin fənlər bunlardır: I ixtisas qrupu üzrə kimya, II və III qruplar üzrə ana dili, IV qrup üzrə isə biologiya fənni. Açıq tipli test tapşırıqlarının təqdim olunduğu üç fənnin hər birinin test blokunda 21 test tapşırığı qapalı, 4 test tapşırığı isə açıq tipli olmuşdur.

Məlum olduğu kimi 2019-cu ildə ilk dəfə qəbul imtahanı iki mərhələdə keçirilib. Bununla yanaşı, ilk dəfə olaraq imtahanın hər iki mərhələsində abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları da təqdim olunub. Bu cür test tapşırıqları bizə abituriyentlərin bacarıq və vərdişlərinin qiymətləndirilməsi üçün geniş imkanlar yaradır. Belə ki, bu tapşırıqları vasitəsilə abituriyentlərin məktəbdə əldə etdikləri bilikləri real həyatda, praktikada istifadə etmək bacarıqları öyrənilir və qiymətləndirilir. Nəzəri biliklərin real situasiyada tətbiqi kimi vərdişlər gələcək mütəxəssislər üçün ən vacib keyfiyyətlərdən sayılır. Bu məqsədlə abituriyentlərə yazılı şəkildə cavablandırılması üçün I mərhələdə ana dili fənni üzrə 10, riyaziyyat fənni üzrə 7, xarici dil fənni üzrə 7, ümumilikdə 24, II mərhələdə isə hər bir imtahan fənni üzrə 3, ümumilikdə 9 test tapşırığı təqdim olunmuşdur. Bu tip tapşırıqlar 0, $\frac{2}{3}$, 1, $\frac{4}{3}$ və 2 balla qiymətləndirilmişdir. 2020 və 2021-ci illərdə ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar yaranmış çətinliklər nəzərə alınaraq qəbul imtahanlarında müəyyən sadələşdirilmələr aparılmışdır. Belə ki, qəbul imtahanlarının I mərhələsində imtahanında abituriyentlərə təqdim olunan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların sayı 24-dən 12-yə (hər fənn üzrə 4 tapşırıq) salınmış, 2022-ci ildə isə yenidən əvvəlki formata qayıdılmış və tapşırıqların sayı 24 olmuşdur. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu tip tapşırıqlara hətta qapalı test tapşırıqları üzrə yüksək nəticə göstərən abituriyentlərin arasında da zəif cavab verənlər az deyil. Məsələn, II qrupda riyaziyyat fənnindən 13 qapalı tapşırığın ən azı 10-na (təxminən 77%-nə) düzgün cavab verən abituriyentlərin yarıdan çoxu (51.25%) yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə toplanıla biləcək maksimal balın yalnız üçdə birinə qədərini toplaya bilib, onlardan 19.43%-i isə, ümumiyyətlə, bu tip test tapşırıqlarının heç birini düzgün cavablandıra bilməyib.

Qeyd etmək lazımdır ki, yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar abituriyentlərin qiymətləndirilməsində geniş imkanlar açdığı kimi, bu tapşırıqların yoxlanılması və qiymətləndirilməsi də çox böyük resurs hesabına mümkün olur. Qiymətləndirmənin keyfiyyətli və obyektiv aparılması xeyli vaxt və maliyyə tələb edir. Əgər bu tapşırıqların yoxlama prosesini sürətləndirməyə çalışsaq, o zaman yoxlamanın keyfiyyəti aşağı düşər və obyektiv qiymətləndirmədə problemlər yaranar. O da qeyd olunmalıdır ki, bu tip tapşırıqlar əvvəlcədən təlim keçmiş və seçilmiş markerlər tərəfindən yoxlanılır. Proses elə qurulmuşdur ki, insan faktoru qiymətləndirməyə heç bir təsir göstərməsin. Bunu apellyasiyada yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə şikayətlərin az olması da təsdiq edir. Apellyasiyaya müraciət etmiş 3241 abituriyentdən (imtahanda iştirak edənlərin (135538) 2.39%-i) 388-nin iddiası təmin edilmiş və onların yazı işlərinin qiymətlərində müvafiq düzəlişlər edilmişdir. Digər iddialarla bağlı isə, tapşırıqların yerinə yetirilməsində abituriyentlərin yol verdikləri səhvlər ekspertlər tərəfindən izah edilmişdir.

Qəbul imtahanının II mərhələsində abituriyentlərə hər bir imtahan fənni üzrə 22 qapalı, 8 açıq tipli tapşırıq təqdim olunub. Açıq tipli tapşırıqların 5-i cavabları kodlaşdırılan, 3-ü isə yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar olub. Qapalı və açıq tipli tapşırıqlar arasındakı xətti əlaqəni ifadə edən korrelyasiya əmsalı ixtisas qrupları və imtahan fənləri üzrə müxtəlifdir. II mərhələdə qapalı və açıq tipli test tapşırıqları arasındakı korrelyasiya əmsalı I qrupda riyaziyyatdan 0.82, fizikadan 0.81, kimyadan 0.85, II qrupda riyaziyyatdan 0.72, tarixdən 0.76, coğrafiyadan 0.75, III qrupda Azərbaycan dilindən 0.71, ədəbiyyatdan 0.75, tarixdən 0.79, coğrafiyadan 0.39, IV qrupda fizikadan 0.86, kimyadan 0.83, biologiyadan 0.79 olub.

Açıq tipli test tapşırıqlarına əsasən qapalı tipli test tapşırıqları üzrə orta və yüksək bal toplayan abituriyentlər cavab vermişdir. Belə abituriyentlərin müxtəlif fənlərdən qapalı tipli test tapşırıqları üzrə düzgün cavabvermə faizi 40-dan yüksək olub. Onlar I ixtisas qrupunda riyaziyyat, fizika və kimya fənləri üzrə, müvafiq olaraq, seçmənin 46.96, 41.69 və 40.01%-ni, II ixtisas qrupunda riyaziyyat, tarix və coğrafiya fənləri üzrə 22.82, 40.29 və 43.09%-ni, III ixtisas qrupunda Azərbaycan dili, ədəbiyyat, tarix və coğrafiya fənləri üzrə 71.85, 66.58, 56.87 və 10.69%-ni, IV ixtisas qrupunda isə fizika, kimya və biologiya fənləri üzrə 65.24, 62.44 və 76.78%-ni təşkil edib.

Təqdim edilən rəqəmlərdən görünür ki, açıq tipli test tapşırıqları, ilk növbədə orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən fərqləndirməyə xidmət edib. Məsələn, I ixtisas qrupunda qapalı tipli tapşırıqların ən azı 40%-ni düzgün cavablandıran abituriyentlərin riyaziyyat fənnindən cavabları kodlaşdırılan açıq tipli test tapşırıqlarına verdikləri düzgün cavabların sayına görə paylanmasına nəzər yetirək: onların 20.80%-i açıq tipli test tapşırıqlarının 1-nə, 22.30%-i 2-nə, 18.79%-i 3-nə, 14.36%-i 4-nə, 8.74%-i 5-nə düzgün cavab verib, qalan 15.01%-i isə heç birinə düzgün cavab verə bilməyib. Bu seçmənin yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqarı üzrə topladıqları balların miqdarına görə paylanmasına nəzər yetirdikdə isə bir az fərqli mənzərə ilə qarşılaşırıq: həmin abituriyentlərin 28.81%-i bu tip tapşırıqlar üzrə maksimum 2 bal, 28.05%-i 2-4 bal (2 daxil deyil), 19.93%-i 4-6 bal (4 daxil deyil) bal toplaya bilib və qalan 23.21%-i isə, ümumiyyətlə, bal toplaya bilməyib. İdeal halda abituriyentlərin diferensiasiyası üçün açıq tipli test tapşırıqları orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsinin səviyyəsinə tam uyğun olsa idi, onları cavabları kodlaşdırılan açıq tipli test taprşırıqları üzrə sayca 6 bərabər hissəyə (altseçməyə), yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqları üzrə isə 4 bərabər hissəyə bölərdi. Reallıqda açıq tipli test tapşırıqları vasitəsilə tam seçmə, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanmaların ideal paylanma ilə müqayisəsi göstərir ki, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanma ideala daha yaxındır. Deməli, açıq tipli test tapşırıqları, həqiqətən, orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən daha dəqiq fərqləndirməyə imkan vermişdir.

Ortastatistik abituriyent fənlər üzrə təhsil proqramının yalnız 27-57 faizini mənimsəyir.

Ali təhsil müəssisələrinə imtahan vermiş abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda ortastatistik portreti müəyyənləşdirilib. Belə ki, Azərbaycan bölməsində ortastatistik abituriyent I mərhələdə ana dili fənnindən test tapşırıqlarının 49.28, riyaziyyatdan 30.35, ingilis dilindən 38.12%-nə, II mərhələdə ana dilindən 51.22, ədəbiyyatdan 43.76, riyaziyyatdan 30.69, fizikadan 37.96, kimyadan 35.54, biologiyadan 52.58, tarixdən 36.78, coğrafiyadan 29.47%-inə düzgün cavab verib*.

Rus bölməsində ortastatistik abituriyent isə I mərhələdə ana dili fənnindən test tapşırıqlarının 56.02, riyaziyyatdan 30.99, ingilis dilindən 52.19%-nə, II mərhələdə ana dilindən 56.74, ədəbiyyatdan 52.26, riyaziyyatdan 31.40, fizikadan 36.95, kimyadan 34.18, biologiyadan 46.53, tarixdən 29.42, coğrafiyadan 26.82%-ni düzgün cavablandırıb. Abituriyentlərin cavab göstəricilərindən aydın olur ki, ortastatistik abituriyent fənlər üzrə testlərin yalnız 27-57 faizinə düzgün cavab verib. Test tapşırıqlarının təhsil proqramı çərçivəsində hazırlandığını və bu çərçivədən kənara çıxmadığını, qəbul imtahanında iştirak edənlərin məktəbin seçilən şagirdləri olduğunu nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, ortastatistik məzun təhsil proqramının 43–73%-ni mənimsəmir. Bu isə ümumi təhsil müəssisələrimizin böyük qismində tədris prosesinin normal aparılmamasından, tələbkarlığın zəifliyindən, ən başlıcası isə müəllimlərin çoxunun peşəkarlıq səviyyəsinin aşağı olmasından və tədris prosesində yeni təlim üsulları və texnologiyalarından istifadə edə bilməməsindən irəli gəlir. Odur ki, bu sahədə həyata keçirilməsi vacib olan digər tədbirlərlə yanaşı, müəllimlərin müasir elmi əsaslarla ixtisasının artırılması, ali təhsil müəssisələrində pedaqoji kadrların hazırlanması səviyyəsinin yüksəldilməsi və gələcək müəllimlərə lazımi pedaqoji-metodiki bilik və bacarıqların aşılanması məsələləri diqqət mərkəzində olmalıdır.

Qeyd olunanlarla yanaşı, abituriyentləri yüksək nəticələr qazanan qabaqcıl rayonların, məktəblərin, eləcə də yüksək nəticələri ilə fərqlənən müəllimlərin qabaqcıl təcrübəsi öyrənilməli və yayılmalıdır.

Abituriyentlərin imtahan fənlərinə cavablarının ortastatistik göstəriciləri qruplar üzrə aşağıdakı cədvəllərdə təqdim olunur.

* Hər hansı bir seçmə (bölmə və ixtisas qrupları) üzrə ortastatistik abituriyentin ixtiyari fəndən düzgün cavablarının faizi dedikdə, həmin seçməyə daxil olan abituriyentlərin fənn üzrə düzgün cavablarının sayının orta qiymətinin test tapşırıqlarının ümumi sayına nəzərən faizi başa düşülür.

Cədvəl 1.26

AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	49.96	38.63	39.85			36.06	35.47	33.39			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	48.43	27.87	35.79			21.75				30.57	31.07
III	Humanitar, pedaqogika ixtisasları	61.28	28.81	46.18	51.04	43.60					42.16	16.76
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	65.67	54.17	57.62				52.61	47.92	51.37		
V	İncəsənət, musiqi, idman ixtisasları	47.28	28.06	35.84								

Cədvəl 1.27

RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	55.45	39.06	53.25			36.30	34.55	31.75			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	53.91	29.54	50.99			23.04				25.12	28.75
III	Humanitar, pedaqogika ixtisasları	61.44	23.25	56.13	56.63	52.24					32.76	17.37
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	67.27	48.27	65.27				44.72	41.96	46.04		
V	İncəsənət, musiqi, idman ixtisasları	52.17	26.27	46.87								

Test ölçü alətidir. Onun elmi baxımdan düzgün istifadə edilməsi və alınmış nəticələrin düzgün şərhi (interpretasiyası) çox əhəmiyyətlidir. Bu səbəbdən testin tərtib və istifadə edilməsinin bütün mərhələləri testologiyanın tələblərinə uyğun həyata keçirilməlidir.

Müasir test nəzəriyyəsi müəyyən qabiliyyətə malik olan sınaq iştirakçısının test tapşırığına düzgün cavabvermə ehtimalını bir (test tapşırığının çətinlik səviyyəsi), iki (test tapşırığının çətinlik və diskriminasiya səviyyəsi) və üçparametrli (test tapşırığının çətinlik, diskriminasiya və cavabı təsadüfi şəkildə tapma səviyyəsi) logistik funksiyalarla ifadə olunan riyazi modellər əsasında qiymətləndirir.

DİM test tapşırıqları bankının parametrləndirilməsi üzrə bir sıra tədbirlər həyata keçirir: test tapşırıqlarının sınaqdan keçirilməsi və sonradan nəticələrinin emalı – test tapşırıqlarının kalibrlənməsi aparılır. Test tapşırıqlarının parametrləndirilməsi iki model – Rasch və ikiparametrli logistik model əsasında həyata keçirilir. Rasch modelində bütün test tapşırıqları eyni diskriminasiya (ayırdetmə) göstəricisinə malikdir. Bu, əslində, çox sərt fərziyyədir və praktikada özünü nadir hallarda doğruldur. İkiparametrli logistik modeldə isə test tapşırıqlarının diksriminasiya göstəriciləri bir-birindən fərqlənir. Bu modelin Rasch modelinə nəzərən üstünlüyü onun empirik (real) məlumatlarla daha yüksək uzlaşma səviyyəsinə malik olmasıdır. İkiparametrli logistik model əsasında bilik və bacarıqların qiymətləndirilməsi BILOG-MG proqram təminatı əsasında aparılır.

Təbiidir ki, praktikada bütün test tapşırıqları riyazi modellə uzlaşmır və model işlədiləndə onunla uzlaşmayan test tapşırıqları atılmalı olur. Belə hallar, əsasən, test tapşırıqlarında müxtəlif qüsurların, məsələn, üstünlüyə malik distraktorun, yaxud çox zəif diskriminasiya xassəsinin olmasının nəticəsidir.

Model tətbiq edilərkən sınaq iştirakçılarının motivasiya səviyyəsi də nəzərə alınmalıdır. Başqa sözlə, informasiyanın emalı prosesində sınaq iştirakçısının imtahan prosesində mümkün olan ən yüksək nəticəni əldə etmək marağı hesaba alınmalıdır. Bununla əlaqədar olaraq test tapşırıqları parametrləndirildikdə, onlara cavab verməkdən çoxlu sayda imtina edən abituriyentlər sınaq iştirakçıları seçməsindən çıxarılır.

Yeni testlərin tərkibində parametrləndirilmiş tapşırıqlardan istifadə edilməsi testləşdirmə aparılan fənn üzrə qabiliyyət göstəricisi şkalasına yeni test tapşırıqlarının əlavə edilməsinə imkan verir. Beləliklə, kalibrlənmə həyata keçirildikdən sonra eyni tapşırıqlara malik olmayan müxtəlif testlərin nəticələrini müqayisə etmək imkanı yaranır. Bununla yanaşı, müxtəlif imtahanlarda eyni imtahan iştirakçılarının olması da, bu imtahanlardakı testlərin nəticələrini müqayisə etməyə imkan verir.

Bu il Azərbaycan dili və riyaziyyat fənlərindən imtahan testləri tərtib edilərkən məhz ikinci metoddan istifadə olunmuşdur. Bu da bütün ixtisas qruplarında imtahan verən abituriyentlərin qabiliyyət səviyyələrinin elmi cəhətdən əsaslandırılmış müqayisəsini aparmağa imkan vermişdir.

DİM-in müxtəlif ixtisas qruplarında tətbiq etdiyi testlər eyni struktura malik deyil və onlar müvafiq qrupların kontingentinin qabiliyyətini mümkün qədər dəqiq üzə çıxarmağa və yoxlamağa istiqamətlənib. Testlərin strukturlarındakı müxtəliflik onların informasiya funksiyalarının təhlil prosesində istifadə edilən test tapşırıqlarının sayına görə normallaşdırılmış qrafiklərində özünü göstərir. Təqdim edilən informasiya funksiyaları (bax: qrafiklər 1.8 və 1.9) müvafiq qabiliyyətə malik abituriyentlər testdən keçirildikdə orta hesabla bir test tapşırığına düşən informasiyanın miqdarını təyin etməyə imkan verir. İnformasiya miqdarı nə qədər çox olarsa, qabiliyyəti ölçmə xətası da bir o qədər az olar. Qrafiklərdən göründüyü kimi, bütün informasiya funksiyaları maksimum nöqtəsinə malikdir və bu nöqtə hansı qabiliyyətə malik olan abituriyentlər testdən keçirildikdə ölçmə xətasının minimal olduğunu göstərir. Məsələn, Azərbaycan dilindən testlərin ən kiçik ölçmə xətası III ixtisas qrupunda qabiliyyət göstəricisi -0.75 loqit olan abituriyentlər üçün təmin edilir (bax: qrafik 1.8).

Qəbul imtahanı testinin məqsədi abituriyentləri ranqlara ayırmaq olduğundan onun ən yüksək ölçmə dəqiqliyi məhz müsabiqədə iştirak edən abituriyentlərin daha çox cəmləşdiyi intervalda əldə edilməlidir. Azərbaycan dili fənni üzrə III ixtisas qrupunda testin informasiya əyrisinin qabiliyyət göstəricilərinin paylanma histoqramı ilə müqayisəsi (1.8 saylı qrafik) də bizə bunu əyani şəkildə göstərir və göründüyü kimi, abituriyentlərin daha çox cəmləşdiyi yerdə onların qabiliyyətləri daha dəqiq qiymətləndirilir. Belə ki, əgər Azərbaycan dili fənni üzrə orta və yüksək qabiliyyətə malik olan abituriyentlər III ixtisas qrupunda sayca daha çox müşahidə olunursa, onda III ixtisas qrupunun Azərbaycan dili testinin informasiya funksiyasının müvafiq intervaldakı qiyməti də maksimal olmalıdır.

Riyaziyyat fənni üzrə I və II ixtisas qruplarında testlərin informasiya əyrilərinin qabiliyyət göstəricilərinin paylanma histoqramları ilə müqayisəsinə (1.9 saylı qrafik) baxdıqda, bir qədər fərqli mənzərənin şahidi oluruq. I və II ixtisas qrupları üzrə informasiya əyrilərindən göründüyü kimi, abituriyentlərə təqdim olunan testlər nəzərdə tutulduğu kimi daha çox orta və yüksək qabiliyyətli abituriyentləri bir-birilərindən fərqləndirmək və həmin hissələrdə onların qabiliyyət göstəricilərini daha dəqiq ölçmək üçün nəzərdə tutulub. Lakin bu ixtisas qrupları üzrə qabiliyyət göstəricilərinin paylanma histoqramına baxdıqda belə məlum olur ki, abituriyentlərin böyük hissəsi riyaziyyat fənni üzrə aşağı və orta qabiliyyət səviyyələrinə malikdirlər. DİM-in qəbul imtahanlarında təqdim olunan testlərin ümumorta təhsil müəssisələrinin tədris proqramları çərçivəsində hazırlandığını nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, şagirdlərin riyaziyyat fənni üzrə hazırlıq səviyyələri qənaətbəxş deyil.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.8

RİYAZİYYAT FƏNNİNDƏN İXTİSAS QRUPLARI ÜZRƏ İNFORMASİYA ƏYRİLƏRİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI





Qrafik 1.9

1.18 və 1.19 saylı şəkillərdəki diaqramlarda tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələr üzrə qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən, müvafiq olaraq, Azərbaycan dili və riyaziyyatdan yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına görə tərkibləri təqdim edilmişdir. Məlum olduğu kimi, II mərhələdə Azərbaycan dili fənni üzrə yalnız III ixtisas qrupunun, riyaziyyat fənni üzrə isə yalnız I və II ixtisas qruplarının abituriyentləri imtahan verdiklərindən II mərhələnin nəticələrinə əsasən abituriyentlərin daha çox hansı ixtisas qruplarını seçdiklərini görmək mümkün deyil. Bu səbəbdən də mənzərəni tam şəkildə görmək üçün qəbul imtahanının I mərhələsənin nəticələri götürülüb.

1.18 saylı şəkildəki diaqramdan göründüyü kimi, Azərbaycan dili fənnindən yüksək qabiliyyətə malik abituriyentlər daha çox III ixtisas qrupunu təmsil edirlər: 5 faizli altseçmədə 43.01%, 10 faizli altseçmədə 42.77% və 15 faizli altseçmədə 42.98%. Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətə malik olan gənclər III qrupla yanaşı, digər ixtisas qruplarında da təmsil olunublar. Onlar müvafiq hazırlıq keçdikləri halda III ixtisas qrupu abituriyentlərinə real rəqabət göstərə bilərdilər. Azərbaycan bölməsi abituriyentlərinin ixtisas qruplarına görə bölgüsünü nəzərə alsaq (I qrupda – 40.94%, II qrupda – 25.61%, III qrupda – 27.48%, IV qrupda – 5.97%), onda Azərbaycan dili üzrə yüksək qabiliyyətli abituriyentlərin istəklərinin qütbləşməsi aşkar şəkildə nəzərə çarpar. Çünki 5 faizli altseçmədə I və II qrupların abituriyentləri, müvafiq olaraq, cəmi 26.20% və 12.82% təşkil etdiyi halda, III və IV qrupların abituriyentləri, artıq 43.01 və 17.97% təşkil edir. Göründüyü kimi, I və II qruplarda 5 faizli altseçmədə abituriyentlərin nisbi sayı tam seçmədən, müvafiq olaraq, 1.56 və 2.00 dəfə az, III və IV qruplarda isə müvafiq olaraq, 1.57 və 3.01 dəfə çox olub.

Ötən illə müqayisədə bu il Azərbaycan dilindən yüksək qabiliyyətə malik olan abituriyentlərin nisbi sayı I, II və IV ixtisas qruplarında artıb (I qrupda 20.49%-dən 26.20%-ə, II qrupda 12.58%-dən 12.82%-ə qədər, IV qrupda 17.70%-dən 17.97%-ə qədər). III ixtisas qrupunda isə, əksinə, belə abituriyentlərin nisbi sayı azalmışdır (III qrupda 49.23%-dən 43.01%-ə qədər). Nəzərinizə çatdıraq ki, tam seçmədə abituriyentlərin sayı 2021-ci ilə nəzərən I və II qruplarda artıb (I qrupda 39.88%-dən 40.94%-ə, II qrupda 22.98%-dən 25.61%-ə qədər), III və IV qruplarda isə azalmışdır (III qrupda 30.35%-dən 27.48%-ə qədər, IV qrupda 6.79%-dən 5.97%-ə qədər).

Riyaziyyat fənnində tamamilə fərqli mənzərə müşahidə olunur (bax: 1.19 saylı şəkil). Burada 5 faizli altseçmədə I ixtisas qrupunun abituriyentləri sayca ən çoxdur (53.52%). I və IV qrupların abituriyentlərinin nisbi çəkiləri (müvafiq olaraq, 53.52% və 22.95%) onların tam seçmədəki nisbi çəkilərini (müvafiq olaraq, 40.65% və 6.34%) üstələyir. Bütün bunlar onu göstərir ki, I və IV ixtisas qruplarını seçən abituriyentlərin içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi daha çoxdur. II və III ixtisas qruplarında, əksinə, bu qrupları seçənlərin (müvafiq olaraq, 25.51% və 27.49%) içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi (müvafiq olaraq, 12.80% və 10.73%) daha azdır. Qeyd edək ki, ötən illərlə müqayisədə cari ildə riyaziyyat fənnindən yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına olan meyilləri dəyişmişdir. Məsələn, 2018-ci illə müqayisə 2022-ci ildə belə abituriyentlərin I ixtisas qrupu üzrə nisbi çəkisi 15.05% artmışdır (38.47%-dən 53.52%-ə qədər). II ixtisas qrupu üzrə isə, əksinə, bu qrupu seçənlərin həm 5 faizli altseçmədəki nisbi çəkiləri 12.10% (24.90%-dən 12.80%-ə qədər) azalmışdır.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.18

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.19

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən ayrı-ayrı fənlər üzrə oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələrinin paylanmasını ayrılıqda əks etdirən histoqramların (1.10 və 1.11 saylı qrafiklərə bax) müqayisəsi qızların həm Azərbaycan dili, həm də riyaziyyatdan üstünlüyə malik olduğunu göstərir. Lakin riyaziyyat fənni üzrə bu üstünlük Azərbaycan dilindən fərqli olaraq çox cüzidir.

Azərbaycan dili üzrə qabiliyyət səviyyəsinin paylanmasını əks etdirən histoqramların (1.10 saylı qrafik) müqayisəsi göstərir ki, nisbətən yüksək qabiliyyət intervalında qızlar, aşağı qabiliyyət intervalında isə oğlanlar sayca üstünlük təşkil edir. Histoqramlar üzrə hesablamalar göstərir ki, hər 100 qız abituriyentdən 59–60–nın qabiliyyəti 0.00 loqitdən yüksək olduğu halda, hər 100 oğlan abituriyentdən qabiliyyətləri həmin intervalda yerləşənlərin sayı cəmi 40–41 nəfərdir. Beləliklə, bu intervalda fərq 19% təşkil edir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI (2022-Cİ İLİN MƏZUNLARI)



Qrafik 1.10

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN RİYAZİYYAT FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI (2022-Cİ İLİN MƏZUNLARI)



Qrafik 1.11

Riyaziyyat fənni üzrə qabiliyyət səviyyələrinin paylanmasında isə bir qədər başqa mənzərə müşahidə olunur (1.11 saylı qrafikə bax). Burada oğlan abituriyentlərin qabiliyyət göstəriciləri qızların göstəricilərinə yaxın olmuşdur. Azərbaycan dilindən fərqli olaraq riyaziyyat fənni üzrə oğlan və qızların qabiliyyət səviyyələrinin paylanmaları arasındakı fərq kiçikdir.

Qabiliyyətlərin ortakvadratik meyillə ifadə edilmiş vahidlərdə fərqlərini müqayisə etdikdə də həmin nəticəyə gəlmək mümkündür. Azərbaycan dili üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_a=1.182 olduğunu nəzərə alsaq, onda fərq aşağıdakı kimi olacaq:

$$\frac{0.241 + 0.277}{1.182} = 0.44\sigma_a$$

Riyaziyyat üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_r=1.207 olduğunu nəzərə alanda fərq:

$$\frac{-0.378 + 0.449}{1.207} = 0.06\sigma_r$$

bərabər olacaq.

Beləliklə, oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələri arasındakı fərq müvafiq ortakvadratik meyilin Azərbaycan dilində 44, riyaziyyatda isə 6 faizinə bərabərdir.

1.20 və 1.21 saylı şəkillərdəki diaqramlarda oğlan və qızların tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələri üzrə Azərbaycan dili və riyaziyyatdan qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin nisbi sayları faizlə təqdim edilmişdir. Diaqramlardan göründüyü kimi, Azərbaycan dilindən ən yüksək qabiliyyətə malik olan 5 faizli altseçmədə hər 100 abituriyentdən 67-68-i qız, 32-33-ü oğlan, riyaziyyatdan ən yüksək qabiliyyətə malik olan 5 faizli altseçmədə hər 100 abituriyentin 49-50-si oğlan, 50-51-i qızdır.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.20

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.21

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin ixtisas qrupları üzrə tərkibinin (bax: cədvəl 1.28 və 1.29) təhlili göstərir ki, Azərbaycan dili üzrə yüksək qabiliyyətə malik olan oğlanların III ixtisas qrupuna istəkləri tam seçməni təmsil edən ortastatistik oğlan abituriyentin həmin qrupa nümayiş etdirdiyi istəkdən yüksəkdir. Doğrudan da, 5 faizli altseçmə səviyyəsində III ixtisas qrupunun oğlan abituriyentlərinin nisbi sayı tam seçməyə nəzərən təxminən 2.2 dəfə artmışdır. Azərbaycan dilindən yüksək qabiliyyətə malik oğlan abituriyentlər III ixtisas qrupu ilə yanaşı, IV ixtisas qrupuna da üstünlük verirlər (nisbi sayı isə təxminən 4.5 dəfə çox olub). Qız abituriyentlərin seçimində də belə tendensiya III və IV ixtisas qruplarında müşahidə olunur. Burada 5 faizli altseçmə səviyyəsində qız abituriyentlərin istəyi tam seçməyə nəzərən III qrupda 1.2, IV qrupda 2.2 dəfə yüksəkdir. Digər tərəfdən, qeyd etmək lazımdır ki, Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətli oğlanların və qızların I və II qrupların ixtisaslarını seçmə ehtimalı tam seçməyə nəzərən müvafiq olaraq I qrupda 1.3 və 1.5 dəfə, II qrupda 1.8 və 1.9 dəfə zəifdir.

Cədvəl 1.28

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI (2022-Cİ İLİN MƏZUNLARI)

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**32.50**	39.93	18.37	29.33	12.37	**67.50**	19.58	10.15	49.59	20.67
10%	**33.80**	40.60	20.32	28.21	10.86	**66.20**	20.98	10.17	50.20	18.66
15%	**34.26**	41.43	21.49	27.86	9.22	**65.74**	21.62	10.67	50.86	16.84
İmtahan iştirakçılarının paylanması	**50.41**	51.99	32.25	13.05	2.72	**49.59**	29.71	18.86	42.14	9.28

Cədvəl 1.29

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI (2022-Cİ İLİN MƏZUNLARI)

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**49.11**	63.32	15.12	7.73	13.83	**50.89**	44.06	10.57	13.62	31.75
10%	**49.06**	63.74	16.90	8.39	10.97	**50.94**	43.59	11.90	17.07	27.44
15%	**48.80**	63.52	18.21	8.83	9.44	**51.20**	43.31	12.28	20.01	24.40
İmtahan iştirakçı-larının paylanması	**50.37**	52.12	31.89	13.02	2.97	**49.63**	29.01	19.04	42.18	9.77

Riyaziyyatdan yüksək qabiliyyətə malik olan oğlan abituriyentlər I qrupun ixtisaslarına üstünlük verirlər. Belə ki, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin 63.32%-i ərizələrində bu qrupu seçib.

Riyaziyyatdan yüksək qabiliyyətə malik qız abituriyentlər seçməsində bir az fərqli mənzərənin şahidi oluruq. Belə ki, bu cür abituriyentlər daha çox I və IV ixtisas qruplarına üstünlük verirlər və riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin müvafiq olaraq 44.06 və 31.75%-i ərizələrində bu qrupları seçib.

Riyaziyyatdan yüksək qabiliyyətə malik həm oğlan, həm qız abituriyentlər III qrupa elə də meyil göstərməyiblər. Oğlan abituriyentlərin tam seçməsinin 13.02%, qız abituriyentlərin 42.18%-i bu qrupu seçmələrinə baxmayaraq, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı müvafiq olaraq 1.7 və 3.1 dəfə az olub. IV ixtisas qrupunda isə bunun tam əksini görürük. 1.29 saylı cədvəldən də göründüyü kimi oğlan abituriyentlərin 2.97%-i, qız abituriyentlərin 9.77% IV ixtisas qrupunu seçdiyi halda yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı tam seçməyə nəzərən müvafiq olaraq 4.7 və 3.2 dəfə çox olub.

Fənlər üzrə elmi-metodiki təhlil və tövsiyələr

Ötən ildə olduğu kimi, 2022-ci ildə də qəbul qaydalarına əsasən tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı qəbul imtahanının birinci mərhələsinə, ixtisas qrupları üzrə imtahanlar isə ikinci mərhələsinə aid olub. Ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanları iki dəfə keçirilib.

Təqdim olunan bu təhlil qəbul imtahanlarının ikinci mərhələsinə aiddir.

İlin əvvəlindən ali təhsil müəssisələrinə qəbul imtahanlarının məzmunu ilə bağlı və imtahanlara hazırlaşanlara metodik kömək məqsədilə materialların hazırlanmasına başlanılıb. "Abituriyent" jurnalının birinci sayında qəbul imtahanlarında müvafiq fənn kurikulumları üzrə tələblərinin yoxlanılması və qiymətləndirilməsi mümkün olan seçilmiş alt standartlar, dərsliklərdə həmin tələblərin reallaşdırılması üçün verilmiş təlim materiallarına uyğun mövzular əsasında hazırlanmış qəbul proqramları və imtahan modellərinə uyğun tapşırıq nümunələri dərc edilib. Proqramlara 11-ci sinif şagirdlərinin 5–10-cu siniflərdə oxuduqları dərsliklərlə istifadədə olan həmin sinif dərsliklərində eyni olan mövzular daxil edilib. Dərsliklərə yeni daxil olmuş və ya çıxarılmış mövzular və mübahisəli məqamlar proqramlara daxil edilməyib. Tarix fənni üzrə qəbul proqramına "Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi) və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa aid I Dövlət Proqramı", coğrafiya fənnindən isə Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanına əsasən, respublikanın iqtisadi rayonlarının yeni bölgüsünə aid "Azərbaycanın iqtisadi rayonları" mövzuları daxil edilib. Qeyd edilən mövzular hələlik dərsliklərdə öz əksini tapmasa da, aktuallığı nəzərə alınaraq həmin mövzulara dair materiallar internet saytında yerləşdirilib və "Abituriyent" jurnalının ikinci sayında dərc olunub.

İmtahan modelləri hazırlanarkən məktəb kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınıb. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması məqsədilə imtahan modellərinə nəzəri biliklərin tətbiqi tələb olunan, məntiqi düşüncəyə əsaslanan, səbəb-nəticə əlaqələri üzərində qurulan tapşırıqlar daxil edilib.

İmtahanlara hazırlaşanlara metodik kömək baxımından materialların hazırlanması əvvəlki illərdə olduğu kimi Dövlət İmtahan Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edib.

Abituriyentlərin qəbul imtahanlarına müstəqil hazırlaşmalarına kömək məqsədilə fənlər üzrə vəsaitlər və siniflər üzrə qiymətləndirmə vasitələri kitabçalarının təkmilləşdirilmiş variantları nəşr olunub.

Bütün imtahan fənləri üzrə təcrübəli ekspertlərin internet vasitəsilə qəbul proqramlarına aid video-məsləhətləri təşkil edilib. Qəbul proqramlarının mövzularına dair 154 videomühazirə təkmilləşdirilib və **"*Youtube*"** kanalına yerləşdirilib. Mühazirələr təqdim edilmiş nəzəri materialların tətbiqinə dair test tapşırıqları ilə də müşayiət olunub.

Qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 4 (hər biri 1 variant olmaqla) onlayn sınaq variantı (Azərbaycan və rus dillərində), həmçinin qeyri-Azərbaycan dilində təhsil alanlar üçün Azərbaycan dili (dövlət dili) və riyaziyyat (ingilis dilində) fənlərindən də sınaq variantları hazırlanıb və *otk.az* portalına yerləşdirilib.

Beləliklə, ilin əvvəlindən abituriyentlərə qəbul proqramlarındakı mövzular və imtahanlarda hansı tipli tapşırıqların istifadə ediləcəyi barədə məlumat verilib.

İmtahanlarda I ixtisas qrupu üzrə riyaziyyat, fizika, kimya, II ixtisas qrupu üzrə riyaziyyat, coğrafiya, tarix, III ixtisas qrupu üzrə tədris dili, ədəbiyyat, tarix, IV ixtisas qrupu üzrə biologiya, kimya, fizika

fənlərinin hər birindən 30 tapşırıq (hər ixtisas qrupu üzrə ümumilikdə 90 tapşırıq) istifadə edilib. Bunlardan: 22-si qapalı (verilənlərdən bir doğru cavabın müəyyən edilməsi), 5-i cavabları kodlaşdırılan açıq tipli (hesablama, seçim və uyğunluğu müəyyən etmək), 3-ü isə yazılı şəkildə cavablandırılması tələb edilən, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən riyaziyyat, fizika, kimya, coğrafiya və biologiya fənlərindən situasiyaya, Azərbaycan dili (rus dili) və ədəbiyyat fənlərindən mətnə, tarix fənnindən isə mənbəyə aid tapşırıqlar olub. Həmçinin qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 9 sentyabr tarixli 252 nömrəli Qərarına əsasən III ixtisas qrupuna daxil olan ixtisasların TC altqrupuna daxil edilən "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisaslarının müsabiqəsində iştirak etmək istəyən abituriyentlər qəbul imtahanının II mərhələsində Azərbaycan (rus) dili və tarix fənləri ilə yanaşı, coğrafiya fənnindən də imtahan veriblər.

Abituriyentlərin bilik və bacarıqlarını hərtərəfli yoxlamaq məqsədilə test bloklarına qabiliyyət göstəricilərinə görə terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, öncəgörmə və təklif olunan fəaliyyət xarakterli, mürəkkəblik dərəcəsinə görə sadə, orta çətinlikli və çətin tapşırıqlar daxil edilib. İmtahan bloklarında məntiqi düşünmə və nəzəri biliklərin tətbiqi tələb olunan, proses və hadisələrin mahiyyətinin dərk edilməsinə imkan verən, səbəb və nəticə əlaqələri əsasında qurulan tapşırıqlara üstünlük verilib. Həmçinin imtahanlarda Eyler-Venn diaqramı və klaster formalı tapşırıqlardan istifadə olunub.

Ötən illərdə olduğu kimi, bu il də qəbul imtahanları üçün sual kitabçaları qapalı şəraitdə ekspertlər tərəfindən hazırlanıb. İmtahanlar keçirilən günlərdə qapalı rejimdə yekun ekspertiza keçirilib, qapalı, cavabları kodlaşdırılan açıq tipli tapşırıqların doğru cavab etalonları və cavabları yazı ilə ifadə olunan açıq tipli tapşırıqların qiymətləndirilmə meyarları dəqiqləşdirilərək təsdiq edilib. Həmçinin imtahan keçirilən günlərdə imtahanlardan dərhal sonra aparılmış müstəqil ekspertiza nəticəsində qapalı və cavabları kodlaşdırılan açıq tapşırıqların etalonları bir daha təsdiq edilərək Dövlət İmtahan Mərkəzinin "***Youtube***" kanalı vasitəsilə canlı yayımla ictimaiyyətə təqdim olunub.

Cavabları yazı ilə ifadə olunan tapşırıqlar müəyyən vaxt ərzində markerlər tərəfindən yoxlanılıb və nəticələr DİM-in internet saytında elan edilib.

Ötən illərdə olduğu kimi, yenə də imtahanlarda istifadə olunmuş tapşırıqlar fənlər üzrə işçi qruplarında imtahan nəticələrinin statistik göstəriciləri əsasında mürəkkəblik dərəcəsi, qabiliyyət göstəriciləri və məzmun baxımından təhlil edilib. Təhlil nəticəsində tapşırıqların respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan fənn kurikulumlarının təlim nəticələrinə, imtahanlarda mənimsənilməsi yoxlanıla və qiymətləndirilə bilən alt standartların tələblərinə və dərsliklərdəki materiallar əsasında hazırlanmış qəbul proqramlarına uyğunluğu bir daha təsdiqini tapıb. Tapşırıqlar aydın dildə, məntiqi cəhətdən əsaslı, düzgün tərtib olunmuş, sual və cavabların əlaqələndirilməsində dolaşıqlığa yol verilməmişdir. Burada mübahisəli, proqram və dərslikdənkənar məsələlərə də yer verilməmişdir. Test tapşırıqlarında nəzəri biliklə təcrübi materialların əlaqələndirilməsi, müxtəlif mövzuların qarşılaşdırılması, inteqrasiyası ilə məntiqi nəticələrin əldə edilməsinə də lazımi diqqət göstərilmişdir. Həmçinin təhlil nəticəsində bir daha təsdiq edilib ki, tapşırıqlarla müvafiq fənn kurikulumunun təlim nəticələrinə uyğun bilik və bacarıqları yoxlayıb qiymətləndirmək mümkün olub.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri tapşırıqlar müəyyənləşdirilib, onların izahlarına dair metodik tövsiyələr hazırlanıb və müvafiq fənlər üzrə test banklarının təkmilləşdirilməsi üçün təkliflər verilib.

Aşağıda fənlər üzrə hazırlanmış metodik tövsiyələr təqdim olunur.

Azərbaycan bölməsində ***Azərbaycan dili*** fənnindən III ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar fənn kurikulumunun 3 məzmun xətti üzrə (**"Oxu"**, **"Yazı"** və **"Dil qaydaları"**) 4 əsas və 65 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanında daha çox **"Dil qaydaları"** məzmun xəttinin təlim nəticələrinə aid bilik və bacarıqlar yoxlanılıb qiymətləndirilmişdir. Bu məqsədlə test blokuna qapalı və cavabları kodlaşdırılan açıq tipli tapşırıqlar daxil edilmişdir. Mətn tapşırıqları ilə isə digər məzmun xətlərinin təlim nəticələrinə aid bilik və bacarıqlar yoxlanılmışdır.

Tapşırıqlarla aşağıdakı bilik və bacarıqların yoxlanılması, qiymətləndirilməsi nəzərdə tutulub:

- öyrəndiyi söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah etmək;
- söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə etmək;
- mətnin hissələrini (giriş, əsas hissə, nəticə), abzasları, cümlələri, onlar arasında bağlama vasitələrini təhlil etməklə məzmunun aydın ifadə olunmasına təsirini izah etmək;

– mövzuya uyğun üslub seçməklə fikirlərini yazılı şərh etmək,
– üslubi tələblər baxımından özünün və başqasının yazısını təkmilləşdirmək;
– qrammatik-semantik xüsusiyyətlərini gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə etmək;
– nitqin düzgünlüyünü və ifadəliliyini təmin edən durğu işarələrindən istifadə etmək;
– mətnin tərtibatına və üslubuna uyğun düzgün yazı bacarıqları nümayiş etdirmək və s.

Test tapşırıqlarının imtahan nəticələrinin statistik göstəriciləri əsasında aparılan təhlili göstərir ki, abituriyentlər ana dilinin qayda-qanunlarını öyrənməyə səy göstərmiş, onlarda bu sahədə nəzəri və praktik bilikləri əlaqələndirə bilmə qabiliyyəti, əsasən, formalaşmışdır. Ana dilinin saflaşdırılması yolunda ciddi addımların atıldığı indiki dövrdə bunun əhəmiyyəti böyükdür. Çünki gənc nəsil ana dilini daha yaxşı mənimsəməyə, ondan qüsursuz istifadə etməyə önəm verir.

Təhlilin nəticəsi həm də müxtəlif mövzularda olan tapşırıqların abituriyentlər tərəfindən cavablandırılma səviyyəsinin fərqli olduğunu deməyə əsas verir. Bu hal daha çox mövzunun tədrisi və təkrar edilməsi vəziyyəti ilə bağlıdır. Abituriyentlərin daha yaxşı cavablandırdıqları mövzular sözlərin səs və hərf tərkibinə görə təhlili, sözün kök və şəkilçi tərkibinin müəyyənləşdirilməsi, sadə cümlə, cümlə üzvləri və s.-dir.

Zəif cavablandırılan mövzular feilin şəkilləri, tabeli mürəkkəb cümlə, cümlə üzvlərinin ifadə vasitələri, sözlərin semantik xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə bağlıdır.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

6-cı sinif

4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.

21 may tarixli imtahan, A variantı, 5 saylı test tapşırığı

Sxemdəki hansı sözlərin yeri dəyişdirilsə, yol verilmiş ***səhv*** aradan qalxar?

Feilin iki müxtəlif şəklində başa düşülən sözlər	*Feilin bir şəklində başa düşülən sözlər*
1. içir	4. yazdım
2. köçürdü	5. bitirsə
3. başladım	6. qopararsa

A) 1 ↔ 5 B) 3 ↔ 6 C) 2 ↔ 6 D) 2 ↔ 5 E) 2 ↔ 4

6-cı sinif "Azərbaycan dili" dərslik materialına aid bu test tapşırığına abituriyentlərin 22,87%-i doğru cavab verib, 11,94%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün feilin şəkillərini bilmək lazımdır. Feilin şəkilləri görülən işə münasibəti ifadə edir; bunların içərisində yalnız əmr və xəbər şəkillərinin şəkilçisi – morfoloji əlaməti yoxdur, qalanların hər biri özünəməxsus şəkilçiyə malikdir. Feilin zamanları ayrıca kateqoriya olsa da, hadisə və faktın başvermə zamanını bildirdiyindən feilin xəbər şəkli kimi də qiymətləndirilir. Feilin şəkillərinin 11 forması vardır ki, onlardan yalnız biri – əmr şəkli xüsusi şəkilçisiz kimi çıxış edir. Bu şəkillər müxtəlif formalara malik olsalar da, şəxs şəkilçisi ilə işləndikdə və ya başqa quruluşlara malik olduqda bəzi iki şəkil eyni fonetik tərkibdə görünür. Bunların müəyyənləşdirilməsi üçün sözün ayrı-ayrılıqda hansı morfoloji tərkibdə işlədilə bilməsinə diqqət yönəltmək lazımdır.

Birinci bənddəki "içir" sözünü iki cür təhlil etmək olar: birinci halda *-ir* leksik şəkilçi kimi düşünülə bilir və feildən düzələn feil kimi şəkil şəkilçisinə malik deyil. Başlanğıc formada çıxış edir, ona görə də əmr şəklindədir. Həmin sözü başqa cür də təhlil etmək olar: "iç" feili *-ir* indiki zaman şəkilçisi ilə işlənmişdir, bu baxımdan xəbər şəklindədir.

İkinci söz (köçürdü) də iki cür təhlil edilə bilir: 1) *-ür* – indiki zaman, *-dü idi* köməkçi sözünün (hissəciyinin) şəkilçiləşmiş variantıdır, deməli, xəbər şəklindədir. 2) *-ür* feildən feil yaradan leksik, *-dü* şühudi keçmiş zaman şəkilçisidir. Bu halda da xəbər şəklindədir.

Üçüncü söz (başladım) də iki cür izah oluna bilir: 1) *-la* "baş" ismindən, *-d* (-t) feildən feil yaradan leksik, *-m* (-ım) birinci şəxsin təkində əmr şəklində şəxs sonluğudur, deməli, söz əmr şəklindədir. 2) *-la* "baş" ismindən feil yaradan leksik, *-dı* şühudi keçmiş zaman, -m (-ım) birinci şəxsin təkində şəxs sonluğudur. Deməli, birinci halda əmr, ikinci halda xəbər şəklindədir – iki müxtəlif şəkil kimi düşünülə bilir.

İkinci cərgədəki sözlərdən birinci (yazdım) sözü yalnız bir cür izah etmək olar: "yaz" feili *-dı* şühudi keçmiş və *-m* (am) şəxs şəkilçisi qəbul edib, xəbər şəklindədir. İkinci söz (bitirsə) iki cür təhlil edilə bilir: 1) *-ir* indiki zaman, *-sə isə* köməkçi sözünün (hissəciyinin) şəkilçiləşmiş variantı, deməli, xəbər şəklindədir. 2) *-ir*

feildən feil düzəldən leksik, *-sə* şərt şəklinin şəkilçisi, deməli, şərt şəklindədir. Ona görə də iki şəkil kimi izah oluna bilir. Üçüncü söz (qopararsa) də bir cür izah edilir: *-ar* feildən feil düzəldən leksik, ikinci *-ar* qeyri-qəti gələcək, *-sa isə* köməkçi sözünün (hissəciyinin) şəkilçiləşmiş variantı, deməli, xəbər şəklindədir. Təhlildən məlum olur ki, "köçürdü" sözü ikinci, "bitirsə" sözü isə birinci cərgəyə keçirilərsə, cədvəldə yol verilmiş səhv aradan qalxar.

Doğru cavab: D

8-ci sinif

4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.

21 may tarixli imtahan, A variantı, 23 saylı test tapşırığı

Cədvələ əsasən ***yanlış*** fikirləri müəyyən edin.

1.	Mübtəda adlıq halda olan söz və söz birləşmələri ilə ifadə olunur.	doğru
2.	Təyinlər mürəkkəb adlarla ifadə oluna bilmir.	doğru
3.	Zərflik hərəkətin icrasını və əlamətin meydana çıxmasını müxtəlif cəhətlərdən izah edir.	yanlış
4.	Yer zərfliyi feili bağlama ilə ifadə oluna bilmir.	doğru
5.	İsmi xəbər həm adlar, həm feillər, həm də suala cavab vermədən müstəqil cümlə üzvü kimi işlənə bilən sözlərlə ifadə oluna bilər.	yanlış

VIII sinif dərslik materialına aid nəzəri fikirləri ifadə edən bu test tapşırığına abituriyentlərin 12,96%-i doğru cavab verib, 11,81%-i isə cavab verməkdən imtina edib.

Cədvəlin 1-ci bəndindəki fikir (Mübtəda adlıq halda olan söz və söz birləşmələri ilə ifadə olunur) düzgündür, ona görə də verilən cavabla (doğrudur) uyğundur. 2-ci bənddəki fikir səhvdir, çünki təyin mürəkkəb adla da ifadə oluna bilir (Məsələn: ***Xəzər dənizindəki*** *gəmilər neft daşınmasında da iştirak edir*), lakin bu bəndin qarşısında "doğru" sözü yazıldığından 2-ci bəndi düzgün hesab etmək olmaz. 3-cü bənddəki fikir (Zərflik hərəkətin icrasını və əlamətin meydana çıxmasını müxtəlif cəhətlərdən izah edir) doğrudur, lakin qarşısında "yanlış" sözü yazıldığından bənd bütünlükdə yanlış sayılır. 4-cü bənddəki fikir doğrudur, çünki yer məzmunlu feili bağlama olmadığı üçün feili bağlamanın yer zərfliyi funksiyası da yoxdur. Bu fikrin qarşısında da "doğru" sözü yazıldığından bənd özü də bütünlükdə doğrudur. Nəhayət, 5-ci bənddəki fikir doğrudur, lakin qarşısında "yanlış" sözü yazıldığından bənd yanlış olur.

Doğru cavab: 2, 3, 5

6-cı sinif

4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.

21 may tarixli imtahan, A variantı, 24 saylı test tapşırığı

Hansı cümlələrdə ədatın müxtəlif məna növlərinə aid nümunələr işlənmişdir?

1. Hətta avtomobil təmiri idarəsində yenicə işə düzəlib.
2. Məhz bu gün rayona getməlisən ha.
3. Elə indi bütün fikirlərimi məhz ona deyəcəyəm.
4. Kaş bu işdə ancaq məni günahkar bilməyə.
5. Bax tapşırdıqlarımı da gətir ha.
6. Yəni bu işi səndən yaxşı görən varmı?

VII sinif dərslik materialına aid bu test tapşırığına abituriyentlərin 17,93%-i doğru cavab verib, 8,97%-i isə cavab verməkdən imtina edib.

Məlumdur ki, ədat sözlərin və cümlələrin mənasını qüvvətləndirən, təsir gücünü artıran köməkçi nitq hissəsidir. Ədatın qüvvətləndirici, sual, məhdudlaşdırıcı, dəqiqləşdirici, əmr, arzu, təsdiq və inkar növləri vardır. Test tapşırığında ədatın müxtəlif məna növlərinə aid nümunələrin işləndiyi cümlələrin müəyyənləşdirilməsi tələb olunur. 1-ci cümlədə köməkçi nitq hissələrinə aid "hətta" və "yenicə" sözünün tərkibində olan "-cə" ədatları işlənmişdir. "Hətta" sözü qrammatik omonim olaraq həm bağlayıcı, həm ədat kimi çıxış edə bilir. Bu söz iki bərabərhüquqlu söz və ya cümlə arasında işlənib onların bağlanmasında iştirak edərsə, birləşdirmə bağlayıcısı olar. Məsələn: *Cəmil anasına, hətta xalasına hədiyyə almışdı.* Lakin

digər hallarda, yəni bərabərhüquqlu sözlərlə deyil, yalnız bir söz və ya cümlə ilə əlaqələnsə, qüvvətləndirici ədatdır. Deməli, buradakı "hətta" sözü qüvvətləndirici ədatdır. Burada "yenicə" sözünün tərkibindəki "-cə" ədatı da qüvvətləndiricidir. Ona görə də 1-ci cümlə tələbə cavab vermir. 2-ci cümlədə ədatın iki müxtəlif məna növünə aid nümunə işlənmişdir: "məhz" dəqiqləşdirici, "ha" qüvvətləndirici. Qeyd etmək lazımdır ki, "ha" omonim səciyyəli olub, həm qüvvətləndirici, həm də əmr ədatı kimi iştirak edir. Bu söz əmr cümlələrinin sonunda işləndikdə əmr ədatı, digər məqamlarda qüvvətləndirici ədatdır. Tapşırıqda bu söz vacib şəklində olan xəbərlə işləndiyindən qüvvətləndirici ədatdır. Deməli, qoyulmuş tələbə cavab verir. 3-cü cümlədə "elə" və "məhz" dəqiqləşdirici ədatlardır. Deməli, bu cümlədə də ədatın müxtəlif növlərinə aid söz oldmadığına qoyulan tələbə cavab vermir. 4-cü cümlədəki "kaş" arzu, "ancaq" məhdudlaşdırıcı ədatdır. "Ancaq" sözü həm qarşılaşdırma bağlayıcısı, həm də məhdudlaşdırıcı ədatdır. Bu cümlədə "yalnız" məhdudlaşdırıcı ədatı ilə əvəz edilə bildiyindən bu söz də məhdudlaşdırıcı ədatdır. Deməli, bu cümlə də qoyulan tələbə cavab verir. 5-ci cümlədəki "bax" və "ha" ədatları əmr məzmununu qüvvətləndirir, yəni eyni məna növünə aiddir. Bu cümlədəki "da" sözü iştirak bağlayıcısıdır, ədat olsaydı, xəbərlə əlaqələnərdi. Bu bənd də qoyulan tələbə cavab vermir. Nəhayət, 6-cı cümlədə olan "yəni" və "-mı" sual ədatlarıdır. Deməli, qoyulmuş tələbə cavab vermir.

Doğru cavab: 2, 4

9-cu sinif

4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.

21 may tarixli imtahan, A variantı, 26 saylı test tapşırığı

Tabeli mürəkkəb cümlənin tərkib hissələri əsasında Eyler-Venn diaqramındakı düzgün fikirləri müəyyən edin.

Əgər xoşbəxt olmaq istəyirsinizsə, əşyalarla yox, məqsəd və arzularla yaşayın.



1. Həmcins üzvlüdür.
2. Xəbər sadə feillə ifadə olunmuşdur.
3. Təsriflənən feil məlum növdədir.
4. Feili birləşmə ilə ifadə olunan cümlə üzvü iştirak edir.
5. Bağlayıcı tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirmişdir.

VII və VIII sinif dərslik materiallarına aid bu test tapşırığına abituriyentlərin 15,68%-i doğru cavab verib, 27,61%-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün təkcə dil materialına aid faktları bilmək deyil, həm də Eyler-Venn diaqramı üzrə məntiqə əsaslanaraq, onların düzgün yerini müəyyən edə bilmək lazımdır. Tapşırıqda tabeli mürəkkəb cümlənin baş və budaq cümlələrinin müqayisəsi əsasında morfoloji və sintaktik xüsusiyyətlərin müəyyənləşdirilməsi tələb olunur. Cümlə şərt budaq cümləli tabeli mürəkkəb cümlədir. Burada ilk olaraq, baş və budaq cümləni müəyyənləşdirmək lazımdır. Konstruksiya şərt budaq cümləlidir; 1-ci komponent budaq cümlədir, çünki "isə" köməkçi sözü (hissəciyi) ilə işlənmişdir. Diaqram üzrə 1-ci dairədə yalnız baş cümləyə, 2-ci dairədə yalnız budaq cümləyə, kəsişmədə isə hər ikisinə aid olan fikirləri müəyyənləşdirmək lazımdır. Baş cümlədə həmcins üzv olduğu üçün 1 rəqəminə aid fikir düzgündür (məqsəd və arzularla – həmcins zərfliklər). 2 rəqəminə aid fikir səhvdir, çünki baş cümlədəki xəbər (yaşayın) sadə deyil, düzəltmə feillə (yaş+a) ifadə olunmuşdur. 3 rəqəminə aid fikir baş və budaq cümlə üçün ortaq olmalıdır. Bu fikir düzgündür, çünki baş cümlədəki "yaşayın" və budaq cümlədəki "istəyirsinizsə" təsriflənən feilləri məlum növdədir. Onlarda növ şəkilçisi yoxdur. 4 rəqəminə aid fikir düzgün deyil, ona görə ki, budaq cümlənin xəbəri (xoşbəxt olmaq istəyirsinizsə), ümumiyyətlə, söz birləşməsi deyil; belə ki, buradakı "xöşbəxt olmaq" komponenti söz birləşməsi deyil, mürəkkəb feildir, bu feil isə "istəmək" feilinin xəbər şəkli ilə birləşib xəbər funksiyasını yerinə yetirmişdir. 5 rəqəminə aid fikir düzgündür, çünki budaq cümlənin əvvəlində olan "əgər" şərt bağlayıcısı baş və budaq cümləni bağlamağa xidmət edir.

Doğru cavab: 1, 3, 5

6 iyul tarixli imtahan, A variantı, 17 saylı test tapşırığı

10-cu sinif

4.1.1. Ədəbi dilin normalarına uyğun müxtəlif cümlə konstruksiyaları qurur.

Nümunədə ədəbi dilin hansı norması (normaları) pozulmuşdur?

Əsir payız küləyi,
Gecə uzun, gün gödək.
Ağacdan yarpaq düşür,
Bir ömrün günləri tək. (B.Vahabzadə)

A) leksik və fonetik B) yalnız fonetik
C) leksik və qrammatik D) fonetik və qrammatik E) yalnız qrammatik

10-cu sinif dərslik materiallarına aid bu test tapşırığına abituriyentlərin 21,46%-i doğru cavab verib, 11,50%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün ədəbi dilin normalarını bilmək lazımdır. Məlumdur ki, ədəbi dilin üç norması var: fonetik, leksik və qrammatik. Fonetik norma orfoqrafik və orfoepik qaydalara düzgün riayət etməyi tələb edir. Tapşırığın şərtinə əsasən orfoqrafik normanı, yəni sözlərin düzgün yazılışını müəyyənləşdirmək tələb olunur. Leksik norma sözlərin mənasına bələd olmaq və onları yerində düzgün işlətmək tələbini qoyur. Qrammatik norma isə həm morfoloji, yəni şəkilçilərin düzgün işlədilməsi, həm də sintaktik, yəni sözlərin düzgün əlaqələnməsi məsələsini tələb edir. Göründüyü kimi, bir neçə parametr üzrə müəyyənləşmə tələb etdiyi üçün tapşırığın cavablandırılması zaman aparır, lakin kiçik və sadə mətn parçasında bunu müəyyənləşdirmək tapşırığın çətinlik dərəcəsini azaldır.

Nümunədə 1-ci misrada söz sırası pozulmuşdur; "Payız küləyi əsir" əvəzinə, "Əsir payız küləyi" verilmişdir. Burada xəbər mübtədadan əvvələ keçmişdir. Bu isə sintaktik, deməli, qrammatik normanın pozulmasıdır. Sonuncu misrada isə "-tək" qoşması sözə bitişik yazılmalı olduğu halda, ayrı yazılmışdır. Bu isə orfoqrafik səhv, yəni fonetik normanın pozulmasıdır. Şeir parçasında məna cəhətdən düzgün işlədilməyən söz yoxdur.

Doğru cavab: D

İmtahanda mətn əsasında üç tapşırığın cavablandırılması da tələb olunur. Burada abituriyentlərin daha çox məntiqi düşüncəsi, faktları əlaqələndirmə bacarığı və bunları dil materialı ilə ifadə edə bilmə imkanları yoxlanılır.

21 may tarixli imtahan, A variantı, 28-30 saylı tapşırıqlar

Bir vulkan dəlinsə, nə baş verər?

Vulkan yer qabığındakı tektonik çatlar və kanallar üzərində əmələ gələn, dərin maqma **ocaq**larından səthə lava, qaynar qaz püskürən geoloji törəmədir. Yerin dərinliyində meydana gəldiyindən onların tərkibini tam öyrənmək mümkün olmamışdır. Son illər bəzi geoloqlar vulkanların dəlinməsi təklifi ilə çıxış edirlər.

Mütəxəssislər vulkanları dəlməklə onun mərkəzi qatlarını öyrənməyin yaxın zamanlarda reallaşacağını fikirləşirlər. Digər layihənin tərəfdarları isə vulkanın dərinliklərinə doğru 6 km-lik dəlik açmaq və içərisinə təzyiqlə soyuq su vurmaq, bununla həm vulkanı soyutmaq, həm də təbii enerji əldə etmək istəyirlər. Belə ki, onlar vulkanın dərin qatlarında dövr etdirilən suyun temperaturunun təqribən 3500°C olacağı və böyük miqdarda elektrik enerjisi verən stansiya qurmaq xəyalının gerçəkləşəcəyi fikrindədirlər.

Bəzi ölkələr yerin dərinliyinə doğru müəyyən bir hüduda qədər su isitmə sistemi tətbiq etməklə maqmanın istiliyindən enerji istehsal edir. Lakin müəyyən sərhədi keçmək yüksək partlayışla nəticələnə bilər. Belə partlayışın dünyada iqlim dəyişikliyinə səbəb ola biləcəyi düşünülür.

Vulkanın maqma qatını su ilə soyutmaq da təhlükəlidir. Bu, maqmanın üst hissəsində yerləşən qatın daha kövrək hala gəlməsinə və çökməsinə şərait yarada bilər.

28. Mətndə tünd-qara hərflərlə verilmiş sözü mətndənkənar cümlə daxilində poetik (I) və informativ (II) funksiyada işlədərək yazın.

I
II

Mümkün olan doğru cavablar:

Poetik funksiyada:

O, doğma yurduna – dədə-baba ocağına qayıtdı; Bura məşhur elm ocağıdır; Azər bu kəndi doğma ocağı hesab edirdi.

İnformativ funksiyada:

Ocağın işıltısı qaranlıq mağaranı işıqlandırırdı; Ocaqdan qalxan tüstü körpənin gözlərini acıdırdı; Qarı ocağın üstündəki hisli qazanı yerə qoydu.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Söz cümlə daxilində hər iki funksiyada işlədilərək yazılır, yanlış fikir ***yazılmır;***
$\frac{1}{2}$ bal	B. Söz cümlə daxilində yalnız bir funksiyada işlədilərək yazılır, yanlış fikir ***yazılmır***; C. Söz cümlə daxilində bir funksiyada doğru, digər funksiyada isə ***yanlış*** işlədilərək yazılır; D. Söz cümlə daxilində hər iki funksiyada işlədilərək yazılsa da, ***1 yanlış*** fikir də yazılır;
0 bal	E. Söz cümlə daxilində hər iki funksiyada işlədilərək yazılsa da, hər iki funksiyaya ***yanlış*** fikir və ya fikirlər də yazılır; F. Digər bütün hallarda.

Qeyd 1*:** "*Vulkan ocağı*", *"maqma ocağı"* terminoloji funksiya daşıdığı üçün ***yanlışdır.

***Qeyd 2*:** "*Təhsil ocağı, maarif ocağı, elm ocağı, ata ocağı, şəfa ocağı, mədəniyyət ocağı, ailə ocağı, müharibə ocağı, münaqişə ocağı, sevgi ocağı"* kimi ifadələr məcazi mənalı ifadələrdir.

Qeyd 3*:** "*Ocaq*" sözü "*pir, ziyarətgah*" mənasında işlədilərsə, ***yanlışdır.

Tapşırıq vasitəsilə 10-cu sinif səviyyəsində *3.1.3. Mətnin üslubu üzərində işləməklə yazıya düzəlişlər edir* alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 53,47%-i yazı işini tam yerinə yetirdiyinə görə, onların işi 1 balla, 19,19%-i yarım balla, 14,07%-i 0 balla qiymətləndirilib, 13,27%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün sözün üslubi vəzifələri, funksiyaları ilə bağlı biliklərə malik olmaq və bu bilikləri tətbiq etməyi bacarmaq lazımdır. Mətndə tünd-qara hərflərlə fərqləndirilmiş söz həm poetik, həm də informativ funksiyada işlənə bilmə imkanlarına malikdir. Doğru cavab nümunələrində verildiyi kimi, "dədə-baba ocağı", "elm ocağı" kimi birləşmələrdə bu söz məcazi mənada olub sözün bədii üslubda yerinə yetirdiyi vəzifədə, poetik funksiyadadır. "Ocağın işıltısı", "ocaq tüstüsü" kimi birləşmələrdə isə həqiqi mənada olub informativ funksiya daşıyır. Tapşırığı cavablandırarkən məhz bu məqam nəzərə alınmalı və söz düzgün şəkildə cümlə (ifadə) tərkibində işlədilməlidir.

29. Mətndə altından xətt çəkilmiş cümləyə əsasən sxemi tamamlayın (✓) və seçiminizi əsaslandıran ən azı iki cümlə yazın.

Cümlədəki fikri → fakt hesab etmək olar. ☐ fərziyyə hesab etmək olar. ☐
Əsaslandırma:

Mümkün olan doğru cavablar:

"Fərziyyə hesab etmək olar" fikrinin qarşısındakı xanaya (✓) işarəsi qoyulur.

Əsaslandırma: *Cümlədəki fikri fərziyyə hesab etmək olar. Çünki vulkanı dəlməklə onun mərkəzi qatlarını öyrənməyin mümkün olması sübuta yetirilməyib. Buna görə onu fakt hesab etmək olmaz. Bu, alimlərin hadisə haqqında təxmini mülahizələridir.*

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Uyğun xana işarələnir və nümunəyə uyğun ən azı 2 cümlə yazılmaqla əsaslandırılır, yanlış fikir ***yazılmır***; B. Uyğun xana ***işarələnmir***, lakin nümunəyə uyğun ən azı 2 cümlə yazılmaqla əsaslandırılır (yanlış fikir ***yazılmır)***; C. Uyğun xana işarələnir və nümunəyə uyğun 1 cümlə (mürəkkəb cümlə) yazılmaqla əsaslandırılır, yanlış fikir ***yazılmır***;
$\frac{1}{2}$ bal	D. Uyğun xana işarələnir və nümunəyə uyğun ən azı 2 cümlə yazılmaqla əsaslandırılır, lakin ***1 uyğun olmayan*** fikir də yazılır; E. ***Yanlış*** xana işarələnsə də, nümunəyə uyğun ən azı 2 cümlə yazılmaqla əsaslandırılır; F. Uyğun xana işarələnir (və ya xana ***işarələnmir***) və nümunəyə uyğun 1 cümlə (sadə cümlə) yazılmaqla əsaslandırılır, yanlış fikir ***yazılmır***; G. Uyğun xana işarələnir və nümunəyə uyğun 1 cümlə doğru, 1 cümlə ***yanlış*** yazılmaqla əsaslandırılır;
0 bal	H. Yalnız xana işarələnir, ***əsaslandırılmır***; I. ***Yanlış*** xana işarələnsə də, nümunəyə uyğun 1 cümlə (sadə cümlə) yazılmaqla əsaslandırılır; J. Tapşırığın hər iki tələbi uyğun şəkildə yerinə yetirilsə də, ***2 və daha çox yanlış*** fikir də yazılır; K. Digər bütün hallarda.

Qeyd 1: Uyğun xana işarələnsə də, altından xətt çəkilən abzas köçürülərsə, ***yanlışdır***.

Qeyd 2: "*Lakin müəyyən sərhədi keçmək yüksək partlayışla nəticələnə bilər. Belə partlayışın dünyada iqlim dəyişikliyinə səbəb ola biləcəyi düşünülür*" fikri doğru hesab olunur.

Tapşırıq vasitəsilə 7-ci sinif səviyyəsində *2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır* alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 45,70%-i yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 13,40%-i yarım balla, 33,39%-i 0 balla qiymətləndirilib, 7,51%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün fakt və fərziyyə anlayışlarını bir-birindən fərqləndirməyi, cümlədəki fikrin fakt, yaxud fərziyyə olduğunu müəyyən etməyi və fikri əsaslandırmağı bacarmaq lazımdır. Cümlədəki fikir faktı – həqiqətən olmuş real hadisəni deyil, fərziyyəni – mütəxəssislərin bir şey haqqında təxmini mülahizəsini, gümanını ifadə edir. Buna görə də ikinci boş xana seçilməli və seçim nümunədə verilmiş qaydada əsaslandırılmalı idi.

30. Mətnin giriş və əsas hissələrinə aid hər bir abzasda mənaca bir-birini əvəz edə bilən ifadələri müəyyən edərək müvafiq xanalara yazın.



Mümkün olan doğru cavablar:

I abzas: əmələ gəlmək – meydana gəlmək

II abzas: reallaşmaq – gerçəkləşmək

III abzas: hüdud –sərhəd

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Hər üç abzasa aid nümunə yazılır, yanlış nümunə ***yazılmır;***
$\frac{2}{3}$ bal	B. Hər üç abzasa aid nümunə yazılsa da, ***1 yanlış*** nümunə də yazılır; C. Yalnız iki abzasa aid nümunə yazılır, yanlış nümunə ***yazılmır***; D. İki abzasa aid nümunə yazılsa da, ***1 yanlış*** nümunə də yazılır;
$\frac{1}{3}$ bal	E. Yalnız 1 abzasa aid nümunə yazılır, yanlış nümunə ***yazılmır***; F. Bir abzasa aid doğru nümunə yazılsa da, digər abzaslara aid nümunələrdən 1-i ***yanlış*** yazılır, 1-i isə ***yazılmır***;
0 bal	G. Bir abzasa aid nümunə yazılsa da, ***2 və daha çox yanlış*** nümunə də yazılır. H. Digər bütün hallarda.

Qeyd: Mətndənkənar qarşılıq bildirən sözlər yazılarsa ***yanlışdır.***

Tapşırıq vasitəsilə 8-ci sinif səviyyəsində *2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir* alt standartın tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 6,97%-i yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 15,31%-i $\frac{2}{3}$ balla, 2,37%-i $\frac{1}{3}$ balla, 41,76%-i 0 balla qiymətləndirilib, 33,59% isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün söz və ifadələrin məna yükünə bələd olmaq, onların cümlədə yerinə görə bir-birini əvəz edib-etməməsini müəyyən etmək lazımdır. 1-ci abzasda "əmələ gəlmək" və "meydana gəlmək" belə ifadələrdir. 2-ci abzasdakı "reallaşmaq" və "gerçəkləşmək", 3-cü abzasdakı "hüdud" və "sərhəd" sözləri müvafiq olaraq, bir-birini əvəz edə bilər.

Təhlillər göstərir ki, abituriyentlərin çoxu müasir elmi biliklərə yiyələnsə də, müxtəlif bacarıqları mənimsəsələr də, hələ də müəyyən mövzuların cavablandırılmasında çətinlik çəkirlər. Bu baxımdan, müvafiq fənn üzrə tədrisin səviyyəsini yüksəltməyə böyük ehtiyac vardır.

Azərbaycan dili istisna olmaqla tədris digər dillərdə aparılan təhsil müəssisələrinin şagirdləri üçün ***Azərbaycan dili (dövlət dili) fənnindən*** imtahanlarda istifadə edilmiş test tapşırıqları fənn kurikulumuna görə 3 (**"Dinləyib-anlama"**, **"Oxu"** və **"Yazı"**) məzmun xətti üzrə 9-cu sinif üzrə 3 əsas, 29 alt standartın, 11-ci sinif üzrə isə 3 əsas və 38 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib. Qeyd etmək lazımdır ki, həm ümumi (9 illik), həm də tam (11 illik) orta təhsil səviyyəsindən buraxılış imtahanı verən şagirdlər dövlət dilindən də imtahan veriblər.

9 və 11-ci sinif təhsil bazasından buraxılış imtahanlarında şagirdlərin aşağıdakı bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi nəzərdə tutulub:

- Dinlədiyi söz, ifadə, cümlə və mətnin mənasını anladığını nümayiş etdirmək;
- Dinlədiyi fikirlərlə bağlı mühakimələr yürütmək;
- Dinlədiyi fikirlərlə bağlı mühakimələrini əsaslandırmaq;
- Oxuduğu mətndə sözlərin mənasını başa düşüb izah etmək;
- Mətndəki söz və ifadələrin kontekstə uyğun mənalarını izah etmək;
- Azərbaycan dilində olan mətnlər üzərində işləmək, onların məzmunu haqqında mülahizələrini bildirmək;
- Yazılı nitqində orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq etmək;
- Öz fikirlərini sərbəst, məntiqli ifadə etmək;
- Fikirlərini ümumiləşdirmək, məntiqi nəticə çıxarmaq;
- Mətni üslubi-struktur xüsusiyyətlərinə görə təhlil etmək;
- Üslubi xüsusiyyətləri nəzərə almaqla mətni təkmilləşdirmək.

İmtahanlarda dil qaydaları ilə bağlı məntiqi təfəkkürə əsaslanan, praktiki əhəmiyyətli test tapşırıqları ilə yanaşı, dinləyib-anlamanı yoxlayan dörd tapşırıqlı bir mətndən və oxuyub-anlamanı, dilin praktiki tətbiqini yoxlayan bədii və publisistik üslublarda olan səkkiz tapşırıqlı iki mətndən istifadə olunub. Bu tapşırıqlarla mətndəki əsas fikri müəyyən etmək, faktları tutuşdurmaqla məntiqi nəticə çıxarmaq, fikri ümumiləşdirmək, mətndə verilən bir neçə məlumatdan yeni informasiya əldə etmək və s. kimi bacarıqları yoxlamaq və qiymətləndirmək mümkün olub.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında test tapşırıqlarının hər biri məzmun, qabiliyyət göstəriciləri və mürəkkəblik dərəcəsi baxımından təhlil edilib. Təhlil göstərib ki, test tapşırıqlarının məzmunu şagirdlərin nəzəri materialı necə mənimsədiyini, söz ehtiyatını, dinləyib-anlama və oxuyub-anlama bacarıqlarını üzə çıxarmağa imkan verib. Təhlil onu da göstərib ki, şagirdlərin fənn üzrə hazırlıq səviyyələri ilbəil yüksəlib. Lakin yenə də şagirdlərin müəyyən hissəsi bəzi test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkiblər.

Test tapşırıqlarının təhlilinə əsasən onu da demək olar ki, ümumtəhsil məktəblərində mətnlərin məzmununun mənimsənilməsi, mətnin tərkib hissələrinin müəyyən edilməsi işi ilə bağlı hələ də bir çox problemlər mövcuddur.

Aşağıda şagirdlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur:

6-cı sinif

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.

20 may tarixli imtahan, IX sinif, A variantı, 6 saylı test tapşırığı

Şəkilçilərin sayını nəzərə alaraq, nöqtələrin yerinə uyğun gələn sözü müəyyən edin.

..., *çalğıçı*, *boyaqçılıq*

A) bağlayıcı B) duyğu C) işsizlik D) ağardıcı E) güləş

Söz yaradıcılığı mövzusuna aid bu tapşırığa şagirdlərin 11,62%-i doğru cavab verib, 1,61%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün, ilk növbədə, tapşırıqdakı tələbə diqqət vermək lazımdır. Məlumdur ki, sözlər quruluşca üç cür olur: sadə, düzəltmə, mürəkkəb. Düzəltmə sözlər kök və leksik şəkilçidən ibarət olur. Leksik şəkilçi sözdüzəldici şəkilçidir, yəni sözə qoşulduqda köhnə mənaya uyğun yeni söz düzəltməlidir. "Çalğıçı" sözünün kökü "çal" feilidir, *nə et?* sualına cavab verir. "Çal" feilindən "çalğı" ismi düzəlib, *nə?* sualına cavab verir. "Çalğı" ismindən "çalğıçı" ismi düzəlib, *kim?* sualına cavab verir. Deməli, "çalğıçı" sözünün tərkibi belədir: *çal+ğı+çı* (kök və iki leksik şəkilçi). "Boyaqçılıq" sözünün kökü "boya" feilidir, *nə et?* sualına cavab verir. "Boyaq" ismindən "boyaqçı" ismi düzəlib, *kim?* sualına cavab verir. "Boyaqçı" ismindən "boyaqçılıq" sözü, yəni peşə mənası bildirən mücərrəd isim yaranıb, *nə?* sualına cavab verir. Deməli, "boyaqçılıq" sözünün tərkibi belədir: *boya+q+çı+lıq* (kök və üç leksik şəkilçi). Nümunədəki sözlərdə leksik şəkilçilərin sayında azdan çoxa sıralanma məntiqinə əsaslandıqda nöqtələrin yerinə "duyğu" sözü yazılmalıdır. Çünki "duyğu" sözündə bir kök və bir leksik şəkilçi var. "Duy" feili sözün köküdür, *nə et?* sualına cavab verir. "Duy" feilindən "duyğu" ismi yaranıb, *nə?* sualına cavab verir. Tapşırıqdakı digər sözlərdə isə leksik şəkilçilərin sayı ya birdən çoxdur, ya da sözdə leksik şəkilçi yoxdur.

Doğru cavab: B

8-ci sinif

3.1.1. Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.

20 may tarixli imtahan, IX sinif, A variantı, 10 saylı test tapşırığı

Əsas tərəfi feili bağlama ilə ifadə olunan söz birləşməsini müəyyən edin.

A) oxumağı sevən B) şəhərə baxanda C) yazdığım məktub

D) qaçaraq gəlmək E) dərsə gedən

Söz birləşmələri mövzusuna aid bu tapşırığa şagirdlərin 23,14%-i doğru cavab verib, 1,75%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün, ilk növbədə, sintaksis bölməsini yada salmaq və I sözün asılı, II sözün əsas söz olduğunu bilmək lazımdır. Sonra məsdər, feili bağlama və feili sifət şəkilçiləri xatırlanmalıdır.

Məsdər: maq^2

Feili sifət: an^2, $mış^4$, $dığım^4$, $asɪ^2$, $malɪ^2$, $acaq^2$

Feili bağlama: $ɪb^4$, $araq^2$, $madan^2$, a^2, $anda^2$, $arkən^2$, $ar\text{-}maz^2$, $dɪqda^4$, $dɪqca^4$, $ɪnca^4$

Sonra əsas tərəfin nə ilə ifadə olunduğunu müəyyən etməlidir.

A) oxumağı sevən – feili sifət

B) şəhərə baxanda – feili bağlama

C) yazdığım məktub – isim

D) qaçaraq gəlmək – məsdər

E) dərsə gedən – feili sifət

Doğru cavab: B

9-cu sinif

4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

20 may tarixli imtahan, XI sinif, A variantı, 9 saylı test tapşırığı

Hansı mürəkkəb cümlədə fikirlər qarşılaşdırılır?

A) Yağış kəsdi və biz yolumuza davam etdik.

B) Yayda çalışın ki, təmiz havada çox olasınız.

C) Mən çox çalışdım ki, onu bu bəladan xilas edim.

D) Kəndin işıqları sönmüşdü, hər tərəf qaranlıq idi.

E) Gələn qonaqlar səbəbkarı gözləyirdi, o gecikirdi.

Tabesiz mürəkkəb cümləyə, tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasındakı məna əlaqələrinə aid bu tapşırığa şagirdlərin 37,03%-i doğru cavab verib, 1,51%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün aşağıdakıları bilmək lazımdır:

1) Mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin birləşməsindən yaranır.
2) Mürəkkəb cümlənin iki və daha artıq qrammatik əsası olur.
3) Mürəkkəb cümlələr tabeli və tabesiz olur.
4) Tabesiz mürəkkəb cümlələr bərabərhüquqlu sadə cümlələrin bir-birilə əlaqəsindən yaranır.
5) Tabesiz mürəkkəb cümlənin tərkibindəki sadə cümlələr ya intonasiya ilə, ya da həm intonasiya, həm də tabesizlik bağlayıcıları ilə bağlanır.
6) Tabesiz mürəkkəb cümlələri yaradan sadə cümlələr arasında müxtəlif məna əlaqələri olur (zaman, ardıcıllıq və s.), həmin məna əlaqələrinə uyğun tabesizlik bağlayıcıları işlənə bilir.
7) Tabeli mürəkkəb cümlənin tərkibindəki sadə cümlələrdən biri müstəqil (baş cümlə), digəri asılı (budaq cümlə) olur.
8) Tabeli mürəkkəb cümlənin tərkibindəki budaq cümlə baş cümləyə tabelilik bağlayıcıları, bağlayıcı söz, sa^2 şəkilçisi, mı ədatı və ya yalnız intonasiya ilə bağlanır.

Tapşırıqda **A** bəndindəki cümlədə (Yağış kəsdi və biz yolumuza davam etdik) II cümlədəki iş I cümlədəki işdən sonra baş verir və ardıcıllıq mənası yaradır. **B** bəndindəki cümlədə (Yayda çalışın ki, təmiz havada çox olasınız) budaq cümlə baş cümləyə "ki" tabelilik bağlayıcısı ilə bağlanıb, məqsəd mənası yaradıb. **C** bəndindəki cümlədə (Mən çox çalışdım ki, onu bu bəladan xilas edim) budaq cümlə baş cümləyə "ki" tabelilik bağlayıcısı ilə bağlanıb, məqsəd mənası yaradıb. **D** bəndindəki cümlədə (Kəndin işıqları sönmüşdü, hər tərəf qaranlıq idi) cümlələr bir-birinə yalnız intonasiya ilə bağlanıb. I cümlədəki iş səbəbi, II cümlədəki iş onun nəticəsini bildirir. **E** bəndindəki cümlədə (Gələn qonaqlar səbəbkarı gözləyirdi, o gecikirdi) sadə cümlələr bir-birinə yalnız intonasiya ilə bağlanıb. II cümlədəki fikir I cümlədəki fikirlə qarşılaşdırılıb. Deməli, bu mürəkkəb cümlənin tərkib hissələri arasına qarşılaşdırma bağlayıcısı da artırıla bilər.

Doğru cavab: E

6-cı sinif

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.

20 may tarixli imtahan, XI sinif, A variantı, 14 saylı test tapşırığı

Nümunədəki zərflərin mənaca növlərini müəyyən edin.

"*Nərmin bu suala dərhal cavab vermədi, bir qədər düşünmək üçün vaxt istədi* ".

A) zaman, zaman B) zaman, miqdar

C) miqdar, yer D) tərzi-hərəkət, miqdar E) tərzi-hərəkət; yer

Zərf mövzusuna aid bu tapşırığa şagirdlərin 34,56%-i doğru cavab verib, 0,73%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün zərf və onun mənaca növlərini, zərfin hansı nitq hissələrinə aid olmasını bilmək lazımdır.

1) Zərf hərəkətin tərzini, zamanını, yerini, miqdarını bildirir.
2) Zərflər həm təsriflənən (dəyişən) (Uşaq *cəld* otaqdan çıxdı), həm də təsriflənməyən (dəyişməyən) (*Cəld* otaqdan çıxan qız qonaqları gülər üzlə qarşıladı) feillərə aid olur.
3) Zərflər bəzən digər nitq hissələrinə (ismə, sifətə, saya, əvəzliyə, zərfin özünə) aid olur: *Dünən (zərf) şənlik (isim) idi. Sən həmişə (zərf) birincisən (say).*
4) Zərfin mənaca 4 növü, hər növün özünəməxsus sualı var.

Tərzi-hərəkət zərfləri (necə?)	Zaman zərfləri (nə vaxt?, nə zaman?)	Yer zərfləri (hara?)	Miqdar zərfləri (nə qədər?)
səlis, cəld, addımbaşı, sürətlə, çətin, çəpəki, daxilən, türkcə, birlikdə və s.	dərhal, bildir, hələ, yenə, gec, tez, daim, hələlik, gündə, anbaan, ara-bir, əvvəl-axır və s.	irəli, geri, ora, bura, aşağı, bəri, yuxarı, sağa-sola, üzüaşağı və s.	az, çox, xeyli, tamamilə, dəfələrlə, az-çox, birə-beş və s.

Qeyd edilənlərə əsaslanaraq, tapşırığı yerinə yetirmək olar.

"Nərmin bu suala dərhal cavab vermədi, bir qədər düşünmək üçün vaxt istədi" cümləsində "dərhal" sözü "cavab vermədi" feilinə aiddir, hərəkətin zamanını bildirir. Deməli, "dərhal" zaman zərfidir, *nə vaxt?* sualına cavab verir. "Bir qədər" sözü "düşünmək" feilinə (məsdərə) aiddir, hərəkətin miqdarını bildirir. Deməli, *nə qədər?* sualına cavab verir, miqdar zərfidir. Bu cümlədə həm zaman zərfi, həm də miqdar zərfi var.

Doğru cavab: B

Tapşırıqların yerinə yetirilməsi üçün, dərsliklərdəki materialları öyrənməklə yanaşı, mənimsənilən biliklərin sistemləşdirilməsi və ümumiləşdirilməsini bacarmaq lazımdır. Öyrənilmiş mövzulara, təqdim olunmuş mətnlərə məntiqi yanaşmaq, təhlil aparmaq, düzgün nəticə çıxarmaq çox vacibdir. Tapşırıqları yerinə yetirmək üçün şagirdlərdən diqqətli və məntiqli olmaq tələb olunur.

Azərbaycan bölməsində ***ədəbiyyat fənnindən*** III ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə edilən test tapşırıqları şifahi xalq ədəbiyyatı, qədim dövr ədəbiyyatı, orta dövr ədəbiyyatı, yeni dövr ədəbiyyatı, Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü, sovet dövrü Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi, müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı, dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, mövzulararası əlaqə bölmələrinə aid olub.

Tapşırıqlar fənn kurikulumuna görə 2 (**"Ədəbiyyat və həyat həqiqətləri"**, **"Yazılı nitq"**) məzmun xətti üzrə 3 əsas və 61 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlarla abituriyentlərin

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirmək;
- bədii nümunələrin mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək;
- bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə etmək;
- bədii nümunələrin məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət vermək;
- bədii nümunələrin məzmun və ideyası ilə bağlı fikirlərini əsaslandırmaqla şərh etmək

kimi bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi nəzərdə tutulub.

Müvafiq fənn kurikulumunun təlim nəticələrinə uyğun olaraq, tapşırıqlar 5-11-ci siniflər üzrə keçilən materialları əhatə edib.

Qəbul imtahanının nəticələrinin statistik göstəricilərinə əsasən demək olar ki, bədii əsərlərin, yaxud bədii parçaların mənimsənilməsində müəyyən qədər irəliləyiş var. Belə ki, 21 may tarixli imtahanda S.Vurğunun "Vaqif" dramının məzmunu ilə bağlı test tapşırığında (A variantı 72 saylı) nəticələr müəyyən qədər yüksək olmuşdur (51,02%). Eyni fikri həm C.Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyası (A variantı 61 saylı), həm C.Cabbarlının "Oqtay Eloğlu" faciəsi (A variantı 67 saylı), həm də İ.Hüseynovun "Zəhər" hekayəsi ilə bağlı test tapşırıqlarına (A variantı 80 saylı) da aid etmək olar. Həmin test tapşırıqlarına abituriyentlərin cavabları müvafiq olaraq belədir: 55,28%; 71,02%; 52,16%. Eləcə də 6 iyul tarixli imtahanda S.S.Axundovun "Nurəddin" hekayəsi və H.Cavidin "Ana" əsəri ilə bağlı verilən hadisələrin düzgün ardıcıllığının müəyyənləşdirilməsi (A variantı 74 və 79 saylı) ilə bağlı test tapşırıqlarında nəticələr müvafiq

olaraq belədir: 73,20%; 43,85%. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi (A variantı 67), Ç.Aytmatovun "Manqurt" ("Gün var əsrə bərabər") əsəri (A variantı 75), Z.Xəlilin "Zeynalabdin" əsəri (A variantı 82 saylı) ilə bağlı test tapşırıqlarında göstəricilər daha yüksəkdir: 71,63%; 84,49%; 74,04%. 21 may tarixli imtahanda R.Rzanın "Qızılgül olmayaydı" poeması (A variantı 64), M.P.Vaqifin "Pəri" qoşması (A variantı 65 saylı), "Koroğlu" eposu (A variantı 73) ilə bağlı ümumiləşdirmə səciyyəli test tapşırıqlarına verilən cavablarda da müəyyən qədər yüksəliş müşahidə edilir. Həmin test tapşırıqlarına abituriyentlərin cavabları müvafiq olaraq belə olmuşdur: 50,56%; 58,44%; 59,89%. Eyni vəziyyət 6 iyul tarixli imtahanda M.P.Vaqifin "Hayıf ki, yoxdur", İ.Şıxlının "Dəli Kür" (A variantı 64 və 65 saylı), R.Rzanın "Çinar ömrü" əsərlərinə (A variantı 70 aylı) aid test tapşırıqlarında da özünü göstərir. Abituriyentlərin bu test tapşırıqlarına verdiyi düzgün cavablar müvafiq olaraq belə olub: 58,77%; 51,00%; 59,31%.

Eləcə də 21 may və 6 iyul tarixli imtahanlarda abituriyentlərin ədəbiyyat nəzəriyyəsindən "Bədii əsərin dili" bölməsi ilə bağlı test tapşırıqlarına verdiyi cavabların nəticəsi əvvəlki illərlə müqayisədə yüksək olmuşdur. Belə ki, həm 21 may tarixli imtahanda istifadə edilən (A variantı 75 saylı), həm də 6 iyul tarixli imtahanda təqdim olunan test tapşırıqlarına (A variantı 76 və 77 saylı) abituriyentlərin yaxşı cavab verməsi həmin mövzunun kifayət qədər düzgün mənimsənilməsi ilə bağlıdır. Qeyd edilən test tapşırıqları ilə bağlı nəticələr belədir: 65,03%; 79,81%; 82,70%.

6 iyul tarixli imtahanda həm M.F.Axundzadənin "Aldanmış kəvakib" povesti ilə "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" komediyasının (A variantı 78 saylı), həm M.P.Vaqifin "Pəri" və Q.Zakirin "Badi-səba, mənim dərdi-dilimi..." qoşmalarının (A variantı 80 saylı), həm də M.Ə.Sabirin "Əkinçi" və "Neylərdin, ilahi?!" satiralarının (A variantı 81 saylı) müqayisəsi ilə bağlı verilən test tapşırıqlarına düzgün cavab verənlərin müvafiq olaraq 57,12%; 62,91%; 51,08% təşkil etməsi həmin sənətkarların irsinin öyrənilməsi sahəsində müəyyən irəliləyişin olduğunu göstərir.

Təhlillər göstərir ki, abituriyentlərin müəyyən hissəsi Mir Cəlalın "Vətən yaraları" hekayəsinə, "Dərzi şagirdi Əhməd" nağılına, Ə.Cavadın "Səsli qız" poemasına, Elçinin "Talvar" hekayəsinə, E.Heminqueyin "Qoca və dəniz" povestinə, İ.Şıxlının "Namərd gülləsi" hekayəsinə, M.İbrahimovun "Gələcək gün" romanına və həmçinin mövzulararası əlaqəyə aid test tapşırıqlarına cavab verməkdə çətinlik çəkiblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi test tapşırıqlarının izahı təqdim olunur.

21 may tarixli imtahan, A variantı, 74 saylı test tapşırığı

8-ci sinif

1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir.

Ə.Cavadın "Səsli qız" poeması ilə bağlı düzgün fikirləri müəyyən edin.

1. Epik təsvirlərə geniş yer verilsə də, lirik məqamlar da vardır.
2. Saranın şərqisini poemanın proloqu saymaq olar.
3. Məsnəvi şəklində, təhkiyə əsasında qələmə alınmışdır.
4. Kompozisiyanın ünsürləri sayılan epiqraf, proloq və epiloqdan istifadə edilmişdir.
5. Vətənin azadlığı uğrunda mübarizə vətəndaşa şərəf işi sayılır.

A) 1, 5 B) 1, 2, 4 C) 2, 5 D) 3, 5 E) 1, 3, 4

11-ci sinfin "Ədəbiyyat" dərsliyi materiallarına aid bu tapşırığa abituriyentlərin 30,08%-i doğru cavab verib, 19,74%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün həm əsərin mətninin diqqətlə oxunması, dərindən mənimsənilməsi, həm də mətndən nəticə çıxarmaq bacarığı tələb olunur.

Poemanın mətnindən, həm də dərslikdə əsərlə bağlı verilən təhlildən asanlıqla müəyyən etmək olar ki, test tapşırığında verilənlər içərisində "Epik təsvirlərə geniş yer verilsə də, lirik məqamlar da vardır" (1-ci bənd) və "Vətənin azadlığı uğrunda mübarizə vətəndaşa şərəf işi sayılır" (5-ci bənd) doğru, "Saranın şərqisini poemanın proloqu saymaq olar" (2-ci bənd), "Məsnəvi şəklində, təhkiyə əsasında qələmə alınmışdır" (3-cü bənd), "Kompozisiyanın ünsürləri sayılan epiqraf, proloq və epiloqdan istifadə edilmişdir" (4-cü bənd) isə yanlış fikirlərdir.

Doğru cavab: A

21 may tarixli imtahan, A variantı, 86 saylı test tapşırığı

5-ci sinif

1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.

9-cu sinif

3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirir.

Verilmiş bütün əsərlər üçün ortaq cəhətləri müəyyən edin.

● "Vətən" (Ə.Kürçaylı)

● "Badi-səba, mənim dərdi-dilimi…" (Q.Zakir)

● "Dağlar" ("Bahar fəsli ...") (Aşıq Ələsgər)

1. Lirik qəhrəman kədərlidir.
2. Müəllif obyekti – haqqında danışılanı vəsf edir.
3. İctimai mətləblərə də toxunulmuşdur.
4. Lirik qəhrəmanın vüsala çatmaq arzusu da ifadə olunmuşdur.
5. Müraciət formasında yazılmışdır.

A) 2, 5 B) 1, 3 C) 2, 4 D) 1, 5 E) 3, 4

6-cı sinifdə tədris edilən Ə.Kürçaylının "Vətən" şeiri, 10-cu sinifdə tədris edilən Q.Zakirin "Badi-səba, mənim dərdi-dilimi…" qoşması və 8-ci sinifdə tədris edilən Aşıq Ələsgərin "Dağlar" ("Bahar fəsli ...") qoşmalarının müqayisəsi əsasında hazırlanmış mövzulararası əlaqə bölməsinə aid ümumiləşdirmə xarakterli bu tapşırığa abituriyentlərin 27,14%-i doğru cavab verib, 17,01%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün verilən bütün əsərlərin ortaq cəhətini müəyyən etmək tələb olunur. Hər üç əsəri yaxşı mənimsəməklə asanlıqla müəyyən etmək olar ki, 2-ci bənddəki "Müəllif obyekti – haqqında danışılanı vəsf edir" və 5-ci bənddəki "Müraciət formasında yazılmışdır" fikirləri onlar üçün ortaq cəhətdir. Çünki Ə.Kürçaylının "Vətən" şeirində şairin vətəni Azərbaycan, Q.Zakirin "Badi-səba, mənim dərdi-dilimi…" qoşmasında lirik qəhrəmanın sevgilisi, Aşıq Ələsgərin "Dağlar" ("Bahar fəsli ...") qoşmasında isə dağlar vəsf edilir. Eləcə də birinci əsər Vətənə, ikinci əsər, adından da göründüyü kimi, badi-səbaya, üçüncü əsər isə dağlara müraciət formasında yazılmışdır. Digər fikirlər isə ortaq cəhət kimi yanlışdır.

Doğru cavab: 2, 5

6 iyul tarixli imtahan, A variantı, 63 saylı test tapşırığı

6-cı sinif

1.2.2. Bədii nümunələrdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir.

Mir Cəlalın "Vətən yaraları" əsərində obrazlarla bağlı ***uyğunsuzluğu*** müəyyən edin.

1. Nəsrəddin – hekayənin qəhrəmanı ilə məktəb və universitetdə bir yerdə oxumuşdur.
2. Lətif – başıaşağı, üzüyola oğlandır, yoldaşlarının da qulluğunda durur.
3. Nəsrəddinin həkimi – qayğıkeş, mehriban, gülərüz bir şəxsdir.
4. Hadisələri nəql edən əsgərin anası – oğluna dostları ilə birlikdə olmağı tövsiyə edir.
5. Hadisələri nəql edən əsgər – dostlarının məktublarını analarına çatdırır.

A) 2, 4 B) 1, 5 C) 1, 2 D) 3, 4 E) 3, 5

Mir Cəlalın 9-cu sinifdə tədris edilən "Vətən yaraları" hekayəsinə aid bu tapşırığa abituriyentlərin 32,13%-i doğru cavab verib, 31,78%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün əsərdəki obrazlarla bağlı uyğunsuzluğu müəyyənləşdirmək lazımdır. Nəsrəddin, Lətif və əsgər anası barədə deyilən fikirlər doğrudur. Hekayədə onların hər birinin xarakteri və davranışları haqqında dolğun təsəvvür yaradılmışdır. Odur ki, 1-ci, 2-ci və 4-cü bəndlərdə heç bir uyğunsuzluq yoxdur. Hekayədəki obrazlarla bağlı 3-cü və 5-ci bəndlərdə isə uyğunsuzluq vardır. Belə ki, hadisələri nəql edən əsgər və Nəsrəddini müalicə edən həkim haqqında verilən fikirlərdə yanlışlıq vardır. Çünki Nəsrəddinin həkimi əsərdə "mehriban", "gülərüz" deyil, "rəsmiyyəti sevən", "zabitəli" birisi kimi əks olunmuşdur. Hadisələri nəql edən əsgər isə bur neçə günlüyə evə göndərilərkən dostlarının məktublarını deyil, onların ürək sözlərini analarına aparmışdır.

Doğru cavab: E

6 iyul tarixli imtahan, A variantı, 69 saylı test tapşırığı

5-ci sinif

3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir.

M.İbrahimovun "Gələcək gün" romanında bir müddət Təbrizdə işləyən Firidunun yenidən Tehrana qayıtmaqda məqsədi:

A) təqibdən qurtulmaq B) qoca müəlliminə baş çəkmək C) inqilabçılara qoşulmaq

D) darülfünuna daxil olmaq E) münasib iş tapmaq

M.İbrahimovun 9-cu sinifdə tədris olunan "Gələcək gün" romanının məzmununa aid bu test tapşırığına abituriyentlərin 33,49%-i doğru cavab verib, 11,29%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün romanın məzmununa bələd olmaq lazımdır. Dərslikdə əsərdən verilən hissələrdən məlumdur ki, Azərşəhrdə yaşayan Firidunun ailəsi ərbabın (mülkədarın) təzyiq və təqibləri üzündən Tehrana köçür. Deməli, "təqibdən qurtulmaq" (A bəndi) Firidunun Tehrana ilk gedişinin məqsədi idi. Test tapşırığında isə Firidunun "yenidən Tehrana qayıtmaqda məqsədi"ni müəyyənləşdirmək tələb olunur. Eləcə də ana-atasını itirən Firidun bir müddət Tehranda qoca müəllimin himayəsində yaşayır və ondan təhsil alır. Sonra isə bir il Təbrizdə işləyir. Beləliklə, "münasib iş tapmaq" (E bəndi) qəhrəmanın Təbrizə gedişinin əsas məqsədi idi. Firidun hiss edir ki, daha artıq biliyə möhtacdır və darülfünuna daxil olmaq üçün Tehrana qayıdır. Odur ki, test tapşırığının doğru cavabı "darülfünuna daxil olmaq"dır (D bəndi). Tehrana gəldikdən sonra ilk əvvəl ona atalıq etmiş qoca müəllimin yanına getməyi də özünə borc bilir. Yəni qəhrəmanın Tehrana qayıdışının səbəbi darülfününa (universitetə) daxil olmaqdır. Dərslikdəki mətn parçasında Firidunun "inqilabçılara qoşulmaq" (C bəndi) istəyindən isə, ümumiyyətlə, söz açılmır. Abituriyentlərin çoxu (37,17%-i) "qoca müəlliminə baş çəkmək" (B bəndi) fikrini doğru cavab hesab etmişlər.

Doğru cavab: D

Qəbul imtahanında ədəbiyyat fənnindən mətn üzrə tapşırıqlardan da istifadə olunur. Təhlillər göstərir ki, mətn tapşırıqları üzrə şagirdlərin göstərdiyi ən aşağı nəticə janr, obrazların xarakteri və bədii ifadə vasitələrinin müəyyənləşdirilməsi ilə bağlı olmuşdur.

6 iyul tarixli imtahan, A variantı, mətn üzrə 88-90 saylı tapşırıqlar

"Faciə"

(Əsərdən parça)

Bu yol on iki il bundan əvvəl çəkilmişdi ki, şitil daşınıb vaxtilə ucalığı, möhtəşəmliyi ilə insanı heyran qoyan, müharibə illərində isə meşəsi qırılıb toz-tozanaq məkanına çevrilmiş köhnə palıdlıqda təzə palıd meşəsi salınsın. Qadınlardan ibarət fəhlə briqadası tozanaqlıqda palıdlıq salmışdı.

Birdən Zəlimxan diksinib yəhərdə dikəldi. Təhsil almağa gedəndən öncə buradan keçəndə o, cəngəllikdən kəhərin ayaq səslərinin əks-sədasını eşidərdi, rütubətli və ilıq cəngəllik həniri duyardı. İndi isə... Nə əks-səda, nə hənir. Yolun sağından-solundan Zəlimxanın üzünə dəhşətli bir xarabalığın soyuq yeli əsdi. O anda hiss etdi ki, bu həndəvərdə ağac-zad qalmayıb. Hanı qovaqların, xan çinarların pıçıltıları, niyə eşidilmir, Zəlimxan?! Hanı göyərçinlərin nəğmələri? Yoxsa quşlar da buralardan küsüb?

Necə həyəcanlandısa, qəlb sirdaşı kəhər də hövllənib yerindən qopdu. Palıd meşəliyinə yetişəndə isə sahibinin əhvalındakı dəyişikliyi hiss etmiş kimi yavaşıyıb dayandı. Zəlimxan gözlərini qıyıb bir daha ətrafa boylandı. Ağlar kötüklər, kötüklər, kötüklər!.. Beynində iki kəlmə dolandı: "Kötüklər səltənəti!"

(İ.Hüseynov)

88. İ.Hüseynovun "Faciə" və "Zəhər" əsərlərinin oxşar cəhətləri əsasında cədvəli doldurun.

Mövzu	***Problem***	***Hər iki əsərdəki əsas obraza aid xüsusiyyət***

Mümkün olan doğru cavablar:

Mövzu	*Problem*	*Hər iki əsərdəki əsas obraza aid xüsusiyyət*
Təbiət; Ekologiya (ekoloji) İnsan və təbiət; Təbiətə münasibət; İnsanın təbiətə münasibəti.	Meşənin məhv edilməsi; Təbiətin məhv edilməsi; Ağacların qırılması; Ekoloji tarazlığın pozulması; Ekoloji fəlakət.	Hər iki obraz meşəni (təbiəti) sevir; Hər iki obraz meşənin məhv olmasından narahat olur; Hər iki obrazla atı arasında xüsusi bağlılıq vardır; Hər ikisi təbiətə biganə deyil; Hər iki obraz təbiətə qarşı təcavüzdən narahat olur (kədərlənir).

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Cədvəlin bütün hissələrinə ən azı bir doğru fikir yazılır, yanlış fikir ***yazılmır;***
$\frac{2}{3}$ bal	B. Cədvəlin 3 hissəsinə doğru fikirlə yanaşı, hər hansı bir hissəsinə 1 ***yanlış*** fikir də yazılır; C. Cədvəlin yalnız 2 hissəsinə doğru fikir yazılır, yanlış fikir ***yazılmır;*** D. Cədvəlin 2 hissəsinə doğru, digər hissəsinə isə ***yanlı***ş fikir yazılır; E. Cədvəlin 1 hissəsinə doğru, 1 hissəsinə ***yanlış*** fikir, digər hissəsinə isə ***2 doğru*** fikirlə yanaşı, ***1 yanlış*** fikir yazılır;
$\frac{1}{3}$ bal	F. Cədvəlin yalnız 1 hissəsinə doğru fikir yazılır, yanlış fikir ***yazılmır;*** G. Cədvəlin 1 hissəsinə doğru, digər hissələrdən 1-nə ***yanlış*** fikir yazılır, digər hissəsi isə ***yazılmır***; H. Cədvəlin bir hissəsi doğru yazılmaqla, digər hissələrin hər birinə 1 doğru, ***1 yanlış*** fikir yazılır; I. Cədvəlin bir hissəsi doğru yazılmaqla, digər hissələrdən birinə 1 doğru, ***1 yanlış*** fikir, birinə isə ***yanlış*** fikir yazılır;
0 bal	J. Cədvəlin 1 hissəsinə doğru, digər hissələrinə isə ***yanlış*** fikir yazılır; K. Digər bütün hallarda.

Qeyd 1: Hər iki əsərdəki əsas obraza aid xüsusiyyət hissəsində "*meşəbəyi*", mövzu hissəsində "*ictimai*" fikri ***yanlışdır***.

Qeyd 2: "*Hər ikisi ali təhsillidir"* fikri ***yanlışdır***.

Tapşırıq vasitəsilə 10-cu sinif səviyyəsində *3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır* alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 39, 01%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 28,70%-i $\frac{2}{3}$ balla, 4,28%-i $\frac{1}{3}$ balla, 8,88%-i 0 balla qiymətləndirilib, 19,14% isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün İ.Hüseynovun "Faciə" və "Zəhər" əsərlərinin oxşar cəhətləri əsasında cədvəli doldurmaq lazımdır. Müəllifin "Zəhər" hekayəsi 9-cu sinifdə xüsusi tədris edilir. "Faciə" əsərindən verilən parça ilə "Zəhər" hekayəsinin müqayisəsindən də aydın olur ki, hər iki nümunədə əsas mövzu *Təbiət; Ekologiya (ekoloji); İnsan və təbiət; Təbiətə münasibət; İnsanın təbiətə münasibəti* ilə bağlıdır. Abituriyentə məlumdur ki, "Zəhər" hekayəsinin təhlilində də məhz bu məsələlər ön plandadır.

89. Verilmiş mətnlə H.Ziyanın "Kərgədan və Qarışqa" əsərinin forma xüsusiyyətlərini nəzərə alaraq, üç ortaq fikir yazın.

1.
2.
3.

Mümkün olan doğru cavablar:

Təhkiyə əsasdır (nağıletmə üsulu əsasdır).

Təsvir əsasında yazılmışdır

Epik növə aiddir.

Süjetli əsərdir.

Bədii təsvir və ifadə vasitələrindən istifadə edilmişdir.

Müəllif və surətlərin nitqindən ibarətdir (müəllif təhkiyəsi ilə verilmişdir, müəllifin dilindəndir).

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Mümkün doğru cavablara uyğun 3 fikir yazılır, yanlış fikir ***yazılmır**;*
$\frac{2}{3}$ bal	B. Mümkün doğru cavablara uyğun 3 fikirlə yanaşı, ***1 yanlış*** fikir də yazılır; C. Mümkün doğru cavablara uyğun yalnız 2 fikir yazılır, yanlış fikir ***yazılmır***; D. Mümkün doğru cavablara uyğun 2 fikir yazılsa da, ***1 yanlış*** fikir də yazılır;
$\frac{1}{3}$ bal	E. Mümkün doğru cavablara uyğun yalnız 1 fikir yazılır, yanlış fikir ***yazılmır***; F. Mümkün doğru cavablara uyğun 1 fikir yazılsa da, digər ortaq fikirlərdən 1-i yanlış yazılır, 1-i isə ***yazılmır***; G. Mümkün doğru cavablara uyğun 2 fikirlə yanaşı, ***2 yanlış*** fikir də yazılır;
9-cu sinif Azərbaycan tarixi dərsliyində "Cənubi Azərbaycan Qacarlar dövlətinin tərkibində, Azadlıq hərəkatının yeni mərhələsi", 11-ci sinif Azərbaycan tarixi dərsliyində "Cənubi Azərbaycan XIX əsrdə, Cənubi Azərbaycan XX əsrin əvvəllərində. Məşrutə hərəkatı" mövzularına aid bu test tapşırığına

abituriyentlərin 20,03%-i doğru cavab verib, 37,08%-i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Cənubi Azərbaycanın XIX əsr və XX əsrin əvvəlləri tarixinə aid bilik və bacarıqlara malik olmaq lazımdır. XIX əsrin əvvəllərindən etibarən Qacarlar xarici dövlətlərdən, xüsusilə İngiltərədən müəyyən müqavilələrlə asılı hala düşmüş və onların məmurları burada müəyyən üstünlüklər əldə etmişdir. Bu və digər üstünlüklər əhalinin onlara qarşı çıxışlarına səbəb olmuşdur. Hər iki çıxışın əsas mərkəzlərindən biri Təbriz şəhəri idi. Məşrutə hərəkatı xarici qüvvələrin (Rusiya və İngiltərə) köməyi ilə yatırılmışdır. Tənbəki üsyanı 1892-ci ildə, Məşrutə hərəkatı isə 1905–1911-ci illərdə baş vermişdir. Məşrutə hərəkatından fərqli olaraq Tənbəki üsyanı qalib gəlmişdir.

Doğru cavab: D

Azərbaycan tarixi, 9-cu sinif

2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir.

7 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 84 saylı test tapşırığı

Vətən müharibəsində düşməndən tamamilə təmizlənən hansı rayonların ərazilərinin müəyyən hissələri həm 1994-cü ilin yanvar, həm də 2016-cı il aprelində aparılan hərbi əməliyyatların gedişində işğaldan azad edilmişdir?



Dövlət İmtahan Mərkəzinin saytında yerləşdirilmiş Vətən müharibəsinə (II Qarabağ müharibəsi) aid əlavə məqalə ilə bağlı bu test tapşırığına abituriyentlərin 15,18%-i doğru cavab verib, 21,20%-i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Vətən müharibəsinin (II Qarabağ müharibəsi) tarixinə aid bilik və bacarıqlara malik olmaq lazımdır. Xəritədə 1 – Kəlbəcər, 2 – Cəbrayıl, 3– Füzuli, 4 – Xocavənd, 5 – Ağdam rayonu əks olunmuşdur. Cəbrayıl və Füzuli rayonlarının ərazilərinin müəyyən hissələri həm 1994-cü ilin yanvarında, həm də 2016-cı ilin aprelində aparılan hərbi əməliyyatların gedişində azad edilmişdir.

Doğru cavab: 2, 3

Artıq bir neçə ildir ki, ali təhsil müəssisələrinə qəbul imtahanlarında tarixi mənbə üzərində işlə bağlı tapşırıqlar istifadə olunur. Qəbul imtahanlarında istifadə edilmiş mənbələr qəbul proqramına uyğun müvafiq mövzularla bağlı olmuşdur. Mənbələrə aid tapşırıqlar məlumatın əldə edilməsi, nəticəçıxarma, təhlil, müqayisə və səbəb-nəticə əlaqələrini müəyyənetmə bacarıqlarını yoxlamaq məqsədi daşımışdır.

22 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, mənbəyə aid 88-90 saylı tapşırıqlar

> Nadir xan onun fəthlərinə mane olan Şah Təhmasibi səltənətindən azad edərək sikkəni və xütbəni onun azyaşlı oğlu Şah III Abbasın adına vurdurub oxutdu. Özü isə müstəqil olaraq hökmranlıq etməyə başladı. Rum (Osmanlı) qoşununu ağır şəkildə məğlubiyyətə uğratdıqdan sonra Bağdad hakimi Əhməd paşa ilə sülh müqaviləsi bağladı. Həmin dövlətin qanununa müvafiq olaraq paşalara Səfəvi vilayətlərini boşaltmaq haqqında fərmanlar göndərildi. Lakin müqavilənin şərtlərinə əməl edilməməsi Nadir xanı yenidən hərbi əməliyyatları davam etdirməyə sövq etdi.

Mənbəyə aid tapşırıqlar vasitəsilə

Azərbaycan tarixi, 8-ci sinif

1.2.1. Dövrə aid hadisə, proses və təzahürləri verilmiş yazılı mənbələrlə əlaqələndirir.

Azərbaycan tarixi, 10-cu sinif

1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

88. Mənbədə hansı müqavilədən bəhs edildiyini yazın.

8 və 10-cu siniflərdə tədris olunan "Azərbaycan XVIII əsrin I yarısında" mövzusuna aid bu tapşırığını abituriyentlərin 30,81%-i tam yerinə yetirib və onların işi maksimum balla, 0,89%-i maksimum balın yarısı ilə, 16,85%-i 0 balla qiymətləndirilib, 51,46%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Doğru cavab: Bağdad müqaviləsi

Bal şkalası	Meyar
1 bal	A) - Bağdad müqaviləsi.
$\frac{1}{2}$ bal	B) - 1733-cü il müqaviləsi. -Bir doğru və bir yanlış cavab.
0 bal	C) -Digər başqa hallarda.

89. Mənbədə bəhs olunan müqavilənin şərtlərinə əməl ***olunmamasının*** səbəbini yazın.

Bu tapşırığı abituriyentlərin 5.29%-i tam yerinə yetirib və onların işi maksimum balla,

0,34%-i maksimum balın yarısı ilə, 38,99%-i 0 balla qiymətləndirilib, 55,38%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Doğru cavab: Müqavilənin Osmanlı sultanı tərəfindən təsdiq edilməməsi

Bal şkalası	Meyar
1 bal	A) - Müqavilənin Osmanlı sultanı (*və ya* hökuməti) tərəfindən təsdiq edilməməsi. - Sultanın paşa ilə razılaşmaması.
$\frac{1}{2}$ bal	B) - Bir doğru və bir yanlış cavab.
0 bal	C) - Mənbədəki cümlələrin köçürülməsi.

90. Haqqında bəhs olunan müharibənin Səfəvi dövləti üçün iki yekun nəticəsini yazın.

Bu tapşırığı abituriyentlərin 9,24%-i tam yerinə yetirib və onların işi maksimum balla ,

3,86%-i maksimum balın yarısı ilə, 27,0%-i 0 balla qiymətləndirilib, 49,87%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Doğru cavablar: 1. Səfəvi dövləti itirdiyi bütün torpaqları geri qaytardı.

2. 1735-ci ilin sonuna qədər Osmanlı qoşunu Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan çıxarıldı.

3. Səfəvi dövlətinin əvvəlki sərhədləri bərpa olundu.

Bal şkalası	Meyar
1 bal	A) - Səfəvi dövləti itirdiyi bütün torpaqları geri qaytardı. - 1735-ci ilin sonuna qədər Osmanlı qoşunu Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan çıxarıldılar. (*və ya* 1735-ci ilin sonlarında Osmanlı qoşunu zəbt etdiyi bütün Səfəvi torpaqlarını tərk etməyə məcbur oldu.) - Səfəvi dövlətinin əvvəlki sərhədləri bərpa olundu. - Səfəvi dövləti qalib gəldi (*və ya* Osmanlı dövləti məğlub edildi).
$\frac{1}{2}$ bal	B) - Bir doğru və bir yanlış cavab. - Bir doğru cavabla mahiyyətcə eyni məzmunlu 1 cavab.
0 bal	C) - Mənbədəki cümlələrin köçürülməsi.

Coğrafiya fənnindən ali təhsil müəssisələrinə II və III (TC altqrupu) ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar fənn kurikulumuna görə 3 (**"Coğrafi məkan"**, **"Təbiət"**, **"Cəmiyyət"**) məzmun xətti üzrə 6 əsas və 118 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanlarında abituriyentlərin aşağıdakı bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsi nəzərdə tutulub:

1. Kainatda Yerin mövqeyini və onun hərəkətinin coğrafi nəticələrini təsvir etmək;
2. Səma cisimlərinin qarşılıqlı təsirini əlaqələndirmək;
3. Yerin sutkalıq və illik hərəkətini Yerdə həyatın mövcudluğu ilə əlaqələndirmək;
4. Coğrafi təbəqələrin inkişaf mərhələlərini izah etmək;
5. Təbii coğrafi şərait və ehtiyatların yerləşmə qanunauyğunluğunu izah etmək və insanların təbiətdən istifadəsində ekoloji tarazlığın saxlanılması yollarını qiymətləndirmək;
6. Əhalinin dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirmək.

Qəbul imtahanında istifadə edilmiş tapşırıqların bölmələr üzrə paylanmasında ümumtəhsil məktəblərinin coğrafiya kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınmışdır. Ötən illərdə olduğu kimi, bu il də test bloklarında məntiqi düşünmə tələb edən, biliklərin tətbiqinə əsaslanan xəritə-sxem, qrafik, diaqram və hesablama xarakterli tapşırıqlara üstünlük verilmişdir. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə test bloklarına mürəkkəblik dərəcəsinə görə çətin, sadə və orta tapşırıqlar daxil edilmişdir.

İmtahan nəticələrinin statistik göstəricilər əsasında aparılan təhlili göstərir ki, abituriyentlərin müəyyən hissəsi "Azərbaycanın relyefi, faydalı qazıntıları", "Azərbaycanın iqlimi", "Materiklərin daxili suları", "Dünyanın təbii ehtiyatlarının yerləşməsi", "Dünya təsərrüfatı" və s. mövzulara aid tapşırıqlara daha yaxşı cavab veriblər. Lakin hesablama xarakterli, xəritə-sxem məzmunu olan, nəzəri bilikləri tətbiqetmə, nəticə çıxarmaq qabiliyyəti tələb edən, müəyyən ölkələrin və ya regionların fiziki-coğrafi və iqtisadi-coğrafi səciyyəsinə aid tapşırıqları nisbətən zəif cavablandırmışlar.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

8-ci sinif

2.1.1. Litosfer tavalarının hərəkətini müasir relyef formalarının yaranması ilə əlaqələndirir.

22 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 41 saylı test tapşırığı

Sxemdə təsvir olunan litosfer tavalarının hərəkəti səbəb olmuşdur:

1. Azor adalarının yaranmasına
2. Naska və Cənubi Amerika litosfer tavalarının sərhədinin yaranmasına
3. Şimali Amerika və Avrasiya litosfer tavalarının sərhədinin formalaşmasına
4. Hekla vulkanının yaranmasına
5. Aleut novunun yaranmasına



A) I – 1, 4, 5; II – 2, 3 B) I – 2, 3, 5; II – 1, 4 C) I – 2, 3, 4; II – 1, 5
D) I – 1, 5; II – 2, 3, 4 E) I – 2, 5; II – 1, 3, 4

"Litosfer. Yerin planetar və geoloji inkişaf mərhələsi. Faydalı qazıntılar" bölməsinə aid bu tapşırığa abituriyentlərin 23,87%-i doğru cavab verib, 19,69%-i tapşırıgı yerinə yetirməkdən imtina edib.

Tapşırıqda göstərilən sxemlərin hansı litosfer tavalarına aid olmasının müəyyən edilməsi tələb olunur.

Test tapşırığının yerinə yetirilməsi üçün tektonik hərəkətlər nəticəsində baş verən litosfer tavalarının hərəkətinin müxtəlif istiqamətlərdə olduğunu bilmək lazımdır. Göstərilən birinci şəkildə onların toqquşması baş verir və konvergent sərhəd hesab olunur. Belə vəziyyət Cənubi Amerikanın Sakit okean sahillərində, Cənubi Amerika tavasının Naska tavası ilə toqquşması zonasında yaranır. Eyni proses Sakit okean tavası ilə Şimali Amerika tavası arasında da müşahidə olunur. Ona görə birinci sxemə 2 və 5-ci bəndlər uyğundur (I – 2, 5).

İkinci şəkildə litosfer tavalarının kənarlaşma sərhədi, yaxud divergent sərhəd göstərilir. Kənarlaşma orta okean silsilələrinin sərhədində müşahidə olunur. Nəticədə, vulkan püskürməsi baş verir. Onların konusları bəzən adalar formasında suyun səthinə çıxır. Məsələn, Azor və İslandiya adaları. Ona görə ikinci şəkilə 1, 3 və 4-cü bəndlər uyğun gəlir (II – 1, 3, 4)

Doğru cavab: E

7-ci sinif

2.1.6. Kontur xəritədə Dünya okeanının hissələrini qeyd edir.

22 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 46 saylı test tapşırığı

Atlantik okeanı hövzəsinə aid olan müvafiq yarımada, körfəz, dəniz və adaları müəyyən edin.

A) Appenin, Alyaska, Adriatik, Korsika
B) Labrador, Hudzon, Mərmərə, İrlandiya
C) Balkan, Fin, Ueddell, Siciliya
D) Florida, Meksika, Şimal, Qalapaqos
E) Bretan, Biskay, Barens, İslandiya

"Hidrosfer. Yerin su təbəqəsi" bölməsinə aid bu tapşırığa abituriyentlərin 16,87%-i doğru cavab verib, 20,75%-i isə cavab verməkdən imtina edib. Bu onu göstərir ki, abituriyentlərin bir çoxu əvvəlki illərdə olduğu kimi, yenə də ayrı-ayrı ərazilər və coğrafi adların öyrənilməsində çətinlik çəkir və bu mövzunu tam olaraq mənimsəyə bilmirlər.

Tapşırığın yerinə yetirilməsi üçün "Dünyanın fiziki xəritəsi"ni yaxşı mənimsəmək, imtahana hazırlaşarkən kontur xəritələr üzərində çoxlu tapşırıqlar yerinə yetirmək lazımdır.

Dünyanın fiziki xəritəsinə əsasən Atlantik okeanına aid olan Balkan yarımadasını, Fin körfəzini, Ueddell dənizini və Siciliya adasını müəyyən etmək olar. Onlar ardıcıl olaraq C bəndində verilmişdir.

Doğru cavab: C

11-ci sinif

3.2.4. İqtisadi göstəricilərə əsasən hesablamalar aparır, sxemlər və diaqramlar qurur.

22 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 55 saylı test tapşırığı

Azərbaycanda avtomobil yollarının uzunluğu əvvəlki illərdə 2752 km, uzun illərdən sonra isə 27000 km olmuşdur. Keçən dövr ərzində hər 100 km^2-ə düşən avtomobil yollarının orta sıxlığı neçə kilometr artmışdır?

"Azərbaycan Respublikasının iqtisadiyyatı (sənayesi, k/t, nəqliyyatı və beynəlxalq iqtisadi əlaqələri)" bölməsinə aid hesablama xarakterli bu tapşırığa abituriyentlərin 3,49%-i doğru cavab verib, 57,18%-i isə cavab verməkdən imtina edib.

Tapşırıqda Azərbaycanda avtomobil yollarının uzunluğunun artması və bunun əsasında hər 100 km^2 əraziyə düşən yolların sıxlığının dəyişməsinin müəyyən edilməsi tələb olunur.

Əvvəlki illərdə də bu tipli test tapşırıqlarının təqdim olunmasına baxmayaraq, abituriyentlər onun həllində çətinlik çəkmişlər.

Test tapşırığının yerinə yetirilməsi üçün ilkin və sonrakı dövrdə hər 100 km^2 əraziyə düşən yolların sıxlığını müəyyən etmək lazımdır. Bunun üçün aşağıdakı tənasüblər yazılır.

İlkin dövrdə		Sonrakı mərhələdə	
86600 km^2 ——— 2752 km		86600 km^2 ——— 27000 km	
100 km^2 ——— x km		100 km^2 ——— y km	
$x = 2752 \cdot 100 / 86600$	$x = 3,2$	$y = 27000 \cdot 100 / 86600$	$y = 31,2$

Ölkədə hər 100 km^2 əraziyə düşən yolların sıxlığının dəyişməsini hesablamaq üçün iki dövr arasında olan fərqi müəyyən etmək lazımdır.

$y - x = 31,2 - 3,2 = 28$ (km/100 km^2)

Doğru cavab: 28

10-cu sinif

2.1.4. İqlim göstəricilərinə əsasən hesablamalar aparır.

2.1.7.Coğrafi təbəqənin qanunauyğunluqlarını izah edir.

22 may tarixli imtahan, III ixtisas (TC altqrupu) qrupu, A variantı, 7 saylı test tapşırığı

Dağın yamacında, 1500 m yüksəklikdə havanın maksimum temperaturu +9ºC-dir. Bu dağda 4000 m hündürlükdə havanın temperaturunu və atmosfer təzyiqini, həmçinin qar xəttinin hansı hündürlükdən keçdiyini müəyyən edin. (Nəzərə alın ki, dağın ətəyi 0 m hündürlükdə və normal atmosfer təzyiqindədir).

A) –6°C, 310 mm c.s, 3500 m
B) –3°C, 260 mm c.s, 3000 m
C) –12°C, 410 mm c.s, 3500 m
D) 3°C, 260 mm c.s, 4500 m
E) –6°C, 360 mm c.s, 3000 m

"Atmosfer. Yerin hava təbəqəsi" və "Quru suları və onun təsərrüfatda rolu" bölmələrinə aid bu tapşırığa abituriyentlərin 12,71%-i doğru cavab verib, 33,98%-i isə cavab verməkdən imtina edib. Bu onu göstərir ki, abituriyentlərin bir çoxu hesablamalar aparılmasında çətinlik çəkir və bu mövzunu tam olaraq mənimsəyə bilmirlər.

Test tapşırığının yerinə yetirilməsi üçün verilən məlumatlar əsasında 4000 m hündürlükdə havanın temperaturunu və atmosfer təzyiqini, qar xəttinin hündürlüyünü müəyyən etmək lazımdır.

4000 m hündürlükdə havanın temperaturu:

Məsələnin şərtinə görə havanın temperaturu 9ºC olan məntəqə 1500 m mütləq hündürlüyə malikdir. Bu zaman zirvə ilə bu məntəqə arasında hündürlük fərqi 2500 m (4000–1500=2500) təşkil edir. Belə hündürlükdə havanın temperaturu 15ºC (2500·6/1000=15) dəyişir. Ona görə 4000 m hündürlükdə havanın temperaturu -6ºC (9–15= -6) olur.

4000 m hündürlükdə atmosfer təzyiqi:

Dağın ətəyi okean səviyyəsində yerləşir və burada normal atmosfer təzyiqi 760 mm c. st. təşkil edir. Hər 10 m yuxarı qalxdıqca atmosfer təzyiqi 1 mm c. st. azaldığına görə 4000 m hündürlükdə 360 mm c. st. olacaq (4000:10=400; 760 – 400 = 360 mm c. st.).

Qar xəttinin hündürlüyü:

Qar xətti havanın temperaturunun il ərzində 0°C olduğu ərazidən keçir. Dağın yamacında

1500 m hündürlükdə temperatur +9ºC olduqda, qar xətti 3000 m ((1000·9)/6=1500; 1500+1500=3000) hündürlükdən keçir.

Doğru cavab: E

8-ci sinif

1.2.2. Yerin hərəkətinin coğrafi nəticələri ilə həyatın inkişafı arasında əlaqəni izah edir.

22 may tarixli imtahan, III ixtisas (TC altqrupu) qrupu, A variantı, 10 saylı test tapşırığı

Yerin sxemdə verilən vəziyyətinə əsasən doğru fikirləri müəyyən edin.

1. Qış gündönümü günüdür və bu tarixdən sonra Cənub qütb dairəsində gündüzün uzunluğu qısalır.
2. Danimarkada gecənin uzunluğu Portuqaliyadakından daha qısadır.
3. Şimal qütb dairəsində qütb gündüzüdür.
4. Yaz gecə-gündüz bərabərliyi günüdür.
5. Cənub qütb dairəsində qütb gündüzüdür.
6. Şimal tropik xəttinə Günəş şüalarının günorta vaxtı düşmə bucağı 43°-dir.



A) 1, 5, 6 B) 1, 3, 4 C) 2, 5, 6 D) 2, 3, 4 E) 2, 4, 5

"Yer Günəş sistemində" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 13,26%-i doğru cavab verib, 29,28%-i isə imtina edib. Tapşırıqda Yerin fırlanma oxunun vəziyyətinə görə doğru olan ifadələrin müəyyənləşdirilməsi tələb olunur.

Test tapşırığının yerinə yetirilməsi üçün Yerin öz oxu ətrafında fırlanması zamanı onun meyilliyinin dəyişməsindən asılı olaraq hansı hadisələrin baş verə biləcəyini təsəvvür etmək lazımdır. Təqdim olunan şəkildə Yer üzərində 22 dekabr qış gündönümü günü təsvir olunur. Bu halda isə Şimal yarımkürəsində qış gündönümü günüdür (1); Cənub qütb dairəsində qütb gündüzü olur (5); Şimal tropik xəttinə günəş şüalarının günorta vaxtı düşmə bucağı 43º-dir (90º-(23,5 º+23,5º)=43º) (6).

***Doğru cavab:* A**

8-ci sinif

2.1.4. Atmosfer hadisələrinə dair sxem və diaqramlar tərtib edir.

22 may tarixli imtahan, III ixtisas (TC altqrupu) qrupu, A variantı, 23 saylı test tapşırığı

Verilmiş iqlim diaqramlarına əsasən düzgün olan fikirləri müəyyən edin.

1. Diaqramların hər ikisi eyni iqlim qurşağına aiddir
2. I diaqram üçün isti, quraq yay və mülayim, rütubətli qış səciyyəvidir
3. Hər iki diaqramın aid olduğu iqlim tipinə Afrika materikində rast gəlinmir
4. I diaqramın aid olduğu iqlim tipi Cənubi Avropa ölkələri üçün xarakterikdir
5. II diaqramın aid olduğu iqlim tipi İrlandiyada müşahidə olunmur
6. II diaqramın aid olduğu iqlim tipinin formalaşmasına Passat küləklərinin təsiri yoxdur



"İqlim və onun təsərrüfata təsiri" bölməsinə aid bu tapşırığa abituriyentlərin 12,15%-i doğru cavab verib, 11,88%-i cavab verməkdən imtina edib. Tapşırıqda sxem əsasında təhlil aparılması və təqdim olunan iqlim diaqramlarına aid ifadələrin müəyyən edilməsi üçün onların hansı ərazilərə xas olduğunu bilmək tələb olunur.

Statistik məlumatların təhlili göstərmişdir ki, abituriyentlərin əksəriyyəti hələ də diaqram və sxemlərə aid xüsusiyyətlərin müəyyən edilməsində çətinlik çəkirlər.

Test tapşırığının yerinə yetirilməsi üçün bilmək lazımdır ki, birinci sxemdə yay quraq keçir, yanvarın orta temperaturu 7-8ºC-yə yaxın, iyulun orta temperaturu 28ºC-yə qədərdir. Bu iqlim diaqramı Şimal subtropik iqlim qurşağına uyğun gəlir.

İkinci iqlim diaqramında yağıntılar, əsasən, bərabər paylanır, bu isə mülayim qurşağın dəniz iqlim tipinə uyğundur. Yanvarın orta temperaturu 5-6ºC-yə yaxın, iyulun orta temperaturu 12-13ºC-yə qədərdir.

Bunlar əsasında demək olar ki, 2, 4 və 6-cı bəndlər doğrudur.

Doğru cavab: 2, 4, 6

9-cu sinif

3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir.

8-ci sinif

3.1.2. Əhalinin təbii artımına görə hesablamalar aparır.

9-cu sinif

3.1.1. Əhalinin artım dinamikasını ölkələrin inkişaf səviyyəsi ilə əlaqələndirir.

10-cu sinif

3.1.1. Əhalinin artımının yaratdığı problemləri təhlil edir.

7 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 44 saylı test tapşırığı

Latın Amerikasında 1990-cı ildə əhalinin sayı 450 mln. nəfər, 2010-cu ildə 585 mln. nəfər olmuşdur. Hər 1000 nəfərə görə orta illik təbii artımın 17 nəfər olduğunu nəzərə alaraq, keçən müddət ərzində əhalinin sayının miqrasiya hesabına neçə mln. nəfər azaldığını müəyyən edin.

A) 14 B) 27 C) 18 D) 32 E) 24

"Dünya" əhalisi bölməsinə aid hesablama xarakterli bu test tapşırığına abituriyentlərin 16,03%-i doğru cavab verib, 61,78%-i isə cavab verməkdən imtina edib.

Tapşırıqda əhalinin sayının artımında təbii artımın və miqrasiyanın rolunun müəyyən edilməsi tələb olunur. Əvvəlki illərdə də imtahanlarda belə tapşırıqların təqdim olunmasına baxmayaraq, abituriyentlər onun həllində çətinlik çəkmişlər.

Test tapşırığının yerinə yetirilməsi üçün bilmək lazımdır ki, əhalinin sayı təbii artım və miqrasiya hesabına dəyişir. Ölkədən gedənlərin sayı çox olursa, əhalinin sayı zəif artır və ya azalır. İlk növbədə, əhalinin sayının neçə mln. nəfər çoxaldığını müəyyən etmək lazımdır.

1990–2010-cu illərdə əhalinin sayının artımı:

585 mln. nəfər – 450 mln. nəfər = 135 mln. nəfər

Təbii artım hesabına əhalinin sayının artımı:

1000 nəfər ——— 17 nəfər

450 mln. nəfər ——— x nəfər x = (450000000 · 17) : 1000 = 7650000

Bir ildə əhalinin sayı 7650000 nəfər artırsa, 20 il ərzində artım:

7650000 · 20 = 153 mln. nəfər.

Məsələnin şərtində verilən ədədlər əsasında hesablamalar göstərir ki, ölkədə əhalinin sayı bu müddət ərzində təbii artımla 153 mln. nəfər çoxalmışdır. Lakin faktiki artım isə 135 mln. nəfər təşkil edir (585 mln.– 450 mln.=135 mln.). Deməli, ölkədən miqrasiya edənlərin sayı 18 mln. nəfər (153 - 135 = 18 mln. nəfər) olmuşdur.

Doğru cavab: C

10-cu sinif

2.1.5. Quru sularının xüsusiyyətlərinə dair layihələr hazırlayır, təqdim edir.

7 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 54 saylı test tapşırığı

Doğru ***olmayan*** coğrafi ifadələri müəyyən edin.

1. Ob, Yenisey, Lena çaylarının qidalanmasında qar və yağış suları üstünlük təşkil edir.

2. Nil çayının hövzəsi iki işıqlanma qurşağında yerləşir.

3. Eyr gölü tropik işıqlanma qurşağında yerləşir.

4. Amudərya və Sırdərya çaylarının mənsəbi okean səviyyəsindən aşağıdadır.

5. Viktoriya gölü platformanın əyilmə zonasında yerləşir.

6. Şimali Amerika materikindən Sakit okeana tökülən çayların düşməsi çox kiçikdir.

Seçim xarakterli test tapşırığı "Hidrosfer. Yerin su təbəqəsi" bölməsinə aid açıq tipli bu tapşırığa abituriyentlərin 6,58%-i doğru cavab verib, 22,12%-i isə cavab verməkdən imtina edib.

Test tapşırığının yerinə yetirilməsi üçün Yer üzərində olan çayların və göllərin yerləşməsini, onların hansı təbii-coğrafi şəraitə uyğun gəldiyini, qidalanmasını və rejimini bilmək lazımdır.

Tapşırıqda doğru olmayan ifadələrin müəyyən edilməsi tələb olunur, ona görə də 3, 4 və 6-cı bəndlərdəki fikirlər yanlışdır. "Eyr gölü tropik işıqlanma qurşağında yerləşir" – *səhv fikirdir*. Çünki Eyr gölü Cənub tropikindən cənubda yerləşdiyi üçün cənub mülayim işıqlanma qurşağına aid edilir. "Amudərya və Sırdərya çaylarının mənsəbi okean səviyyəsindən aşağıdadır" – *səhv fikirdir*. Çünki bu çaylar Aral gölünə tökülür və bu gölün səviyyəsi okean səviyyəsindən yuxarıda yerləşir. "Şimali Amerika materikindən Sakit okeana axan çayların düşməsi çox kiçikdir" – *səhv fikirdir*. Çünki Şimali Amerikanın Sakit okean hövzəsinə aid olan çaylarının mənbəyi Kordilyer dağlarında kifayət qədər yüksək ərazilərdə yerləşir, bu səbəbdən həmin çayların düşməsi böyük olur.

Doğru cavab: 3, 4, 6

10-cu sinif

2.1.1. Yer qabığında dəyişikliklərə dair proqnozlar verir.

7 iyul tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 5 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Platforma örtüyü

2. Kristallik bünövrə

a. platformanın alt mərtəbəsidir.

b. süxurlar əsasən üfüqi yatıma malikdir.

c. yanar faydalı qazıntılar yayılmışdır.

d. akkumulyasiya prosesi üstünlük təşkil edir.

e. maqmatik və metamorfik süxurlardan təşkil olunmuşdur.

A) 1–b, c; 2–a, d, e B) 1–a, e; 2–b, c, d C) 1–c, d; 2–a, b, e

D) 1–a, c, e; 2–b, d E) 1–b, c, d; 2–a, e

"Litosfer. Yerin planetar və geoloji inkişaf mərhələsi. Faydalı qazıntılar" bölməsinə aid uyğunluğun müəyyən edilməsi tələb olunan bu tapşırığa abituriyentlərin 13,52%-i doğru cavab verib, 31,72%-i cavab verməkdən imtina edib. Tapşırıqda göstərilən platforma örtüyü və kristallik bünövrəyə aid uyğun xüsusiyyətlərin müəyyən edilməsi tələb olunur.

Test tapşırığının yerinə yetirilməsi üçün bilmək lazımdır ki, platforma örtüyündə süxurlar üfüqi istiqamətdə yatır (b); onlar yanar faydalı qazıntılarla zəngin olur (c); bu ərazilərdə akkumulyasiya prosesləri intensiv gedir (d).

Platformaların kristallik bünövrəsi onun aşağı mərtəbəsində yerləşir (a); bünövrə maqmatik və metamorfik süxurlardan təşkil olunur (e).

Doğru cavab: E

9-cu sinif

3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.

07 iyul tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 27 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Yaponiya	a. inzibati-ərazi quruluşuna görə federativ dövlətdir.
2. Argentina	b. elmtutumlu maşınqayırma məhsullarının ixracına görə fərqlənir.
3. Polşa	c. yalançı urbanizasiya üstünlük təşkil edir.
	d. əhalisi slavyan dil qrupuna aiddir.
	e. idarəetmə formasına görə konstitusiyalı monarxiyadır.

"Dünya ölkələrinin inkişaf xüsusiyyətləri (inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr)" bölməsinə aid uyğunluğun müəyyən edilməsi tələb olunan açıq tipli bu tapşırığa abituriyentlərin 4,51%-i doğru cavab verib, 11,02%-i imtina edib, 84,47%-i isə səhv cavab verib. Tapşırıqda ayrı-ayrı dövlətlərə aid xüsusiyyətlərin müəyyən edilməsi tələb olunur.

Abituriyentlərin əksəriyyəti hələ də konkret ölkələrin xüsusiyyətlərinin müəyyən edilməsində çətinlik çəkirlər.

Test tapşırığının yerinə yetirilməsi üçün aşağıdakı uyğunluğu bilmək lazımdır:

Yaponiya elmtutumlu maşınqayırma məhsullarının ixracına görə fərqlənir (b), idarəetmə formasına görə konstitusiyalı monarxiya ölkəsidir (e);

Argentina inzibati-ərazi quruluşuna görə federativ ölkədir (a), yalançı urbanizasiya üstünlük təşkil edir (c);

Polşa əhalisi slavyan dil qrupuna daxildir (d).

Doğru cavab: 1–b, e; 2–a, c; 3–d

22 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, situasiyaya aid 58-60 saylı tapşırıqlar

Çaylar quruda geniş yayılmış mühüm su hövzələridir. Relyef və iqlim xüsusiyyətlərindən asılı olaraq çaylar yer səthində qeyri-bərabər paylanmışdır. Dağlıq ərazilərdə çayın orta meyilliyi yüksək, düzənliklərdə isə aşağı göstəriciyə malikdir. Relyef çayın hidroloji xüsusiyyətlərinə birbaşa təsir edir. Bu xüsusiyyətlər çayın təsərrüfat əhəmiyyətinin müəyyən olunmasında mühüm rol oynayır. A çayının mənsəbi Dünya okeanıdır. Keçdiyi ərazinin böyük hissəsində akkumulyativ relyef formaları üstünlük təşkil edir. Onun mənbəyi ilə mənsəbi arasında temperatur fərqi 5,4ºC, uzunluğu isə 3000 km-dir.

58. Verilənə əsasən A çayının orta meyilliyini (I) və əsas hissəsinin axdığı ərazinin relyef formasını (II) müəyyən edib yazın.

***İzah**:* Tapşırığın yerinə yetirilməsi üçün bilmək lazımdır ki, çayın keçdiyi ərazinin əsas hissəsi akkumulyativ relyef forması olduğuna görə düzənlikdən axır (II). Onun mənbəyi ilə mənsəbi arasında temperatur fərqi 5,4ºC olduğuna görə hündürlük fərqi 900 m olur (5,4 · 1000 / 6 = 900 m).

Çayın meyilliyi aşağıdakı qaydada hesablanır:

M = D/L = 900 m/3000 km = 0,3 m/km

Doğru cavab:

I. 5,4x100:0,6= 900 m. (A çayının düşməsi)

900:3000=0,3 m/km (A çayının orta meyilliyi)

II. Düzənlik (ovalıq)

***Əsaslandırma* – çayın keçdiyi ərazinin əsas hissəsi akkumulyativ relyef formasıdır.**

Bal şkalası	Meyar
1 bal	a. Düzgün hesablama apararaq çayın meyilliyi tapılıb və əsas hissəsinin axdığı ərazinin relyef forması düzgün müəyyən edilib.
$\frac{1}{2}$ bal	b. Düzgün hesablama apararaq yalnız çayın meyilliyi düzgün tapılıb, lakin əsas hissəsinin axdığı ərazinin relyef forması düzgün müəyyən edilməyib. c. Çayın meyilliyi düzgün tapılmadan əsas hissəsinin axdığı ərazinin relyef forması yazılıb.
0 bal	d. Digər başqa hallarda.

Tapşırıq vasitəsilə "Təbiət" məzmun xəttinin 10_2.1.4. (*İqlim göstəricilərinə əsasən hesablamalar aparır*) və 10_2.1.6. (*Quru sularının xüsusiyyətlərinə dair hesablamalar aparır*) alt standartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Bu tapşırıq "Quru suları və onun təsərrüfatda rolu" bölməsinə aiddir və hesablama xarakterlidir. Abituriyentlərin 10,52%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 13,02%-i $\frac{1}{2}$ balla, 14,87%-i 0 balla qiymətləndirilib, 61,59%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

59. Verilənlərə əsasən A çayının aşağı axınına aid olanları müəyyən edib cədvəldə yazın.

***İzah**:* Tapşırığın yerinə yetirilməsi üçün bilmək lazımdır ki, çayın keçdiyi ərazinin əsas hissəsi akkumulyativ relyef forması olduğuna görə yumşaq çöküntü süxurları ilə örtülən ərazidir. Burada çaylar

geniş vadiyə malik olur, çayın axın sürəti zəifdir, əksər hallarda gəmiçiliyə yararlıdır, yan eroziya üstünlük təşkil edir. Çay dərəsinin bu hissəsində su anbarları və bəndlər tikilmir, hövzədə əlverişli təbii şərait olduğuna görə yaxşı mənimsənilir, əkinçilik inkişaf edir, suvarmaya əlverişli şərait olur.

***Doğru cavab**:*

Dərəsinin forması	**Dərəsində üstünlük təşkil edən eroziya**	**Dərəsində fəaliyyəti nəticəsində yarana biləcək göllərin mənşəyi**	**Azərbaycan ərazisində yaranan eyni mənşəli göllər (ən az üç göl)**
U-şəkilli, meandr, enli	Yan eroziya	Axmaz (çay-dərə) mənşəli	Sarısu, Ağgöl, Hacıqabul, Mehman, Candargöl, Duzdağ

Bal şkalası	**Meyar**
1 bal	a. Cədvəldə cavablar bütün sütunlar (əlavə səhv fikir yoxdursa) üzrə düzgün yazılıbsa
$\frac{2}{3}$ bal	b. Cədvəldə cavablar yalnız üç sütun üzrə düzgün yazılıb. c. Cədvəldə cavablar ilk üç sütun üzrə düzgün yazılıb və sonuncu sütunda bir və ya iki göl adı düzgün yazılıb, digərləri yazılmayıb, yaxud səhv yazılıb. d. Cədvəldə cavablar ilk üç sütunun istənilən ikisi üzrə düzgün yazılıb və sonuncu sütunda ən azı iki göl adı düzgün yazılıb, digərləri yazılmayıb, yaxud səhv yazılıb. e. Cədvəldə cavablar ilk üç sütunun istənilən ikisi üzrə düzgün yazılıb, sonuncu sütunda bir göl adı doğru yazılıb, səhv cavab yazılmayıb.
$\frac{1}{3}$ bal	f. Cədvəldə cavablar yalnız iki sütun üzrə düzgün yazılıb. g. Cədvəldə cavablar ilk üç sütunun istənilən ikisi üzrə düzgün yazılıb, sonuncu sütunda bir göl adı doğru yazılsa da, səhv cavablar da yazılıb. h. Cədvəldə cavablar ilk üç sütunun istənilən biri üzrə düzgün yazılıb və sonuncu sütunda ən azı iki doğru göl adı ilə yanaşı səhv göl adı da yazılıb.
0 bal	i. Cədvəldə cavablar yalnız bir sütun üzrə düzgün yazılıb. j. Digər başqa hallarda.

Tapşırıq vasitəsilə “Təbiət” məzmun xəttinin 10_2.1.5. (*Quru sularının xüsusiyyətlərinə dair layihələr hazırlayır, təqdim edir*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıq “Quru suları və onun təsərrüfatda rolu” bölməsinə aiddir. Abituriyentlərin 5,13%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 7,97%-i $\frac{2}{3}$ balla, 5,37%-i $\frac{1}{3}$ balla, 20,31%-i 0 balla qiymətləndirilib, 61,23%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

60. Verilənlərə və xəritə sxemə əsasən cədvəli tamamlayın.



***Doğru cavab**:*

Xəritə-sxemdə verilən, dərəsinin əsas hissəsinin yerləşdiyi relyef formasına görə A çayı ilə oxşar olan çayları göstərən rəqəmlər və çayların adları:	Müəyyən etdiyiniz çayların eroziya bazislərinin aid olduğu müvafiq su hövzələri:	Müəyyən etdiyiniz çayların mənsəbinin yerləşdiyi müvafiq ölkələr və onların inzibati ərazi quruluşu:
2 – Volqa 3 – Amazon 4 – Ob	2 – Xəzər dənizi 3 – Atlantik okeanı 4 – Şimal Buzlu Okean (Kara dənizi)	2 – Rusiya Federasiyası 3 – Braziliya Federasiyası 4 – Rusiya Federasiyası

Bal şkalası	**Meyar**
1 bal	a. Cədvəldə cavablar tam düzgün yazılıbsa ***(bir səhv məlumat yazılıbsa)***.
$\frac{2}{3}$ bal	b. Cədvəl üzrə müvafiq olaraq hər üç çayı və onun hövzəsi düzgün tapılıb lakin yerləşdiyi müvafiq ölkələr və onların inzibati ərazi quruluşunda səhvə yol verilibsə ***(iki səhv məlumat yazılıbsa)***. c. Cədvəl üzrə müvafiq olaraq hər üç çay, onların yerləşdiyi müvafiq ölkələr və onların inzibati ərazi quruluşu düzgün tapılıb, lakin aid olduğu müvafiq su hövzələrində səhvə yol verilibsə ***(iki səhv məlumat yazılıbsa)***. d. Cədvəl üzrə müvafiq olaraq iki çay, onların hövzəsi və mənsəbinin yerləşdiyi müvafiq ölkələr və onların inzibati ərazi quruluşu düzgün yazılıbsa ***(bir səhv məlumat yazılıbsa)***.
$\frac{1}{3}$ bal	e. Cədvəl üzrə müvafiq olaraq hər üç çay düzgün tapılıb, lakin onların hövzəsi və mənsəbinin yerləşdiyi müvafiq ölkələr, onların inzibati ərazi quruluşu səhv yazılıb, yaxud yazılmayıbsa ***(üç-dörd səhv məlumat yazılıbsa)***. f. İki çay, onların aid olduğu su hövzəsi və ölkə yazılıbsa ***(iki-üç səhv məlumat yazılıbsa)***. g. Cədvəl üzrə, müvafiq olaraq, bir çay, onun hövzəsi və mənsəbinin yerləşdiyi müvafiq ölkə və onun inzibati ərazi quruluşunu düzgün yazılıbsa ***(bir səhv məlumat yazılıbsa)***. ***Qeyd 1: əgər 3 çayın adı yazılmadan nömrəsi yazılıb, qalan məlumatları doğrudursa, e bəndinə uyğun qiymətləndirmə aparılacaq.*** ***Qeyd 2: əgər 2 çayın adı yazılmadan nömrəsi yazılıb, qalan məlumatları doğrudursa, f bəndinə uyğun qiymətləndirmə aparılacaq.***
0 bal	h. Çay adı yazılmadan onun aid olduğu hövzə və mənsəbinin yerləşdiyi müvafiq ölkə və onun inzibati ərazi quruluşu yazılıbsa. i. Yalnız bir çay adı düzgün tapılıb, lakin onun hövzəsi və ya mənsəbinin yerləşdiyi müvafiq ölkələr və onların inzibati ərazi quruluşu səhv yazılıb, yaxud yazılmayıbsa. j. Xəritədə olan bütün çay adları, onların su hövzələri və yerləşdiyi ölkə yazılıbsa. k. Digər hallar.

Tapşırıq vasitəsilə abituriyentərin "Təbiət" məzmun xəttinin 10_2.1.5. (Quru sularının xüsusiyyətlərinə dair layihələr hazırlayır, təqdim edir) və "Cəmiyyət" məzmun xəttinin 7_3.2.2. (Xəritə üzərində ölkələri tipoloji xüsusiyyətlərinə görə qruplaşdır) alt standartları üzrə bacarıqların mənimsənilmə səviyyəsi yoxlanılır.

Abituriyentlərin 1,76%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla , 2,60%-i $\frac{2}{3}$ balla, 10,28%-i $\frac{1}{3}$ balla, 25,44%-i 0 balla qiymətləndirilib, 59,93%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Riyaziyyat fənnindən I və II ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqların 19-u cəbr və 11-i həndəsəyə aid olub. Tapşırıqlar fənn kurikulumuna görə 5 (**"Ədədlər və əməllər"**, **"Cəbr və funksiyalar"**, **"Həndəsə"**, **"Ölçmə"**, **"Statistika və ehtimal**") məzmun xətti üzrə 12 əsas və 187 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Test bloklarına abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə mürəkkəblik dərəcəsinə görə sadə, orta, çətin tapşırıqlar daxil edilib və nəzəri biliklərin tətbiqinə əsaslanan, məntiqi düşüncə, təhliletmə bacarığı tələb olunan tapşırıqlara üstünlük verilib.

Tapşırıqlar ilə abituriyentlərin:

1. Ədədlər üzərində dəqiq və təqribi hesablamalar aparmaq;
2. Həyati məsələlərin həllində riyazi bilikləri tətbiq etmək;
3. Riyazi anlayışlara aid alqoritmləri yerinə yetirmək;
4. Rasional ifadələr üzərində eynilik çevrilmələri aparmaq;
5. Tənlik və bərabərsizlikləri həll etmək;
6. Riyazi kəmiyyətlər arasındakı asılılıqların qrafiki təsvirini mənimsəmək;
6. Həndəsi fiqurlarla, koordinatlar və vektorlarla əməliyyatların yerinə yetirilməsi;
7. Müstəvi fiqurların və fəza cisimlərinin xassələrini praktik həndəsi məsələlərin həllinə tətbiq etmək;
8. Statistik məlumatları toplamaq, araşdırmaq, sistemləşdirmək və nəticəsini təqdim etmək;
9. Statistik və ehtimal əsasında hadisənin başvermə mümkünlüyünü proqnozlaşdırmaq;
10. Ətraf aləmdəki ehtimal və statistikanın qanunauyğunluqlarının mövcudluğu haqqında məlumatları izah etmək, ehtimalın klassik modelinə əsasən hadisələrin baş verməsini proqnozlaşdırmaq üzrə bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsi nəzərdə tutulub.

İmtahan nəticələrinin statistik göstəricilər əsasında aparılan təhlili onu deməyə əsas verir ki, hər iki ixtisas qrupu üzrə abituriyentlərin müəyyən hissəsi funksiyanın limiti, üstlü funksiya, loqarifmik funksiya, triqonometrik funksiyalar, ehtimal nəzəriyyəsi, fəzada düz xətlər və müstəvilər, ədədi və həndəsi silsilələr, çoxüzlülər, fırlanma cisimləri mövzularına aid tapşırıqları zəif cavablandırıblar.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur.

11-ci sinif

1.2.2. Funksiyanın limiti anlayışını, limitin xassələrini və görkəmli limitləri bilir, onların köməyi ilə funksiyaların limitlərini hesablayır.

22 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 24 saylı test tapşırığı

$\lim\limits_{x\to 0}\dfrac{x^2+1-\cos 4x}{x^2}$ limitini hesablayın.

11-ci sinifdə tədris olunan "*Funksiyanın limiti*" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 4,55%-i doğru cavab verib, 54,58%-i isə cavab verməkdən imtina edib.

Triqonometrik eyniliklərdən və birinci görkəmli limitdən istifadə etməklə verilən limit hesablanır:

$$\lim_{x\to 0}\frac{x^2+1-\cos 4x}{x^2}=\lim_{x\to 0}\frac{x^2+2\sin^2 2x}{x^2}=\lim_{x\to 0}\left(1+8\left(\frac{\sin 2x}{2x}\right)^2\right)=1+8\cdot 1^2=9.$$

Doğru cavab: 9

Abituriyentlərin zəif nəticə göstərmələrini onların tapşırığın həlli üçün lazım olan triqonometrik ifadələrin sadələşdirilməsini və birinci görkəmli limiti bilməməsi ilə əsaslandırmaq olar.

9-cu sinif

3.1.3. Çevrəyə toxunanın və kəsənin xassələrini tətbiq edir.

22 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 26 saylı test tapşırığı

O mərkəzli çevrəyə *AB* kəsəni və *AC* toxunanı çəkilmişdir. *BC* qövsünün uzunluğu 28 sm, *DC* qövsünün uzunluğu 8 sm olarsa, *BAC* bucağının dərəcə ölçüsünü tapın.



9-cu sinifdə tədris olunan "*Çevrə*" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 6,09%-i doğru cavab verib, 55,38%-i isə cavab verməkdən imtina edib.

Eyni çevrədə qövslərin nisbətinin xassəsinə görə $\frac{l_{\cup BC}}{l_{\cup CD}} = \frac{28}{8} = \frac{7}{2} \Rightarrow \cup BC = 7k, \cup CD = 2k.$ Yarımqövsün dərəcə ölçüsü 180° olduğundan, $7k + 2k = 180° \Leftrightarrow k = 20°.$

Toxunan və kəsən arasındakı bucağın xassəsinə görə,

$$\angle BAC = \frac{\cup BC - \cup CD}{2} = \frac{7k - 2k}{2} = \frac{5k}{2} = \frac{5 \cdot 20°}{2} = 50°.$$

Doğru cavab: 50

Abituriyentlərin zəif nəticə göstərmələrini onların çevrədə toxunan və kəsən arasında qalan bucağın tapılması üçün lazım olan faktları bilməməsi ilə əsaslandırmaq olar.

10-cu sinif

2.2.6. Üstlü funksiyanın tərifini və xassələrini bilir, qrafikini qurur.

2.2.8. Loqarifmik funksiyanın tərifini və xassəsini bilir, qrafikini qurur.

22 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 27 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. $f(x) = 10^{\sin x}$	a. təyin oblastı $[10; +\infty)$
2. $f(x) = 10^{\sqrt{x-10}}$	b. qiymətlər çoxluğu $[0,1; 10]$
3. $f(x) = \lg(x-10)$	c. qiymətlər çoxluğu $[1; +\infty)$
	d. təyin oblastı $(10; +\infty)$
	e. təyin oblastı $(-\infty; +\infty)$

10-cu sinifdə tədris olunan "*Üstlü və loqarifmik funksiyalar*" bölməsinə aid, uyğunluğun müəyyən edilməsi tələb olunan bu tapşırığa abituriyentlərin 3,18%-i doğru cavab verib, 45,03%-i isə cavab verməkdən imtina edib.

1) $f(x) = 10^{\sin x}$; əsası vahiddən böyük olan üstlü funksiyanın monoton artma xassəsinə görə, $-1 \le \sin x \le 1 \Leftrightarrow 10^{-1} \le 10^{\sin x} \le 10^{1}$ münasibətlərindən kəsilməz funksiyanın xassələrinə əsasən $D(f) = (-\infty; +\infty),\ E(f) = \left[\frac{1}{10}; 10\right].$

2) $f(x) = 10^{\sqrt{x-10}}$; hesabi kvadrat kökün təyin oblastına əsasən $x - 10 \ge 0 \Leftrightarrow x \ge 10$ olmalıdır. Üstlü funksiyanın, mürəkkəb funksiyanın və kəsilməz funksiyanın xassələrinə əsasən

$D(f) = [10; +\infty),\ E(f) = [1; +\infty).$

3) $f(x) = \lg(x-10)$; loqarifmik funksiyanın təyin oblastı müsbət olduğundan: $x - 10 > 0 \Leftrightarrow x > 10$ ödənməlidir. Loqarifmik və kəsilməz funksiyanın xassələrinə əsasən

$D(f) = (10; +\infty),\ E(f) = (-\infty; +\infty).$

Doğru cavab: **1–b, e; 2–a, c; 3–d**

Abituriyentlərin zəif nəticə göstərmələrini onların verilmiş funksiyaların təyin oblastları və qiymətlər çoxluğu barədə biliklərinin az olması ilə əsaslandırmaq olar.

22 may tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiyaya aid 28-30 saylı tapşırıqlar:

Həcmi 2,4 dm^3 olan süd qabının aşağı və yuxarı hissələri silindrlər, orta hissəsi isə kəsik konusdur. Qabın yuxarı hissəsinin en kəsiyinin radiusu 0,4 dm, hündürlüyü 0,5 dm, aşağı hissəsinin en kəsiyinin radiusu 0,8 dm və hündürlüyü 1 dm-dir.

Süd qabını doldurmaq üçün iki növ bankadan müxtəlif üsullarla istifadə edilə bilər: ya 2 böyük və 2 kiçik, ya da 1 böyük və 4 kiçik südlə dolu banka. Yağlılığı 2% olan 600 q və yağlılığı 1,5% olan 400 q süd boş süd qabına tökülür.



28. 1 böyük və 2 kiçik bankanın həcmləri cəmini tapın.

I üsul. Böyük bankanın həcmi x-lə, kiçik bankanın həcmi isə y-lə işarə edilsə, şərtə əsasən $\begin{cases}2x+2y=x+4y,\\ x+4y=2,4\end{cases} \Leftrightarrow \begin{cases}x=2y,\\ x+4y=2,4\end{cases} \Leftrightarrow \begin{cases}x=2y,\\ 6y=2,4\end{cases} \Leftrightarrow \begin{cases}x=0,8,\\ y=0,4\end{cases}$ olduğu alınar. Onda, 1 böyük və 2 kiçik bankanın həcmləri cəmi $x+2y=0,8+2\cdot0,4=1,6$ olar.

II üsul. Böyük bankanın həcmi x-lə, kiçik bankanın həcmi isə y-lə işarə edilsə, şərtə əsasən

$$\begin{cases}2x+2y=2,4,\\ x+4y=2,4\end{cases} \rightarrow 3x+6y=4,8 \rightarrow x+2y=1,6$$

Doğru cavab: 1,6

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavabı (1,6dm^3) tapılıb;
$\frac{2}{3}$ bal	B.Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** və ya vahid çevrilməsi zamanı edilən ***səhvlər*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Tapşırığın şərtinə uyğun tənliklər sistemi qurulub, lakin ***həll edilməyib*** və ya ***səhv*** həll edilib; D. Tapşırığın şərtinə uyğun tənliklər sistemi qurularaq həll edilib və x=0,8, y=0,4 olduğu tapılıb, lakin 1 böyük və 2 kiçik bankanın həcmləri cəmi ***hesablanmayıb*** və ya ***səhv*** hesablanıb; (burada əlavə olaraq $k+b$=1,2 də yazıla bilər) E. Seçmə üsul ilə həll prosesi aparılaraq x=0,8, y=0,4 olduğu tapılıb, ona uyğun sona qədər aparılıb 1,6 tapılıb (yəni $2x+2y$=2,4, $x+y$=1,2, x=0,8, y=0,4, $2\cdot0,4+0,8$=1,6); **Bu bənd A bəndindən fərqləndirilməlidir!**
$\frac{1}{3}$ bal	F. 2,4:3=0,8 yazılaraq böyük bankanın həcminin 0,8 və kiçiyin 0,4 olduğu qeyd edilib; G. $\begin{cases}2x+2y=1000,\\ x+4y=1000\end{cases}$ tənliyi qurularaq $x=\frac{1000}{3}$, $y=\frac{1000}{6}$ olduğu tapılıb (burada $x+2y=\frac{2000}{3}$ olduğu da qeyd edilə bilər); H. $2x+2y=x+4y \rightarrow x=2y$ olduğu qeyd edilib;
0 bal	I. Başqa tapşırığın həlli yazılıb; J. Yalnız 1 böyük = 2 kiçik olduğu qeyd olunub, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; **Bu bənd H bəndindən fərqləndirilməlidir!** K. 2,4–0,8=1,6 yazılıb; L. Tapşırığın şərtinə ***uyğun olmayan*** tənlik və ya tənliklər sistemi qurularaq həll prosesi aparılıb; M. Birbaşa cavab (1,6 dm^3) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; N. Birbaşa böyük qabın həcmi 0,8, kiçik qabın həcmi isə 0,4 olduğu yazılaraq, 0,8+0,4+0,4=1,6 hesablanıb; O. Birbaşa $x+2y=\frac{2000}{3}$ olduğu da qeyd edilib; **Bu bənd G bəndindən fərqləndirilməlidir!** P. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə “Cəbr və funksiyalar” məzmun xəttinin 7_2.2.2. (*Birdəyişənli xətti tənliyi, modul işarəsi daxilində dəyişəni olan tənliyi və ikidəyişənli iki xətti tənliklər sistemini həll edir.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 5,29%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla , 0,77%-i $\frac{2}{3}$ balla, 14,71%-i $\frac{1}{3}$ balla, 1,18%-i 0 balla qiymətləndirilib, 78,05%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab vermələrini onların tapşırığın həlli üçün tələb olunan tənliklər sistemini qurub həll edə bilməməsi ilə əlaqələndirmək olar.

29. Qabın orta hissəsinin hündürlüyünü tapın ($\pi = 3$).



I üsul. Qabın orta hissəsinin hündürlüyü *x* dm qəbul edilərsə, kiçik hissənin həcmi $V_k = \pi r^2 h = 3 \cdot 0,4^2 \cdot 0,5 = 0,24\left(\text{dm}^3\right)$, böyük hissənin həcmi $V_b = \pi R^2 h = 3 \cdot 0,8^2 \cdot 1 = 1,92\,\text{dm}^3$.

$V_k + V_b = 0,24 + 1,92 = 2,16$. Onda orta hissənin həcmi $V_{orta} = 2,4 - \left(0,24 + 1,92\right) = 2,4 - 2,16 = 0,24$ olar. Kəsik konusun həcmi düsturuna əsasən

$$\frac{1}{3}\pi\left(R^2 + Rr + r^2\right) \cdot x = 0,24 \to x = \frac{0,24}{0,64 + 0,32 + 0,16} = \frac{0,24}{1,12} = \frac{3}{14}\left(\text{dm}\right)$$

II üsul. Qabın orta hissəsinin hündürlüyü *x* dm qəbul edilərsə, kiçik hissənin həcmi $V_k = \pi r^2 h = 3 \cdot 0,4^2 \cdot 0,5 = 0,24\left(\text{dm}^3\right)$, böyük hissənin həcmi $V_b = \pi R^2 h = 3 \cdot 0,8^2 \cdot 1 = 1,92\left(\text{dm}^3\right)$.

$V_k + V_b = 0,24 + 1,92 = 2,16$. Onda, orta hissənin həcmi $V_{orta} = 2,4 - \left(0,24 + 1,92\right) = 2,4 - 2,16 = 0,24$ olar. Kəsik konusun həcmi düsturuna əsasən $V = \frac{x}{3}\left(S_1 + S_2 + \sqrt{S_1 S_2}\right)$.

$$S_1 = \pi r^2 = 0,16\pi = 0,48\,\text{dm}^2$$

$$S_2 = \pi r^2 = 0,64\pi = 1,92\,\text{dm}^2$$

$$\frac{x}{3}\left(0,48 + 1,92 + 0,96\right) = 0,24 \to \frac{1}{3} \cdot x \cdot 3,36 = 0,24 \to x = \frac{3}{14}\left(\text{dm}\right).$$

Doğru cavab: $\frac{3}{14}$ ***dm***

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavabı ($\frac{3}{14}$dm) tapılıb;
$\frac{2}{3}$ bal	B.Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** və ya vahid çevrilməsi zamanı edilən ***səhvlər*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi aparılaraq $V_{orta} = 2,4 - \left(0,24 + 1,92\right) = 2,4 - 2,16 = 0,24$ olduğu tapılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır*** (yəni hündürlük ***hesablanmayıb*** və ya ***səhv*** hesablanıb); D. Birbaşa $V_{orta} = 0,24\,\text{dm}^3$ yazılaraq $\frac{x}{3}\left(0,16\pi + 0,64\pi + 0,32\pi\right) = 0,24 \to x = \frac{3}{14}$ tapılıb;

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$ bal	E. $V_k = \pi r^2 h = 3 \cdot 0,4^2 \cdot 0,5 = 0,24\left(\text{dm}^3\right)$ və ya $V_b = \pi R^2 h = 3 \cdot 0,8^2 \cdot 1 = 1,92\left(\text{dm}^3\right)$ və ya hər ikisi tapılaraq onların cəmi hesablanıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya tamamilə ***yanlışdır*** (burada əlavə olaraq kəsik konus üçün ***yanlış*** həcm düsturu istifadə edilərək hesablama aparıla bilər); F. Hər iki silindrin həcmi ***yanlış*** tapılıb, lakin kəsik konusun həcm düsturuna əsasən axtarılan hündürlük düzgün hesablanıb; G. $S_1 = 0,16$, $S_2 = 0,64$, $\sqrt{S_1 S_2} = 0,32$. $V = \frac{x}{3}\left(S_1 + S_2 + \sqrt{S_1 S_2}\right)$ əsasən $S_1 + S_2 + \sqrt{S_1 S_2} = 1,12$ və $V_k + V_b + V_{orta} = 2,4$ əsasən 2,4 – 0,72=1,68. $\frac{1}{3} \cdot 1,12 \cdot x = 1,68 \rightarrow x = \frac{1,68 \cdot 3}{1,12}$ olduğu hesablanıb;
0 bal	H. Başqa tapşırığın həlli yazılıb; I. Birbaşa cavab ($\frac{3}{14}$dm) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; J. Kəsik konus üçün ***yanlış*** həcm düsturu istifadə edilərək $V_{kəsik}$=2,4 yazılıb və hesablama aparılıb; K. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin 11_3.2.4. (*Konusun, kəsik konusun yan səthlərinin, tam səthlərinin və həcmlərinin tapılmasına aid məsələlər həll edir*.) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 1,13%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,99%-i $\frac{2}{3}$ balla, 14,44%-i $\frac{1}{3}$ balla, 2,24%-i 0 balla qiymətləndirilib, 81,20%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab vermələrini onların tapşırığın həlli üçün tələb olunan konus və kəsik konusun həcmini tapa bilməməsi ilə əlaqələndirmək olar.

30. Süd qabından 300 q süd qarışığı götürüldü. Götürülən qarışığın tərkibində neçə qram yağ olduğunu hesablayın.

Həlli: Yağlılığı 2% olan 600 q məhlulda $\frac{600 \cdot 2}{100} = 12$ qram, yağlılığı 1,5% olan 400 q məhlulda $\frac{400 \cdot 1,5}{100} = 6$ qram yağ var. Qarışıqdakı yağın miqdarı isə 12+6=18 qramdır. Deməli, qarışıqdakı yağlılıq miqdarı $\frac{300 \cdot 1,8}{100} = 5,4$ qram və ya $\frac{300 \cdot 18q}{1000q} = 5,4$ qramdır.

Doğru cavab: 5,4 q

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavabı (5,4q) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** və ya vahid çevrilməsi zamanı edilən ***səhvlər*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesinin bütün mərhələləri göstərilərək düzgün yazılıb, lakin sonda səhvən 5,4% olduğu qeyd edilib; D. Birbaşa $\frac{300 \cdot 1,8}{100} = 5,4$ qram və ya $\frac{300 \cdot 18q}{1000q} = 5,4$ qram tapılıb (yəni, 1,8 faizin və ya 18 qramın tapılması prosesi yazı vərəqində ***qeyd edilməyib***); E. Həll prosesi aparılaraq p=1,8% düzgün tapılıb, lakin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır*** (burada əlavə olaraq $\frac{300 \cdot 18\%}{1000} = 0,54$ yazıla bilər);

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$ bal	F. Yağlılığı 2% olan 600 q məhlulda $\frac{600\cdot 2}{100}=12$ qram və ya yağlılığı 1,5% olan 400 q məhlulda $\frac{400\cdot 1{,}5}{100}=6$ qram yağ olduğu tapılıb (və ya hər ikisi tapılıb), lakin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***;
0 bal	G. Başqa tapşırığın həlli yazılıb; H. 2%+1,5%=3,5%, $\frac{300\cdot 3{,}5\%}{100\%}=10{,}5$ qram tapılıb; I. Birbaşa cavab (5,4 q) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; J. ***Səhvən*** $\frac{300\cdot 2}{100}=6$ qram yazılıb; K. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Ədədlər və əməllər" məzmun xəttinin 6_1.2.5. (*Nisbət, tənasüb, düz mütənasib, tərs mütənasib kəmiyyətlərə və faizə aid sadə məsələləri həll edir*.) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 6,55%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,87%-i $\frac{2}{3}$ balla, 14,68%-i $\frac{1}{3}$ balla, 2,89%-i 0 balla qiymətləndirilib, 75,02%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab vermələrini onların təhliletmə qabiliyyətlərinin zəif olmaları ilə əlaqələndirmək olar.

9-cu sinif

2.2.3. Kvadrat bərabərsizliyi həll edir

2.3.1. Cəbri bərabərsizlikləri intervallar üsulu ilə həll edir.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 3 saylı test tapşırığı

$\begin{bmatrix} x\geq 2a^2-3a+16 \\ x\leq a^2+4a+6 \end{bmatrix}$ bərabərsizliklər heyətinin həllinin $(-\infty;+\infty)$ olması üçün a parametrinin ala biləcəyi tam qiymətlərin cəmini tapın.

A) 16 B) 12 C) 10 D) 9 E) 14

9-cu sinifdə tədris olunan "*Bərabərsizliklər*" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 18,01%-i doğru cavab verib, 51,12%-i isə cavab verməkdən imtina edib.

Bərabərsizliklər heyətinin həllinin $(-\infty;+\infty)$ olması üçün $2a^2-3a+16\leq a^2+4a+6$, $a^2-7a+10\leq 0$ olmalıdır. Sonuncu kvadrat bərabərsizliyin intervallar üsulu ilə həlli $[2;5]$ olur. Buradan, a parametrinin ala biləcəyi tam qiymətlərin cəmi 2+3+4+5=14 olur.

Doğru cavab: E.

Düzgün cavab faizinin aşağı olmasını abituriyentlərin bərabərsizliklər heyəti haqqında biliklərinin zəifliyi ilə əlaqələndirmək olar. Həmçinin açıq test bankında bərabərsizliklər heyətinə aid tapşırıqların olmaması da nəticəyə təsir etmişdir.

10-cu sinif

2.2.2. Funksiyanın qrafiki anlayışını bilir, funksiyanın dövrülüyini, təkliyini, cütlüyünü, monotonluğunu araşdırır, qrafikləri çevirməyi bacarır.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 15 saylı test tapşırığı

İki təpəsi $y=-|x|+8$ və $y=|x|-6$ funksiyalarının qrafiklərinin kəsişmə nöqtələrində, digər iki təpəsi isə bu funksiyaların təpə nöqtələrində yerləşən dördbucaqlının sahəsini tapın.

A) 124 B) 76 C) 68 D) 112 E) 98

10-cu sinifdə tədris olunan "*Funksiyalar və qrafiklər*" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 17,03%-i doğru cavab verib, 59,63%-i isə cavab verməkdən imtina edib.

Verilmiş funksiyaların qrafiklərinin kəsişmə nöqtələri tapılıb, koordinat sistemində qrafikləri qurulur. $|x|-6=-|x|+8$, $|x|=7$, $x=\pm 7$. Şərtə görə, alınmış dördbucaqlının təpə nöqtələrinin koordinatları $A(0;8)$, $B(7;1)$, $C(0;-6)$, $D(-7;1)$ olur. Burada, AC-nin uzunluğu 14, BD-nin uzunluğu 14 alınır. $ABCD$ dördbucaqlısının diaqonalları perpendikulyar olduğundan, $S_{ABCD}=\frac{1}{2}\cdot 14\cdot 14=98$ olur.



Doğru cavab: E

Abituriyentlərin zəif nəticə göstərmələrini onların qrafiklərlə işləmək bacarığının zəif olması ilə əsaslandırmaq olar.

10-cu sinif

2.1.3. Triqonometrik funksiyalar üçün toplama düsturlarını, onlardan alınan nəticələri bilir və tətbiq edir.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 3 saylı test tapşırığı

$2\cos^2\alpha-6\sin^2\alpha+6\sin\alpha\cos\alpha$ ifadəsinin ən böyük qiymətini tapın.

10-cu sinifdə tədris olunan "*Triqonometrik funksiyalar*" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 6,82%-i doğru cavab verib, 45,82%-i isə cavab verməkdən imtina edib.

Verilmiş ifadədə dərəcənin aşağı salınması və ikiqat bucağın triqonometrik funksiyası düsturları tətbiq edilsə,

$2\cos^2\alpha-6\sin^2\alpha+6\sin\alpha\cos\alpha=2\cdot\frac{1+\cos 2\alpha}{2}-6\cdot\frac{1-\cos 2\alpha}{2}+3\sin 2\alpha$, buradan

$1+\cos 2\alpha-3+3\cos 2\alpha+3\sin 2\alpha=3\sin 2\alpha+4\cos 2\alpha-2$

alınar.

$y=a\sin\alpha+b\cos\alpha$ funksiyasının qiymətlər çoxluğu $\left[-\sqrt{a^2+b^2};\sqrt{a^2+b^2}\right]$ kimi tapılır. Onda,

$3\sin 2\alpha+4\cos 2\alpha$ ifadəsinin ala biləcəyi qiymətlər $[-5;5]$, $3\sin 2\alpha+4\cos 2\alpha-2$ ifadəsinin ala biləcəyi qiymətlər isə $[-7;3]$ olur. Buradan, verilmiş ifadənin ən böyük qiyməti 3 olur.

Doğru cavab: 3

Düzgün cavab faizinin aşağı olmasını abituriyentlərin triqonometrik funksiyalar üzərində çevrilmələrin aparılması və onların qiymətlər çoxluğunun tapılması haqqında biliklərinin zəif olmalası ilə əlaqələndirmək olar.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiyaya aid 28-30 saylı tapşırıqlar

Xarici hissənin səthinin sahəsi $216\ \text{dm}^2$ olan kub şəkilli sobanın temperatur tənzimləyicisi çevrəsinin radiusu 2 sm olan burğudur. Sobanın qapağı sobanın yuxarısından, aşağısından, sağ və sol tərəflərinin hər birindən 5 sm məsafədədir. Sobada 5 ədəd sadə, 3 ədəd kişmişli, 2 ədəd kəsmikli bulka bişirilib.



28. Sobanın qapağının sahəsini tapın.

Həlli:

I üsul: Tili a olan kubun tam səthinin sahəsi $6a^2=216$ olduğundan, $a=6$ (dm) tapılır. Buradan, qapağın tərəfi 6 dm–2·0,5 dm=5 dm (və ya 60 sm–2·5 sm=50 sm) olur. Onda, qapağın sahəsi

$5\cdot 5=25\ \text{dm}^2$ və ya $2500\ \text{sm}^2$ olur.

II üsul: Tili a olan kubun tam səthinin sahəsi $6a^2=216$ olduğundan, $a=6$ (dm) tapılır. Qapağın tərəfi x qəbul edilərsə;

$$(x+10)^2 = 3600 \rightarrow x^2+20x+100=3600 \rightarrow x^2+20x-3500=0 \quad x=50,$$
$$(\text{və ya } (x+1)^2=36 \rightarrow x+1=6,\ x=5)$$
$$S=5\cdot5=25\ (\text{dm}^2) \text{ olar.}$$

Doğru cavab: 25 dm²

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Həll prosesi aparılaraq qapağın sahəsi (25 dm²) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** və ya vahid çevrilməsi zamanı edilən ***səhvlər*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Birbaşa 6 dm–2·0,5 dm=5 dm (və ya 60 sm–2·5 sm=50 sm) yazılaraq qapağın sahəsinin 5·5=25 (dm²) olduğu tapılıb (yəni kubun tilinin tapılması prosesi yazı vərəqində ***göstərilməyib***);
$\frac{1}{3}$ bal	D. $6a^2=216 \rightarrow a=6$ olduğu yazılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır*** (burada əlavə olaraq 6·6=36 və ya 36–20=16 da yazıla bilər); E. $6a^2=216 \rightarrow a=6$ olduğu yazılıb və birbaşa S=4·4=16 olduğu qeyd edilib;
0 bal	F. Başqa tapşırığın həlli yazılıb; G. Birbaşa cavab (25 dm²) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır***; H. $6a^2=216 \rightarrow a^2=36$ yazılıb, həll prosesinin ***davamı yoxdur*** (yəni $a=6$ dm qeyd ***olunmayıb)*** və ya ***yanlışdır***; I. Birbaşa 5·5=25 və ya 50·50=2500 (və ya 55·55=3025) yazılıb; J. 216:6=36, 36:4=9 və 9–5=4, 4·4=16 hesablanıb; K. ***Səhvən*** $a^3=216 \rightarrow a=6$ yazılıb (əlavə olaraq $S=a^2$, $a=6$, $S=6\cdot6=36$ yazıla bilər), lakin həll prosesinin ***davamı yoxdur*** və ya tamamilə ***yanlışdır***; L. $V=a^3=216 \rightarrow a=6$ yazıldıqdan sonra birbaşa 50·50=2500 yazılıb; M. 216 – 5·5=191 və ya 216 – 1=215 və ya 36 – 5·5=11 yazılıb; N. $a=6 \rightarrow a^2=36$ yazılaraq qapağın sahəsi olduğu qeyd olunub; O. 6·6=36, 36 – 4·5=16 yazılıb; P. $6(x-10)^2 = 216$ tənliyi qurularaq həll prosesi aparılıb; Q. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin 10_3.2.3. (*Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələləri həll edir.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 14,44%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 6,71%-i $\frac{2}{3}$ balla, 27,29%-i $\frac{1}{3}$ balla, 4,32%-i 0 balla qiymətləndirilib, 47,24%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların lazımi faktları bilməməsi, ümimiyyətlə isə fəza cisimləri haqqında təsəvvürlərinin zəif olması ilə əlaqələndirmək olar.

29. Sobanın burğusunu saat əqrəbinin hərəkəti istiqamətində fırladaraq temperatur göstəricisini 0°C-dən 60°C üzərinə gətirdikdə burğunun getdiyi qövsün uzunluğunu tapın. Temperatur göstəricilərinin arasındakı qövslərin uzunluqları bərabərdir ($\pi = 3$).



Həlli:

Temperatur göstəriciləri çevrəni 6 bərabər qövsə bölüb. Hər göstəricinin arası $\frac{360^\circ}{6}=60^\circ$ olduğundan, temperatur göstəricisini 0^oC-dən 60^oC üzərinə gətirdikdə burğunun getdiyi qövsün dərəcə ölçüsü 120^oC olur. Situasiyanın şərtinə görə, sobanın temperatur tənzimləyicisi olan burğunun çevrəsinin radiusu 2sm-dir. Onda, qövsün uzunluq düsturuna görə burğunun getdiyi qövsün uzunluğu

$$l=\frac{\pi R}{180^\circ}\cdot\alpha=\frac{3\cdot 2}{180}\cdot 120=4 \text{ (sm) olar.}$$

Doğru cavab: 4 sm

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (4 sm) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi aparılaraq $l=\frac{2\pi R\cdot 120^\circ}{360^\circ}=\frac{2\cdot 3\cdot R\cdot 120^\circ}{360^\circ}=2R\,(\text{sm})$ tapılıb;
$\frac{1}{3}$ bal	D. Həll prosesi aparılaraq $l=2\pi R=2\cdot 3\cdot 2\text{sm}=12\text{sm}$ olduğu tapılıb, lakin ***davamı yoxdur*** və ya ***səhvdir***; E. Bucaq ***yanlış*** götürülərək həll prosesi sona qədər aparılıb (məsələn 30^0 olduqda $l=\frac{2\pi R\cdot 30^\circ}{360^\circ}=\frac{2\cdot 3\cdot 2\cdot 30^\circ}{360^\circ}=1(\text{sm})$ tapılır); F. Həll prosesi aparılaraq burğunun getdiyi qövsün dərəcə ölçüsü 120^o tapılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***səhvdir***;
0 bal	G. Başqa tapşırığın həlli yazılıb; H. Birbaşa cavab (4 sm) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; I. Birbaşa l=12 sm və ya 120^o (və ya $180^o-60^o=120^o$) olduğu yazılıb; J. Yalnız düstur yazılıb, hesablama ***yoxdur***; K. ***Səhvən*** $l=\frac{\pi R\cdot 60^\circ}{360^\circ}=\frac{1}{6}\cdot 2\cdot 3=1(\text{sm})$ və ya $l=\frac{\pi R^2\cdot 60^\circ}{360^\circ}=\frac{1}{6}\cdot 4\cdot 3=2(\text{sm})$ və ya $\frac{30^\circ}{360^\circ}\cdot 2\pi$ yazılıb; L. ***Səhvən*** $l=2\pi Rl=2\cdot 3\cdot 2l=12l\,(\text{sm})$ və ya $l=2\pi R^2=2\cdot 3\cdot 4=24\,(\text{sm})$ yazılıb; M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin 9_3.1.3. (*Çevrəyə toxunanın və kəsənin xassələrini tətbiq edir.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 16,71%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 6,19%-i $\frac{2}{3}$ balla, 16,07%-i $\frac{1}{3}$ balla, 10,86%-i 0 balla qiymətləndirilib, 50,16%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların tətbiqetmə qabiliyyətlərinin zəif olması ilə əlaqələndirmək olar. Belə ki, görünür onlar məsələnin həlli üçün burğunun fırlanarkən cızdığı yolun çevrə qövsünün uzunluğu olduğunu bilməyiblər.

30. Bişirilən bulkaların ikisi təsadüfən seçilir. Seçilən bulkaların müxtəlif çeşidli olması hadisəsinin ehtimalını tapın.

Həlli:

I üsul:

Bulkaların ümumi sayı 10 ədəd, seçilən bulkaların sayı isə 2 ədəd olduğundan, bütün mümkün halların sayı $_{10}C_2 = \frac{10!}{2!\cdot 8!} = \frac{9\cdot 10}{2} = 45$ olur. Seçilən bulkalar müxtəlif çeşidli olduğundan əlverişli halların sayı $_5C_1 \cdot _3C_1 + _5C_1 \cdot _2C_1 + _3C_1 \cdot _2C_1 = 5\cdot 3 + 5\cdot 2 + 3\cdot 2 = 31$. Onda baş verən hadisənin ehtimalı $\frac{31}{45}$ olur.

II üsul:

$$\frac{5}{10}\cdot\frac{5}{9} + \frac{3}{10}\cdot\frac{7}{9} + \frac{2}{10}\cdot\frac{8}{9} = \frac{31}{45}$$

Doğru cavab: $\frac{31}{45}$

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab ($\frac{31}{45}$) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. *Əlverişli halların sayı* $_5C_1 \cdot _3C_1 + _5C_1 \cdot _2C_1 + _3C_1 \cdot _2C_1 = 5\cdot 3 + 5\cdot 2 + 3\cdot 2 = 31$ düzgün tapılıb, həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır***;
$\frac{1}{3}$ bal	D. *Bütün mümkün halların sayı* $_{10}C_2 = \frac{10!}{2!\cdot 8!} = \frac{9\cdot 10}{2} = 45$ hesablanıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; E. $\frac{_5C_2 \cdot _3C_2 \cdot _2C_2}{_{10}C_2} = \frac{2}{3}$ və ya $\frac{_5C_1 \cdot _3C_1 \cdot _2C_1}{_{10}C_2} = \frac{2}{3}$ yazılıb;
0 bal	F. Başqa tapşırığın həlli yazılıb; G. Meyarın bir ballıq bəndlərinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verib; H. Birbaşa cavab ($\frac{31}{45}$) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; I. Tapşırığın şərtinə ***uyğun olmayan*** seçimlər edilərək hesablama aparılıb; J. $_{10}C_2 = \frac{10!}{8!\cdot 2!}$ yazılıb, lakin ***hesablanmayıb*** və ya ***səhv*** hesablanıb; K. $_{10}C_2 = \frac{10!}{2!\cdot 8!} = \frac{9\cdot 10}{2} = 45$ hesablanaraq kəsrin surətində və ya hər hansı cəmin toplananı kimi yazılıb; L. ***Səhvən*** $\frac{5}{10}\cdot\frac{3}{9}\cdot\frac{2}{8} = \frac{1}{24}$ yazılıb; M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Statistika və ehtimal" məzmun xəttinin 9_5.2.3. (*Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir*.) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 8,43%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 15,30% -i $\frac{2}{3}$ balla,

24,32%-i $\frac{1}{3}$ balla, 1.36% -i 0 balla qiymətləndirilib, 50,58%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların "Ehtimal nəzəriyyəsi" bölməsindən tapşırığın həlli üçün lazım olan faktları bilməməsi ilə əlaqələndirmək olar.

10-cu sinif

3.1.3. Fəzada düz xətlə müstəvi arasındakı bucağın, iki müstəvi arasındakı bucağın necə təyin olunduğunu bilir və məsələlər həllində onlardan istifadə edir.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 8 saylı test tapşırığı

Bərabərtərəfli ABC üçbucağının A və B təpələrindən onun müstəvisinə AA_1 və BB_1 perpendikulyarları qaldırılmışdır. $AA_1=BB_1=6$ sm, $AB=4$ sm olarsa, C nöqtəsi ilə A_1B_1 parçasının ortasını birləşdirən düz xəttin ABC üçbucağının müstəvisi ilə əmələ gətirdiyi bucağı tapın.

A) 15° B) 30° C) 75° D) 45° E) 60°

10-cu sinifdə tədris olunan "*Fəzada düz xətlər və müstəvilər*" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 19,63%-i doğru cavab verib, 42,42%-i isə cavab verməkdən imtina edib.

Şərtə əsasən $AA_1=BB_1=DH=6$ sm, $AC=4$ sm. CH bərabərtərəfli üçbucağın hündürlüyü olduğundan, $AH=BH=2$ sm, $CH=2\sqrt{3}$ sm tapılır. Burada, A_1B_1 parçasının orta nöqtəsi D ilə C təpəsini birləşdirən CD-nin ABC üçbucağının müstəvisi ilə əmələ gətirdiyi bucağı tapmaq lazımdır. Onda, düzbucaqlı DHC üçbucağında $\operatorname{tg}\alpha=\frac{DH}{HC}=\frac{6}{2\sqrt{3}}=\sqrt{3}\Rightarrow\alpha=60^\circ$ olur.



Doğru cavab: E

Nəticənin aşağı olmasının səbəbini abituriyentlərin tapşırığın həlli üçün lazım olan şəkli qura bilməməsi və üçbucağın müstəvisi barədə biliyə malik olmaması ilə əsaslandırmaq olar.

7-ci sinif

2.1.1. Həyati situasiyaya uyğun xətti tənlik və ya iki dəyişənli iki xətti tənliklər sistemi tərtib edir.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 24 saylı test tapşırığı

$m^2x+7=2mn-n^2x+7x$ tənliyinin sonsuz sayda kökü olarsa, $\frac{7n}{m+n}$ ifadəsinin qiymətini tapın (m və n parametrlərdir).

7-ci sinifdə tədris olunan "*Birdəyişənli xətti tənliklər*" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 7,96%-i doğru cavab verib, 64,66%-i isə cavab verməkdən imtina edib.

$ax=b$ xətti tənliyinin sonsuz sayda kökü olması üçün $a=0$, $b=0$ olmalıdır. Verilmiş tənlikdə $m^2x+n^2x-7x=2mn-7$, $\left(m^2+n^2-7\right)x=2mn-7$ yazdıqda, şərtə görə $m^2+n^2-7=0$, $2mn-7=0$ olur. $\begin{cases}m^2+n^2=7,\\2mn=7\end{cases}$ tənliklər sistemini tərəf-tərəfə çıxdıqda, $m^2+n^2-2mn=0$, $(m-n)^2=0$ alınır. Buradan, $m=n$ olmalıdır. Onda, $\frac{7n}{m+n}=\frac{7n}{n+n}=\frac{7n}{2n}=3{,}5$ tapılır.

Doğru cavab: 3,5

Abituriyentlərin zəif nəticə göstərmələrini onların tapşırığın həlli üçün lazım olan faktları bilməməsi və təhliletmə qabiliyyətlərinin zəif olması ilə əsaslandırmaq olar.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı situasiyaya aid 28-30 saylı tapşırıqlar

Vedrə doğuranı 15 sm olan kəsik konus formasındadır. Vedrənin bağlı olan kiçik oturacağının radiusu 10 sm-dir. Vedrənin yan səthi 7 müxtəlif rəngdən istifadə edilərək 5 zolaqdan ibarət olmaqla rənglənməlidir. Vedrədə 650 q 20%-li duz məhlulu var.

28. Dərinliyi 12 sm olan vedrənin hazırlanması üçün ən azı nə qədər dəmir lövhənin işləndiyini tapın ($\pi=3$).

Həlli:



Kəsik konusun hündürlüyü 12 sm, doğuranı l=15 sm olduğundan Pifaqor teoreminə görə $x=\sqrt{15^2-12^2}=\sqrt{225-144}=\sqrt{81}=9$ (sm) tapılır. Onda, kəsik konusun (vedrənin) böyük oturacağının radiusu R=9sm+10sm=19sm, kiçik oturacağının radiusu r=10sm olduğundan onun yan səthinin hazırlanması üçün $S_{yan}=\pi(R+r)l=3\cdot(10+19)\cdot15=1305$ (sm^2), bağlı olan kiçik oturacağının hazırlanması üçün isə $S_{ot}=\pi r^2=3\cdot10^2=300$ (sm^2), ümumilikdə isə 1305 sm^2+300 sm^2=1605 sm^2 dəmir lövhə işlənmişdir.

Doğru cavab: 1605 sm^2

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Həll prosesi aparılaraq dəmir lövhənin sahəsi (1605 sm^2) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi aparılaraq kəsik konusun (vedrənin) yan (1305 sm^2) və ya tam səthi (2988 sm^2) hesablanıb; D. Kəsik konusun böyük oturacağının radiusu ***hesablanmadan*** $S=S_{yan}+S_{ot}$=1605 sm^2 olduğu tapılıb;
$\frac{1}{3}$ bal	E. Həll prosesi aparılaraq kəsik konusun (vedrənin) böyük oturacağının radiusu R=9sm+10sm=19sm olduğu tapılıb, həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır***; F. Həll prosesi aparılaraq $S_{ot}=\pi r^2=3\cdot10^2=300$ (sm^2) olduğu tapılıb və ya şəkil üzərində düzgün göstərilib, lakin ***davamı yoxdur*** və ya ***yanlışdır***; G. Birbaşa $S_{yan}=\pi(R+r)l=3\cdot(10+19)\cdot15=1305$ (sm^2) olduğu qeyd edilib, həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır***;
0 bal	H. $S_{yan}=\pi Rl=3\cdot10\cdot15=450$ və ya $S_{yan}=\pi l\left(R+r\right)=3\cdot12\cdot\left(15+12\right)=972$ və ya $3\cdot15\cdot\left(15+12\right)=1215$ və ya $3\cdot15\cdot\left(10+12\right)=990$ və s. yazılıb; I. Başqa tapşırığın həlli yazılıb; J. Birbaşa cavab (1605 sm^2) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır***; K. Birbaşa R=19sm və ya S=300sm^2 yazılıb; L. $S_{yan}=\pi Rl$ və ya $S_{yan}=\pi r\left(r+l\right)$ və s. düsturlar yazılıb; M. $S_{ot}=\pi r^2=25\cdot3=75$ yazılıb; N. Pifaqor teoremi tətbiq edilərək $x=\sqrt{15^2-12^2}=\sqrt{225-144}=\sqrt{81}=9$ tapılıb (R=19 olduğu ***qeyd edilməyib***); O. ***Səhvən*** $S_{yan}=\pi h\left(R+r\right)$ və ya $S_{yan}=\pi l\left(R+r\right)^2$ və ya $S_{yan}=\pi l\left(R^2+R\cdot r+R\cdot r^2\right)$ və ya $S_{yan}=\pi l\left(R^2+r^2\right)$ və s. kimi ***yanlış*** ifadələr yazılaraq hesablamalar aparılıb; P. $V=\pi R^2H=3\cdot100\cdot12=3600$ və ya $V=\frac{1}{3}\cdot\pi R^2H=\frac{1}{3}\cdot3\cdot100\cdot12=1200$ və ya $V=\frac{1}{3}\cdot\pi H\left(R^2+R\cdot r+R\cdot r^2\right)$ və s. yazılaraq hesablama aparılıb; Q. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin 11_3.2.4. (*Konusun, kəsik konusun yan səthlərinin, tam səthlərinin və həcmlərinin tapılmasına aid məsələlər həll edir.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 3,12%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 6,61%-i $\frac{2}{3}$ balla, 22,11%-i $\frac{1}{3}$ balla, 3,75%-i 0 balla qiymətləndirilib, 64,41%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab verməsini onların kəsik konusun yan səthinin tapılması düsturunu və bu düstur üçün lazım olan elementləri tapa bilməməsi ilə əlaqələndirmək olar.

29. Birinci və axırıncı zolağın rəngi qırmızı və ya sarıdır. Hər zolaq müxtəlif rəngli olmaqla vedrənin səthini neçə müxtəlif üsulla rəngləmək olar?



Həlli:

Birinci və axırıncı zolağın rəngi qırmızı və ya sarı olması 2! üsulu ilə müəyyən edilir. Digər 3 zolağın rəngi isə qalan 5 rəng arasından yerdəyişmə etməklə seçilir: ${}_5P_3$. Ümumi üsulların sayını tapmaq üçün bunların hasilini yazmaq lazımdır, yəni $2!\cdot {}_5P_3 = 2\cdot\frac{5!}{2!} = 5! = 120$.

Doğru cavab: 120

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (120) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi aparılaraq $2!\cdot {}_5P_3$ və ya $2\cdot {}_5P_3$ olduğu yazılıb, lakin 120 ***hesablanmayıb*** və ya ***səhv*** hesablanıb;
$\frac{1}{3}$ bal	D. Həll prosesi aparılaraq $2!\cdot {}_5C_3=20$ olduğu yazılıb; E. Həll prosesi aparılaraq $1\cdot6\cdot5\cdot4\cdot1=120$ olduğu yazılıb;
0 bal	F. ***Səhvən*** $2!=2$ və ya $2!\cdot3!=12$ və ya $3!=6$ və ya $6!=720$ və ya **5!=120** və s. yazılıb; G. ***Səhvən*** ${}_7C_2$ və ya ${}_7P_5$ və s. yazılaraq hesablama aparılıb; H. ***Səhvən*** $2\cdot5\cdot4\cdot3\cdot2\cdot1\cdot1=240$ yazılıb; I. Başqa tapşırığın həlli yazılıb; J. Birbaşa cavab (120) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; K. Yalnız ${}_5C_3=10$ və ya ${}_5C_2=10$ və ya ${}_7C_5=21$ olduğu hesablanıb; L. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Statistika və ehtimal" məzmun xəttinin 9_5.2.1. (*Birləşmələrin növlərini fərqləndirir və onlara aid sadə məsələləri həll edir.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 1,22%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 1,68%-i $\frac{2}{3}$ balla, 36,35%-i $\frac{1}{3}$ balla, 2,19%-i 0 balla qiymətləndirilib, 58,55% -i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab verməsini onların ehtimal nəzəriyyəsi ilə bağlı biliklərinin zəif olması ilə əlaqələndirmək olar.

30. Vedrədəki məhlulun üzərinə 50 q duz və 300 q 40%-li duz məhlulu əlavə etdilər. Alınmış məhlulda duzun faizini tapın.

Həlli:

1) Vedrədə olan məhlulda duzun miqdarı: $\frac{650\cdot 20\%}{100\%}=130$ (qr) və ya 650·0,2=130 qr duz

2) Sonradan əlavə edilən məhlulda duzun miqdarı: $\frac{300\cdot 40\%}{100\%}=120$ (qr) və ya 300·0,4=120 (qr) duz

3) Duzun ümumi miqdarı: 130+120+50=300 (qr)

4) Məhlulun ümumi miqdarı: 650+300+50=1000 (qr)

5) Alınmış məhlulda olan duzun faizi: $\frac{300}{1000}\cdot 100\%=30\%$.

Doğru cavab: 30%

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (30%) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi aparılaraq vedrədə olan məhluldakı duzun miqdarı 130 qram və sonradan əlavə edilən məhluldakı duzun miqdarı 120 qram hesablandıqdan sonra 130+120+50=300 qr düzgün tapılıb, həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır***; D. Birbaşa $\frac{300}{1000}\cdot 100\%=30\%$ olduğu yazılıb;
$\frac{1}{3}$ bal	E. Vedrədə olan duzun miqdarı (130 qr) və ya sonradan əlavə edilən duzun miqdarı (120 qr) və ya hər ikisi (130 və 120 qr) tapılıb, həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır*** (burada əlavə olaraq 120+50=170 və ya 120+130=250 və ya 130+50=180 yazıla da bilər)
0 bal	F. Başqa tapşırığın həlli yazılıb; G. Meyarın 1 ballıq bəndlərinə uyğun həll zamanı ***mexaniki səhvə*** yol verilib; H. ***Yalnız*** 650+300+50=1000 qr məhlulun ümumi miqdarı hesablanıb (əlavə olaraq ***səhvən*** $\frac{20\%+40\%}{2}=30\%$ yazıla bilər); I. ***Səhvən birbaşa*** $\frac{50}{120+130}\cdot 100\%=20\%$ və ya $\frac{50}{120+130+50}\cdot 100\%=\frac{50}{3}\%$ yazılıb. J. ***Səhvən*** $300\cdot 40+50\cdot x=650\cdot 20\rightarrow x=20$ yazılaraq həll prosesi aparılıb; K. Birbaşa cavab (30%) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; L. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Ədədlər və əməllər" məzmun xəttinin 6_1.2.5. *(Nisbət, tənasüb, düz mütənasib, tərs mütənasib kəmiyyətlərə və faizə aid sadə məsələləri həll edir.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 20,72%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 11,88%-i $\frac{2}{3}$ balla, 9,81%-i $\frac{1}{3}$ balla, 7,83%-i 0 balla qiymətləndirilib, 49,75%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab verməsini onların məhlula aid məsələlərin həllində çətinlik çəkməsi ilə əlaqələndirmək olar.

9-ci sinif

2.1.3. Ardıcıllıqların, ədədi və həndəsi silsilələrin xassələrini məsələ həllinə tətbiq edir.

7 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 23 saylı test tapşırığı

$\frac{1}{2}-\frac{1}{4}+\frac{1}{8}-\frac{1}{16}+\ldots-\frac{1}{256}=\frac{x+1}{256}$ tənliyini həll edin.

9-cu sinifdə tədris olunan "*Silsilələr*" bölməsinə aid açıq tipli tapşırığına abituriyentlərin 9,55%-i doğru cavab verib, 48,58%-i isə cavab verməkdən imtina edib.

Tənlikdə bərabərliyin sol tərəfi birinci həddi $\frac{1}{2}$, vuruğu $-\frac{1}{2}$ olan həndəsi silsilədir. Həndəsi silsilənin ilk *n* həddinin cəmi düsturuna əsasən $S_8=\frac{85}{256}$. Bu qiymət tənlikdə nəzərə alınsa, $\frac{x+1}{256}=\frac{85}{256}\Rightarrow x=84$ olar.

Doğru cavab: 84

Abituriyentlərin zəif cavab verməsini onların tapşırığın həndəsi silsilə vasitəsilə həll olunduğunu bilməməsi ilə əlaqələndirmək olar.

8-ci sinif

3.1.4. Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır.

7 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 24 saylı test tapşırığı

Bərabəryanlı trapesiyanın sahəsi $12\sqrt{3}$, böyük oturacağı 13, yan tərəfin kiçik oturacaqla əmələ gətirdiyi bucaq isə 150°-dir. Kiçik oturacağı tapın.

8-ci sinifdə tədris olunan "*Fiqurların sahəsi*" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 7,68%-i doğru cavab verib, 58,67%-i isə cavab verməkdən imtina edib.

Şəkildə *BE* trapesiyanın hündürlüyüdür. *ABE* düzbucaqlı üçbucağından $\angle A=30°$, $\frac{BE}{AE}=tg30°$.



AD=*a*=13, *BC*=*b* kimi işarə edilsə, trapesiya bərabəryanlı olduğu üçün

$$AE=\frac{a-b}{2}\Rightarrow BE=h=\frac{a-b}{2\sqrt{3}}$$

$$S=\frac{a+b}{2}h=\frac{a^2-b^2}{4\sqrt{3}}=12\sqrt{3}$$

$$a^2-b^2=144$$

$$b^2=25$$

$$b=5$$

olar.

Doğru cavab: 5

Abituriyentlərin zəif cavab verməsini onların tapşırığın həll üçün bərabəryanlı trapesiya ilə bağlı, zəruri faktları bilməməsi ilə əlaqələndirmək olar.

9-cu sinif

3.2.2. *Hərəkət çevrilməsi anlayışını bilir və iki konqruyent fiqurdan birini digərindən hərəkət çevirməsi ilə alır.*

3.2.3. *Verilmiş iki nöqtə arasındakı məsafə düsturunu bilir, mərkəzinin koordinatlarına və radiusuna görə çevrənin tənliyini yazır.*

7 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 25 saylı test tapşırığı

Mərkəzi koordinat başlanğıcında və əmsalı $\frac{1}{2}$ olan homotetiyada $A(-10;8)$ və $B(14;-2)$ nöqtələri uyğun olaraq A_1 və B_1 nöqtələrinə keçir. A_1B_1 parçasının uzunluğunu tapın.

9-cu sinifdə tədris olunan "*Hərəkət. Oxşarlıq*" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 7,78%-i doğru cavab verib, 62,88%-i isə cavab verməkdən imtina edib.

İki nöqtə arasındakı məsafə düsturuna əsasən $AB=\sqrt{(14-(-10))^2+(-2-8)^2}=26.$

Homotetiyanın xassəsinə əsasən $A_1B_1=\frac{1}{2}AB=13$ olar.

Doğru cavab: 13

Abituriyentlərin zəif cavab verməsini onların tapşırığın həlli üçün homotetiya aid tələb olunan faktları bilməməsi ilə əlaqələndirmək olar.

7 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı situasiyaya aid 28-30 saylı tapşırıqlar:

Kinoteatrın 224 yerlik zalında 14 sıra var və hər sıradakı yerlərin sayı özündən sonrakı sırada olan yerlərin sayından eyni sayda azdır. Bu zaldakı bir seans üçün bütün yerlərə biletlər satılmış və 836 manat əldə edilmişdir. Həmin biletlərin 60-ı uşaqlara, qalanı isə böyüklərə satılmışdır.

28. İlk üç sıradakı yerlərin ümumi sayı 15 olarsa, ilk 11 sıradakı yerlərin ümumi sayını tapın.

Həlli:

I üsul. Situasiyada verilənlərə əsasən aydındır ki, zaldakı sıralar üzrə yerlər ədədi silsilə təşkil edir. Şərtə əsasən S_3=15, S_{14}=224-dür. Onda,

$$\begin{cases}\frac{2a_1+2d}{2}\cdot 3=15,\\ \frac{2a_1+13d}{2}\cdot 14=224\end{cases}\rightarrow\begin{cases}a_1=3,\\ d=2\end{cases}$$

Deməli,

$$S_{11}=\frac{2a_1+10d}{2}\cdot n=\frac{2\cdot 3+10\cdot 2}{2}\cdot 11=143$$

II üsul. Situasiyada verilənlərə əsasən aydındır ki, zaldakı sıralar üzrə yerlər ədədi silsilə təşkil edir. Şərtə əsasən S_3=15, S_{14}=224-dür. Onda,

$$\begin{cases}\frac{2a_1+2d}{2}\cdot 3=15,\\ \frac{2a_1+13d}{2}\cdot 14=224\end{cases}\rightarrow\begin{cases}a_1=3,\\ d=2\end{cases}$$

Buradan, $a_{11}=a_1+10d=3+20=23$-dür. Deməli,

$$S_{11}=\frac{a_1+a_{11}}{2}\cdot n=\frac{3+23}{2}\cdot 11=143$$

Doğru cavab: 143

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Həll prosesi aparılaraq ilk 11 sıradakı yerlərin sayı (143) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi aparılaraq a_1=3, d=2 olduğu hesablanıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***səhvdir*** (burada əlavə olaraq a_{11}=23-də hesablana bilər);
$\frac{1}{3}$ bal	D. **II üsulla** həll zamanı *seçmə üsuldan* istifadə edilərək ilk 3 həddinin cəmi 15 olan ədədi silsilənin elementlərinin 3, 5, 7 olduğu yazılaraq $a_{11}=a_1+10d=3+20=23$ və $S_{11}=\frac{a_1+a_{11}}{2}\cdot n=\frac{3+23}{2}\cdot 11=143$ hesablanıb; E. Birbaşa a_1=3, d=2 olduğu qeyd edilərək və ya $a_1+d=5\rightarrow a_1=3$, d=2 yazıldıqdan sonra $S_{11}=\frac{2a_1+10d}{2}\cdot 11=143$ tapılıb; F. $\begin{cases}\frac{2a_1+2d}{2}\cdot 3=15,\\ \frac{2a_1+13d}{2}\cdot 14=224\end{cases}$ tənliklər sistemi qurulub, lakin ***həll edilməyib*** və ya ***səhv*** həll edilib; G. *Seçmə üsulu* ilə ilk 3 həddinin cəmi 15 olan ədədi silsilənin elementlərinin 3, 5, 7 olduğu tapılaraq $S_{11}=\frac{2a_1+10d}{2}\cdot n=143$ və ya $S_{11}=\frac{2\cdot 3+10\cdot 2}{2}\cdot 11=143$ və ya $S_{11}=\frac{6+20}{2}\cdot 11=143$ və ya $S_{11}=13\cdot 11=143$ olduğu hesablanıb; H. 3+5+7+9+11+13+15+17+19+21+23=143 yazılıb;
0 bal	I. Başqa tapşırığın həlli yazılıb; J. Birbaşa cavab (143) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır***; K. Birbaşa a_1=3, d=2 yazılıb (burada əlavə olaraq a_2=5, a_{11}=23, S_{11}=143-də yazıla bilər); L. ***Səhvən*** ilk 3 həddinin cəmi 15 olan ədədi silsilənin elementlərinin 1, 5, 9 (2, 5, 8 və ya 4, 5, 6 da seçilərsə) olduğu qəbul edilərək $S_{11}=\frac{2a_1+10d}{2}\cdot n=\frac{2\cdot 1+10\cdot 4}{2}\cdot 11=231$ olduğu hesablanıb; M. ***Səhvən*** ilk 3 həddinin cəmi 15 olan ədədi silsilənin elementlərinin 1, 5, 9 (2, 5, 8 və ya 4, 5, 6 da seçilərsə) olduğu qəbul edilərək $a_{11}=a_1+10d=1+40=41$ və $S_{11}=\frac{a_1+a_{11}}{2}\cdot n=\frac{1+41}{2}\cdot 11=231$ hesablanıb; N. Yalnız $\frac{2a_1+2d}{2}\cdot 3=15$, a_2=5 tapılıb, həll prosesinin davamı isə ***yazılmayıb*** və ya ***yanlışdır*** (burada əlavə olaraq $S_{11}=5\cdot 11=55$ də yazıla bilər); O. Sıradakı yerlərin sayı ardıcıl natural ədədlər kimi işarə edilmiş və buna uyğun həll prosesi aparılmışdır; P. Yalnız 224 – 45 =179 və ya 224 – 15 = 209 və ya 4 + 5 + ... + 14 = 99 və s. kimi ***yanlış*** hesablamalar aparılmışdır; Q. 3+5+7+9+11+13+15+17+19+21+23 cəmi ***səhv*** hesablanıb; R. a_2=5 tapılaraq ***səhvən*** $S_{11}=\frac{a_1+a_{11}}{2}\cdot 11=\frac{6a_2}{2}\cdot 11=165$ yazılıb; S. Digər bütün hallarda;

Tapşırıq vasitəsilə "Cəbr və funksiyalar" məzmun xəttinin 9_2.1.3. (*Ardıcıllıqların, ədədi və həndəsi silsilələrin xassələrini məsələ həllinə tətbiq edir*.) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 2,30%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 5,77%-i $\frac{2}{3}$ balla, 30,96%-i $\frac{1}{3}$ balla, 0,53%-i 0 balla qiymətləndirilib, 60,44%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

29. Ata, ana və bir uşaqdan ibarət ailə biletlərə 11 manat ödəmişdirsə, uşaq üçün biletin qiyməti neçə manatdır?

Həlli:

Böyüklər üçün olan biletlərin sayı 224 – 60 = 164-dür. Uşaqlar üçün biletin qiyməti x, böyüklər üçün biletin qiyməti y ilə işarə edilsə, verilənlərə əsasən aşağıdakı tənliklər sistemi alınar:

$$\begin{cases} x+2y=11 \\ 60x+164y=836 \end{cases} \rightarrow \begin{cases} x=11-2y \\ 60(11-2y)+164y=836 \end{cases} \rightarrow x=3,\ y=4.$$

Doğru cavab: 3 manat

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (3) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi aparılaraq $\begin{cases} x+2y=11 \\ 60x+164y=836 \end{cases}$ tənliklər sistemi qurulub, lakin ***həll edilməyib*** və ya ***səhv*** həll edilib (burada əlavə olaraq böyüklər üçün olan biletin qiyməti (4 manat) tapıla da bilər); D. Tənliklər sistemi qurulduqdan sonra *seçmə üsulu* ilə böyüklər üçün olan biletin qiyməti 4 manat, kiçiklər üçün olan biletin qiyməti isə 3 manat tapılıb;
$\frac{1}{3}$ bal	E. Tənliklər sisteminə daxil olan xətti tənlik $60x + 164y=836$ yazılaraq *seçmə üsulu* ilə böyüklər üçün olan biletin qiyməti 4, kiçiklər üçün olan biletin qiymətinin 3 manat olduğu tapılıb;
0 bal	F. Başqa tapşırığın həlli yazılıb; G. Birbaşa cavab (3) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; H. Böyüklər üçün olan biletlərin sayı 224 – 60 =16 yazılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır***; I. Yalnız $2x + y=11$ tənliyi yazılaraq (burda əlavə olaraq 224 – 60 =164 yazıla bilər) $x=4$ və $y=3$ olduğu tapılıb; J. Tənliklər sisteminə daxil olan tənliklərdən yalnız biri yazılıb, biletlərin qiymətləri isə ***hesablanmayıb*** və ya ***səhv*** hesablanıb; K. Yalnız 4+4+3=11 və cavab 3 yazılarsa; L. Digər bütün hallarda;

Tapşırıq vasitəsilə "Cəbr və funksiyalar" məzmun xəttinin 7_2.2.2. (*Birdəyişənli xətti tənliyi, modul işarəsi daxilində dəyişəni olan tənliyi və ikidəyişənli iki xətti tənliklər sistemini həll edir*.) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 9,31%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 5,13%-i $\frac{2}{3}$ balla, 20,24%-i $\frac{1}{3}$ balla, 0,71%-i 0 balla qiymətləndirilib, 64,61%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab verməsini onların tapşırığın həlli üçün tələb olunan tənliklər sistemini qurub həll edə bilməməsi ilə əlaqələndirmək olar.

30. Seansın sonunda bütün tamaşaçıların iştirakı ilə iki hədiyyədən ibarət lotereya oynanılır. Birinci hədiyyənin uşaq, ikinci hədiyyənin isə böyük tərəfindən udulması hadisəsinin ehtimalını tapın.

Həlli:

I üsul. Nizamlı seçim olduğu üçün mümkün halların sayı $_{224}P_2$, əlverişli halların sayı $_{60}P_1 \cdot {}_{164}P_1$ olur. Hadisənin ehtimalının tərifinə əsasən

$$P = \frac{{}_{60}P_1 \cdot {}_{164}P_1}{{}_{224}P_2} = \frac{60 \cdot 164}{224 \cdot 223} = \frac{615}{3122} \text{ olur.}$$

II üsul. Uşaqların sayı 60, böyüklərin sayı isə 164-dür. Birinci hədiyyənin uşaq tərəfindən udulması hadisəsinin ehtimalı $\frac{60}{224}$, ikinci hədiyyənin isə böyük tərəfindən udulması hadisəsinin ehtimalı $\frac{164}{223}$-dür. Onda, axtarılan ehtimal

$$\frac{60 \cdot 164}{224 \cdot 223} = \frac{615}{3122} \text{ olur.}$$

Doğru cavab: $\boldsymbol{\frac{615}{3122}}$

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab ($\frac{615}{3122}$) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi aparılaraq $\frac{60}{224} \cdot \frac{164}{224} = \frac{615}{3136}$ olduğu tapılıb; D. ***Səhvən*** $P = \frac{{}_{60}C_1 \cdot {}_{164}C_1}{{}_{224}C_2} = \frac{615}{1561}$ və ya $P = \frac{60}{224} \cdot \frac{164}{223} + \frac{164}{224} \cdot \frac{60}{223} = \frac{615}{1561}$ hesablanıb; E. $\frac{60}{224} \cdot \frac{164}{223}$ yazılıb, həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***;
$\frac{1}{3}$ bal	F. Meyarın tam ballıq bəndində 1 mexaniki ***səhvə*** yol verilib və ya hesablama sona qədər ***aparılmayıb***; G. ***Səhvən*** $P = \frac{{}_{60}P_1 + {}_{164}P_1}{{}_{224}P_2} = \frac{224}{49952} = \frac{1}{223}$ yazılıb; H. Birinci hədiyyənin uşaq tərəfindən udulması hadisəsinin ehtimalı izah edilməklə ($\frac{60}{224}$) düzgün qeyd edilib, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır***; I. Hər iki ehtimal ayrı-ayrılıqda tapılıb, lakin onların hasili ***hesablanmayıb***;
0 bal	J. Birinci hədiyyənin uşaq tərəfindən və ya ikinci hədiyyənin böyük tərəfindən udulması hadisəsinin ehtimalı heç bir izahat ***aparılmadan*** birbaşa qeyd edilib; K. Başqa tapşırığın həlli yazılıb; L. ***Səhvən*** $P = \frac{{}_{60}C_1 + {}_{164}C_1}{{}_{224}C_2} = \frac{224}{24976} = \frac{2}{223}$ yazılarsa; M. Birbaşa cavab ($\frac{615}{3122}$) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; N. ***Səhvən*** $\frac{60 \cdot 164}{224}$ və ya $\frac{1}{60} + \frac{1}{160}$ və ya $\frac{1}{60} \cdot \frac{1}{160}$ və s. uyğun olmayan ifadə yazılaraq hesablama aparılıb; O. Digər bütün hallarda;

Tapşırıq vasitəsilə "Statistika və ehtimal" məzmun xəttinin 9_5.2.3. (*Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 0,25%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 6,55%-i $\frac{2}{3}$ balla, 14,26%-i $\frac{1}{3}$ balla, 2,94%-i 0 balla qiymətləndirilib, 76,01%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab verməsini onların ehtimal nəzriyyəsinə aid məsələlərin həllində çətinlik çəkməsi ilə əlaqələndirmək olar.

11-ci sinif

1.2.1. Ədədi ardıcıllığın və onun limitinin tərifini bilir, yığılan ardıcıllıqların xassələrini tətbiq edir.

21 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 22 saylı test tapşırığı

$\lim\limits_{n\to\infty}(3n-\sqrt{9n^2-8n+2})$ limitini hesablayın.

A) $-\frac{3}{4}$ B) $\frac{4}{3}$ C) $\frac{3}{4}$ D) $-\frac{4}{3}$ E) 0

11-ci sinifdə tədris olunan "*Ardıcıllığın limiti*" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 10,96%-i doğru cavab verib, 35,90%-i isə cavab verməkdən imtina edib.

$$\lim_{n\to\infty}\frac{\left(3n-\sqrt{9n^2-8n+2}\right)\left(3n+\sqrt{9n^2-8n+2}\right)}{3n+\sqrt{9n^2-8n+2}}=\lim_{n\to\infty}\frac{9n^2-9n^2+8n-2}{3n+\sqrt{9n^2-8n+2}}=$$

$$=\lim_{n\to\infty}\frac{8-\frac{2}{n}}{3+\sqrt{9-\frac{8}{n}+\frac{2}{n^2}}}=\frac{8}{6}=\frac{4}{3}$$

Doğru cavab: B

Düzgün cavab faizinin aşağı olduğunu abituriyentlərin ardıcıllığın limitinin tapılması üçün biliklərinin zəif olması ilə əlaqələndirmək olar.

21 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiyaya aid 28-30 saylı tapşırıqlar:

Üstü açıq, divarları və döşəməsi kafellə üzlənmiş düzbucaqlı paralelepiped formasında olan hovuzun hündürlüyü 3 m, döşəməsinin tərəfləri isə 5 m və 8 m-dir.

Hovuzun döşəməsinin üzlənməsi üçün 1 m^2-nin qiyməti 12 manat, divarlarının üzlənməsi üçün 1 m^2-nin qiyməti 10 manat olan kafeldən istifadə olunmuşdur. Bu hovuzu doldurmaq üçün 2 kran quraşdırılıb. Hər iki kran eyni zamanda açıldıqda boş hovuz 8 saata dolur. Birinci kran boş hovuzu ikinci krandan 4 dəfə tez doldurur. Hovuza 14 farel və 16 sazan balığı buraxıldı.



28. Hovuzun döşəməsinin və divarlarının üzlənməsi üçün cəmi neçə manatlıq kafel istifadə olunub?

Həlli:

Hovuz düzbucaqlı paralelepiped formasında olduğundan,

$$S_{ot}=8\cdot5=40\left(\text{m}^2\right),\ S_{yan}=P_{ot}\cdot H=2\cdot(8+5)\cdot3=78\left(\text{m}^2\right)$$

alınar. Hovuzun döşəməsinin üzlənməsi üçün 1 m^2-nin qiyməti 12 manat, divarlarının üzlənməsi üçün isə 1 m^2-nin qiyməti 10 manat olan kafeldən istifadə olunduğundan xərclənən pulun miqdarı $12\cdot S_{ot}+10\cdot S_{yan}=12\cdot40+10\cdot78=1260$ manat olar.

Doğru cavab: 1260 manat

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Həll prosesi yazılaraq cavab (1260 manat) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi yazılaraq paralelepipedin yan səthinin və oturacağının sahəsi (hər ikisi) düzgün tapılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***səhvdir***; D. Həll prosesi yazılaraq paralelepipedin yan səthinin sahəsi və onun üzlənməsi üçün sərf olunan xərc düzgün tapılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***səhvdir***; E. Həll prosesi yazılaraq paralelepipedin oturacağının səthinin sahəsi və onun üzlənməsi üçün sərf olunan xərc ayrı-ayrılıqda düzgün tapılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***səhvdir***; F. Uyğun sahələr tapıldıqdan sonra həm yan səth, həm də oturacağın üzlənməsi üçün sərf olunan xərc düzgün tapılıb, lakin cəm ***tapılmayıb*** və ya ***səhvdir;*** G. Yalnız $40\cdot12+78\cdot10=480+780=1260$ manat olduğu yazılıb;
$\frac{1}{3}$ bal	H. Həll prosesi yazılaraq yan səthi və ya oturacağının sahəsi (ikisindən biri) düzgün tapılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***səhvdir***; I. Paralelepipedin oturacağının səthinin sahəsi birbaşa yazılaraq onun üzlənməsi üçün sərf olunan xərc düzgün tapılıb, yəni $40\cdot12=480$ ***yazılıb***, lakin ***davamı yoxdur*** və ya ***səhvdir***; **Bu bənd E bəndindən fərqləndirilməlidir!** J. Yalnız $480+780=1260$ manat olduğu yazılıb;
0 bal	K. Başqa tapşırığın həlli yazılıb; L. Birbaşa cavab (1260 manat) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır***; M. Birbaşa S=40 və ya 78 yazılıb və ya birbaşa döşəmənin üzlənməsinə çəkilən xərc (480 manat) qeyd edilib; N. Səhvən $S_{ot}=8\cdot3=24$, $24\cdot12=288$ və $S_{yan}=5\cdot3=15$, $15\cdot10=150$ yazılaraq $288+150=438$ olduğu qeyd edilib; O. Paralelepipedin oturacağının və ya yan üzlərinin perimetri hesablanaraq onların üzlənməsinə çəkilən xərc tapılıb; P. ***Səhvən*** üzlərin (divarların) sahəsinin S=40 olduğu hesablanıb; Q. Birbaşa $80\cdot12=960$ manat yazılıb; R. $5\cdot8=40$ olduğu yazılıb, lakin nəyi ifadə etdiyi ***qeyd edilməyib***; S. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin 5_3.1.4. (*Paralelepipedin və kubun səthinin sahəsini və həcmini hesablayır.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 23,75%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 6,98%-i $\frac{2}{3}$ balla, 16,27%-i $\frac{1}{3}$ balla, 22,36%-i 0 balla qiymətləndirilib, 30,63%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab verməsini onların tapşırığın həlli üçün tələb olunan düzbucaqlı paralelepipedin yan səthinin sahəsini tapa bilməməsi ilə əlaqələndirmək olar.

29. Yalnız birinci kran açılarsa, 1 saatda bu hovuza neçə m^3 su dolar?

Həlli:

I üsul. Şərtə görə bu hovuzu doldurmaq üçün 2 kran quraşdırılıb və birinci kran boş hovuzu ikinci krandan 4 dəfə tez doldurur. Fərz edək ki, boş hovuzu birinci kran təklikdə x saata doldurur. Onda ikinci kran hovuzu təklikdə $4x$ saata doldurar. Hər iki kran eyni zamanda açıldıqda boş hovuz 8 saata dolduğundan aşağıdakı kimi tənlik alınar:

$$\frac{8}{x}+\frac{8}{4x}=1$$

Buradan, $\frac{10}{x}=1\Rightarrow x=10$ (saat) olur. Yalnız birinci kran açılarsa, 1 saatda bu hovuza $\frac{1}{x}\cdot V=\frac{1}{10}\cdot 8\cdot 5\cdot 3=12(\text{m}^3)$ su dolar.

II üsul. Şərtə əsasən hovuzun həcmi $V=8\cdot 5\cdot 3=120\,(\text{m}^3)$-dur. Hər iki kran birlikdə bir saata hovuzun $\frac{1}{8}$ hissəsini, yəni $120\cdot\frac{1}{8}=15(\text{m}^3)$-ni doldurar. Birinci kran boş hovuzu ikincidən 4 dəfə tez doldurduğu üçün ikinci kran 1 saata 15:5=3 (m^3), birinci kran isə 15–3=12 (m^3) su doldurar.

Doğru cavab: 12 m^3

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (12 m^3) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. **I üsulla** tapşırığın şərtinə uyğun tənlik qurularaq həll edilib və x=10 olduğu tapılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır***;
$\frac{1}{3}$ bal	D. Tapşırığın şərtinə uyğun tənlik qurulub, lakin ***həll edilməyib*** və ya ***səhv*** həll edilib; E. Həll prosesi yazılaraq hovuzun həcmi (120 m^3) tapılıb, lakin həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır*** (burada əlavə olaraq 15 tapıla bilər); F. Birbaşa olaraq birinci kranın hovuzu təklikdə 10 saata doldurduğu yazıldıqdan sonra $\frac{1}{10}\cdot 8\cdot 5\cdot 3=120\cdot\frac{1}{10}(\text{m}^3)$ qeyd edilib; G. $\frac{1}{x}+\frac{1}{4x}=\frac{1}{8}$ tənliyi qurularaq düzgün həll edilib, lakin ***səhvən*** ikinci kranın hovuzu 10, birinci kranın isə bu hovuzu 40 saata doldurduğu qeyd edilib;
0 bal	H. Başqa tapşırığın həlli yazılıb; I. Birbaşa cavab (12 m^3) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır***; J. $x_1+x_2=480$, $5x_1=480$, $x_1=96$ və 96:8=12 yazılıb; K. Birbaşa V=120 m^3 olduğu yazılıb, həll prosesinin ***davamı yoxdur*** və ya ***yanlışdır***; **Bu bənd E bəndindən fərqləndirilməlidir!** (burada əlavə olaraq 120:8=15 və ya 120:5=24 də yazıla bilər) L. $k+4k=8$, $k=1{,}6$ və $4k=6{,}4$ yazılıb (burada əlavə olaraq $x=\frac{120\cdot 6{,}4}{8}=96$ da qeyd edilə bilər); M. Tapşırığın şərtinə uyğun olmayan tənlik qurularaq həll prosesi aparılıb ($\frac{1}{x}+\frac{1}{4x}=\frac{1}{8}$ və ya $\left(\frac{1}{x}+\frac{1}{4x}\right)\cdot 8=120$ və s.); N. Tapşırığın şərtinə uyğun olmayan hesablamalar aparılaraq birinci kranın hovuzu 10 saata doldurduğu və ya bir saata 12 m^3 su doldurduğu qeyd edilib; O. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Cəbr və funksiyalar" məzmun xəttinin 6_2.2.2. (*Rasional ədədlər çoxluğunda tənlikləri həll edir*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 15,46%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 67%-i $\frac{2}{3}$ balla, 19,73%-i $\frac{1}{3}$ balla, 6,88%-i 0 balla qiymətləndirilib, 45,26%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab verməsini onların tapşırığın həlli üçün tələb olunan tənliyi qurub həll edə bilməməsi ilə əlaqələndirmək olar.

30. Hovuzdan təsadüfi olaraq 3 balıq tutularsa, bu balıqlardan yalnız birinin farel balığı olması hadisəsinin ehtimalını tapın.

Həlli:

I üsul. Şərtə görə, hovuzda 14 farel və 16 sazan balığı var. Hovuzdan təsadüfi olaraq 3 balıq tutularsa, bu balıqlardan yalnız birinin farel balığı olması hadisəsinin ehtimalı $\frac{{}_{14}C_1 \cdot {}_{16}C_2}{{}_{30}C_3} = \frac{12}{29}$ olar.

II üsul. Tutulan balıqlardan birincinin farel olması hadisəsinin ehtimalı $\frac{14}{30}$, bu şərtlə ikincinin sazan olması hadisəsinin ehtimalı $\frac{16}{29}$ və üçüncünün sazan olması hadisəsinin ehtimalı $\frac{15}{28}$-dir. Həmçinin tutulan balıqlardan birincinin sazan olması hadisəsinin ehtimalı $\frac{16}{30}$, bu şərtlə ikincinin farel olması hadisəsinin ehtimalı $\frac{14}{29}$ və üçüncünün sazan olması hadisəsinin ehtimalı $\frac{15}{28}$-dir. Digər tərəfdən, tutulan balıqlardan birincinin sazan olması hadisəsinin ehtimalı $\frac{16}{30}$, bu şərtlə ikincinin sazan olması hadisəsinin ehtimalı $\frac{15}{29}$ və üçüncünün farel olması hadisəsinin ehtimalı $\frac{14}{28}$-dür. Onda, ehtimalların vurulması prinsipinə görə axtarılan ehtimal

$$\frac{14}{30}\cdot\frac{16}{29}\cdot\frac{15}{28}+\frac{16}{30}\cdot\frac{14}{29}\cdot\frac{15}{28}+\frac{16}{30}\cdot\frac{15}{29}\cdot\frac{14}{28}=\frac{12}{29}$$

və ya

$$3\cdot\frac{14}{30}\cdot\frac{16}{29}\cdot\frac{15}{28}=\frac{12}{29} \text{ olar.}$$

Doğru cavab: $\boldsymbol{\frac{12}{29}}$

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab ($\frac{12}{29}$) tapılıb;
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb;
$\frac{1}{3}$ bal	C. ***Səhvən*** $\frac{{}_{14}C_1}{{}_{30}C_3} = \frac{1}{290}$ nisbəti hesablanıb; D. ***Səhvən*** $\frac{{}_{14}C_3}{{}_{30}C_3} = \frac{26}{290} = \frac{13}{145}$ nisbəti hesablanıb; E. ***Səhvən*** $\frac{{}_{14}C_1 + {}_{16}C_2}{{}_{30}C_3} = \frac{67}{2030}$ nisbəti hesablanıb; F. Meyarın tam ballıq bəndinə uyğun həll zamanı ***mexaniki səhvə*** yol verilib və ya hesablama sona qədər ***aparılmayıb***;
0 bal	G. Yalnız ${}_{30}C_3 = \frac{30!}{27!\cdot 3!} = 4060$ olduğu yazılıb, lakin nəyi ifadə etdiyi ***qeyd edilməyib***; H. Başqa tapşırığın həlli yazılıb; I. Birbaşa cavab ($\frac{12}{29}$) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır***; J. Meyarın tam ballıq bəndlərinə uyğun həll zamanı ***səhvə*** yol verilib və ya hesablama sona qədər ***aparılmayıb***; K. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə “Statistika və ehtimal” məzmun xəttinin 9_5.2.3. (*Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir.*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 13,73%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 10,04%-i $\frac{2}{3}$ balla, 29,28%-i $\frac{1}{3}$ balla, 3,94%-i 0 balla qiymətləndirilib, 43,01%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab verməsini onların birləşmələrin köməyi ilə ehtimala aid məsələni həll edə bilməməsi ilə əlaqələndirmək olar.

Fizika fənnindən qəbul imtahanlarında (4 iyun, 5 iyun və 21 iyul 2022-ci il) istifadə olunmuş test tapşırıqları aşağıdakı bölmələri əhatə etmişdir:

1. Mexanika
2. Molekulyar fizika və termodinamika
3. Elektrodinamika
4. Optika
5. Kvant fizikası
6. Atom və nüvə fizikası

Tapşırıqların bölmələr üzrə paylanması aşağıdakı kimidir: “Mexanika”– 9; “Molekulyar fizika” – 4; “Elektrodinamika” – 10; “Optika”– 2; “Kvant fizikası” – 1; Atom və nüvə fizikası – 1.

Situasiya əsaslı 3 tapşırıq “Elektrodinamika” bölməsinə aid olmuşdur. Test tapşırıqlarının bölmələr üzrə paylanmasında məktəb fizika kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınmışdır. Əvvəlki illərdə olduğu kimi, bu imtahanlarda da test bloklarında faktoloji biliklərə əsaslanan 1 düstur, 1 vahid, 1 tərif və 1 eksperiment nominasiyalı tapşırıqdan istifadə edilmişdir. Qəbul imtahanları eyni gündə keçirildiyi üçün I və IV ixtisas qrupları üzrə test bloklarında bütün test tapşırıqları eyni olmuşdur.

Tapşırıqlar fənn kurikulumuna görə 3 **(“Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar”, “Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər”, “Eksperimental fizika və müasir həyat”)** məzmun xətti üzrə 5 əsas standartın və 73 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı mövzuları əhatə etmişdir.

Qəbul imtahanında aşağıdakı bilik və bacarıqların yoxlanılması, qiymətləndirilməsi nəzərdə tutulmuşdur:

1. Fiziki qanunların, prinsiplərin dərk edilməsi və mahiyyətinin mənimsənilməsi;
2. Müxtəlif tip və müxtəlif çətinlik səviyyələrində olan məsələləri həll etmək bacarığı;
3. Fiziki kəmiyyətlərin arasındakı asılılıqların qrafiki təsvirinin mənimsənilməsi

Test bloklarına fiziki hadisə, anlayış, model və kəmiyyətlərin, fiziki qanunların, postulatların, prinsiplərin dərk edilməsi və mahiyyətinin mənimsənilməsini, müxtəlif tip məsələləri həll etmək qabiliyyətini, fiziki kəmiyyətlərin arasındakı asılılıqların qrafiki təsvirinin mənimsənilməsi səviyyəsini aşkara çıxarmağa imkan verən müxtəlif nominasiyalı və mürəkkəblik dərəcəli tapşırıqlar daxil edilmişdir.Test bloklarında fiziki hadisə və proseslərin mahiyyətinə əsaslanan, təhliletmə, mühakiməyürütmə bacarıqları tələb edən tapşırıqlara üstünlük verilmişdir.

Qəbul imtahanlarının nəticələrinin statistik təhlili göstərmişdir ki, abituriyentlərin müəyyən hissəsi ”Statikanın əsasları” “Aero-hidrostatika. Aerohidrodinamika”, “Sabit elektrik cərəyanı”, “Müxtəlif mühitlərdə elektrik cərəyanı” , “Elektromaqnit rəqsləri və dalğaları”, “Həndəsi optika”, “Kvant fizikası” mövzularına aid test tapşırıqlarına ya zəif cavab vermiş, ya da cavab verməkdən imtina etmişdir. Qeyd etmək lazımdır ki, əvvəlki illərdə də “Elektromaqnit rəqsləri və dalğaları” və “Həndəsi optika” bölmələrinə aid tapşırıqlar zəif cavablandırılmışdır. Belə halın olması onu deməyə əsas verir ki, bu mövzular çətin mənimsənilir və tədrisində müəyyən problemlər qalmaqdadır.

Test tapşırıqlarının nominasiyalar üzrə aparılan təhlili göstərir ki, bəzi abituriyentlər düstur və vahidlərə aid tapşırıqlara yaxşı, fiziki hadisə və proseslərin mahiyyətinin açılmasına yönəlmiş qrafik, keyfiyyət və hesablama tipli, həmçinin fiziki cihaz və qurğulara aid tapşırıqlara isə nisbətən zəif cavab verib. Belə tapşırıqlarda, adətən, kəmiyyətlər arasında asılılığı müəyyən etmək, müxtəlif parametrlərin dəyişməsinin fiziki proseslər gedən sistemin tam enerjisinə təsirini araşdırmaq və bu prosesin gedişində kəmiyyətlərin necə dəyişəcəyi barədə nəticə çıxarmaq lazım gəlir. Abituriyentlərin bir qismi Eyler-Venn diaqramları vasitəsi ilə verilən test tapşırıqlarına da cavab verməkdə çətinlik çəkib.

Abituriyentlərin zəif nəticə göstərdikləri bəzi test tapşırıqlarının izahı təqdim olunur:

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 34 saylı test tapşırığı

10-cu sinif

1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

Şaquli yuxarı atılmış mərmi trayektoriyanın ən yüksək nöqtəsində 3 qəlpəyə parçalanır. Qəlpələrdən ikisi eyni impulsla *M* və *N* istiqamətlərində uçur. Üçüncü qəlpənin hərəkət istiqamətini müəyyən edin.



A) 3 B) 5 C) 4 D) 2 E) 1

10-ci sinifdə tədris olunan "İmpuls. İmpulsun saxlanma qanunu" mövzusuna aid keyfiyyət nominasiyalı bu test tapşırığına abituriyentlərin 13,32%-i doğru cavab verib, 17,41%-i cavab verməkdən imtina edib. Abituriyentlərdən yanlış olan B bəndini 28,74%, D bəndini 29,02% düzgün hesab edib.

Tapşırığın yerinə yetirilməsi üçün şaquli yuxarı atılmış mərminin trayektoriyanın ən yüksək nöqtəsində impulsunun sıfra bərabər olduğunu nəzərə almaq lazımdır. İmpulsun saxlanma qanununa görə, mərmi həmin nöqtədə 3 hissəyə parçalandığından onların impulslarının cəmi də sıfır olmalıdır. Qəlpələrin ikisinin impulslarının istiqamətləri məlum olduğundan onların vektorial cəmi 5 istiqamətini verir. 3-cü qəlpənin impulsu qiymətcə digər iki qəlpənin impulslarının cəminə bərabər, istiqamətcə isə əksinə yönəlir. Beləliklə, 3-cü qəlpənin istiqaməti 3 istiqamətində olur.

Doğru cavab: A

4 iyun tarixli imtahan, I ixtisas qrupu, B variantı, 44 saylı test tapşırığı

11-ci sinif

1.1.1. Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir.

3.1.1. Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir.

Dövrədəki ampermetrin göstərişi 15 mA-dir. Mənbəyin gərginliyini dəyişmədən qütblərinin yerini dəyişdirdikdə ampermetrin göstərişi nəyə bərabər olar ($R_1 = 30\ \text{Om},\ R_2 = 20\ \text{Om},\ R_3 = 80\ \text{Om}$)?



A) 15 mA B) 10 mA C) 40 mA D) 30 mA E) 20 mA

11-ci sinifdə tədris olunan "Müxtəlif mühitdə elektrik cərəyanı" mövzusuna aid hesablama nominasiyalı bu tapşırığa abituriyentlərin 10,66%-i doğru cavab verib, 45,01%-i cavab verməkdən imtina edib. Yanlış olan A bəndini 19,16%, D bəndini 13,28% düzgün hesab edib.

Tapşırığın yerinə yetirilməsi üçün yarımkeçirici diodun iş prinsipini və dövrəyə qoşulduqda onun cərəyan buraxma xüsusiyyətlərini dərk etmək lazımdır. Verilmiş vəziyyətdə R_3 rezistoruna ardıcıl birləşdirilmiş yarımkeçirici diod düz keçidə malik olduğundan ondan cərəyan keçir. Lakin R_1 rezistoruna ardıcıl birləşdirilmiş yarımkeçirici diod isə tərs keçidə malik olduğundan ondan cərəyan keçmir. Ona görə verilmiş vəziyyətdə ampermetrin göstərişi yalnız bir-birinə paralel birləşdirilmiş R_2 və R_3 rezistorlarından keçən cərəyan şiddətini göstərir (15 mA) və dövrənin müqaviməti $R_{üm1}=16\ Om$ təşkil edir. Mənbəyin qütblərinin yerini dəyişdirdikdə ampermetrin göstərişi isə bir-birinə paralel birləşdirilmiş R_1 və R_2 rezistorlarından keçən cərəyan şiddətini göstərər və bu halda dövrənin müqaviməti $R_{üm2}=12Om$-a bərabərdir. Mənbəyin gərginliyi sabit olduğundan: $l_1 \cdot R_{üm1} = l_2 \cdot R_{üm2}$ bərabərliyindən l_2 cərəyan şiddəti üçün $l_2=20mA$ qiyməti alınır.

Doğru cavab: E

04 iyun tarixli imtahan, I ixtisas qrupu, B variantı, 54 saylı test tapşırığı

10-cu sinif

1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

İki üzgüçü eni 70 m olan çayın bir sahilinin *O* nöqtəsindən digər sahilinə üzür. Çayın axın sürətinin və üzgüçülərin (1 və 2) suya görə sürətinin vektorları şəkildə göstərilmişdir. Üzgüçülərin sahilə çatdıqları nöqtələr arasındakı məsafə neçə metr olar (bölgülər bərabərdir və hər bölgü $1\,\frac{\text{m}}{\text{san}}$-dir)?



10-cu sinifdə tədris olunan "Düzxətli bərabərsürətli və dəyişənsürərətli hərəkət" mövzusuna aid hesablama tipli bu test tapşırığına abituriyentlərin yalnız 10,57 %-i doğru cavab verib, 57,13%-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün üzgüçülərin çayın bir sahilindən digərinə keçmə müddətini, onların sürətinin OY oxu üzrə proyeksiyasının təyin etdiyini bilmək lazımdır. Şəkilə əsasən üzgüçülərin sürət vektorlarının OY oxu üzrə proyeksiyaları $\upsilon_{y1} = \upsilon_{y2} = 2\frac{\text{m}}{\text{san}}$ olduğundan, onların hər ikisi digər sahilə $t = \frac{70\,\text{m}}{2\frac{\text{m}}{\text{san}}} = 35\,\text{san}$ müddətə çatır. Üzgüçülərin sahilə çatdıqları nöqtələr arasındakı məsafə 35 saniyə ərzində üfüqi istiqamətdəki yerdəyişmələrinin fərqinə bərabərdir. Odur ki, 1-ci üzgüçünün üfüqi istiqamətdə yerdəyişməsi:

$$S_{x1} = (\upsilon_{x1} + \upsilon_ç)35 = \upsilon_ç \cdot 35 = 2 \cdot 35 = 70\,\text{m}$$

2-ci üzgüçünün üfüqi istiqamətdə yerdəyişməsi:

$$S_{x2} = (\upsilon_{x2} + \upsilon_ç)35 = (1+2) \cdot 35 = 3 \cdot 35 = 105\,\text{m}\ \text{olur.}$$

Üzgüçülərin sahilə çatdıqları nöqtələr arasındakı məsafə isə:

$$S_{x2} - S_{x1} = 105 - 70 = 35\,\text{m}$$

***Doğru cavab:* 35**

5 iyun tarixli imtahan, IV ixtisas qrupu, B variantı, 62 saylı test tapşırığı

10-cu sinif

1.1.1. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir.

Hansı qüvvənin və ya qüvvələrin qapalı trayektoriya boyunca işi sıfra bərabər ***deyil***?

1. Qravitasiya qüvvəsinin
2. Elastiklik qüvvəsinin
3. Sürtünmə qüvvəsinin

A) yalnız 1 B) 1 və 3 C) 1 və 2
D) yalnız 3 E) 2 və 3

10-cu sinifdə tədris olunan "Mexaniki iş və güc" mövzusuna aid keyfiyyət nominasiyalı bu test tapşırığına abituriyentlərin 12,30%-i doğru cavab verib, 22,42%-i cavab verməkdən imtina edib. Burada dörd yanlış cavabın üçünü doğru cavab hesab edən abituriyentlərin sayı doğru cavab yazan abituriyentlərin sayından çoxdur. Yəni yanlış olan A bəndini 15,80%, B bəndini 24,79%, E bəndini 12,96% düzgün hesab edib.

Tapşırığın yerinə yetirilməsi üçün konservativ və qeyr-konservativ qüvvələri fərqləndirməyi bacarmaq kifayətdir. Konservativ qüvvələrin qapalı trayektoriya boyunca işi sifra bərabər olur. Verilmiş qüvvələrdən yalnız sürtünmə qüvvəsi qeyri-konservativ olduğundan, onun qapalı trayektoriya boyunca işi sıfra bərabər deyil.

***Doğru cavab:* C**

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 44 saylı test tapşırığı

11-ci sinif

1.1.1. Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir.

3.1.1. Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir.

K açarı 1 və 2 vəziyyətində olduqda voltmetrin göstərişləri nəyə bərabər olar?



	1 vəziyyətində	2 vəziyyətində
A)	6V	0
B)	4V	8V
C)	0	6V
D)	8V	6V
E)	6V	8V

11- ci sinifdə tədris olunan "Sabit cərəyan qanunları" mövzusuna aid hesablama formalı bu test tapşırığına abituriyentlərin yalnız 16,39%-i doğru cavab verib, 31,59%-i cavab verməkdən imtina edib. Yanlış olan A bəndini 23,49% düzgün hesab edib.

Tapşırığı yerinə yetirərkən bilmək lazımdır ki, tam dövrə üçün Om qanunundan gərginlik düşgüsü üçün

$$U = \varepsilon - Ir$$

almaq olar. *K* açarı 2 vəziyyətində olduğu halda *I*=0 olur və voltmetrin göstərişi mənbəyin elektrik hərəkət qüvvəsinə bərabər olur:

$$U = \varepsilon = 8\ \text{V}$$

K açarı 1 vəziyyətində olduqda dövrədən keçən cərəyan şiddəti:

$$I = \frac{\varepsilon}{R+r} = \frac{8}{3+1} = 2\ \text{A}$$

olur. Bu halda voltmetrin göstərişi:

$U = \varepsilon - Ir = 8 - 2 \cdot 1 = 6\ \text{V}$

Doğru cavab: E

21 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiyaya aid 58-60 saylı test tapşırıqları

Müəllim yarımkeçiricilərdə elektrik keçiriciliyini araşdırmaq üçün termorezistoru EHQ-si $\varepsilon = 20\text{V}$, daxili müqaviməti $r = 1$ Om olan sabit cərəyan mənbəyinə birləşdirib içərisində qaynar su olan qaba yerləşdirdi və ampermetrlə voltmetrin göstərişlərini qeyd etdi. Su soyuduqdan sonra isə ampermetrin və voltmetrin göstərişlərinin dəyişdiyini şagirdlərə göstərdi.



58. Ampermetrin və voltmetrin göstərişləri necə dəyişdi? Uyğun düsturları yazmaqla cavabınızı əsaslandırın.

59. Termorezistorun müqavimətini ampermetrin göstərişinin 2 A-ə bərabər olduğu anda hesablayın.

60. Ampermetrin göstərişi 2 A olduqda termorezistorda ayrılan gücü hesablayın.

58. ***Həlli:***

Termorezistor yarımkeçirici cihaz olduğundan su soyuduqda onun müqaviməti artır. $I = \frac{\varepsilon}{R_t + r}$ tam dövrə üçün Om qanununa əsasən ε və r sabit qaldığından R_t-un artması nəticəsində cərəyan şiddəti azalacaq. Ampermetr cərəyan şiddətini ölçdüyündən onun göstərişi ***azalacaq***.

Voltmetrin göstərişi U=ε–Ir düsturu ilə təyin olunduğundan cərəyan şiddəti azaldığı üçün voltmetrin göstərişi ***artacaqdır***.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Termorezistorun müqavimətinin artması, müvafiq düsturlar yazılaraq ampermetrin göstərişinin ***azalması*** və voltmetrin göstərişinin ***artması*** düzgün qeyd edilib;
$\frac{2}{3}$ bal	B. Termorezistorun müqavimətinin artması ***qeyd edilməyib***, lakin müvafiq düsturlar yazılaraq ampermetrin göstərişinin ***azalması*** və voltmetrin göstərişinin ***artması*** düzgün qeyd edilib; C. Termorezistorun müqavimətinin ***artması*** qeyd edilib və müvafiq düstur yazılaraq ampermetrin göstərişinin ***azalması*** düzgün qeyd edilib, lakin voltmetrin göstərişinin artması düzgün ***müəyyən edilməyib***; D. Termorezistorun müqavimətinin ***artması*** qeyd edilib və müvafiq düstur yazılaraq voltmetrin göstərişinin ***artması*** düzgün qeyd edilib, lakin ampermetrin göstərişinin azalması düzgün ***müəyyən edilməyib***;
$\frac{1}{3}$ bal	E. Termorezistorun müqavimətinin ***artması*** qeyd edilib, müvafiq düstur ***yazılmadan*** ampermetrin göstərişinin ***azalması*** və voltmetrin göstərişinin ***artması*** düzgün qeyd edilib; F. Termorezistorun müqavimətinin artması düzgün qeyd edilib, lakin dövrə hissəsi üçün Om qanununa əsaslanaraq ampermetrin göstərişinin ***azalması*** və voltmetrin göstərişinin ***artması*** düzgün qeyd edilməyib; G. Termorezistorun müqavimətinin ***azalması qeyd edilib***, lakin müvafiq düsturlar doğru yazılaraq ($I \uparrow = \frac{\varepsilon}{R \downarrow + r}$) ampermetrin göstərişinin ***artması*** və voltmetrin (U↓=ε–↑Ir) göstərişinin ***azalması*** qeyd edilməyib;
0 bal	H. Ampermetrin göstərişinin ***azalması*** və voltmetrin göstərişinin ***artması*** düzgün qeyd edib, lakin heç bir əsaslandırma aparmayıb və ya əsaslandırma tamamilə yanlışdır; I. Başqa tapşırığın həlli yazılıb; J. Digər bütün hallarda.

Tapşırıq 11-ci sinifdə tədris edilən "Müxtəlif mühitdə elektrik cərəyanı" və "Sabit cərəyan qanunları" mövzularına aiddir. Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*) və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 2,71%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 3 balla, 2,92% -i 2 balla, 9,38%-i 1 balla, 37,65%-i 0 balla qiymətləndirilib, 47,34%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün termistor yarımkeçirici cihaz olduğundan suyun soyudulması nəticəsində onun müqavimətinin artdığını, tam dövrə üçün Om qanununa əsasən ε və r sabit qaldığından R_t-in artması nəticəsində cərəyan şiddətinin azaldığını bilmək kifayətdir. Dövrədəki voltmetrin göstərişi U=ε–Ir düsturu ilə ifadə olunur. Bu ifadədən isə dövrədən keçən cərəyan şiddəti azaldığı halda voltmetrin göstərişinin artması alınır.

59. Həlli: Tam dövrə üçün Om qanunundan $I=\frac{\varepsilon}{R+r}$ ifadəsindən, $R=\frac{\varepsilon}{I}-r=\frac{20}{2}-1=9(Om)$ alınır.

***Doğru cavab:* 9 Om.**

Qeyd: Birbaşa

$$R=\frac{\varepsilon}{I}-r=\frac{20}{2}-1=9(Om)$$

yazılarsa, 3 balla qiymətləndirilir.

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. $R=\frac{\varepsilon}{I}-r=\frac{20}{2}-1=9\ Om$ və ya 9 yazılıb; B. $R=\frac{\varepsilon}{I}-r=9\ Om$ və ya 9 yazılıb (yəni hesablama hissəsi qeyd ***edilməyib***); C. Düstur $I=\frac{EHQ}{R+r}$ şəklində yazılıb, hesablama və cavab doğrudur; D. Düstur $I=\frac{\varepsilon}{R+r};\varepsilon=I(R+r)$ və ya bu düsturun başqa formaları yazılıb, hesablama və cavab doğrudur; E. Düsturda ε əvəzinə ε_i (induksiya EHQ-si) yazılaraq hesablama aparılıb və cavab (9 *Om* və ya 9) tapılıb;
$\frac{2}{3}$ bal	F. $R=\frac{\varepsilon}{I}-r=\frac{20}{2}-1$ yazılıb, lakin sonda mexaniki ***səhvə*** yol verilərək 9 *Om* və ya 9-dan fərqli nəticə alınıb (yəni başqa kəmiyyətin vahidi yazılıb ya da hesablamada ***səhvə*** yol verilib); G. $R=\frac{20}{2}-1=9Om$ və ya 9 yazılıb(yəni düstur qeyd ***edilməyib***);
$\frac{1}{3}$ bal	H. Yalnız düstur ($I=\frac{\varepsilon}{R+r}$ və ya $R=\frac{\varepsilon}{I}-r$) yazılıb, həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; I. Meyarın iki ballıq bəndinə uyğun həll zamanı bir ***mexaniki səhvə*** yol verilib;
0 bal	J. Başqa tapşırığın həlli yazılıb; K. Birbaşa cavab (9 *Om* və ya 9) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; L. ***Səhvən*** $R=\frac{U}{I}=\frac{20}{2}=10$ (və ya $\frac{20}{2}=10$ və s.) yazılıb; M. Digər bütün hallarda.

Tapşırıq 11-ci sinifdə tədris edilən “Müxtəlif mühitdə elektrik cərəyanı” və “Sabit cərəyan qanunları” mövzularına aiddir. Tapşırıq vasitəsilə abituriyentlərin “Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar” məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*) və “Eksperimental fizika və müasir həyat” məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir)* alt standartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 40,88%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 1,63%-i $\frac{2}{3}$ balla, 1,63%-i $\frac{1}{3}$ balla, 10,34% -i 0 balla qiymətləndirilib, 45,53%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün tam dövrə üçün Om qanunundan – $I=\frac{\varepsilon}{R+r}$ ifadəsindən R müqavimətini tapıb hesablamaq lazımdır.

60. ***Həlli:***

I üsul.

$$P=I^2R=2^2\cdot 9=36\ (Vt)$$

II üsul.

$$U=\varepsilon-Ir=20-2\cdot 1=18\,V,\ P=I\cdot U=2\cdot 18=36\,Vt$$

III üsul.

$$U=IR=2\cdot 9=18\,V,\ P=\frac{U^2}{R}=\frac{18^2}{9}=36\,Vt$$

Doğru cavab: 36 Vt.

Qeyd: Əvvəlki tapşırıqda müqavimət düzgün ***hesablanmayaraq*** bu tapşırıqda uyğun yerdə istifadə olunarsa şagirdin balına ***təsir etmir***.

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. $P=I^2R=2^2\ 9=36\ Vt$ və ya 36 yazılıb; B. $P=I^2R=36Vt$ və ya 36 (yəni hesablama hissəsi qeyd ***edilməyib)***; C. Əvvəlki tapşırıqda müqavimət 9 Om-dan fərqli nəticə alınıb və bu tapşırıqda düzgün yerdə istifadə edilərək güc hesablanıb (məsələn, əvvəki tapşırıqda ***səhvən*** $R=10\ Om$ olduğu tapılıb və $P=I^2R=2^2\ 10=40\ Vt$ hesablanıb)
$\frac{2}{3}$ bal	D. $P=I^2R=2^2\ 9$ yazılıb, lakin sonda 36 Vt və ya 36-dan fərqli nəticə alınıb (yəni sonda başqa kəmiyyətin vahidi yazılıb, ya da hesablamada ***səhvə*** yol verilib); E. $P=2^2\ 9=36\ Vt$ və ya 36 yazılıb (yəni düstur qeyd ***edilməyib)***;
$\frac{1}{3}$ bal	F. Yalnız düstur ($P=I^2R,\ P=I\cdot U$ və ya $P=\frac{U^2}{R}$) yazılıb, həll prosesinin davamı *yoxdur* və ya tamamilə *yanlışdır*; G. Meyarın $\frac{2}{3}$ ballıq bəndinə uyğun həll zamanı bir ***mexaniki səhvə*** yol verilib; H. Müqavimətin qiyməti əvvəlki tapşırığa əsasən ***səhv*** hesablanaraq, düstur ***yazılmadan*** hesablama aparılmış və ***uyğun*** cavab alınmışdır;
0 bal	I. Başqa tapşırığın həlli yazılıb; J. Birbaşa cavab (36Vt və ya 36) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; K. Digər bütün hallarda.

Tapşırıq 11-ci sinifdə tədris edilən "Müxtəlif mühitdə elektrik cərəyanı" və "Sabit cərəyan qanunları" mövzularına aiddir. Tapşırıq vasitəsilə abituriyentlərin "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*) və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır. Abituriyentlərin 33,26%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,77%-i $\frac{2}{3}$ balla, 3,06%-i $\frac{1}{3}$ balla, 13,98%-i 0 balla qiymətləndirilib, 48,93% -i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün güc düsturundan istifadə edərək hesablama aparmaq lazımdır.

Kimya fənnindən ali təhsil müəssisələrinə I və IV ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar fənn kurikulumuna görə 4 **("Maddə və maddi aləm", "Kimyəvi hadisələr", "Eksperiment və modelləşdirmə", "Kimya və həyat")** məzmun xətti üzrə 10 əsas və 33 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanlarında aşağıdakı bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

1. Maddələrin Beynəlxalq və tarixi (trivial) adlandırılması;
2. Qeyri-üzvi və üzvi maddələrin tərkibi və xassələrinə görə təsnifatı;
3. Atomun quruluşu, valentlik, kimyəvi elementlərin oksidləşmə dərəcəsi və ionların yükünün, kimyəvi rabitələrin və kristal qəfəslərin tipinin, quruluş formuluna görə izomerliyin və homoloqların, suda məhlulların mühitinin, oksidləşdirici və reduksiyaediciliyinin müəyyən edilməsi;
4. D.İ.Mendeleyevin dövri sisteminə və atomun quruluşuna əsasən kimyəvi elementlərin və onların birləşmələrinin kimyəvi xassələrinin xarakterizə edilməsi;
5. Kimyəvi tarazlığa və reaksiya sürətinə təsir edən amillərin xarakterizə edilməsi;
6. Oksidləşmə-reduksiya reaksiyalarının tənliklərinin əmsallaşdırılması;
7. İon-mübadilə reaksiyalarının tam və qısa ion tənliklərinin tərtib olunması;
8. Maddələrin kimyəvi xassələrinin dəyişməsi qanunauyğunluğunun, kimyəvi reaksiyaların mahiyyətinin izah edilməsi;
9. Kimyəvi formullara və tənliklərə görə hesablamalar aparılması.

Test bloklarında tapşırıqların bölmələr üzrə paylanması aşağıdakı kimi olub:

I ixtisas qrupu üzrə 11-"Ümumi kimya", 10-"Qeyri-üzvi kimya", 9-"Üzvi kimya";

IV ixtisas qrupu üzrə 9-"Ümumi kimya", 10-"Qeyri-üzvi kimya", 11-"Üzvi kimya".

Tapşırıqların bölmələr üzrə paylanması zamanı məktəb kimya kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və hər iki ixtisas qrupunun peşə xüsusiyyətləri nəzərə alınıb. İmtahanlarda nəzəri biliklərin tətbiqinə, məntiqi düşüncəyə əsaslanan, kimyəvi hadisə və proseslərin mahiyyətinin dərkinə yönəlmiş cədvəl, qrafik və sxem formalı tapşırıqlara üstünlük verilib. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədi ilə test bloklarına qabiliyyət göstəricilərinə görə: terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, proqnozlaşdırma və təklif olunan fəaliyyət tipli, mürəkkəblik dərəcəsinə görə isə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

Qəbul imtahanlarının nəticələrinin statistik göstəriciləri əsasında hər bir test tapşırığı məzmun, mürəkkəblik dərəcəsi və qabiliyyət göstəriciləri baxımından təhlil edilmişdir.

Təhlil onu göstərir ki, bu il də abituriyentlərin nəticələri əvvəlki illərlə müqayisədə I ixtisas qrupuna nisbətən IV ixtisas qrupu üzrə yaxşı olmuşdur. Bununla yanaşı, abituriyentlərin müəyyən qismi I ixtisas qrupu üzrə "Məhlullar", "Oksidləşmə-reduksiya reaksiyaları", "Atomun quruluşu", "Kimyəvi rabitə", "Metallar", "Karbohidrogenlər", "Spirtlər", "Karbohidratlar", "Mürəkkəb efirlər", "Aminturşular", "İrimolekullu birləşmələr", IV ixtisas qrupu üzrə isə "Metalların və birləşmələrinin kimyəvi xassələri", "Kükürd", "Karbon", "Karbohidrogenlər", "Azot və onun birləşmələri" mövzularına aid tapşırıqlara cavab verməkdə çətinlik çəkiblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

11-ci sinif

1.3.1. Oksigenli, azotlu üzvi birləşmələrin və polimerlərin tərkibinə, quruluşuna aid hesablamalar aparır, təqdimatlar edir.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 62 saylı test tapşırığı

İkili spirt	Molekulunda	
	ən uzun zəncirdə karbon atomlarının sayı	birli karbon atomlarının sayı
$C_5H_{11}OH$	4	x

x-i müəyyən edin.

A) 5 B) 3 C) 4 D) 2 E) 1

11-ci sinifdə tədris olunan "Spirtlər" mövzusuna aid bu tapşırığa abituriyentlərin 23,64%-i doğru cavab verib, 29,60%-i cavab verməkdən imtina edib. Tapşırıq biratomlu spirtlərin quruluş formullarını araşdırmaq kimi bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün spirtin quruluş formulunu yazmaq və onun əsasında birli karbon atomlarının sayını müəyyən etmək lazımdır. Ən uzun zəncirində 4 karbon atomu olan $C_5H_{11}OH$ spirtinin molekulunda ən uzun karbon zəncirinə bir ədəd metil qrupu birləşməlidir. Bu zaman birli karbon atomlarının sayı 3 olur.

Məsələn, C-C-C-C-OH
                  |
                  C

Doğru cavab: B

9-cu sinif

2.2.1. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

2.2.2. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 70 saylı test tapşırığı

15 kq karbamid almaq üçün neçə m^3 (n.ş.) CO_2 tələb olunur? Məhsulun çıxımı 50%-dir. $M_r(CO(NH_2)_2)$ =60

A) 5,6 B) 22,4 C) 44,8 D) 33,6 E) 11,2

9-cu sinifdə tədris olunan "Mineral gübrələr" mövzusuna aid bu tapşırığa abituriyentlərin 23,50 %-i doğru cavab verib, 41,41 %-i cavab verməkdən imtina edib. Tapşırıq reaksiya tənliklərini tərtib etmək və onun əsasında hesablama aparmaq kimi bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün karbamidin alınma reaksiyasının tənliyini yazıb onun əsasında hesablama aparmaq lazımdır.

$V_{nəz}$ *l* $15\cdot10^3$ q

$CO_2 + 2NH_3 \rightarrow CO(NH_2)_2 + H_2O$

22,4 *l* 60 q

$V_{nəz}$ =5600 *l* =5,6 m^3 ;

5,6 m^3 ------ 50 %

V_{pr} ------- 100 %; V_{pr} =11,2 m^3

Doğru cavab: E

9-cu sinif

2.2.1. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 80 saylı test tapşırığı

$Al(NO_3)_3 \xrightarrow{t} X+Y+Z$

Maddələr	Molekulunda atomların sayı
X	3
Y	2
Z	5

Hansı maddələr NaOH-ın suda məhlulu ilə reaksiyaya daxil olar?

A) yalnız Z B) X, Y C) X, Z D) Y, Z E) yalnız Y

9-cu sinifdə tədris olunan "Nitrat turşusu" mövzusuna aid bu tapşırığa abituriyentlərin 23,79%-i doğru cavab verib, 40,63 %-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün $Al(NO_3)_3$-ün termiki parçalanma məhsullarını və bu maddələrin kimyəvi xassələrini bilmək lazımdır.

$Al(NO_3)_3 \xrightarrow{t} X(NO_2) + Y(O_2) + Z(Al_2O_3)$

NaOH-ın suda məhlulu ilə X və Z maddələri reaksiyaya daxil olur.

Doğru cavab: C

9-cu sinif

2.2.2. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 83 saylı test tapşırığı

Sink lövhəni qurğuşun (II) nitrat məhluluna saldıqda onun kütləsi 28,4 qram artmışdır. Bu zaman neçə qram sink reaksiyaya daxil olmuşdur? A_r(Zn)=65, A_r(Pb)=207

9-cu sinifdə tədris olunan "Metallar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 11,75%-i doğru cavab verib, 64,49%-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün sink lövhənin qurğuşun(II) nitrat məhlulu ilə reaksiyasının tənliyini yazıb onun əsasında hesablama aparmağı bacarmaq lazımdır.

$Zn + Pb(NO_3)_2 \rightarrow Zn(NO_3)_2 + Pb$

65q 207q

65 q Zn reaksiyaya daxil olduqda ——— lövhənin kütləsi 207-65=242 q artır

x q Zn reaksiyaya daxil olduqda ——— lövhənin kütləsi 28,4 q artır

x=13 q

Doğru cavab: 13

9-cu sinif

2.2.2. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

4 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 86 saylı test tapşırığı

Y-in nisbi atom kütləsini müəyyən edin. A_r(S)=32

9-cu sinifdə tədris olunan "Kükürd" mövzusuna aid bu tapşırığa abituriyentlərin 19,37%-i doğru cavab verib, 53,60 %-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün qrafik əsasında formul üzrə hesablama aparmaq lazımdır.



0,1 mol Y olan --------- Y_2S_5- in kütləsi 11,1 qramdır

2 mol Y olan --------- Y_2S_5- in kütləsi M qramdır

$M_r(Y_2S_5)=222$; $2A_r(Y)=222-5\cdot32=62$; $A_r(Y)=31$

Doğru cavab: 31

9-cu sinif

2.2.1. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 70 saylı test tapşırığı

Hansı ifadələr natrium-karbonat üçün doğrudur?

1. Kalium-hidroksid ilə reaksiyaya daxil olur
2. Xlorid turşusu ilə reaksiyaya daxil olduqda qaz ayrılır
3. Suda yaxşı həll olur
4. Qızdırıldıqda ərimədən parçalanır
5. Qızdırıldıqda silisium-dioksid ilə reaksiyaya daxil olur

A) 1, 4, 5 B) 1, 2, 4 C) 1, 2, 3

D) 2, 3, 5 E) 3, 4, 5

9-cu sinifdə tədris olunan "Karbon" mövzusuna aid bu tapşırığa abituriyentlərin 22,96%-i doğru cavab verib, 33,95 %-i cavab verməkdən imtina edib. Tapşırıq karbonat duzlarının kimyəvi xassələrinə aid bilik və bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün natrium-karbonatın kimyəvi xassələrini izah etməyi bacarmaq lazımdır.

1. Kalium-hidroksid ilə reaksiyaya daxil olur – doğru deyil
2. Xlorid turşusu ilə reaksiyaya daxil olduqda qaz ayrılır – **doğrudur**
3. Suda yaxşı həll olur – **doğrudur**
4. Qızdırıldıqda ərimədən parçalanır – doğru deyil
5. Qızdırıldıqda silisium-dioksid ilə reaksiyaya daxil olur **– doğrudur**

Doğru cavab: D

11-ci sinif

1.1.1. Maddələrin (oksigenli, azotlu üzvi birləşmələr və polimerlərin) tərkibini, quruluşunu, fiziki xassələrini şərh edir, təqdimatlar hazırlayır.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 83 saylı test tapşırığı

Hansı liflərin alınmasında monomer kimi ikiəsaslı karbon turşularından istifadə olunur?

1. Kapron 2. Neylon 3. Lavsan 4. Enant

11-ci sinifdə tədris olunan "İrimolekullu birləşmələr" mövzusuna aid bu tapşırığa abituriyentlərin

22,87%-i doğru cavab verib, 29,19%-i cavab verməkdən imtina edib. Tapşırıq irimolekullu birləşmələrin alınmasına aid bilik və bacarıqları yoxlamağa imkan verir.

Tapşırığı yerinə yetirmək üçün hansı liflərin alınmasında monomer kimi ikiəsaslı karbon turşularından istifadə olunduğunu bilmək lazımdır. Neylonun alınmasında ikiəsaslı adipin turşusundan ($HOOC-(CH_2)_4-COOH$), lavsanın alınmasında isə ikiəsaslı tereftal turşusundan ($HOOC-C_6H_4-COOH$) istifadə olunur.

Doğru cavab: 2, 3

11-ci sinif

2.2.2. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 84 saylı test tapşırığı

2 mol karbon-monooksidin hidrogenlə reaksiyasından 20% çıxımla neçə qram metanol almaq olar? $M_r(CH3OH)=32$

11-ci sinifdə tədris olunan "Spirtlər" mövzusuna aid bu tapşırığa abituriyentlərin 21,44%-i doğru cavab verib, 44,90%-i cavab verməkdən imtina edib.

Tapşırıq spirtlərin alınması reaksiyalarının tənlikləri əsasında hesablama aparmaq üzrə bilik və bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün metanolun karbon-monooksid və hidrogendən alınma reaksiyasının tənliyini yazmaq və onun əsasında hesablama aparmağı bacarmaq lazımdır.

2 mol $m_{nəz.}$

$CO + 2H_2 \rightarrow CH_3OH$

1 mol 32q

$m_{nəz.}$ =64 q; $m_{pr.}$ = 64·20/100= 12,8 q

Doğru cavab: 12,8

10-cu sinif

1.3.1. Qeyri-üzvi və üzvi birləşmələrin tərkibinə və quruluşuna aid hesablamalar aparır.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 85 saylı test tapşırığı

Etan və etilendən ibarət 20 mol qaz qarışığını tam doymuş hala gətirmək üçün 12 mol H_2 sərf olunub. İlkin qarışıqda etanın həcm payını (%) müəyyən edin.

10-cu sinifdə tədris olunan "Alkenlər" mövzusuna aid bu tapşırığa abituriyentlərin 19,88%-i doğru cavab verib, 55,60%-i cavab verməkdən imtina edib. Tapşırıq alkenlərin hidrogenləşməsi reaksiyalarının tənlikləri əsasında və 7-ci sinifdə tədris olunan "Avoqadro qanunu" mövzusu üzrə qaz qarışığında qazların həcm payını hesablama bacarıqlarını yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün etilenin hidrogenləşmə reaksiyasının tənliyini yazmaq, etilenin həcmini hesablamaq və onun əsasında ilkin qaz qarışığında etanın həcm payını (%) hesablamağı bacarmaq lazımdır. Məlumdur ki, etan birləşmə reaksiyalarına daxil olmur. Deməli, hidrogen yalnız etilenin hidrogenləşməsinə sərf olunmuşdur.

X mol 12 mol

$C_2H_4 + H_2 \rightarrow C_2H_6$

1 mol 1 mol

$x = V(C_2H_4)_{ilk} = 12$ mol; $V(C_2H_6)_{ilk}= 20–12= 8$ mol ; $\omega(C_2H_6)_{ilk}= 8·100/20= 40\%$

Doğru cavab: 40

8-ci sinif

1.2.1. Atomun quruluşunu, kimyəvi rabitələri, elektrolit məhlulunda baş verən prosesləri şərh edir.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 86 saylı test tapşırığı

Əsas yarımqrup elementləri	Atomun xarici elektron təbəqəsindəki elektronların sayı	
	3*s*	3*p*
X	1	0
Y	2	5

X və Y elementlərindən əmələ gələn birləşmənin bir molunda neçə mol elektron vardır?

8-ci sinifdə tədris olunan "Atomun quruluşu" mövzusuna aid bu tapşırığa abituriyentlərin 19,97 %-i doğru cavab verib, 49,96 %-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün elektron formulu əsasında elementlərin valentliyini müəyyən etmək, əmələ gətirdiyi birləşmənin formulunu yazmaq və onun əsasında elektronların sayını müəyyənləşdirməyi bacarmaq lazımdır.

Verilənlərə görə elementlərin elektron formulları aşağıdakı kimi olar.

X $1s^2 2s^2 2p^6 3s^1$; $N_{\bar{e}} = 11$

Y $1s^2 2s^2 2p^6 3s^2 3p^5$; $N_{\bar{e}} = 17$

X qələvi metal, Y halogendir. Birləşmənin formulu –XY.

$N_{\bar{e}}(XY) = 11+17=28$

Doğru cavab: 28

9-cu sinif

2.2.1. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

5 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 87 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

Yanma reaksiyasının məhsulları	Maddələr
1. Peroksid 2. Oksid 3. Superoksid	a. K b. Ca c. Cl_2 d. Li e. Na

9-cu sinifdə tədris olunan "Qələvi metallar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 20,09%-i doğru cavab verib, 29,61%-i cavab verməkdən imtina edib. Tapşırıq qələvi metalların kimyəvi xassələrinə aid bilik və bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün qələvi metalların oksigendə yanma reaksiyalarının tənliklərini yazmağı bacarmaq lazımdır.

a. $K + O_2 \rightarrow KO_2$

b. $2Ca + O_2 \rightarrow 2CaO$

c. $Cl + O_2 \rightarrow$ getmir

d. $4Li + O_2 \rightarrow 2Li_2O$

e. $2Na + O_2 \rightarrow Na_2O_2$

Doğru cavab: 1-e; 2-b, d; 3-a

10-cu sinif

1.1.1. Maddələrin (qeyri-üzvi və üzvi) tərkibini, quruluşunu, fiziki xassələrini şərh edir, təqdimatlar hazırlayır.

5 iyun tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 54 saylı test tapşırığı

2-metilbutandan C−C rabitələrinin qırılması ilə maksimum neçə fərqli alkil radikalı alına bilər?

10-cu sinifdə tədris olunan "Alkanlar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 22,98%-i doğru cavab verib, 19,61%-i cavab verməkdən imtina edib.

Tapşırıq alkanların quruluşu və alkil radikallara aid bilik və bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün 2-metilbutanın quruluş formulunu yazıb, radikallara ayırmağı bacarmaq lazımdır.



Deməli, 2-metilbutandan C-C rabitələrinin qırılması ilə maksimum 5 fərqli alkil radikalı alına bilər: metil, etil, izopropil, ikili butil, izobutil.

Doğru cavab: 5

10-cu sinif

2.2.1. Qeyri-üzvi birləşmələr və üzvi birləşmələrə (karbohidrogenlərə) aid reaksiyaların tənliklərini tərtib edir.

5 iyun tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 56 saylı test tapşırığı



X maddəsinin 1 molunda cəmi neçə mol atom var?

10-cu sinifdə tədris olunan "Alkanlar" və 11-ci sinifdə tədris olunan "Spirtlər" mövzularına aid bu tapşırığa abituriyentlərin 24,77%-i doğru cavab verib, 33,21%-i cavab verməkdən imtina edib.

Tapşırıq alkanların quruluşu, alkil radikalları və spirtlərin alınmasına aid bilik və bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün alkanların və spirtlərin alınma reaksiyalarının tənliklərini yazmağı bacarmaq lazımdır. CH_3OH hidrogenin CO (Z) ilə reaksiyasından, CO suyun CH_4(Y) ilə reaksiyasından, CH_4 isə NaOH-ın natrium-asetatın (X – CH_3COONa) ilə reaksiyasından alınır. Göründüyü kimi, X maddəsinin (CH_3COONa) 1 molunda cəmi 8 mol atom var.

Doğru cavab: 8

11-ci sinif

1.1.1. Maddələrin (oksigenli, azotlu üzvi birləşmələr və polimerlərin) tərkibini, quruluşunu, fiziki xassələrini şərh edir, təqdimatlar hazırlayır.

5 iyun tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 57 saylı test tapşırığı

Riboza → Ribit çevrilməsi üçün uyğunluğu müəyyən edin.

1. Artan	a. ikili karbon atomlarının sayı
2. Azalan	b. asimmetrik karbon atomlarının sayı
3. Dəyişməyən	c. π rabitələrin sayı
	d. karbon atomlarının hibrid orbitalların sayı
	e. karbonun kütlə payı

11-ci sinifdə tədris olunan "Karbohidratlar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 2,25%-i doğru cavab verib, 32,46%-i cavab verməkdən imtina edib.

Tapşırıq karbohidratların kimyəvi xassələri və quruluşuna aid bilik və bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün riboza və ribitin quruluş formullarını yazmağı və quruluşunu izah etməyi bacarmaq lazımdır.

CH_2OH-C^*HOH-C^*HOH-C^*HOH-CHO ; CH_2OH-C^*HOH-CHOH-C^*HOH-CH_2OH

1. Artan	a. ikili karbon atomlarının sayı - dəyişmir
2. Azalan	b. asimmetrik karbon atomlarının sayı - azalır
3. Dəyişməyən	c. π rabitələrin sayı - azalır
	d. karbon atomlarının hibrid orbitallarının sayı - artır
	e. karbonun kütlə payı – azalır

Doğru cavab: 1-d; 2-c, e; 3-a, b

11-ci sinif

1.3.1. Oksigenli, azotlu üzvi birləşmələrin və polimerlərin tərkibinə, quruluşuna aid hesablamalar aparır, təqdimatlar edir.

21 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 68 saylı test tapşırığı

Nisbi molekul kütləsi bərabər olan doymuş biratomlu spirtlə doymuş birəsaslı karbon turşusunun reaksiyasından alınan mürəkkəb efirin nisbi molekul kütləsi 74-dür. Turşunun formulunu müəyyən edin. $A_r(C)=12$, $A_r(H)=1$, $A_r(O)=16$

A) CH_3COOH B) C_2H_5COOH C) $HCOOH$

D) C_3H_7COOH E) C_4H_9COOH

11-ci sinifdə tədris olunan "Mürəkkəb efirlər" mövzusuna aid bu tapşırığa abituriyentlərin 18,05%-i doğru cavab verib, 39,75 %-i cavab verməkdən imtina edib.

Tapşırıq mürəkkəb efirlərin alınması və quruluşuna aid bilikləri, həmçinin formullar əsasında hesablama aparmaq bacarıqlarını yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün mürəkkəb efirlərin alınması və formulu əsasında hesablama aparmağı bacarmaq lazımdır.

$M(C_nH_{2n+2}O) + M(C_mH_{2m}O_2) = 74 + 18$

$14n+18 + 14m+32 = 92$; $14n + 14m = 42$; $n+m = 3$ doymuş biratomlu spirtin və doymuş birəsaslı karbon turşusunun nisbi molekul kütləsi bərabər olduğundan, turşuda karbon atomlarının sayı az olmalıdır. Onda, m=1. Bu qarışqa turşusudur - HCOOH.

Doğru cavab: C

11-ci sinif

1.3.1. Oksigenli, azotlu üzvi birləşmələrin və polimerlərin tərkibinə, quruluşuna aid hesablamalar aparır, təqdimatlar edir.

21 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 73 saylı test tapşırığı

Eyni aminturşunun əmələ gətirdiyi dipeptidin nisbi molekul kütləsi 132-dir. Aminturşunun nisbi molekul kütləsini hesablayın. $M_r(H_2O)=18$

A) 117 B) 103 C) 131 D) 89 E) 75

11-ci sinifdə tədris olunan "Aminturşular" mövzusuna aid bu tapşırığa abituriyentlərin 25,05%-i doğru cavab verib, 61,37%-i cavab verməkdən imtina edib.

Tapşırıq dipeptidlərin alınması və quruluşuna aid bilikləri, həmçinin formullar əsasında hesablama aparmaq bacarıqlarını yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün dipeptidlərin alınması və formulu əsasında hesablama aparmağı bacarmaq lazımdır. Bir mol dipeptid alındıqda bir mol su alınır. Deməli,

2M(aminturşu) = 132 + 18= 150; M(aminturşu) = 75

Doğru cavab: E

8-ci sinif

1.2.1. Atomun quruluşunu, kimyəvi rabitələri, elektrolit məhlulunda baş verən prosesləri şərh edir.

21 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 87 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

Molekulunda kimyəvi rabitələrin əmələ gəlməsində iştirak edən elektronların sayı

1. İki
2. Dörd
3. Altı

Maddələr

a. HF b. N_2 c. H_2O d. H_2 e. O_2

8-ci sinifdə tədris olunan "Kimyəvi rabitə" mövzusuna aid açıq tipli bu tapşırığa abituriyentlərin 20,46%-i doğru cavab verib, 36,36%-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün kimyəvi rabitənin yaranma mexanizmini bilmək və onun əsasında ümumiləşmə aparmağı bacarmaq lazımdır.

a. HF - iki elektron; b. N_2 - altı elektron; c. H_2O - dörd elektron;

d. H_2 - iki elektron; e. O_2 - dörd elektron

Doğru cavab: 1-a, d; 2-c, e; 3-b

9-cu sinif

2.2.2. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

21 iyul tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 38 saylı test tapşırığı

Yandırılan maddələr	Kütləsi (q)	Tam yanmasından alınan SO_2-in mol miqdarı	Reaksiyanın praktiki çıxımı(%)
S	*m*	*n*	*a*
ZnS	*m*	*n*	*b*
FeS_2	*m*	*n*	*c*

a, *b* və *c*-ni müqayisə edin. $A_r(Fe)=56$, $A_r(Zn)=65$, $A_r(S)=32$

A) *a>b>c* B) *b>c>a* C) *b>a>c*

D) *c>b>a* E) *a=b=c*

9-cu sinifdə tədris olunan "Kükürd" mövzusuna aid bu tapşırığa abituriyentlərin 29,25 %-i doğru cavab verib, 25,29 %-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün verilmiş maddələrin yanma reaksiyalarının tənliklərini yazıb onlar əsasında hesablama aparmaq lazımdır.

$M_r(ZnS)=65+32=97$; $M_r(FeS_2)=56+64=120$

$S + O_2 \rightarrow SO_2$

32 q 1 mol

$2ZnS + 3O_2 \rightarrow 2ZnO + 2SO_2$

97 q 1mol

$4FeS_2 + 11O_2 \rightarrow 2Fe_2O_3 + 8SO_2$

60 q 1mol

Göründüyü kimi, b>c>a

Doğru cavab: B

8-ci sinif

2.2.2. Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

21 iyul tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 39 saylı test tapşırığı

Duzların nisbi molekul kütlələrinin azalma sırası $M_r(Z)>M_r(Y)>M_r(X)$ olarsa, *a*, *b* və *c*-ni müəyyən edin.



	a	b	c
A)	1	0,5	2
B)	2	1	0,5
C)	0,5	1	2
D)	1	2	0,5
E)	2	0,5	1

8-ci sinifdə tədris olunan "Qeyri-üzvi birləşmələrin mühüm sinifləri" mövzusuna aid bu tapşırığa abituriyentlərin 24,94%-i doğru cavab verib, 18,41%-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün duzların təsnifatını bilmək və onların alınma reaksiyaları əsasında hesablama aparmaq lazımdır.

Məlumdur ki, $Mg(OH)_2$ ilə H_2SO_4 arasında baş verən reaksiyalarda nisbətdən asılı olaraq üç duz alına bilər:

$Mg(OH)_2 + H_2SO_4 \rightarrow MgSO_4 + 2H_2O$

$Mg(OH)_2 + 2H_2SO_4 \rightarrow Mg(HSO_4)_2 + 2H_2O$

$Mg(OH)_2 + 0,5H_2SO_4 \rightarrow 0,5(MgOH)_2SO_4 + H_2O$

$M_r(Mg(HSO_4)_2) > M_r((MgOH)_2SO_4) > M_r(MgSO_4)$; Deməli, a=1, b=0,5, c=2

Doğru cavab: A

5 iyun tarixli imtahan, IV ixtisas qrupu, A variantı, situasiyaya aid 58-60 saylı tapşırıqlar

Laboratoriyada təmiz $CaCO_3$ duzu qızdırılır. Qızdırılma zamanı duzun tam parçalanması baş vermir. Təcrübənin sonunda qabdakı bərk qalıq artıq miqdar xlorid turşusu əlavə edilməklə tam həll edilir. Parçalanma reaksiyası zamanı parçalanan və alınan maddələrin kütlələrinə əsasən aşağıdakı qrafik qurulur.



58. X və Y-in formulunu yazın.

***İzah*:** Qrafikə əsasən X və Y əmələ gələn maddələrdir, eyni zamanda X-in kütləsi Y-in kütləsindən çoxdur.

$CaCO_3 \rightarrow CaO + CO_2$

Reaksiya tənliyindən göründüyü kimi, kalsium-karbonatın parçalanması zamanı əmələ gələn məhsullarından kalsium-oksidin kütləsi (Mr(CaO)=56) karbon-qazının kütləsindən ($Mr(CO_2)=44$) çox olur. Yəni X – CaO (kalsium-oksid), Y – CO_2 (karbon qazı).

Doğru cavab*: *X – CaO, Y – CO_2

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. X və Y maddələrinin hər ikisinin formulu doğru yazılıb, səhv cavab ***yazılmayıb***.
$\frac{1}{2}$ bal	B. X və Y maddərindən hər hansı birinin formulu doğru yazılıb, digəri yazılmayıb və ya səhv yazılıb; C. X və Y maddərindən hər hansı biri üçün yalnız doğru, digəri üçün həm doğru, həm də səhv cavab yazılıb;
0 bal	D. X və Y maddərindən hər ikisi üçün həm doğru, həm də səhv cavab yazılıb; E. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Maddə və maddi aləm" məzmun xəttinin 9_1.1.1.(*Maddələrin (metallar, qeyri-metallar və onların birləşmələri, sadə üzvi birləşmələr) quruluşunu, fiziki xassələrini şərh edir*) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 48,31%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 5,16%-i $\frac{1}{2}$ balla, 15,76%-i 0 balla qiymətləndirilib, 30,77%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

59. Qrafikə əsasən a və b-ni, götürülmüş duzun kütləcə neçə faizinin parçalandığını hesablayın. A_r(Ca)=40, A_r(C)=12, A_r(O)=16

İzah:

a CO2-nin kütləsini, b isə $CaCO_3$-ın başlanğıc kütləsini göstərir.

a-nın kütləsini aşağıdakı üsullardan biri ilə hesablamaq olar:

I üsul.

1 mol kalsium-karbonat parçalandıqda $CaCO_3 \rightarrow CaO + CO_2$ alınan CaO (Mr(CaO)=56) və CO_2-nin (Mr(CO2)=44) kütlə fərqi 56-44=12 q olur. Qrafikə əsasən isə CaO və CO_2-nin kütlə fərqi a+2.4-a=2.4 q-dır.

Yuxarıdakılara əsasən CO_2-nin kütləsi hesablanır:

Məhsulların kütlə fərqi 12 q – Alınan CO_2-nin kütləsi 44 q

Məhsulların kütlə fərqi 2,4 q – Alınan CO_2-nin kütləsi a q; a=8,8 q (CO_2)

II üsul.

a+ 2,4—— a

$CaCO_3 \rightarrow CaO + CO_2$

56q——44q ; a=8,8 q (CO_2)

Parçalanan $CaCO_3$-ın kütləsini aşağıdakı üsullardan biri ilə hesablamaq olar:

I üsul.

Məhsulların kütlə fərqi 12 q——— parçalanan $CaCO_3$ 100 q

Məhsulların kütlə fərqi 2,4 q——— parçalanan $CaCO_3$ m q ; m=20 q $CaCO_3$ parçalanıb

II üsul.

44 q CO_2 alındıqda———100 q $CaCO_3$ parçalanır

8,8 q CO_2 alındıqda———m q $CaCO_3$ parçalanır ; m=20 q $CaCO_3$ parçalanıb

Parçalanmayan $CaCO_3$-ın kütləsini tapmaq üçün a-3,8 ifadəsinin qiymətini tapmaq lazımdır.

a= 8,8 q

Onda, 8,8-3,8=5 q parçalanmayan $CaCO_3$-ın kütləsi olacaq.

b-ni müəyyən etmək üçün $CaCO_3$-ın parçalanan və parçalanmayan kütlələrini cəmləmək lazımdır.

b= 20+5=25q

Götürülmüş duzun ($CaCO_3$) neçə faizinin parçalandığı hesablanır: 20/25·100%=80%

Doğru cavab: a=8,8; b=25; 80 %

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. a, b və faizin hər üçü üçün doğru hesablamalar aparılıb və hər üçünün düzgün cavabı tapılıb, ***səhv*** cavab ***yazılmayıb***.
$\frac{2}{3}$ bal	B. a, b və faizdən istənilən 2-si üçün doğru hesablamalar aparılıb və düzgün cavabları tapılıb, 3-cü, ümumiyyətlə, tapılmayıb və ya səhv tapılıb.
$\frac{1}{3}$ bal	C. a, b və faizdən istənilən 1-i üçün doğru hesablama aparılıb və düzgün cavab tapılıb, digər 2-si, ümumiyyətlə, tapılmayıb və ya səhv tapılıb.
0 bal	D. Həll üsulları yazılmadan birbaşa cavablar yazılıb. E. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Kimyəvi hadisələr" məzmun xəttinin 9_2.2.2. (*Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır*) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 17,17%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 2,25%-i $\frac{2}{3}$ balla, 7,22%-i $\frac{1}{3}$ balla, 23,64%-i 0 balla qiymətləndirilib, 49,72%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

60. Parçalanmayan duzun tam reaksiyasına sərf olunan 200 ml HCl məhlulunun molyar qatılığını (mol/l) (1) və bu zaman ayrılan qazın normal şəraitdə həcmini (litrlə) (2) hesablayın.

İzah:

1. Parçalanmayan (5 q) $CaCO_3$-ın tam reaksiyasına sərf olunan HCl məhlulunun molyar qatılığının hesablanması:

5 q —— x mol

$CaCO_3 + 2HCl \rightarrow CaCl_2 + CO_2 + H_2O$

100 q——2 mol; x=0.1 mol (HCl)

$C = \frac{\gamma}{\nu} \cdot 1000$; $C = \frac{0,1}{200} \cdot 1000 = 0.5 \frac{mol}{l}$

2. Ayrılan qazın (CO_2) n.ş.-da həcminin hesablanması:

5 q ——————————— y *l*

$CaCO_3 + 2HCl \rightarrow CaCl_2 + CO_2 + H_2O$

100 q———————————22,4 *l* ; x= 1,12 *l* (CO_2)

və ya

0,1 mol————— y *l*

$CaCO_3 + 2HCl \rightarrow CaCl_2 + CO_2 + H_2O$

2 mol———————22,4 *l*; x= 1.12 l (CO_2)

Doğru cavab: 1-0,5; 2-1,12

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Reaksiya tənliyi düzgün tərtib olunub, əmsallaşdırılıb, HCl məhlulunun molyar qatılığı və (CO_2) n.ş.-da həcminin tapılması üçün doğru hesablamalar aparılıb və düzgün cavab tapılıb, ***səhv*** cavab ***yazılmayıb***.
$\frac{2}{3}$ bal	B. Reaksiya tənliyi düzgün tərtib olunub, əmsallaşdırılıb, HCl məhlulunun molyar qatılığı və (CO_2) n.ş.-da həcminin tapılması üçün doğru hesablamalar aparılıb, hər hansı birinin cavabı doğru tapılıb, digərinin hesablanması zamanı (vurma, bölmədə) mexaniki səhvə yol verildiyindən düzgün cavab tapılmayıb. C. Reaksiya tənliyi düzgün tərtib olunub, əmsallaşdırma zamanı ***səhvə*** yol verilib, lakin HCl məhlulunun molyar qatılığı və (CO_2) n.ş.-da həcminin tapılması üçün doğru hesablamalar aparılıb və düzgün cavab tapılıb, ***səhv*** cavab ***yazılmayıb***.
$\frac{1}{3}$ bal	D. Reaksiya tənliyi düzgün tərtib olunub, əmsallaşdırılıb, HCl məhlulunun molyar qatılığı və (CO_2) n.ş.-da həcminin tapılması üçün doğru hesablamalar aparılıb, lakin hesablama zamanı (vurma, bölmədə) mexaniki səhvə yol verildiyindən heç birinin düzgün cavabı tapılmayıb. E. Reaksiya tənliyi düzgün tərtib olunub, əmsallaşdırılıb, HCl məhlulunun molyar qatılığı və ya (CO_2) n.ş.-da həcmindən hər hansı birinin tapılması üçün doğru hesablamalar aparılıb, doğru cavab tapılıb, digərinin hesablanması, ümumiyyətlə, aparılmayıb və ya səhv aparılıb. F. Reaksiya tənliyi düzgün tərtib olunub, əmsallaşdırma zamanı ***səhvə*** yol verib, lakin HCl məhlulunun molyar qatılığı və ya (CO_2) n.ş.-da həcmindən hər hansı birinin tapılması üçün doğru hesablamalar aparılıb və düzgün cavab tapılıb, digərinin hesablanması, ümumiyyətlə, aparılmayıb və ya səhv aparılıb.
0 bal	D. Həll üsulları yazılmadan birbaşa cavablar yazılıb. E. Digər bütün hallarda.

Qeyd: *Reaksiya tənliyinin yazılmadığı və ya düzgün yazılmadığı (reaksiyaya daxil olan və alınan maddələrin) istənilən həll üsulu və cavab "0" balla qiymətləndirilir***.**

Qeyd: *Reaksiya tənliyi (reaksiyaya daxil olan və alınan maddələrin) situasiyanın 60-cı sualında yazılmadığı hallarda situasiyanın 58 və 59-cu suallarına baxılır.*

Tapşırıq vasitəsilə "Kimyəvi hadisələr" məzmun xəttinin 9_2.2.2. (*Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır)* alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 16,42%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 1,22%-i $\frac{2}{3}$ balla, 1,88%-i $\frac{1}{3}$ balla, 29,92%-i 0 balla qiymətləndirilib, 50,56%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Situasiya tapşırığı 9-cu sinifdə tədris olunan "Karbon" mövzusuna aid olub, karbonat duzlarının kimyəvi xassələrinə aid bilikləri, qrafiklə işləmə və hesablama aparma bacarıqlarını yoxlamağa imkan verir.

Tapşırıqların yerinə yetirilməsi üçün karbonat duzlarının kimyəvi xassələrini bilmək, qrafiklə işləmək və hesablama aparmağı bacarmaq lazımdır.

"Biologiya" fənnindən qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar "Botanika", "Zoologiya", "İnsan" və "Ümumi biologiya" bölmələrinə aid olmuşdur. Tapşırıqlar (sayına görə) bölmələr üzrə: "Botanika"– 6, "Zoologiya"–6, "İnsan"–8, Ümumi biologiya"–10 kimi paylanıb.

Tapşırıqlar fənn kurikulumuna görə 4 **("Canlıların quruluşu və müxtəlifliyi", "Bioloji proseslər", "İnsan və onun sağlamlığı", "Canlılar və ətraf mühit")** məzmun xətti üzrə 6 əsas standartın və 72 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Test blokuna, canlı aləmdə baş verən bioloji hadisə və proseslərin mahiyyətinin dərk olunmasını tələb edən, bitki və heyvanların təsnifatı, fizioloji və ekoloji xüsusiyyətləri, habelə onların həyat fəaliyyəti sahəsində bilik və bacarıqlarını yoxlayan, ümumiləşdirmə və məntiqi düşüncəyə istinad edərək qazanılmış biliklərin tətbiqinə əsaslanan tapşırıqlar daxil edilib.

Test tapşırıqları ilə abituriyentlərin:

- əsas bioloji qanun və qanunauyğunluqları, canlı varlıqların quruluşu və əlamətlərini, bioloji proses və hadisələrin mahiyyətini, terminologiyanı və insan orqanizminin xüsusiyyətlərini bilmək və başa düşmək;
- bioloji proseslər arasındakı qanunauyğunluqları başa düşmək və təhlil etmək, bioloji məsələləri həll etmək, sxemlər qurmaq, bioloji varlıqların xüsusiyyətlərini müqayisə edərək nəticə çıxarmağı bacarmaq;
- qazanılmış bilik və bacarıqları ətraf mühitin qorunmasında, sağlam həyat tərzinin keçirilməsində tətbiq etmək kimi bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

İmtahan nəticələrinin statistik göstəricilər üzrə təhlili göstərir ki, abituriyentlərin müəyyən hissəsi insanın dayaq-hərəkət aparatı, duyğu orqanları, ekosistemlərdə qida zəncirinin müxtəlif halqalarında yer alan canlıların qidalanma xüsusiyyətləri, çiçəkli bitkilərin təsnifatı, balıqların səciyyəvi əlamətləri, çoxalma və ontogenez proseslərinin xüsusiyyətlərinə aid ümumiləşdirmə, izahat və təklif olunan fəaliyyət xarakterli test tapşırıqlarına yaxşı cavab verib. Bir sıra abituriyentlər isə bakteriyalar aləminin müxtəlif qruplarının səciyyəvi xüsusiyyətləri, örtülütoxumlu bitkilərdə ikiqat mayalanma, insanın ifrazat sistemində baş verən proseslərin mexanizmi, insanın qan dövranı, parazit qurdların həyat dövriyyəsi, fotosintez prosesinin gedişi, məhsuldarlığı və kəmiyyətlərinə dair nəzəri biliklərin tətbiqi tələb olunan, mövzulararası əlaqəyə aid, hesablama xarakterli test tapşırıqlarının yerinə yetirilməsində çətinlik çəkib.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

8-ci sinif

2.1.3. İnsan orqanizmində baş verən bioloji proseslərə dair təcrübələr və riyazi hesablamalar aparır, nəticələrini ümumiləşdirir.

5 iyun tarixli imtahan, A variantı, 13 saylı test tapşırığı

İnsanda kiçik qan dövranını ürək boşluğu ilə bilavasitə əlaqələndirən qan damarlarının sayı qanı ürək boşluğuna daxil edən və çıxaran damarların ümumi sayının neçə faizini təşkil edir?

A) 45,7 B) 37,5 C) 12,5 D) 50 E) 62,5

"Qan-damar sistemi. Tənəffüs sistemi" bölməsinə aid hesablama xarakterli bu tapşırığa abituriyentlərin 33,68%-i doğru cavab verib, 24,95%-i isə cavab verməkdən imtina edib.

Test tapşırığının yerinə yetirilməsi üçün insan ürəyinin quruluşu, onun damarlarla bilavasitə əlaqəsi, hər iki qan dövranında qanın keçdiyi ürək kameraları və damarların yerləşmə ardıcıllığını bilməklə yanaşı, həm də müəyyən riyazi hesablama aparmağı bacarmaq lazımdır. 8-ci sinif "Biologiya" dərsliyində verilmiş materiala görə insanda kiçik qan dövranı ürəyin sağ mədəciyindən başlayıb sol qulaqcığında bitir. Bu dövranda qan sağ mədəcikdən ağciyər kötüyü ilə çıxaraq ağciyərlərə gedir və burada oksigenlə zənginləşərək 4 ağciyər venası ilə bilavasitə ürəyin sol qulaqcığına qayıdır. Deməli, kiçik qan dövranını ürək boşluğu ilə bilavasitə əlaqələndirən qan damarlarının sayı 5-dir. Ümumiyyətlə, qan ürək boşlugüna bilavasitə 6 damarla (4 ağciyər venası, aşağı və yuxarı boş venalar) daxil olur, ürək boşluğundan isə 2 damarla (ağciyər kötüyü və aorta) çıxır. Cəmi: 8 damar.

Beləliklə, 8 – 100%

5 – x % x= 62,5%

Doğru cavab: E

10-cu sinif

1.1.2.

5 iyun tarixli imtahan, A variantı, 23 saylı test tapşırığı

Hüceyrəsində membranlı orqanoidləri olmayan canlılarla bağlı aşağıda verilənlərdən hansı doğru ***deyil*****?**

1. Transkripsiya prosesinə rast gəlinmir.
2. Çoxhüceyrəli nümayəndələri yoxdur.
3. İşığın təsiri ilə qeyri-üzvi maddələrdən üzvi maddələr sintez edən nümayəndələrinə rast gəlinir.
4. Avtotrof nümayəndələri üçün enerji mənbəyi yalnız Günəşdir.
5. Redusent nümayəndələrinə rast gəlinir.

"Fənlərarası əlaqə" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 37,62%-i doğru cavab verib, 15,38%-i isə cavab verməkdən imtina edib.

Test tapşırığının yerinə yetirilməsi üçün 6, 7 və 9-11-ci siniflərin "Biologiya" dərsliklərindəki müvafiq tədris materialını tam öyrənməklə ümumiləşdirmə aparmaq lazımdır. Məlumdur ki, canlı təbiətdə mövcud olan 4 aləmdən yalnız bakteriyalar aləminin nümayəndələrinin hüceyrəsi membranlı orqanoidlərdən məhrumdur. Tapşırığın şərtində verilmiş fikirlərdən hansıların bakteriyalar üçün dögru olub-olmamasını müəyyən etmək olar:

1. Bakteriyalarda həm DNT, həm də RNT molekulları olur. Deməli, onlarda transkripsiya prosesi gedir;

2. Bakteriyalar yalnız birhüceyrəli quruluşa malikdir;
3. Bakteriyaların fotosintezedici nümayəndələri (misal üçün, sianobakteriyalar) mövcuddur;
4. Avtotrof bakteriyalar arasında xemosintezedicilər vardır ki, bunlar üçün enerji mənbəyi Günəş deyil, kimyəvi reaksiyaların enerjisidir;
5. Qida zəncirində bakteriyaların produsent, konsument, həm də redusent nümayəndələri mövcuddur. Beləliklə, bakteriyalarla bağlı dogru olmayan mülahizələr 1 və 4-dür.

Doğru cavab:1, 4

7-ci sinif

2.1.1. İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir.

5 iyun tarixli imtahan, A variantı, 24 saylı test tapşırığı

Hansı qurdların sürfələrinə insanın qan-damar sistemində təsadüf olunur?

1. ankilostoma 2. öküz soliteri 3. lyambliya
4. insan askaridi 5. exinokokk 6. ağ planari

"Qurdlar. Molyuskalar" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 18,76%-i doğru cavab verib, 7,88%-i isə cavab verməkdən imtina edib.

7-ci sinif "Biologiya" dərsliyində tədris olunan müvafiq materialdan məlumdur ki, insan askaridi və ankilostoma sahibini dəyişmədən inkişaf edən sap qurdlardır. Bu qurdların yumurtaları insan orqanizminə düşərkən, onlardan çıxan sürfələr ağciyərlərə qan vasitəsilə nəql edilir. Yastı qurdların nümayəndəsi olan exinokokkun insan bağırsağına düşmüş yumurtalarından çıxan sürfələri də inkişaf edəcəkləri orqanlara qan vasitəsilə nəql olunur. Deməli, bu qurdların sürfələrinə insanın qan-damar sistemində təsadüf olunur. Ağ planari parazit olmayıb, sərbəst həyat tərzi sürür. Lyambliya qurdlara aid deyil, qamçılıların birhüceyrəli parazit nümayəndəsidir. Öküz soliteri aralıq sahibinin – qaramalın qan-damar sistemində olur, insanda isə ona yalnız həzm sistemində təsadüf edilir.

Doğru cavab: 1, 4, 5

7-ci sinif

1.1.2. Canlıların müxtəlifliyi haqqında mülahizələrini şərh edir.

5 iyun tarixli imtahan, A variantı, 27 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.



a. yarasa b. ördəkburun c. delfin
d. qu quşu e. pinqvin

Test tapşırığı "Quşlar. Məməlilər" böməsinə aiddir.

7-ci sinif "Biologiya" dərsliyindəki müvafiq tədris materialına aid bu test tapşırığına abituriyentlərin 22,33%-i doğru cavab verib, 3,85%-i isə cavab verməkdən imtina edib.

Test tapşırığının yerinə yetirilməsi üçün ümumiləşdirmə aparmaq lazımdır. Tapşırığın şərtində adları verilmiş canlılar quşlar və məməlilər siniflərinə mənsubdur. Quşlarda qanad var, lakin tük örtüyü yoxdur. Buna görə də sadalananlar arasında qanada malik, lakin tük örtüyü olmayan canlılar (1) qu quşu və pinqvindir. Qanadlara və eyni zamanda plasentaya malik canlı plasentalı məməlilərin uça bilən nümayəndəsi olan yarasadır (2). Plasentalı məməlilər arasında tük örtüyünə malik olmayan canlıların əksər növləri balinakimilər dəstəsinə aiddir. Bu da sadalananlardan – delfindir (3).

Doğru cavab: 1-d, e; 2-a; 3-c

5 iyun tarixli imtahan, A variantı, situasiyaya aid 28-30 saylı tapşırıqlar

Cədvəldə mayalanmada iştirak edən çiçəkli bitkilərin xromosom dəstləri verilmişdir. Qrafikdə isə çiçəkli bitkinin rüşeym kisəsində spermilər daxil olduqdan sonra hüceyrə sayının (H) zamandan (t) asılı olaraq dəyişilməsi göstərilmişdir. Nəzərə alın ki, əvvəlcə haploid hüceyrə mayalanır. (Vegetativ nüvə rüşeym kisəsinə daxil olmamışdır)

Bitkilər	Xromosom dəstləri
A (♂)	4*n*
B (♀)	2*n*



28. Cavab vərəqindəki cədvəli tamamlayın.

Doğru cavab:

İkiqat mayalanmada bilavasitə iştirak edən hər bir hüceyrənin adı və sayı	Həmin hüceyrələrin xromosom dəstlərinin cəmi (n)
yumurta hüceyrə – 1 mərkəzi hüceyrə – 1spermi – 2	n+2n+2*2n=7n

Bal şkalası	Meyarlar
1 bal	A. İkiqat mayalanmada iştirak edən hər üç növ hüceyrənin adı və sayı, eyni zamanda həmin hüceyrələrin xromosom dəstlərinin cəmi doğru yazılıb, səhv cavab yazılmayıb; B. İkiqat mayalanmada iştirak edən hər üç növ hüceyrənin adı və sayı doğru yazılıb, həmin hüceyrələrin xromosom dəstlərinin cəmi ayrı-ayrılıqda (n, 2n, 4n) yazılıb, ümumi cəm yazılmayıb;
$\frac{2}{3}$ bal	C. İkiqat mayalanmada iştirak edən hər üç növ hüceyrənin adı və sayı, eyni zamanda 2 növ hüceyrəyə aid xromosom dəsti doğru yazılıb; D. İkiqat mayalanmada iştirak edən üç növ hüceyrədən 2-sinin adı və sayı və onlara uyğun xromosom dəstləri doğru yazılıb, 3-cü hüceyrəyə aid məlumatlardan hər hansı biri (sayvə ya xromosom dəsti) səhv yazılıb və ya yazılmayıb;
$\frac{1}{3}$ bal	E. İkiqat mayalanmada iştirak edən hər üç növ hüceyrənin adı və hüceyrələrin xromosom dəstləri doğru yazılıb, lakin həmin hüceyrələrin sayı yazılmayıb və ya səhv yazılıb; F. İkiqat mayalanmada iştirak edən hər üç növ hüceyrənin adı və sayı, eyni zamanda 1 növhüceyrəyə aid xromosom dəsti doğru yazılıb; G. İkiqat mayalanmada iştirak edən hər üç növ hüceyrənin adı və sayı doğru yazılıb, lakinhəmin hüceyrələrin xromosom dəstləri yazılmayıb və ya səhv yazılıb; H. İkiqat mayalanmada bilavasitə iştirak edən hər üç növ hüceyrənin adı və sayı doğru yazılmaqla yanaşı səhv məlumat (endosperm, yumurtalıq, tozcuq, yumurtacıq) da yazılıb; M. İkiqat mayalanmada iştirak edən üç növ hüceyrənin adı və sayı düz, 2 növün xromosom dəsti səhv yazılıb; N. İkiqat mayalanmada iştirak edən üç növ hüceyrənin adı düz, 2 növün sayı səhv yazılıb, 3-cü növ hüceyrənin sayı düz, ancaq xromosom dəstlərinin cəmi 7n şəklində yazılıb;

Bal şkalası	Meyarlar
0 bal	L. İkiqat mayalanmada iştirak edən üç növ hüceyrədən yalnız 1-nin adı, sayı və xromosom dəsti doğru yazılıb, lakin digər 2 hüceyrəyə aid məlumatlar yazılmayıb və ya səhv yazılıb; İ. İkiqat mayalanmada iştirak edən üç növ hüceyrədən yalnız 2-sinin adı və sayı doğru yazılıb, lakin onlara uyğun xromosom dəstləri və 3-cü hüceyrəyə aid məlumatlar yazılmayıb və ya səhv yazılıb; I. İkiqat mayalanmada iştirak edən üç növ hüceyrədən yalnız 2-sinin adı və sayı doğru yazılıb, lakin onlara uyğun xromosom dəstləri və 3-cü hüceyrəyə aid məlumatlar yazılmayıb və ya səhv yazılıb; K. İkiqat mayalanmada iştirak edən üç hüceyrədən yalnız 1-nin adı və sayı doğru yazılıb, lakin xromosom dəsti və digər 2 hüceyrəyə aid məlumatlar yazılmayıb və ya səhv yazılıb; X. İkiqat mayalanmada iştirak edən hər üç növ hüceyrənin adı yazılıb, lakin həmin hüceyrələrin sayı və xromosom dəstləri yazılmayıb və ya səhv yazılıb; Y. İkiqat mayalanmada iştirak edən hər üç növ hüceyrənin adı doğru yazılıb, lakin həmin hüceyrələrin sayı və xromosom dəstləri yazılmayıb və 7n cəm şəklində cavab yazılıb; Z. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 9_2.1.1. (*Bioloji proseslərin mahiyyət və məzmunu ilə bağlı təqdimatlar hazırlayır*) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 30,77%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 5,82%-i $\frac{2}{3}$ balla, 12,10%-i $\frac{1}{3}$ balla, 23,08%-i 0 balla qiymətləndirilib, 28,24%-i isə yazı işini yerinə yetirməkdən imtina edib.

Həlli: Tapşırığın yerinə yetirilməsi üçün 6 və 9-cu siniflərin "Biologiya" dərsliklərindəki müvafiq tədris materialını mənimsəmək lazımdır. Situasiyanın şərtindəki cədvələ əsasən dişi bitki diploid (2n), erkək bitki isə tetraploid (4n) olduğuna görə, ikiqat mayalanmada iştirak edən hüceyrələrin sayı və xromosom dəstləri aşağıdakı kimi olacaq: 1 yumurta hüceyrə (n), 1 mərkəzi hüceyrə (2n), 2 spermi (hər biri 2n). Deməli, həmin hüceyrələrin xromosom dəstlərinin cəmi 7n-ə bərabər olar.

29. Əmələ gələn toxumun ləpə yarpağı hüceyrəsi ilə toxum qabığı hüceyrəsinin xromosom dəstlərinin nisbətini müəyyən edin. Cavabınızı əsaslandırın.

Doğru cavab: 3

Bal şkalası	Meyarlar
1 bal	A. Əsaslandırma və nisbət doğru yazılıb, ***səhv*** cavab ***yazılmayıb***.
$\frac{1}{2}$ bal	B. Əsaslandırma doğru yazılıb, lakin nisbət səhv yazılıb və ya yazılmayıb. C. Əsaslandırmada mənşələrdən biri düz, digəri səhv yazılıb, ancaq nisbət doğru verilib.
0 bal	D. Əsaslandırmanın yazılmadığı və səhv yazıldığı bütün hallarda. E. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 9_2.1.1. (*Bioloji proseslərin mahiyyət və məzmunu ilə bağlı təqdimatlar hazırlayır*) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 11,07%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 2,53%-i $\frac{1}{2}$ balla, 47,00% -i 0 balla qiymətləndirilib, 39,40%-i isə yazı işini yerinə yetirməkdən imtina edib.

Həlli: Tapşırığın yerinə yetirilməsi üçün 6-cı sinif "Biologiya" dərsliyindən bitki toxumunun quruluşunu və əmələ gəlməsi xüsusiyyətlərini bilmək lazımdır. Məlumdur ki, toxumun rüşeymi kökcük, gövdəcik, tumurcuq və ləpə yarpaqlarından ibarətdir. Ləpə yarpağı həm ana, həm də ata bitkinin xüsusiyyətlərini daşıyır. Deməli, ləpə yarpağının hüceyrəsinin xromosom dəsti, situasiyanın şərtini nəzərə alaraq, 3n olacaq (spermi (2n) + yumurtahüceyrə (n)). Toxum qabığı isə yumurtacığın divarından əmələ gəldiyinə görə ana bitkinin xromosom dəstinə (2n) malik olacaq. Belə halda nisbət 3:2-yə bərabərdir.

30. Eyler-Venn diaqramının hissələrinə müvafiq bəndlərin nömrəsini qeyd edin.

1. Ziqot yaranır
2. Mayalanma prosesi baş verir
3. Diploid hüceyrələrin sayı azalır
4. Haploid hüceyrələrin sayı azalır
5. Tetraploid hüceyrə əmələ gəlir
6. Ana bitkinin əlamətlərini daşıyan haploid hüceyrələrin sayı dəyişmir

Doğru cavab:



Bal şkalası	Meyarlar
1 bal	A. 6 bəndin hamısı doğru yazılıb, ***səhv*** cavab ***yazılmayıb***.
$\frac{2}{3}$ bal	B. 5 bənd doğru yazılıb, 1 bənd yazılmayıb və ya səhv yazılıb. C. 4 bənd doğru yazılıb, 2 bənd yazılmayıb, ***səhv*** cavab ***yoxdur***.
$\frac{1}{3}$ bal	D. 4 bənd doğru yazılıb, 1 bənd yazılmayıb, 1 bənd səhv yazılıb. E. 5 bənd doğru yazılıb, 2 bənd səhv yazılıb. F. 4 bənd doğru yazılıb, 2 bənd səhv yazılıb. G. 3 bənd doğru yazılıb, səhv cavabların sayı 3 və daha azdır.
0 bal	H. Səhv cavabların sayı 3-dən çoxdur. M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 9_2.1.1. (*Bioloji proseslərin mahiyyət və məzmunu ilə bağlı təqdimatlar hazırlayır*) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 12,85%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla 7,79%-i $\frac{2}{3}$ balla, 26,74%-i $\frac{1}{3}$, 29,74%-i 0 balla qiymətləndirilib, 22,89%-i isə yazı işini yerinə yetirməkdən imtina edib.

Həlli: Tapşırığın yerinə yetirilməsi üçün, 9-cu sinif "Biologiya" dərsliyindən çiçəkli bitkilərdə ikiqat mayalanma prosesinin mexanizmini tam mənimsəmək lazımdır. Situasiyanın şərtinə əsasən t_1–t_2 zaman intervalında rüşeym kisəsində olan hüceyrələrin sayı 9-dan 8-ə düşür və ilk olaraq yumurta hüceyrə (n) mayalanır. Deməli, bu intervalda mayalanma prosesi baş verir, ziqot yaranır, haploid və diploid hüceyrələrin sayı azalır. t_3–t_4 zaman intervalında isə hüceyrələrin sayı 8-dən 7-yə düşür, çünki burada 2-ci spermi (2n) mərkəzi hüceyrəni (2n) mayalandırır və nəticədə, tetraploid (4n) hüceyrə əmələ gəlir. Deməli, bu intervalda da mayalanma baş verir və diploid hüceyrələrin sayı yenə azalır. Lakin bu zaman ana bitkinin əlamətlərini daşıyan haploid hüceyrələrin sayı dəyişmir. Beləliklə, hər iki zaman intervalı üçün ümumi olan əlamətlər mayalanmanın baş verməsi və diploid hüceyrələrin sayının azalmasıdır.

I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 23.1%-i (16984 nəfər) imtahan verdikləri fənlərin ən azı birindən sıfır bal toplayıb

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 23.1%-i imtahan verdikləri fənlərin biri və ya bir neçəsi üzrə test suallarına ya cavab verməmiş, ya da cavabları təhlil aparmadan təsadüfi qaydada seçmişdir. Təbii ki, belə abituriyentlərin yanlış cavablarının sayı düzgünlərin sayından qat-qat çox olmuş, nəticədə düzgün cavabların yanlış cavablar nəzərə alınmaqla təshih edilmiş qiyməti sıfırdan kiçik alınmış və qəbul qaydalarına əsasən sıfıra bərabər qəbul olunmuşdur. Təəssüf ki, gənclər arasında birtərəfli hazırlıqla ali təhsil müəssisələrinə qəbul olmaq arzusunda olanlar hələ də var.

DİM şagird və abituriyentlərin nəinki imtahan fənlərinə, həmçinin ümumtəhsil məktəblərində tədris olunan digər fənlərə lazımi diqqət göstərməsinin tərəfdarıdır. Sirr deyil ki, hazırda məktəblərdə yuxarı sinif şagirdlərinin, əsasən, seçdikləri ixtisas qrupuna aid fənlərə üstünlük verməsi, digər fənləri isə, heç olmasa, proqramın minimum tələbləri səviyyəsində öyrənməməsi, məktəb rəhbərlərinin də bu vəziyyətə göz yumması halları mövcuddur. Məktəb rəhbərləri, eləcə də müəllimlər şagirdlərin bütün fənlər üzrə ən azı minimum proqram həcmində bilik almasına nail olmalı, imtahana düşən fənləri yaxşı bildiklərinə görə digər fənləri lazımınca öyrənməmələrinə güzəşt etməməlidirlər.

Aşağıdakı cədvəllərdə ayrı-ayrı fənlər üzrə sıfır bal toplayan abituriyentlərin statistikası (faizlə) təqdim edilib.

Cədvəl 1.30

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ
AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN STATİSTİKASI (FAİZLƏ)

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN SAYI (FAİZLƏ)										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	Xarici dil	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.07	0.76	0.12			10.65	11.52	14.76			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	0.07	1.30	0.14			22.26				14.49	9.81
III	Humanitar, pedaqogika ixtisasları	0.03	1.01	0.11	2.83	5.22					5.49	18.92
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.02	0.42	0.07				5.16	8.07	2.91		
V	İncəsənət, musiqi, idman ixtisasları	0.17	1.74	0.27								

Cədvəl 1.31

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ
RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN STATİSTİKASI (FAİZLƏ)

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN SAYI (FAİZLƏ)										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	Xarici dil	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.08	0.67	0.12			8.41	8.97	14.17			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	0.12	1.32	0.12			16.30				15.46	10.55
III	Humanitar, pedaqogika ixtisasları	0.05	1.88	0.10	0.57	2.64					9.32	15.51
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.00	0.56	0.00				3.35	6.84	2.37		
V	İncəsənət, musiqi, idman ixtisasları	0.15	1.91	0.19								

Cədvəllərdə sıfır bal toplayanların sayının faizlə ifadəsi qruplar üzrə verilib. Ümumilikdə, I mərhələdə sıfır bal toplayanlar çox azdır. Bunun əsas səbəbi kimi bu mərhələdə II mərhələdən fərqli olaraq qapalı tipli test tapşırıqları üzrə yanlış cavablara görə cərimə tətbiq olunmaması və bu cavabların ümumi bala təsir

göstərməməsidir. Nəticədə, abituriyentlər I mərhələdə daha cəsarətli davranırlar və hətta cavablarını bilmədikləri test tapşırıqlarını da cavablandırırlar ki, bu da öz növbəsində təsadüfi şəkildə düzgün cavabların qeyd olunması ehtimalını artırır.

II mərhələdə ana dili, ədəbiyyat və biologiya fənləri üzrə sıfır bal toplayan abituriyentlərin sayı (faizi) digər fənlərə nisbətən azdır. Sıfır bal toplayanlar ən çox riyaziyyat və kimya fənləri üzrədir. Bu fənlər üzrə abituriyentlərin nəticələrinin aşağı olması və sıfır bal toplayanların sayının çoxluğu bir sıra məktəblərdə həmin fənlərin tədrisinə, eləcə də bu fənlər üzrə qəbula hazırlıq prosesinə laqeyd münasibətin nəticəsidir. İstənilən halda, bunun real səbəbləri aydınlaşdırılmalı və həmin fənlərə münasibətin dəyişdirilməsi üçün tədbirlər görülməlidir.

II mərhələdə imtahan fənlərindən sıfır bal toplayan abituriyentlər Azərbaycan bölməsində çoxluq təşkil edir. Rus bölməsi ilə müqayisədə bu bölmə üzrə I və IV ixtisas qruplarında bütün fənlər üzrə, II qrupda riyaziyyat, III qrupda ana dili, ədəbiyyat və coğrafiya fənlərindən sıfır bal toplayanlar nisbətən daha çoxdur.

Məlum olduğu kimi 2019-cu ildən etibarən müsabiqə şərti kimi imtahan fənləri üzrə heç bir məhdudiyyət qoyulmur. I-IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olanlar arasında 8533 nəfərin altı imtahan fənnindən (hər iki mərhələ üzrə birlikdə) heç olmasa biri üzrə nisbi balı 10-dan az olmuşdur. Onlardan 7247 nəfərin yalnız bir, 1183 nəfərin iki, 103 nəfərin isə üç imtahan fənni üzrə nisbi balı 10-dan az olmuşdur. Ən azı 1 fənn üzrə nisbi balı 10-dan az olan abituriyentlərin 23.11%-i (yalnız 1 fənn üzrə nisbi balı 10-dan az olanların 19.21%-i, 2 fənn üzrə nisbi balı 10-dan az olanların 43.36%-i, 3 fənn üzrə nisbi balı 10-dan az olanların 65.05%-i) 200-dən az bal toplayıb. I-IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olanlar arasında I mərhələdə ana dili fənni üzrə 24, riyaziyyat fənni üzrə 2203 və xarici dil fənni üzrə 222 abituriyentin topladığı nisbi balı 10-dan az olub. II mərhələdə ana dili fənni üzrə 95, ədəbiyyat fənni üzrə 207, riyaziyyat fənni üzrə 2190, fizika fənni üzrə 671, kimya fənni üzrə 1269, biologiya fənni üzrə 21, tarix fənni üzrə 1879, coğrafiya fənni üzrə 1141 abituriyentin topladığı nisbi balı 10-dan az olub.

Bu il qəbul imtahanlarının II mərhələsində Azərbaycan bölməsi abituriyentlərinin ana dili, ədəbiyyat və riyaziyyat fənləri istisna olmaqla, digər bütün fənlər üzrə göstəriciləri rus bölməsi abituriyentlərinin göstəricilərindən yüksəkdir. Belə üstünlük özünü biologiya və tarix fənləri üzrə daha qabarıq şəkildə göstərib. I mərhələdə isə bütün fənlər üzrə rus bölməsinin abituriyentlərinin göstəriciləri yüksək olmuşdur. Aşağıda Azərbaycan və rus bölmələri abituriyentlərinin fənlər üzrə düzgün cavablarının müqayisəsini ifadə edən 1.22 saylı şəkil təqdim edilir.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİ ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.22

Müsabiqə şərtlərini ödəyərək ixtisas seçimində iştirak edən abituriyentlər seçməsi üzrə Azərbaycan və rus bölmələri abituriyentlərinin II mərhələdə imtahan fənləri üzrə düzgün cavablarının müqayisəsi göstərir ki, burada ana dili və ədəbiyyat fənləri istisna olmaqla, digər bütün fənlər üzrə Azərbaycan bölməsinin abituriyentlərinin göstəriciləri daha üstündür (bax: şəkil 1.23). I mərhələdə isə Azərbaycan bölməsinin abituriyentlərinin göstəriciləri yalnız riyaziyyat fənni üzrə üstündür.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİNİN MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.23

Ölkənin ayrı-ayrı bölgələrini təmsil edən abituriyentlərin imtahan fənləri üzrə cavablarının təhlili göstərir ki, fənlər üzrə ən yüksək nəticə, əsasən, birbaşa Elm və Təhsil Nazirliyinin tabeliyində olan liseylərə və özəl liseylərə məxsusdur. Fənlər üzrə şəhər və rayon təhsil şöbələrinin göstəricilərinin təhlilindən aydın olur ki, kənd rayonlarının bir çox fənlər üzrə göstəriciləri Bakı və Sumqayıt şəhərlərinin göstəricilərini qabaqlayır. Belə rayonlara misal olaraq Qəbələ, Salyan, Abşeron, Qubadlı, Tovuz, Babək, Ağstafa, Göyçay, Kürdəmir, Masallı, Şəki, Astara , Ağdaş, Balakən, Göygöl, İmişli, İsmayıllı, Culfa, Ordubad, Şərur, Neftçala, Qazax, Qusar, Saatlı və Zaqatala rayonlarını göstərmək olar. Bunun obyektiv səbəblərindən biri kimi qəbul imtahanlarında bu şəhərlərin məzunlarının daha çox hissəsinin, rayonların isə yalnız hazırlıqlı məzunlarının iştirak etməsini göstərmək olar. Məsələn, bu il Bakı şəhəri üzrə məzunların 90.24%-i, Sumqayıt şəhəri üzrə 91%-i qəbul imtahanlarında iştirak etmişdir. Yüksək göstəricili rayonlar üzrə (Şərur, Babək, Culfa, Qazax və Ordubad rayonları istisna olmaqla) isə məzunların ən yaxşı halda 63–81%-i ali təhsil müəssisələrinə sənəd vermişdir.

Aşağıdakı cədvəllərdən göründüyü kimi, Azərbaycan bölməsində ana dili, riyaziyyat və biologiya fənləri üzrə Sumqayıt şəhərinin, ədəbiyyat fənni üzrə Mingəçevir şəhərinin, fizika fənni üzrə Abşeron rayonunun, kimya fənni üzrə Naxçıvan şəhərinin, tarix fənni üzrə Tovuz rayonunun, coğrafiya fənni üzrə isə Kürdəmir rayonunun abituriyentləri üstünlük əldə etmişdir.

Rus bölməsi abituriyentlərinin böyük əksəriyyətini Bakı, Sumqayıt və Gəncə şəhərlərinin məzunları təşkil etdiyindən yüksək göstəricilər də bu şəhərlər arasında paylanıb (bax: səh. 166, cədvəl 1.41).

Müəyyən bölgələrin ayrı-ayrı fənlər üzrə qəbul imtahanlarındakı yüksək göstəriciləri artıq ənənə halını almışdır. Məsələn, Azərbaycan bölməsi üzrə ana dili fənnindən Sumqayıt və Mingəçevir şəhərləri, Qəbələ rayonu, ədəbiyyat fənnindən Mingəçevir şəhəri və Qəbələ rayonu, riyaziyyat fənnindən Sumqayıt şəhəri və İsmayıllı rayonu, fizika fənnindən İmişli rayonu, kimyadan Naxçıvan və Sumqayıt şəhərləri, Masallı rayonu, biologiyadan Bakı və Sumqayət şəhərləri, Abşeron və Şəki rayonları, coğrafiyadan Sumqayıt şəhəri və Qəbələ rayonu bütün illərdə ən yüksək göstəricili bölgələr sırasındadır. Şübhəsiz, bu göstəricilər müvafiq şəhər və rayonların təhsil orqanları və müəssisələrinin səmərəli fəaliyyətinin nəticəsidir. Onların iş

təcrübəsini respublika miqyasında yaymaq müvafiq elmi-metodik mərkəzlərin və mütəxəssislərin ümdə vəzifələrindən biri olmalıdır. Bundan bütövlükdə respublikanın təhsil sistemi qazanar.

Ayrı-ayrı fənlər üzrə ən yüksək nəticə göstərən təhsil şöbələri və liseylərin siyahısı 1.32-1.39 saylı cədvəllərdə təqdim edilir. Statistik rəqəmlərin etibarlı olması və reallığı dürüst əks etdirməsi məqsədilə cədvəllərdə abituriyentlərinin sayı 100-dən az olmayan rayonlar verilib. Biologiya fənni üzrə imtahan verən abituriyentlərin sayının nisbətən az olmasını nəzərə alaraq, müvafiq cədvələ abituriyentlərinin sayı 50-dən az olmayan rayonlar daxil edilib.

ABİTURİYENTLƏRİ II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏR (2022-Cİ İL MƏZUNLARI)

Azərbaycan bölməsi

Fənn: **Ana dili** Cədvəl 1.32

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (ETN tabeli və özəl)	281	63.09	29.64	7.27
Sumqayıt şəhəri	607	59.03	32.42	8.55
Salyan rayonu	179	58.68	31.91	9.41
Füzuli rayonu	194	58.29	32.64	9.08
Mingəçevir şəhəri	209	58.20	33.65	8.15
Tovuz rayonu	222	57.12	31.92	10.96
Göyçay rayonu	139	56.87	34.15	8.98
Naxçıvan şəhəri	224	56.80	33.24	9.96
Ağstafa rayonu	126	56.37	34.13	9.50
Qəbələ rayonu	195	56.09	34.75	9.15

Fənn: **Ədəbiyyat** Cədvəl 1.33

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (ETN tabeli və özəl)	278	52.60	33.99	13.41
Mingəçevir şəhəri	209	50.92	36.86	12.22
Qəbələ rayonu	195	50.83	37.25	11.92
Sumqayıt şəhəri	597	50.61	36.89	12.50
Füzuli rayonu	194	50.40	36.67	12.93
Göyçay rayonu	138	49.63	36.61	13.77
Salyan rayonu	179	49.39	36.31	14.31
Kəlbəcər rayonu	284	49.34	37.17	13.49
Tovuz rayonu	222	49.09	34.79	16.12
Göygöl rayonu	101	48.77	39.76	11.46

Fənn: **Riyaziyyat** Cədvəl 1.34

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (ETN tabeli və özəl)	942	54.89	21.90	23.21
Sumqayıt şəhəri	1880	38.78	29.11	32.12
İsmayıllı rayonu	328	37.64	31.35	31.01
Qusar rayonu	242	36.59	26.69	36.72
Ordubad rayonu	101	36.41	31.86	31.73
Culfa rayonu	154	35.11	33.43	31.45
Abşeron rayonu	1595	35.00	29.23	35.77
Qubadlı rayonu	363	34.89	30.06	35.05
Salyan rayonu	455	34.86	30.04	35.10
Tovuz rayonu	657	34.54	32.29	33.17

Fənn: **Fizika** Cədvəl 1.35

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (ETN tabeli və özəl)	821	58.62	24.27	17.11
Abşeron rayonu	1173	43.84	32.04	24.12
İmişli rayonu	175	43.50	32.62	23.88
Sumqayıt şəhəri	1502	42.46	32.40	25.14
Naxçıvan şəhəri	223	42.37	34.21	23.41
Şirvan şəhəri	248	42.24	32.13	25.64
Cəbrayıl rayonu	193	42.21	32.22	25.56
Zaqatala rayonu	281	42.14	34.56	23.30
Qubadlı rayonu	256	42.07	33.04	24.89
Babək rayonu	134	41.48	35.77	22.75

Fənn: **Kimya** Cədvəl 1.36

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (ETN tabeli və özəl)	821	59.38	20.26	20.35
Naxçıvan şəhəri	223	42.25	29.98	27.78
Abşeron rayonu	1173	41.06	28.45	30.50
Şərur rayonu	136	40.53	31.51	27.96
Sumqayıt şəhəri	1502	40.39	29.12	30.49
Ağdaş rayonu	268	40.25	30.41	29.34
Cəbrayıl rayonu	193	39.78	29.19	31.03
Şəki rayonu	662	39.57	31.35	29.08
Babək rayonu	134	39.39	30.78	29.83
Masallı rayonu	444	39.27	31.22	29.51

Fənn: **Biologiya** Cədvəl 1.37

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (ETN tabeli və özəl)	185	68.64	24.63	6.73
Sumqayıt şəhəri	114	64.31	27.61	8.08
Mingəçevir şəhəri	51	62.25	30.32	7.43
Abşeron rayonu	139	61.98	29.87	8.15
Bakı şəhəri	744	57.40	31.75	10.85
Göyçay rayonu	53	55.94	35.09	8.98
Masallı rayonu	66	54.33	33.18	12.49
Ağdam rayonu	67	53.26	33.62	13.12
Şəki rayonu	88	52.44	37.02	10.54
Kəlbəcər rayonu	60	51.30	36.73	11.97

Fənn: **Tarix** Cədvəl 1.38

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (ETN tabeli və özəl)	587	48.40	30.81	20.79
Tovuz rayonu	377	47.60	32.53	19.87
Qazax rayonu	229	46.76	31.96	21.28
Ağstafa rayonu	197	46.49	34.39	19.12
Salyan rayonu	255	44.44	33.84	21.71
Neftçala rayonu	141	44.40	34.62	20.98
Şirvan şəhəri	230	44.11	32.67	23.21
Kürdəmir rayonu	219	43.50	33.93	22.57
Sumqayıt şəhəri	1099	43.41	35.48	21.11
Qəbələ rayonu	335	43.31	35.94	20.75

Fənn: **Coğrafiya** Cədvəl 1.39

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (ETN tabeli və özəl)	377	40.06	35.45	24.49
Kürdəmir rayonu	127	36.23	37.52	26.25
Saatlı rayonu	110	34.81	45.19	20.00
Sumqayıt şəhəri	583	34.17	40.38	25.45
Astara rayonu	135	33.77	41.79	24.44
Qəbələ rayonu	166	33.61	44.18	22.22
Şəki rayonu	231	33.47	44.71	21.82
Balakən rayonu	132	33.37	40.94	25.69
Babək rayonu	113	33.07	43.20	23.73
Masallı rayonu	206	33.02	43.04	23.93

İmtahan fənləri üzrə ümumi müqayisə apardıqda,
bu il (ETN tabeli liseylərə və özəl liseylər istisna olmaqla) Azərbaycan bölməsində Sumqayıt şəhəri, rus bölməsində isə Şəki rayonu ən yüksək nəticə göstərib.

İmtahanın II mərhələsində hər bir imtahan fənni üzrə yüksək nəticə göstərən təhsil şöbələri və liseylər barədə yuxarıdakı cədvəllərdə məlumat verilib. İndi isə imtahan fənləri üzrə bütövlükdə yüksək nəticə nümayiş etdirmiş bölgələrin göstəricilərinə nəzər yetirək. Bu göstəricilər bölmələr üzrə 1.40 və 1.41 saylı cədvəllərdə təqdim edilib. Cədvəllərdən göründüyü kimi, bu il ən yüksək nəticəni Azərbaycan bölməsində Sumqayıt şəhəri, rus bölməsində isə Şəki rayonunun abituriyentləri əldə edib. Adları aşağıdakı cədvəllərə daxil olan şəhər və rayonların çoxunun məktəb məzunları qəbul imtahanlarında stabil olaraq yüksək nəticələr göstərirlər. Əlbəttə, bunda həmin şəhər və rayonlarda dərs deyən müəllimlərin, şəhər və rayon rəhbərliyinin və təhsil şöbəsi işçilərinin mühüm rolu vardır. Ümumiyyətlə, gənclərimizdə oxumaq, öyrənmək həvəsi və potensialı olduqca yüksəkdir. Bunun reallaşdırılması isə birinci növbədə təhsil işçilərindən asılıdır. Burada təhsil işinin düzgün qurulması, müəllimlərin işə vicdanlı münasibəti, günün tələblərinə uyğun dərslik və dərs vəsaitlərinin hazırlanması və vaxtlı-vaxtında şagirdlərə çatdırılması mühüm amillərdir.

Cədvəl 1.40

TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏRİN II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ ÜMUMİ GÖSTƏRİCİLƏRİ

(2022-ci il məzunları, ilk 15 yüksək göstəricili təhsil şöbələri)

Azərbaycan bölməsi

№	TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Fənlər üzrə göstəricilər, %-lə								Göstəricilər vektorunun norması
		Ana d.	Ədəb.	Riyaz.	Fizika	Kimya	Biol.	Tarix	Coğr.	
1	Liseylər (ETN tabeli və özəl)	63.09	52.60	54.89	58.62	59.38	68.64	48.40	40.06	313.1211
2	Sumqayıt şəhəri	59.03	50.61	38.78	42.46	40.39	64.31	43.41	34.17	249.2928
3	Ordubad rayonu	53.37	44.72	36.41	41.20	48.70	51.11	37.30	35.76	243.8241
4	Salyan rayonu	58.68	49.39	34.86	37.57	33.06	54.90	44.44	40.08	240.3454
5	Abşeron rayonu	54.84	47.41	35.00	43.84	41.06	61.98	40.65	31.63	238.3652
6	Qubadlı rayonu	55.26	47.89	34.89	42.07	39.22	63.32	42.41	32.08	237.1813
7	Qəbələ rayonu	56.09	50.83	33.52	38.41	38.26	57.10	43.31	33.61	236.4831
8	Şahbuz rayonu	54.95	45.51	32.32	42.04	40.02	--	40.57	35.42	235.1440
9	Tovuz rayonu	57.12	49.09	34.54	37.54	35.50	47.13	47.60	31.07	235.1070
10	Naxçıvan şəhəri	56.80	47.34	32.48	42.37	42.25	55.20	37.01	32.03	234.5855
11	Oğuz rayonu	62.74	52.80	33.43	41.32	37.75	--	37.65	26.45	234.3329
12	İsmayıllı rayonu	53.05	46.59	37.64	38.93	34.95	54.33	39.85	36.11	232.8332
13	Şəki rayonu	53.28	44.25	34.44	40.70	39.57	52.44	41.34	33.47	232.4580
14	Masallı rayonu	53.79	45.57	33.47	41.35	39.27	54.33	40.50	33.02	231.9874
15	Bakı şəhəri	54.92	46.83	34.34	40.39	38.23	57.40	39.61	31.60	230.6270

Qeyd: Seçmədə riyaziyyat, fizika, kimya və tarix fənləri üzrə abituriyentlərinin sayı 20-dən, ana dili, ədəbiyyat və coğrafiya fənləri üzrə abituriyentlərinin sayı 10-dən az olmayan bölgələr iştirak edir.

Cədvəl 1.41

TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏRİN II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ ÜMUMİ GÖSTƏRİCİLƏRİ (2022-ci il məzunları)

Rus bölməsi

№	TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Fənlər üzrə göstəricilər, %-lə								Göstəricilər vektorunun norması
		Ana d.	Ədəb.	Riyaz.	Fizika	Kimya	Biol.	Tarix	Coğr.	
1	Liseylər (ETN tabeli və özəl)	62.73	58.44	41.60	48.00	45.23	62.75	32.72	26.96	284.8978
2	Şəki rayonu	72.19	67.74	31.74	42.09	28.28	--	42.42	30.10	278.2348
3	Sumqayıt şəhəri	60.68	56.28	32.79	39.76	35.48	43.20	30.39	26.16	249.7421
4	Bakı şəhəri	58.27	53.84	33.45	38.49	35.88	47.49	29.45	27.15	247.3286
5	Quba rayonu	52.02	48.48	34.13	36.78	31.22	--	31.08	32.55	246.2176
6	Gəncə şəhəri	61.92	62.84	27.81	34.02	32.07	41.93	35.50	26.03	245.7518
7	Qusar rayonu	44.48	37.29	33.41	32.85	38.43	48.99	22.07	35.98	238.5832
8	Abşeron rayonu	54.00	50.87	26.53	29.07	26.06	47.06	28.75	24.89	212.9833
9	Xaçmaz rayonu	48.74	41.99	25.63	26.36	24.00	--	22.54	29.88	202.4307
10	Lənkəran rayonu	45.10	37.59	23.74	30.72	26.91	32.13	28.44	26.77	202.3282

Qeyd: Seçmədə hər fənn üzrə abituriyentlərinin sayı 10-dan az olmayan bölgələr iştirak edir.

500-dən yuxarı bal toplayanlar imtahan verənlərin 9.64 faizini təşkil edir.

Yüksək bal toplayanlar arasında respublikanın əksər bölgələrinin təmsilçiləri vardır.

Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında 7078 abituriyent 500-dən, o cümlədən 2077 abituriyent 600-dən yuxarı bal toplamışdır. 600 və ondan yuxarı bal toplayanların ixtisas qrupları üzrə paylanmasına gəlincə, qeyd etmək lazımdır ki, onların 52.05%-i (1081 nəfəri) I qrupun, 6.84%-i (142 nəfəri) II qrupun, 16.56%-i (344 nəfəri) III qrupun, 24.55%-i (510 nəfəri) IV qrupun abituriyentləridir.

Yüksək bal toplayanlar respublikanın 73 bölgəsini təmsil edir (cədvəl 1.42). Onların nisbi sayına görə Sumqayıt, Mingəçevir və Bakı şəhərləri, Qəbələ, Abşeron və Şəki rayonlarının göstəriciləri daha yüksək olub. Bu bölgələrdən ali təhsil müəssisələrinə sənəd verən hər 100 nəfər gəncin 12–13-ü imtahanlarda 500-dən yuxarı bal toplayıb.

500-700 arasında bal toplayan abituriyentlərin əksəriyyəti ən nüfuzlu ixtisaslara qəbul olub. Onlardan ən yüksək nəticə göstərən 102 nəfər Prezident təqaüdünə layiq görülüb.

Cədvəl 1.42

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRƏN ABİTURİYENTLƏRİN BÖLGƏLƏR ÜZRƏ SAYI

№	BÖLGƏ	Bölgə üzrə abituriyentlərin ümumi sayı	500-700 intervalında bal toplayanların sayı	600-700 intervalında bal toplayanların sayı	500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən)
1	Bakı şəhəri	23391	2876	952	12.30
2	Sumqayıt şəhəri	3220	408	127	12.67
3	Abşeron rayonu	2897	373	125	12.88
4	Gəncə şəhəri	2660	202	56	7.59
5	Lənkəran rayonu	1504	111	30	7.38
6	Şəki rayonu	1395	168	51	12.04
7	Şəmkir rayonu	1295	111	30	8.57
8	Ağdam rayonu	1257	74	17	5.89
9	Quba rayonu	1208	82	22	6.79
10	Xaçmaz rayonu	1204	80	13	6.64
11	Cəlilabad rayonu	1184	51	11	4.31
12	Masallı rayonu	1164	107	19	9.19

Cədvəl 1.42 (ardı)

№	B Ö L G Ə	Bölgə üzrə abituriyentlərin ümumi sayı	500-700 intervalında bal toplayanların sayı	600-700 intervalında bal toplayanların sayı	500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən)
13	Kəlbəcər rayonu	1114	76	20	6.82
14	Tovuz rayonu	1109	99	22	8.93
15	Bərdə rayonu	1023	95	20	9.29
16	Ağcabədi rayonu	886	81	22	9.14
17	Mingəçevir şəhəri	881	109	30	12.37
18	Füzuli rayonu	843	52	11	6.17
19	Laçın rayonu	824	52	18	6.31
20	Qəbələ rayonu	814	107	43	13.14
21	Naxçıvan şəhəri	810	82	24	10.12
22	Salyan rayonu	804	80	27	9.95
23	Sabirabad rayonu	754	42	11	5.57
24	Göyçay rayonu	716	53	12	7.40
25	Yevlax rayonu	673	45	12	6.69
26	Biləsuvar rayonu	666	38	11	5.71
27	Qazax rayonu	656	43	10	6.55
28	Astara rayonu	642	42	5	6.54
29	Zaqatala rayonu	641	47	14	7.33
30	İmişli rayonu	636	46	11	7.23
31	Ağdaş rayonu	634	43	14	6.78
32	Goranboy rayonu	627	47	6	7.50
33	Şamaxı rayonu	623	36	12	5.78
34	Qubadlı rayonu	619	66	25	10.66
35	Cəbrayıl rayonu	617	53	17	8.59
36	Şirvan şəhəri	611	51	23	8.35
37	Kürdəmir rayonu	609	42	5	6.90
38	İsmayıllı rayonu	597	66	21	11.06
39	Beyləqan rayonu	588	18	3	3.06
40	Qusar rayonu	561	40	10	7.13
41	Göygöl rayonu	555	45	10	8.11
42	Ağstafa rayonu	555	28	10	5.05
43	Şərur rayonu	525	39	12	7.43
44	Gədəbəy rayonu	523	54	10	10.33
45	Tərtər rayonu	499	27	6	5.41
46	Babək rayonu	488	47	8	9.63
47	Balakən rayonu	481	50	7	10.40
48	Ucar rayonu	463	25	3	5.40
49	Neftçala rayonu	436	25	6	5.73
50	Saatlı rayonu	429	34	7	7.93
51	Ağsu rayonu	388	20	3	5.15
52	Zəngilan rayonu	366	24	10	6.56
53	Samux rayonu	364	25	5	6.87
54	Hacıqabul rayonu	356	41	7	11.52
55	Zərdab rayonu	354	20	5	5.65
56	Lerik rayonu	352	20	2	5.68
57	Şabran rayonu	331	17	5	5.14

Cədvəl 1.42 (ardı)

№	B Ö L G Ə	Bölgə üzrə abituriyentlərin ümumi sayı	500-700 intervalında bal toplayanların sayı	600-700 intervalında bal toplayanların sayı	500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən)
58	Siyəzən rayonu	329	23	4	6.99
59	Yardımlı rayonu	310	17	4	5.48
60	Qax rayonu	299	25	4	8.36
61	Oğuz rayonu	291	28	2	9.62
62	Culfa rayonu	290	32	3	11.03
63	Ordubad rayonu	238	23	8	9.66
64	Qobustan rayonu	205	18	4	8.78
65	Şuşa rayonu	197	19	5	9.64
66	Daşkəsən rayonu	139	5	1	3.60
67	Xocalı rayonu	128	10	3	7.81
68	Kəngərli rayonu	111	11	6	9.91
69	Şahbuz rayonu	110	9	2	8.18
70	Xızı rayonu	106	6	0	5.66
71	Xocavənd rayonu	103	5	1	4.85
72	Naftalan şəhəri	68	7	1	10.29
73	Sədərək rayonu	62	5	1	8.06

Cari ildə ölkənin 3248 məktəbinin məzunları I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edib. 600 bal toplayan məzunlar bu məktəblərin yalnız 27.59%-nin təmsilçiləridir. Sayı 896 olan bu məktəblərin 91-i (10.16%-i) liseylər və gimnaziyalardır ki, 600 ballıların da 26.43%-i onların məzunlarıdır. Kənd rayonlarının məktəbləri arasında fərqlənən məktəblər kimi bu il Cəlilabad rayonu Kazımabad kənd tam orta məktəbi, Qəbələ rayonu Nohurqışlaq kənd tam orta məktəbi, Laçın rayonu Taxtakörpü qəsəbə tam orta məktəbi və Qəbələ rayonu 2 saylı şəhər tam orta məktəbini göstərmək olar.

Abituriyentlərinin sayına nəzərən yüksək bal toplayan məzunlarının faizi daha çox olan təhsil müəssisələrinin siyahısı 1.43 saylı cədvəldə təqdim edilir:

Cədvəl 1.43

ABİTURİYENTLƏRİNİN SAYINA NƏZƏRƏN YÜKSƏK BAL TOPLAYANLARININ FAİZİ DAHA ÇOX OLAN TƏHSİL MÜƏSSİSƏLƏRİ (2022-ci ilin məzunları, I–IV qruplar üzrə)*

№	Məktəb	Məktəb üzrə abituriyentlərin ümumi sayı	600-dən yuxarı bal toplayan abituriyentlərin sayı	600-dən yuxarı ballıların faizi (məktəb üzrə abituriyentlərin ümumi sayına nəzərən)
1	Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya	61	42	68.85
2	Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi)	118	62	52.54
3	Fizika, riyaziyyat və informatika təmayüllü lisey	79	31	39.24
4	Kimya-biologiya təmayüllü lisey	64	22	34.38
5	Akademik Z.Əliyeva adına lisey	132	43	32.58
6	Kaspi liseyi	20	4	20.00
7	Qəbələ rayonu Vəndam qəsəbə 1 saylı tam orta məktəbi	36	7	19.44
8	Biləsuvar rayonu M.İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksi	21	4	19.05
9	Bakı şəhəri 287 saylı "Zəkalar" liseyi	93	17	18.28
10	Cəlilabad rayonu Kazımabad kənd tam orta məktəbi	22	4	18.18
11	Bakı şəhəri 270 saylı tam orta məktəb	58	10	17.24
12	Fizika,riyaziyyat və informatika təmayüllü Respublika liseyinin Gəncə şəhərindəki sinifləri	30	5	16.67

Cədvəl 1.43 (ardı)

№	Məktəb	Məktəb üzrə abituriyentlərin ümumi sayı	600-dən yuxarı bal toplayan abituriyentlərin sayı	600-dən yuxarı ballıların faizi (məktəb üzrə abituriyentlərin ümumi sayına nəzərən)
13	Qəbələ rayonu Nohurqışlaq kənd tam orta məktəbi	24	4	16.67
14	Laçın rayonu Taxtakörpü qəsəbə orta məktəbi	31	5	16.13
15	Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi	50	8	16.00
16	Bakı Avropa liseyi	51	8	15.69
17	Sumqayıt şəhəri "İstedad" liseyi (humanitar və təbiət-riyaziyyat təmayüllü)	39	6	15.38
18	Qəbələ rayonu 2 saylı şəhər tam orta məktəbi	26	4	15.38
19	Humanitar fənlər təmayüllü məktəb-lisey	40	6	15.00
20	Bakı şəhəri 29 saylı tam orta məktəb	21	3	14.29
21	Abşeron rayonu Xırdalan şəhər 10 saylı tam orta məktəb	42	6	14.29
22	Ə.Məmmədov adına Ağcabədi rayonu Salmanbəyli kənd tam orta məktəbi	21	3	14.29
23	Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin Quba rayonundakı sinifləri	29	4	13.79
24	F.Mehdiyev adına Qubadlı rayonu Qaralar kənd tam orta məktəbi	22	3	13.64
25	Lənkəran rayonu 6 saylı şəhər tam orta məktəbi	38	5	13.16
26	Bakı şəhəri 30 saylı tam orta məktəb	24	3	12.50
27	Şəki rayonu Orta Zəyzid kənd 1 saylı tam orta məktəbi	24	3	12.50
28	X.Rüstəmov adına Cəbrayıl rayonu Yuxarı Mərcanlı kənd tam orta məktəbi	24	3	12.50
29	Heydər Əliyev adına lisey	57	7	12.28
30	Bakı şəhəri 160 saylı klassik gimnaziya	92	11	11.96
31	Abşeron rayonu Xırdalan şəhər 8 saylı tam orta məktəbi	42	5	11.90
32	Salyan rayonu 4 saylı şəhər tam orta məktəbi	44	5	11.36
33	289 saylı tam orta məktəb –"Zəngi" liseyi	62	7	11.29
34	Bakı şəhəri 75 saylı tam orta məktəb	27	3	11.11
35	Goranboy rayonu Safıkürd kənd tam orta məktəbi	27	3	11.11
36	Şəki rayonu Şəhər fizika-riyaziyyat və humanitar təmayüllü lisey	36	4	11.11
37	Bakı şəhəri 62 saylı məktəb-lisey	73	8	10.96
38	Bakı şəhəri 291 saylı Ekologiya liseyi	46	5	10.87
39	S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyası	83	9	10.84
40	Ağcabədi rayonu 1 saylı şəhər tam orta məktəbi	28	3	10.71
41	Bakı şəhəri 129 saylı tam orta məktəb	57	6	10.53
42	Bakı şəhəri Texniki humanitar lisey	157	16	10.19
43	Bakı şəhəri 98 saylı tam orta məktəb	20	2	10.00
44	Bakı şəhəri 240 saylı tam orta məktəb	70	7	10.00
45	Mingəçevir şəhəri 20 saylı şəhər tam orta məktəbi	20	2	10.00
46	S.Hüseynov adına Şirvan şəhəri 1 saylı şəhər tam orta məktəbi	30	3	10.00
47	Salyan rayonu Çuxanlı kənd tam orta məktəbi	20	2	10.00
48	Masallı rayonu Hişkədərə kənd tam orta məktəbi	20	2	10.00

* Siyahıya abituriyentlərinin sayı 20-dən az olmayan təhsil müəssisələri daxil edilmişdir.

Bu il 600 və ondan yuxarı bal toplayanlar 1.44 saylı cədvəldə göstərilmiş ali təhsil müəssisələrinə qəbul olmuşdur. 600-dən yuxarı bal toplayan abituriyentlər dövlət ali təhsil müəssisələri arasında ən çox Azərbaycan Tibb Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Ali Neft Məktəbi və Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuşdur. 600 baldan yuxarı nəticə göstərən abituriyentlər özəl ali təhsil müəssisələri arasında ən çox Xəzər Universitetini (26 nəfər) seçmişdir. 600 və ondan yuxarı bal toplayıb qəbul olanların ixtisas qrupları üzrə paylanmasına gəlincə, qeyd etmək lazımdır ki, onların 51.89%-i (1057 nəfəri) I qrupun, 6.68%-i (136 nəfəri) II qrupun, 16.89%-i (344 nəfəri) III qrupun, 24.55%-i (500 nəfəri) IV qrupun abituriyentləridir.

Cədvəl 1.44

600 VƏ DAHA ÇOX BAL TOPLAYANLARIN QƏBUL OLDUQLARI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ SAYI

№	Ali təhsil müəssisələri	Qəbul olanların		İxtisasqrupları üzrə qəbul olanların sayı və faizi							
				I		II		III		IV	
		sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
1	Bakı Dövlət Universiteti	284	13.94	78	7.38	1	0.74	204	59.30	1	0.20
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	264	12.96	264	24.98	0	0.00	0	0.00	0	0.00
3	Azərbaycan Texniki Universiteti	4	0.20	4	0.38	0	0.00	0	0.00	0	0.00
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	7	0.34	7	0.66	0	0.00	0	0.00	0	0.00
5	Azərbaycan Tibb Universiteti	482	23.66	0	0.00	0	0.00	0	0.00	482	96.40
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	6	0.29	6	0.57	0	0.00	0	0.00	0	0.00
7	Azərbaycan Dövlət İqtisad Universiteti	185	9.08	93	8.80	92	67.65	0	0.00	0	0.00
8	Azərbaycan Dillər Universiteti	19	0.93	0	0.00	0	0.00	19	5.52	0	0.00
9	Bakı Mühəndislik Universiteti	128	6.28	128	12.11	0	0.00	0	0.00	0	0.00
10	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	76	3.73	31	2.93	4	2.94	41	11.92	0	0.00
11	"ADA" Universiteti	147	7.22	90	8.51	21	15.44	36	10.47	0	0.00
12	Milli Aviasiya Akademiyası	7	0.34	5	0.47	0	0.00	2	0.58	0	0.00
13	Azərbaycan Dövlət Dəniz Akademiyası	2	0.10	2	0.19	0	0.00	0	0.00	0	0.00
14	Bakı Ali Neft Məktəbi	204	10.01	188	17.79	16	11.76	0	0.00	0	0.00
15	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	29	1.42	21	1.99	1	0.74	7	2.03	0	0.00
16	Naxçıvan Dövlət Universiteti	24	1.18	6	0.57	1	0.74	7	2.03	10	2.00
17	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	1	0.05	1	0.09	0	0.00	0	0.00	0	0.00
18	Gəncə Dövlət Universiteti	6	0.29	5	0.47	0	0.00	1	0.29	0	0.00
19	Mingəçevir Dövlət Universiteti	1	0.05	1	0.09	0	0.00	0	0.00	0	0.00
20	Lənkəran Dövlət Universiteti	1	0.05	1	0.09	0	0.00	0	0.00	0	0.00
21	Xəzər Universiteti	26	1.28	24	2.27	0	0.00	2	0.58	0	0.00
22	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	6	0.29	0	0.00	0	0.00	0	0.00	6	1.20
23	Birgə Azərbaycan-Fransız Universiteti (UFAZ)	89	4.37	89	8.42	0	0.00	0	0.00	0	0.00
24	Xüsusi təyinatlı ali təhsil müəssisələri	39	1.91	13	1.23	0	0.00	25	7.27	1	0.20
	Cəmi	**2037**	**100.00**	**1057**	**100.00**	**136**	**100.00**	**344**	**100.00**	**500**	**100.00**

Artıq M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına on beşinci, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialına səkkizinci, Birgə Azərbaycan-Fransız Universitetinə (UFAZ) isə yeddinci ildir ki, tələbə qəbulu aparılır. Hər üç təhsil müəssisəsinin qəbul sınaqlarına yalnız DİM-in keçirdiyi test imtahanlarında yüksək bal toplayan abituriyentlər buraxılmışdır. Nəticədə, 62 nəfər M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının, 125 nəfər İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, 135 nəfər isə Birgə Azərbaycan-Fransız Universitetinin (UFAZ) tələbəsi adını qazanmışdır. Onların sırasına qəbul imtahanlarında 600-dən çox bal toplayan gənclər də daxildir. 1.44 saylı cədvəldə onların sayı haqqında da məlumat təqdim edilmişdir.

Respublikanın ümumi təhsil müəssisələri abituriyentlərinin II mərhələdə imtahan fənləri üzrə cavablarının statistik təhlili göstərir ki, hər iki bölmədə əksər fənlər üzrə üstünlük lisey tipli təhsil müəssisələri məzunlarının tərəfindədir. Azərbaycan bölməsində ana dili, ədəbiyyat və biologiya fənləri üzrə Akademik Z.Əliyeva adına liseyin, riyaziyyat, fizika və kimya fənləri üzrə Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın, tarix və coğrafiya fənləri üzrə isə Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunları üstün olub.

Rus bölməsində ana dili fənni üzrə Bakı şəhəri 160 saylı klassik gimnaziyanın, ədəbiyyat fənni üzrə Bakı şəhəri Texniki humanitar liseyin, riyaziyyat, fizika, biologiya və tarix fənləri üzrə Akademik Z.Əliyeva adına liseyin, kimya fənni üzrə Bakı Avropa liseyinin, coğrafiya fənni üzrə isə Bakı şəhəri 17 saylı tam orta məktəbin məzunlarının göstəriciləri daha yüksəkdir.

Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) və Biləsuvar rayonu M.İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksinin məzunlarının nəticələrini qeyd etmək yerinə düşər. Bu təhsil müəssisələrini təmsil edən ortastatistik abituriyentlərin qəbul imtahanında topladıqları ballar müvafiq olaraq 578.284-ə və 496.229-a bərabərdir. Bu liseylərin məzunlarının müvafiq olaraq 69.49%-i (82 nəfər) və 100.0%-i (21 nəfər) respublikanın ali təhsil müəssisələrinə qəbul olmuşdur. Onlardan müvafiq olaraq 97 (məzunların 82.20%-i) və 9 nəfəri (məzunların 42.86 %-i) 500-dən, 62 və 4 nəfəri isə 600-dən çox bal toplamışdır. Fikrimizcə, bu təhsil müəssisələrinin təcrübəsindən yararlanmaq və bu cür təhsil müəssisələrinin sayını tədricən artırmaq lazımdır.

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən 2010/2011-ci tədris ilindən başlayaraq gənclərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrində həm dövlət sifarişi, həm də ödənişli əsaslarla təhsil alması üçün qəbul aparılır. Dövlət sifarişi əsasında təhsil adambaşına maliyyələşdirmə prinsipi ilə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslar üzrə mütəxəssis hazırlığını dövlət sifarişinə əsasən yerinə yetirən təhsil müəssisələrinə maliyyə vəsaitləri tələbələrin sayından asılı olaraq ayrılır.

Ali təhsildə adambaşına maliyyələşdirmə mexanizmi dünyanın inkişaf etmiş ölkələrində tətbiq olunan mütərəqqi metodlardandır. Belə bir mexanizmin tətbiqi ali təhsildə keyfiyyətin yüksəlməsinə, ali təhsil müəssisələri arasında dövlət sifarişi əsasında təhsil alan tələbə uğrunda mübarizə və rəqabətin yaranmasına xidmət edir.

Tətbiq olunan qaydaya əsasən mülkiyyət formasından asılı olmayaraq qanunvericiliyə uyğun fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək imkanı yaradılmışdır. Qeyd etmək lazımdır ki, qəbul imtahanında yüksək nəticə əldə edərək dövlət sifarişi əsasında dövlət, yaxud özəl ali təhsil müəssisəsinə qəbul olan abituriyentin təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında 23072 (əlavə olaraq 120 yer müsabiqədənkənar) tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 45.35%-i I qrupun, 17.47%-i II qrupun, 19.77%-i III qrupun (bu qrup üzrə yerlərin 93.86%-i DT altqrupunun, 6.14%-i TC altqrupunun), 10.94%-i IV qrupun, 6.46%-i V qrupun payına düşürdü. Ötən illə müqayisədə cari ildə dövlət büdcəsinin vəsaiti hesabına tələbə qəbuluna ayrılan yerlərin sayı 2.94% (658 yer) artmış, ümumi qəbul planındakı payı isə 45.20%-dən 44.98%-dək azalmışdır. Ayrılmış yerlərin sayındakı dəyişiklik ixtisas qrupları üzrə müxtəlif olmuşdur. Cari ildə I, III və IV qruplara daxil olan ixtisaslar üçün ayrılan yerlər müvafiq olaraq, 6.13, 5.53 və 1.73% artmış, II və V qruplara daxil olan ixtisaslar üçün isə müvafiq olaraq 4.23 və 3.24% azalmışdır. Lakin keçən il II ixtisas qrupuna aid olan bəzi ixtisasların cari ildə III ixtisas qrupunun TC altqrupuna daxil olduğunu nəzərə alsaq, o zaman bir qədər fərqli mənzərəni görərik. 2021-ci ildə bu ixtisaslar üzrə dövlət sifarişi əsasında 280 yer ayrıldığını nəzərə alaraq müqayisə aparsaq, cari ildə II qrup üzrə ayrılan yerlərin 2.42% (102 yer) artdığını, III qrup üzrə isə, əksinə, 0.95% (41 yer) azaldığını görərik.

Ümumiyyətlə, son beş ildə dövlət sifarişi üzrə ayrılan plan yerlərində kəskin artım müşahidə olunub. Belə ki, 2018-ci illə müqayisədə 2022-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin sayı birdən-birə 95.44% (11267 yer) artmışdır (1.1.1 saylı şəklə bax).



Şəkil 1.1.1

2018-ci illə müqayisədə 2022-ci ildə hər 100 məzuna düşən dövlət sifarişli plan yerlərinin sayı da 1.8 dəfə artmışdır. 2018-ci ildə hər 100 məzuna 14-15 yer düşürdüsə, 2022-ci ildə bu göstərici 25-26-ya bərabər olmuşdur.

Bu il 30 mülki dövlət və 11 özəl ali təhsil müəssisəsi dövlət sifarişinin yerinə yetirilməsində iştirak etmişdir. Ali təhsil müəssisələri arasında dövlət sifarişi əsasında ən çox mütəxəssis hazırlamaq imkanına Bakı Dövlət Universiteti (5432 yer), Azərbaycan Dövlət Pedaqoji Universiteti (3496 yer), Azərbaycan Dövlət İqtisad Universiteti (3466 yer) və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (3414 yer) malik olmuşdur.

Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqə Azərbaycan və rus bölmələri ilə birgə aparılmışdır. Nəticədə, Azərbaycan bölməsindən 60999, rus bölməsindən isə 6377 abituriyent bu yerlərin müsabiqəsində iştirak etmək hüququ qazanmışdı. Ümumilikdə isə dövlət sifarişi ilə qəbul aparılan yerlərin müsabiqəsində 67376 abituriyent və 15100 subbakalavr iştirak etmək hüququ qazanmışdı. Abituriyentlərin 28.25%-i (19032 nəfər) I qrupun, 8.96%-i (6040 nəfər) II qrupun, 20.63%-i (13899 nəfər) III qrupun (onlardan 99.26%-i (13796 nəfər) DT altqrupunun, 15.55%-i (2161) TC altqrupunun), 6.13%-i (4130 nəfər) IV qrupun, 82.66%-i (55690 nəfər) V qrupun, subbakalavrların 34.15%-i (5157 nəfər) I qrupun, 34.85%-i (5262 nəfər) II qrupun, 18.44%-i (2784 nəfər) III qrupun, 12.09%-i (1825 nəfər) IV qrupun, 2.32%-i (351 nəfər) V qrupun payına düşüb.

V ixtisas qrupuna istəyin bu dərəcədə yüksək olması daha çox cari ilin məzunları ilə bağlıdır. Bildiyimiz kimi, cari ilin məzunları V ixtisas qrupu üzrə ixtisasların müsabiqəsində buraxılış imtahanının nəticələri əsasında iştirak ediblər. Həmçinin cari ilin məzunları ali təhsil müəssisələrinə qəbul kampaniyasında ilk dəfə iştirak etdikləri üçün onların iştirakı dövlət büdcəsi tərəfindən maliyyələşdirilmişdir. Qeyd olunan səbəblərə görə cari ilin məzunları ərizələrində həm də V ixtisas qrupunu seçmişlər, baxmayaraq ki, faktiki olaraq onların bir çoxunun bu qrupa aid olan ixtisaslara marağı çox az olub və yaxud heç olmayıb. Belə ki, müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlərin 82.66%-i V ixtisas qrupunun payına düşsə də, belələri ixtisas seçimində iştirak edən abituriyentlər arasında cəmi 18.91% təşkil etmişdir.

Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlərin 38991-i (57.87%), subbakalavrlardan isə 9299-u (61.58%) öz ərizələrində bu yerləri qeyd etmişdi. Ötən illə müqayisədə abituriyentlər arasında müsabiqə iştirakçılarının sayı 11.76% çox olmuş, onların 90.66%-i (35350 nəfər) Azərbaycan, 9.34%-i (3641 nəfər) isə rus bölməsini təmsil etmişdir. Azərbaycan bölməsində abituriyentlərin 40.96%-i I qrupun, 13.57%-i II qrupun, 22.71%-i III qrupun (onlardan 94.16%-i DT, 14.60%-i TC altqrupunun), 7.83%-i IV qrupun, 17.92%-i isə V qrupun dövlət sifarişli yerlərini öz ərizələrində qeyd etmişdi. Rus bölməsində bu göstəricilər müvafiq olaraq 35.37%, 12.00%, 21.64% (onlardan 91.24%-i DT, 23.60%-i TC), 8.49% və 28.48%-dir. Ən yüksək müsabiqə vəziyyəti V qrupda (1 yerə 4.2 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə IV qrupda (1 yerə 1.0 ərizə) müşahidə edilmişdir.

Təhlil göstərir ki, ödənişli ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 97.81%-i dövlət sifarişi əsasında qəbul aparılan yerlərin müsabiqəsində iştirak etmək hüququ qazanmışdır. Qeyd edək ki, cari ildə dövlət sifarişi və ödənişli yerlər üçün müsabiqə şərtləri eyni olmuşdur. Bu göstərici I, IV və V qruplar üzrə 100%, II qrup üzrə 61.60%, III qrup üzrə isə 83.05% təşkil etmişdir. II və III qruplar üzrə dövlət sifarişi və ödənişli yerlər üzrə müsabiqə şərtlərinin eyni olmasına baxmayaraq, göstəricilərin 100%-dən az olmasının səbəbi bəzi ixtisasların ödənişli yerləri üzrə müsabiqə şərtlərinin müsabiqəyə buraxılmaq üçün qoyulan ümumi şərtlərdən aşağı (bu ixtisasların ödənişli yerləri üzrə müsabiqədə iştirak etmək üçün tələb olunan minimal bal 150 olub) olması ilə əlaqədardır. I və IV ixtisas qruplarında da bəzi ixtisasların müsabiqəsində iştirak üçün tələb olunan minimal bal 150 olub, lakin bu müsabiqə şərti həm də həmin ixtisasların dövlət sifarişi üzrə ayrılan yerlərinə də şamil olunmuşdur. Bu hesabla, əlavə olaraq I qrupda 5011 nəfərin, IV qrupda isə 646 nəfərin təkcə bu ixtisasların dövlət sifarişli yerlərinin müsabiqəsində iştirak etmək hüququ olmuşdur. Əgər bu abituriyentlər nəzərə alınmasa idi, o zaman təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin I qrup üzrə yalnız 73.67%-nin, IV qrup üzrə 84.36%-nin, bütövlükdə isə 96.13%-nin dövlət sifarişi əsasında qəbul aparılan yerlərin müsabiqəsində iştirak etmək hüququ olardı.

Dövlət sifarişi əsasında qəbul aparılan yerlərin, bu yerlər uğrunda müsabiqədə iştirak etmək hüququ qazanan və iştirak edən abituriyentlərin ixtisas qrupları üzrə paylanması, eləcə də qruplarda yaranan müsabiqə vəziyyəti 1.1.1 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.1

DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	İxtisas qrupu		Dövlət sifarişi	Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı			Müsabiqədə iştirak edən abituriyentlərin sayı			Müsabiqə vəziyyəti
				Azərb. bölməsi	Rus bölməsi	Bütöv-lükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütöv-lükdə	
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları		10464[1]	17365	1667	19032	14480	1288	15768	1.286
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları		4031	5532	508	6040	4796	437	5233	1.225
III	Humanitar, pedaqogika ixtisasları	Bütövlükdə	4561	12524	1375	13899	8028	788	8816	1.656
		DT altqrupu	4281	12445	1351	13796	7559	719	8278	1.599
		TC altqrupu	280	1871	290	2161	1172	186	1358	3.121
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları		2525[2]	3538	592	4130	2769	309	3078	1.024
V	İncəsənət, musiqi, idman ixtisasları		1491	51111	4579	55690	6335	1037	7372	4.220
C Ə M İ			**23072**	**60999**	**6377**	**67376**	**35350**	**3641**	**38991**	**1.498**

1) I qrupda əlavə olaraq maksimum 315 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

2) IV qrupda əlavə olaraq maksimum 105 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Plan yerləri və müsabiqədə iştirak edən abituriyentlərin sayının 1992-2022-ci illər üzrə dinamikasının (şəkil 1.1.3) təhlili göstərir ki, 1996-cı ildən başlayaraq, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlər üzrə qəbul planı 2019-cu ilə kimi, demək olar ki, sabit qalıb. 2019-cu ildə isə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlərin sayında kəskin artım müşahidə olunur. 2020, 2021 və 2022-ci illərdə də bu tendensiya davam etmiş və ötən illə müqayisədə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlərin sayı artmışdır.

Müsabiqə iştirakçılarının sayında illər ərzində böyük dəyişikliklər baş verib. Bu dəyişikliklər, bir tərəfdən, məktəb məzunlarının sayı və onların qəbul imtahanlarında nümayiş etdirdikləri bilik səviyyəsi ilə əlaqədardırsa, digər tərəfdən, ayrı-ayrı illərdə DİM-in müsabiqə şərtlərində apardığı təkmilləşdirmələrlə bağlıdır. Test üsulu ilə qəbul aparılan ilk illərdə dəyişikliklər daha çox olub. Ən ciddi dəyişiklik 2002 və 2010-cu illərə təsadüf etmişdir ki, bu da 2002-ci ildə respublikada məktəb məzunlarının sayının kəskin şəkildə azalması, 2010-cu ildə isə ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi ilə əlaqədardır.

1992-2022-Cİ İLLƏRDƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ DİNAMİKASI (DÖVLƏT BÜDCƏSİNİN VƏSAİTİ HESABINA MALİYYƏLƏŞƏN YERLƏR ÜZRƏ MÜSABİQƏ ŞƏRTLƏRİNİ ÖDƏYƏN ABİTURİYENTLƏR)



Şəkil 1.1.3

İxtisas qrupları üzrə builki qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyətinin ötən ilin müvafiq göstəriciləri ilə müqayisəsinin rəqəmlərlə ifadəsi 1.1.2 saylı cədvəldə təqdim edilir. Ötən illə müqayisədə cari ildə ərizələrin sayı 11.76% artıb.

Cari ildə dövlət büdcəsi vəsaiti hesabına maliyyələşən yerlərlə müqayisədə ərizələrin daha çox artması nəticəsində bu yerlərə müsabiqə 7.77% artmışdır. Hər bir qrup üzrə ayrılıqda baxdıqda, müsabiqə vəziyyətinin IV qrupdan başqa digər qruplarda artdığı müşahidə olunur.

2022-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin müsabiqəsində iştirak etmək üçün 9299 subbakalavr ərizə verib. Onların 37.93%-i (3527 nəfər) I qrupa, 29.42%-i (2736 nəfər) II qrupa, 18.23%-i (1695 nəfər) III qrupa, 12.71%-i (1182 nəfər) IV qrupa, 3.26%-i (303 nəfər) isə V qrupa ərizə verib.

Cədvəl 1.1.2

2021-Cİ VƏ 2022-Cİ İLLƏR ÜZRƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ (DÖVLƏT BÜDCƏSİNİN VƏSAİTİ HESABINA MALİYYƏLƏŞƏN YERLƏR ÜZRƏ MÜSABİQƏ ŞƏRTLƏRİNİ ÖDƏYƏN ABİTURİYENTLƏR)

İxtisas qrupu	Dövlət sifarişi (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2021	2022	fərq, %-lə	2021	2022	fərq, %-lə	2021	2022	fərq, %-lə
I	9860	10464	+6.13	12475	15768	+26.40	1.087	1.286	+18.31
II	4209	4031	-4.23	4960	5233	+5.50	1.126	1.225	+8.79
III	4322	4561	+5.53	8338	8816	+5.73	1.629	1.656	+1.66
IV	2482	2525	+1.73	3036	3078	+1.38	1.041	1.024	-1.63
V	1541	1491	-3.24	6982	7372	+5.59	4.065	4.220	+3.81
CƏMİ	**22414**	**23072**	**+2.94**	**34887**	**38991**	**+11.76**	**1.390**	**1.498**	**+7.77**

("-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir)

Builki qəbul imtahanlarının nəticələrinə əsasən ali təhsil müəssisələrinin dövlət sifarişi əsasında ayrılan 23072 plan yerinə 23223 nəfər qəbul olmuş, dövlət sifarişi 100.65% yerinə yetirilmişdir. Qəbul olanlardan 444 nəfəri Azərbaycan Dövlət Aqrar Universiteti, Naxçıvan Dövlət Universiteti və Lənkəran Dövlət Universiteti üçün nəzərdə tutulmuş əlavə yerlərə qəbul olmuşdur.

Hər il ali təhsil müəssisələrinə qeydiyyat başa çatdıqdan sonra məlum olur ki, bəzi abituriyentlər müəyyən ixtisaslar üzrə təhsil almaqdan imtina edirlər. Nəticədə, bu ixtisaslar üzrə dövlət sifarişi əsasında ayrılan yerlərin bir hissəsi boş qalır. Bundan başqa, müəyyən ixtisaslar üzrə də müsabiqə şərtini ödəyən abituriyentlərin sayı kifayət qədər olmadığı üçün boş yerlər qalır. Bu səbəbdən, 2021-ci ildə ilk dəfə olaraq hər hansı bir ixtisas üzrə boş qalan dövlət sifarişli yerlər "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı"na əsasən həmin ixtisasın daxil olduğu ixtisaslar qrupuna aid olan digər ixtisaslara ödənişli əsaslarla qəbul olan abituriyentlər arasında onların qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən paylanıb. Beləliklə, ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olan abituriyentlərin bir hissəsi dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq imkanı əldə edib. Cari ildə də boş qalan yerlər bu formada digər ixtisaslar arasında paylanmışdır. Bu səbəbdən də aşağıdakı cədvəldə bəzi qruplarda dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olma faizi 100-dən çox olmuşdur. Məsələn, ali təhsil müəssisələrinə yerləşdirmə başa çatdıqdan sonra "Turzim işinin təşkili" ixtisası üzrə dövlət sifarişi əsasında ayrılan yerlərdən 71-i boş qalmışdı. Bu ixtisas "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı"na əsasən "Səhiyyə, rifah və xidmət ixtisasları qrupu"na daxildir. Bu səbəbdən, boş qalan 71 yer həmin qrupa daxil olan "Sosial iş" (55 yer), "Fizioterapiya və tibbi reabilitasiya" (7 yer), "Bədən tərbiyəsi və idmanda reabilitasiya" (5 yer) və "Tibb bacısı işi" (4 yer) ixtisasları üzrə ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olan və ən yüksək nəticə əldə edən 71 abituriyent arasında bölüşdürülmüşdür. Nəticədə, bu abituriyentlər qəbul olduqları ixtisaslar üzrə dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq imkanı əldə etmişlər.

Dövlət sifarişli yerlər üzrə müsabiqədə I ixtisas qrupundan 19295 nəfər (15768 abituriyent, 3527 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 55.00%-i, rus bölməsində isə 62.70%-i qəbul olmuş, dövlət sifarişi 102.48% yerinə yetirilmişdir. II ixtisas qrupu üzrə müsabiqədə 7969 nəfər (5233 abituriyent, 2736 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 49.05%-i, rus bölməsində isə 58.52%-i qəbul olmuş, dövlət sifarişi 98.24% yerinə yetirilmişdir. III ixtisas qrupundan müsabiqədə 10511 nəfər (8816 abituriyent, 1695 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 44.42%-i, rus bölməsində isə 38.20%-i qəbul olmuş, dövlət sifarişi üzrə ayrılan yerlər 101.21% dolmuşdur. IV ixtisas qrupundan müsabiqədə 4260 nəfər (3078 abituriyent, 1182 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 57.37%-i, rus bölməsində isə 54.26%-i qəbul olmuş, dövlət sifarişi 96.36% yerinə yetirilmişdir. V ixtisas qrupundan müsabiqədə 7675 nəfər (7372 abituriyent, 303 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 18.78%-i, rus bölməsində isə 23.54%-i qəbul olmuş, dövlət sifarişi üzrə ayrılan yerlər 100% dolmuşdur.

Dövlət sifarişinin ən az yerinə yetirilmə faizi IV ixtisas qrupunda olmuşdur (96.36%). I, III və V ixtisas qruplarında plan yerləri tam dolmuşdur. Dövlət sifarişi əsasında ayrılan yerlər üzrə qəbulun nəticələri 1.1.3 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.3

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu		Dövlət sifarişi üzrə ayrılan yerlərin sayı	Qəbul olanların sayı (ADAU, NDU və LDU üçün ayrılmış əlavə yerlər və qeydiyyat başa çatdıqdan sonra boş qalan dövlət sifarişli yerlərin paylanması da nəzərə alınmaqla)			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I		10464	9529 (9817)	873 (906)	10402 (10723)	99.41 (102.48)
II		4031	3644 (3644)	316 (316)	3960 (3960)	98.24 (98.24)
III	ümumilikdə	4561	4229 (4289)	326 (327)	4555 (4616)	99.87 (101.21)
	DT altqrupu	4281	3987 (4047)	288 (289)	4275 (4336)	99.86 (101.28)
	TC altqrupu	280	242 (242)	38 (38)	280 (280)	100.00 (100.00)
IV		2525	2211 (2242)	191 (191)	2402 (2433)	95.13 (96.36)
V		1491	1216 (1246)	244 (245)	1460 (1491)	97.92 (100.00)
CƏMİ		**23072**	**20829 (21238)**	**1950 (1985)**	**22779 (23223)**	**98.73 (100.65)**

Bütün ixtisas qrupları üzrə bütövlükdə götürüldükdə, qəbul olanların 91.45%-i (21238 nəfər) Azərbaycan, 8.55%-i (1985 nəfər) rus bölməsinə aiddir. 2021-ci ildə bu göstəricilər müvafiq olaraq 91.94 faiz (20578 nəfər) və 8.06 faiz (1804 nəfər) təşkil etmişdi. Bölmələr üzrə son on iki ilin qəbul imtahanlarının nəticələrinin təhlilindən aydın olur ki, dövlət vəsaiti hesabına maliyyələşdirilən yerlərə müsabiqənin Azərbaycan və rus bölmələri ilə birgə aparılması zəif müsabiqə vəziyyəti yaranan rus bölməsinə qəbul olanların faizinin azalmasına səbəb olmuşdur. Belə ki, bu illər ərzində Azərbaycan bölməsinə qəbul olanların faizi 82.65-dən 91.45-ə qədər artmış, rus bölməsində isə 17.35-dən 8.55-ə qədər azalmışdır.

Ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin 46.58%-ni (20175 nəfər) oğlanlar, 53.42%-ni (23139 nəfər) qızlar təşkil edib. Dövlət sifarişi üzrə ali təhsil müəssisələrinə qəbul olanların 51.66%-ni (11870 nəfər) qız və 48.34%-ni (11106 nəfər) oğlan abituriyentlər təşkil edib. Subbakalavrlar arasında qəbul olanların 35.36%-ni (1267 nəfər) oğlanlar, 64.64%-ni (2316 nəfər) qızlar təşkil edib. Dövlət sifarişi üzrə ayrılan yerlərə qəbul olanlar arasında isə oğlanların payı 44.13% (109 nəfər), qızların payı isə 55.87% (138 nəfər) olub.

Cari ilin məzunları arasında da analoji vəziyyət müşahidə olunur. Belə ki, ali təhsil müəssisələrinə qəbul olanların 46.73%-ni (17991 nəfər) oğlanlar, 53.27%-ni (20510 nəfər) qızlar, dövlət sifarişi əsasında qəbul olanların isə 48.41%-ni (10208 nəfər) oğlanlar, 51.59%-ni (10879 nəfər) qızlar təşkil edib.

Məlum olduğu kimi, 2022-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin nisbi sayı 2021-ci illə müqayisədə azalmış, ümumi qəbul planındakı payı 45.20%-dən 44.98%-ə düşmüşdür. Bu həmin yerlərə qəbul olanların sayında da öz əksini tapmışdır. 1.1.4 və 1.1.5 saylı şəkilləri müqayisə etdikdə görürük ki, 2022-ci ildə dövlət sifarişi əsasında qəbul olanların ümumi qəbul olanların içərisindəki payı 57.52%-dən 53.05%-dək azalmışdır.

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TƏHSİL FORMALARI ÜZRƏ PAYLANMASI

2021-ci il	**2022-ci il**
	
Şəkil 1.1.4	Şəkil 1.1.5

1.1.6 saylı şəkildə 2021 və 2022-ci illərdə ali təhsil müəssisələrinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən və ödənişli təhsil üzrə (xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla) qəbul olmuş abituriyentlərin imtahan ballarının paylanma diaqramları ixtisas qrupları ardıcıllığında təqdim edilmişdir. Diaqramların müqayisəli təhlili zamanı ötən ilə nəzərən 500-dən az bal toplayanlar seçməsində dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə qəbul olan abituriyentlərin nisbi çəkisinin azalması müşahidə olunur. Bunun başlıca səbəbi ötən illə müqayisədə dövlət sifarişi üzrə ayrılan yerlərin ümumi qəbul planındakı payının azalmasıdır. 600-700 bal intervalında nəticə göstərən abituriyentlər seçməsində də dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə qəbul olan abituriyentlərin nisbi çəkisinin azalması müşahidə olunur. Buna səbəb kimi yüksək hazırlıqlı abituriyentlərin seçimində təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına və yaxud öz hesabına olmasından asılı olmayaraq, ali təhsil müəssisələrinin və ixtisasların nüfuzu olmuşdur. Məsələn, I və II ixtisas qruplarında yüksək hazırlıqlı abituriyentlər Bakı Ali Neft Məktəbi və "ADA" Universitetinin ödənişli ixtisaslarını da öz ərizələrində ilk yerlərdə qeyd etmişdir.

2021 və 2022-ci İLLƏRDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMALARI ÜZRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN BALLARININ PAYLANMA DİAQRAMLARI
(ixtisas qrupları üzrə, xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)



Şəkil 1.1.6

Ayrı-ayrı ali təhsil müəssisələrinin dövlət sifarişi ilə tələbə qəbulu imkanları (təhsil müəssisəsinin inhisarında olan ixtisaslar və digər ali təhsil müəssisələri ilə birgə qəbul aparılan ixtisaslar üzrə) və bu imkanlardan istifadə edilməsini əks etdirən göstəricilər (qəbulolma faizləri) 1.1.4 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.4

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT SİFARİŞİ İLƏ TƏLƏBƏ QƏBULU İMKANLARI VƏ QƏBULUN NƏTİCƏLƏRİ

(subbakalavrlar istisna olmaqla)

№	Ali təhsil müəssisəsi	Dövlət sifarişi üzrə ali təhsil müəssisəsinin kadr hazırlığı imkanı və qəbulun nəticəsi					o cümlədən dövlət sifarişi üzrə kadr hazırlığı üçün ali təhsil müəssisəsinin				
							inhisarında olan faktiki		digər ali təhsil müəssisələri ilə rəqabət apardığı faktiki		
		yerlərin sayı	bütün ali təhsil müəssisələri üzrə istifadə olunmayan yerlərin sayı	faktiki yerlərin sayı	faktiki yerlər üzrə qəbul olanların sayı	faktiki yerlər üzrə qəbulolma faizi	yerlərin sayı	yerlərin faizi	yerlərin sayı	yerlər üzrə qəbul olanların sayı	yerlər üzrə qəbulolma faizi
1	Bakı Dövlət Universiteti	5432	0	5432	3998	73.60	1191	21.93	4241	2807	66.19
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	3414	0	3414	2811	82.34	610	17.87	2804	2201	78.50
3	Azərbaycan Texniki Universiteti	2345	7	2338	1216	52.01	218	9.32	2120	998	47.08
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	2209	4	2205	1110	50.34	512	23.22	1693	598	35.32
5	Azərbaycan Tibb Universiteti	674	0	674	641	95.10	554	82.20	120	87	72.50
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3496	0	3496	1706	48.80	24	0.69	3472	1682	48.44
7	Azərbaycan Dövlət İqtisad Universiteti	3466	0	3466	2746	79.23	40	1.15	3426	2706	78.98
8	Azərbaycan Dillər Universiteti	1209	0	1209	808	66.83	0	0.00	1209	808	66.83
9	Bakı Slavyan Universiteti	1094	0	1094	151	13.80	0	0.00	1094	151	13.80
10	Bakı Mühəndislik Universiteti	900	0	900	601	66.78	25	2.78	875	576	65.83
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	441	0	441	357	80.95	5	1.13	436	352	80.73
12	Bakı Musiqi Akademiyası	150	2	148	95	64.19	0	0.00	148	95	64.19
13	Azərbaycan Milli Konservatoriyası	208	15	193	110	56.99	0	0.00	193	110	56.99
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	602	4	598	425	71.07	131	21.91	467	294	62.96
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	294	12	282	200	70.92	41	14.54	241	159	65.98
16	Azərbaycan Turizm və Menecment Universiteti	500	0	500	259	51.80	0	0.00	500	259	51.80
17	Bakı Xoreoqrafiya Akademiyası	49	0	49	38	77.55	30	61.22	19	8	42.11
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	577	0	577	530	91.85	263	45.58	314	267	85.03
19	Milli Aviasiya Akademiyası	536	0	536	417	77.80	120	22.39	416	297	71.39
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	150	0	150	150	100.0	130	86.67	20	20	100.0
21	Bakı Ali Neft Məktəbi	125	0	125	122	97.60	0	0.00	125	122	97.60
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	140	0	140	116	82.86	0	0.00	140	116	82.86
23	Naxçıvan Dövlət Universiteti	1390	4	1386	484	34.92	19	1.37	1367	465	34.02
24	Naxçıvan Müəllimlər İnstitutu	430	0	430	19	4.42	0	0.00	430	19	4.42
25	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	1715	137	1578	888	56.27	449	28.45	1129	439	38.88
26	Gəncə Dövlət Universiteti	1706	0	1706	496	29.07	0	0.00	1706	496	29.07

Cədvəl 1.1.4 (ardı)

№	Ali təhsil müəssisəsi	Dövlət sifarişi üzrə ali təhsil müəssisəsinin kadr hazırlığı imkanı və qəbulun nəticəsi					o cümlədən, dövlət sifarişi üzrə kadr hazırlığı üçün ali təhsil müəssisəsinin				
							inhisarında olan faktiki		digər ali təhsil müəssisələri ilə rəqabət apardığı faktiki		
		yerlərin sayı	bütün ali təhsil müəssisələri üzrə istifadə olunmayan yerlərin sayı	faktiki yerlərin sayı	faktiki yerlər üzrə qəbul olanların sayı	faktiki yerlər üzrə qəbulolma faizi	yerlərin sayı	yerlərin faizi	yerlərin sayı	yerlər üzrə qəbul olanların sayı	yerlər üzrə qəbulolma faizi
27	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	1005	0	1005	55	5.47	0	0.00	1005	55	5.47
28	Sumqayıt Dövlət Universiteti	1489	0	1489	278	18.67	29	1.95	1460	249	17.05
29	Mingəçevir Dövlət Universiteti	1310	0	1310	123	9.39	0	0.00	1310	123	9.39
30	Lənkəran Dövlət Universiteti	1800	26	1774	411	23.17	88	4.96	1686	323	19.16
31	Azərbaycan Kooperasiya Universiteti	1170	0	1170	59	5.04	0	0.00	1170	59	5.04
32	Azərbaycan İlahiyyat İnstitutu	72	6	66	66	100.0	51	77.27	15	15	100.0
33	Azərbaycan Universiteti	875	0	875	112	12.80	0	0.00	875	112	12.80
34	Qərbi Kaspi Universiteti	1100	0	1100	211	19.18	0	0.00	1100	211	19.18
35	Xəzər Universiteti	1070	0	1070	599	55.98	0	0.00	1070	599	55.98
36	Bakı Avrasiya Universiteti	864	0	864	3	0.35	0	0.00	864	3	0.35
37	Bakı Qızlar Universiteti	440	0	440	31	7.05	0	0.00	440	31	7.05
38	Odlar Yurdu Universiteti	1000	0	1000	69	6.90	0	0.00	1000	69	6.90
39	Bakı Biznes Universiteti	925	0	925	8	0.86	0	0.00	925	8	0.86
40	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	465	0	465	16	3.44	0	0.00	465	16	3.44
41	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	305	0	305	18	5.90	0	0.00	305	18	5.90

Cədvəldən göründüyü kimi, ən yüksək qəbulolma göstəricisi Azərbaycan Dövlət Dəniz Akademiyası (100%), Azərbaycan İlahiyyat İnstitutu (100%), Bakı Ali Neft Məktəbi (97.60%) və Azərbaycan Tibb Universitetinə (95.10%) aiddir.

Azərbaycan Dövlət Dəniz Akademiyası dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 150 tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin 130-u bilavasitə onun inhisarında olan, 20-si isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Azərbaycan Dövlət Dəniz Akademiyasının digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 20 nəfər qalibin hamısı təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçmişdir.

Azərbaycan İlahiyyat İnstitutunun dövlət büdcəsi hesabına ayrılan 66 yerdən 15-i digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər olub. Bu yerlərə qəbul olan 15 qalibdən hamısı Azərbaycan İlahiyyat İnstitutunda təhsilini davam etdirməyə üstünlük verib. Bunun əsas səbəbi bu ali təhsil müəssisəsinə dövlət sifarişi üçün ayrılan yerlərin müsabiqə şərtlərinin digər təhsil müəssisələrindən aşağı olmasıdır. Belə ki, III ixtisas qrupunda dövlət sifarişi üzrə ayrılan yerlərin müsabiqəsində iştiraka ən azı 200 bal toplayan abituriyentlər buraxıldığı halda, Azərbaycan İlahiyyat İnstitutunun ixtisaslarının müsabiqəsinə ən azı 150 bal toplayan abituriyentlər buraxılıb.

Bakı Ali Neft Məktəbi dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 125 tələbə qəbul etmək imkanına malik olub. Bu yerlərin hamısı digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Müsabiqədə Bakı Ali Neft Məktəbi böyük üstünlüyə malik olub və 125 qalibdən 122-si təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçib.

Azərbaycan Tibb Universiteti dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 674 tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərdən 554-ü bilavasitə onun inhisarında olan, 120-si isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Azərbaycan Tibb Universitetinin digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 120 qalibin 87-si təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçmişdir.

Dövlət ali təhsil müəssisələri arasında dövlət sifarişi ilə tələbə qəbulunda ən aşağı nəticə Naxçıvan Müəllimlər İnstitutuna məxsusdur. Bu ali təhsil müəssisəsi dövlət sifarişi üzrə 430 tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin hamısı digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Nəticədə, Naxçıvan Müəllimlər İnstitutunun digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 430 qalibdən yalnız 19-u bu ali təhsil müəssisəsini seçmişdir.

Zəif nəticə göstərən digər təhsil müəssisələri Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), Mingəçevir Dövlət Universiteti və Bakı Slavyan Universitetidir. Bu ali təhsil müəssisələri dövlət vəsaiti hesabına təhsil almaq üçün müvafiq olaraq 1005, 1310 və 1094 tələbə qəbul etmək imkanına malik idi. Müsabiqə adları qeyd olunan ali təhsil müəssisələrinin yüksək hazırlıqlı abituriyentlər arasında çox zəif nüfuza malik olduğunu göstərib. Belə ki, abituriyentlər Azərbaycan Texnologiya Universitetinin (Gəncə ş.) digər ali təhsil müəssisələri ilə birgə müsabiqəsi üçün ayrılan 929 dövlət sifarişli yerdən yalnız 55-ni (5.47%), Mingəçevir Dövlət Universiteti üçün ayrılan 1310 dövlət sifarişli yerdən yalnız 123-nü (9.39%), Bakı Slavyan Universitetinə ayrılan 1094 yerdən yalnız 151-ni (13.80%) seçmişlər.

Dövlət sifarişi üzrə tələbə qəbulunun müsabiqəsində 11 özəl ali təhsil müəssisəsi iştirak etmişdir. Onların hamısı birlikdə müxtəlif ixtisaslar üzrə dövlət büdcəsinin vəsaiti hesabına 8280 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin böyük əksəriyyəti digər ali təhsil müəssisələrinin (dövlət və özəl) də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Bütövlükdə götürdükdə, dövlət sifarişi ilə təhsil almaq hüququ qazanan cəmi 1192 abituriyent təhsilini özəl ali təhsil müəssisələrində davam etdirmək istədiyini bildirmişdi. 1192 qalibdən 599-u isə Xəzər Universitetini seçmişdir. Beləliklə, abituriyentlər öz ixtisas seçimləri ilə bu özəl ali təhsil müəssisəsinə böyük inam göstərdiklərini nümayiş etdirmişlər.

Bu il ali təhsil müəssisələri üzrə, bütövlükdə, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən ixtisaslara qəbul olanların (subbakalavrlar da nəzərə alınmaqla) 86.26%-i (20031 nəfər) Bakı şəhərində, 13.74%-i (3192 nəfər) isə respublikanın regionlarında yerləşən ali təhsil müəssisələrini seçmişdir. 2021-ci ildə bu göstəricilər müvafiq olaraq 86.18%-i (19289 nəfər) və 13.82%-i (3093 nəfər) olmuşdu. Bakı şəhərində və regionlarda yerləşən ali təhsil müəssisələrinə son on üç ildə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə qəbul olanların nisbi çəkisinin müqayisəli təhlili göstərir ki, bu illər ərzində Bakı şəhərində yerləşən ali təhsil müəssisələrinə qəbul olanların faizi 79.73-dən 86.26-ya qədər artmış, regionlarda yerləşən ali təhsil müəssisələrinə qəbul olanların faizi isə 20.27-dən 13.74-ə qədər azalmışdır. Beləliklə, aydın olur ki, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə müsabiqənin bütün ali təhsil müəssisələri üzrə mərkəzləşdirilmiş şəkildə aparılması ötən illərlə müqayisədə hazırda regionlarda yerləşən ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə qəbul olanların faizinin azalmasına səbəb olmuşdur.

1.1.5 saylı cədvəldə qruplar və ixtisaslar üzrə dövlət sifarişi ilə tələbə qəbuluna ayrılan yerlərin sayı (tələbə qəbulunun proqnozu) və qəbulun nəticələri təqdim edilmişdir. Cədvəldə ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin sayı həm bütövlükdə, həm də təhsil müəssisələri üzrə ayrılıqda verilmişdir. Cədvəldə təqdim edilən rəqəmlərin təhlili göstərir ki, bütövlükdə, dövlət sifarişi əsasında qəbul aparılan yerlərə qəbulolma faizi yüksəkdir.

Artıq 10 ildir ki, kənd təsərrüfatı ixtisaslarına abituriyentlərin marağını artırmaq məqsədilə bu ixtisaslara qəbul üçün əlavə olaraq dövlət sifarişli yerlər ayrılır. Bundan əlavə, kənd təsərrüfatı ixtisaslarının bir çoxunun 2015-ci ildə IV qrupdan abituriyentlərin sayı çox olan I qrupa keçirilməsi bu ixtisaslar üzrə müsabiqəyə və qəbula ciddi dərəcədə yaxşı təsir göstərib. Məlum olduğu kimi, son illər I qrupa ərizə verən abituriyentlərin sayı daha da artmışdır.

"Memarlıq", "İlahiyyat" və "Jurnalistika" ixtisasları istisna olmaqla, qalan bütün xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə buraxılış imtahanının (qəbul imtahanının I mərhələsinin) nəticələri əsasında aparılıb və nəticədə bu ixtisaslar üzrə müsabiqə vəziyyəti xeyli yaxşılaşıb.

Cədvəl 1.1.5

QRUPLAR VƏ İXTİSASLAR ÜZRƏ DÖVLƏT SİFARİŞİ İLƏ TƏLƏBƏ QƏBULUNA AYRILAN YERLƏRİN SAYI VƏ QƏBULUN NƏTİCƏLƏRİ
(subbakalavrlar istisna olmaqla)

I QRUP

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
1	Aerokosmik mühəndislik	70	70	100.00	251.3	Azərbaycan Texniki Universiteti	13
						Milli Aviasiya Akademiyası	57
2	Aqromühəndislik	90	121	134.44	191.6	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	92
						Lənkəran Dövlət Universiteti	29
3	Aqronomluq	190	211	111.05	191.7	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	135
						Lənkəran Dövlət Universiteti	76
4	Aviasiya təhlükəsizliyi mühəndisliyi	30	30	100.00	375.6	Milli Aviasiya Akademiyası	30
5	Balıqçılıq	45	43	95.56	190.9	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	43
6	Cihaz mühəndisliyi	170	170	100.00	217.3	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	130
						Azərbaycan Texniki Universiteti	25
						Milli Aviasiya Akademiyası	13
						Qərbi Kaspi Universiteti	2
7	Dəniz naviqasiyası mühəndisliyi	60	60	100.00	414.3	Azərbaycan Dövlət Dəniz Akademiyası	60
8	Ekologiya mühəndisliyi	215	215	100.00	271	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	87
						Azərbaycan Texniki Universiteti	24
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	32
						Azərbaycan Dövlət İqtisad Universiteti	29
						Bakı Mühəndislik Universiteti	13
						Milli Aviasiya Akademiyası	14
						Naxçıvan Dövlət Universiteti	3
						Gəncə Dövlət Universiteti	1
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	3
						Sumqayıt Dövlət Universiteti	4
						Mingəçevir Dövlət Universiteti	5
9	Elektrik və elektronika mühəndisliyi	308	308	100.00	320.4	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	139
						Azərbaycan Texniki Universiteti	33
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	13
						Azərbaycan Dövlət İqtisad Universiteti	30
						Bakı Mühəndislik Universiteti	21
						Milli Aviasiya Akademiyası	25
						Azərbaycan Dövlət Dəniz Akademiyası	20
						Naxçıvan Dövlət Universiteti	6
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	3
						Mingəçevir Dövlət Universiteti	3
						Xəzər Universiteti	15

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
10	Energetika mühəndisliyi	310	310	100.00	284.1	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	156
						Azərbaycan Texniki Universiteti	84
						Bakı Mühəndislik Universiteti	30
						Milli Aviasiya Akademiyası	15
						Naxçıvan Dövlət Universiteti	8
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	6
						Sumqayıt Dövlət Universiteti	3
						Mingəçevir Dövlət Universiteti	8
11	Fizika	149	153	102.68	302.6	Bakı Dövlət Universiteti	131
						Naxçıvan Dövlət Universiteti	8
						Sumqayıt Dövlət Universiteti	14
12	Fizika müəllimliyi	260	260	100.00	384.9	Bakı Dövlət Universiteti	179
						Azərbaycan Dövlət Pedaqoji Universiteti	57
						Naxçıvan Dövlət Universiteti	2
						Gəncə Dövlət Universiteti	6
						Sumqayıt Dövlət Universiteti	1
						Mingəçevir Dövlət Universiteti	1
						Lənkəran Dövlət Universiteti	9
						Xəzər Universiteti	5
13	Geologiya	75	74	98.67	256.2	Bakı Dövlət Universiteti	49
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	25
14	Geologiya və geofizika mühəndisliyi	141	141	100.00	259.9	Bakı Dövlət Universiteti	53
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	88
15	Geomatika və geodeziya mühəndisliyi	70	70	100.00	244.8	Bakı Dövlət Universiteti	24
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	46
16	Gəmi energetik qurğularının istismarı mühəndisliyi	60	60	100.00	355.3	Azərbaycan Dövlət Dəniz Akademiyası	60
17	Gəmiqayırma və gəmi təmiri mühəndisliyi	10	10	100.00	347.9	Azərbaycan Dövlət Dəniz Akademiyası	10
18	Hava nəqliyyatının hərəkətinin təşkili	15	15	100.00	429.6	Milli Aviasiya Akademiyası	15
19	Hərbi kompozisiya materialları mühəndisliyi	20	20	100.00	255.5	Azərbaycan Texniki Universiteti	20
20	Hərbi rabitə vasitələri mühəndisliyi	20	20	100.00	277.5	Azərbaycan Texniki Universiteti	20
21	Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi	110	110	100.00	288.5	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	65
						Azərbaycan Texniki Universiteti	21
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	21
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	3

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
22	İnformasiya texnologiyaları	862	862	100.00	343.1	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	198
						Azərbaycan Texniki Universiteti	137
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	121
						Azərbaycan Dövlət İqtisad Universiteti	105
						Bakı Mühəndislik Universiteti	74
						Milli Aviasiya Akademiyası	42
						Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	20
						Naxçıvan Dövlət Universiteti	20
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	30
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	4
						Sumqayıt Dövlət Universiteti	21
						Mingəçevir Dövlət Universiteti	15
						Lənkəran Dövlət Universiteti	13
						"Azərbaycan" Universiteti	20
						Qərbi Kaspi Universiteti	30
						"Odlar Yurdu" Universiteti	3
						Bakı Biznes Universiteti	3
						"Naxçıvan" Universiteti (Naxçıvan ş.)	6
23	İnformasiya təhlükəsizliyi	396	396	100.00	478.3	Bakı Dövlət Universiteti	27
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	149
						Azərbaycan Texniki Universiteti	46
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	23
						Azərbaycan Dövlət İqtisad Universiteti	88
						Bakı Mühəndislik Universiteti	25
						Bakı Ali Neft Məktəbi	16
						Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	20
						Mingəçevir Dövlət Universiteti	2
24	İnformatika müəllimliyi	225	225	100.00	348.3	Bakı Dövlət Universiteti	158
						Azərbaycan Dövlət Pedaqoji Universiteti	48
						Naxçıvan Müəllimlər İnstitutu	3
						Gəncə Dövlət Universiteti	15
						Sumqayıt Dövlət Universiteti	1
25	İnşaat mühəndisliyi	276	276	100.00	297.7	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	49
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	182
						Bakı Mühəndislik Universiteti	38
						Xəzər Universiteti	7
26	Kimya mühəndisliyi	263	263	100.00	390.9	Bakı Dövlət Universiteti	30
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	149
						Azərbaycan Texniki Universiteti	1
						Bakı Mühəndislik Universiteti	45
						Bakı Ali Neft Məktəbi	23
						Xəzər Universiteti	15

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
27	Kommunikasiya sistemləri mühəndisliyi	120	120	100.00	287.4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	81
						Azərbaycan Dövlət İqtisad Universiteti	39
28	Kompüter elmləri	620	641	103.39	315.1	Bakı Dövlət Universiteti	211
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	145
						Azərbaycan Texniki Universiteti	59
						Azərbaycan Dövlət İqtisad Universiteti	65
						Bakı Mühəndislik Universiteti	50
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	58
						Gəncə Dövlət Universiteti	6
						Xəzər Universiteti	47
29	Kompüter mühəndisliyi	644	644	100.00	338.3	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	204
						Azərbaycan Texniki Universiteti	180
						Bakı Mühəndislik Universiteti	49
						Milli Aviasiya Akademiyası	44
						Bakı Ali Neft Məktəbi	13
						Naxçıvan Dövlət Universiteti	15
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	15
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	1
						Sumqayıt Dövlət Universiteti	14
						Mingəçevir Dövlət Universiteti	7
						Lənkəran Dövlət Universiteti	5
						"Azərbaycan" Universiteti	12
						Qərbi Kaspi Universiteti	18
						Xəzər Universiteti	59
						"Odlar Yurdu" Universiteti	6
						“Naxçıvan” Universiteti (Naxçıvan ş.)	2
30	Qida mühəndisliyi	260	260	100.00	311.9	Bakı Dövlət Universiteti	15
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	92
						Azərbaycan Texniki Universiteti	24
						Azərbaycan Dövlət İqtisad Universiteti	113
						Azərbaycan Turizm və Menecment Universiteti	3
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	6
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	2
						Lənkəran Dövlət Universiteti	5
31	Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi	210	210	100.00	339.7	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	123
						Azərbaycan Texniki Universiteti	25
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	14
						Bakı Mühəndislik Universiteti	12
						Milli Aviasiya Akademiyası	36
32	Maşın mühəndisliyi	160	160	100.00	255.5	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	55
						Azərbaycan Texniki Universiteti	37
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	12
						Azərbaycan Dövlət İqtisad Universiteti	44
						Bakı Mühəndislik Universiteti	9
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	3

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
33	Materiallar mühəndisliyi	120	120	100.00	232.2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	44
						Azərbaycan Texniki Universiteti	20
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	16
						Azərbaycan Dövlət İqtisad Universiteti	40
34	Mexanika	30	30	100.00	287.2	Bakı Dövlət Universiteti	30
35	Mexanika mühəndisliyi	150	150	100.00	279.2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	97
						Azərbaycan Texniki Universiteti	13
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	8
						Bakı Mühəndislik Universiteti	20
						Sumqayıt Dövlət Universiteti	1
						Xəzər Universiteti	11
36	Mexatronika və robototexnika mühəndisliyi	100	100	100.00	375.1	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	69
						Azərbaycan Texniki Universiteti	18
						Milli Aviasiya Akademiyası	13
37	Meliorasiya mühəndisliyi	120	122	101.67	203.9	Azərbaycan Memarlıq və İnşaat Universiteti	71
						Naxçıvan Dövlət Universiteti	5
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	46
38	Memarlıq	125	125	100.00	324.8 (6.0)	Azərbaycan Memarlıq və İnşaat Universiteti	104
						Bakı Mühəndislik Universiteti	21
39	Meşəçilik	120	163	135.83	185.4	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	43
						Lənkəran Dövlət Universiteti	73
						Qərbi Kaspi Universiteti	47
40	Metallurgiya mühəndisliyi	65	65	100.00	226.1	Azərbaycan Texniki Universiteti	65
41	Mədən mühəndisliyi	60	60	100.00	257.7	Bakı Dövlət Universiteti	2
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	47
						Azərbaycan Texniki Universiteti	11
42	Mühəndis fizikası	60	60	100.00	270.8	Bakı Dövlət Universiteti	15
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	20
						Azərbaycan Texniki Universiteti	9
						Milli Aviasiya Akademiyası	15
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	1
43	Neft- qaz mühəndisliyi	283	284	100.35	343.5	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	196
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	40
						Bakı Ali Neft Məktəbi	28
						Xəzər Universiteti	20
44	Nəqliyyat mühəndisliyi	185	185	100.00	256	Azərbaycan Texniki Universiteti	120
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	48
						Naxçıvan Dövlət Universiteti	7
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	4
						Mingəçevir Dövlət Universiteti	6
45	Nəqliyyat tikintisi mühəndisliyi	60	60	100.00	259.7	Azərbaycan Memarlıq və İnşaat Universiteti	50
						Bakı Mühəndislik Universiteti	10
46	Optotexnika mühəndisliyi	20	20	100.00	253.1	Azərbaycan Texniki Universiteti	20
47	Pirotexniki və partladıcı vasitələr mühəndisliyi	20	20	100.00	248.4	Azərbaycan Texniki Universiteti	20

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
48	Proseslərin avtomatlaşdırılması mühəndisliyi	279	279	100.00	414.4	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	152
						Azərbaycan Texniki Universiteti	22
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	32
						Bakı Mühəndislik Universiteti	28
						Milli Aviasiya Akademiyası	15
						Bakı Ali Neft Məktəbi	28
						Naxçıvan Dövlət Universiteti	2
49	Radiotexnika və telekommunikasiya mühəndisliyi	190	190	100.00	314	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	96
						Azərbaycan Texniki Universiteti	52
						Bakı Mühəndislik Universiteti	8
						Milli Aviasiya Akademiyası	27
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	2
						Xəzər Universiteti	5
50	Riyaziyyat	168	164	97.62	281.4	Bakı Dövlət Universiteti	133
						Naxçıvan Dövlət Universiteti	11
						Sumqayıt Dövlət Universiteti	20
51	Riyaziyyat müəllimliyi	325	325	100.00	421.8	Bakı Dövlət Universiteti	165
						Azərbaycan Dövlət Pedaqoji Universiteti	134
						Gəncə Dövlət Universiteti	13
						Sumqayıt Dövlət Universiteti	6
						Mingəçevir Dövlət Universiteti	3
						Lənkəran Dövlət Universiteti	4
52	Riyaziyyat və informatika müəllimliyi	395	395	100.00	379.9	Bakı Dövlət Universiteti	7
						Azərbaycan Dövlət Pedaqoji Universiteti	162
						Naxçıvan Dövlət Universiteti	25
						Naxçıvan Müəllimlər İnstitutu	1
						Gəncə Dövlət Universiteti	70
						Sumqayıt Dövlət Universiteti	28
						Mingəçevir Dövlət Universiteti	22
						Lənkəran Dövlət Universiteti	36
						Xəzər Universiteti	30
						Bakı Qızlar Universiteti	14
53	Sənaye mühəndisliyi	280	280	100.00	306.4	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	122
						Azərbaycan Texniki Universiteti	23
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	18
						Azərbaycan Dövlət İqtisad Universiteti	80
						Bakı Mühəndislik Universiteti	36
						Mingəçevir Dövlət Universiteti	1
54	Silah və silah sistemləri mühəndisliyi	50	43	86.00	219.2	Azərbaycan Texniki Universiteti	43
55	Şəhərsalma	60	60	100.00	262.2	Azərbaycan Memarlıq və İnşaat Universiteti	41
						Bakı Mühəndislik Universiteti	19
56	Şərabçılıq	130	215	165.38	186.5	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	41
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	52
						Lənkəran Dövlət Universiteti	29
						Azərbaycan Kooperasiya Universiteti	93

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
57	Texnologiya müəllimliyi	70	70	100.00	262.7	Azərbaycan Dövlət Pedaqoji Universiteti	56
						Gəncə Dövlət Universiteti	8
						Lənkəran Dövlət Universiteti	6
58	Torpaqşünaslıq və aqrokimya	250	289	115.60	186.3	Bakı Dövlət Universiteti	67
						Naxçıvan Dövlət Universiteti	19
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	124
						Lənkəran Dövlət Universiteti	79
59	Uçuş mühəndisliyi	20	20	100.00	445.2	Milli Aviasiya Akademiyası	20
60	Yerquruluşu və daşınmaz əmlakın kadastrı	155	171	110.32	172.9	Bakı Dövlət Universiteti	44
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	75
						Naxçıvan Dövlət Universiteti	9
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	43
61	Zoomühəndislik	120	130	108.33	189.1	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	104
						Lənkəran Dövlət Universiteti	26

II QRUP

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
1	Beynəlxalq ticarət və logistika	270	270	100.00	364.7	Bakı Dövlət Universiteti	9
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	10
						Azərbaycan Dövlət İqtisad Universiteti	207
						Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	40
						Naxçıvan Dövlət Universiteti	4
2	Biznesin idarə edilməsi	150	150	100.00	423.8	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	20
						Azərbaycan Dövlət İqtisad Universiteti	103
						Bakı Mühəndislik Universiteti	1
						Bakı Ali Neft Məktəbi	14
						Mingəçevir Dövlət Universiteti	1
						Xəzər Universiteti	11
3	Coğrafiya	90	90	100.00	270.2	Bakı Dövlət Universiteti	81
						Naxçıvan Dövlət Universiteti	9
4	Coğrafiya müəllimliyi	180	180	100.00	297.9	Bakı Dövlət Universiteti	114
						Azərbaycan Dövlət Pedaqoji Universiteti	47
						Naxçıvan Dövlət Universiteti	7
						Gəncə Dövlət Universiteti	5
						Lənkəran Dövlət Universiteti	5
						Xəzər Universiteti	2

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
5	Davamlı inkişafın idarə edilməsi	60	60	100.00	310.3	Bakı Dövlət Universiteti	25
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	2
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	33
6	Dövlət və bələdiyyə idarəetməsi	180	180	100.00	302.4	Azərbaycan Dövlət İqtisad Universiteti	83
						Bakı Mühəndislik Universiteti	22
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	49
						Azərbaycan Turizm və Menecment Universiteti	8
						Naxçıvan Dövlət Universiteti	9
						Gəncə Dövlət Universiteti	5
						Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	1
						Mingəçevir Dövlət Universiteti	1
Ümumilikdə götürdükdə, dövlət sifarişi əsasında ayrılmış yerlərə qəbul olan ortastatistik abituriyentin* bal göstəricisi ödənişli təhsil üzrə ali təhsil müəssisəsinə qəbul olan ortastatistik abituriyentin bal göstəricisindən Azərbaycan bölməsində 1.33, rus bölməsində 1.46 dəfə yüksəkdir.

Cədvəl 1.2.5

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

AZƏRBAYCAN BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	65.72	61.66	56.61			57.83	57.43	55.25			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	70.26	57.30	59.84			44.52				58.22	58.80
III	Humanitar, pedaqogika ixtisasları	78.63	49.33	66.59	77.29	66.59					69.28	23.24
	DT altqrupu	78.78	49.51	66.49	77.53	66.59					69.46	
	TC altqrupu	76.07	46.30	68.12	73.00						65.21	23.24
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	75.61	69.96	69.49				69.79	65.24	65.96		

* Burada ortastatistik abituriyent – ixtisas qrupu daxilində təhsil formasından (dövlət sifarişi əsasında yaxud ödənişli) asılı olaraq müəyyən seçməyə daxil olan abituriyentlərin ümumiləşdirilmiş obrazıdır. Ortastatistik abituriyentin imtahan fənni üzrə topladığı bal dedikdə, onun təmsil etdiyi seçməyə daxil olan abituriyentlərin həmin fəndən topladıqları nisbi balların orta qiyməti nəzərdə tutulur. Abituriyentin ümumi balı hesablanarkən onun hər bir fənn üzrə topladığı nisbi balı fənlərin müvafiq çəki əmsallarına vurulmaqla cəmlənir.

Cədvəl 1.2.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL ÜZRƏ AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

AZƏRBAYCAN BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	53.96	42.27	42.35			40.31	40.13	36.86			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	55.00	29.57	40.06			22.84				37.14	36.40
III	Humanitar, pedaqogika ixtisasları	64.98	27.27	47.95	55.25	48.82					43.93	17.16
	DT altqrupu	65.68	27.88	48.61	56.57	48.82					44.75	
	TC altqrupu	59.52	22.45	43.06	44.59						36.51	17.16
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	65.66	49.02	55.29				49.85	44.58	51.42		

Cədvəl 1.2.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

RUS BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	66.28	55.63	68.20			52.06	51.09	48.32			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	72.35	58.08	75.65			44.94				47.43	53.32
III	Humanitar, pedaqogika ixtisasları	76.80	40.88	77.89	80.47	80.21					57.80	28.03
	DT altqrupu	76.75	40.90	77.55	80.57	80.21					58.28	
	TC altqrupu	77.23	40.79	80.39	79.85						53.03	28.03
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	70.66	53.75	72.02				52.81	49.39	54.45		

Cədvəl 1.2.8

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL ÜZRƏ AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

RUS BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	59.68	42.32	58.99			41.36	39.46	34.83			
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	60.19	30.74	57.00			23.98				28.35	33.57
III	Humanitar, pedaqogika ixtisasları	64.16	21.97	59.17	59.53	59.08					33.15	16.97
	DT altqrupu	64.52	22.74	59.90	61.54	59.08					34.58	
	TC altqrupu	62.43	18.29	55.66	49.33						25.79	16.97
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	68.65	48.27	65.63				44.84	41.08	48.48		

Cədvəl 1.2.9

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ VƏ ÖDƏNİŞLİ TƏHSİL ÜZRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN ORTASTATİSTİK BAL GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

№	İXTİSAS QRUPU	AZƏRBAYCAN BÖLMƏSİ			RUS BÖLMƏSİ		
		Ortastatistik abituriyentin topladığı ballar		Ballar nisbəti	Ortastatistik abituriyentin topladığı ballar		Ballar nisbəti
		dövlət sifarişi əsasında qəbul olan	ödənişli əsaslarla qəbul olan		dövlət sifarişi əsasında qəbul olan	ödənişli əsaslarla qəbul olan	
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	399.40	279.97	1.43	380.42	302.00	1.26
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	386.69	232.24	1.67	387.70	244.77	1.58
III	Humanitar, pedaqogika ixtisasları	466.77	314.60	1.48	464.86	317.58	1.46
	DT altqrupu	470.44	324.13	1.45	472.26	332.93	1.42
	TC altqrupu	405.79	239.91	1.69	411.02	244.30	1.68
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	469.42	346.16	1.36	388.90	344.21	1.13
Bütövlükdə		419.24	287.47	1.46	399.24	300.01	1.33

1.3. Dövlət və özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun müqayisəli təhlili

Qanunvericiliyə uyğun fəaliyyət göstərən özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun təşkili və keçirilməsi 1995-ci ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına (indiki Dövlət İmtahan Mərkəzinə) həvalə olunub. Bununla əlaqədar Mərkəz hər il, bir qayda olaraq, özəl ali təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə keçirilən müşavirələrdə bütövlükdə ali təhsil müəssisələrinə əvvəlki illərdə aparılmış tələbə qəbulunun müxtəlif parametrlər üzrə nəticələri, o cümlədən özəl ali təhsil müəssisələrinə qəbulun nəticələri barədə ətraflı məlumat verir, tövsiyələrini bildirir.

Özəl ali təhsil müəssisələrinə tələbə qəbulu, əvvəlki illərdə olduğu kimi, bu il də dövlət ali təhsil müəssisələrinə qəbulla birgə elan olunmuşdu. Abituriyentlərə ərizələrində dövlət ali təhsil müəssisələrinin ixtisasları ilə yanaşı, özəl təhsil müəssisələrinin də ixtisaslarını qeyd etmək imkanı verilmişdi. Həmin ixtisaslara müsabiqənin aparılması şərtləri dövlət ali təhsil müəssisələrinin müvafiq ixtisasları ilə eyni olmuşdur. 2010-cu ildən ali təhsil müəssisələrində tətbiq olunan yeni qaydalara əsasən özəl ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək imkanı yaradılmışdır.

Özəl ali təhsil müəssisələrinə cari ildə 8417 plan yeri ayrılmışdı. Bu, ötən illə müqayisədə 6.18% (490 yer) çoxdur. Plan yerlərinin 59.01%-i Azərbaycan, 40.99%-i isə hər iki bölmə abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuş, rus bölməsi üzrə plan yeri ayrılmamışdır. Qruplar üzrə götürdükdə, planın 12.30%-i birinci, 38.02%-i ikinci, 42.50%-i üçüncü, 5.41%-i dördüncü, 1.78%-i isə beşinci ixtisas qrupuna aid olub. Ötən illərdə olduğu kimi bu il də qəbul planının əsas hissəsi (80.52%-i) II və III qrup ixtisasları üçün nəzərdə tutulmuşdu. Sadəcə, ötən illə müqayisədə müsabiqə vəziyyətinin zəif olduğu II ixtisas qrupunun payı 44.03%-dən 38.02%-ə qədər azalmış, müsabiqə vəziyyətinin yüksək olduğu III qrupun payı isə 36.74%-dən 42.50%-dək çoxalmışdır (2021-ci ildə TC altqrupuna daxil olan ixtisaslar II qrupa daxil idi və cari ildə III qrup üzrə plan yerlərinin artması, əsasən, TC altqrupuna daxil olan ixtisasların hesabına (420 yer – 4.99%) olub). Özəl ali təhsil müəssisələrinin I ixtisas qrupu üzrə qəbul planı dövlət ali təhsil müəssisələrinin müvafiq qrup üzrə qəbul planının 6.79%, IV qrup üzrə 12.92%, V qrup üzrə 3.89%-nə bərabər olduğu halda, II qrup üzrə 36.05%, III qrup üzrə 31.43%-nə bərabər olub. Bütün qruplar üzrə ümumilikdə götürdükdə isə özəl ali təhsil müəssisələrinin qəbul planı dövlət ali təhsil müəssisələrinin qəbul planının 19.63%-i qədər olmuşdur.

Özəl ali təhsil müəssisələrinə sənədlərin qəbulu dövlət ali təhsil müəssisələri ilə birgə və eyni qaydalar əsasında aparılmışdır. DİM sənəd qəbulu mərhələsində bu təhsil müəssisələri rəhbərlərinin peşəyönü işi aparmaqla bağlı müraciətlərini nəzərə alaraq, həmin ali məktəblərin dövlət qeydiyyatından keçmiş ixtisasları barədə "Abituriyent" jurnalında geniş məlumatların verilməsini təmin etmişdir.

Sənəd qəbulunun nəticələrinin təhlili göstərir ki, müsabiqədə iştirak edən abituriyentlərin 44.61%-i (22972 nəfər), subbakalavrların isə 52.41%-i (7980 nəfər) öz ərizələrində özəl təhsil müəssisələrinin ixtisaslarını da qeyd etmişdir. Azərbaycan bölməsində özəl təhsil müəssisələrinin ixtisaslarını abituriyentlərin 44.62%-i (20785 nəfər), subbakalavrların 51.77%-i (7580 nəfər), rus bölməsində isə abituriyentlərin 44.52%-i (2187 nəfər), subbakalavrların 68.38%-i (400 nəfər) seçmişdir. Abituriyentlərin 1084-ü subbakalavrların isə 558-i öz ərizələrində yalnız özəl ali təhsil müəssisələrinin ixtisaslarını qeyd etmişdir.

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planı, həmin ali təhsil müəssisələrinin ixtisaslarını seçən abituriyentlərin sayı və müsabiqə vəziyyəti haqqında məlumat 1.3.1 – 1.3.3 saylı cədvəllərdə təqdim olunur. Cədvəllərdən göründüyü kimi, ixtisas qrupları üzrə özəl ali təhsil müəssisələrinə ərizələrin sayı plan yerlərinin sayından çox olsa da, II və IV ixtisas qruplarının heç birində müsabiqə şəraitinin yaranma ehtimalı yoxdur. Çünki abituriyentlər bu təhsil müəssisələrinin ixtisaslarını ərizələrində

axırıncı yerlərdə göstərmişdir. Xatırladaq ki, ehtimal olunan müsabiqənin hesablanması qaydasında abituriyentin seçdiyi ixtisasları öz ərizəsində hansı yerdə qeyd etməsi amili nəzərə alınır. Subbakalavrları da nəzərə alsaq, II ixtisas qrupundan başqa digər ixtisas qruplarında müsabiqə şəraitinin olduğunu görərik.

Dövlət ali təhsil müəssisələrində də II və IV ixtisas qruplarından başqa digər qruplarda müsabiqə şəraiti mövcud olmuşdur. Subbakalavrları da nəzərə olsaq, dövlət ali təhsil müəssisələrində bütün ixtisas qrupları üzrə müsabiqə şəraitinin mövcud olduğunu görərik.

Dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (0.929) IV, ən yüksək müsabiqə (2.096) isə V ixtisas qrupunda olub. Subbakalavrları da nəzərə alsaq, dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (1.358) III, ən yüksək müsabiqə (2.152) isə V ixtisas qrupunda olub.

Cədvəl 1.3.1

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Ümumi	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Ümumi
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	11747	935	2553	15235	525	0	510	1035
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	7254	595	1028	8877	2160	0	1040	3200
III	Humanitar, pedaqogika ixtisasları	9424	1270	688	11382	2182	0	1395	3577
	DT altqrupu	8559	1045	612	10216	1882	0	1275	3157
	TC altqrupu	865	225	76	1166	300	0	120	420
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3069	300	152	3521	100	0	355	455
V	İncəsənət, musiqi, idman ixtisasları	1330	184	2346	3860	0	0	150	150
CƏMİ		**32824**	**3284**	**6767**	**42875**	**4967**	**0**	**3450**	**8417**

Cədvəl 1.3.2

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri			Özəl ali təhsil müəssisələri		
		Azərb. bölməsi	Rus bölməsi	Ümumi	Azərb. bölməsi	Rus bölməsi	Ümumi
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	15675	1420	17095	4427	388	4815
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	8212	815	9027	3838	463	4301
III	Humanitar, pedaqogika ixtisasları	12641	1444	14085	8214	532	8746
	DT altqrupu	11910	1369	13279	7924	488	8412
	TC altqrupu	2090	367	2457	944	78	1022
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3026	353	3379	1198	189	1387
V	İncəsənət, musiqi, idman ixtisasları	8464	1337	9801	4034	785	4819
CƏMİ		**45545**	**4869**	**50414**	**20785**	**2187**	**22972**

Cədvəl 1.3.3

ƏRİZƏ QƏBULU MƏRHƏLƏSİNDƏ İXTİSAS QRUPLARI ÜZRƏ MÜSABİQƏ VƏZİYYƏTİ
(subbakalavrlar istisna olmaqla)

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	1.124	1.137	1.682	1.071	1.339	---	1.299	1.168
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	0.990	1.129	1.497	0.959	0.440	---	0.696	0.438
III	Humanitar, pedaqogika ixtisasları	1.162	1.031	2.566	1.131	1.190	---	1.212	0.950
	DT altqrupu	1.163	1.107	2.552	1.142	1.347	---	1.258	1.037
	TC altqrupu	1.442	0.960	3.149	1.337	0.403	---	0.955	0.492
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.898	1.073	3.608	0.929	0.746	---	1.009	0.838
V	İncəsənət, musiqi, idman ixtisasları	3.226	3.295	2.096	2.069	---	---	9.931	9.931
CƏMİ		1.159	1.184	1.912	1.128	0.870	---	1.404	0.918

İmtahanların nəticələrinə əsasən özəl ali təhsil müəssisələrinin plan yerlərinin dolma göstəricisi 80.90%-dir. Ayrı-ayrı ixtisas qruplarında plan yerlərinin dolma faizləri fərqlidir. Bu göstəricilər I qrupda 90.82%, II qrupda 79.97%, III qrupda 77.47%, IV qrupda 88.79%, V qrupda isə 90%-ə bərabərdir. Qeyd etmək lazımdır ki, ixtisas seçimində iştirak edən abituriyentlərin bir hissəsi (II qrupda 4 nəfər, III qrupda 71 nəfər, IV qrupda 7 nəfər) özəl ali təhsil müəssisələri ilə müqayisədə dövlət orta ixtisas təhsili müəssisələrinə üstünlük verib. Abituriyentlərin belə gözlənilməz seçim etmələrinin bir çox səbəbləri vardır. Bunların sırasında təhsil haqqını, diplomun əmək bazarındakı dəyərini, ali təhsil müəssisələrində təhsilin səviyyəsini və s. göstərmək mümkündür.

Özəl ali təhsil müəssisələrindən fərqli olaraq dövlət ali təhsil müəssisələrinin plan yerlərinin dolma faizi ümumilikdə 93.50% olub. Ən yüksək göstərici I ixtisas qrupunda (96.15%), ən aşağı göstərici isə IV ixtisas qrupunda (83.61%) qeydə alınıb.

Özəl və dövlət ali təhsil müəssisələrinə qruplar və bölmələr üzrə qəbulolma göstəriciləri 1.3.4 və 1.3.5 saylı cədvəllərdə təqdim edilib.

Cədvəl 1.3.4

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	1035	735 (424)	56 (46)	791 (470)	76.43
II	3200	1290 (229)	205 (14)	1495 (243)	46.72
III	3577	2691 (326)	68 (8)	2759 (334)	77.13
IV	455	351 (188)	42 (17)	393 (205)	86.37
V	150	86 (9)	49 (5)	135 (14)	90.00
CƏMİ	**8417**	**5153 (1176)**	**420 (90)**	**5573 (1266)**	**66.21**
	Subbakalavrlar				
I	1035	137 (0)	12 (0)	149 (0)	14.40
II	3200	1050 (22)	14 (0)	1064 (22)	33.25
III	3577	12 (0)	0 (0)	12 (0)	0.34
IV	455	11 (6)	0 (0)	11 (6)	2.42
V	150	0 (0)	0 (0)	0 (0)	0.00
CƏMİ	**8417**	**1210 (28)**	**26 (0)**	**1236 (28)**	**14.68**

Cədvəl 1.3.4 (ardı)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Bütövlükdə				
I	1035	872 (424)	68 (46)	940 (470)	90.82
II	3200	2340 (251)	219 (14)	2559 (265)	79.97
III	3577	2703 (326)	68 (8)	2771 (334)	77.47
IV	455	362 (194)	42 (17)	404 (211)	88.79
V	150	86 (9)	49 (5)	135 (14)	90.00
CƏMİ	**8417**	**6363 (1204)**	**446 (90)**	**6809 (1294)**	**80.90**

Cədvəl 1.3.5

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	15235	12768 (9393)	1152 (860)	13920 (10253)	91.37
II	8877	6522 (3373)	550 (302)	7072 (3675)	79.67
III	11382	9398 (3963)	1238 (319)	10636 (4282)	93.45
IV	3521	2431 (1888)	276 (174)	2707 (2062)	76.88
V	3860	2951 (1199)	455 (239)	3406 (1438)	88.24
CƏMİ	**42875**	**34070 (19816)**	**3671 (1894)**	**37741 (21710)**	**88.03**
	Subbakalavrlar				
I	15235	702 (0)	26 (0)	728 (0)	4.78
II	8877	1042 (20)	85 (0)	1127 (20)	12.70
III	11382	152 (0)	17 (0)	169 (0)	1.48
IV	3521	237 (160)	0 (0)	237 (160)	6.73
V	3860	82 (38)	4 (1)	86 (39)	2.23
CƏMİ	**42875**	**2215 (218)**	**132 (1)**	**2347 (219)**	**5.47**
	Bütövlükdə				
I	15235	13470 (9393)	1178 (860)	14648 (10253)	96.15
II	8877	7564 (3393)	635 (302)	8199 (3695)	92.36
III	11382	9550 (3963)	1255 (319)	10805 (4282)	94.93
IV	3521	2668 (2048)	276 (174)	2944 (2222)	83.61
V	3860	3033 (1237)	459 (240)	3492 (1477)	90.47
CƏMİ	**42875**	**36285 (20034)**	**3803 (1895)**	**40088 (21929)**	**93.50**

1.3.1 və 1.3.2 saylı şəkillərdə I–IV ixtisas qrupları üzrə özəl və dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin topladıqları balların paylanma diaqramları təsvir olunub. Göründüyü kimi, dövlət ali təhsil müəssisələrinə qəbul olanların 17.75%-nin, özəl ali təhsil müəssisələrinə qəbul olanların isə cəmi 3.58%-nin balı 500-700 intervalında yerləşir. Dövlət ali təhsil müəssisələrinə qəbul olanların əksəriyyətinin (64.82%) imtahan nəticələri orta (300-500) və yüksək (500-700) bal diapazonlarında olduğu halda, özəl ali təhsil müəssisələrinə qəbul olanların (73.01%) nəticələri əsasən aşağı (150-200 və 200-300) bal diapazonunda yerləşir.

V ixtisas qrupu üzrə qəbul olan abituriyentlər arasında bir qədər fərqli mənzərə görürük. Belə ki, V ixtisas qrupu üzrə özəl ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin yarıdan çoxunun (50.67%) 150-200 diapazonunda bal topladığı halda, dövlət ali təhsil müəssisələrinə qəbul olanlar arasında ən azı 150 bal toplayanların nisbi sayı 20.56%-dir. Bunun əsas səbəbi özəl ali təhsil müəssisələrinin V qrupa daxil olan

ixtisasları üçün ayrılan plan yerlərinin içərisində "Odlar Yurdu" Universitetinin xüsusi qabiliyyət tələb etməyən "Dizayn" ixtisası üçün ayrılan yerlərin payının 40% olmasıdır. Qeyd edək ki, V qrup üzrə özəl ali təhsil müəssisələrinə qəbul olanlar arasında 200 baldan yüksək nəticə göstərən olmayıb, beləliklə dövlət ali təhsil müəssisələrinə qəbul olanların 4.19%-ni təşkil edib. Dövlət ali təhsil müəssisələrinə qəbul olanların əksəriyyəti (79.45%) 150 baldan aşağı nəticə göstərib. (1.3.3 və 1.3.4 saylı şəkillərə bax).

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)



Şəkil 1.3.1

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)



Şəkil 1.3.2

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.3

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.4

Abituriyentlərin imtahan fənlərinə cavablarının təhlili göstərir ki, özəl ali təhsil müəssisələrinə qəbul olanların göstəriciləri dövlət ali təhsil müəssisələrinə qəbul olanların göstəricilərindən aşağıdır. Belə nəticə göstərənlər sonradan birinci kursun tədris proqramını mənimsəməkdə çətinlik çəkirlər. Ona görə də özəl ali təhsil müəssisələri birinci kurs tələbələri üçün genişləndirilmiş tədris proqramları hazırlamalı və həmin proqramları tədrisin intensivləşdirilməsi hesabına həyata keçirməlidirlər.

Dövlət və özəl ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin bilikləri arasındakı fərqin əyani müqayisəsi üçün 1.3.5 və 1.3.6 saylı şəkillər təqdim edilir. Şəkildəki diaqramlardan göründüyü kimi, həm Azərbaycan bölməsində, həm də rus bölməsində bütün fənlər üzrə üstünlük dövlət ali təhsil müəssisələrinə qəbul olan gənclərin tərəfindədir.

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

AZƏRBAYCAN BÖLMƏSİ



Şəkil 1.3.5

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

RUS BÖLMƏSİ



Şəkil 1.3.6

1.4 Xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu

Dövlət İmtahan Mərkəzi 2022-ci il mayın 21-də və iyulun 6-da Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinə, iyunun 4-də və 5-də, iyulun 21-də Dövlət Sərhəd Xidməti Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası, H.Əliyev adına Ali Hərbi Məktəb, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universitetinə, aprelin 3-də Naxçıvan MR Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinə, iyulun 31-də C.Naxçıvanski adına Hərbi lisey və H.Əliyev adına Hərbi liseyə test üsulu ilə qəbul imtahanı keçirib. Orta Hərbi Tibb Məktəbinə sənəd verənlər isə Dövlət İmtahan Mərkəzi və Müdafiə Nazirliyinin birgə razılığına əsasən bu il ayrıca qəbul imtahanı verməmişlər və müsabiqədə 11-ci sinif buraxılış imtahanında topladıqları bal əsasında iştirak etmişlər.

Azərbaycan Ali Hərbi Məktəbinə, hərbi liseylərə və Orta İxtisas Polis Məktəbinə qəbul ixtisaslar üzrə deyil, ümumiləşmiş şəkildə, Orta Hərbi Tibb Məktəbinə qəbul "Feldşer" ixtisası, Polis Akademiyasına "Hüquqşünaslıq", Daxili Qoşunların Ali Hərbi Məktəbinə "İctimai təhlükəsizlik və idarəetmə", Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasına "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi", Fövqəladə Hallar Nazirliyinin Akademiyasına "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi", Dövlət Sərhəd Xidmətinin Akademiyasına isə I qrup ixtisasları, Azərbaycan Tibb Universitetinə "Hərbi tibb" və "Stomatologiya", Naxçıvan Dövlət Universitetinə "Hərbi tibb" ixtisasları üzrə aparılıb.

H.Əliyev adına Ali Hərbi Məktəbin, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının, Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarında və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında təhsil almaq istəyən abituriyentlər mülki ali təhsil müəssisələrinin I qrupunun, Polis Akademiyası, Daxili Qoşunların Ali Hərbi Məktəbində və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasında təhsil almaq istəyənlər III qrupun, Azərbaycan Tibb Universitetində və Naxçıvan Dövlət Universitetində təhsil almaq istəyənlər IV qrupun abituriyentləri ilə birgə imtahan vermişlər.

Sənədlərin qəbulu xüsusi təyinatlı təhsil müəssisələrində aparılmış və abituriyentlər test imtahanından əvvəl həmin təhsil müəssisələrinin ixtisas-peşə tələblərinə uyğun xüsusi yoxlamalardan keçmişlər.

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin hamısı I mərhələdə ana dili, riyaziyyat və xarici dil fənlərindən imtahan verib. II mərhələdə H.Əliyev adına Ali Hərbi Məktəbin, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının, Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarına və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasına sənəd verənlər riyaziyyat, fizika və kimya, Polis Akademiyasına, Daxili Qoşunların Ali Hərbi Məktəbinə və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasına sənəd verənlər Azərbaycan dili, tarix və ədəbiyyat, Azərbaycan Tibb Universitetinə və Naxçıvan Dövlət Universitetinə sənəd verənlər fizika, kimya və biologiya fənlərindən imtahan vermişlər. Orta Hərbi Tibb Məktəbinə və Orta İxtisas Polis Məktəbinə sənəd verənlər ana dili, riyaziyyat və xarici dil, hərbi liseylərə sənəd verənlər isə riyaziyyat, fizika, kimya və Azərbaycan dili fənlərindən test imtahanı vermişlər. Xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərə, müsabiqə şərtlərini ödədikləri halda, imtahan verdikləri ixtisas qrupuna daxil olan mülki ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmək imkanı verilmişdir.

Azərbaycan Ali Hərbi Məktəbi (hazırda: Heydər Əliyev adına Hərbi İnstitut), Orta Hərbi Tibb Məktəbi, Orta İxtisas Polis Məktəbi və hərbi liseylərdə təhsil almaq istəyən abituriyentlər üçün test tapşırıqları yalnız Azərbaycan dilində, Daxili Qoşunların Ali Hərbi Məktəbində, Polis Akademiyasında, Dövlət Təhlükəsizlik Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin akademiyalarında, Azərbaycan Tibb Universitetində və Naxçıvan Dövlət Universitetində təhsil almaq istəyən abituriyentlər üçün isə Azərbaycan və rus dillərində təqdim olunmuşdur.

Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən təsdiq olunmuş ali təhsil müəssisələrinə, ümumi və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı proqramları əsasında aparılmışdır.

İmtahan nəticələrinin statistik təhlili nəticəsində abituriyentlərin ortastatistik portreti müəyyənləşdirilib.

Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidməti Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinin ixtisasını seçən ortastatistik abituriyent ana dilindən test tapşırıqlarının 67.81/60.22, ədəbiyyatdan 52.89, riyaziyyatdan 41.19, tarixdən 60.03, ingilis dilindən isə 51.22%-ni düzgün cavablandırıb. Azərbaycan Ali Hərbi Məktəbinin (hazırda: Heydər Əliyev adına Hərbi İnstitut), Dövlət Sərhəd Xidməti Akademiyasının və Fövqəladə Hallar Nazirliyi Akademiyasının ixtisaslarını seçən ortastatistik abituriyentin düzgün cavablarının faizi ana dilindən 45.06, riyaziyyatdan 33.06/31.91, fizikadan 31.19, kimyadan 28.51, ingilis dilindən 32.69% olub. Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universitetinin ixtisaslarını seçən ortastatistik abituriyentin düzgün cavablarının faizi ana dilindən 72.82, riyaziyyatdan 69.18, fizikadan 67.06, kimyadan 63.45, biologiyadan 64.22, ingilis dilindən 62.93% olub. Orta Hərbi Tibb Məktəbi və Orta İxtisas Polis Məktəbini seçən abituriyentlərin düzgün cavablarının faizi ana dilindən 52.50, riyaziyyatdan 35.82, ingilis dilindən 39.44, hərbi liseylərin abituriyentlərinin düzgün cavablarının faizi isə ana dilindən 26.45, riyaziyyatdan 23.87, fizikadan 26.14, kimyadan 21.48% olub.

1.5 Bölgələr üzrə 2022-ci il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlili*

Burada ölkəmizin ayrı-ayrı bölgələrini təmsil edən məzunların imtahan nəticələrinin məktəb və rayon (şəhər) səviyyəsində elmi-statistik təhlili verilir. Bu təhlillər əsasında onların imtahan fənləri üzrə nəticələri, müxtəlif ixtisas qruplarına meyl və maraqları, ali məktəblərə qəbulolma göstəriciləri, habelə yüksək və zəif göstəricili məktəblər müəyyənləşdirilmişdir. Bu, ilk növbədə hər bir təhsil şöbəsi və məktəbin öz nəticələri haqqında dolğun məlumat əldə etməsi məqsədinə xidmət edir.

Materiallarda hər bölgə üzrə məzunların buraxılış imtahanındakı göstəriciləri bölgənin tam seçməsi üzrə təqdim edilmişdir. Bölgənin məzunlarının qəbul imtahanlarında ümumi və fənlər üzrə ayrılıqda əldə etdikləri nəticələr kimi isə onların I–IV qruplar üzrə keçirilən imtahanlarda topladıqlar ballar götürülmüşdür. V qrup üzrə müsabiqə buraxılış imtahanının nəticəsi əsasında aparıldığı üçün bu qrup üzrə abituriyentlərin göstəriciləri ayrıca verilməmişdir.

Bakı şəhəri:

2022-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 23689 şagird bitirib və onların 23515 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (52.99) respublika üzrə orta göstəricidən 14.62%, riyaziyyat fənni üzrə topladıqları orta bal (32.52) 11.95%, xarici dil fənni üzrə topladıqları orta bal (44.67) 22.07%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (130.19) 16.53% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 19.33%-i 30 və daha az, 54.99%-i 30-70 intervalında, 25.68%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 57.80%, 29.72% və 12.48%, xarici dil fənni üzrə isə 36.86%, 41.67% və 21.48% olub. Ümumilikdə, 23548 nəfər attestat alıb.

Attestat alanların 79.17%-i (18644 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 72.36%-i (17039 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 12139 məzunu (imtahanlarda iştirak edənlərin 56.78%-i) tələbə adını qazanıb. Onların 52.18%-i (6334 nəfəri) dövlət, 3.51%-i (426 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 32.70%-i (3969 nəfəri) dövlət, 11.62%-i (1410 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Respublika üzrə rayonun (şəhərin) fərqlənən məktəblərini müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə%-i 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə%-i 80-dən az olmamalı;
- Rayon və şəhər məktəblərinin məzunlarının I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal müvafiq olaraq 300 və 350 baldan az olmamalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalıdır.

Rayon (şəhər) üzrə fərqlənən məktəbləri müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə%-i 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə%-i 80-dən az olmamalı;
- Rayon (şəhər) məktəblərinin məzunlarının I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı rayon (şəhər) üzrə orta göstəriciyə bərabər olmalıdır.

Hər il respublikada bütün fənlər üzrə ən yüksək nəticələri liseylərin məzunları əldə edirlər və onların nəticələri bölgələrin məzunlarının nəticələrindən kəskin şəkildə fərqlənir. Qeyd olunan hal respublikadakı real mənzərəni görməyə imkan vermir və bu səbəbdən fənlər üzrə respublikanın ən yüksək nəticə göstərən bölgələri haqqında məlumat müəyyən edilərkən TN tabeli və özəl liseylərin göstəriciləri nəzərə alınmır.

Şəhərin məzunlarının 2255 nəfəri 500-dən, o cümlədən 675 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 12.20% (2274 nəfər), 100-200 intervalında 23.68% (4415 nəfər), 200-300 intervalında 22.22% (4142 nəfər), 300-500 intervalında 29.81% (5558 nəfər), 500-dən yuxarı 12.10% (2255 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 41.91%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.58%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 50.46%-dir.

Qəbul imtahanlarında 306 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən 105 saylı tam orta məktəbin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin 95, 129, 270 saylı tam orta məktəbləri, 287 saylı "Zəkalar" liseyi, 291 saylı Ekologiya liseyi, 160 saylı klassik gimnaziya, Texniki humanitar lisey, 147 saylı texniki-humanitar təmayüllü lisey, 62, 220, 264 saylı məktəb-liseyləri daxil olub.

Azərbaycan bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 283.65-dir. Bu, respublika üzrə orta göstəricidən 4.7% yuxarıdır.

Rus bölməsi:

Abituriyentlərin göstəriciləri I-IV qruplarda ədəbiyyat, tarix və coğrafiya fənləri üzrə respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan - 0.29%, tarixdən - 3.47%, coğrafiyadan - 0.93% təşkil edir.

Ana dili, riyaziyyat, fizika, kimya və biologiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Riyaziyyat, biologiya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 286.63-dür. Bu, respublika üzrə orta göstəricidən 2.2% yuxarıdır.

Naxçıvan şəhəri:

2022-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 793 şagird bitirib və onların 792 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal 53.96, riyaziyyat fənni üzrə topladıqları orta bal 37.63, xarici dil fənni üzrə topladıqları orta bal 46.70, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 138.29-dur. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 16.70%, 29.53%, 27.63%, 23.78% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 18.81%-i 30 və daha az, 51.14%-i 30-70 intervalında, 30.05%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 49.37%, 33.84% və 16.79%, xarici dil fənni üzrə isə 31.57%, 44.44% və 23.99% olub. Ümumilikdə, 793 nəfər attestat alıb.

Attestat alanların 88.65%-i (703 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 93.69%-i (743 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 96.72%-i (767 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 495 məzunu (imtahanlarda iştirak edənlərin 64.54%-i) tələbə adını qazanıb. Onların 48.08%-i (238 nəfəri) dövlət, 1.01%-i (5 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 38.38%-i (190 nəfəri) dövlət, 12.53%-i (62 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Şəhərin abituriyentlərinin I-IV qruplarda riyaziyyat və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq riyaziyyatdan - 0.09%, tarixdən - 5.24% təşkil edir.

Ana dili, ədəbiyyat, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Kimya fənni üzrə şəhərin göstəricisi respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Şəhərin məzunlarının 81 nəfəri 500-dən, o cümlədən 23 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetinə (Naxçıvan şəhəri) qəbul olub.

Şəhərin abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 288.501-dir. Bu, respublika üzrə orta göstəricidən 6.5% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 12.94% (91 nəfər), 100-200 intervalında 23.04% (162 nəfər), 200-300 intervalında 19.63% (138 nəfər), 300-500 intervalında 32.86% (231 nəfər), 500-dən yuxarı 11.52% (81 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 44.38%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 3.32%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 32.37%-dir.

Qəbul imtahanlarında 20 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin Naxçıvan Qarnizonu tam orta məktəbi və Naxçıvan şəhər qızlar liseyi daxil olub.

Bu il şəhərin ən yaxşı məktəbləri sırasında Heydər Əliyev adına tam orta məktəbi qeyd etmək olar.

Naxçıvan MR Babək rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 524 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (43.71) respublika üzrə orta göstəricidən 5.45% aşağı, riyaziyyat fənni üzrə topladıqları orta bal (30.02) respublika üzrə orta göstəricidən 3.35% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (31.98) respublika üzrə orta göstəricidən 12.61%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (105.71) 5.37% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 36.26%-i 30 və daha az, 42.56%-i 30-70 intervalında, 21.18%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 59.92%, 30.15% və 9.92%, xarici dil fənni üzrə isə 55.73%, 36.83% və 7.44% olub. Ümumilikdə, 524 nəfər attestat alıb.

Attestat alanların 77.48%-i (406 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 86.64%-i (454 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 88.74%-i (465 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 251 məzunu (imtahanlarda iştirak edənlərin 53.98%-i) tələbə adını qazanıb. Onların 45.82%-i (115 nəfəri) dövlət, 1.20%-i (3 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 41.04%-i (103 nəfəri) dövlət, 11.95%-i (30 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 2.09%, ədəbiyyatdan - 7.36%, riyaziyyatdan - 5.11%, tarixdən - 2.36% təşkil edir.

Fizika, kimya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 46 nəfəri 500-dən, o cümlədən 8 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinə (Naxçıvan şəhəri) qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 264.033-dür. Bu, respublika üzrə orta göstəricidən 2.6% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 18.97% (77 nəfər), 100-200 intervalında 21.92% (89 nəfər), 200-300 intervalında 22.17% (90 nəfər), 300-500 intervalında 25.62% (104 nəfər), 500-dən yuxarı 11.33% (46 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 36.95%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 3.30%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 45.05%-dir.

Qəbul imtahanlarında 32 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Yuxarı Buzqov kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Babək qəsəbə 2 saylı tam orta məktəbini qeyd etmək olar.

Naxçıvan MR Culfa rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 304 şagird bitirib və onların 303 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (47.86) respublika üzrə orta göstəricidən 3.51%, riyaziyyat fənni üzrə topladıqları orta bal (39.77) 36.91%, xarici dil fənni üzrə topladıqları orta bal (37.87) 3.48%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (125.49) 12.33% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 30.36%-i 30 və daha az, 45.54%-i 30-70 intervalında, 24.09%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 38.94%, 46.86% və 14.19%, xarici dil fənni üzrə isə 41.58%, 48.84% və 9.57% olub. Ümumilikdə, 304 nəfər attestat alıb.

Attestat alanların 81.91%-i (249 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 73.68%-i (224 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 85.86%-i (261 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 175 məzunu (imtahanlarda iştirak edənlərin 67.05%-i) tələbə adını qazanıb. Onların 46.29%-i (81 nəfəri) dövlət, 1.71%-i (3 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 37.14%-i (65 nəfəri) dövlət, 14.86%-i (26 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ədəbiyyat, fizika və kimya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan - 3.52%, fizikadan - 4.68%, kimyadan - 9.83% təşkil edir.

Ana dili, riyaziyyat, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 32 nəfəri 500-dən, o cümlədən 3 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan şəhəri) və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 286.237-dir. Bu, respublika üzrə orta göstəricidən 5.6% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 11.24% (28 nəfər), 100-200 intervalında 21.69% (54 nəfər), 200-300 intervalında 24.10% (60 nəfər), 300-500 intervalında 30.12% (75 nəfər), 500-dən yuxarı 12.85% (32 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 42.97%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 1.52%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 45.45%-dir.

Qəbul imtahanlarında 24 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun şəhid Məmməd Zeynalabdin adına Saltaq, Əbrəqunus və Milax kənd tam orta məktəbləri daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Məhərrəm Əsgəroğlu adına 2 saylı şəhər tam orta məktəbini qeyd etmək olar.

Naxçıvan MR Kəngərli rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 161 şagird bitirib və onların 159 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (40.90) respublika üzrə orta göstəricidən 11.54% aşağı, riyaziyyat fənni üzrə topladıqları orta bal (29.93) respublika üzrə orta göstəricidən 3.02% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (30.99) respublika üzrə orta göstəricidən 15.31%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (101.81) 8.86% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 39.62%-i 30 və daha az, 44.65%-i 30-70 intervalında, 15.72%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 64.78%, 24.53% və 10.69%, xarici dil fənni üzrə isə 55.97%, 38.36% və 5.66% olub. Ümumilikdə, 161 nəfər attestat alıb.

Attestat alanların 60.25%-i (97 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 10.56%-i (17 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 63.35%-i (102 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 67 məzunu (imtahanlarda iştirak edənlərin 65.69%-i) tələbə adını qazanıb. Onların 40.30%-i (27 nəfəri) dövlət, 1.49%-i (1 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 29.85%-i (20 nəfəri) dövlət, 28.36%-i (19 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili və ədəbiyyat fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 8.78%, ədəbiyyatdan - 16.09% təşkil edir.

Riyaziyyat, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 10 nəfəri 500-dən, o cümlədən 6 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan şəhəri) və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 282.167-dir. Bu, respublika üzrə orta göstəricidən 4.1% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 10.31% (10 nəfər), 100-200 intervalında 26.80% (26 nəfər), 200-300 intervalında 24.74% (24 nəfər), 300-500 intervalında 27.84% (27 nəfər), 500-dən yuxarı 10.31% (10 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 38.14%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 7.69%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 34.62%-dir.

Qəbul imtahanlarında 10 məktəbin məzunları iştirak edib.

Xıncab kənd tam orta məktəbinin bir məzunu belə ali təhsil müəssisələrinə qəbul üçün sənəd verməmişdir.

Naxçıvan MR Ordubad rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 263 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (53.32) respublika üzrə orta göstəricidən 15.33%, riyaziyyat fənni üzrə topladıqları orta bal (36.18) 24.53% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (35.13) respublika üzrə orta göstəricidən 3.99% aşağı, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (124.55) respublika üzrə orta göstəricidən 11.49% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 22.43%-i 30 və daha az, 47.53%-i 30-70 intervalında, 30.04%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 50.19%, 33.84% və 15.97%, xarici dil fənni üzrə isə 49.24%, 43.89% və 6.87% olub. Ümumilikdə, 263 nəfər attestat alıb.

Attestat alanların 79.09%-i (208 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 64.64%-i (170 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 84.41%-i (222 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 154 məzunu (imtahanlarda iştirak edənlərin 69.37%-i) tələbə adını qazanıb. Onların 42.21%-i (65 nəfəri) dövlət, 2.60%-i (4 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 35.71%-i (55 nəfəri) dövlət, 19.48%-i (30 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 0.65%, ədəbiyyatdan - 2.74%, tarixdən - 4.49% təşkil edir.

Riyaziyyat, fizika, kimya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 22 nəfəri 500-dən, o cümlədən 8 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinə (Naxçıvan şəhəri) qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 293.926-dir. Bu, respublika üzrə orta göstəricidən 8.5% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 8.65% (18 nəfər), 100-200 intervalında 22.12% (46 nəfər), 200-300 intervalında 25.48% (53 nəfər), 300-500 intervalında 33.17% (69 nəfər), 500-dən yuxarı 10.58% (22 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 43.75%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 3.03%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 28.79%-dir.

Qəbul imtahanlarında 32 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən şəhid Elşad Ağayev adına Vələver kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun 1 saylı şəhər tam orta məktəbi daxil olub.

Naxçıvan MR Sədərək rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 85 şagird bitirib və onların 84 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal 35.48, riyaziyyat fənni üzrə topladıqları orta bal 28.85, xarici dil fənni üzrə topladıqları orta bal 29.04, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 93.37-dir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 23.26%, 0.68%, 20.64%, 16.42% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 55.95%-i 30 və daha az, 32.14%-i 30-70 intervalında, 11.90%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 53.57%, 40.48% və 5.95%, xarici dil fənni üzrə isə 63.10%, 30.95% və 5.95% olub. Ümumilikdə, 85 nəfər attestat alıb.

Attestat alanların 52.94%-i (45 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 63.53%-i (54 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 63.53%-i (54 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

0-100 intervalında 15.12% (39 nəfər), 100-200 intervalında 22.48% (58 nəfər), 200-300 intervalında 23.64% (61 nəfər), 300-500 intervalında 32.17% (83 nəfər), 500-dən yuxarı 6.59% (17 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 38.76%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 22.12%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 13.46%-dir.

Qəbul imtahanlarında 46 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Bərcan, Şıxlar, Ərsilə və Horonu kənd orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Yevlax rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 1129 şagird bitirib və onların 1102 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (34.84) respublika üzrə orta göstəricidən 24.66%, riyaziyyat fənni üzrə topladıqları orta bal (19.78) 31.91%, xarici dil fənni üzrə topladıqları orta bal (29.52) 19.34%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (84.13) 24.69% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 51.27%-i 30 və daha az, 39.11%-i 30-70 intervalında, 9.62%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 78.22%, 18.51% və 3.27%, xarici dil fənni üzrə isə 63.61%, 27.59% və 8.80% olub. Ümumilikdə, 1103 nəfər attestat alıb.

Attestat alanların 52.86%-i (583 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 58.39%-i (644 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 66.73%-i (736 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 331 məzunu (imtahanlarda iştirak edənlərin 44.97%-i) tələbə adını qazanıb. Onların 46.22%-i (153 nəfəri) dövlət, 3.02%-i (10 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 43.81%-i (145 nəfəri) dövlət, 6.95%-i (23 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda riyaziyyat, kimya, biologiya və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq riyaziyyatdan - 3.97%, kimyadan - 7.36%, biologiyadan - 7.24%, coğrafiyadan - 2.48% təşkil edir.

Ana dili, ədəbiyyat, fizika və tarix fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 45 nəfəri 500-dən, o cümlədən 12 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Mingəçevir Dövlət Universiteti və Bakı Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 257.133-dür. Bu, respublika üzrə orta göstəricidən 5.1% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 16.64% (97 nəfər), 100-200 intervalında 26.07% (152 nəfər), 200-300 intervalında 22.47% (131 nəfər), 300-500 intervalında 27.10% (158 nəfər), 500-dən yuxarı 7.72% (45 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 34.82%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 14.18%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 28.36%-dir.

Qəbul imtahanlarında 42 məktəbin məzunları iştirak edib.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında 8 saylı şəhər və Aran qəsəbə 1 saylı tam orta məktəblərini qeyd etmək olar.

Zaqatala rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 996 şagird bitirib və onların 988 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (38.30) respublika üzrə orta göstəricidən 17.16%, riyaziyyat fənni üzrə topladıqları orta bal (24.17) 16.81%, xarici dil fənni üzrə topladıqları orta bal (32.42) 11.41%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (94.89) 15.07% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 42.25%-i 30 və daha az, 47.82%-i 30-70 intervalında, 9.93%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 71.63%, 20.67% və 7.70%, xarici dil fənni üzrə isə 56.43%, 35.16% və 8.41% olub. Ümumilikdə, 987 nəfər attestat alıb.

Attestat alanların 56.23%-i (555 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 55.32%-i (546 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 66.97%-i (661 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 313 məzunu (imtahanlarda iştirak edənlərin 47.35%-i) tələbə adını qazanıb. Onların 51.12%-i (160 nəfəri) dövlət, 10.86%-i (34 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 30.03%-i (94 nəfəri) dövlət, 7.99%-i (25 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, riyaziyyat, kimya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 3.59%, riyaziyyatdan - 3.14%, kimyadan - 4.27%, tarixdən - 21.12%, coğrafiyadan - 5.88% təşkil edir.

Ədəbiyyat, fizika və biologiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 47 nəfəri 500-dən, o cümlədən 14 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət İqtisad Universiteti qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 251.224-dür. Bu, respublika üzrə orta göstəricidən 7.3% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 16.22% (90 nəfər), 100-200 intervalında 27.57% (153 nəfər), 200-300 intervalında 23.24% (129 nəfər), 300-500 intervalında 24.50% (136 nəfər), 500-dən yuxarı 8.47% (47 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 32.97%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 10.53%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 28.57%-dir.

Qəbul imtahanlarında 50 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Mosul, Çobankol və Paşan kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Rayonun Danaçı kənd 2 saylı tam orta məktəbinin qəbul imtahanlarında iştirak edən abituriyentlərinin sayı məzunlarının sayının 10%-ni belə təşkil etmir.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Ak. Z.Əliyeva adına Texniki fənlər liseyi və Tala kənd 1 saylı tam orta məktəbi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Tala kənd 3 saylı tam orta məktəbini qeyd etmək olar.

Zəngilan rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 410 şagird bitirib və onların 408 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (46.28) respublika üzrə orta göstəricidən 0.11% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (27.64) respublika üzrə orta göstəricidən 4.87%, xarici dil fənni üzrə topladıqları orta bal (36.25) 0.93%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (110.17) 1.38% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 28.92%-i 30 və daha az, 54.41%-i 30-70 intervalında, 16.67%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 65.93%, 24.26% və 9.80%, xarici dil fənni üzrə isə 47.55%, 41.67% və 10.78% olub. Ümumilikdə, 408 nəfər attestat alıb.

Attestat alanların 74.26%-i (303 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 70.83%-i (289 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 84.07%-i (343 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 188 məzunu (imtahanlarda iştirak edənlərin 54.81%-i) tələbə adını qazanıb. Onların 36.17%-i (68 nəfəri) dövlət, 3.19%-i (6 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 51.60%-i (97 nəfəri) dövlət, 9.04%-i (17 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda riyaziyyat, fizika, kimya və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq riyaziyyatdan - 6.81%, fizikadan - 8.10%, kimyadan - 9.69%, coğrafiyadan - 14.10% təşkil edir.

Ana dili, ədəbiyyat və tarix fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 22 nəfəri 500-dən, o cümlədən 9 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 258.501-dir. Bu, respublika üzrə orta göstəricidən 4.6% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 14.52% (44 nəfər), 100-200 intervalında 30.36% (92 nəfər), 200-300 intervalında 19.80% (60 nəfər), 300-500 intervalında 28.05% (85 nəfər), 500-dən yuxarı 7.26% (22 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 35.31%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 10.47%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 20.93%-dir.

Qəbul imtahanlarında 30 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən 3 və 24 saylı tam orta məktəblərin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun 21 və 29 saylı tam orta məktəbləri daxil olub.

Zərdab rayonu:

2022-ci ildə rayonun ümumtəhsil müəssisələrini 428 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (47.02) respublika üzrə orta göstəricidən 1.69% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (26.45) 8.96%, xarici dil fənni üzrə topladıqları orta bal (25.44) 30.48%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (98.90) 11.47% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 31.07%-i 30 və daha az, 50.70%-i 30-70 intervalında, 18.22%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 69.16%, 23.13% və 7.71%, xarici dil fənni üzrə isə 70.09%, 25.93% və 3.97% olub. Ümumilikdə, 428 nəfər attestat alıb.

Attestat alanların 71.73%-i (307 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 83.88%-i (359 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə, attestat alanların 85.98%-i (368 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 156 məzunu (imtahanlarda iştirak edənlərin 42.39%-i) tələbə adını qazanıb. Onların 58.97%-i (92 nəfəri) dövlət, 3.21%-i (5 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 28.21%-i (44 nəfəri) dövlət, 9.62%-i (15 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 10.89%, ədəbiyyatdan - 14.47%, riyaziyyatdan - 17.82%, fizikadan - 15.75%, kimyadan - 12.32%, tarixdən - 11.92%, coğrafiyadan - 4.66% təşkil edir.

Rayonun məzunlarının 20 nəfəri 500-dən, o cümlədən 5 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 229.397-dir. Bu, respublika üzrə orta göstəricidən 15.3% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 16.29% (50 nəfər), 100-200 intervalında 35.50% (109 nəfər), 200-300 intervalında 24.10% (74 nəfər), 300-500 intervalında 17.59% (54 nəfər), 500-dən yuxarı 6.51% (20 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 24.10%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 17.02%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 31.91%-dir.

Qəbul imtahanlarında 28 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən C.Məmmədquluzadə adına Yuxarı Seyidlər kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun M.Şirvanoğlu adına Sarıqaya və İ.Nəsimi adına Yarməmmədbağı kənd tam orta məktəbləri daxil olub.

Liseylər (TN tabeli və özəl):

2022-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 2860 şagird bitirib və onların 2856 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal 68.45, riyaziyyat fənni üzrə topladıqları orta bal 49.14, xarici dil fənni üzrə topladıqları orta bal 67.87, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 190.2-dir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 48.06%, 69.17%, 85.46%, 70.25% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 4.46%-i 30 və daha az, 42.37%-i 30-70 intervalında, 53.17%-i 70-dən çox bal toplayıb. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 33.12%, 37.36% və 29.52%, xarici dil fənni üzrə isə 10.68%, 31.69% və 57.63% olub. Ümumilikdə, 2852 nəfər attestat alıb.

Attestat alanların 65.36%-i (1864 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 43.55%-i (1242 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 1357 məzunu (imtahanlarda iştirak edənlərin 65.84%-i) tələbə adını qazanıb. Onların 59.91%-i (813 nəfəri) dövlət, 2.58%-i (35 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 31.02%-i (421 nəfəri) dövlət, 6.48%-i (88 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Şəhərin məzunlarının 576 nəfəri 500-dən, o cümlədən 266 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 2.74% (51 nəfər), 100-200 intervalında 11.70% (218 nəfər), 200-300 intervalında 18.67% (348 nəfər), 300-500 intervalında 36.00% (671 nəfər), 500-dən yuxarı 30.90% (576 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 66.90%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.02%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 55.26%-dir.

Qəbul imtahanlarında 50 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi), Kimya-biologiya təmayüllü lisey, Akademik Z.Əliyeva adına lisey, Fizika, riyaziyyat və informatika təmayüllü lisey, Şəki şəhər kimya-biologiya təmayüllü respublika liseyi, Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin Gəncə şəhərindəki sinifləri, Humanitar fənlər təmayüllü məktəb-lisey, Bakı Avropa liseyi, Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin Quba rayonundakı sinifləri, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Heydər Əliyev adına lisey, Bakı MODERN məktəbi, Kaspi liseyi, Kimya-biologiya təmayüllü Respublika liseyinin Şirvan şəhərindəki sinifləri, BDU-nun nəzdində "Gənc istedadlar" liseyi, Bakı Slavyan Universitetinin Məktəb-Lisey kompleksi, 289 saylı tam orta məktəb – "Zəngi" liseyi, Hədəf liseyi MMC, T.İsmayılov adına "İntellekt" məktəb-liseyi, S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziya, "İdrak" liseyinin Bakı filialı, "Ankara Məktəbi" məktəb-liseyi, "Kaspi" liseyinin Xətai filialı, İ.Əfəndiyev adına "Elitar" gimnaziya daxil olub.

Azərbaycan bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 407.083-dür. Bu, respublika üzrə orta göstəricidən 50.2% yuxarıdır.

Rus bölməsi:

Abituriyentlərin coğrafiya fənni üzrə göstəriciləri respublikanın orta göstəricisindən aşağıdır. Fərq 1.61% təşkil edir.

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya və tarix fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 351.737-dir. Bu, respublika üzrə orta göstəricidən 25.5% yuxarıdır.

2. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL

Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2005-ci il tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"yə uyğun olaraq, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ölkəmizin bütün ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul 2005-2015-ci illərdə TQDK tərəfindən həyata keçirilib. 2016-cı ildən isə ali təhsilin bu səviyyəsi üzrə qəbulu Dövlət İmtahan Mərkəzi mərkəzləşdirilmiş qaydada həyata keçirir.

Hər il magistratura səviyyəsinə qəbul imtahanlarına hazırlıq məqsədi ilə ali təhsil müəssisələrinin ixtisaslarının tədris planları təhlil olunur və onların klasterləşdirilməsi aparılır. Müəyyən edilmiş hər bir ixtisaslaşma istiqaməti üzrə qəbul proqramları hazırlanır, test sualları tərtib edilir və onların qapalı şəraitdə ekspertizası keçirilir. Həmin qəbul proqramları "Magistr" jurnalında çap edilərək bakalavrların istifadəsinə verilir. İmtahanların məzmununu təşkil edən bu materialları DİM-in mütəxəssislərinin təşkilatçılığı ilə respublikanın ali təhsil müəssisələrinin müvafiq ixtisas kafedralarının professor-müəllim heyəti hazırlayır.

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən, 2010/2011-ci tədris ilindən başlayaraq respublikanın ali təhsil müəssisələrində magistr hazırlığına sərf olunan dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmə dövlət sifarişi əsasında adambaşına maliyyələşdirmə prinsipi ilə reallaşdırılır. Bu prinsipə əsasən müəyyən bir ixtisaslaşma üzrə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən tələbə yerlərinə müsabiqə ayrı-ayrı ali təhsil müəssisələri çərçivəsində deyil, bütövlükdə həmin ixtisaslaşma üzrə dövlət sifarişini yerinə yetirən bütün ali təhsil müəssisələri üzrə birlikdə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslaşma üzrə dövlət sifarişi əsasında kadr hazırlığı üçün ali təhsil müəssisəsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti yalnız birgə müsabiqədən keçərək həmin ali təhsil müəssisəsinin magistraturasına qəbul olan bakalavrların sayından asılı olaraq verilir. Beləliklə, ali təhsil müəssisəsinə dövlət sifarişi üzrə qəbul olan bakalavrın təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2022-ci ildə respublikanın 33 dövlət və 11 özəl ali təhsil müəssisəsinin magistratura səviyyəsinə qəbul imtahanı keçirilib. Qəbul aparılan ixtisaslaşmalar 71 proqram üzrə qruplaşdırılıb. Qəbul "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları" ilə tənzimlənib. Qaydalara əsasən magistratura səviyyəsinə qəbul olmaq hüququna bakalavrlar və digər ali təhsilli şəxslər malikdirlər.

Cari ildə də bakalavrlara magistraturaya qəbul imtahanında 2 dəfə iştirak etmək imkanı yaradılmışdır: 1-ci cəhd üçün ərizə qəbulu 2022-ci il fevralın 1-dən 10-dək, 2-ci cəhd üçün mayın 10-dan 17-dək internet vasitəsilə aparılmışdır. İmtahanda iştirak etmək üçün bakalavrlar DİM-in internet saytının *ekabinet.dim.gov.az* səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra ərizə vermək üçün tələb olunan məbləği (müsabiqə ödənişli olub) "Şəxsi kabinet"lərindəki hesablarına əlavə ediblər. Daha sonra bakalavrlar "Şəxsi kabinet"lərinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in internet saytının müvafiq səhifəsinə (*http://eservices.dim.gov.az/erizemag/erize*) daxil olaraq "Bakalavrın elektron ərizəsi" formasını doldurub təsdiq ediblər.

İmtahan DİM tərəfindən mərkəzləşdirilmiş qaydada, bakalavrların ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürünün), informatika və xarici dil biliklərinin qiymətləndirilməsi üzrə keçirilib. Bakalavrlara məntiqi təfəkkür üzrə 50, xarici dil üzrə 25, informatika üzrə 25 test tapşırığı təqdim olunub. Hər bir blok üzrə son 5 sual açıq tipli test tapşırıqlarından ibarət olub. İmtahan suallarının cavablandırılmasına 3 saat vaxt ayrılıb. Bakalavrların hər düzgün cavabı bir balla qiymətləndirilib. Tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara qəbul imtahanında ingilis, alman, fransız və ya rus dilini, tədrisi rus dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyənlərə ingilis, alman və ya fransız dilini, tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyənlərə isə yalnız ingilis (alman) dilini xarici dil kimi seçmək imkanı verilib.

Filologiya ixtisasının Azərbaycan dili və Azərbaycan ədəbiyyatı, eləcə də Tarix ixtisasının tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlara (HS 020100 Azərbaycan dili, HS 020200 Azərbaycan dili və ədəbiyyatı, 050101 Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, HS 070100

Tarix, 050206 Tarix və 050113 Tarix müəllimliyi ixtisasları üzrə bakalavr dərəcəsi olanlara) xarici dil kimi ərəb və ya fars dilini də seçmək imkanı verilib.

Filologiya (xarici dil və ədəbiyyat), xarici dil və ədəbiyyat müəllimliyi, xarici dil müəllimliyi və tərcümə ixtisasları üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara (HS 020000 Filologiya (xarici dil və ədəbiyyat) və HS 040000 Dilşünaslıq (xarici dillər üzrə) istiqamətləri üzrə, həmçinin 050201 Filologiya (xarici dil və ədəbiyyat), 050102 Xarici dil və ədəbiyyat müəllimliyi, 050103 Xarici dil müəllimliyi və 050203 Tərcümə ixtisasları üzrə bakalavr dərəcəsi olanlar nəzərdə tutulur), ixtisaslaşma dili istisna olmaqla, yuxarıda göstərilən digər dillərdən birini xarici dil kimi seçmək imkanı verilib.

Regionşünaslıq (Amerikaşünaslıq), regionşünaslıq (ABŞ və Kanada üzrə), ölkəşünaslıq (Böyük Britaniyaşünaslıq) ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar xarici dil kimi yalnız ingilis dilini, ölkəşünaslıq (Almaniyaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar yalnız alman dilini, ölkəşünaslıq (Fransaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar isə yalnız fransız dilini seçə bilərdilər.

Qəbul imtahanının nəticələrinə görə DİM tərəfindən müəyyən olunmuş şərtləri (bax: cədvəl 2.1) ödəyən bakalavrlar ixtisaslaşma seçiminə buraxılıblar.

Qəbul aparılan ixtisaslaşmalar qəbul proqramları üzrə qruplaşdırılıb. Hər bir bakalavrın seçdiyi magistr ixtisaslaşması onun bitirdiyi bakalavr ixtisasına müvafiq olub. İxtisaslaşma seçiminə kömək məqsədi ilə "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" tərtib edilərək "Magistr" jurnalının 3-cü sayında çap olunub və bununla hər bir bakalavrın bitirdiyi ixtisasa uyğun olaraq verilən ixtisaslaşma seçimi imkanlarından istifadə etməsinə şərait yaradılıb.

Artıq dördüncü ildir ki, qəbul imtahanında bakalavrlara xarici dil fənnindən dinləmə mətnləri üzrə test tapşırıqları təqdim olunur. Hər bir xarici dil fənni üzrə dinləmə mətnləri əvvəlcədən DİM-in səsyazma studiyasında səsləndirilmiş və arxivləşdirilmişdir. İmtahanda bakalavrlara 1 dinləmə mətni və bu mətnə aid 5 test tapşırığı təqdim olunmuşdur. Dinləmə mətninin audiofaylı bir audioqurğuya yazılmış və hər audioqurğu yalnız bir imtahan zalına aid olmuşdur. Dinləmə mətni bütün imtahan zallarında imtahanın əvvəlində səsləndirilmişdir. Audioqurğu imtahan başlandıqda yerləşdiyi zərfdən çıxarılmış və işə salınmışdır. 2 dəqiqə ərzində imtahan zallarındakı bakalavrlar həmin dinləmə mətni üzrə onlara təqdim olunan tapşırıqlarla tanış olmuşlar. Dinləmə mətni bütün zallarda arada 2 dəqiqəlik fasilə olmaqla 2 dəfə səsləndirilmişdir. Bundan sonra isə bakalavrlar həm dinləmə mətni üzrə onlara təqdim olunan, həm də digər tapşırıqları cavablandırmışlar.

2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin magistratura səviyyəsinin 68, 69 və 70 saylı proqramlarına aid xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlar qabiliyyət imtahanlarında iştirak etmək üçün iyunun 1-dən 3-dək internet vasitəsilə qeydiyyatdan keçiblər. Qabiliyyət imtahanları 8-17 iyun tarixlərində keçirilmişdir.

Jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən və qəbul imtahanında ən azı 50 bal toplayan bakalavrlar 2022-ci il iyunun 3-dən 6-dək DİM-in internet saytının müvafiq səhifəsində (eservices.dim.gov.az/erizemag/erize) jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrların qeydiyyatı üçün nəzərdə tutulmuş bölməyə daxil olaraq anket sorğusunu doldurmaqla qeydiyyatdan keçiblər. Qeydiyyatdan keçən bakalavrlar DİM-in elan etdiyi vaxtda "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edərək, vərəqədə göstərilən vaxtda qabiliyyət imtahanında iştirak ediblər. Qabiliyyət imtahanında bakalavrlar yazılı tapşırıqları yerinə yetirməklə intellektual səviyyələrini, dünyagörüşlərini, jurnalistika sahəsində nəzəri və təcrübi biliklərini, ədəbi dili, dil və nitq normalarını bilmələrini nümayiş etdiriblər. Bitirdikləri bakalavr ixtisasından asılı olmayaraq bütün bakalavrlara jurnalistika ixtisaslaşmaları üzrə təhsil almaq imkanı yaradılıb. Qabiliyyət imtahanından "məqbul" qiymət alan bakalavrlar ixtisaslaşma seçimi zamanı jurnalistika üzrə magistratura ixtisaslaşmalarını seçmək hüququ qazanıblar. 33 nəfər jurnalistika üzrə ixtisaslaşmaları seçmək məqsədilə qabiliyyət imtahanında iştirak etmək üçün müraciət edib. Qabiliyyət imtahanının nəticələrinə əsasən onların 29-u "məqbul" alaraq 44-cü proqramı seçmək hüququ əldə edib və 28-i jurnalistika ixtisaslaşmaları üzrə magistraturaya qəbul olub. Qeyd edək ki, qəbul olan bakalavrların 25-i bakalavriat səviyyəsində təhsilini "Jurnalistika" ixtisası üzrə bitirib.

Hər bir bakalavra seçməyə hüququ olduğu və bitirdiyi bakalavr ixtisasına müvafiq 20-dək ixtisaslaşma kodunu seçmək imkanı verilib. Bakalavrlar seçdikləri ixtisaslaşmaları müəyyən olunmuş tarixdə istədikləri ardıcıllıqla öz elektron ərizə formalarına daxil edib, hər bir ixtisaslaşma üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiklərini qeyd edərək təsdiqləyiblər. Seçilmiş ixtisaslaşmaların ərizə formalarında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunub və bakalavrlar topladıqları ballara əsasən müsabiqədən keçdikləri ixtisaslaşmaların birincisinə yerləşdiriliblər.

Magistraturada dövlət hesabına təhsil almış magistrlər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzdilər.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox bakalavrı fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

- bakalavriat səviyyəsi üzrə ümumi orta müvəfəqiyyət göstəricisi (ÜOMG);
- ümumi intellekt səviyyəsini *(məntiqi təfəkkürü)* yoxlayan testdən toplanılan bal;
- xarici dil üzrə testdən toplanılan bal.

"ADA" Universitetinin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının, M.V.Lomonosov adına MDU-nun Bakı filialının, Birgə Azərbaycan-Fransız Universitetinin (UFAZ) və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının magistraturalarına, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistraturasının idman jurnalistikası (tədris ingilis dilində), idman tibbi və reabilitasiya (rezidentura bitirmiş həkimlər üçün) ixtisaslaşmasına və ADPU-nun tədrisi ingilis dilində olan və mütəxəssis hazırlığı ABŞ-ın Corc Vaşinqton Universiteti ilə ADPU-nun birgə beynəlxalq proqramı üzrə həyata keçirilən "Menecment (təhsilin təşkili və idarə olunması)" ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar qəbul imtahanından sonra həmin ali təhsil müəssisələrinin müəyyən etdiyi qəbul prosedurlarından keçiblər.

Cədvəl 2.1

Müsabiqə şərtləri

Magistratura üzrə ixtisaslar qrupunun (ixtisasın) adı	**İmtahanın nəticəsinə qoyulan minimal tələblər***		
	Fənlər üzrə minimal tələb		**İmtahan üzrə minimal bal**
	Fənnin adı	**Minimal bal**	
Təhsil ixtisasları qrupu Texniki və texnoloji ixtisaslar qrupu Səhiyyə, rifah və xidmət ixtisasları qrupu (Bədən tərbiyəsi və idman ixtisasından başqa)	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**40 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Humanitar və sosial ixtisaslar qrupu*	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**50 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Təbiət ixtisasları qrupu İqtisadiyyat və idarəetmə ixtisasları qrupu	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**45 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Mədəniyyət və incəsənət ixtisasları qrupu* Kənd təsərrüfatı ixtisasları qrupu Xüsusi təyinatlı ixtisaslar qrupu Bədən tərbiyəsi və idman ixtisası	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	10	**30 bal**
	İnformatika	5	
	Xarici dil	5	

*** Tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmaların müsabiqəsində, bunlarla yanaşı, aşağıdakı şərtləri ödəyən bakalavrlar iştirak ediblər:**

- təhsili ödənişli əsaslarla həyata keçirilən ixtisaslaşmalar üzrə – qəbul imtahanında ingilis (alman) dilindən topladıqları bal 15-dən az olmayan bakalavrlar;
- təhsili dövlət sifarişi əsasında həyata keçirilən ixtisaslaşmalar üzrə – qəbul imtahanında ingilis (alman) dilindən topladıqları bal 20-dən az olmayan bakalavrlar.

Bu il ali təhsil müəssisələrinin magistratura səviyyəsinə 12986 plan yeri ayrılmışdı. Bunlardan 8885-i (68.42%) Azərbaycan bölməsi, 848-i (6.53%) rus bölməsi, qalan 3253-ü (25.05%) isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Ötən illə müqayisədə magistraturaya qəbul planı 16.62% (1851 yer) artmışdır.

Dövlət sifarişi əsasında qəbul aparılan yerlər (4095 yer) qəbul planının 31.53%-ni təşkil etmişdir (şəkil 2.1). Qəbul planı üzrə yerlərin 11482-si dövlət, 1504-ü isə özəl ali təhsil müəssisələrinin payına düşmüşdür (şəkil 2.2).

QƏBUL PLANI

Şəkil 2.1



Şəkil 2.2

Plan yerlərinin dövlət sifarişli və ödənişli əsaslar üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2022-ci ildə rus bölməsi və hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin nisbi sayı Azərbaycan bölməsi üçün ayrılan yerlərin hesabına artıb. Belə ki, ötən illə müqayisədə Azərbaycan bölməsində plan yerlərinin ümumi plandakı nisbi çəkisi 69.58%-dən 68.42%-ə qədər azalıb. Rus bölməsində plan yerlərin nisbi çəkisi 6.33%-dən 6.53%-ə, hər iki bölmənin birgə müsabiqəsi üçün isə 24.09%-dən 25.05%-ə qədər artıb.

Aşağıdakı cədvəldən göründüyü kimi, magistraturaya qəbul planında ən çox yer Azərbaycan Dövlət İqtisad Universitetinin payına düşüb. Bu təhsil müəssisəsinin qəbul planı ümumi plan yerlərinin 18.47%-ni təşkil edib. Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasına ayrılmış qəbul planı bu təhsil müəssisəsinin bakalavriat səviyyəsinə ayrılmış plan yerlərinin 62.49%-nə bərabər olub. Bu, həmin təhsil müəssisəsində magistr hazırlığının həm də müxtəlif beynəlxalq layihələr əsasında aparılması ilə bağlıdır.

Cədvəl 2.2

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİ ÜZRƏ QƏBUL PLANLARI

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölmə-sinin bakalavr-ları üçün	Hər iki böl-mənin bakalavr-larının birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	754	184	224	1162
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	936	180	462	1578
3	Azərbaycan Texniki Universiteti	1202	85	345	1632
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	467	46	91	604
5	Azərbaycan Tibb Universiteti	0	0	55	55
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	308	0	50	358
7	Azərbaycan Dövlət İqtisad Universiteti	1416	188	795	2399
8	Azərbaycan Dillər Universiteti	322	30	0	352
9	Bakı Slavyan Universiteti	106	24	2	132
10	Bakı Mühəndislik Universiteti	220	0	54	274

Cədvəl 2.2 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölməsinin bakalavrları üçün	Hər iki bölmənin bakalavrlarının birgə müsabiqəsi üçün	Cəmi
11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	102	56	12	170
12	Bakı Musiqi Akademiyası	0	0	51	51
13	Azərbaycan Milli Konservatoriyası	0	0	45	45
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	100	0	71	171
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	0	0	62	62
16	Azərbaycan Turizm və Menecment Universiteti	175	0	20	195
17	Bakı Xoreoqrafiya Akademiyası	17	11	0	28
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	0	0	75	75
19	Milli Aviasiya Akademiyası	59	22	0	81
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	24	6	0	30
21	Bakı Ali Neft Məktəbi	0	0	128	128
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	10	0	0	10
23	Azərbaycan Milli Elmlər Akademiyası	177	0	0	177
24	Naxçıvan Dövlət Universiteti	246	0	4	250
25	Naxçıvan Müəllimlər İnstitutu	48	0	0	48
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	451	9	0	460
27	Gəncə Dövlət Universiteti	254	0	0	254
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	120	0	59	179
29	Sumqayıt Dövlət Universiteti	138	0	0	138
30	Mingəçevir Dövlət Universiteti	70	0	0	70
31	Lənkəran Dövlət Universiteti	284	0	0	284
32	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası	15	0	0	15
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	0	0	15
34	Azərbaycan İlahiyyat İnstitutu	8	0	0	8
35	Azərbaycan Kooperasiya Universiteti	213	0	60	273
36	Azərbaycan Universiteti	130	0	20	150
37	Qərbi Kaspi Universiteti	0	0	186	186
38	Xəzər Universiteti	147	0	159	306
39	Bakı Avrasiya Universiteti	92	0	0	92
40	Bakı Qızlar Universiteti	30	0	0	30
41	Odlar Yurdu Universiteti	44	2	213	259
42	Bakı Biznes Universiteti	145	5	10	160
43	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	20	0	0	20
44	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	20	0	0	20
	Cəmi	**8885**	**848**	**3253**	**12986**

Magistraturaya bütövlükdə 21105 nəfər bakalavr ərizə verib (2021-ci ildə bu rəqəm 22283 olub). Ərizələrin 91.93%-i (19402-si) Azərbaycan, 8.07%-i (1703-ü) isə rus bölməsi üzrə olub. Sənəd verənlərin 48.24%-ni (10181 nəfər) oğlanlar, 51.76%-ni (10924 nəfər) isə qızlar təşkil edib. Onların da 12142 nəfəri (57.53%-i) bakalavriat səviyyəsinin builki məzunlarıdır və ali təhsil müəssisələrinə əsasən 2018-ci ildə daxil olanlardır. Həmin ildə 39560 nəfər tələbə adını qazanmışdı.

Magistraturaya qəbul imtahanı (1-ci cəhd fevralın 20-də, 2-ci cəhd mayın 29-da) Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəran şəhərlərində keçirilib. Sual kitabçaları hər bir bakalavr üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsilə fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçasının "Dil fənni blokundakı xarici dil" bölməsində seçilən xarici dil üzrə test tapşırıqları təqdim olunub. Bütün fənlər üzrə tapşırıqlar 4 variantda hazırlanıb.

İmtahanda 20823 bakalavr (1-ci cəhddə 16786, 2-ci cəhddə 14639, hər ikisində 10602 bakalavr) iştirak edib. 1-ci imtahanın nəticələri martın 2-də, 2-ci imtahanın nəticələri isə mayın 28-də DİM-in internet saytında elan olunub. Hər iki cəhddə iştirak edən bakalavrların bu iki imtahanda əldə etdikləri nəticələr təhlil olunub. Aparılan təhlil göstərir ki, bakalavrların 2-ci imtahandakı nəticələri 1-ci imtahandakı nəticələrə nisbətən daha yaxşıdır və nəticələr arasındakı fərqlərin orta qiyməti 2.67-yə bərabərdir. Bakalavrların 52.24%-nin hər iki imtahandakı nəticələri arasındakı fərq 5 baldan, 81.33%-nin nəticələri arasındakı fərq isə 10 baldan çox deyil. Qeyd edək ki, nəticələr arasındakı korrelyasiya əmsalı 0.82-yə bərabərdir. Aşağıdakı qrafikdə hər iki imtahanda iştirak edən bakalavrların topladıqları balların fərqlərinin paylanması təqdim olunub.

HƏR İKİ İMTAHANDA İŞTİRAK EDƏN BAKALAVRLARIN İKİNCİ İMTAHANDA TOPLADIQLARI BALLARLA BİRİNCİ İMTAHANDA TOPLADIQLARI BALLARIN FƏRQİNİN PAYLANMASI



Qrafik 2.1

Bakalavrlar iyunun 29-dan iyulun 5-dək qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün DİM-in internet saytının müvafiq səhifəsində öz ərizələrinə daxil olaraq ixtisaslaşma seçimi aparıblar. Proqram və ixtisaslaşma seçimində 14279 nəfər (qəbul imtahanında iştirak edənlərin 68.57%-i) iştirak edib. Onların 47.53%-i oğlanlar, 52.47%-i isə qızlardır. İxtisaslaşma seçimində iştirak edənlərin 62.82%-i (8970 nəfər) bakalavriat səviyyəsinin builki məzunlarıdır.

Qəbulun nəticələri iyulun 8-də DİM-in internet saytında elan olunub və "Magistr" jurnalının 5-ci sayında dərc edilib. Qəbulun nəticələrinə əsasən 11510 bakalavr magistraturaya qəbul olunub, onlardan 1033-ü qeydiyyatdan keçməyib, 2511 yer isə boş qalıb. Bu səbəbdən avqustun 8-dən 14-dək boş qalan yerlərə ixtisaslaşma seçimi aparılıb. Bu mərhələdə 1848 nəfər (onlardan 100-ü birinci ixtisaslaşma seçimində iştirak etməyib) iştirak edib və onların 761-i magistraturaya qəbul olub (onlardan 551-i qeydiyyatdan keçib). Beləliklə, ixtisaslaşma seçimində 14379 nəfər (qəbul imtahanında iştirak edənlərin 69.05%-i) iştirak edib (bax: şəkil 2.3) və 11028 nəfər (ixtisaslaşma seçimində iştirak edənlərin 76.70%-i) magistraturaya qəbul olub (bax: şəkil 2.4).

İXTİSASLAŞMA SEÇİMİ VƏ QƏBULUN NƏTİCƏLƏRİ

Qəbul imtahanından sonra	İxtisaslaşma seçimindən sonra
	
Şəkil 2.3	Şəkil 2.4

Bakalavrların 1931 nəfəri ərizələrində yalnız dövlət sifarişi əsasında ayrılan yerləri, 4788 nəfəri isə yalnız ödənişli ixtisaslaşmaları seçib. Təhsili ödənişli əsaslarla seçənlərin 99 nəfəri ərizəsində yalnız özəl ali təhsil müəssisələrinin ixtisaslaşmalarını göstərib. 7660 nəfər ərizəsində ixtisaslaşmaları həm ödənişli, həm də dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən plan yerləri üzrə qeyd edib.

İxtisaslaşma seçimində iştirak edən bakalavrların Azərbaycan bölməsi üzrə 76.42%-i, rus bölməsi üzrə isə 79.93%-i qəbul olub, ümumilikdə isə qəbul planı 84.92% dolub. Qəbul olanların 49.26%-i (5432 nəfər) oğlan, 50.74%-i (5596 nəfər) isə qızdır. Magistr adı qazananların 65.98%-i (7276 nəfər – 60.56% (4406 nəfər) oğlan, 39.44% (2870 nəfər) qız) cari ilin məzunlarıdır.

Magistraturaya dövlət sifarişi üzrə ayrılmış yerlərə qəbul olan 4029 nəfərin 51.25%-i (2065 nəfər) oğlan, 48.75%-i (1964 nəfər) qızlardır. Qəbul olanların 77.81%-i (3135 nəfər – 59.94% (1879 nəfər) oğlan, 40.06% (1256 nəfər) qız) cari ilin məzunlarıdır.

Qəbul olan bakalavrların ayrı-ayrı təhsil formaları üzrə paylanması 2.5 saylı şəkildə və 2.3 saylı cədvəldə təqdim olunur. 2.3 saylı cədvəldən göründüyü kimi, qəbul planı dövlət ali təhsil müəssisələri üzrə 85.92%, özəl ali təhsil müəssisələri üzrə isə 77.33% dolub.

QƏBUL OLAN BAKALAVRLARIN TƏHSİL FORMALARI ÜZRƏ PAYLANMASI



Şəkil 2.5

Cədvəl 2.3

MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLAN BAKALAVRLARIN SAYI HAQQINDA MƏLUMAT

Ali TƏHSİL MÜƏSSİSƏLƏRİ	Qəbul planı	Qəbul edilibdir (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
Dövlət	11482	9012 (3681)	853 (258)	9865 (3939)	85.92
Özəl	1504	1120 (87)	43 (3)	1163 (90)	77.33
C Ə M İ	**12986**	**10132 (3768)**	**896 (261)**	**11028 (4029)**	**84.92**

2.4 saylı cədvəldə magistraturaya tələbə qəbulunun qəbul proqramları üzrə nəticələri, həmçinin qəbul imtahanından sonra keçirilən proqram və ixtisaslaşma seçimində iştirak edən bakalavrların (ərizələrin) sayı təqdim olunub. Göründüyü kimi, 29, 44, 62, 68, 69, 70 və 72 saylı proqramlara aid olan ixtisaslaşmalar üzrə təqdim edilən ərizələrin sayı ayrılmış plan yerlərinin sayından azdır. Sadalanan 7 proqram magistratura səviyyəsinə qəbul aparılan bütün proqramların 9.86%-ni təşkil edir. Beləliklə, proqram və ixtisaslaşma seçimindən sonra qəbul proqramlarının bəziləri üzrə qəbul planının kəsirdə qalacağı bəlli olmuşdu. Ali təhsil müəssisələrinə yerləşdirilmə aparıldıqdan sonra isə daha 52 proqram üzrə (cəmi 59 proqram üzrə) qəbul planının kəsirdə qaldığı məlum oldu. Cədvəldən göründüyü kimi, yalnız 24 (060651 Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi), 25 (060617 Hava nəqliyyatında texnoloji proseslərin və istehsalatın təhlükəsizliyi mühəndisliyi), 30 (060502 Mexanika), 55 (060801 Əczaçılıq), 57 (060804 Nəqliyyat servisi (nəqliyyat növləri üzrə)), 60 (060652 Kosmik texnika və texnologiyalar mühəndisliyi), 61 (XTM 060001 Silah və silah sistemlərinin istehsal texnologiyası), 63 (XTM 060003 Pirotexniki vasitələrin texnologiyası), 64 (XTM 060004 Çoxkanallı radiorele və troposfer rabitəsinin yerüstü aparatlarının hazırlanması, istismarı və təmiri), 65 (XTM 060005 Kompozisiya materiallarından müdafiə təyinatlı məmulatların layihələndirilməsi və istehsalı), 71 (060650 Yanğın təhlükəsizliyi mühəndisliyi) və 74 saylı (060311 Aktyor sənəti) proqramlara aid olan ixtisaslaşmalar üzrə qəbul planı tam dolmuşdur. Qalan 59 proqram üzrə qəbul planı bu və ya digər səviyyədə kəsirdə qalmışdır. Bu proqramlardan üçü üzrə isə plan yerlərinin 50%-dən çoxu boş qalmışdır.

Ən yüksək qəbul planına malik olan proqramlardan 56 saylı proqram üzrə qəbul planı 88.01%, 26 saylı proqram üzrə isə 84.86%, 14 saylı proqram üzrə isə 87.49% dolub. Bu üç proqramın birlikdə götürülmüş qəbul planı ümumi qəbul planının 47.81%-ni, bu proqramlara daxil olan ixtisaslaşmalara qəbul olanlar isə ümumilikdə magistraturaya qəbul olanların 48.93%-ni təşkil edir.

Qəbul olanların 91.88%-i Azərbaycan, 8.12%-i isə rus bölməsinin bakalavrlarıdır. Dövlət sifarişi əsasında qəbul olanların tərkibinə nəzər salsaq görürük ki, Azərbaycan bölməsini təmsil edən bakalavrların nisbi sayı artaraq 93.52%, rus bölməsində isə azalaraq 6.48% olub.

Cədvəl 2.4

MAGİSTRATURAYA QƏBULUN NƏTİCƏLƏRİ (qəbul proqramları üzrə)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
1	060508 Geologiya 060602 Geologiya mühəndisliyi 060603 Hidrogeologiya mühəndisliyi 060604 Geofizika mühəndisliyi	241	122 (68)	16	12 (9)	148	257	134 (77)	90.54
2	060606 Neft-qaz mühəndisliyi 060607 Neft-qaz qurğuları mühəndisliyi	252	209 (91)	40	27 (17)	262	292	236 (108)	90.08
3	060608 Elektroenergetika mühəndisliyi 060626 Elektrik mühəndisliyi 060706 Aqromühəndislik	406	191 (89)	13	7 (4)	206	419	198 (93)	96.12

Cədvəl 2.4 (ardı)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
4	060609 İstilik energetikası mühəndisliyi 060610 Enerji maşınqayırması mühəndisliyi	148	60 (25)	21	3 (1)	107	169	63 (26)	58.88
5	060601 Materialşünaslıq mühəndisliyi 060610 Enerji maşınqayırması mühəndisliyi 060611 Metallurgiya mühəndisliyi 060612 Maşın mühəndisliyi 060646 Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi	293	98 (59)	37	10 (4)	138	330	108 (63)	78.26
6	060624 Cihazqayırma mühəndisliyi 060625 Texnoloji maşın və avadanlıqlar mühəndisliyi 060630 Mexanika mühəndisliyi 060645 Poliqrafiya mühəndisliyi 060706 Aqromühəndislik	401	159 (69)	32	17 (7)	218	433	176 (76)	80.73
7	060618 Dəniz texnikası və texnologiyası mühəndisliyi 060619 Dəniz texnikası və avadanlıqlarının istismarı mühəndisliyi 060620 Gəmiçilik və gəmilərin hərəkətinin idarə edilməsi	27	20 (14)	4	4 (2)	27	31	24 (16)	88.89
8	060621 Dəmiryol nəqliyyatı və təsərrüfatı mühəndisliyi	37	11 (8)	1	1 (0)	22	38	12 (8)	54.55
9	060622 Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi	81	49 (20)	0	0 (0)	55	81	49 (20)	89.09
10	060623 Nəqliyyatda daşınmaların və idarəetmənin təşkili mühəndisliyi	193	84 (66)	14	8 (4)	112	207	92 (70)	82.14
11	060624 Cihazqayırma mühəndisliyi 060627 Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi 060648 Biotibbi texnika mühəndisliyi	363	152 (87)	54	32 (22)	255	417	184 (109)	72.16
12	060507 Hidrometeorologiya	11	6 (6)	0	0 (0)	8	11	6 (6)	75.00
13	060628 Proseslərin avtomatlaşdırılması mühəndisliyi 060629 Mexatronika və robototexnika mühəndisliyi	702	157 (126)	22	7 (6)	246	724	164 (132)	66.67
14	060113 İnformatika müəllimliyi 060509 Kompüter elmləri 060631 Kompüter mühəndisliyi 060632 İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi XTM 060006 İnformasiya təhlükəsizliyi	1565	823 (647)	121	93 (54)	1047	1686	916 (701)	87.49
15	060633 Memarlıq 060653 Şəhərsalma	332	102 (72)	31	8 (3)	120	363	110 (75)	91.67
16	060405 Sənayenin təşkili və idarə olunması 060601 Materialşünaslıq mühəndisliyi 060628 Proseslərin avtomatlaşdırılması mühəndisliyi 060634 İnşaat mühəndisliyi 060635 Mühəndis sistemlərinin və qurğularının tikintisi mühəndisliyi 060636 Nəqliyyat tikintisi mühəndisliyi 060637 Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi 060638 Tikinti materialları və məmulatlarının texnologiyası mühəndisliyi	494	130 (78)	11	8 (5)	156	505	138 (83)	88.46
17	060640 Geodeziya və xəritəçilik mühəndisliyi 060705 Yer quruluşu, torpaq və şəhər kadastrı	66	42 (35)	0	0 (0)	43	66	42 (35)	97.67

Cədvəl 2.4 (ardı)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
18	060641 Kimya mühəndisliyi	403	153 (115)	29	11 (4)	178	432	164 (119)	92.13
19	060504 Kimya 060505 Biologiya 060510 Ekologiya 060649 Ekologiya mühəndisliyi 060708 Meşəçilik	1051	210 (120)	85	20 (7)	262	1136	230 (127)	87.79
20	060642 Qida məhsulları mühəndisliyi	113	59 (42)	9	5 (3)	69	122	64 (45)	92.75
21	060644 İstehlak mallarının ekspertizası və marketinqi	224	58 (27)	15	5 (3)	64	239	63 (30)	98.44
22	060803 Turizm və otelçilik	1342	137 (89)	103	3 (1)	142	1445	140 (90)	98.59
23	060647 Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi	96	64 (24)	15	9 (6)	99	111	73 (30)	73.74
24	060651 Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi	65	38 (24)	0	0 (0)	38	65	38 (24)	100.00
25	060617 Hava nəqliyyatında texnoloji proseslərin və istehsalatın təhlükəsizliyi mühəndisliyi	4	4 (3)	0	0 (0)	4	4	4 (3)	100.00
26	060401 Dünya iqtisadiyyatı 060402 Mühasibat uçotu və audit 060403 Maliyyə 060404 İqtisadiyyat 060405 Sənayenin təşkili və idarə olunması 060406 Statistika 060407 Menecment 060408 Marketinq 060409 Biznesin idarə edilməsi 060410 Dövlət və bələdiyyə idarəetməsi 060411 Kommersiya 060412 Davamlı inkişafın idarə edilməsi	2403	1521 (426)	235	149 (27)	1968	2638	1670 (453)	84.86
27	060107 Texnologiya müəllimliyi 060108 Musiqi müəllimliyi 060115 İbtidai sinif müəllimliyi 060116 Korreksiyaedici təlim 060117 Məktəbəqədər təlim və tərbiyə 060118 Təhsildə sosial-psixoloji xidmət 060119 Pedaqogika 060407 Menecment	2554	385 (130)	134	17 (9)	440	2688	402 (139)	91.36
28	060105 Riyaziyyat müəllimliyi 060501 Riyaziyyat 060509 Kompüter elmləri	546	166 (117)	18	4 (2)	177	564	170 (119)	96.05
29	060605 Dağ-mədən mühəndisliyi	26	21 (10)	0	0 (0)	28	26	21 (10)	75.00
30	060502 Mexanika	14	6 (6)	1	1 (1)	7	15	7 (7)	100.00
31	060104 Fizika müəllimliyi 060503 Fizika	225	105 (80)	7	7 (2)	115	232	112 (82)	97.39
32	060110 Kimya müəllimliyi 060504 Kimya	455	109 (70)	32	11 (6)	132	487	120 (76)	90.91
33	060109 Biologiya müəllimliyi 060505 Biologiya	464	160 (80)	19	7 (3)	175	483	167 (83)	95.43

Cədvəl 2.4 (ardı)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
34	060112 Coğrafiya müəllimliyi 060506 Coğrafiya	278	67 (39)	10	6 (1)	79	288	73 (40)	92.41
35	060701 Torpaqşünaslıq və aqrokimya 060702 Aqronomluq	264	138 (110)	12	6 (4)	157	276	144 (114)	91.72
36	060703 Zootexniklik 060704 Baytarlıq	78	59 (50)	2	2 (1)	74	80	61 (51)	82.43
37	060301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması 060302 Sənətşünaslıq 060308 Xoreoqrafiya sənəti 060313 Teatrşünaslıq 060314 Bədii yaradıcılıq və ekran dramaturgiyası 060315 Rejissorluq 060316 Kinoşünaslıq 060317 Operator sənəti	304	56 (26)	13	2 (2)	67	317	58 (28)	86.57
38	060101 Azərbaycan dili və ədəbiyyatı müəllimliyi 060201 Filologiya	412	215 (39)	0	0 (0)	265	412	215 (39)	81.13
39	060102 Dil və ədəbiyyat müəllimliyi 060103 Xarici dil müəllimliyi 060201 Filologiya	5	2 (0)	24	14 (0)	26	29	16 (0)	61.54
40	060102 Dil və ədəbiyyat müəllimliyi 060103 Xarici dil müəllimliyi 060201 Filologiya	321	212 (51)	10	9 (2)	288	331	221 (53)	76.74
41	060102 Dil və ədəbiyyat müəllimliyi 060103 Xarici dil müəllimliyi 060201 Filologiya	88	42 (0)	0	0 (0)	72	88	42 (0)	58.33
42	060202 Fəlsəfə 060210 Sosiologiya 060805 Sosial iş	2008	124 (58)	159	11 (6)	156	2167	135 (64)	86.54
43	060203 Tərcümə	205	28 (14)	7	3 (1)	59	212	31 (15)	52.54
44	060204 Jurnalistika	27	26 (25)	2	2 (2)	74	29	28 (27)	37.84
45	060205 Kitabşünaslıq 060215 Kitabxanaçılıq və informasiya	47	14 (6)	1	0 (0)	23	48	14 (6)	60.87
Magistraturaya qəbul olanların ali təhsil müəssisələri üzrə sayı 2.8 saylı cədvəldə təqdim olunub. Cədvəldən görünür ki, bu il Azərbaycan Tibb Universiteti və Fövqəladə Hallar Nazirliyinin Akademiyasında plan yerləri tam dolub. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Naxçıvan Müəllimlər İnstitutu, Bakı Ali Neft Məktəbi, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri) və Naxçıvan Universitetinə (Naxçıvan şəhəri) qəbulolma faizi 95%-dən, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri), Odlar Yurdu Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universitetinə qəbulolma faizi 90%-dən yuxarıdır. Azərbaycan Dövlət Dəniz Akademiyası və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına ayrılan yerlərə qəbulolma faizi 90%-dir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına ayrılan 15 yerin hamısına yalnız dövlət sifarişi əsasında qəbul aparılırdı və bu yerlərin hamısı boş qalmışdır. Magistraturaya qəbulda plan yerlərinin dolma göstəricisi üzrə zəif nəticələr Bakı Xoreoqrafiya Akademiyasına (35.71 %) da aiddir.

Cədvəl 2.8

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN (DÖVLƏT VƏ ÖZƏL) MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLAN BAKALAVRLARIN SAYI HAQQINDA MƏLUMAT

№	Ali təhsil müəssisəsinin adı	Qəbul planı	Qəbul edilibdir (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
1	Bakı Dövlət Universiteti	1162	850 (526)	134 (44)	984 (570)	84.68
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	1578	1078 (676)	172 (89)	1250 (765)	79.21
3	Azərbaycan Texniki Universiteti	1632	1251 (549)	84 (29)	1335 (578)	81.80
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	604	516 (198)	32 (9)	548 (207)	90.73
5	Azərbaycan Tibb Universiteti	55	52 (40)	3 (0)	55 (40)	100.00
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	358	335 (143)	0 (0)	335 (143)	93.58
7	Azərbaycan Dövlət İqtisad Universiteti	2399	1926 (511)	274 (38)	2200 (549)	91.70
8	Azərbaycan Dillər Universiteti	352	278 (89)	14 (3)	292 (92)	82.95
9	Bakı Slavyan Universiteti	132	98 (6)	17 (4)	115 (10)	87.12
10	Bakı Mühəndislik Universiteti	274	230 (57)	0 (0)	230 (57)	83.94
11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	170	115 (104)	52 (17)	167 (121)	98.24
12	Bakı Musiqi Akademiyası	51	31 (25)	6 (1)	37 (26)	72.55
13	Azərbaycan Milli Konservatoriyası	45	32 (17)	2 (0)	34 (17)	75.56
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	171	123 (45)	4 (2)	127 (47)	74.27
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	62	45 (31)	5 (2)	50 (33)	80.65
16	Azərbaycan Turizm və Menecment Universiteti	195	163 (65)	2 (1)	165 (66)	84.62
17	Bakı Xoreoqrafiya Akademiyası	28	8 (2)	2 (1)	10 (3)	35.71
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	75	56 (21)	7 (4)	63 (25)	84.00
19	Milli Aviasiya Akademiyası	81	53 (31)	18 (6)	71 (37)	87.65
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	30	23 (17)	4 (2)	27 (19)	90.00
21	Bakı Ali Neft Məktəbi	128	114 (18)	11 (2)	125 (20)	97.66
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	10	9 (5)	0 (0)	9 (5)	90.00
23	Azərbaycan Milli Elmlər Akademiyası	177	156 (77)	0 (0)	156 (77)	88.14
24	Naxçıvan Dövlət Universiteti	250	204 (50)	0 (0)	204 (50)	81.60
25	Naxçıvan Müəllimlər İnstitutu	48	47 (10)	0 (0)	47 (10)	97.92
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	460	421 (206)	7 (3)	428 (209)	93.04
27	Gəncə Dövlət Universiteti	254	235 (59)	0 (0)	235 (59)	92.52
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	179	168 (17)	3 (1)	171 (18)	95.53
29	Sumqayıt Dövlət Universiteti	138	124 (38)	0 (0)	124 (38)	89.86
30	Mingəçevir Dövlət Universiteti	70	67 (7)	0 (0)	67 (7)	95.71
31	Lənkəran Dövlət Universiteti	284	189 (26)	0 (0)	189 (26)	66.55
32	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası	15	0 (0)	0 (0)	0 (0)	0.00
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	15 (15)	0 (0)	15 (15)	100.00
34	Azərbaycan İlahiyyat İnstitutu	8	7 (7)	0 (0)	7 (7)	87.50
35	Azərbaycan Kooperasiya Universiteti	273	223 (7)	3 (0)	226 (7)	82.78

Cədvəl 2.8 (ardı)

№	Ali təhsil müəssisəsinin adı	Qəbul planı	Qəbul edilibdir (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
36	Azərbaycan Universiteti	150	110 (9)	2 (0)	112 (9)	74.67
37	Qərbi Kaspi Universiteti	186	130 (18)	8 (3)	138 (21)	74.19
38	Xəzər Universiteti	306	204 (31)	9 (0)	213 (31)	69.61
39	Bakı Avrasiya Universiteti	92	58 (0)	0 (0)	58 (0)	63.04
40	Bakı Qızlar Universiteti	30	26 (0)	0 (0)	26 (0)	86.67
41	Odlar Yurdu Universiteti	259	226 (14)	14 (0)	240 (14)	92.66
42	Bakı Biznes Universiteti	160	105 (0)	7 (0)	112 (0)	70.00
43	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	20	19 (1)	0 (0)	19 (1)	95.00
44	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	20	12 (0)	0 (0)	12 (0)	60.00
	C Ə M İ	**12986**	**10132 (3768)**	**896 (261)**	**11028 (4029)**	**84.92**

Magistraturaya qəbul imtahanının nəticələri əsasında bakalavrların topladıqları balların paylanmasının ədədi xarakteristikaları müəyyənləşdirilib. Paylanmanın variasiya sırası (cədvəl 2.9) tərtib olunub və qrafiki (qrafik 2.2) qurulub. Qrafikdə bakalavrların topladıqları balların riyazi gözləməsi (orta qiyməti) (M), bakalavrlar seçməsini sayca iki bərabər hissəyə ayıran medianı (Me) və balların paylanma histoqramları təsvir edilib. Təhlil göstərir ki, bakalavrların ballarının paylanma histoqramı, demək olar ki, simmetrikdir və normal paylanmaya yaxındır.

Xatırladaq ki, magistratura səviyyəsinə qəbul imtahanında toplanıla bilən maksimal bal 100-ə bərabər olub. Bakalavrlardan heç biri 100 bal toplaya bilməyib. Toplanılan ən yüksək bal 99 olub. Bakalavrların yarısı 50.75 baldan yüksək nəticə göstərib. Ayrı-ayrı fənlər üzrə orta göstəricilər belədir: məntiq üzrə 54.19%, informatika üzrə 49.77%, ingilis dili üzrə 46.24%, fransız dili üzrə 40.98%, alman dili üzrə 44.06%, rus dili üzrə 54.46%.

Cədvəl 2.9

Bal intervalları	Baka-lavrların sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0	1	0.00	0.00
1 - 5	1	0.00	0.01
6 - 10	15	0.07	0.08
11 - 15	69	0.33	0.41
16 - 20	244	1.17	1.58
21 - 25	602	2.89	4.48
26 - 30	975	4.68	9.16
31 - 35	1332	6.40	15.55
36 - 40	1837	8.82	24.38
41 - 45	2300	11.05	35.42
46 - 50	2637	12.66	48.09
51 - 55	2666	12.80	60.89
56 - 60	2447	11.75	72.64
61 - 65	1951	9.37	82.01
66 - 70	1506	7.23	89.24
71 - 75	1011	4.86	94.10
76 - 80	638	3.06	97.16
81 - 85	346	1.66	98.82
86 - 90	171	0.82	99.64
91 - 95	60	0.29	99.93
96 - 100	14	0.07	100.00

Magistraturaya qəbul imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	51.33	Minimal bal :	0
Ortakvadratik meyil :	15.16	Maksimal bal :	99
Moda :	52	Bakalavrların sayı :	20823
Median :	50.75		

Qrafik 2.2



Magistraturaya qəbulun nəticələri əsasında ayrı-ayrı ali təhsil müəssisələrini bitirən məzunların imtahanda topladıqları ballar təhlil olunub. İmtahanda Azərbaycan Respublikasının 58 ali təhsil müəssisəsinin məzunları iştirak ediblər. Onların göstəriciləri aşağıdakı 2.10 saylı cədvəldə təqdim edilir. Cədvəldən göründüyü kimi, imtahanda ən azı 10 məzunu iştirak edən ali təhsil müəssisələri arasında ən yüksək nəticəni Bakı Ali Neft Məktəbinin məzunları göstərib. Bu təhsil müəssisəsinin məzunlarının qəbul imtahanında bütün fənlər üzrə birlikdə topladıqları orta bal göstəricisi 77.5-dir. Xarici dil, informatika və məntiq fənləri üzrə də ən yüksək nəticələri Bakı Ali Neft Məktəbinin məzunları göstərib: xarici dil üzrə – 22.2, informatika üzrə – 18.2, məntiq üzrə – 37.2 bal. Bundan başqa, xarici dil üzrə "ADA" Universiteti (20.7), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (18.1), Moskva Dövlət Universitetinin Bakı filialı (18.0), informatika üzrə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (16.1), Fövqəladə Hallar Nazirliyinin Akademiyası (15.3), məntiq üzrə isə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (32.7), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (30.9), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (30.8), Fövqəladə Hallar Nazirliyinin Akademiyası (30.7), Azərbaycan Tibb Universiteti (30.4) və Bakı Mühəndislik Universitetinin (30.3) məzunları fərqlənib lər.

Qəbul imtahanında ən zəif nəticəni Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunları göstərib. İmtahanda bu təhsil müəssisələrinin, müvafiq olaraq, 154, 281 və 281 məzunu iştirak edib. Bu təhsil müəssisələrinin məzunlarının bütün fənlərdən topladıqları balların orta qiyməti, müvafiq olaraq, 39.3, 38.3 və 36.8-dir.

2.10 saylı cədvəldə ali təhsil müəssisələri üzrə bakalavriat səviyyəsini başa vurmuş məzunların magistratura səviyyəsinə qəbulolma göstəriciləri də təqdim edilmişdir. Təhlil göstərir ki, magistratura səviyyəsinə ən yüksək qəbulolma faizi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Ali Neft Məktəbi, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunlarına məxsusdur. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 297 məzunundan 220-si (74.07%), Bakı Ali Neft Məktəbinin 91 məzunundan 65-i (71.43%), Azərbaycan Tibb Universitetinin 82 məzunundan 56-sı (68.29%), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 2006 məzunundan 1368-i (68.20%) magistraturaya qəbul olmuşdur.

Moskva Dövlət Universitetinin Bakı filialı və "ADA" Universiteti üzrə magistraturaya qəbul təhsil müəssisələrinin özləri tərəfindən həyata keçirildiyi üçün 2.10 saylı cədvəldə bu təhsil müəssisələrinə qəbul olan bakalavrların sayı öz əksini tapmayıb. Bununla belə, Moskva Dövlət Universitetinin Bakı filialının məzunlarından 23-nün, "ADA" Universitetinin məzunlarından isə 47-nin öz ali təhsil müəssisələrinə qəbul olduğunu nəzərə alsaq, Moskva Dövlət Universitetinin Bakı filialının 63 məzunundan 52-nin, "ADA" Universitetinin 167 məzunundan 119-nun magistraturaya qəbulolma faktı ortaya çıxar.

Cədvəl 2.10

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MƏZUNLARININ (BAKALAVRLARIN) MAGİSTRATURAYA QƏBUL İMTAHANININ NƏTİCƏLƏRİ

№	Ali təhsil müəssisəsi	Baka-lavrların ümumi sayı	Ümumi bal	Xarici dil üzrə orta bal	İnfor-matika üzrə orta bal	Məntiq üzrə orta bal	İxtisas seçimində iştirak edənlərin		Qəbul olan bakalavrların	
							sayı	faizi	sayı	faizi
1	Bakı Dövlət Universiteti	3648	55.1	12.5	13.7	28.9	2755	75.52	2072	56.80
2	Azərbaycan Dövlət İqtisad Universiteti	2264	56.7	13.7	13.4	29.6	1771	78.22	1483	65.50
3	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	2006	58.1	13.6	13.8	30.8	1592	79.36	1368	68.20
4	Azərbaycan Dövlət Pedaqoji Universiteti	1354	50.5	10.4	12.9	27.2	959	70.83	667	49.26
5	Azərbaycan Dillər Universiteti	1018	55.1	15.8	13.0	26.4	735	72.20	586	57.56
6	Azərbaycan Texniki Universiteti	916	47.2	8.9	11.8	26.4	613	66.92	514	56.11
7	Azərbaycan Memarlıq və İnşaat Universiteti	754	46.9	9.4	11.3	26.2	498	66.05	364	48.28
8	Azərbaycan Dövlət Aqrar Universiteti	706	43.1	8.9	10.3	23.9	458	64.87	354	50.14
9	Gəncə Dövlət Universiteti	680	44.9	9.3	11.4	24.2	410	60.29	296	43.53
10	Bakı Mühəndislik Universiteti	604	57.5	13.6	13.6	30.3	475	78.64	389	64.40
11	Naxçıvan Dövlət Universiteti	544	50.1	9.9	13.1	27.1	382	70.22	288	52.94
12	Sumqayıt Dövlət Universiteti	509	46.1	8.5	11.8	25.8	318	62.48	205	40.28
13	Bakı Slavyan Universiteti	409	46.7	12.0	11.4	23.3	250	61.12	157	38.39
14	Lənkəran Dövlət Universiteti	326	47.8	8.6	12.0	27.2	211	64.72	162	49.69

Cədvəl 2.10 (ardı)

№	Ali təhsil müəssisəsi	Bakalavrların ümumi sayı	Ümumi bal	Xarici dil üzrə orta bal	İnformatika üzrə orta bal	Məntiq üzrə orta bal	İxtisas seçimində iştirak edənlərin		Qəbul olan bakalavrların	
							sayı	faizi	sayı	faizi
15	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	297	66.9	18.1	16.1	32.7	251	84.51	220	74.07
16	Qərbi Kaspi Universiteti	292	43.4	10.2	10.1	23.1	166	56.85	108	36.99
17	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	281	38.3	9.3	9.0	20.0	153	54.45	101	35.94
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	281	36.8	8.4	8.3	20.2	132	46.98	82	29.18
19	Xəzər Universiteti	279	52.7	14.0	11.9	26.8	187	67.03	129	46.24
20	Azərbaycan Kooperasiya Universiteti	247	40.2	9.2	9.4	21.6	112	45.34	85	34.41
21	Azərbaycan Texnologiya Universiteti	241	41.4	8.4	9.9	23.1	120	49.79	93	38.59
22	Mingəçevir Dövlət Universiteti	232	47.0	8.5	12.6	25.9	165	71.12	119	51.29
23	Milli Aviasiya Akademiyası	231	56.3	13.5	13.5	29.3	185	80.09	144	62.34
24	Azərbaycan Turizm və Menecment Universiteti	205	50.9	12.6	11.5	26.8	146	71.22	92	44.88
25	Odlar Yurdu Universiteti	201	42.9	9.7	10.3	22.9	104	51.74	69	34.33
26	ADA Universiteti	167	60.7	20.7	12.0	28.0	90	53.89	72	43.11
27	Bakı Avrasiya Universiteti	157	40.7	9.3	9.8	21.6	76	48.41	43	27.39
28	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	154	39.3	10.3	8.7	20.3	89	57.79	66	42.86
29	Bakı Qızlar Universiteti	137	43.9	8.9	10.9	24.1	71	51.82	36	26.28
30	Bakı Biznes Universiteti	127	41.0	9.0	10.1	21.9	61	48.03	37	29.13
31	Azərbaycan Universiteti	122	42.7	9.4	10.9	22.5	65	53.28	44	36.07
32	Azərbaycan Müəllimlər İnstitutu	115	41.4	9.4	10.1	21.9	50	43.48	27	23.48
33	Naxçıvan Özəl Universiteti	115	43.2	7.9	11.3	23.9	63	54.78	45	39.13
34	Bakı Musiqi Akademiyası	110	42.6	12.1	9.1	21.3	69	62.73	57	51.82
35	Naxçıvan Müəllimlər İnstitutu	107	44.4	7.7	11.6	25.0	64	59.81	48	44.86
36	Azərbaycan Milli Konservatoriyası	99	34.8	8.0	7.8	19.0	46	46.46	36	36.36
37	Bakı Ali Neft Məktəbi	91	77.5	22.2	18.2	37.2	73	80.22	65	71.43
38	Azərbaycan Tibb Universiteti	82	57.4	13.1	13.9	30.4	61	74.39	56	68.29
39	Azərbaycan Dövlət Dəniz Akademiyası	76	52.3	11.1	12.1	29.1	48	63.16	40	52.63
40	Moskva Dövlət Universitetinin Bakı filialı	63	60.3	18.0	12.8	29.5	33	52.38	29	46.03
41	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	61	58.0	12.1	15.3	30.7	39	63.93	21	34.43
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	59	43.3	9.3	10.1	23.9	30	50.85	20	33.90
43	Qafqaz Universiteti	49	46.0	12.4	10.7	22.9	23	46.94	9	18.37
44	Azərbaycan Beynəlxalq Universiteti	49	41.4	12.4	9.2	19.7	19	38.78	16	32.65
45	Elm və təhsil Mərkəzi "Təfəkkür" Universiteti	42	40.7	9.6	9.6	21.5	16	38.10	11	26.19
46	Mədəniyyət və Turizm Nazirliyinin Bakı Xoreoqrafiya Akademiyası	32	33.4	8.7	6.7	18.1	16	50.00	7	21.88
47	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	24	58.0	13.6	13.4	30.9	18	75.00	13	54.17
48	Bakı İslam Universiteti	17	42.5	10.5	11.4	20.6	7	41.18	6	35.29
49	H.Əliyev adına Ali Hərbi Məktəb	15	45.1	11.5	10.3	23.3	10	66.67	4	26.67
50	Azərbaycan İctimai Siyasi Universiteti	14	33.4	10.7	7.3	15.4	2	14.29	1	7.14
51	Bakı "Asiya" Universiteti	13	42.0	13.0	10.5	18.5	5	38.46	4	30.77
52	Azərbaycan İlahiyyat İnstitutu	12	41.9	6.5	11.0	24.4	4	33.33	3	25.00
53	Dövlət Sərhəd Xidmətinin Akademiyası	8	35.4	6.3	9.0	20.1	0	0.00	0	0.00
54	Milli Təhlükəsizlik Nazirliyinin H.Əliyev adına Akademiyası	6	48.3	15.0	11.2	22.2	1	16.67	1	16.67
55	Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu	5	42.4	13.0	10.4	19.0	4	80.00	2	40.00
56	Polis Akademiyası	3	47.3	11.7	11.3	24.3	1	33.33	1	33.33
57	Bakı Əmtəəşünaslıq-Kommersiya İnstitutu	1	53.0	16.0	15.0	22.0	1	100.00	1	100.00
58	Naxçıvan Universiteti	1	38.0	15.0	5.0	18.0	0	0.00	0	0.00

Ayrılıqda hər bir ali təhsil müəssisəsini təmsil edən bakalavrların diplom üzrə orta balları ilə magistraturaya qəbul imtahanında topladıqları ballar arasında statistik əlaqəni əks etdirən korrelyasiya göstəricisi hesablanmışdır. Ali təhsil müəssisələri üzrə ayrılıqda hesablanan korrelyasiya əmsallarının təhlili göstərir ki, ümumi götürdükdə, bal göstəriciləri arasında korrelyasiya (0.51) zəifdir. Ali təhsil müəssisələrinin çoxunu təmsil edən bakalavrların müvafiq bal göstəriciləri arasındakı korrelyasiya əmsalının qiyməti 0.28-0.58 intervalında yerləşir (ən yüksək göstərici (0.58) Gəncə Dövlət Universitetinin bakalavrlarına aiddir).

Aşağıdakı 2.11 saylı cədvəldə hər bir ali təhsil müəssisəsinin magistraturasına qəbul olan bakalavrların ümumi sayı, o cümlədən qəbul olan builki və əvvəlki illərin məzunlarının sayı, həmçinin onların Bakı şəhərində və regionlarda yerləşən dövlət ali təhsil müəssisələri və özəl ali təhsil müəssisələri üzrə tərkibi verilib. Cədvəldən görünür ki, ali təhsil müəssisələrinə qəbul olanların orta hesabla 40.90%-ni öz məzunları, 46.03%-ni Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrinin, 7.44%-ni regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinin, 5.10%-ni özəl ali təhsil müəssisələrinin, 0.54%-ni isə xarici ölkələrdəki ali təhsil müəssisələrinin məzunları təşkil edir. Qəbul olanların 65.98%-i cari ilin, 34.02%-i isə əvvəlki illərin məzunlarıdır. Azərbaycan Kooperasiya Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Gəncə Dövlət Universiteti, Bakı Qızlar Universiteti, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan İlahiyyat İnstitutu və Xəzər Universitetindən qəbul olan bakalavrlar arasında əvvəlki illərin məzunları üstünlük təşkil edir.

Ali təhsil müəssisələri üzrə orta respublika göstəricilərini ayrılıqda ali təhsil müəssisələrinin göstəriciləri ilə müqayisə etdikdə məlum olur ki, Bakı Dövlət Universiteti, Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, qəbul aparılan ixtisaslaşmalar üzrə inhisarçı olan ali təhsil müəssisələri, eləcə də Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Dəniz Akademiyası, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Mingəçevir Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetinin magistraturalarına qəbul olan bakalavrlar əsasən həmin ali təhsil müəssisələrinin öz məzunlarıdır.

Bakı Slavyan Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Azərbaycan Texniki Universiteti və Bakı şəhərində yerləşən özəl ali təhsil müəssisələrinin magistraturalarına qəbulda Bakı şəhərində yerləşən digər dövlət ali təhsil müəssisələrinin məzunları üstünlük təşkil edib.

Regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinin (Naxçıvan Müəllimlər İnstitutu və Azərbaycan Texnologiya Universiteti istisna olmaqla) məzunları daha çox bitirdikləri ali təhsil müəssisələrinə və Bakı şəhərində yerləşən digər ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmuşdur. Naxçıvan Müəllimlər İnstitutuna məzunları ilə yanaşı, Naxçıvan Dövlət Universitetinin də məzunları qəbul olub. Azərbaycan Texnologiya Universitetinə isə, əsasən, Bakıda və Gəncədə yerləşən digər ali təhsil müəssisələrinin məzunları qəbul olub.

Özəl universitetlərin məzunları ali təhsil müəssisələrinə qəbul olanların çox az hissəsini təşkil edib – cəmi 665 nəfər. Onların 33-ü Bakı Dövlət Universitetinə, 103-ü bitirdiyi ali təhsil müəssisəsinə, 32-si Azərbaycan Memarlıq və İnşaat Universitetinə, 75-i Azərbaycan Texniki Universitetinə, 116-sı Azərbaycan Dövlət İqtisad Universitetinə, 35-i Azərbaycan Dillər Universitetinə, 104-ü digər özəl ali təhsil müəssisələrinə, 71-i regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinə, 96-sı isə Bakıda yerləşən digər dövlət ali təhsil müəssisələrinə qəbul olub.

Cədvəl 2.11

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLAN BAKALAVRLARIN BİTİRDİKLƏRİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ TƏRKİBİ

№	Ali təhsil müəssisəsi	Qəbul olan-ların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
1	**Bakı Dövlət Universiteti**	984	649	65.96	234	23.78	65	6.61	33	3.35	3	0.30
	cari ilin məzunları	638	437	44.41	147	14.94	40	4.07	14	1.42	0	0.00
	əvvəlki illərin məzunları	346	212	21.54	87	8.84	25	2.54	19	1.93	3	0.30
2	**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**	1250	732	58.56	449	35.92	42	3.36	21	1.68	6	0.48
	cari ilin məzunları	982	637	50.96	311	24.88	26	2.08	7	0.56	1	0.08
	əvvəlki illərin məzunları	268	95	7.60	138	11.04	16	1.28	14	1.12	5	0.40

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
3	**Azərbaycan Texniki Universiteti**	1335	360	26.97	812	60.82	84	6.29	75	5.62	4	0.30
	cari ilin məzunları	1000	289	21.65	614	45.99	57	4.27	40	3.00	0	0.00
	əvvəlki illərin məzunları	335	71	5.32	198	14.83	27	2.02	35	2.62	4	0.30
4	**Azərbaycan Memarlıq və İnşaat Universiteti**	548	205	37.41	270	49.27	39	7.12	32	5.84	2	0.36
	cari ilin məzunları	402	161	29.38	194	35.40	26	4.74	21	3.83	0	0.00
	əvvəlki illərin məzunları	146	44	8.03	76	13.87	13	2.37	11	2.01	2	0.36
5	**Azərbaycan Tibb Universiteti**	55	14	25.45	25	45.45	15	27.27	1	1.82	0	0.00
	cari ilin məzunları	37	7	12.73	20	36.36	10	18.18	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	18	7	12.73	5	9.09	5	9.09	1	1.82	0	0.00
6	**Azərbaycan Dövlət Pedaqoji Universiteti**	335	133	39.70	159	47.46	29	8.66	14	4.18	0	0.00
	cari ilin məzunları	204	84	25.07	98	29.25	17	5.07	5	1.49	0	0.00
	əvvəlki illərin məzunları	131	49	14.63	61	18.21	12	3.58	9	2.69	0	0.00
7	**Azərbaycan Dövlət İqtisad Universiteti**	2200	906	41.18	1082	49.18	79	3.59	116	5.27	17	0.77
	cari ilin məzunları	1493	729	33.14	664	30.18	50	2.27	49	2.23	1	0.05
	əvvəlki illərin məzunları	707	177	8.05	418	19.00	29	1.32	67	3.05	16	0.73
8	**Azərbaycan Dillər Universiteti**	292	146	50.00	89	30.48	21	7.19	35	11.99	1	0.34
	cari ilin məzunları	158	91	31.16	47	16.10	9	3.08	11	3.77	0	0.00
	əvvəlki illərin məzunları	134	55	18.84	42	14.38	12	4.11	24	8.22	1	0.34
9	**Bakı Slavyan Universiteti**	115	28	24.35	62	53.91	9	7.83	15	13.04	1	0.87
	cari ilin məzunları	67	12	10.43	42	36.52	5	4.35	8	6.96	0	0.00
	əvvəlki illərin məzunları	48	16	13.91	20	17.39	4	3.48	7	6.09	1	0.87
10	**Bakı Mühəndislik Universiteti**	230	66	28.70	130	56.52	25	10.87	6	2.61	3	1.30
	cari ilin məzunları	153	58	25.22	72	31.30	19	8.26	4	1.74	0	0.00
	əvvəlki illərin məzunları	77	8	3.48	58	25.22	6	2.61	2	0.87	3	1.30
11	**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**	167	79	47.31	83	49.70	4	2.40	1	0.60	0	0.00
	cari ilin məzunları	131	69	41.32	57	34.13	4	2.40	1	0.60	0	0.00
	əvvəlki illərin məzunları	36	10	5.99	26	15.57	0	0.00	0	0.00	0	0.00
13	**Bakı Musiqi Akademiyası**	37	37	100.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	28	28	75.68	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	9	9	24.32	0	0.00	0	0.00	0	0.00	0	0.00
14	**Azərbaycan Milli Konservatoriyası**	34	25	73.53	9	26.47	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	19	15	44.12	4	11.76	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	15	10	29.41	5	14.71	0	0.00	0	0.00	0	0.00
15	**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**	127	63	49.61	52	40.94	8	6.30	4	3.15	0	0.00
	cari ilin məzunları	73	36	28.35	30	23.62	4	3.15	3	2.36	0	0.00
	əvvəlki illərin məzunları	54	27	21.26	22	17.32	4	3.15	1	0.79	0	0.00
16	**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**	50	39	78.00	8	16.00	1	2.00	1	2.00	1	2.00
	cari ilin məzunları	23	19	38.00	4	8.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	27	20	40.00	4	8.00	1	2.00	1	2.00	1	2.00

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
17	**Azərbaycan Turizm və Menecment Universiteti**	165	16	9.70	113	68.48	17	10.30	19	11.52	0	0.00
	cari ilin məzunları	116	12	7.27	79	47.88	13	7.88	12	7.27	0	0.00
	əvvəlki illərin məzunları	49	4	2.42	34	20.61	4	2.42	7	4.24	0	0.00
18	**Bakı Xoreoqrafiya Akademiyası**	10	5	50.00	5	50.00	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	5	5	50.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	5	0	0.00	5	50.00	0	0.00	0	0.00	0	0.00
19	**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**	63	51	80.95	11	17.46	0	0.00	1	1.59	0	0.00
	cari ilin məzunları	39	37	58.73	2	3.17	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	24	14	22.22	9	14.29	0	0.00	1	1.59	0	0.00
20	**Milli Aviasiya Akademiyası**	71	51	71.83	16	22.54	2	2.82	2	2.82	0	0.00
	cari ilin məzunları	51	35	49.30	12	16.90	2	2.82	2	2.82	0	0.00
	əvvəlki illərin məzunları	20	16	22.54	4	5.63	0	0.00	0	0.00	0	0.00
21	**Azərbaycan Dövlət Dəniz Akademiyası**	27	26	96.30	1	3.70	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	25	24	88.89	1	3.70	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	2	2	7.41	0	0.00	0	0.00	0	0.00	0	0.00
22	**Bakı Ali Neft Məktəbi**	125	12	9.60	107	85.60	1	0.80	4	3.20	1	0.80
	cari ilin məzunları	70	8	6.40	61	48.80	1	0.80	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	55	4	3.20	46	36.80	0	0.00	4	3.20	1	0.80
23	**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası**	9	1	11.11	8	88.89	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	7	0	0.00	7	77.78	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	2	1	11.11	1	11.11	0	0.00	0	0.00	0	0.00
24	**Azərbaycan Milli Elmlər Akademiyası**	156	0	0.00	129	82.69	20	12.82	7	4.49	0	0.00
	cari ilin məzunları	89	0	0.00	75	48.08	11	7.05	3	1.92	0	0.00
	əvvəlki illərin məzunları	67	0	0.00	54	34.62	9	5.77	4	2.56	0	0.00
25	**Naxçıvan Dövlət Universiteti**	204	147	72.06	21	10.29	15	7.35	21	10.29	0	0.00
	cari ilin məzunları	119	86	42.16	10	4.90	11	5.39	12	5.88	0	0.00
	əvvəlki illərin məzunları	85	61	29.90	11	5.39	4	1.96	9	4.41	0	0.00
26	**Naxçıvan Müəllimlər İnstitutu**	47	21	44.68	7	14.89	17	36.17	2	4.26	0	0.00
	cari ilin məzunları	17	11	23.40	1	2.13	4	8.51	1	2.13	0	0.00
	əvvəlki illərin məzunları	30	10	21.28	6	12.77	13	27.66	1	2.13	0	0.00
27	**Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)**	428	250	58.41	89	20.79	75	17.52	11	2.57	3	0.70
	cari ilin məzunları	288	194	45.33	44	10.28	43	10.05	7	1.64	0	0.00
	əvvəlki illərin məzunları	140	56	13.08	45	10.51	32	7.48	4	0.93	3	0.70
28	**Gəncə Dövlət Universiteti**	235	119	50.64	85	36.17	27	11.49	3	1.28	1	0.43
	cari ilin məzunları	111	69	29.36	31	13.19	10	4.26	1	0.43	0	0.00
	əvvəlki illərin məzunları	124	50	21.28	54	22.98	17	7.23	2	0.85	1	0.43

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
29	**Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)**	171	39	22.81	53	30.99	68	39.77	8	4.68	3	1.75
	cari ilin məzunları	98	31	18.13	21	12.28	45	26.32	1	0.58	0	0.00
	əvvəlki illərin məzunları	73	8	4.68	32	18.71	23	13.45	7	4.09	3	1.75
30	**Sumqayıt Dövlət Universiteti**	124	44	35.48	58	46.77	14	11.29	8	6.45	0	0.00
	cari ilin məzunları	63	31	25.00	22	17.74	9	7.26	1	0.81	0	0.00
	əvvəlki illərin məzunları	61	13	10.48	36	29.03	5	4.03	7	5.65	0	0.00
31	**Mingəçevir Dövlət Universiteti**	67	47	70.15	14	20.90	4	5.97	1	1.49	1	1.49
	cari ilin məzunları	40	36	53.73	3	4.48	1	1.49	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	27	11	16.42	11	16.42	3	4.48	1	1.49	1	1.49
32	**Lənkəran Dövlət Universiteti**	189	78	41.27	67	35.45	25	13.23	17	8.99	2	1.06
	cari ilin məzunları	107	45	23.81	42	22.22	14	7.41	6	3.17	0	0.00
	əvvəlki illərin məzunları	82	33	17.46	25	13.23	11	5.82	11	5.82	2	1.06
37	**Fövqəladə Hallar Nazirliyinin Akademiyası**	15	15	100.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	5	5	33.33	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	10	10	66.67	0	0.00	0	0.00	0	0.00	0	0.00
38	**Azərbaycan İlahiyyat İnstitutu**	7	3	42.86	0	0.00	0	0.00	4	57.14	0	0.00
	cari ilin məzunları	2	2	28.57	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	5	1	14.29	0	0.00	0	0.00	4	57.14	0	0.00
39	**Azərbaycan Kooperasiya Universiteti**	226	28	12.39	152	67.26	27	11.95	18	7.96	1	0.44
	cari ilin məzunları	103	18	7.96	64	28.32	16	7.08	5	2.21	0	0.00
	əvvəlki illərin məzunları	123	10	4.42	88	38.94	11	4.87	13	5.75	1	0.44
40	**Azərbaycan Universiteti**	112	6	5.36	83	74.11	10	8.93	11	9.82	2	1.79
	cari ilin məzunları	70	5	4.46	53	47.32	6	5.36	6	5.36	0	0.00
	əvvəlki illərin məzunları	42	1	0.89	30	26.79	4	3.57	5	4.46	2	1.79
41	**Qərbi Kaspi Universiteti**	138	7	5.07	104	75.36	12	8.70	13	9.42	2	1.45
	cari ilin məzunları	79	5	3.62	63	45.65	6	4.35	5	3.62	0	0.00
	əvvəlki illərin məzunları	59	2	1.45	41	29.71	6	4.35	8	5.80	2	1.45
42	**Xəzər Universiteti**	213	17	7.98	168	78.87	9	4.23	17	7.98	2	0.94
	cari ilin məzunları	106	11	5.16	85	39.91	6	2.82	4	1.88	0	0.00
	əvvəlki illərin məzunları	107	6	2.82	83	38.97	3	1.41	13	6.10	2	0.94
43	**Bakı Avrasiya Universiteti**	58	7	12.07	39	67.24	8	13.79	4	6.90	0	0.00
	cari ilin məzunları	35	1	1.72	26	44.83	6	10.34	2	3.45	0	0.00
	əvvəlki illərin məzunları	23	6	10.34	13	22.41	2	3.45	2	3.45	0	0.00
44	**Bakı Qızlar Universiteti**	26	1	3.85	20	76.92	4	15.38	1	3.85	0	0.00
	cari ilin məzunları	10	0	0.00	7	26.92	3	11.54	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	16	1	3.85	13	50.00	1	3.85	1	3.85	0	0.00
45	**Odlar Yurdu Universiteti**	240	21	8.75	175	72.92	18	7.50	24	10.00	2	0.83
	cari ilin məzunları	127	13	5.42	94	39.17	11	4.58	9	3.75	0	0.00
	əvvəlki illərin məzunları	113	8	3.33	81	33.75	7	2.92	15	6.25	2	0.83

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
46	**Bakı Biznes Universiteti**	112	9	8.04	75	66.96	16	14.29	11	9.82	1	0.89
	cari ilin məzunları	69	7	6.25	43	38.39	12	10.71	7	6.25	0	0.00
	əvvəlki illərin məzunları	43	2	1.79	32	28.57	4	3.57	4	3.57	1	0.89
47	**Naxçıvan Universiteti (Naxçıvan şəhəri)**	19	7	36.84	4	21.05	8	42.11	0	0.00	0	0.00
	cari ilin məzunları	11	3	15.79	4	21.05	4	21.05	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	8	4	21.05	0	0.00	4	21.05	0	0.00	0	0.00
48	**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**	12	0	0.00	8	66.67	2	16.67	1	8.33	1	8.33
	cari ilin məzunları	6	0	0.00	4	33.33	2	16.67	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	6	0	0.00	4	33.33	0	0.00	1	8.33	1	8.33
	Bütövlükdə	**11028**	**4510**	**40.90**	**5076**	**46.03**	**820**	**7.44**	**562**	**5.10**	**60**	**0.54**
	cari ilin məzunları	7276	3366	30.52	3158	28.64	503	4.56	247	2.24	2	0.02
	əvvəlki illərin məzunları	3752	1144	10.37	1918	17.39	317	2.87	315	2.86	58	0.53

Məntiqi təfəkkürü yoxlayan test tapşırıqları üzrə elmi-metodiki təhlil və tövsiyələr

2022-ci ildə magistraturaya qəbul imtahanının hər bir cəhdində məntiqi təfəkkürü yoxlamaq məqsədi ilə bakalavrlara 14 verbal (sözlə bağlı), 15 fiqurlarla bağlı və 21 məntiqi-riyazi test tapşırığı təqdim edilmişdi. Verbal test tapşırıqları ilə bakalavrların sözlə ifadə olunmuş məlumatı təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə, müxtəlif sözlərin istifadəsində incəlikləri hissetmə qabiliyyətləri, fiqurlarla bağlı olan test tapşırıqları ilə onların fəza təfəkkürü, vizual məlumatı təhliletmə qabiliyyəti yoxlanılır. Məntiqi-riyazi test tapşırıqları bakalavrların ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək, praktiki riyazi məsələləri məntiqlə həll edə bilmək qabiliyyətini yoxlayır.

2022-ci ildə qəbul imtahanının hər bir cəhdində istifadə edilən 45 test tapşırığı (1-45-ci tapşırıqlar) qapalı (çoxseçimli), 5 test tapşırığı isə (46-50-ci tapşırıqlar) açıq tipli (2-si "hesablama", 1-i "seçim", 1-i "ardıcıllıq", 1-i "uyğunluq" formalı) olmuşdur. Açıq tipli, yəni cavab variantları verilmədən təqdim olunan bu tapşırıqların üçü məntiqi-riyazi, biri fiqurlarla bağlı, biri isə verbal tapşırıq idi. Mürəkkəblik dərəcəsinə görə test tapşırıqlarının 14-ü asan, 22-si orta və 14-ü çətin olmuşdur.

Məntiqi təfəkkürü yoxlayan test tapşırıqları üzrə bakalavrların imtahan nəticələrinin statistik təhlili göstərir ki, birinci cəhd imtahanında 50 tapşırıqdan 13-nü, ikinci cəhd imtahanında isə 19-nu bakalavrların 70%-dən çoxu düzgün cavablandıra bilmişdir. Birinci cəhd imtahanında 30, ikinci cəhd imtahanında isə 29 test tapşırığı üzrə bu göstərici 20-70% aralığında olmuşdur. Birinci cəhd imtahanında tapşırıqlardan 7-nin, ikinci cəhd imtahanında isə tapşırıqlardan 2-nin düzgün cavablandırılma göstəricisi 20%-dən aşağıdır.

	Təqdim olunan test tapşırıqlarının sayı	Düzgün cavablandırılma göstəricisi					
		20%-dən aşağı		20-70%		70%-dən yuxarı	
		I cəhd	II cəhd	I cəhd	II cəhd	I cəhd	II cəhd
Verbal (sözlə bağlı) test tapşırıqları	15	2	1	9	10	4	4
Fiqurla bağlı test tapşırıqları	15	0	0	8	6	7	9
Məntiqi-riyazi test tapşırıqları	20	5	2	13	12	2	6
CƏMİ	**50**	**7**	**2**	**30**	**29**	**13**	**19**

Bu blokdakı tapşırıqları düzgün cavablandıran bakalavrların ortastatistik göstəricisi birinci cəhd üzrə 52,01%, ikinci cəhd üzrə isə 54,77% olub ki, bu da ötənilki müvafiq göstəricidən uyğun olaraq 1.53% və 1.61% azdır.

Aşağıdakı cədvəldə 2016-2022-ci illər ərzində keçirilən qəbul imtahanlarında iştirak edən bakalavrların məntiqi təfəkkür səviyyəsini müəyyən edən test tapşırıqlarını düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

		Bakalavrların sayı	**Qapalı tipli tapşırıqların düzgün cavablandırılma faizi**	**Açıq tipli tapşırıqların düzgün cavablandırılma faizi**	**Qapalı və açıq tipli tapşırıqların (birlikdə) düzgün cavablandırılma faizi**
2016	Azərbaycan bölməsi üzrə	20312	44.42	14.11	41.39
	Rus bölməsi üzrə	2097	44.35	11.86	41.10
	Hər iki bölmə üzrə birlikdə	22409	44.42	13.90	41.37
2017	Azərbaycan bölməsi üzrə	11733	61.08	23.52	57.29
	Rus bölməsi üzrə	1239	58.80	19.94	54.88
	Hər iki bölmə üzrə birlikdə	12972	60.86	23.18	57.06
2018	Azərbaycan bölməsi üzrə	11079	57.64	9.85	52.86
	Rus bölməsi üzrə	1156	55.2	8.97	50.79
	Hər iki bölmə üzrə birlikdə	12235	57.41	9.77	52.67
2019	Azərbaycan bölməsi üzrə	11382	58.44	20.72	54.67
	Rus bölməsi üzrə	1163	53.74	17.16	50.08
	Hər iki bölmə üzrə birlikdə	12545	58.01	20.39	54.25
2020	Azərbaycan bölməsi üzrə	14264	60.89	21.13	56.91
	Rus bölməsi üzrə	1282	56.93	17.66	53.01
	Hər iki bölmə üzrə birlikdə	15546	60.56	20.84	56.59
2021 I cəhd	Azərbaycan bölməsi üzrə	17899	56,93	18,28	53,77
	Rus bölməsi üzrə	1719	54,41	14,83	51,18
	Hər iki bölmə üzrə birlikdə	19618	56,71	17,97	53,54
2021 II cəhd	Azərbaycan bölməsi üzrə	13319	61,63	12,64	56,73
	Rus bölməsi üzrə	1105	56,76	10,61	52,15
	Hər iki bölmə üzrə birlikdə	14424	61,26	12,48	56,38

		Bakalavrların sayı	Qapalı tipli tapşırıqların düzgün cavablandırılma faizi	Açıq tipli tapşırıqların düzgün cavablandırılma faizi	Qapalı və açıq tipli tapşırıqların (birlikdə) düzgün cavablandırılma faizi
2022 I cəhd	Azərbaycan bölməsi üzrə	15369	56,47	14,97	52,32
	Rus bölməsi üzrə	1413	52,84	10,86	48,64
	Hər iki bölmə üzrə birlikdə	16782	56,17	14,62	52,01
2022 II cəhd	Azərbaycan bölməsi üzrə	13606	58,06	26,45	54,90
	Rus bölməsi üzrə	1025	56,52	22,63	53,13
	Hər iki bölmə üzrə birlikdə	14631	57,95	26,19	54,77

Statistika göstərir ki, bu ilin birinci cəhd imtahanında məntiqi təfəkkürü yoxlayan qapalı tipli test tapşırıqlarının düzgün cavablandırma göstəricisi 56.17%, açıq tipli test tapşırıqlarının düzgün cavablandırma göstəricisi 14.62%, ikinci cəhd üzrə isə uyğun olaraq 57.95% və 26.19% olub. Bunlar ötənilki müvafiq göstəricilərdən birinci cəhddə uyğun olaraq 0.54% və 3.35% aşağı, ikinci cəhddə qapalı tipli test tapşırıqlarının düzgün cavablandırma göstəricisindən 3.31% aşağı və açıq tipli test tapşırıqları üzrə 13.71% yuxarı olmuşdur.

Bakalavrların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqlarından bəzilərinin həllinin izahını təqdim edirik.

1-ci cəhd, A variantı, 30 saylı test tapşırığı

"?" əvəzinə uyğun olan variantı seçin.

■ × 5 = ■²

▲ + ■ = 9

▲ – ● = 1

max (■ + ▲ + ●) = ?

Fiqurlar tam ədədləri ifadə edir.

Bu test tapşırığı bakalavrın verilən məlumatı mücərrədləşdirmə qabiliyyəti və ədədlərlə işləmək bacarığı yoxlanılır.

Tapşırığın cavablandırılma statistikası belədir:

Bəndlər	A variantı	
	Azərbaycan bölməsi üzrə	Rus bölməsi üzrə
A	72.49%	70.61%
B	6.78%	9.51%
C	**8.70%**	**7.78%**
D	4.99%	6.34%
E	4.57%	3.17%
İmtina	2.47%	2.59%

■ × 5 = ■² bərabərliyini tənlik şəklində həll etdikdə, ■² – 5■ = 0, ■(■ – 5) = 0, buradan da ■ = 0 və ■ = 5 alınır.

■=5 olduqda, ▲= 4 və ●= 3, buradan da ■+▲+●=12 alınar. ■=0 olduqda isə ▲= 9 və ●= 8, buradan da ■+▲+●= 17 alınır. Deməli, max (■+▲+●) = 17 .

Cavablandırılma statistikası göstərir ki, bakalavrların 70%-dən çoxu tapşırığı həll edərkən tənliyin ■=0 kökünü nəzərə almayıblar. Bakalavrlar ■=0 kökünü nəzərə alsaydılar, döğru cavabı müəyyən edə bilərdilər. Eyni zamanda görünür, bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin bir səbəbi də tapşırığın şərtindəki maksimum ifadəsinə diqqət yetirməmələri olmuşdur.

Beləliklə, ***doğru cavab*** 17.

2-ci cəhd, A variantı, 63 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.



A) 79 B) 54 C) 43 D) 94 E) 11

Bu test tapşırığı bakalavrın vizual məlumatı (fiqur və ya şəkil formasında verilənləri) təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə qabiliyyəti və ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək bacarıqları yoxlanılır.

Tapşırığın cavablandırılma statistikası belədir:

Bəndlər	**A variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A	**18.59%**	**36.02%**
B	27.99%	15.33%
C	18.56%	28.74%
D	17.94%	10.34%
E	7.69%	6.90%
İmtina	9.22%	2.67%



Bu test tapşırığında qanunauyğunluq d=a+2b+3c şəklində ifadə olunmuşdur: Bu qanunauyğunluqdan istifadə etməklə alınır: ?=20+7x2+15x3=79.

Bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin səbəbi tapşırıqda qanunauyğunluğu müəyyən edə bilməmələri olmuşdur.

Beləliklə, doğru cavab A bəndidir (79).

Bildiyiniz kimi, analitik düşünmə hadisələri analiz edib, həll yolunu tapmağa imkan verən qabiliyyətdir. Bu qabiliyyəti inkişaf etdirmək üçün intellektual oyunlar oynamaq, davamlı olaraq yeni məlumatlara yiyələnmək, kitab oxumaq və oxunan kitabla bağlı müzakirələr aparmaq, riyazi məsələlər həll etmək (məsələlərdə detallara fikir vermək) və s. məşğuliyyətlər tövsiyə olunur.

İnformatika üzrə bilikləri yoxlayan test tapşırıqlarına verilən cavabların elmi-metodiki təhlili və tövsiyələr

2022-ci ildə magistratura səviyyəsinə qəbul imtahanının hər 2 cəhdində informatika üzrə istifadə olunmuş test tapşırıqları bu fənnə aid qəbul proqramında nəzərdə tutulan bütün mövzuları əhatə etmişdir. Bu imtahanlarda informatika fənni üzrə istifadə olunan 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə 2-si hesablama, 2-si seçim, 1-i isə uyğunluq formalı olmaqla açıq tipli olmuşdur.

Qeyd edək ki, I cəhddə Azərbaycan bölməsində informatika fənni üzrə 6 test tapşırığı düzgün cavablandırılma göstəricilərinə görə asan, 15 tapşırıq orta, 4 tapşırıq isə çətin kimi qiymətləndirilmişdir. Rus bölməsində də bakalavrlar analoji şəkildə tapşırıqları cavablandırmışlar.

II cəhddə Azərbaycan bölməsində informatika fənni üzrə 4 test tapşırığı düzgün cavablandırılma göstəricilərinə görə asan, 17 tapşırıq orta və 4 tapşırıq çətin kimi qiymətləndirilmişdir. Rus bölməsində bu göstəricilər müvafiq olaraq 3, 19 və 3 olmuşdur.

Aşağıdakı cədvəldə 2022-ci ildə qəbul imtahanının hər 2 cəhdində bakalavrların informatika fənnini bilmə səviyyəsini müəyyən edən test tapşırıqlarının düzgün cavablandırılma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

	Bölmə	Bakalavrların sayı	Qapalı tipli tapşırıqların düzgün cavablandırılma faizi	Açıq tipli tapşırıqların düzgün cavablandırılma faizi	Qapalı və açıq tipli tapşırıqların (birlikdə) düzgün cavablandırılma faizi
I cəhd	**Azərbaycan**	15369	54.90	22.95	48.51
	Rus	1413	54.01	17.98	46.80
	Ümumi	16782	54.82	22.53	48.36
II cəhd	**Azərbaycan**	13606	55.61	28.60	50.21
	Rus	1025	51.70	25.89	46.54
	Ümumi	14631	55.34	28.41	49.95

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlilinə və ortastatistik cavablandırılma göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların informatika üzrə nəticələri ümumilikdə qənaətbəxş hesab oluna bilər.

Statistik nəticələr göstərir ki, bakalavrların əksər hissəsi magistratura səviyyəsinə qəbul imtahanının hər 2 cəhdində "Elektron hesablama maşınları (EHM). EHM-in təsnifatı. Fərdi kompüterlərin təsnifatı.", "Fərdi kompüterlərin əsas qurğuları. Daxil və xarici yaddaş qurğuları. Periferiya qurğuları.", "Sistem proqram təminatı. Tətbiqi proqram təminatı. İnstrumental proqram təminatı", "Əməliyyat sistemlərinin təsnifatı. Faylların əsas xarakteristikaları. Fayl sistemləri", "Microsoft Windows 10 əməliyyat sistemi", "Microsoft Word 2010 mətn prosessoru", "Microsoft PowerPoint 2010 elektron təqdimat proqramı" və digər mövzulara aid tapşırıqlara daha yaxşı cavab vermişlər.

İndi isə imtahanın I cəhdində cavablandırılmasında bakalavrların problemlə üzləşdiyi bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq.

A variantı, 33 saylı test tapşırığı

Hər slaydın aşağı sağ küncündə Audio (Звук/Səs) işarəsi hansı halda əks olunur (MS PowerPoint 2010)?

A) Timing (Время показа слайдов/Vaxt) lent qrupundan Sound (Звук/Səs) əmri icra olunduqda (11.51%)

B) Record Slide Show (Запись показа слайдов/Slayd Nümayişini Yaz) əmri icra olunduqda (**7.19%**)

C) təqdimatda səs obyekti olmadıqda (1.90%)

D) Media (Мултимедиа/Media) lent qrupundan Audio (Звук/Audio) əmri icra olunduqda (44.81%)

E) obyektə səsli animasiya effekti tətbiq edildikdə (33.35%)

Bu test tapşırığı "MS PowerPoint 2010" mövzusuna aiddir. Bu test tapşırığında düzgün cavab olan B variantını bakalavrlardan 7.19%-i seçmişdir. D və E distraktorlarının bakalavrların əksəriyyəti tərəfindən seçilməsinə səbəb Audio (Звук/Səs) işarəsinin daha çox multimedia vasitəsi olaraq düşünülməsidir.

A variantı, 46 saylı test tapşırığı

Relyasiya verilənlər bazası haqqında verilmiş fikirlərdən ***səhv*** olanları müəyyən edin.

1. Struktur elementləri fayl, sahə və yazılardır.
2. Yazı dedikdə cədvəlin sütunu başa düşülür.
3. Nisbət – kortej adlanan elementlər çoxluğundan ibarətdir.
4. Nisbətin gücü domenlərin sayı ilə ölçülür.
5. Relyasiya hesablamalarına əsaslanan dillər qeyri-prosedur dillərdir.
6. Hər bir sahənin unikal xüsusiyyəti onun uzunluğudur.

Doğru cavab: 2, 4, 6

Bu test tapşırığı "Verilənlər Bazası (VB) anlayışı. Verilənlər Bazasının İdarəedilməsi Sistemləri (VBİS)" mövzusuna aiddir. Görünür, test tapşırığının açıq tipli olması, habelə sualın şərtində səhv olanların soruşulması səbəbindən bakalavrların əksəriyyəti bu tapşırığı səhv cavablandırmışdır.

A variantı, 47 saylı test tapşırığı

Verilənləri ötürmə sürəti $60\frac{\text{Kbit}}{\text{san}}$ olan modemin 2 dəqiqə ərzində ötürdüyü Unicode kodlaşdırma sistemində yığılmış mətnin hər səhifəsində 1440 simvol yerləşir. Mətn neçə səhifədən ibarətdir?

Doğru cavab: 320

Bu test tapşırığı "ASCII və UNICODE cədvəli" mövzusuna aiddir. Test tapşırığını həll edərkən sürətin zamanla hasili ilə mətnin informasiya həcmi hesablanır, daha sonra bu nəticəni simvol sayının hər bir simvol üçün ayrılan bit hasilinə böldükdə mətnin neçə səhifədən ibarət olduğu müəyyən olunur.

A variantı, 50 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

Rastrlı təsvirlər:

1. 40x60 nöqtəli 256 rəngli
2. 20x20 nöqtəli ağ-qara
3. 40x80 nöqtəli ağ-qara

Yaddaşda tutduqları yer:

a. 2400 bit b. 400 bayt c. 3200 bayt d. 400 bite 2400 bayt

Doğru cavab: 1-e; 2-d; 3-b

Bu test tapşırığı "Müxtəlif tip informasiyanın kodlaşdırılması" mövzusuna aiddir. Hər bir pikselin rəngi haqqında informasiyanı yadda saxlamaq üçün tələb olunan bit sayı $I=\log_2 R$ düsturu ilə hesablanır. Burada R – istifadə olunan rəng sayını bildirir. Təsvirin yadda saxlanılması üçün tələb olunan həcm V=AxBxI düsturu ilə hesablanır. Zəruri bit-bayt çevrilmələri edildikdən sonra tapşırığı həll etmək mümkündür.

İndi isə imtahanın II cəhdində istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq.

A variantı, 37 saylı test tapşırığı

Slayda hansı obyekti əlavə etdikdə Ribbon (Лента/Lent) istifadəçi interfeysində Format (Формат/Format) alət tabı ***yaranmır*** (MS PowerPoint 2010)?

A) WordArt (WordArt/WordArt) (26.20%) B) Table (Таблица/Cədvəl) (**17.71%**)

C) Equation (Формула/Düstur) (31.31%) D) SmartArt (SmartArt/SmartArt) (15.65%)

E) Chart (Диаграмма/Diaqram) (8.16%)

Bu test tapşırığı "MS PowerPoint 2010" mövzusuna aiddir. Doğru cavab olan B variantını bakalavrlardan 17.71% seçdiyi halda, A və C distraktorlarını müvafiq olaraq 26.20% və 31.31% seçmişdir. Nəzərə almaq lazımdır ki, cədvəllərlə iş zamanı Design (Конструктор/Tərtibat) və Layout (Макет/Düzən) tabları, obyektlərlə işləyərkən Format (Формат/Format) alət tabı yaranır.

A variantı, 40 saylı test tapşırığı

Slayd obyektlərinə verilmiş animasiya effektlərinin Start (Начать/Başla) formalarına hansılar aid ***deyil*** (MS PowerPoint 2010)?

1. Slow (Медленно/Yavaş)
2. With Previous (С предыдущим/Əvvəlki İlə)
3. On Click (По щелчку/Kliklədikdə)
4. Medium (Средне/Orta)
5. After Previous (После предыдущего/Əvvəlkindən Sonra)
6. Fast (Быстро/Sürətli)

A) 3, 4, 6 (4.14%) B) 1, 4, 6 (**47.72%**) C) 1, 2, 5 (3.82%)

D) 2, 5, 6 (7.08%) E) 2, 3, 5 (36.68%)

Bu test tapşırığı "MS PowerPoint 2010" mövzusuna aiddir. Bu test tapşırığında düzgün cavab olan B variantını bakalavrlardan 47.72% seçdiyi halda, E distraktorunu 36.68% seçmişdir. Buna səbəb isə bakalavrların tapşırığın şərtinin inkar formada verilməsinə diqqət yetirməmələridir.

A variantı, 44 saylı test tapşırığı

İş kitabında iş vərəqlərini silmək üçün hansı lent tabından istifadə etmək olar (MS Excel 2010)?

A) Data (Данные/Verilənlər) (8.08%)

B) Insert (Вставка/Əlavə et) (10.72%)

C) Page Layout (Разметка страницы/Səhifə Düzəni) (34.92%)

D) Home (Главная/Ev) (**40.06%**)

E) Review (Рецензирование/İcmal) (5.20%)

Bu test tapşırığı "MS Excel 2010" mövzusuna aiddir. Bu test tapşırığında düzgün cavab olan D variantını bakalavrlardan 40.06% seçdiyi halda, C distraktorunu 34.92% seçmişdir. Hər hansı iş vərəqini çıxarmaq (silmək) lazım gələrsə, onda lentin Home (Главная/Ev) tabının Cells (Ячейки/Xanalar) lent qrupunun Delete (Удалить/Sil) düyməsini kliklədikdə açılan siyahıdakı Delete Sheet (Удалить лист/Vərəqi Sil) əmrini və ya həmin iş vərəqinin adı üzərində siçanın sağ düyməsini kliklədikdə açılan kontekst menyudan Delete (Удалить/Sil) əmrini icra etmək lazımdır.

A variantı, 50 saylı test tapşırığı

Hər bir simvolun Unicode-da kodlaşdırıldığını nəzərə alaraq, uyğunluğu müəyyən edin:

Simvolların sayı:

1. 512

2. 1792

3. 2048

İnformasiya tutumu:

a. 8192 bit b. 28672 bit c. 3,5 Kbayt d. 1024 bayt e. 32768 bit

Doğru cavab: 1-a, d; 2-b, c; 3-e

Bu test tapşırıqları "Müxtəlif tip informasiyanın kodlaşdırılması" mövzusuna aiddir. Açıq tipli uyğunluq formalı bu tapşırıqlarda əsas çətinlik bir variant üçün bir neçə bəndin seçilməsinin zəruri olmasıdır. Bunun nəzərə alınmaması isə bəzən bakalavrların səhv etmələrinə gətirib çıxarır.

Açıq tipli test tapşırıqları informatika testləri üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla tərtib edilib, proqram tələblərinə tam cavab verir. Tapşırıqların aid olduğu mövzular DİM-in "İnformatika" vəsaitində və dərsliklərdə kifayət qədər ətraflı izah olunmuşdur. Bəzi tapşırıqların açıq test tapşırığı formasında təqdim olunması bakalavrların biliklərinin daha dəqiq yoxlanılmasına imkan verir.

Yuxarıda təhlil olunan test tapşırıqlarından belə nəticəyə gəlmək olar ki, bakalavrların xeyli hissəsi "Müxtəlif tip informasiyanın kodlaşdırılması", "Microsoft Word 2010 mətn prosessoru", "Microsoft PowerPoint 2010", "Microsoft Excel 2010", "Verilənlər Bazası (VB) anlayışı. Verilənlər Bazasının İdarəedilməsi Sistemləri (VBİS)" bölmələrinə aid tapşırıqlarda çətinlik çəkmişdir. Bu da onu göstərir ki, bakalavrlar bu bölmələri nəzəri cəhətdən yaxşı mənimsəməmiş, praktiki səviyyədə isə kifayət qədər tətbiq etməmişlər.

Qəbul imtahanı göstəricilərinin təhlilindən çıxan əsas nəticə bundan ibarətdir ki, ali təhsilin bakalavriat səviyyəsində informatikanın və informasiya-kommunikasiya texnologiyalarının tədrisi daha da yaxşılaşdırılmalı, müasir dövrün tələblərinə uyğunlaşdırılmalı və daha çox tətbiqyönlü olmalı, eləcə də bu tələblərə cavab verən keyfiyyətli dərslik və dərs vəsaitləri hazırlanmalıdır.

Magistraturaya qəbula hazırlaşanlara metodiki kömək göstərmək məqsədi ilə DİM tərəfindən yenidən nəşr edilən "İnformatika" vəsaiti bu fənn üzrə qəbul proqramına uyğun hazırlanmışdır. Vəsaitdə bütün mövzuların nəzəri şərhi test tapşırıqları ilə müşayiət olunur. Bu da qəbula hazırlaşanlara imtahana təkcə nəzəri cəhətdən hazırlaşmağa deyil, həmçinin öz bilik və bacarıq səviyyələrini mövzular üzrə ümumiləşdirici test tapşırıqları vasitəsilə yoxlamağa və təkmilləşdirməyə imkan verir.

2022-ci ildə magistraturaya qəbul imtahanının 20.02.2022-ci il tarixində keçirilmiş birinci cəhd imtahanında xarici dil kimi ***ingilis dilini*** seçən bakalavrların sayı 16782 nəfər olmuşdur ki, bunun da 15369-u Azərbaycan bölməsinin, 1413-ü isə rus bölməsinin payına düşür. Magistraturaya qəbul imtahanının 29.05.2022-ci il tarixində keçirilmiş ikinci cəhd imtahanında isə xarici dil kimi ***ingilis dilini*** seçən bakalavrların sayı 14631 nəfər olmuşdur ki, bunun da 13606-sı Azərbaycan bölməsinin, 1025-i isə rus bölməsinin payına düşür. Hər iki cəhd üzrə 31413 nəfər bakalavr magistraturaya qəbul imtahanında iştirak etmişdir. 2021-ci ildə 28353 nəfər bakalavrın bu imtahanda iştirak etdiyini nəzərə alsaq qeyd edə bilərik ki, ötən illə müqayisədə imtahan verən namizədlərin sayında 11% artım müşahidə olunur.

İngilis dili fənnindən təklif olunmuş test tapşırıqları bloku, əsasən, bakalavrların kommunikativ bacarıqlarını, leksika və qrammatika sahəsində biliklərini yoxlayan, onlardan təhliletmə, ümumiləşdirmə və məntiqi nəticə çıxarma bacarığı tələb edən tətbiqyönümlü tapşırıqlardan, o cümlədən verilmiş sözlərin sinonim və antonimlərinin, eləcə də düzgün izahının tapılması, dialoq qurma, verilmiş cümlələrdən kiçik hekayənin tərtib edilməsi kimi leksik tapşırıqlardan və məchul növ, inkar söz və cümlə, əvəzlik, bağlayıcı, zaman formaları kimi qrammatik əsaslı tapşırıqlardan ibarət olmuşdur. Bunlarla yanaşı, magistraturaya qəbul imtahanında bakalavrlara oxuyub-anlama və dinləyib-anlama bacarığını yoxlayan test tapşırıqları bloku da təqdim olunmuşdur.

Statistik göstəricilərə əsasən, bakalavrlar 2022-ci ildə keçirilmiş həm birinci, həm də ikinci cəhd imtahanında oxuyub-anlama və dinləyib-anlama bacarığını yoxlayan test tapşırıqları ilə müqayisədə qapalı test tapşırıqlarını daha yaxşı cavablandırmışlar.

İmtahan nəticələrinin təhlili göstərir ki, bakalavrların birinci cəhd imtahanında oxu mətni əsasında tərtib olunmuş test tapşırıqlarına cavabları qənaətbəxş hesab edilə bilər. Belə ki, ingilis dili üzrə mətn əsasında beş tapşırıqdan ibarət test blokunu bakalavrların orta hesabla 44.05%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 42.04%-i, rus bölməsi üzrə isə 62.71%-i düzgün cavablandırmışdır. Göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların mətn üzrə test blokunu cavablandırma göstəricisi Azərbaycan bölməsində imtahan verən bakalavrların müvafiq göstəricisindən 20.67% yüksək olmuşdur. Dinləmə bloku üzrə isə bakalavrların orta hesabla 42.24%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 40.16%-i, rus bölməsi üzrə isə 61.58%-i müvəffəq nəticə göstərmişdir. Oxu bloku üzrə cavablandırma göstəricisi dinləyib-anlama blokuna nəzərən 1.81% daha yüksək olmuşdur.

Bakalavrların ikinci cəhd imtahanında oxu mətni əsasında tərtib olunmuş test tapşırıqlarına cavabları qənaətbəxş hesab edilə bilər. Belə ki, ingilis dili üzrə oxu mətni əsasında beş tapşırıqdan ibarət test blokunu bakalavrların orta hesabla 40.40%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 38.99%-i, rus bölməsi üzrə isə 56.27%-i düzgün cavablandırmışdır. Göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların oxu mətni üzrə test blokunu cavablandırma göstəricisi Azərbaycan bölməsində imtahan verən bakalavrların müvafiq göstəricisindən 17.28% yüksək olmuşdur. Dinləmə bloku üzrə isə bakalavrların orta hesabla 40.62%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 38.99%-i, rus bölməsi üzrə isə 58.88%-i müvəffəq nəticə göstərmişlər. Dinləmə bloku üzrə cavablandırma göstəricisi oxuyub-anlama blokuna nəzərən 0.22% yüksək olmuşdur.

Ümumilikdə, ingilis dili üzrə magistraturaya qəbul imtahanının birinci cəhdində test blokunda təqdim edilən tapşırıqlardan 1-nin düzgün cavablandırılma göstəricisi 0-20%, 8-ninki 21-40%, 16-nınkı isə 41-90% intervalında olmuşdur. Qəbul imtahanının ikinci cəhdində isə test blokunda təqdim edilən test tapşırıqlarından 2-nin düzgün cavablandırılma göstəricisi 0-20%, 9-nunku 21-40%, 14-nünki isə 41-90% intervalında olmuşdur.

2022-ci ildə birinci cəhd imtahanında hər iki bölmə üzrə ümumilikdə bakalavrların 47.42%-i test tapşırıqlarını düzgün cavablandırmışdır. Müvafiq göstərici Azərbaycan bölməsində 46.12%, rus bölməsində isə 59.55% olmuşdur. Azərbaycan bölməsi üzrə bakalavrların 49.15%-i, rus bölməsi üzrə isə 62.43%-i qapalı test tapşırıqlarına doğru cavab vermişdir. Hər iki bölmə üzrə ümumi göstərici 50.44%-dir. Açıq tipli test tapşırıqlarının cavablandırılmasında Azərbaycan bölməsi üzrə 34.01%, rus bölməsi üzrə isə 48.03%, hər iki bölmə üzrə ümumilikdə isə 35.37% nəticə qeydə alınmışdır.

2022-ci ildə ikinci cəhd imtahanında hər iki bölmə üzrə ümumilikdə bakalavrların 41.13%-i test tapşırıqlarını düzgün cavablandırmışdır. Müvafiq göstərici Azərbaycan bölməsində 40%, rus bölməsində isə 53.83% olmuşdur. Azərbaycan bölməsi üzrə bakalavrların 44.01%-i, rus bölməsi üzrə isə 59.73%-i qapalı test tapşırıqlarına doğru cavab vermişdir. Hər iki bölmə üzrə ümumi göstərici 45.30%-dir. Açıq tipli test tapşırıqlarının cavablandırılmasında Azərbaycan bölməsi üzrə 23.97%, rus bölməsi üzrə 30.25%, hər iki bölmə üzrə ümumilikdə isə 24.49% nəticə qeydə alınmışdır.

2022-ci ildə hər iki cəhd imtahanlarında test tapşırıqlarının cavablandırılmasına dair statistik göstəricilərə nəzər salsaq görərik ki, bu göstərici birinci və ikinci cəhd imtahanları üzrə müvafiq olaraq 47.42% və 41.13% olmuşdur. Bu da onu deməyə əsas verir ki, birinci cəhd imtahanında daha uğurlu nəticə qeydə alınmışdır. Dinləmə bloku üzrə test tapşırıqlarının cavablandırılmasında birinci cəhd üzrə daha yüksək nəticə (birinci cəhd 42.24% ikinci cəhd – 40.62% olmaqla) qeydə alınmışdır. Oxuyub-anlama bloku üzrə isə birinci cəhddə 44.05%, ikinci cəhddə 40.40% nəticənin qeydə alındığını nəzərə alsaq, birinci cəhd imtahanında 3.65% daha yüksək nəticənin əldə olunduğu qənaətinə gələ bilərik.

İndi isə imtahanda istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq:

Dialoq tərtibi ilə bağlı verilmiş A variantında 9 saylı test tapşırığına diqqət yetirək:

A variantı, 9 saylı test tapşırığı

9. Make up a dialogue.

1. Doctor: "Let me have a look. Oh, it's broken."
2. Jack: "I jumped down from a tree and hurt it."
3. Doctor: "What's the matter with you?"
4. Jack: "Thank you, doctor."
5. Doctor: "Don't worry. Your arm will be put in plaster and everything will be all right."
6. Jack: "Something is wrong with my arm. It hurts very much."
7. Doctor: "Next time be more careful."

A) 3, 2, 5, 6, 7, 4, 1 B) 2, 3, 1, 4, 5, 6, 7 C) 4, 7, 3, 2, 5, 1, 6

D) 5, 6, 1, 4, 7, 2, 3 E) 3, 6, 1, 2, 5, 4, 7

Test tapşırığının doğru cavabı E bəndidir. Bakalavrlardan tələb olunur ki, verilmiş cümlələrdəki məntiqi ardıcıllığı gözləyərək dialoq qursunlar. Test tapşırığı asanlıqla cavablandırılmışdır (82.97%). Bu isə onunla əlaqələndirilə bilər ki, verilmiş cümlələr aydın və anlaşıqlı olduğu üçün dialoq tərtibində bakalavrlar üçün heç bir çətinlik yaranmamışdır.

Aşağıda verilmiş açıq tipli test tapşırığı isə bakalavrlar tərəfindən çətinliklə cavablandırılmışdır. Test tapşırığına nəzər salaq:

A variantı, 21 saylı test tapşırığı

21. Choose the correct variants.

I'd like to see the place … you were born in and spent your childhood.

1. which 2. what 3. whom

4. where 5. that

Test tapşırığını bakalavrların 18.93%-i doğru cavablandıra bilmişdir. Verilmiş test tapşırığında bakalavrlardan tələb olunur ki, müvafiq bağlayıcı vasitələrdən (nisbi əvəzliklər - which,what, whom, that, nisbi zərf-where) istifadə edərək cümləni tamamlasınlar. Verilmiş cümlə tamamlıq budaq cümləsi olmadığı üçün burada what işlənə bilməz. Whom özündən əvvəl canlı isim tələb edir, place (yer) sözü isə cansız isimdir. Budaq cümlədə "in" sözönüsü işləndiyi üçün where zərfini işlətmək olmaz. Beləliklə, düzgün cavab 1 və 5 –dir. That nisbi əvəzliyi which nisbi zərfini əvəz edə bilmə xüsusiyyətinə malikdir və təyin budaq cümlələrində işlədilir.

İkinci cəhd imtahanında istifadə olunmuş aşağıdakı test tapşırığı da bakalavrlar tərəfindən çətinliklə cavablandırılmışdır. Belə ki, test tapşırığına bakalavrların 13.82%-i doğru cavab verə bilmişdir. ***2-ci cəhd, A variantı, 6 saylı test tapşırığı***

6. Choose the correct negative sentences.

1. We didn't see the castle, nor did we visit the cathedral.
2. There was no the other way to defend her moral objections without seeding doubt in his mind.
3. In reality, neither of them gave a flip about the other's life or career.
4. Rita laughed, but neither look up nor broke the rhythm of her flying fingers.
5. I noted that nobody replaced a resistor in any corner of the board.

A) 3, 4, 5 B) 1, 2, 3 C) 2, 4, 5 D) 1, 3, 4 E) 1, 3, 5

Bu test tapşırığında bakalavrlardan tələb olunur ki, doğru inkar cümlələrini seçsinlər. Test tapşırığının doğru cavabı E variantıdır. Təəssüf ki, qapalı tipli bu test tapşırığını bakalavrların 13.82%-i doğru cavablandıra bilmişdir.

Aşağıda verilmiş açıq tipli bu test tapşırığı leksika bölməsinə aiddir və müvafiq sözönünün işlədilməsini tələb edir. Bu, bakalavrlar tərəfindən çətinliklə cavablandırılmış test tapşırığı hesab edilir. Belə ki, bakalavrların yalnız 1.06%-i doğru sözönülərindən istifadə edərək cümlələri tamamlaya bilmişlər.

A variantı, 25 saylı test tapşırığı

25. Match the halves.

1. on
2. of
3. about

a. Kindergartens contribute a lot … the children's mental development.

b. Luckily, my husband is not very keen … playing football.

c. Why should I be scared … ghosts? They don't exist.

d. When Tom was a schoolboy, he was crazy … cars.

e. If two or more people get ... well with each other, they have a friendly relationship.

2022-ci ildə keçirilmiş magistraturaya qəbul imtahanının 1-ci cəhdi üzrə 203, 2-ci cəhd üzrə 193, ümumilikdə isə 396 bakalavr xarici dil kimi ***alman dilini*** seçmişdir. 2021-ci ildə isə magistraturaya qəbul imtahanında 405 nəfər xarici dil kimi ***alman dilini*** seçmişdir.

İmtahan nəticələrindən bu qənaətə gəlmək olar ki, 1-ci cəhd üzrə bakalavrların 43.76%-i, 2-ci cəhd üzrə isə 41.20%-i uğurlu nəticə göstərmişdir. Nəticələrdən görünür ki, 1-ci cəhddə bakalavrların imtahan nəticələri 2-ci cəhddən 2.56% yüksək olmuşdur.

Açıq tipli test tapşırıqlarının cavablandırılmasında 1-ci cəhd üzrə 18.13% nəticə qeydə alınmışdır. Açıq formalı test tapşırıqlarının cavablandırılmasında 2-ci cəhd üzrə isə 26.94% nəticə qeydə alınmışdır. 2-ci cəhd imtahanının nəticələri 1-ci cəhdə nəzərən daha yuxarı olmuşdur.

Qapalı tipli test tapşırıqlarının cavablandırılması birinci cəhd üzrə 50.17%, 2-ci cəhd ürzə 44.77% olmuşdur. 1-ci cəhd üzrə qapalı test tapşırıqlarının düzgün cavablandırılmasına dair göstəricilər 2-ci cəhddən 5.4% daha yüksək olmuşdur.

Dinləyib-anlama bacarığının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının cavablandırılma göstəricisinə nəzər salaq. Dinləmə bloku üzrə bakalavrlar 1-ci cəhd üzrə 34.88%, 2-ci cəhd üzrə isə 39.48% nəticə göstərmişlər. Bakalavrlar dinləmə bloku üzrə test tapşırıqlarını 2-ci cəhddə 1-ci cəhddən 4.6%-lə daha yaxşı cavablandırmışlar.

Oxu mətni blokuna dair statistik göstəricilərə nəzər salsaq görürük ki, 1-ci cəhd üzrə bakalavrların 51.53%-i, 2-ci cəhddə isə 35.13%-i test tapşırıqlarını doğru cavablandırmışdır.

Ötən ilki göstəricilərə nəzər salaq. 2022-ci ildə keçirilmiş magistraturaya qəbul imtahanında 1-ci cəhddə 43.76% nəticə qeydə alınmışdır ki, bu da 2021-ci ildə keçirilmiş 1-ci cəhd imtahanından 5.4% yüksək, 2022-ci ildə 2-ci cəhd imtahanında 41.20%, 2021-ci ildə isə 41.49% nəticə qeydə alınmışdır.

Açıq tipli test tapşırıqlarının cavablandırılmasında 2022-ci ildə 1-ci cəhddə 18.13% nəticə qeydə alınmışdır, bu da 2021-ci ilin 1-ci cəhd imtahanının nəticələrindən 15.11% aşağı, 2022-ci ildə 2-ci cəhd imtahanın nəticəsi keçən ilin 2-ci cəhd imtahanının nəticəsindən 3.55% yüksək olmuşdur.

Qapalı tipli test tapşırıqlarının cavablandırılması üzrə 2021-ci ilin 1-ci cəhd imtahanında 39.64% nəticə qeydə alınmışdır, cari ildə isə 50.17% nəticə ilə keçən ilin 1-ci cəhd imtahanından 10.53% yüksək olmuşdur. 2022-ci ildə 2-ci cəhd imtahanında qapalı tipli test tapşırıqlarının cavablandırılma göstəriciləri ötən illə müqayisədə 1.24% daha aşağı olmuşdur.

Magistraturaya qəbul imtahanının 1-ci cəhdində **dinləyib-anlama** bacarığının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının cavablandırılma göstəriciləri (34.88%) ötən ilə nəzərən 8.57% yüksək olmuşdur. 2-ci cəhd imtahanının dinləyib-anlama blokuna daxil olan test tapşırıqlarının doğru cavablandırılma göstəriciləri ötən illə müqayisədə 11.23% daha aşağı olmuşdur.

Oxuyub-anlama bacarıqlarının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının doğru cavablandırılma göstəriciləri ötən il 1-ci cəhd üzrə 45.86% olmuşdur ki, bu da 2022-ci il üzrə 1-ci cəhd imtahanının bu blok üzrə nəticələrindən (51.53%) 5.67%, 2-ci cəhd imtahanında bu blok üzrə ötən il 31.37% nəticə əldə olunmuşdur ki, bu da cari ilin (35.13%) nəticəsindən 3.76% aşağı olmuşdur.

Bununla belə, bir neçə test tapşırığı bakalavrlar tərəfindən çətinliklə cavablandırılmışdır. Əvvəlcə dinləyib-anlama bacarığının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının nəticələrinə nəzər salaq.

1-ci cəhd, dinləmə bloku, Azərbaycan bölməsi, A və C variantı, 1 saylı test tapşırığı

Welche Frage beantwortet der Dialog?

A) Warum hält man in der Stadt keine Hühner?

B) Welche Vor- und Nachteile hat das Landleben?

C) Warum hat der Mann Allergie gegen die Tierhaare?

D) Warum wollen die Menschen ein Haustier halten?

E) Welche Gemüse kann man im Garten anbauen?

Bu test tapşırığını A variantı üzrə bakalavrların 15.69%-i B bəndini, C variantı üzrə isə 23.53%-i E bəndini seçməklə düzgün cavablandırmışdır. Tapşırığın şərtinə görə verilmiş suallardan birinin cavabı dinləmə mətnində öz əksini tapmışdır. Yuxarıda verilmiş nümunədə doğru cavab olan B bəndində kənd həyatının hansı müsbət və mənfi tərəfləri haqqında sual qoyulur. Bu sualın cavabı dinləmə mətnində verilir. A variantı üzrə 1-ci test tapşırığına bakalavrların 19.61%-i A, 21.57%-i C, 15.69%-i D və 23.53%-i E distraktorunu seçməklə tapşırığı səhv cavablandırmışdır.

1-ci cəhd, dinləmə bloku, Azərbaycan bölməsi, A variantı, 4 saylı test tapşırığı

Was wünscht sich die Frau?

A) ein Geschäft in der Stadt B) einen Garten in der Nähe der Stadt

C) ein Häuschen in groiser Stadt D) ein kleines Haus auf dem Land

E) verschiedene Blumen in dem Garten

Bu test tapşırığını bakalavrların 27.45%-i düzgün cavablandırmışlar. Tapşırığın şərtinə görə dinləmə mətninə əsasən xanımın özünə nə arzuladığının tapılması tələb olunur. Doğru cavab D bəndidir , yəni "*kəndə kiçik bir ev"*. Bakalavrların 39.22%-i B, 13.73%-i A, 7.84%-i E və 5.88%-i C distraktorunu seçməklə tapşırığı səhv cavablandırmışdır.

1-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 10 (B variantı, 7; C variantı, 12; D variantı, 10) saylı test tapşırığı

Wählen Sie das Synonym zum unterstrichenen Wort aus.

Das Kommando des Raumschiffes bestand aus drei Kosmonauten.

A) die Sitzung B) die Zusammensetzung C) die Besatzung

D) die Begabung E) die Ergänzung

Test tapşırığına bakalavrların təxminən 21,57%-i doğru cavab vermişdir. Bakalavrların 37.25% B distraktorunu, 15.69%-i isə D distraktorunu seçmişdir. Bu test tapşırığında bakalavrlardan tələb olunur ki, altından xətt çəkilmiş sözünü sinonimini tapsınlar. Cümlədə altından xətt çəkilmiş "*Kommando*" sözünün mənası heyət deməkdir. Distraktorlar üzrə verilmiş sözlərin tərcüməsi: A) *die Sitzung-iclas*, B) *die Zusammensetzung-birləşdirmə*, C) *die Besatzung-heyət*, D) *die Begabung-istedad*, E) *die Ergänzung-tamamlama*. Sözlərin tərcümələrindən də görünür ki, doğru cavab C variantıdır.

1-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 20 (B variantı, 17; C variantı, 18; D variantı, 18) saylı test tapşırığı

Was bedeutet die Wortverbindung *mit Mühe und Not?*

A) mit Zuversicht B) mit Zufriedenheit

C) mit Schwierigkeit D) mit Wohlhaben

E) mit Sicherheit

Bu test tapşırığında oxu mətnindən götürülmüş "*mit Mühe und Not"* söz birləşməsinin mənasının tapılması tələb olunur. Bu test tapşırığına bakalavrların 29.41%-i doğru cavab vermişdir. "*mit Mühe und Not*" söz birləşməsi "*çətinliklə, əzab-əziyyətlə*" deməkdir. Bu test tapşırığının doğru cavabı C variantıdır ki, "*mit Schwierigkeit*" "*çətinliklə*" deməkdir. Digər distraktorlarda verilənlər isə tamamilə başqa mənanı ifadə edirlər.

1-ci cəhd, Azərbaycan bölməsi, A variantı 22 (B variantı, 23; C variantı, 23; D variantı, 21) saylı test tapşırığı

Wählen Sie die Sätze in der Negation aus.

1. Die Studenten haben den Text nichts verstanden.
2. Mein Onkel versteht weder Englisch noch Deutsch.
3. Ich habe heute kein Geld bei mir.
4. Gestern hat es bei uns keine geregnet.
5. Seine Mutter sagte, dass sie nicht mehr müde ist.

Açıq tipli bu test tapşırığına bakalavrların 5.88%-i doğru, 76.47%-i yalnış cavab vermiş, 17.65%-i cavab verməkdən imtina etmişdir. Tapşırığın şərtinə əsasən verilmiş cümlələr arasından qrammatik cəhətdən düzgün inkar cümlələrinin seçilməsi tələb olunur. Verilmiş test tapşırığında 2-ci, 3-cü və 5-ci cümlələr inkar cümlələridir. Digər iki cümlədə – 1-ci və 4-cü cümlələrdə inkarlıq sözləri olmasına baxmayaraq, cümlələrdəki inkarlıq sözləri qrammatik cəhətdən düzgün işlədilməmişdir.

1-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 24 saylı test tapşırığı

Bilden Sie einen Text?

1. Das bedeutet: die Stadt Leipzig ist eine Messestadt.
2. Jede Stadt hat ihr Wahrzeichen.
3. Zum Beispiel, das Wahrzeichen der Stadt Leipzig ist doppelt «M».
4. Auch die deutschen Städte haben ihr Wahrzeichen.
5. Tausende Gäste kommen jedes Jahr in diese Messestadt.

Açıq tipli bu test tapşırığına bakalavrların 17.65%-i doğru cavab vermişdir. Bakalavrların 47.06%-i yalnış cavab vermiş, 35.29%-i cavab verməkdən imtina etmişdir. Test tapşırığına əsasən bakalavrlardan mətn qurulması tələb olunur. Bu suala düzgün cavab vermək üçün fikirlərin ardıcıllığını təyin etməklə mətni düzgün qurmaq olar.

Doğru cavab: 2, 4, 3, 1, 5

2-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 2 saylı test tapşırığı

Ergänzen Sie den Satz.

Marco hätte den Test bestanden, wenn … .

A) er in den Mathe-Stunden mit Stefan nicht geredet hätte

B) er die Hausaufgaben rechtzeitig geschrieben hätte

C) Stefan ihm bei der Prüfung geholfen hätte

D) der Mathelehrer die Aufgaben genug erklärt hätte

E) er mit dem Lehrer zusammen für den Test gelernt hätte

Bu test tapşırığında dialoqa əsasən verilmiş cümlənin düzgün tamamlanması tələb olunur. Verilmiş test tapşırığına bakalavrların 20.83%-i A bəndini seçməklə doğru cavab vermişdir. Bakalavrların 33.33%-i B, 22,92%-i E, 16.67%-i C, 4,17%-i D variantını seçməklə tapşırığı səhv cavablandırmışlar. Dialoqa əsasən doğru cavab A variantıdır: "Marco hätte den Test bestanden, wenn er in den Mathe-Stunden mit Stefan nicht geredet hätte" – Marco əgər riyaziyyat dərslərində Ştefanla söhbət etməsəydi, imtahan keçərdi."

2-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 4 saylı test tapşırığı

Warum hat Marco gestern die Zeit vergessen?

A) Gestern hat er sich auf den Test vorbereitet.

B) Gestern hat er mit Tobias Computer gespielt.

C) Er hatte Kopfschmerzen und hat gestern lange geschlafen.

D) Die Lösung der dritten Aufgabe hat viel Zeit genommen.

E) Er hat gestern den ganzen Tag im Park verbracht.

Bu test tapşırığında verilmiş suala dialoqa əsasən düzgün cavabın seçilməsi tələb olunur. Test tapşırığına bakalavrların 50%-i B bəndini seçməklə düzgün cavab vermişdir. Dinləmə mətnində Marconun imtahana hazırlaşmasında söhbət gedir və sualda da Marconun dünən vaxtı nəyə görə unutduğu soruşulur. Dinləmə mətnindən aydın olur ki, E bəndinə əsasən, o, dünən bütün gününü parkda keçirtdiyi üçün vaxtın necə keçməsindən xəbəri olmayıb. Buna görə də doğru cavab E bəndidir.

2-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 17 (B variantı, 19; C variantı, 17; D variantı, 16) saylı test tapşırığı

Welche Frage beantwortet der Text?

A) In welchem Staat ist Esperanto Amtssprache?

B) Wo verwendet man heutzutage Esperanto?

C) Welche Probleme entstehen beim Erlernen dieser Kunstsprache?

D) Warum bevorzugen keine Autoren diese Kunstsprache?

E) Warum sprechen die Menschen nicht mehr Esperanto?

Bu test tapşırığında verilmiş suallardan hansının cavabının oxu mətnində olması soruşulur. Test tapşırığını bakalavrların 14.58%-i B bəndini seçməklə düzgün, 31.25%-i E, 22.92%-i C, 14.58%-i A və 10.42%-i D variantını seçməklə səhv cavablandırıb. B variantında verilən "Wo verwendet man heutzutage Esperanto?" – Esperanto dili hal-hazırda harada istifadə olunur?" sualın cavabı oxu mətində verilir.

2-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 18 (B variantı, 17; C variantı, 16; D variantı, 19) saylı test tapşırığı

Ergänzen Sie den Satz.

1887 entwickelte er eine systematische, leicht erlernbare Sprache, die … .

A) die Elemente der indoeuropäischen Sprachfamilie bevorzugt

B) nur an den Elementen der indogermanischen Sprachfamilie reich ist

C) auch zurzeit in der Welt nicht verbreitet ist

D) die Mehrheit der Menschen in der Welt sprechen kann

E) zurzeit zu den toten Sprachen gehört

Bu test tapşırığında verilmiş cümlənin oxu mətninə əsasən düzgün tamamlanması tələb olunur. Bu test tapşırığına bakalavrların 72.92%-i A bəndini seçməklə doğru cavab vermişdir. Faiz göstəricisinə əsasən bunu qeyd etmək olar ki, abituriyentlər oxu mətninə görə verilmiş sualı düzgün başa düşükləri üçün variantlar arasından cavabı düzgün təyin edə biliblər.

2-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 23 (B variantı, 23; C variantı, 23; D variantı, 21) saylı test tapşırığı

Wählen Sie die richtigen Negationen aus.

1. Nina sagte, dass sie nichts verstanden hat.

2. Ich habe nichts Bekannte getroffen.

3. Dort gab es nirgendwo ein Cafe.

4. Die Studenten haben den Text nichts verstanden.

5. Meine Tante kennt nie in Deutschland.

Açıq tipli bu test tapşırığına bakalavrların 4.17%-i doğru, 85.42%-i yalnış cavab vermiş, 10.42%-i cavab verməkdən imtina etmişdir. Tapşırığın şərtinə əsasən verilmiş cümlələr arasından qrammatik cəhətdən düzgün inkar cümlələrinin seçilməsi tələb olunur. Verilmiş test tapşırığında 1-ci və 3-cü cümlələr inkar cümləridir. 2-ci, 4-cü və 5-ci cümlələrdə inkarlıq sözləri olmasına baxmayaraq, cümlələrdəki inkarlıq sözləri qrammatik cəhətdən düzgün işlədilməmişdir.

2-ci cəhd, Azərbaycan bölməsi, A variantı, 25 saylı test tapşırığı

Was passt zusammen?

1. Man muss regelmäßig Obst und Gemüse essen, denn

2. Beim Erlernen von Fremdsprachen erfährt man viel Interessantes und Neues

3. Im Internet kann man Nachrichten lesen,

a. die Bild und Ton, Schauspiel und Musik, Tanz und Poesie vereinigt.

b. sich nach dem Wetter erkundigen, Kontakte knüpfen, Freunden finden und so weiter.

c. sie sind sehr gesund für unseren Organismus.

d. wo die größten und wichtigsten Industriezweige des Maschinenbaues sind.

e. über andere Völker und Länder, über verschiedene Bräuche und Sitten, über die Kultur und Geschichte.

Açıq tipli test tapşırığına abituriyentlərin 12.50% doğru, 66.67%-i yalnış cavab vermiş, 20.83%-i isə cavab verməmişdir. Verilmiş test tapşırığında uyğunlaşdırma aparılması tələb olunur.

Doğru cavab: 1-c, 2-e, 3-b

2022-ci ilin magistraturaya qəbul imtahanının 20.02.2022 tarixində keçirilmiş birinci cəhd imtahanında xarici dil kimi ***fransız dilini*** seçmiş bakalavrların sayı 304 nəfərdir. Bunlardan 295 nəfər Azərbaycan bölməsində, 9 nəfər isə rus bölməsində imtahan verərək öz biliklərini nümayiş etdirmişdir. Bakalavrların mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna cavabları qənaətbəxş, yəni orta hesabla 31.97% olmuşdur.

Ümumi nəticəyə nəzər salsaq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Bakalavrların 41.25%-i dinləmə blokuna aid test tapşırıqlarının öhdəsindən lazımınca gəlmişdir.

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlili və statistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların fransız dili üzrə nəticələri ümumilikdə qənaətbəxşdir. Fransız dili üzrə ümumi test blokundakı tapşırıqların düzgün cavablandırılma faizi orta hesabla 38.45% olmuşdur.

Bunun qarşılığında 29.05.2022-ci il tarixində keçirilmiş ikinci cəhd imtahanında isə xarici dil kimi ***fransız dilini*** seçmiş bakalavrların sayı 274 nəfərdir. Bunlardan 269 nəfər Azərbaycan bölməsində, 5 nəfər isə rus bölməsində imtahan verərək öz biliklərini nümayiş etdirmişdir. Bakalavrların mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna cavabları qənaətbəxş, yəni orta hesabla 44.82% olmuşdur.

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlili və statistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların fransız dili üzrə nəticələri ümumilikdə qənaətbəxşdir. Fransız dili üzrə ümumi test blokundakı bütün tapşırıqların düzgün cavablandırılma faizi orta hesabla 40.35% olmuşdur.

Ənənəyə uyğun olaraq, hər il baş tutmuş imtahan zamanı bakalavrlar tərəfindən yerinə yetirilən test tapşırıqlarının nəticələri mütəxəssislərin iştirakı ilə təhlil edilir və imtahan zamanı zəif tərəflər və çatışmazlıqlar üzə çıxarılır. Ötən illərdə olduğu kimi, 2022-ci ildə də bakalavrların imtahan zamanı nümayiş etdirdikləri bilik və bacarıqlarının və göstərdikləri nəticələrin heç də ürəkaçan olmaması məlum olmuşdur. Düşünürük ki, əldə edilən nəticələrin bu formada paylanması müəyyən səbəblərdən qaynaqlanır və bu təhlilimizdə həmin səbəblərin nədən irəli gəldiyini üzə çıxarmağa və təhlil etməyə cəhd edəcəyik. Beləliklə, xarici dili lazımınca mənimsəməyən, kifayət qədər qrammatik və leksik bilik və vərdişlər əldə edə bilməyən bakalavrlar onlara təqdim edilən test tapşırıqlarını yerinə yetirərkən yanlışlıqlara yol verir, bir sıra hallarda zəif nəticələr nümayiş etdirirlər. Əlbəttə, imtahanda bakalavrların müəyyən bir hissəsinin zəif nəticə göstərməsinin bir sıra məntiqi və subyektiv səbəbləri var. Belə səbəblər sırasında aşağıdakıları göstərməyi zəruri hesab edirik:

– bakalavrların bir qismi universitet təhsili zamanı ikinci xarici dil kimi təqdim edilən dillərə o qədər də əhəmiyyət vermir və nəticədə imtahana hazırlaşarkən vaxtın az olmasını əsas gətirərək qəbul imtahanında lazımi bilik və bacarıqlar nümayiş etdirə bilmirlər. Bakalavrların böyük bir qismi universitetin son kursunda magistr dərəcəsinə yiyələnmək qərarına gəlirlər və hazırlıq prosesinə gec start verirlər, buna görə də onların müəyyən bir hissəsi iki işi bir arada görə bilmədiklərinə görə zəif nəticələr nümayiş etdirirlər;

– bir çox hallarda bakalavr diqqətini cəmləşdirməkdə çətinlik çəkir, lazımi qədər diqqətli ola bilmir, test tapşırıqlarının icrasına qoyulmuş şərtləri dəqiqliklə başa düşmür və təbiidir ki, belə situasiyalarda nəticə, məntiqi olaraq, qənaətbəxş olmur; məsələn, belə hallar əsasən seçim və uyğunluq tipli test tapşırıqlarında doğru cavabları sona qədər araşdırmır və beləliklə, üç cavab tələb olunan test tapşırıqlarında yanlışlığa yol verirlər və nəticədə müvəffəqiyyət faizi gözləniləndən aşağı olur;

– məlumdur ki, doğma dillə tədris olunan xarici dilin strukturunda müəyyən uyğunsuzluqlar olur və bu halın özü də iddiaçıların düşünmə və nəticə çıxarma faizlərinə mənfi təsir göstərir. Belə ki, müqayisə və ümumiləşdirmə tipli test tapşırıqlarının yerinə yetirilməsi zamanı ana dili ilə müqayisədə fransız dilində cümlədə söz sırasının və cümlə strukturunun fərqli olması bakalavrların imtahan nəticəsinə öz təsirini göstərir;

– imtahan üçün ayrılmış müddətdən düzgün istifadə olunmaması və sonra test tapşırıqlarının tələsik yerinə yetirilməsi amilləri də, təbii ki, yüksək nəticədən danışmağa mane olur və s.

2022-ci ildə keçirilmiş imtahan nəticələrini təhlil edərkən məlum olur ki, bakalavrların müəyyən qismi oxuyub-anlama mətni əsasında tərtib olunmuş test tapşırıqlarını cavablandırarkən yüksək nəticə əldə edə bilməmişdir və bu hal, şübhəsiz, təəssüf doğurur.

Magistraturaya qəbul imtahanında bakalavrların xarici dillər üzrə dinləyib-anlama bacarıqlarını yoxlamaq üçün istifadə olunan mətn əsasında hazırlanmış test tapşırıqları onların bu istiqamətdəki bacarıqlarını qiymətləndirməkdə əhəmiyyətli rol oynayır. Bakalavrlara mətn və mətnlə bağlı olan beş test tapşırığı təqdim olunmuşdur. Tapşırıqlar mətnin məzmun və ideyası ilə bağlı idi. Bununla yanaşı, cümlə tamamlama, doğru

fikrin seçilməsi kimi tapşırıqlar da mətnlə əlaqələndirilmişdir. Artıq dördüncü ildir ki, tətbiq olunan dinləyib-anlama üzrə test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Demək olar ki, bakalavrlar öz üzərlərində işləyə bilmiş və sonda müvafiq olaraq nəticə müsbət olmuşdur. Ümumi nəticəyə nəzər salsaq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Birinci cəhddə bakalavrların 41.25%-i dinləmə blokuna aid test tapşırıqlarının öhdəsindən lazımınca gəlmişdir.

Bununla belə, bakalavrlar bir sıra test tapşırıqlarını cavablandırarkən yanlışlığa yol vermiş və tələb olunan düzgün cavabı tapmaqda çətinlik çəkmişlər. Bu tip test tapşırıqlarından bir neçəsinə nəzər yetirək:

1-ci cəhd, A variantı, 1 saylı test tapşırığı

1. Complétez la phrase donnée selon le dialogue.

Le musée Rodin … .

A) n'est pas ouvert le mardi

B) se trouve dans un hôtel spécial

C) est le plus beau musée du monde

D) est situé non loin du musée du Louvre

E) est ouvert seulement pour les Français

Dinləyib-anlama blokuna aid bu test tapşırığıda bakalavrların verdiyi cavablar bəndlər üzrə aşağıdakı kimi olmuşdur: A bəndi 6.67%, B bəndi **8.0%**, C bəndi 44.0%, D bəndi 37.67%, E bəndi isə 6.67%. B bəndinin faiz göstəricisi, digər bəndlərin faiz göstəriciləri ilə uyğun gəlmir və iddiaçılar C və D bəndlərini daha çox seçmişlər. Buradan belə bir nəticəyə gəlmək olur ki, iddiaçıların böyük hissəsi cavabları intuitiv seçmişlər və əslində dinləyib-anlama mətnini düzgün başa düşməmişlər. Cavab variantı test tapşırığı analiz edilmədən seçilmişdir. Düzgün cavab B bəndi (**8.0%)** olduğu halda, faiz etibarilə üstünlük C bəndinə (44.0%) və D bəndinə (37.67%) verilmişdir. Test tapşırığının şərtinə əsasən, bakalavrlar dinlədikləri mətnə uyğun olaraq cümləni tamamlamalı idilər. Doğru cavab "Il est installé dans un hôtel particulier superbe" cümləsi ilə ifadə olunmuşdur. Səhv cavab variantlarına daha çox üstünlük verilməsini onunla əlaqələndiririk ki, variantlar başa düşülməmiş, namizədlər mətndə olan sözlərin işləndiyi distraktorları düz cavab kimi qəbul etmiş, parafraz faktoruna diqqət yetirməmişlər. Nəticədə az qisim bakalavrın nəticəsi müsbət olmuşdur. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 9.21%, C – 18.67%, D – 10.14%.

1-ci cəhd, A variantı, 13 saylı test tapşırığı

13. Choisissez la bonne série.

L'avocat ... nous nous sommes adressés est un des meilleurs de la ville.

A) que B) duquel C) auquel

D) dont E) lequel

Test tapşırığı ümumi dil biliyi blokundandır və bakalavrdan daha çox qrammatik bilik və vərdişlər tələb edir. Nisbət əvəzlikləri mövzusunu yaxşı mənimsəyən iddiaçı bu test tapşırığını doğru cavablandırmaqda çətinlik çəkməməlidir. Cavab bəndləri üzrə faizlər belə paylanmışdır: A bəndi 48%, B bəndi 5.33%, **C** bəndi **14.67%** (doğru cavab), D bəndi 21.33% və E bəndi 9.33%. Bu tip test tapşırıqlarını icra etməkdə iddiaçılar çətinlik çəkirlər, çünki tapşırığın çətinlik dərəcəsi yuxarı səviyyədədir. Bir məqamı qeyd etmək lazımdır ki, test tapşırığının leksik yükü o qədər də mürəkkəb deyil və lakin düzgün cavabın mürəkkəb nisbət əvəzliyi olması namizədləri çətinliyə salmışdır. Əgər namizəd *s'adresser* feilindən sonra *à* sözönünün işləndiyini nəzərə alsaydı, tapşırığın həllində ciddi problemlə qarşılaşmazdı. Faiz göstəricilərinə nəzər saldıqda görürük ki, A və D bəndləri daha çox seçilib ki, bunlar da ən çox istifadə olunan sadə nisbət əvəzlikləridir. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 19.74%, C – 14.67%, D – 14.49%.

1-ci cəhd, A variantı, 20 nömrəli test tapşırığı

20. Choisissez les idées correctes d'après le texte.

1. Le cœur du Dauphin est conservé dans le grand cimetière des rois de France.

2. Le petit Dauphin a réussi à s'évader de la prison du Temple.

3. Louis XVII a été emprisonné et mort de la maladie infectieuse et contagieuse.

4. La mère du petit Dauphin a eu le même destin que son père.

5. La sœur de Louis XVII est guillotinée dans la prison du Temple.

A) 1, 2, 3 B) 1, 2, 5 C) 1, 3, 4 D) 2, 3, 4 E) 3, 4, 5

Bu test tapşırığı oxuyub-anlama blokuna aiddir və mətnə əsasən düzgün fikirləri seçmək tələb olunur. Bakalavrların **17.33%-i** C bəndini seçməklə onu düzgün cavablandırmış, digər bəndlər üzrə faiz bölgüsü belə olmuşdur: A – 14.67%, B – 34.67%, D – 20% və E – 10.67%. Bu test tapşırığını düzgün cavablandırmaq üçün mətni kifayət qədər anlamaq, eyni zamanda verilmiş fikirləri diqqətlə analiz etmək gərəkdir. Bu məqamlarda söz ehtiyatının zənginliyi birmənalı olaraq köməyə gəlir. Test tapşırığında bəzi variantlardakı faiz yaxınlığı testin mürəkkəblik dərəcəsinin yetərli olduğundan xəbər verir. Düzgün cavab faizinin az olmasından çıxış edərək belə qənaətə gəlmək olar ki, bakalavrların leksik bilikləri kifayət qədər deyildir və bu olmadıqda uğurlu cavab seçmək mümkünsüzdür. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 17.11%, C – 20%, D – 20.29%.

1-ci cəhd, A variantı, 21 saylı test tapşırığı

21. Choisissez les contraires de la phrase donnée.

Le gouvernement a l'intention d'augmenter les prix.

1. L'Etat a l'intention d'élever les prix.
2. Le pouvoir veut diminuer les prix.
3. Le gouvernement planifie réduire les prix.
4. Le gouvernement désire stabiliser les prix.
5. L'Etat se propose de baisser les prix.
6. Le pouvoir a l'intention de régler les prix.

Verilmiş test tapşırığı antonim bölməsinə aid açıq tipli, seçim formalı test tapşırığıdır və burada bakalavrlardan verilmiş cümlənin antonimlərini seçmək tələb olunur. Əlbəttə, əsasən leksik bilik və vərdişlərə malik olan iddiaçı bu tip testləri asanlıqla cavablandıra bilər. Cavab variantları belə paylanmışdır: Düz cavab – 16%, yanlış cavab – 66.67, imtina – 17.33. Test tapşırığı çətin səviyyəli hesab edilir və bunu cavab variantının aşağı faizi əyani şəkildə göstərir. Ümumilikdə verilmiş cümlənin mənasını və seçim variantlarını anlayan namizədlər bu tapşırığa düzgün cavab vermişlər. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 11.84%, C – 9.33%, D – 11. 59%.

1-ci cəhd, A variantı, 25 saylı test tapşırığı

25. Choisissez les bonnes définitions des mots suivants.

1. la colère
2. la surprise
3. la peur

a. cadeau ou plaisir inattendu

b. mécontentement violant

c. crainte, sentiment d'insécurité

d. énervement lié à une grande agressivité

e. frayeur, panique

Bu, açıq tipli olmaqla uyğunluq formalı test tapşırıqlarındandır və imtahan nəticələrinə görə çətin test hesab edilmişdir (cəmi 12% bakalavr onu doğru cavablandırmışdır), əslində test tapşırığı elə də çətin deyil və leksik savad tələb etməklə bakalavrdan variantları diqqətlə oxuyub cavablandırmaq tələb olunur.

Cavab variantları belə paylanmışdır: A – **10.03**% (doğru cavab), B – 72% (yanlış cavab). Aydın məsələdir ki, məhdud söz ehtiyatina malik olanlar bu tapşırığa düzgün cavab seçə bilməzlər. Tapşırığın şərtinə əsasən, verilmiş sözlərə müvafiq izahları uyğunlaşdırmaq tələb olunur.

Bu yerdə yenə xatırladaq ki, zəif söz ehtiyyatına malik olan şəxslərin bu cür test tapşırıqlarını cavablandıra bilmələri çətindir. Bu cür tapşırıqların nə üçün çətinliklə cavablandırılması çoxlu suallar doğurur və bakalavrların kifayət qədər hazırlıqlı olmamasını və ya diqqətsizliyini üzə çıxarır. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 6.58%, C – 16%, D – 5.8%.

2-ci cəhd, A variantı, 2 saylı test tapşırığı

2. Choisissez la bonne série.

Brexit veut dire … .

A) l'utilisation de l'anglais au sein du Parlement

B) la séparation de la Grande Bretagne de l'UE

C) les députés dont la langue natale est l'anglais

D) l'acceptation du Royaume-Uni à l'ONU

E) l'influence de l'anglais aux députés

Bu, dinləyib-anlama blokuna aid test tapşırığıdır və bakalavrların verdiyi cavablar bəndlər üzrə aşağıdakı kimi olmuşdur: A bəndi 39.39%, B bəndi **6.06**%, C bəndi 34.85%, D bəndi 3.03%, E bəndi isə 16.67%. B bəndinin faiz göstəricisi digər bəndlərin faiz göstəricilərindən daha aşağıdır. Buradan belə bir nəticəyə gəlmək olur ki, iddiaçıların böyük hissəsi ümumi biliklərinə istinad edərək cavab seçmişlər və əslində dinləyib-anlama mətnini düzgün başa düşməmiş və test tapşırığı özünü çətin test kimi göstərmişdir. Düzgün cavab B bəndi (**6.06%)** faiz etibarilə böyük bir qisim bakalavrın nəticəsi mənfi olmuşdur. Tapşırıqda Brexit sözünün açıqlaması tələb olunur ki, bu da mətndə jurnalistin «*Depuis le Brexit, de la sortie du Royaume-Uni de l'Union Européen*» ifadəsi ilə başlayan cümləsində ifadə olunub. Namizədlər dialoqu dəqiqliklə dinləyib anlamış olsaydılar, düzgün cavabın seçilməsində heç bir problem yaranmazdı. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 4.41%, C – 13.43%, D – 2.94%.

2-ci cəhd, A variantı, 3 saylı test tapşırığı

3. Complétez d'après le texte.

Dans le Parlement européen l'anglais est la langue natale de la minorité des députés malgré que (qu') … .

A) il y a 2 pays dont la langue officielle est l'anglais

B) s'exprimer en anglais est plus facile que d'autres langues

C) l'anglais est la seule langue officielle des débats du Parlement

D) tout le monde parle anglais

E) l'influence du Royaume-Uni se montre

Test tapşırığı dinləyib-anlama blokuna aid tapşırıqdır və bakalavrdan dinləmə bacarıqları ilə bərabər leksik bilik və vərdişlər də tələb edir. Dinləmə mətnini yaxşı anlayan iddiaçı bu test tapşırığını doğru cavablandırmaqda çətinlik çəkməməlidir və düzgün cavabın faizi bunu deməyə əsas verir. Cavab bəndləri üzrə faizlər belə paylanmışdır: **A – 25.76%**, B – 22.73%, C – 27.27%, D – 13.64% və E – 10.61%. Cavab variantlarının paylanma aralığına diqqət yetirdikdə tapşırığın çətinlik dərəcəsini görmək mümkündür. Tapşırığın doğru cavabı jurnalistin "... nous avons plus de vingt députés européens sur 705 dont la langue natale et l'anglais." fikrinə... müsahibin "*il y a quand même deux pays de l'Union Européen pour lesquels l'anglais est une langue officielle* ..." cümləsi ilə cavabındadır. Bir şeyi qeyd etmək lazımdır ki, test tapşırığının leksik yükü o qədər də mürəkkəb deyil və yalnız bakalavrdan dinləmə vərdişləri və analiz bacarığı tələb edir. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 19.12%, C – 22.39%, D – 16.18%

2-ci cəhd, A variantı, 14 saylı test tapşırığı

14. Choisissez la série qui convient.

Voilà les touristes ... on a distribué des brochures.

A) auxquels B) desquelles C) que

D) dont E) laquelle

Test tapşırığı ümumi dil biliyi blokundandır və bakalavrdan daha çox qrammatik bilik və vərdişlər tələb edir. Nisbət əvəzlikləri mövzusunu yaxşı mənimsəyən iddiaçı bu test tapşırığını doğru cavablandırmaqda çətinlik çəkməməlidir. Cavab bəndləri üzrə faizlər belə paylanmışdır: A bəndi **37.88**% (doğru cavab), B bəndi 22.73%, C bəndi 21.21%, D bəndi 15.15% və E bəndi 3.03%. Bu tapşırığı icra etməkdə iddiaçılar çətinlik çəkməyiblər, çünki tapşırığın çətinlik dərəcəsi orta səviyyədədir. Bir məqamı qeyd etmək lazımdır ki, test tapşırığının leksik yükü o qədər də mürəkkəb deyil və mümkündür ki, düzgün cavabın mürəkkəb nisbət əvəzliyi olması bəzi namizədləri çətinliyə salmışdır. *Distribué* feilindən sonra *à* sözönünün işləndiyini

nəzərə alan namizədlər tapşırığın həllində ciddi problemlə qarşılaşmayıb. Eyni zamanda bir məsələni də diqqətə çatdırmaq istərdik ki, eyni mövzu ilə bağlı eyni çətinlik dərəcəli suala I cəhddə doğru cavab verənlərin sayı II cəhddəkilərdən daha azdır və I cəhddəkindən fərqli olaraq namizədlər II cəhddə sadə nisbət əvəzliklərinə yönəlməmişlər. Bunu isə namizədlərin I cəhd ilə II cəhd arasındakı müddətdə dil biliklərini daha da inkişaf etdirmələri ilə əlaqələndiririk. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 13.24%, C – 23.88%, D – 30.88%.

2-ci cəhd, A variantı, 25 saylı test tapşırığı

25. Choisissez les prépositions convenables.

1. sur
2. au-dessous
3. au-dessus

a. En allant aux Etats-Unis nous volons … de l'Atlantique.

b. Nous sommes sur la tour Eiffel, … de nos pieds coule la Seine.

c. Le chat est dans la cuisine ou … le balcon ?

d. La mère de Charlie est toujours assise … une petite chaise en paille.

e. Le prix est marqué: regarde, il est collé … du vase

Bu, açıq tipli olmaqla uyğunluq formalı test tapşırıqlarındandır və imtahan nəticələrinə görə çətin test hesab edilmişdir (cəmi 3% bakalavr onu doğru cavablandırmışdır), əslində test tapşırığı elə də çətin deyil və leksik savad tələb etməklə bakalavrdan variantları diqqətlə oxuyub cavablandırmaq tələb olunur.

Cavab variantları belə paylanmışdır: A – **3.03**% (doğru cavab), B – 77.27% (yanlış cavab), 19.70 – imtina. Aydın məsələdir ki, məhdud söz ehtiyatına malik olanlar bu tapşırığa düzgün cavab seçə bilməzlər. Tapşırığın şərtinə əsasən, verilmiş sözlərə müvafiq izahları uyğunlaşdırmaq tələb olunur.

Bu yerdə yenə xatırladaq ki, zəif söz ehtiyatına malik olan şəxslərin bu cür test tapşırıqlarını cavablandıra bilmələri çətindir. Bu cür tapşırıqların nə üçün çətinliklə cavablandırılması çoxlu suallar doğurur və bakalavrların kifayət qədər hazırlıqlı olmamasını və ya diqqətsizliyini üzə çıxarır. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 4.41%, C – 2.99%, D – 0%.

Magistratura səviyyəsinə I və II cəhd qəbul imtahanlarında bakalavrların cavablarının statistik təhlilinin nəticələrinə əsasən deyə bilərik ki, ümumilikdə test tapşırıqlarının cavablandırılmasını qənaətbəxş hesab etmək olar. Lakin səhv cavabların çoxluğunun toplanan bala mənfi təsir göstərmədiyi halda, müxtəlif tipli tapşırıqlara cavab verməkdən imtina edən namizədlərin çoxluğu diqqəti cəlb edir. Daha çox imtina halları isə hər iki cəhddə ardıcıllıq və uyğunluq formalı tapşırıqlarda nəzərə çarpır. Lakin xarici dil (fransız dili) bloku üzrə imtina halları I cəhdlə müqayisədə II cəhddə daha çox müşahidə olunur. Ümumi faiz göstəricilərinə nəzər yetirdikdə namizədlər I cəhddə daha yuxarı nəticələr nümayiş etdirmişlər. II cəhddə aşağı nəticələrin ortaya çıxmasının əsas səbəbi dinləmə bloku ilə əlaqədardır. Belə ki, dinləmə bloku üzrə I cəhddə məişət üslubunda dialoq, II cəhddə isə daha çox rəsmi üsluba yaxın dialoq verilmişdir. Bundan əlavə, imtinalar nəzərə alınmaqla II cəhddə iştirak etmiş bakalavrların açıq tipli test tapşırıqlarına doğru cavab faizi daha yüksəkdir. Ümumi dil biliyi bloku üzrə namizədlərə çətinlik törədən tapşırıqlar nisbət əvəzlikləri mövzusuna aiddir ki, namizədlər I cəhdlə müqayisədə II cəhddə eyni qüvvəli tapşırığa cavab verərkən daha yüksək nəticə göstərmişlər.

Beləliklə, hər iki cəhdin statistik nəticələrinin təhlili və müqayisəsi aşağıdakı nəticələrə gəlməyə kömək edir:

– yanlış cavabları seçən bakalavrların əksər hissəsinin leksik-qrammatik bilikləri və təhliletmə səriştələri yetərli deyildir;

– əksər hallarda söz ehtiyatının zəif olması və məntiqi nəticə çıxarmaq bacarığının aşağı səviyyədə olması test tapşırıqlarını düzgün cavablandırmağa imkan vermir;

– istənilən xarici dili öyrənərkən ana dili ilə fərqli və oxşar olan məqamları diqqət mərkəzində saxlamaq və onları qarışdırmamaq tələb olunur;

– test tapşırıqları yetərincə təhlil edilmir, tələskənliyə yol verilir;

– test tapşırıqlarına ayrılan vaxt düzgün bölünmür və s.

2022-ci ildə magistraturaya qəbul imtahanının birinci cəhdində ***Azərbaycan bölməsində xarici dil kimi rus dilini*** seçən bakalavrların sayı 1976, ikinci cəhdində isə 1868 nəfər olmuşdur. Bu fəndən təqdim edilən test tapşırıqları bakalavrların, əsasən, linqvistik bilik, bacarıq və vərdişlərinin, məntiqi təfəkkürlərinin, dildən kommunikativ məqsədlə istifadə etmək qabiliyyətlərinin üzə çıxarılmasını nəzərdə tutmuşdur. Test blokunda rus dilinin spesifik xüsusiyyətlərinə dair bilikləri və bu bilikləri tətbiq etmək bacarığını yoxlayan ümumiləşdirici tapşırıqlara, eləcə də dilə praktiki cəhətdən yiyələnmə səviyyəsini üzə çıxarmaq məqsədi daşıyan tapşırıqlara üstünlük verilmişdir.

Bakalavrlar test blokundakı sözün həqiqi və məcazi mənası, məntiqi tamamlama və digər mövzulara aid tapşırıqlara yaxşı cavab vermişlər.

Bakalavrların mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna cavabları qənaətbəxş, yəni orta hesabla, 57.01% olmuşdur.

Bakalavrlara dinləyib-anlama üçün mətn və mətnlə bağlı olan 5 test tapşırığı təqdim olunmuşdur. Mətn bakalavlar üçün iki dəfə səsləndirilmişdir. Tapşırıqlar isə mətnin əsas ideyasının müəyyən edilməsi, verilmiş cümlənin mətnə əsasən tamamlanması, mətnə görə düzgün fikirlərin seçilməsi istiqamətində olmuşdur. Hər bir xarici dil öyrənən bakalavr həmin dildə ona təqdim olunmuş yazılı məlumatı oxuyub-anlaya bilməli, öz fikrini yazılı və şifahi şəkildə sərbəst ifadə etməli, eşitdiyi informasiyanı adekvat şəkildə qavramağı bacarmalıdır. Bu məzmunda olan test tapşırıqları onların oxuyub-anlama, dinləyib-anlama, yazı və danışıq qabiliyyətlərini qiymətləndirməkdə əhəmiyyətli rol oynayır. Ümumi nəticəyə nəzər salsaq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Bakalavrların 67.59%-i dinləmə blokuna aid test tapşırıqlarının öhdəsindən lazımınca gəlmişdir.

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlilinə və statistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların rus dili üzrə nəticələri ümumilikdə qənaətbəxşdir. Rus dili üzrə test blokundakı tapşırıqların düzgün cavablandırılma faizi orta hesabla 52.91% olmuşdur.

Aşağıdakı cədvəldə 2022-ci illərdə qəbul imtahanının birinci və ikinci cəhdlərində imtahan verən bakalavrların rus dilini bilmə səviyyəsini müəyyən edən test tapşırıqlarının düzgün cavablandırılma faizləri (orta statistik göstəricilər) verilmişdir:

İl	**Azərbaycan bölməsi üzrə**	**Bakalavr-ların ayı**	**Qapalı tipli tapşırıqların düzgün cavablandırılma faizi**	**Açıq tipli tapşırıqların düzgün cavablandırılma faizi**	**Qapalı və açıq tipli tapşırıqların (birlikdə) düzgün cavablandırılma faizi**
2022 (1cəhd)		1976	58.29	32.40	53.11
2022 (2 cəhd)		1868	56.52	38.46	52.91

Cədvəldən göründüyü kimi, bakalavrların 2022-ci ildə rus dili üzrə test tapşırıqlarını birinci cəhdinin düzgün cavablandırmalarının orta statistik göstəricisi 2022-ci ilin ikinci cəhdi ilə müqayisədə, demək olar ki, bərabərdir.

Bakalavrların 2022-ci ilin ikinci cəhdində qapalı və açıq tipli test tapşırıqlarını düzgün cavablandırmalarının orta statistik göstəricisi 2022-ci ilin birinci cəhdi ilə müqayisədə azalmışdır. Cədvəldən göründüyü kimi, qapalı və açıq tipli test tapşırıqlarının birlikdə düzgün cavablandırılma göstəricisi 2022-ci ilin birinci cəhdinə nisbətən 0.12% azalmışdır.

Tapşırıqların statistik təhlili bakalavrların nitq konstruksiyalarından istifadə etmək bacarığının hələ arzuedilən səviyyədə olmadığını göstərir. Təhlildən aydın olur ki, bakalavrlar, əsasən, mətn tərtibi, sözlərin uzlaşması, nitq səhvlərinin tapılması, sözün leksik mənasının müəyyənləşdirilməsi və bəzi digər mövzularda çətinlik çəkirlər.

Statistik göstəricilərə əsasən, qəbul imtahanının birinci cəhdində dinləyib-anlama blokunda bakalavrlar üçün çətinlik törətməmiş test tapşırığına diqqət yetirək.

E variantı, 3 saylı test tapşırığı

Дополните предложение словами из текста. Пассажир обеспокоен потерей багажа, так как в нём находились … .

A) лекарства и предметы обихода

B) ключи от квартиры и телефон

C) документы и одежда

D) одежда и ключи от машины

E) документы и лекарства

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə orta asan hesab oluna bilər. Nümunədə verilmiş test tapşırığı dinləmə blokuna aid olan beş tapşırıqdan biridir. Mətndə verilmiş məlumata əsasən sərnişin baqajını itirdiyi üçün içindəki əşyalardan narahatdır. Cümləni mətndəki sözlərlə tamamlamaq lazımdır. Çantada dərman və sənədlər var idi. Bu tapşırığı bakalavrların 71.11%-i E bəndini seçməklə düzgün cavablandırmış, 22.69%-i yanlış bəndləri seçmişdir.

1-ci cəhd, D variantı, 4 saylı test tapşırığı

С какой целью работница Службы спросила домашний адрес пассажира?

A) чтобы отправить новый билет

B) чтобы навестить пассажира

C) чтобы послать посадочный талон

D) чтобы доставить багаж домой

E) чтобы предупредить о задержке рейса

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə asan hesab oluna bilər. Bakalavrlardan tələb olunur ki, xidmət işçisinin sərnişinin ev ünvanını hansı məqsədlə soruşduğunu müəyyən etsinlər. Dialoqdakı iştirakçılar arasında söhbət hava limanında baş tutur. Sərnişin uçuş zamanı baqajını itirir və bu səbəbdən xidmət işçisi ondan tapılan baqajın göndərilməsi üçün ev ünvanını soruşur. Bu tapşırığı bakalavrların 80.52%-i D bəndini seçməklə düzgün cavablandırmış,18.67%-i yanlış bəndləri seçmişlər.

2-ci cəhd, B variantı, 3 saylı test tapşırığı

Что делает Анжела по вечерам после работы?

A) несмотря на усталость, она читает книгу

B) ужинает, делает домашнее задание и смотрит сериал

C) делает домашнее задание и ужинает с друзьями

D) ужинает и выходит на прогулку с друзьями

E) ужинает, смотрит сериал и сразу засыпает

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə asan hesab oluna bilər. Bakalavrlar dinlədikləri mətndə verilmiş məlumata əsasən Anjelanın işdən sonra axşamlar nə etdiyi sualını cavablandırmalıdırlar. Dialoqda Anjelanın çətin iş qrafiki haqqında məlumat verilir və axşamlar işdən sonra o yalnız axşam yeməyini yeyib, ev tapşırığlarını yazıb və ən sevdiyi komediya serialına baxa bilir. Bu tapşırığı bakalavrların 80.64%-i B bəndini seçməklə düzgün cavablandırmış,18.51%-i yanlış bəndləri seçmişdir.

2-ci cəhd, E variantı, 4 saylı test tapşırığı

Как Анжела проводит свои выходные?

A) Отдыхает дома, а по вечерам выходит с друзьями на прогулку.

B) Читает книги в ближайшем кафе.

C) Навещает своих близких и родственников.

D) Посещает с друзьями мероприятия, связанные с учёбой.

E) Встречается с друзьями или же отдыхает дома, читает книги.

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə asan hesab oluna bilər. Bakalavrlar dinlədikləri mətndə verilmiş məlumata əsasən Anjela həftə sonlarını necə keçirir sualını cavablandırmalıdırlar. Mətnə əsasən Anjela həftə sonları dostları ilə görüşür və ya evdə dincəlib kitab oxuyur. Bu tapşırığı bakalavrların 85.74%-i E bəndini seçməklə düzgün cavablandırmış,14.01%-i yanlış bəndləri seçmişdir.

İndi isə dinləyib-anlama blokunda bakalavrlar üçün çətinlik törətmiş test tapşırığına diqqət yetirək.

2-ci cəhd, E variantı, 2 saylı test tapşırığı

В какое время суток Анжела идёт на работу?

A) в 7.30 утра B) утром C) вечером

D) в 6.30 утра E) днём

Nümunədə verilmiş test tapşırığı dinləmə blokuna aid olan beş tapşırıqdan biridir. Bakalavrlara dinlədikləri mətndə verilmiş məlumata əsasən Anjelanın günün hansı vaxtında işə getməsinə dair sual verilir. Bu tapşırığı bakalavrların 13.62%-i E bəndini seçməklə düzgün cavablandırmış, 85.96%-i yanlış bəndləri seçmişdir. A bəndinə bakalavrlar daha çox üstünlük vermişlər (56.17%). Mətndəki iştirakçılar dialoqda Anjelanın gərgin iş qrafiki barəsində söhbət edirlər. Lakin test tapşırığında deyilir ki, Anjela həftənin altı günü oxuyur və həmçinin altı gün beynəlxalq şirkətdə günorta vaxtları işləyir. Bir məsələ xüsusi vurğulanmalıdır ki, mətn əsasında tərtib edilmiş tapşırıqları yerinə yetirmək üçün bakalavrlardan geniş söz ehtiyatına malik olmaq və səslənən mətnə diqqətlə qulaq asmaq tələb olunur.

Leksika bölməsinə aid olan dörd test tapşırığına diqqət yetirək.

1-ci cəhd, E variantı, 13 saylı test tapşırığı

Слово *сильный* сочетается со словами:

1. спортсмен 2. удар 3. дом 4. стол 5. ветер 6. суп

A) 4, 5, 6 B) 1, 3, 4 C) 1, 2, 6 D) 2, 3, 5 E) 1, 2, 5

Test tapşırığı çətinlik dərəcəsinə görə asan hesab edilə bilər. Bu test tapşırığına bakalavrların 87.95%-i düzgün cavab vermiş, 11.44%-i isə yanlış cavablar olan digər bəndləri seçmişdir. Bildiyimiz kimi, "сильный" sözü nitq hissəsi olaraq sifətdir, Azərbaycan dilinə tərcümədə "güclü, qüvvətli" deməkdir və bu sifət cümlədə canlı və cansız isimlərlə işlənə bilər. Bakalavrlar bu test tapşırığını düzgün cavablandırmaq üçün sırada verilmiş isimlər arasında "сильный" sözü ilə leksik uyğunluğu tamamlamalıdırlar.

Doğru cavab: 1, 2, 5

1-ci cəhd, B variantı, 21 saylı test tapşırığı

Выберите верное толкование слов.

1. объект – предмет, выставленный на выставке
2. достоинство – положительное качество
3. компания – совокупность военных действий, мероприятий
4. триумф – блестящий успех, победа
5. эмоция – душевное переживание

Bu tapşırıqda sözlərin düzgün izahını tapmaq üçün müvafiq sözlərin leksik mənasını başa düşmək, çoxmənalı sözlərin birdən çox mənasının olmasını bilmək tələb olunur. Adətən, bu mövzuya aid tapşırıqlar qapalı formada təqdim edilərkən yüksək cavablandırılma faizi ilə seçildiyi halda, açıq tipli bu tapşırığın düzgün cavabını bakalavrların yalnız 19.28%-i müəyyənləşdirmiş, 70.68%-i yanlış cavablandırmış, 10.04%-i isə cavablandırmaqdan imtina etmişdir. Görünür, bakalavrların söz ehtiyatlarının məhdud olması ilə yanaşı, bu tapşırığın açıq tipli olması da onun zəif cavablandırılmasının səbəblərindən biridir.

Doğru cavab: 1, 3, 5

Verilmiş test tapşırığının cavablandırma nəticələri göstərir ki, imtahan edilənlərin sözlərin mənaları ilə bağlı bilikləri qənaətbəxş deyildir.

2-ci cəhd, C variantı, 12 saylı test tapşırığı

Составьте диалог.

– Здравствуйте, я хотел бы изменить тип визы.

– …

– Я поступил в университет, и буду учиться в этой стране ещё несколько лет.

– …

– Да, паспорт и зачётная книжка у меня с собой, а вот справки из деканата нет.

– …

– Спасибо огромное. Когда соберу все документы, приду к Вам писать заявление. До свидания!

– …

1. Хорошо. Вам нужно написать заявление. У Вас есть при себе паспорт, зачётная книжка и справка из деканата?
2. Приходите обязательно. Но не забудьте заранее записаться на приём. До свидания.
3. Очень жаль. Тогда Вам нужно уточнить у секретаря, какую справку Вам нужно получить в деканате Вашего университета.
4. Добрый день. По какой причине?

A) 4, 2, 3, 1 B) 1, 3, 4, 2 C) 4, 1, 3, 2 D) 1, 3, 2, 4 E) 4, 3, 2, 1

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə asan hesab edilə bilər. Bu test tapşırığına bakalavrların yalnız 86.38% düzgün cavab verib, 12.97 % isə yalnış cavablandırmışdır. Söz ehtiyatına və məntiqi təfəkkürə malik olan bakalavrlar test tapşırığına asanlıqla cavab verə bilirlər. Təhlillər göstərir ki, eyni çətinlikli açıq tipli test tapşırıqlarına verilən cavabların statistik göstəriciləri qapalı tipli test tapşırıqlarına verilən cavabları ilə müqayisədə xeyli aşağıdır. Söz ehtiyatı və qrammatik bilikləri kifayət qədər olan bakalavrlar tapşırığın qapalı və ya açıq tipli olmasından asılı olmayaraq, düzgün cavabı asanlıqla təyin edə bilirlər.

2-ci cəhd, A variantı, 21 saylı test tapşırığı

Укажите однозначные слова.

1. почва 2. капля 3. пурга
4. пальто 5. сказка 6. лист
7. метро 8. звезда

Adətən, bu mövzuya aid tapşırıqlar qapalı formada təqdim edilərkən yüksək cavablandırılma faizi ilə seçildiyi halda, açıq formada təqdim olunan bu tapşırığın düzgün cavabını bakalavrların yalnız 5.11%-i müəyyənləşdirmiş, 83.19%-i yanlış cavablandırmış, 11.70%-i isə cavablandırmaqdan imtina etmişdir. Görünür, bakalavrların söz ehtiyatlarının məhdud olması ilə yanaşı, bu tapşırığın açıq tipli olması da onun zəif cavablandırılmasının səbəblərindən biridir.

Test tapşırığında verilən sözlərin düzgün izahını tapmaq üçün müvafiq sözlərin leksik mənasını başa düşmək, təkmənalı və çoxmənalı sözlərin mənasını bilmək tələb olunur. Verilmiş söz sıralarında: почва (1. torpaq, 2. yer, zəmin; 3. dayaq, əsas; 4. mühit); капля (1. damcı, gilə; 2. только мн. капли tib. damcı dərmanı); сказка (1. nağıl; 2. yalan, uydurma, əfsanə; 3. ifadə, məlumat); лист (1. yarpaq; 2. vərəq; 3. vərəqə; 4. təbəqə); звезда (1. ulduz; 2. məşhur sima) sözləri çoxmənalılıq daşıyırlar. Təkmənalılıq daşıyan sözlər пурга (boran, çovğun, qar fırtınası); пальто (palto); метро (metropoliten) mənasında istifadə olunur.

Doğru cavab: 3, 4, 7

Verilmiş test tapşırığının cavablandırma nəticələri göstərir ki, imtahan iştirakçılarının sözlərin mənaları ilə bağlı bilikləri qənaətbəxş deyildir.

Qrammatika bölməsinə aid olan iki test tapşırığına diqqət yetirək.

2-ci cəhd, A variantı, 6 saylı test tapşırığı

Выберите возможные варианты.

Маленький дом, … я жил, находился в живописном уголке.

1. где 2. потому что 3. если
4. в котором 5. когда 6. хотя

A) 1, 4 B) 1, 2, 3 C) 2, 5, 6 D) 2, 4 E) 3, 4, 6

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə orta asan hesab oluna bilər. Qapalı tipli bu test tapşırığını bakalavrların 76.38%-i doğru cavablandırmış, 22.98 yanlış olan digər cavabları qeyd etmiş.

Bu nəticə onların bağlayıcılı tabeli mürəkkəb cümlələrin istifadə qaydalarını fərqləndirə bilmələrindən irəli gəlir. Verilmiş cümlədə “Маленький дом, … я жил, находился в живописном уголке” (Mən yaşadığım balaca ev mənzərəli yerdə yerləşirdi) yer bildirən müxtəlif bağlayıcı sözləri istifadə edilməlidir. Test tapşırığının A variantının где – harada, в котором – o yerdə ki bağlayıcıları yer budaq cümləli tabeli cümləsində istifadə olunur.

3. REZİDENTURAYA QƏBUL

Rezidentura tibb ixtisasları üzrə əsas (baza ali) tibb təhsili əsasında həkim-mütəxəssis hazırlığı formasıdır. Burada təhsil dövlət standartı və proqramına uyğun olaraq hazırlanmış baza ali tibb təhsili proqramları əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun 95 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların təsnifatı"nda qeyd olunan həkim-mütəxəssis ixtisasları üzrə aparılır. Rezidenturada ayrı-ayrı həkim-mütəxəssis ixtisasları üzrə təhsil müddəti 2 ildən 5 ilə qədərdir. Rezidenturada həkim-mütəxəssis hazırlığı klinik baza olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş elm, təhsil müəssisələri və klinikalarda aparılır. Azərbaycan Respublikasının vətəndaşları üçün rezidenturada təhsil dövlət sifarişi əsasında həyata keçirilir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli, 156 nömrəli fərmanı, "Rezidentura təhsilinin məzmunu və təşkili qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2010-cu il tarixli, 50 nömrəli və 2013-cü il 21 noyabr tarixli, 330 nömrəli qərarlarına əsasən rezidenturaya qəbul 2022-ci ildə də DİM tərəfindən mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilmişdir. Qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral 41 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları" ilə tənzimlənib.

2010-cu ilin oktyabr ayından başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (indiki Dövlət İmtahan Mərkəzi) rezidenturaya qəbul imtahanlarının keçirilməsi ilə bağlı baza və ixtisas fənləri üzrə elmi-metodik seminarlar təşkil olunmuşdur. Növbəti illərdə seminarlarda qəbul proqramları müzakirə edilmiş, test tərtibi metodikası üzrə treninqlər keçirilmiş, mövcud test bankı yeni test tapşırıqları ilə zənginləşdirilmişdir. 2022-ci ildə də əsas (baza ali) tibb təhsilinin bütün istiqamətləri üzrə baza və ixtisas fənlərindən qəbul proqramları əlavə və düzəlişlər edilməklə təkmilləşdirilmiş, müvafiq kafedraların əməkdaşlarının iştirakı ilə müzakirə edilmiş, kafedra müdirləri ilə razılaşdırılmış və institut rəhbərliyi tərəfindən təsdiqlənmişdir.

Rezidenturaya qəbul qaydaları və baza fənləri üzrə qəbul proqramları, test tapşırıqlarının elmi-metodik izahı və tövsiyələr, test tapşırığı nümunələri 2022-ci ilin yanvar ayında "Rezidentura" jurnalının 1-ci nömrəsində dərc olunaraq ictimaiyyətə təqdim olunmuşdur. Rezidenturaya qəbul elanı və ixtisas fənləri üzrə qəbul proqramları, test tapşırıqlarının elmi-metodik izahı və tövsiyələr, test tapşırığı nümunələri "Rezidentura" jurnalının 2-ci nömrəsində, qəbul imtahanının II mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisasların siyahısı, qəbul imtahanının I mərhələsinin nəticələri, qəbul planı və namizədlər üçün tövsiyələr, 2021-ci ildə rezidenturaya qəbul müsabiqəsində baza tibb təhsili müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid balları isə jurnalın 3-cü nömrəsində dərc edilmişdir. Jurnalın 4-cü nömrəsində 2021-ci ildə rezidenturaya qəbul olanların adlı siyahısı və cari ildə klinik bazalar üzrə formalaşmış keçid balları verilmişdir.

2020-ci ildə rezidenturaya qəbulla bağlı müsabiqə şərtlərində bəzi dəyişikliklər edilib. Belə ki, imtahanın I mərhələsinin nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib, imtahandan 40 və daha çox bal toplayan əsas (baza ali) tibb təhsilli namizədlər "məqbul" alaraq imtahanın II mərhələsində iştirak etmək hüququ qazanıblar. Bundan başqa, imtahanın I mərhələsində "məqbul" alanların nəticəsi 5 (beş) il qüvvədə qalır, yəni onlar 5 (beş) il ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar. Rezidenturaya qəbulun I mərhələsinə əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş (III, IV və V kurs) tələbələr də buraxılıblar. Bu imtahandan "məqbul" alan tələbələr isə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən sonra buraxılacaqlar.

Rezidenturaya qəbul aparılan ixtisaslar əsas (baza ali) tibb təhsilinə uyğun olaraq istiqamətlər üzrə qruplaşdırılıb. 3.1 saylı cədvəldə həm bu istiqamətlərin, həm də hər bir istiqamət üzrə imtahan verilən baza və ixtisas fənlərinin siyahısı təqdim edilib.

Cədvəl 3.1

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ İMTAHAN BAZA VƏ İXTİSAS FƏNLƏRİ

İstiqamətin adı	Baza fənləri	İxtisas fənləri
I. Müalicə işi, pediatriya	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya, patoloji fiziologiya) Mikrobiologiya Farmakologiya Biokimya	Daxili xəstəliklər (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya, yoluxucu xəstəliklər, psixiatriya) Cərrahlıq (ümumi cərrahlıq, cərrahi xəstəliklər, uşaq cərrahlığı) Mamalıq və ginekologiya Uşaq xəstəlikləri (uşaq xəstəliklərinin propedevtikası, neonatologiya)
II. Stomatologiya	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya, patoloji fiziologiya) Mikrobiologiya Farmakologiya Biokimya	Terapevtik stomatologiya Ortopedik stomatologiya Üz-çənə cərrahiyyəsi Uşaq stomatologiyası
III. Tibbi profilaktika	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya, patoloji fiziologiya) Mikrobiologiya Farmakologiya Biokimya	Yoluxucu xəstəliklər Gigiyena (ümumi gigiyena, kommunal gigiyena, qidalanma gigiyenası, əmək gigiyenası) Epidemiologiya

2022-ci ildə rezidenturaya qəbul Səhiyyə Nazirliyi sistemi üzrə 4 klinik bazaya aparılıb. Rezidenturaya Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün ümumilikdə 468 plan yeri ayrılmışdı (onlardan 31 plan yeri Hərbi Tibb Fakültəsi, 40 plan yeri isə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı üçün nəzərdə tutulmuşdur). 3.2 saylı cədvəldən də göründüyü kimi, rezidenturaya ən çox qəbul planı Azərbaycan Tibb Universitetinin payına düşüb (302 yer – Hərbi tibb fakültəsi də daxil olmaqla). Bu təhsil müəssisəsinin qəbul planı ümumilikdə rezidentura üçün ayrılmış qəbul planının 64.53%-ni təşkil edib.

Cədvəl 3.2

QƏBUL PLANININ KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	İstiqamətlər*					Ümumi
		I	II	III	I, II, III	I, III	
1	Azərbaycan Tibb Universiteti	209	14	22	3	23	271
	Hərbi Tibb Fakütəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	5	0	0	0	1	6
	Hərbi Tibb Fakütəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	22	0	0	2	1	25
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	71	0	8	2	12	93
3	Naxçıvan Dövlət Universiteti	24	3	2	1	3	33
4	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	40	0	0	0	0	40
C Ə M İ		**371**	**17**	**32**	**8**	**40**	**468**

*(İstiqamətlər: I – Müalicə işi, pediatriya; II – Stomatologiya; III – Tibbi-profilaktika)

2021-ci illə müqayisədə qəbul planı müalicə işi, pediatriya istiqaməti üzrə 14 yer, tibbi profilaktika istiqaməti üzrə 9 yer, sosial gigiyena və səhiyyənin təşkili ixtisası üzrə (I, II və III istiqamətlər üzrə birgə müsabiqə) 1 yer, yoluxucu xəstəliklər və tibbi mikrobiologiya ixtisasları (I, III istiqamətlər) üzrə 19 yer artmış, stomatologiya istiqaməti üzrə isə dəyişməmişdir. Ümumilikdə qəbul planı 10.12% (43 yer) artmışdır.

Artıq ikinci ildir ki, namizədlərə baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iki dəfə iştirak etmək üçün şərait yaradılır. Qəbul imtahanının I mərhələsinin 1-ci cəhdində iştirak etmək üçün ərizələrin qəbulu 2022-ci il aprelin 25-dən mayın 5-dək, 2-ci cəhdində iştirak etmək üçün isə iyunun 1-dən 5-dək internet vasitəsilə aparılıb. Namizədlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet"lərini yaratdıqdan sonra, "Şəxsi kabinet"lərinin istifadəçi adı və parolundan istifadə edərək DİM-in internet saytının müvafiq səhifəsinə (eservices.dim.gov.az/erizerez/erize) daxil olaraq "Namizədin elektron ərizəsi" formasını doldurub, təsdiq ediblər. Müsabiqədə iştirak ödənişli olmuşdur. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının xarici ölkələrdə əsas (baza ali) tibb təhsili almış vətəndaşları imtahanda iştirak etmək üçün "Namizədin elektron ərizəsi" formasını doldurduqdan sonra tələb olunan sənədlərin əslini şəxsən təqdim edərək elektron ərizələrini DİM-də yaradılmış Sənəd Qəbulu Komissiyalarında təsdiq etdiriblər.

Rezidenturada təhsil almaq üçün 1643 namizəd ərizə verib. Onların 39.44%-ni (648 nəfər) oğlanlar, 60.56%-ni (995 nəfər) qızlar təşkil edib. Sənəd verənlərin 603 nəfəri (36.70%) əsas (baza ali) tibb təhsilini cari ildə başa vurub. Onlardan 221 nəfərini oğlanlar (36.65%), 382 nəfərini isə qızlar (63.35%) təşkil edib.

Baza ali tibb təhsili istiqamətləri üzrə qəbul planı, imtahanda iştirak etmək üçün təqdim edilən ərizələrin sayı və ərizə qəbulu mərhələsində müsabiqə vəziyyəti 3.3 saylı cədvəldə göstərilir.

Cədvəl 3.3

BAZA ALİ TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ VƏ BÖLMƏLƏR ÜZRƏ QƏBUL PLANI, NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN PAYLANMASI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ

İstiqamət	Qəbul Planı*	Ərizələrin sayı			Müsabiqə vəziyyəti
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Müalicə işi, pediatriya	419 (371)	1128	235	1363	3.3
II. Stomatologiya	25 (17)	103	14	117	4.7
III. Tibbi profilaktika	80 (32)	156	7	163	2.0
C Ə M İ	**468****	**1387**	**256**	**1643**	**3.5**

∗ Mötərizədə yalnız bu istiqamət üzrə ayrılan plan yerlərinin (digər istiqamətlərlə birgə olan plan yerləri istisna olunmaqla) sayı göstərilib.

∗∗ Müalicə işi, pediatriya, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə 8 yer (sosial gigiyena və səhiyyənin təşkili ixtisası üzrə), müalicə işi, pediatriya və tibbi profilaktika istiqamətləri üzrə 40 yer (tibbi mikrobiologiya və yoluxucu xəstəliklər ixtisasları üzrə) üçün birgə müsabiqə aparılıb.

3.3 saylı cədvəldən görünür ki, imtahanda iştirak etmək üçün ən çox ərizə müalicə işi, pediatriya istiqaməti üzrə təqdim edilib. Ümumiyyətlə, ərizələrin sayı ötən illə müqayisədə müalicə işi, pediatriya istiqaməti üzrə 2.57% (36 ərizə) azalmış, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə uyğun olaraq 3.54% (4 ərizə) və 1.24% (2 ərizə) artmış, bütün istiqamətlər üzrə isə ümumilikdə 1.79% (30 ərizə) azalmışdır.

Ən yüksək müsabiqə vəziyyəti stomatologiya istiqaməti üzrə (bir yerə orta hesabla 4.7 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə tibbi profilaktika istiqaməti üzrə (bir yerə orta hesabla 2.0 ərizə) müşahidə olunub. Ümumilikdə, ötən illə müqayisədə müsabiqə vəziyyəti 3.9-dan 3.5-ə qədər azalmışdır.

Rezidenturaya qəbul imtahanı iki mərhələdə keçirilib. I mərhələ üzrə imtahanın 1-ci cəhdi mayın 15-də, 2-ci cəhdi iyunun 19-da, II mərhələ üzrə imtahan isə avqustun 21-də keçirilib. Qəbul imtahanının hər iki mərhələsi Bakı və Naxçıvan şəhərlərində keçirilib. II mərhələyə imtahanın I mərhələsində nəticələri "məqbul" olan (40 və daha çox bal toplayan) və müsabiqədə iştirak etmək hüququ olan namizədlər buraxılıb.

İmtahanın birinci mərhələsində namizədlərin baza ali tibb təhsili istiqamətinə müvafiq olaraq baza fənləri üzrə, ikinci mərhələsində isə ixtisas fənləri üzrə bilikləri yoxlanılıb. Namizədlərə hər mərhələdə 100 test tapşırığı təqdim olunub. Hər bir test tapşırığına düzgün cavab bir balla qiymətləndirilib, səhv cavablar namizədin imtahan nəticələrinə təsir göstərməyib. Hər mərhələdə imtahan suallarının cavablandırılmasına 2.5 saat vaxt ayrılıb.

İmtahanın I mərhələsində baza ali tibb təhsilinin bütün istiqamətləri üzrə patologiya bloku (patoloji fiziologiya) və insan fiziologiyası fənnindən son 5 sual açıq tipli test tapşırığı olub. İmtahanın II mərhələsində müalicə işi, pediatriya istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən və tibbi profilaktika istiqaməti üzrə epidemiologiya fənnindən son 5 sual açıq tipli test tapşırığı olub. Hər iki mərhələdə sual kitabçaları fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları imtahanın hər iki mərhələsində müalicə işi, pediatriya istiqaməti üzrə 2 variantda, digər istiqamətlər üzrə isə 1 variantda, Azərbaycan və rus dillərində hazırlanıb. Bütövlükdə, imtahanlarda 24 sual kitabçasından və 2400 test tapşırığından istifadə edilib.

Qəbul imtahanının I mərhələsi üzrə 1-ci cəhdin nəticələri mayın 16-da, 2-ci cəhdin nəticələri iyunun 21-də, II mərhələsi üzrə nəticələr isə avqustun 23-də DİM-in internet saytında elan olunub.

Məlum olduğu kimi, əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş tələbələrə də (III, IV və V kurs tələbələri) baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iştirak etmək imkanı yaradılmışdır. Bu imkandan faydalanmaq üçün 496 tələbə (193 oğlan, 303 qız) müraciət etmiş, onlardan 495-i (193 oğlan, 302 qız) baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında iştirak etmiş və 205-i (72 oğlan, 133 qız) "məqbul" almışdır.

İmtahanın I mərhələsində iştirak edən 1506 namizəddən 1011-i (458 oğlan (45.30%), 553 qız (54.70%)) əvvəlki və cari ilin məzunları olmuşdur. Bu namizədlərdən 313-ü (123 oğlan (39.30%), 190 qız (60.70%)) məqbul alaraq II mərhələdə iştirak etmək hüququ əldə etmişdir.

Aşağıdakı cədvəldə əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın I mərhələsində iştirak edən cari il məzunlarının nəticələrinin IV və V kurs tələbələrinin nəticələri ilə müqayisəsi təqdim olunmuşdur.

Cədvəldən də göründüyü kimi, 2022-ci ildə imtahanın I mərhələsində iştirak edən cari il məzunlarının bütövlükdə 40.56%-i, III, IV və V kurs tələbələrinin isə 41.41%-i "məqbul" almışdır. Qeyd etmək istərdik ki, cari il məzunlarının 247-si əvvəlki illərdə tələbə kimi imtahanın I mərhələsindən "məqbul" aldığı üçün cari ildə imtahanın I mərhələsində iştirak etməmişdir. Onları da nəzərə alsaq, bu halda cari il məzunlarından "məqbul" alanların nisbi sayı faktiki olaraq 64.95% olardı.

Cədvəl 3.4

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ İMTAHANIN I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏNLƏRİN NƏTİCƏLƏRİNİN MÜQAYİSƏSİ

İstiqamət	İmtahanda iştirak edənlərin sayı		Məqbul alanların sayı və faizi			
			Cari ilin məzunları		III, IV və V kurs tələbələri	
	Cari ilin məzunları	III, IV və V kurs tələbələri	sayı	faizi	sayı	faizi
I. Müalicə işi, pediatriya	273	419	115	42.12	183	43.68
II. Stomatologiya	45	24	21	46.67	7	29.17
III. Tibbi profilaktika	37	52	8	21.62	15	28.85
C Ə M İ	**355**	**495**	**144**	**40.56**	**205**	**41.41**

3.1-3.3 saylı şəkillərdə qəbul imtahanının I mərhələsində iştirak edən əvvəlki illərin məzunlarının, cari il məzunlarının, III, IV və V kurs tələbələrinin ayrı-ayrılıqda topladıqları balların paylanma diaqramı təqdim edilib. Diaqramlar göstərir ki, əvvəlki illərin məzunlarının imtahandakı nəticələri digər imtahan iştirakçılarının nəticələrindən çox zəifdir. III, IV və V kurs tələbələrinin 41.42%-i imtahanın I mərhələsində ən azı 40 bal toplayıb. Bu cür nəticə göstərənlərin nisbi sayı cari ilin məzunları arasında 40.56%, əvvəlki illərin məzunları arasında isə 25.76% təşkil edib. Əvvəlki illərin məzunlarının böyük hissəsi (74.24%-i) 40 baldan aşağı nəticə göstərərək məqbul nəticə əldə edə bilməmişdir. Təhlil zamanı bu namizədlərin hazırlıq səviyyəsinin digər imtahan iştirakçılarından aşağı olduğunu görürük. Fikrimizcə, bunun əsas səbəbi belə imtahan iştirakçıları arasında daha çox əvvəlki illərdə rezidenturaya qəbul ola bilməyənlərin üstünlük təşkil etməsidir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN ƏVVƏLKİ İLLƏRİN MƏZUNLARININ TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.1

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN CARİ İL MƏZUNLARININ TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.2

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN IV VƏ V KURS TƏLƏBƏLƏRİNİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.3

Cari ildə imtahanın I mərhələsində iştirak edənlərdən 313 nəfər əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın II mərhələsində iştirak etmək hüququ qazanmış və onlardan 264 nəfəri imtahanın II mərhələsində iştirak etmək üçün ərizə vermişdir. Bundan başqa, əvvəlki illərdə rezidenturaya qəbul imtahanının I mərhələsində iştirak edərək "məqbul" alan 618 nəfər də II mərhələdə iştirak etmək üçün ərizə vermiş və ümumilikdə, II mərhələdə iştirak etmək üçün ərizə verənlərin sayı 882 nəfər olmuşdur. İmtahanın II mərhələsində 880 nəfər iştirak edib və bu namizədlərin çoxu (584 nəfər – 66.36%) müsabiqədə iştirak etmək hüququ qazanıb. Onlardan 172 nəfəri oğlan (98 nəfər cari ilin məzunu), 412 nəfəri qız (183 nəfər cari ilin məzunu) olub.

İmtahanda və müsabiqədə iştirak etmək hüququ qazanan namizədlərin istiqamətlər üzrə sayı barədə məlumat 3.5 saylı cədvəldə təqdim olunur.

Cədvəl 3.5

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL PLANI, İMTAHANIN II MƏRHƏLƏSİNDƏ VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANAN NAMİZƏDLƏRİN PAYLANMASI

İstiqamət	Qəbul planı*	İmtahanda iştirak edən namizədlərin sayı		Müsabiqədə iştirak etmək hüququ qazanmış namizədlərin sayı
		I mərhələ	II mərhələ**	
I. Müalicə işi, pediatriya	419 (31)	835 (33)	731 (62)	455 (25)
II. Stomatologiya	25 (2)	92	51	40
III. Tibbi profilaktika	80 (4)	84	98	89
C Ə M İ	**468 (31)**	**1011 (33)**	**880 (62)**	**584 (25)**

* mötərizədə, o cümlədən Hərbi Tibb Fakültəsi üzrə məlumat verilmişdir.

** II mərhələdə I mərhələ üzrə ən azı 40 bal toplayan namizədlər iştirak ediblər.

3.4 və 3.5 saylı şəkillərdə rezidenturaya qəbul olmaq üçün imtahanda iştirak edən cari və əvvəlki illərin məzunlarının I və II mərhələ üzrə topladıqları balların paylanma diaqramları təqdim edilib. I mərhələdə namizədlərin 30.96%-i "məqbul" almaq üçün qoyulan tələbi (40 və daha yüksək bal) ödəyib və bu namizədlər II mərhələdə iştirak etmək hüququ qazanıblar. Ötən il bu göstərici 41.91%-ə, 2020-ci ildə isə 53.46%-ə bərabər olub. Göründüyü kimi, imtahanın I mərhələsində "məqbul" qiymət alanların nisbi sayında illər üzrə azalma müşahidə olunur. Bu, imtahanın I mərhələsində "məqbul" alanların nəticələrinin 5 (beş) il qüvvədə qalması və nəticədə, növbəti illərdə imtahan verən seçmənin tərkibində yüksək hazırlıqlı namizədlərin nisbi çəkisinin azalması ilə bağlıdır.

Qəbul imtahanının II mərhələsində iştirak edən namizədlərin böyük hissəsi (66.36%-i) 50 baldan yuxarı nəticə göstərərək ixtisas seçiminə buraxılıb. Namizədlərin 33.64%-i isə 50 baldan aşağı nəticə göstərdiyi üçün ixtisas seçiminə buraxılmayıb.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN (CARİ VƏ ƏVVƏLKİ İLLƏRİN MƏZUNLARI) TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.4

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ (İXTİSAS FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.5

Qəbul imtahanının nəticələri əsasında reprezentativ seçməyə malik olan müalicə işi, pediatriya istiqaməti üzrə I və II mərhələdə iştirak edən namizədlərin ayrılıqda topladıqları balların paylanmasının ədədi xarakteristikaları və histoqramları müəyyənləşdirilib (3.6, 3.7 saylı cədvəllər və 3.1, 3.2 saylı qrafiklərə bax). Qrafiklərdə namizədlərin topladıqları balların paylanma histoqramı, riyazi gözləmə (orta qiyməti) (M) və namizədlər seçməsini sayca iki bərabər hissəyə ayıran mediana (Me) təsvir edilib. Balların paylanma histoqramı həm I mərhələdə, həm də II mərhələdə, demək olar ki, normal paylanmaya yaxındır.

Müalicə işi, pediatriya istiqaməti
(*I mərhələ, IV və V kurs tələbələri də nəzərə alınmaqla*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	35.41	Minimal bal :	13
Ortakvadratik meyil :	9.03	Maksimal bal :	63
Moda :	37	Namizədlərin sayı :	1254
Mediana :	35.18		

Cədvəl 3.6

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	240	19.14	49.20	66 - 70	0	0.00	100.00
1 - 5	0	0.00	0.00	36 - 40	271	21.61	70.81	71 - 75	0	0.00	100.00
6 - 10	0	0.00	0.00	41 - 45	204	16.27	87.08	76 - 80	0	0.00	100.00
11 - 15	6	0.48	0.48	46 - 50	104	8.29	95.37	81 - 85	0	0.00	100.00
16 - 20	62	4.94	5.42	51 - 55	45	3.59	98.96	86 - 90	0	0.00	100.00
21 - 25	130	10.37	15.79	56 - 60	11	0.88	99.84	91 - 95	0	0.00	100.00
26 - 30	179	14.27	30.06	61 - 65	2	0.16	100.00	96 - 100	0	0.00	100.00

Qrafik 3.1



Müalicə işi, pediatriya istiqaməti
(*II mərhələ*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	53.42	Minimal bal :	23
Ortakvadratik meyil :	11.24	Maksimal bal :	89
Moda :	52	Namizədlərin sayı :	731
Mediana :	52.68		

Cədvəl 3.7

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	26	3.56	5.47	66 - 70	56	7.66	92.75
1 - 5	0	0.00	0.00	36 - 40	48	6.57	12.04	71 - 75	36	4.92	97.67
6 - 10	0	0.00	0.00	41 - 45	93	12.72	24.76	76 - 80	10	1.37	99.04
11 - 15	0	0.00	0.00	46 - 50	117	16.01	40.77	81 - 85	6	0.82	99.86
16 - 20	0	0.00	0.00	51 - 55	126	17.24	58.00	86 - 90	1	0.14	100.00
21 - 25	2	0.27	0.27	56 - 60	108	14.77	72.78	91 - 95	0	0.00	100.00
26 - 30	12	1.64	1.92	61 - 65	90	12.31	85.09	96 - 100	0	0.00	100.00

Qrafik 3.2



Rezidenturaya qəbul imtahanının II mərhələsində iştirak edənlər və qəbul olanlar seçmələri üzrə ayrılıqda ortastatistik namizədin portreti müəyyənləşdirilib. II mərhələ üzrə Azərbaycan bölməsində imtahanda iştirak edənlər seçməsini təmsil edən ortastatistik namizədin topladığı bal 54.99-a, rus bölməsində 55.85-ə bərabərdir. Azərbaycan bölməsində rezidenturaya qəbul olanlar seçməsini təmsil edən ortastatistik namizədin imtahanın II mərhələsində topladığı bal 64.05-ə, rus bölməsində isə 61.84-ə bərabərdir. Təqdim edilən rəqəmlərdən də göründüyü kimi, bölmələr üzrə ayrılıqda namizədlərin imtahana hazırlığı və imtahan nəticələri çox az fərqlənir.

Müsabiqəyə buraxılan namizədlər malik olduqları əsas (baza ali) tibb təhsilinin istiqamətinə uyğun olaraq avqustun 25-dən 30-dək ixtisas seçimi aparıb. İxtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri Mərkəz tərəfindən müəyyən edilmiş müsabiqə şərtini ödəyən – ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında 50 və daha çox bal toplayan namizədlər buraxılıb.

İxtisas seçiminə kömək məqsədilə "Rezidentura" jurnalının 3-cü nömrəsində "Rezidentura üzrə ixtisas seçimi cədvəli" dərc olunub (cədvəl 3.8). Bununla da hər bir namizədə bitirdiyi istiqamətə uyğun olaraq səmərəli ixtisas seçimi imkanı yaradılıb.

Cədvəl 3.8

REZİDENTURA ÜZRƏ İXTİSAS SEÇİMİ CƏDVƏLİ

Əsas (baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)	Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar
I. Müalicə işi, pediatriya	060901 - Anesteziologiya-reanimatologiya 060902 - Ümumi cərrahiyyə 060903 - Neyrocərrahiyyə 060904 - Plastik cərrahiyyə 060905 - Ürək-damar cərrahiyyəsi 060906 - Uşaq cərrahiyyəsi 060907 - Otorinolarinqologiya 060908 - Travmatologiya-ortopediya 060909 - Onkologiya 060910 - Urologiya 060911 - Oftalmologiya 060912 - Mamalıq-ginekologiya 060913 - Psixiatriya 060914 - Nevrologiya 060915 – Daxili xəstəliklər 060916 - Kardiologiya 060917 - Nefrologiya 060918 - Qastroenterologiya 060919 - Hematologiya 060920 - Dermatovenerologiya 060922 – Allerqologiya və immunologiya 060923 - Yoluxucu xəstəliklər 060924 - Revmatologiya 060925 - Endokrinologiya 060926 - Narkologiya 060927 - Fizioterapiya və tibbi bərpa 060928 - Ftiziatriya 060929 - Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza 060930 - Pediatriya 060931 - Şüa terapiyası 060932 - Şüa diaqnostikası 060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060937 – Tibbi mikrobiologiya 060939 - Tibbi genetika 060941 - Ailə təbabəti 060942 - Nüvə təbabəti 060949 - Uşaq və yeniyetmə psixiatriyası 060950 - Neonatologiya 060951 - Uşaq endokrinologiyası 060952 - Uşaq kardiologiyası 060953 - Uşaq nefrologiyası 060954 - Uşaq nevrologiyası 060955 - Uşaq qastroenterologiyası 060956 - Uşaq urologiyası 060957 - Uşaq yoluxucu xəstəlikləri 060958 - Uşaq ürək-damar cərrahiyyəsi

Cədvəl 3.8 (ardı)

Əsas (baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)	Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar
II. Stomatologiya	060934 - Üz-çənə cərrahiyyəsi 060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060943 - Endodontiya 060944 - Parodontologiya 060945 - Restorativ stomatologiya 060946 - Ortopedik stomatologiya 060947 - Uşaq stomatologiyası 060948 - Ortodontiya
III. Tibbi profilaktika	060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060936 - Gigiyena 060937 - Tibbi mikrobiologiya 060938 - Laboratoriya işi 060940 - Epidemiologiya 060923 - Yoluxucu xəstəliklər

Seçilmiş ixtisasların ərizə formasında ardıcıllığını namizəd özü müəyyənləşdirib və o, topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Müsabiqə zamanı balı eyni olan iki və daha çox namizədi fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

– əsas (baza ali) tibb təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

– baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından toplanılan bal.

Müsabiqənin nəticələri sentyabrın 1-də elan edilib.

Müsabiqədə iştirak edən namizədlərin ərizələrinin rezidentura təhsilini həyata keçirən klinik bazalar üzrə paylanması 3.9 saylı cədvəldə təqdim edilib.

Cədvəl 3.9

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	Ərizələrin sayı			
		Müalicə işi, pediatriya istiqaməti üzrə	Stomatologiya istiqaməti üzrə	Tibbi-profilaktika istiqaməti üzrə	Ümumi
1	Azərbaycan Tibb Universiteti	417	39	84	540
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	0	0	0	0
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	23	0	0	23
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	382	16	81	479
3	Naxçıvan Dövlət Universiteti	83	18	35	136
4	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	47	0	0	47
	C Ə M İ	**445**	**39**	**87**	**571**

Cədvəldən göründüyü kimi, müsabiqədə iştirak edən 571 namizədin 77.93%-i (445 nəfər) müalicə işi, pediatriya, 6.83%-i (39 nəfər) stomatologiya və 15.24%-i (87 nəfər) tibbi profilaktika istiqaməti üzrə imtahan verənlərdir.

Müsabiqədə iştirak edən namizədlərin 94.57%-i (540 nəfər) öz ərizəsində Azərbaycan Tibb Universitetinə (Hərbi Tibb Fakültəsi ilə birlikdə 98.60% (563 nəfər)), 83.89%-i (479 nəfər) Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna aid olan ixtisasları qeyd edib.

İmtahanlarda iştirak üçün qeydiyyatdan keçən namizədlərin 28.00%-i rezidenturaya qəbul olub. Əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə rezidenturaya qəbul olan namizədlərin sayı haqqında statistik məlumat 3.10 saylı cədvəldə təqdim edilir.

Cədvəl 3.10

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Qəbul planı*	Qəbul olanların sayı			Qəbul olub (%)
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Müalicə işi, pediatriya	375 (31)**	290 (23)	77 (0)	367 (23)	97.87 (74.19)
II. Stomatologiya	21	18	3	21	100.00
III. Tibbi profilaktika	72	70	2	72	100.00
C Ə M İ	**468 (31)**	**378 (23)**	**82 (0)**	**460 (23)**	**98.29 (74.19)**

* Birgə müsabiqə aparılan ixtisaslar üzrə qəbul olanların paylanması nəzərə alınaraq əsas (baza ali) tibb təhsili istiqamətlərinin qəbul planları dəqiqləşdirilib (bax: cədvəl 3.3).

** Mötərizədə, o cümlədən Hərbi Tibb Fakültəsi üzrə məlumat verilmişdir.

Cədvəldən göründüyü kimi, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə qəbul planı tam dolub. Qəbul planı ümumilikdə 98.29%, o cümlədən müalicə işi, pediatriya istiqaməti üzrə 97.87% dolub.

Rezidenturaya sənəd verənlərin 603 nəfərini əsas (baza ali) tibb təhsilini cari ildə başa vuranlar (36.65%-i oğlanlar, 63.35%-i qızlar) təşkil edib. Tibb təhsili istiqamətləri üzrə onların paylanması belədir: Müalicə işi, pediatriya – 489 nəfər, stomatologiya – 49 nəfər və tibbi profilaktika – 65 nəfər. Cari ilin məzunlarından qəbul imtahanının I mərhələsində 355 (bundan əlavə, 247 nəfər əvvəlki illərdə tələbə kimi imtahanın I mərhələsindən "məqbul" qiymət alıb), II mərhələsində isə 369 nəfər iştirak edib və onların 236 nəfəri (istiqamətlər üzrə, müvafiq olaraq, 200, 11 və 25 nəfər) rezidenturaya qəbul olub. Cari il məzunlarının rezidenturaya qəbulolma göstəriciləri tam seçməyə nəzərən yüksək olub – 39.14%. Rezidenturaya qəbul olan məzunların 36.44%-ni oğlanlar, 63.56%-ni isə qızlar təşkil edib.

Əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə rezidenturaya sənəd verən və qəbul olan oğlan və qız namizədlərin sayı barədə məlumat 3.11 saylı cədvəldə göstərilib. Rezidenturaya sənəd verən və qəbul olan namizədlərin seçmələrində oğlan və qızların sayca nisbi çəkilərində qismən dəyişiklik baş verib. Belə ki, rezidenturaya sənəd verən namizədlərin 39.44%-ni oğlanlar, 60.56%-ni qızlar təşkil etdiyi halda, qəbul olanlar seçməsində namizədlərin 30.87%-i oğlanlar, 69.13%-i isə qızlardır. Ümumiyyətlə, 2022-ci ildə rezidenturaya qəbul olmaq üçün sənəd verən qız namizədlərin rezidenturaya qəbulolma göstəriciləri (31.96%) oğlan namizədlərin qəbulolma göstəricilərindən (21.91%) yüksəkdir.

Cədvəl 3.11

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ ƏRİZƏ VERƏN VƏ QƏBUL OLAN OĞLAN VƏ QIZ NAMİZƏDLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Ərizə verən				Qəbul olan			
	oğlan		qız		oğlan		qız	
	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
I. Müalicə işi, pediatriya	573	42.04	790	57.96	119	32.43	248	67.57
II. Stomatologiya	51	43.59	66	56.41	10	47.62	11	52.38
III. Tibbi-profilaktika	24	14.72	139	85.28	13	18.06	59	81.94
C Ə M İ	**648**	**39.44**	**995**	**60.56**	**142**	**30.87**	**318**	**69.13**

Rezidenturaya qəbul olan namizədlərin topladıqları balların paylanma diaqramı 3.6 saylı şəkildə təqdim olunub. Diaqramdan görünür ki, qəbul olanların 35.22%-nin topladığı bal 50-59, 61.96%-nin topladığı bal isə 60-79 bal diapazonlarında yerləşir. Qeyd edək ki, maksimal toplanıla bilən bal 100-ə bərabər olub.

Klinik bazalar üzrə rezidenturaya qəbul olan namizədlərin sayı və orta bal göstəriciləri 3.12 saylı cədvəldə təqdim edilib. Cədvəldən aydın olur ki, Azərbaycan Tibb Universitetinə qəbul olan namizədlərin qəbul imtahanında topladıqları balların orta qiymətləri (həmin tibb müəssisələrinə qəbul olanları təmsil edən ortastatisik namizədin qəbul imtahanında topladığı bal) ən yüksəkdir. Bu klinik bazaya qəbul olan ortastatistik namizədin balı 65.735-ə bərabər olub.

QƏBUL OLAN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.6

Nisbətən zəif hazırlıqlı namizədlər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün) qəbul olublar (ortastatistik namizədin qəbul imtahanında topladığı balı 57.043-ə bərabərdir).

Naxçıvan Dövlət Universitetində 1 yer (bu təhsil müəssisəsi üçün ayrılmış plan yerlərinin 3.03%-i), Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində 8 yer (25.81% - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün ayrılan yerlərin hamısı, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün ayrılan yerlərin 2-si (8.00%-i)) boş qalmışdır. Azərbaycan Tibb Universiteti, Akademik Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı üçün ayrılan plan yerləri tam dolub.

Cədvəl 3.12

KLİNİK BAZALAR ÜZRƏ REZİDENTURAYA QƏBUL OLAN NAMİZƏDLƏRİN SAYI VƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ

	Tibb müəssisələri	Qəbul planı	Qəbul olanların sayı			Orta bal
			oğlan	qız	cəmi	
1	Azərbaycan Tibb Universiteti	271	78	194	272	65.735
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	6	0	0	0	---
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	25	23	0	23	57.043
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	93	19	74	93	62.484
3	Naxçıvan Dövlət Universiteti	33	14	18	32	58.938
4	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	40	8	32	40	59.800
C Ə M İ		**468**	**142**	**318**	**460**	**63.654**

Fənlər üzrə elmi-metodik təhlil və tövsiyələr

Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin iştirakı ilə 2022/2023-cü tədris ili üçün rezidenturaya qəbul imtahanlarında istifadə olunmuş test tapşırıqlarının elmi-statistik təhlili aparılmışdır: ayrı-ayrı test tapşırıqları üzrə namizədlərin əldə etdikləri nəticələr təhlil edilib, onların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqları müzakirə olunub, tapşırıqların nisbətən çətin cavablandırılmasının səbəbləri araşdırılıb, bu səbəblərin aradan qaldırılması üçün müvafiq təklif və tövsiyələr hazırlanıb. Təhlillərdən əldə olunan nəticələr test bankının təkmilləşdirilməsi və zənginləşdirilməsi sahəsində işlər aparılarkən nəzərə alınır.

Qeyd etmək lazımdır ki, rezidenturaya qəbul imtahanı proqramları, eləcə də qəbul imtahanında istifadə olunacaq test tapşırıqlarının tipi və mürəkkəblik dərəcəsi haqqında məlumat, test tapşırığı nümunələri ilin əvvəlində "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Rezidentura" jurnalının 1-ci və 2-ci saylarında dərc edilmişdi.

2022/2023-cü tədris ili üçün rezidenturaya qəbul imtahanlarında da ayrı-ayrı fənlər üzrə istifadə olunan test tapşırıqlarının mövzu və bölmələr üzrə paylanmasında onların nəzəri və praktiki əhəmiyyəti nəzərə alınmışdır. Bütün istiqamətlər üzrə test blokuna terminoloji, faktoloji, ümumiləşdirmə, izahat tələb edən, uyğunluğun müəyyən edilməsi və təklif olunan fəaliyyət kateqoriyalı, çətinlik dərəcəsinə görə sadə, orta və mürəkkəb olan test tapşırıqları daxil edilmiş, bununla da namizədlərin qəbul proqramı üzrə materialı necə mənimsədiyini dəqiq qiymətləndirmək, eləcə də bilik və bacarıqlarını tətbiq etmək qabiliyyətlərini yoxlamaq mümkün olmuşdur.

Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında istifadə olunan 100 test tapşırığından 10-u (normal fiziologiya fənnindən və patologiya blokundan), ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında isə istifadə olunan 100 test tapşırığından 5-i (müalicə işi, pediatriya istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən, tibbi profilaktika istiqaməti üzrə epidemiologiya fənnindən) açıq tipli idi.

Baza fənləri üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri bəzi test tapşırıqlarının izahını təqdim edirik.

İnsan anatomiyası fənni üzrə "Ürək-qan damar sistemi. Ürəyin morfofunksional anatomiyası", "Kiçik və böyük qan dövranı damarları", "Periferik sinir sisteminin anatomiyası", "Daxili orqanlar. Həzm sistem orqanlarının morfofunksional anatomiyası", "Kəllə sümükləri və onların birləşmələri", "Mərkəzi sinir sisteminin anatomiyası", "Gövdə sümükləri və onların birləşmələri", "Sidik orqanlarının morfofunksional anatomiyası", "Ətraf əzələlərinin və fassiyalarının morfofunksional anatomiyası", "Qapı venası. Venoz anastomozlar", "Duyğu orqanlarının morfofunksional anatomiyası", "Baş və boyunun əzələ və fassiyalarının morfofunksional anatomiyası" və "Yuxarı və aşağı boş vena sistemləri" bölmələri üzrə bilikləri yoxlayan test tapşırıqları təqdim edilmişdi. Elmi-metodik təhlildən məlum olur ki, müalicə işi, pediatriya istiqaməti üzrə ***insan anatomiyası*** fənninin "Yuxarı və aşağı boş vena sistemləri" bölməsi üzrə təqdim olunan test tapşırığının cavablandırılmasında namizədlər daha çox çətinlik çəkib. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 1 saylı test tapşırığı

Aşağı sagittal cib açılır:

A) mağaralı cibə B) düz cibə C) "S"-əbənzər cibə

D) ənsə cibinə E) köndələn cibə

Namizədlərin 12,70%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı çətinlik dərəcəsinə görə sadədir (doğru cavab: B).

Beyinin sərt qişasının daxili səhfəsi beyinin böyük yarıqlarına büküşlü çıxıntılar buraxır. Həmin yerlərdə daxili səhfə xarici səhfədən nisbətən aralı olur və nəticədə sərt qişanın venoz cibləri formalaşır. Beyinin sərt qişa ciblərinə aiddir: yuxarı sagittal cib, aşağı sagittal cib, düz cib, köndələn cib, ənsə cibi, mağaralı cib, əsas-təpə cibi, yuxarı daşlıq cibi, aşağı daşlıq cibi, "S"-əbənzər cib.

Sərt qişa cibləri kəllədən və beyindən venoz qanın çox hissəsini daxili vidaci venaya daşıyır. Beyinin sərt qişa ciblərindən qanın axını aşağıdakı sxemdə təsvir edilmişdir.

Namizədlərin 30,56%-i A cavab variantını doğru cavab kimi seçmişdir. Lakin mağaralı cib venoz qanı əsas-təpə cibindən qəbul edir, aşağı və yuxarı daşlıq cibləri ilə birləşir.

Namizədlərin 25,60%-i C, 14,48%-i isə E cavab variantlarını doğru cavab kimi seçmişdir. Sxemdən aydın göründüyü kimi, köndələn cib yuxarı sagittal və düz ciblərdən venoz qanı qəbul edir, ciblər qovuşması əmələ gətirərək "S"-əbənzər cibə açılır.



Namizədlərin 16,27%-i tərəfindən doğru cavab kimi seçilmiş D cavab variantında göstərilən önsə cibi ciblər qovuşmasından başlayır, böyük dəliyə çatır, davamı kənari cib adlanır və daxili vidaci venaya açılır. D cavab variantını seçmiş namizədlərin kəllənin topoqrafiyası barədə biliklərinin olmadığını göstərir, belə ki, namizədlər nahiyələr arasında xeyli məsafənin olmasını nəzərə alaraq bu ciblərin bir-biri ilə birbaşa əlaqəsinin mümkün olmayacağını bilməli idilər (bax: Şadlinski V.B., Mövsümov N.T., Qasımov Ş.İ. və b. İnsan anatomiyası: 3 cilddə, Bakı: Müəllim, III cild, 2019, s. 237; Şadlinski V.B., Qasımov Ş.İ., İsayev A.B., Hüseynov B.M. İnsan anatomiyası. Rezidenturaya hazırlaşanlar üçün vəsait. TQDK – "Abituriyent", Bakı: 2015, s. 312, 396; Шадлинский В.Б., Касумов Ш.И., Исаев А.Б., Гусейнов Б.М. Анатомия человека /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2020, с. 310, 394; Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека. II том, Баку: Муаллим, 2010, с. 382).

Dərslik və vəsaitlərdə ətraflı məlumat verilməsinə baxmayaraq, namizədlərin bu test tapşırığını cavablandırarkən səhvə yol vermələrinin səbəbi yuxarı və aşağı boş vena sistemləri barədə kifayət qədər məlumatlı olmamalarıdır.

2022-ci ildə də ***histologiya*** fənni üzrə sitologiya, embriologiya, ümumi və xüsusi histologiya üzrə 7 test tapşırığı təqdim edilib. Bu tapşırıqlar "İfrazat, cinsiyyət sistemi orqanlarının ümumi quruluş-funksiya səciyyəsi", "Ürək-damar, immun müdafiə sistemi orqanlarının ümumi quruluş-funksiya səciyyəsi. Qanyaranma", "Toxumalar: təsnifatı, quruluş-funksiya səciyyəsi", "Hüceyrə, plazmolemma, sitoskelet, orqanellər və əlavələr" və s. bölmələri əhatə edir. Elmi-metodik təhlildən aydın olur ki, bu il də namizədlər histologiya fənni üzrə təqdim olunan bir çox test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkib. Bu fənn üzrə namizədlərin daha çox çətinlik çəkdiyi (müalicə işi, pediatriya istiqaməti üzrə) test tapşırığının şərhini təqdim edirik.

B variantı, 20 saylı test tapşırığı

Torlu qişanın piqment hüceyrələrinin funksiyalarına aiddir:

1. Faqositoz
2. Assosiativ əlaqələr
3. İmpulsların müvəqqəti blokadası
4. Termik yanıqlardan mühafizə
5. Fotosensor hüceyrələrin retinolla təmini
6. Tormozlanmanın təmini

A) 2, 3, 5 B) 1, 4, 5 C) 1, 2, 6 D) 1, 3, 6 E) 2, 4, 5

Namizədlərin 14,48%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Duyğu orqanları" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (doğru cavab: B).

Məlumdur ki, torlu qişa göz almasının daxili qışasını təşkil edir və xüsusi damarlı qışanın daxili səthini örtür. Torlu qişada iki qat – damarlı qişaya söykənən piqmentli epitel qatı və sinir toxumasının elementlərindən təşkil olunmuş daxili reseptor qat (xüsusi torlu qişa) müəyyən olunur. Piqmentli epitel qatı bazal zar üzərində yerləşmiş prizmatik, poliqonal piqment hüceyrələrindən təşkil olunur. Piqment hüceyrələri çoxsaylı kiçik çıxıntıları (mikroxovcuqları) vasitəsilə fotosensor hüceyrələrin dendritlərinin xarici seqmentlərini əhatə edir. Bu hüceyrələrin cismində, xüsusən çıxıntılarında çoxlu melanosomlar və faqosomlar olur. Melanosomların olması hesabına piqment hüceyrələri düşən işıq şüalarının 85-90%-ni udaraq torlu qişanı termik yanıqlardan qoruyur. Piqment hüceyrələri həm də faqositoz funksiyasını yerinə yetirir. Fotosensor hüceyrələrin xarici seqmentlərinin işlənmiş komponentlərinin faqositozu nəticəsində

onların sitoplazmasında faqosomlar yaranır. Bundan əlavə, piqment hüceyrələri fotosensor (fotoreseptor) hüceyrələrini görmə piqmentinin sintezi üçün zəruri olan retinolla (A vitamini) təmin edir. Piqment hüceyrələri bir-biri ilə hüceyrəarası əlaqələrlə birləşir və retinal baryerin formalaşmasında iştirak edir.

Şəkildən göründüyü kimi, xüsusi torlu qişanın qalan hissəsini çıxıntıları və cisimləri torlu qişanın digər qatlarını əmələ gətirən fotosensor, assosiativ və qanqlioz neyronlar təşkil edir. Fotosensor hüceyrələr düşən işıq şüalarının təsirindən oyanaraq qıcığı assosiativ neyronlara ötürür. Burada üç növ assosiativ neyronlar – bipolyar, horizontal və amakrin neyronlar müəyyən edilir. Bipolyar neyronlar fotosensor hüceyrələri qanqlioz hüceyrələrlə əlaqələndirərək impulsların mərkəzi sinir sisteminə ötürülməsini təmin edir.



Horizontal və amakrin neyronlar isə tormozlayıcı neyronlar olub, torlu qişada təsvirin daha aydın alınmasını təmin edir (bax: Xüsusi histologiya /prof. E.K Qasımovun redaktəsi ilə. Bakı: Azərnəşr, 2015, s. 37; Кузнецов С.Л., Мушкамбаров Н.Н. Гистология, цитология и эмбриология. Учеб. для мед. ВУЗов. М.: ООО "МИА", 2012, с. 270; Султанова Т.А., Эюбова Г.М., Наджафова Т.М. Гистология (цитология, эмбриология, общая и частная гистология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 295, 296).

Qeyd olunanlardan göründüyü kimi piqment hüceyrələri nə assosiativ əlaqələrdə, nə də impulsların blokadasında iştirak edir. Ona görə də doğru cavab kimi namizədlərin 43,06%-nin seçdiyi A, 3,77%-nin seçdiyi C, 5,95%-nin seçdiyi D və 32,14%-nin seçdiyi E cavab variantları yanlışdır. Namizədlərə yerli assosiativ neyronların və piqment hüceyrələrinin müqayisəli şəkildə quruluş xüsusiyyətlərinə, lokalizasiyasına və funksiyalarına diqqət yetirməsi, imtahanlara hazırlaşarkən belə məqamları daha ətraflı öyrənmələri tövsiyə olunur.

İnsan fiziologiyası fənnindən "Maddələr və enerji mübadiləsi. Qidalanma", "Damar sisteminin fiziologiyası", "Daxili sekresiya vəzlərinin fiziologiyası", "Sinir hüceyrələrinin fiziologiyası", "Tənəffüs sisteminin fiziologiyası", "Əzələlərin fiziologiyası", "Vegetativ funksiyaların sinir tənzımı", "Həzm sisteminin fiziologiyası", "Analizatorlar (sensor sistem)", "Oyanan toxumaların ümumi fiziologiyası", "Mərkəzi sinir sisteminin ümumi fiziologiyası", "Yuxunun fiziologiyası", "Ali sinir fəaliyyəti", "Ürək fəaliyyətinin fiziologiyası" və "İfrazat sisteminin fiziologiyası" mövzuları üzrə bilik və bacarıqları yoxlayan test tapşırıqları təqdim edilmişdir. Namizədlər müalicə işi, pediatriya istiqaməti üzrə daha çox "Analizatorlar (sensor sistem)" bölməsinə aid olan test tapşırığının həllində çətinlik çəkmişlər. Bu fənn üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 94 saylı test tapşırığı

Beyin qabığının sol yarımkürəsində görmə sahəsinə torlu qişadan gələn informasiyalar proyeksiya olunur:

A) hər iki gözün sağ yarısından B) yalnız sağ gözdən C) hər iki gözün içəri yarısından
D) hər iki gözün bayır yarısından E) hər iki gözün sol yarısından

Namizədlərin 18,85%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı orta çətinlik dərəcəsinə malikdir (doğru cavab: E). Bu test tapşırığının doğru cavablandırılması üçün "Analizatorların fiziologiyası" fəslinin "Görmə analizatoru" mövzusunda görmə yolları haqqında əldə olunmuş biliklərin tətbiqi tələb olunur. Məlumdur ki, gözün torlu qişasında olan qanqlioz hüceyrələrin aksonları görmə sinirinə başlanğıc verir. Onlar reseptorlardan siqnalları qəbul edir və beyin qabığına ötürür. Sağ və sol görmə sinirləri kəllənin əsasında birləşərək çarpaz əmələ gətirir. Hər iki torlu qişanın içəri yarısından gələn sinir lifləri çarpazlaşaraq əks tərəflərə keçir və əks tərəfdəki torlu qişanın bayır yarısından gələn sinir lifləri ilə birlikdə görmə yollarını əmələ gətirir. Buradan aydın olur ki, hər iki gözün torlu qişasının sol yarısından gələn informasiyalar beyin qabığının sol yarımkürəsinə, sağ yarısından gələn informasiyalar isə müvafiq olaraq beyin qabığının sağ yarımkürəsinə proyeksiya olunur (bax: A.M.Məmmədov, K.V.Sudakov. Normal fiziologiya. Bakı, "Təbib", 2012. II cild, s. 233-234; К.В. Судаков, Нормальная физиология, М.: Мед.инф.агентсво, 2006. с.525-526, 2015. с. 561; Бахшиева З.Т., Рустам-заде А.Ш., Алиев А.Х., Гасанова Г.А. Нормальная физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 443; Физиология человека. Атлас динамических схем./Под ред. акад.РАМН К.В.Судакова. М.: ГЭОТАР-Медиа, 2009, с. 291).

Namizədlərin 30,36%-nin seçdiyi B cavab variantında (“yalnız sağ gözdən”) informasiyalar həm sağ, həm də sol yarımkürələrə proyeksiya olunur. Namizədlərin 28,37%-nin seçdiyi A cavab variantında (“hər iki gözün sağ yarısından”) isə informasiyalar sağ yarımkürələrə proyeksiya olunur. “Hər iki gözün içəri yarısından” (13,10% namizədin seçdiyi C cavab variantı) gələn informasiyalar, müvafiq olaraq, əks tərəfdəki yarımkürələrə, “hər iki gözün bayır yarısından” (8,13% namizədin seçdiyi D cavab variantı) isə müvafiq tərəfdəki yarımkürələrə çatdırılır.

Patologiya bloku üzrə ***patoloji anatomiya*** fənnində “İnfeksion xəstəliklər (ümumi hissə). Virus infeksiyaları və rikketsiozlar”, “Sinir sisteminin xəstəlikləri”, “Tənəffüs sistemi xəstəlikləri. Peşə xəstəlikləri”, “Qaraciyər xəstəlikləri. Öd yolları xəstəlikləri”, “Xüsusi patologiya. Ümumi hissə. Ürək-damar sistemi xəstəlikləri”, “Sepsis”, “Hüceyrə ölümü (nekroz və apoptoz). Ölüm, meyit əlamətləri”, “İltihab”, “Qan sistemi xəstəlikləri” “Böyrək xəstəlikləri”, “Parenximatoz, mezenximal və qarışıq distrofiyalar (degenerasiya)” və “Şişlər” bölmələri üzrə bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir.

Müalicə işi, pediatriya istiqaməti üzrə namizədlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 72 saylı test tapşırığı

Sirinqoma zamanı mikroskopik olaraq aşkar edilir:

A) ortası qan damarları və birləşdirici toxumadan, ətrafı yastı epiteldən ibarət məməciklər

B) çarpazlaşan iyəbənzər hüceyrə dəstələri

C) təkqatlı prizmatik epitellə örtülmüş iri kistalar

D) ikiqat epitellə örtülmüş xırda kistalar

E) birləşdirici toxuma arakəsmələri ilə ayrılmış solid strukturlar

Namizədlərin 9,13%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı “Şişlər” bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (doğru cavab: D).

Şiş xəstəliklərinin diaqnostikasında patomorfoloji müayinə mühüm əhəmiyyət kəsb edir. Müxtəlif toxumalardan inkişaf edən şişlər (xüsusilə də xoşxassəli şişlər) mikroskopik olaraq həmin toxumanın histoloji quruluşunu xatırladır.

Sirinqoma tər vəzilərinin tez-tez rast gəlinən şişi olub, adətən çoxsaylı olur, üzdə, xüsusilə də kirpiklər nahiyəsində simmetrik yerləşir, az hallarda boyunda, döş qəfəsində, qarında və s. inkişaf edir. Şişin rəngi tünd çəhrayı rəngdən dərinin normal rənginə qədər dəyişir, subyektiv hissiyyat adətən olmur, azacıq qaşıntı qeyd edilə bilər. Şiş dermanın yuxarı və orta qatlarında yerləşir, iki qat epitel hüceyrələri ilə örtülmüş çoxsaylı xırda kistalardan təşkil olunur (bazal membrana söykənən, yastılaşmış tünd nüvəli hüceyrələr və kistanın mənfəzinə baxan daha parlaq, kubabənzər hüceyrələr).

Namizədlərin 47,42%-i doğru cavab kimi seçdiyi A cavab variantında təsvir olunmuş mikroskopik mənzərə epitel toxumasının xoşxassəli şişi olan papilloma üçün səciyyəvidir. Namizədlərin 17,26%-i C, 16,07%-i E cavab variantlarını doğru cavab kimi seçmişdir. Lakin təkqatlı prizmatik epitellə örtülmüş iri kistalar yumurtalığın sistadenoması, birləşdirici toxuma arakəsmələri ilə ayrılmış solid strukturlar isə medulyar və ya solid xərçəng zamanı müşahidə olunan morfoloji əlamətlərdir (bax: Həsənov Ə.B. Patoloji anatomiya. Dərslik. Bakı: Elm, 2003, s. 191; Həsənov Ə.B., Məmmədov N.R. Patoloji anatomiya (rezidenturaya hazırlaşanlar üçün vəsait). DİM, Bakı: Print House İndigo, 2022, s. 137).

Test tapşırıqlarının statistik təhlili göstərir ki, namizədlərin patoloji anatomiya üzrə keçilən materialların mənimsənilməsində çətinlik çəkmələrinin bir səbəbi də onların toxumaların normal anatomik-histoloji quruluşu barədə biliklərinin kifayət qədər olmaması ilə əlaqədardır. Bu biliklərin olmaması patomorfoloji dəyişikliklərə məruz qalmış toxumaların normal toxumalardan fərqləndirilməsini, eləcə də müxtəlif toxumalarda patoloji dəyişikliklərin xüsusiyyətlərinin nədən ibarət olması barədə nəticə çıxarılmasını olduqca çətinləşdirir. Buna görə də rezidenturaya qəbul imtahanlarına hazırlaşarkən ayrı-ayrı tibb fənləri üzrə biliklərin qazanılması zəruridir.

Patoloji fiziologiya fənnində isə ““Parenximatoz, mezenximal və qarışıq distrofiyalar (degenerasiya)”, “İltihab”, “Toxuma inkişafının patologiyası. Şişlər”, “Yağ mübadiləsinin pozulması”, “Tipik patoloji proseslər. Hüceyrə zədələnməsi”, “Allergiya”, “Qaraciyərin patofiziogiyası”, “Tənəffüs sisteminin patofiziologiyası”, “Koma və kollaps”, “Turşu-qələvi müvazinətinin pozulması”, “Endokrin sisteminin patofiziologiyası”, “Qanın formalı elementlərinin patologiyası” və “Sinir sisteminin patofiziologiyası” mövzuları üzrə bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir.

Aparılmış elmi-metodik təhlil zamanı aşkar olunmuşdur ki, müalicə işi, pediatriya istiqaməti üzrə "Allergiya" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında namizədlər çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 78 saylı test tapşırığı

Patogenezinin əsasını IV tip allergik reaksiyalar təşkil edir:

A) pollinozun B) *myasthenia gravis*-in C) Verlhof xəstəliyinin
D) I tip şəkərli diabetin E) serum xəstəliyinin

Namizədlərin yalnız 24,21%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Allergiya"bölməsinə aid olub, orta çətinlik dərəcəsinə malikdir (doğru cavab: D).

Gell və *Kumbs* tərəfindən verilən patogenetik təsnifata görə allergik reaksiyalar atopik, sitotoksik, immunkompleks və ləng gedişli hiperhəssaslıq reaksiyalarına bölünür. Bu reaksiyaların hər birinin gedişində immunoloji, patokimyəvi və patofizioloji mərhələlər ayırd edilir. Buna baxmayaraq, onlar bir-birindən bir sıra xüsusiyyətlərinə görə fərqlənirlər. I tip şəkərli diabetin inkişafının əsasını IV tip allergik reaksiyalar, yəni ləng gedişli hiperhəssaslıq reaksiyaları təşkil edir. Bu reaksiyaların əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, reaksiyalarda anticisimlər deyil, allergenə qarşı spesifik reseptoru olan effektor T-limfositlər iştirak edir. Sensibilizə olunmuş T-limfositlər limfokinlər sintez edərək, hüceyrələrin zədələnməsinə səbəb olur.

Namizədlərin 12,50%-i tərəfindən seçilmiş A cavab variantında göstərilən pollinoz I tip (atopik) allergik reaksiyalara aiddir. Əsas allergeni bitki tozcuqları hesab edilən pollinoz zamanı immunoloji mərhələdə yüksək sitofilliyə malik, yəni tosqun hüceyrələrin və bazofillərin səthinə fiksə olunan IgE sinifi anticisimlər sintez olunur. Sensibilizə olunmuş orqanizmə allergenin təkrarən daxil olması fonunda yaranan Ag+Ac kompleksi isə tosqun hüceyrələrin deqranulyasiyası və mediatorların azad olması ilə nəticələnir. Mediatorların təsiri nəticəsində tənəffüs yollarında və gözün konyuktivasında iltihabi proses inkişaf edir.

Namizədlərin, müvafiq olaraq, 21,63%-i və 20,44%-i tərəfindən seçilmiş B və C cavab variantlarında göstərilən *myasthenia gravis* və Verlhof xəstəliklərinin patogenezinin əsasını II tip (sitotoksik) allergik reaksiyalar təşkil edir. Atopik reaksiyalardan fərqli olaraq, sitotoksik reaksiyalarda zədələyici amillərin təsirindən orqanizmin normal hüceyrələri antigen xüsusiyyəti əldə edir. Bu zaman əmələ gələn IgG_1, IgG_2, IgG_3 və IgM sinfindən olan anticisimlər komplement sistemini klassik yolla fəallaşdıraraq, hədəf hüceyrələri lizisə uğradır (bax: Əliyev S.C., Əliyev M.X. Patoloji fiziologiya. Bakı: Təbib, 2015, I hissə s.385 ; Robbins, Kumar V., Abdul K.Abbas, N.Fausto, Ricard N.Mitchell. Basic Pathology. 8-th edition. 2007, s. 129; Əliyev S.C., Əliyev M.X., Əliyeva C,T., Pənahova S.R. /dərs vəsaiti. DİM, Bakı: Print House Poliqrafaz, 2020, s.166; Алиев С.ДЖ., Алиев М.Х., Панахова С.Р., Алиева Дж.Т. Патологическая физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, s. 171).

Namizədlərin 20,24%-i tərəfindən seçilmiş E cavab variantında qeyd olunan serum xəstəliyi III tip (immunkompleks) reaksiyalar əsasında inkişaf edir. III tip reaksiyalar digər reaksiyalardan onunla fərqlənir ki, bu reaksiyaların inkişafı dövr edən immun komplekslərlə əlaqədardır və bu zaman presipitasiya edən anticisimlər əmələ gəlir. İmmunkompleks reaksiyalarda həm I, həm də II tip allergik reaksiyaların mediatorları yaranır.

Mikrobiologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ümumi və xüsusi mikrobiologiya, xüsusi virusologiya, tibbi mikologiya, tibbi parazitologiya, eləcə də klinik mikrobiologiya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlamağa imkan vermişdir. Test tapşırıqları "Mikroorqanizmlərin ekologiyası", "Sidik-cinsi yolların infeksiyalarının mikrobiologiyası və diaqnostika prinsipləri", "İnfeksion xəstəliklərin kimyəvi terapiyası və profilaktikası", "DNT tərkibli viruslar", "Patogen rikketsiyalar. Patogen mikoplazmalar", "Tibbi mikologiya", "İmmunologiyanın əsasları", "Fermentləşdirməyən qram mənfi aerob çöplər və kokobasillər. Hemoqlobinofil və oxşar bakteriyalar", "Aerob və fakultativ-anaerob qram müsbət çöpvari bakteriyalar", "RNT tərkibli viruslar", "Tənəffüs yolları infeksiyalarının mikrobiologiyası və diaqnostika prinsipləri", "Mikroorqanizmlərin fiziologiyası", "Patogen və şərti-patogen mikobakteriyalar. Aktinomisetlər", "Patogen və şərti patogen koklar" və "Patogen və şərti-patogen enterobakteriyalar" bölmələri üzrə bilik və bacarıqları yoxlamağa imkan vermişdir.

Təhlilə əsasən belə qənaətə gəlmək olar ki, namizədlər öz nəzəri biliklərini sistemləşdirməkdə və nəticədə test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkirlər. Müalicə işi, pediatriya istiqaməti üzrə biliklərin ümumiləşdirilməsini tələb edən test tapşırığının cavablandırılmasında namizədlər daha çox çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 29 saylı test tapşırığı

Qeyri-toksigen *Corynebacterium diphtheriae* ştammları toksin əmələ gətirmə xüsusiyyətini ..... vasitəsilə qazanır.

A) transformasiya B) transpozonlar C) konyuqasiya
D) bakteriofaqlar E) plazmidlər

Namizədlərin 19,05%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Aerob və fakultativ-anaerob qram müsbət çöpvari bakteriyalar" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə sadədir (doğru cavab: D).

Bütün *Corynebacterium diphtheriae* biovarları öz antigen xüsusiyyətlərinə və təsir mexanizminə görə eyni olan toksin əmələ gətirir. Lakin toksin əmələ gətirmə xüsusiyyətinə bütün *C. diphtheriae* ştammları malik deyil. Toksin əmələ gətirmə qabiliyyəti yalnız öz genomunda *tox*-gen daşıyan lizogen *C. diphtheriae* ştammları üçün xasdır. Bu genin qeyri-toksigen ştammlara mülayim bakteriofaqlar tərəfindən gətirilməsi toksin sintezini təmin edir. Belə ki, qeyri-toksigen ştammlar respirator traktda uzun müddət persistensiya etmək qabiliyyətinə baxmayaraq xəstəlik törətmir.

Namizədlərin 21,83%-i A cavab variantını doğru cavab kimi seçmişdir. Transformasiya donorun genetik materialının birbaşa resipiyent hüceyrəyə ötürülməsinə deyilir. Namizədlərin 20,83%-i B, 12,10%-i C, 25,79%-i E cavab variantlarını doğru cavab kimi seçmişdir. Transpozonlar miqrasiya edən DNT fraqmentləridir. Plazmidlər isə xromosomdan kənar DNT molekullarıdır. Həm transpozonlar, həm də plazmidlər vasitəsi ilə bir sıra bakteriyalar antibakterial preparatlara davamlılıq, toksin əmələ gətirmə və s. xassələr əldə edir. Məsələn, *Escherichia coli* tərəfindən kolisinlərin sintezi *Col*+-plazmidlərlə kodlaşdırılır. Konyuqasiya zamanı genetik material donordan resipiyentə hüceyrələrin bilavasitə təması vasitəsi ilə ötürülür (Qarayev Z.Ö., Qurbanov A.İ. Tibbi mikrobiologiya və immunologiya. Bakı: Təbib, 2010, s. 477; Qarayev Z.Ö., Bayramlı R.R. Tibbi mikrobiologiya, immunologiya və klinik mikrobiologiya. Təcrübə məşğələlərinə rəhbərlik. Bakı: Təbib, 2011, s. 349; Медицинская микробиология, вирусология и иммунология. /Под ред. А.А.Воробьева. М.: Мед.информ. агентство, 2004, с. 445; Jawetz, Melnick & Adelberg. Medical microbiology. 27th edition, 2016, p. 193).

Farmakologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ötən illərdə olduğu kimi farmakokinetika, farmakogenetika və xronofarmakologiya, qan sisteminə və həzm sistemi orqanlarının motor funksiyasına təsir göstərən dərman maddələri sahəsində, eləcə də dərman maddələrinin təsir mexanizminə dair namizədlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi daşıyır. Bu fənn üzrə təqdim olunmuş test tapşırıqları "Allergiyaəleyhinə dərman maddələri", "Peptid və aminturşu quruluşlu hormon preparatları", "Psixoanaleptiklər", "Neyrotrop maddələr", "Həzm sistemi orqanlarının sekretor fəaliyyətinə təsir göstərən dərman maddələri", "Farmakodinamika", "Onkoloji xəstəliklərin müalicəsində istifadə olunan dərman maddələri", "Vitamin və ferment preparatları", "Avtonom sinir sisteminə təsir göstərən dərman maddələri", "İltihabəleyhinə dərman maddələri", "Qan sisteminə təsir göstərən dərman maddələri" və "Ümumi reseptura" bölmələri üzrə bilik və bacarıqları yoxlamağa imkan verir.

Müalicə işi, pediatriya istiqaməti üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 47 saylı test tapşırığı

Dərman formaları üçün ***yanlış*** mülahizədir.

A) *Dragée* dozalanmış ofisinal bərk dərman formasıdır.

B) Bərk *emplastrum* yumşaq dərman formasıdır.

C) *Globulus* dozalanmayan bərk dərman formasıdır.

D) *Systemata therapeutica transcutanea* yumşaq dərman formasıdır.

E) Maye *emplastrum* yumşaq dərman formasıdır.

Namizədlərin 13,10%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Ümumi reseptura" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (doğru cavab: C).

Test tapşırığını doğru cavablandırmaq üçün dərman formalarının növləri haqqında biliklər tələb olunur. C cavab variantında göstərilmiş *Globulus* vaginal suppozitoriyaların növlərindən biridir və bərk dərman formalarına aid edilə bilməz.

A cavab variantında göstərilən drajelər hazır ofisinal dərman formalarına aiddir, çünki aptek şəraitində deyil, əczaçılıq zavodlarında mexanikləşdirilmiş istehsal şəraitində hazırlanır. Onlar bərk dərman formalarına aiddir və dozalanmış dərman formasıdır, çünki hər bir draje dərman maddəsinin dəqiq dozasına malikdir.

Namizədlər (müvafiq olaraq 51,79% və 12,90%) tərəfindən seçilən B və E cavab variantlarında plastırlar göstərilmişdir. Bərk və maye növlərinə bölünməsinə baxmayaraq, plastırlar yumşaq dərman formalarına

aiddir, çünki ilkin konsistensiyasından asılı olmayaraq dəriyə yaxıldıqdan sonra yumşaq elastik kütləyə çevrilirlər. Beləliklə, otaq temperaturunda bərk plastır sıx konsistensiyaya malikdir və bədən temperaturunda yumşalır, maye plastırlar, yaxud dəri yapışqanları isə dəridə elastik örtük yaradır.

D cavab variantı da doğru mülahizədir, belə ki, terapevtik transdermal sistemlər qəbul olunmuş təsnifata əsasən yumşaq dərman formalarına aiddir.

Qeyd etmək istərdik ki, tədris proqramına daxil olan dərs vəsaitlərdə (bax: Qəniyev M. M., Hüseynova F.D. Ümumi reseptura: Dərs vəsaiti. Bakı: Təbib, 2018, s. 136, 139) dərman maddələrinin formalarına dair ətraflı məlumat verilmişdir.

Biokimya fənni üzrə statik, dinamik və funksional biokimya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlayan test tapşırıqları təqdim edilmişdir. Cari ildə biokimya fənni üzrə "Zülalların kimyası və funksiyası", "Zülal mübadiləsi", "Vitaminlər", "Fermentlər", "Ağız suyunun və sümük toxumasının biokimyası", "Maddələr mübadiləsinin əsas qanunauyğunluqları. Enerji mübadiləsi", "Hormonlar ", "Karbohidratların kimyası və funksiyası", "Böyrəklərin biokimyası", "Lipidlərin kimyası və funksiyası", "Lipid mübadiləsi", "Karbohidrat mübadiləsi" və "Qaraciyərin biokimyası" mövzularını əhatə edən 13 test tapşırığı təqdim olunmuşdur. Namizədlər "Lipidlərin kimyası və funksiyası" bölməsinə aid olan test tapşırıqlarını (müalicə işi, pediatriya istiqaməti) doğru cavablandırmaqda çətinlik çəkmişlər.

Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 57 saylı test tapşırığı

Kardiolipinin natamam hidroliz məhsulları:

A) qliserin + 2 mol piy turşusu
B) qliserin + 2 mol piy turşusu + fosfat turşusu
C) sfinqozin + 2 mol piy turşusu + xolin
D) 1 mol fosfatid turşusu + doymuş piy turşusu
E) 2 mol fosfatid turşusu + qliserin

Namizədlərin 11,51%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı çətinlik dərəcəsinə görə sadədir (doğru cavab: E).

Kardiolipin tərkibinə görə mürəkkəb lipidlərə aiddir. Mürəkkəb lipidlər sadə lipidlərdən tərkibinə daxil olan komponentlərə görə fərqlənir. Onların tərkibində lipidlərə aid olmayan hidrofil xırdamolekullu maddələrin (fosfat turşusu, azot əsası, karbohidratlar) qalıqları olur. Buna görə də mürəkkəb lipidlər polyar, amfifil xassəyə malikdir və bioloji membranların tərkibinə daxil olaraq struktur funksiyaları yerinə yetirir. Mürəkkəb lipidlərə fosfo- və qlikolipidlər aiddir. Spirt komponentindən asılı olaraq fosfolipidlər qliserofosfolipidlərə və sfinqofosfolipidlərə bölünür.

Bütün qliserofosfolipidlərin ümumi struktur fraqmenti fosfatid turşusudur (diasilqliserinfosfat). Tərkibində olan 2 mol piy turşusu fosfolipidlərin spesifikliyini müəyyən edir: qliserinin birinci (α) karbon atomuna doymuş piy turşusu, ikincisinə (β) isə doymamış piy turşusu qalığı birləşir. Buna görə də fosfatid turşusu amfifil maddədir və iki hissədən – hidrofob (piy turşusu radikallarından) və hidrofil (fosfat turşusu qalığından) hissələrdən ibarətdir. Fosfat turşusu müxtəlif əsasların hidroksil qrupları ilə (azotsuz – inozitol, qliserin, azotlu – serin, etanolamin, xolin) fosfoefir rabitə əmələ gətirir. Ən geniş yayılan növləri fosfatidilserin, fosfatidiletanolamin, fosfatidilxolin bir-birinə çevrilə bilir, çünki onlar yalnız azot əsasları ilə fərqlənir.

Qliserofosfolipidlərin bir qrupunda qliserinin C_1 atomunda doymuş piy turşusu doymamış spirtlə əvəzlənir. Bunlara plazmalogenlər deyilir. Onurğalıların ürək toxuması bu lipidlərlə zəngindir. Beyin və əzələ toxumasının fosfolipidlərinin 10%-ə qədəri plazmalogenlərin payına düşür.

Fosfolipidlərdə qliserin də polyar qrup yarada bilir (fofatidilqliserinlər). Bu fosfolipidin törəməsi kardiolipindir. Kardiolipin 3 qliserin, 4 piy turşusu və 2 fosfat turşusu qalığından (2 mol fosfatid turşusu və qliserin) ibarətdir. Onun tam hidrolizi zamanı bu qalıqlar, natamam hidrolizindən isə 2 fosfatid turşusu və qliserin əmələ gəlir.

Kardiolipin, əsasən, mitoxondrilərin daxili membranında yerləşir və tənəffüs komplekslərinin funksiyalarının yerinə yetirilməsində zəruridir.

Namizədlərin 37,90%-nin seçdiyi B cavab variantı fosfatid turşusunun tərkibini göstərir; 20,04%-nin seçdiyi A cavab variantında verilmiş komponentlər diasilqliserin molekulunu təşkil edir. 18,65% namizədlərin seçdiyi C cavab variantı da (sfinqozin + 2 mol piy turşusu + xolin) fosfat turşusu qalığı olmadığı üçün yanlışdır (İslamzadə F.İ., Əfəndiyev A.M., İslamzadə F.Q. İnsan biokimyasının əsasları: Dərslik, I cild, Bakı: Müəllim, 2015, s. 87-88; Qarayev A.N. Bioloji kimya. Rezidenturaya hazırlaşanlar üçün vəsait. TQDK – "Abituriyent", Bakı: 2016, s. 39; Гасанова Ш.И., Азизова Г.И. Биологическая химия. /Пособие для поступающих в резидентуру. DİM , Print hous Poliqrafaz, 2019, c. 92-93).

Təhlillər göstərmişdir ki, namizədlər açıq formalı test tapşırıqlarının həllində hər il olduğu kimi cari ildə də çətinlik çəkmişlər. Buna misal olaraq (müalicə işi, pediatriya istiqaməti), patologiya bloku üzrə ***patoloji fiziologiya*** fənnindən təqdim olunmuş və namizədlərin cavab verməkdə çətinlik çəkdikləri uyğunluğun müəyyən edilməsini və ***patoloji fiziologiya*** fənnindən seçim tələb edən test tapşırıqlarının şərhini təqdim edirik.

B variantı, 82 saylı (açıq tipli) test tapşırığı

Respirator asidoz zamanı uzunmüddətli kompensator mexanizmlər:

1. Böyrəklərdə asidogenezin aktivləşməsi
2. Böyrəklərdə ammoniogenezin ləngiməsi
3. Böyrəklərdə ammoniogenezin sürətlənməsi
4. NaH_2PO_4 sekresiyasının artması
5. Na^+ ionlarının reabsorbsiyasının azalması
6. K^+ ionlarının orqanizmdən xaric olmasının artması

Namizədlərin 4,56%-i tərəfindən doğru cavablandırmış açıq tipli bu test tapşırığı "Turşu-qələvi müvazinətinin pozulması" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (doğru cavab: 1, 3, 4***)***.

Orqanizmdə turşu-qələvi müvazinətinin pozulması zamanı kompensasiya reaksiyaları işə düşür. Bu reaksiyalar sürətli və uzunmüddətli olmaqla iki qrupa bölünür. Sürətli kompensasiya reaksiyaları qanın bufer sistemləri, uzunmüddətli reaksiyalar isə böyrəklər, qaraciyər və s. vasitəsilə reallaşır. Böyrəklərin kompensator funksiyası asidogenez və ammoniogenez prosesləri ilə əlaqədardır. Arterial qanda pCO_2-nin artması zamanı asidogenezin intensivliyi artır, çoxlu miqdarda H^+ ionları sekresiya olunur, hidrokarbonatlar isə reabsorbsiyaya uğrayır. Distal qıvrım borucuqlarda asidogenezin sürətlənməsi isə hidrokarbonatların əmələ gəlməsinin artmasını təmin edir.

Ammoniogenez dedikdə epitel hüceyrələrində ammonyakın və ammonium duzlarının əmələ gəlməsi nəzərdə tutulur. Ammonyak aminturşuların parçalanması nəticəsində əmələ gəlir və hidrogen ionu ilə birləşərək, ammonium ionuna çevrilir. Hidrogen ionlarının sekresiyası natrium və bikarbonat ionlarının reabsorbsiyasına şərait yaradır. Hidrogen bikarbonat ionlarını, ammonium ionları isə natriumu birləşmələrin tərkibindən çıxarır. Nəticədə natrium bikarbonat böyrək borucuqlarından geriyə sorulur, orqanizmin qələvi ehtiyatı artır, turş xassəli maddələr sidiklə orqanizmdən xaric edilir.

Böyrək borucuqlarının distal hissəsində fosfat turşusunun qələvi reaksiya verən ikiəvəzli duzu (Na_2HPO_4) karbonat turşusu ilə reaksiyaya girərək, birəvəzli fosfat duzuna (NaH_2PO_4) çevrilir. Na^+ kationu bikarbonat ionu ilə birləşərək reabsorbsiyaya uğrayır, turş xassəli natrium dihidrofosfat (NaH_2PO_4) isə sidiklə orqanizmdən xaric edilir. Beləliklə, böyrəklər natrium itkisinin qarşısını alır və asidoz şəraitində qanın qələvi ehtiyatını artırır.

Mövzu ilə əlaqədar "Patoloji fiziologiya" fənni üzrə dərslik və dərs vəsaitlərində kifayət qədər ətraflı məlumat verilməsinə baxmayaraq, (bax: Əliyev S.C., Əliyev M.X., Əliyeva C,T., Pənahova S.R. /dərs vəsaiti. DİM, Bakı: Print House Poliqrafaz, 2020, s. 222, 426; Алиев С.ДЖ., Алиев М.Х., Панахова С.Р., Алиева Дж.Т. Патологическая физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, s. 226, 428; Əliyev S.C., Əliyev M.X. Patoloji fiziologiya. Bakı: Təbib, 2015, I hissə s. 482, 486; Новицкий В.В., Гольдберг Е.Д., Уразова О.И. Патофизиология. М.: ГЭОТАР-Медиа, 2010, том I, s. 75), namizədlərin bu tapşırığı cavablandırmaqda çətinlik çəkmələri isə onların tədris zamanı əldə etdikləri bilikləri ümumiləşdirmək bacarığının kifayət qədər olmaması ilə bağlıdır.

İnsan fiziologiyası fənnindən təqdim olunmuş və namizədlərin cavab verməkdə çətinlik çəkdikləri uyğunluğun müəyyən edilməsini tələb edən test tapşırıqlarının şərhini təqdim edirik.

B variantı, 99 saylı (açıq tipli) test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Ürək fəaliyyətini gücləndirir	a. Sinokarotid zonada təzyiqin artması
2. Ürək fəaliyyətini ləngidir	b. Atropin
	c. Hiperkaliemiya
	d. Peritonun qıcıqlanması
	e. Qlükaqon

Namizədlərin 7,34%-i tərəfindən doğru cavablandırılmış açıq formalı bu test tapşırığı "Ürək fəaliyyətinin fiziologiyası" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir. Test tapşırığının doğru cavablandırılması üçün "Ürək fəaliyyətinin tənzimi" mövzusu üzrə əldə olunmuş biliklərin tətbiqi tələb olunur (doğru cavab: 1 – b, e; 2 – a, c, d).

Məlumdur ki, qan təzyiqinin özünütənzim mexanizmi kimi sinokarotid zonada və aorta qövsündə təzyiqin artması həmin damarların divarlarında yerləşən baroreseptorların oyanmasına səbəb olur ki, bu da azan sinir mərkəzini oyadaraq ürək fəaliyyətinin azalmasına səbəb olur. Peritonun güclü qıcıqlandırılması da ürək fəaliyyətinin kəskin azalması və hətta dayanması ilə nəticələnə bilər ki, bu Holts refleksi adlanır. Həmçinin kalium ionları əksər oyanan toxumalarda olduğu kimi, kardiomiositlərdə də hiperpolyarizasiya yaradaraq oyanma qabiliyyətini zəiflədir. Odur ki, hiperkaliemiya zamanı ürək fəaliyyəti azalır. Məhz buna görədir ki, ürək fəaliyyəti normadan çox olduqda onu azaltmaq məqsədi ilə kalium preparatlarından istifadə olunur (A.M.Məmmədov, K.V.Sudakov. Normal fiziologiya. Bakı, "Təbib", 2012. II cild, s. 24-31; Физиология человека. /Под ред. В.М.Покровского, Г.Ф.Коротько. М.: Медицина, 2003, с. 300-302; К.В.Судаков. Нормальная физиология. М.: 2006, с.333, 336; Бахшиева З.Т., Рустам-заде А.Ш., Алиев А.Х., Гасанова Г.А. Нормальная физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 216-217).

Digər tərəfdən məlumdur ki, normada ürək fəaliyyəti azan sinirin daimi toniki ləngidici təsiri altında olur. Odur ki, azan sinirin təsiri kəsildikdə ürək fəaliyyəti güclənir. Atropin spesifik M-xolinoblokator olaraq azan sinirin toniki tormozlayıcı təsirini aradan qaldırdığına görə ürək fəaliyyətinin artmasına səbəb olur. Həmçinin qanda qlükozanın artması ürək fəaliyyətini gücləndirir. Odur ki, qlükokortikoidlər kimi qlükaqon da ürək fəaliyyətini artırır.

Statistik təhlil göstərmişdir ki, namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri yuxarıda şərhini təqdim etdiyimiz test tapşırıqlarını imtahanda ən yüksək bal toplamış namizədlər doğru cavablandırmışlar.

Proqramı tam mənimsəmiş, güclü məntiqi təfəkkürə malik namizədlərin hazırlıq səviyyələrinin yoxlanılmasına, müstəqil araşdırma bacarıqlarının aşkara çıxarılmasına və qiymətləndirilməsinə imkan verən, seçim formalı və uyğunluğun müəyyən edilməsini tələb edən açıq tipli test tapşırıqlarına DİM-in nəşr etdiyi vəsaitlərdə kifayət qədər yer ayrılmasına baxmayaraq, təəssüf ki, namizədlər cari ildə də belə test tapşırıqlarının həllində çətinlik çəkmişlər. Əslində, açıq tipli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlar çoxseçimli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlardan mahiyyətcə fərqlənmir. Kifayət qədər biliyə və məntiqi təfəkkürə malik olan namizədlər bu tapşırıqlara asanlıqla cavab verə bilərlər. Namizədlərin bilik, bacarıq və vərdişlərində olan çatışmazlıqların bir qismi onların praktikyönlü biliyinin dərin olmaması ilə bağlıdır ki, bu da əsasən tədris prosesində həmin istiqamətə az diqqət yetirilməsinin göstəricisidir.

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, rezidenturaya qəbul imtahanlarında uğur qazanmaq üçün namizədlərdən dərslikdəki materialları öyrənməklə yanaşı, həm də ümumiləşdirmə aparmaq, tədris zamanı mənimsədikləri bilikləri sistemləşdirmək və tətbiq etmək bacarığını da inkişaf etdirmək tələb olunur. Əsas (baza ali) tibb təhsili verən ali təhsil müəssisələrində isə tələbələrin məntiqi düşünmə, nəzəri bilikləri tətbiqetmə bacarıqlarının inkişaf etdirilməsinə diqqət artırılmalı, təhsilin səviyyəsi müasir tələblərə uyğunlaşdırılmalı və daha çox tətbiqyönlü olmalı, eləcə də bu tələblərə cavab verən dərsliklər və dərs vəsaitləri hazırlanmalıdır. DİM rezidenturaya qəbul imtahanına hazırlaşanlara elmi-metodik kömək göstərilməsini həmişə diqqət mərkəzində saxlayır. Belə ki, ötən illərdə baza fənlərindən rezidenturaya qəbul proqramları əsasında Azərbaycan və rus dillərində elmi-metodik vəsaitlər nəşr olunaraq namizədlərin istifadəsinə verilmişdir. Qeyd etmək istəyirik ki, hazırlanmış elmi-metodik vəsaitlər Azərbaycan Tibb Universitetinin Elmi Şurasında müzakirə edilərək dərs vəsaiti kimi istifadəyə tövsiyə olunmuşdur; rus dilində tərtib olunmuş vəsaitlər isə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin müvafiq kafedralarında müzakirə olunmuş və onlara mütəxəssislər tərəfindən müsbət rəy verilmişdir.

Ümidvarıq ki, təqdim olunan vəsaitlər həm rezidenturaya hazırlaşan namizədlər, həm də praktik fəaliyyətlə məşğul olan həkim-mütəxəssislər üçün faydalı olacaqdır.

4. ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU

4.1 Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu qaydaları"na uyğun olaraq martın 4-dən 17-dək internet vasitəsilə aparılıb. Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizebak/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurub və təsdiq ediblər (etdiriblər). Müsabiqədə iştirak ödənişli olub. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamına əsasən orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olub. Bundan əlavə, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2635 nömrəli Sərəncamına əsasən aşağıdakı kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının da (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına təmin edilib:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3. Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2, 1.3 və 1.4 -ci yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq Sənəd Qəbulu Komissiyalarında (SQK) təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni DİM-in internet saytında ictimaiyyətə təqdim olunub və ərizə qəbulu ilə bağlı bütün digər lazımi məlumatlar da müntəzəm və operativ şəkildə saytda yerləşdirilib.

Azərbaycanda təhsil almış Azərbaycan Respublikasının vətəndaşları (1.1, 1.2, 1.3 və 1.4-cü bəndlərdə göstərilən abituriyentlər istisna olmaqla) tələb olunan sənədləri təqdim etməklə elektron ərizələrini aşağıdakı SQK-larda təsdiq etdiriblər:

Bakı şəhərində:

DİM-in Bakı şəhərində yerləşən inzibati binaları:

- *Bakı ş, Nəsimi r, Abdulvahab Salamzadə küç., 28*
- *Bakı ş, Nərimanov r, Koroğlu Rəhimov küç., 108A*

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu.	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu.	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu.	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu.	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu.	*DİM-in Regional Bölməsi.*

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi ali təhsil müəssisələrinə V ixtisas qrupu üzrə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında toplanılan ballar əsasında aparılıb. Tam orta təhsil səviyyəsini əvvəlki illərdə bitirən və təhsil haqqında sənəd alan, yaxud tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının hüdudlarından kənarda bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün Azərbaycan və ya rus dili, riyaziyyat və xarici dil fənlərindən qəbul imtahanı veriblər. İmtahan aprelin 3-də Bakı, Şəki, Lənkəran, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində, Abşeron, Qazax, Şəmkir, Bərdə, Sabirabad, Göyçay, Kürdəmir, Salyan, Cəlilabad, Xaçmaz rayonlarında və Naxçıvan MR-də keçirilmişdir.

2021-ci ildə keçirilmiş qəbul (buraxılış) imtahanlarının nəticələri 2 il qüvvədə olduğundan, abituriyentlər cari il üzrə müsabiqə şərtlərini ödədikləri halda, həmin nəticə əsasında cari tədris ilində orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında keçirilən tələbə qəbulu üzrə müsabiqədə iştirak edə biliblər.

Tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (11-ci siniflər üzrə) tədris dilindən, riyaziyyat və xarici dil fənlərindən əldə etdikləri nəticələr əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.
- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər.
- Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər.

İmtahanda abituriyentlərə Azərbaycan (rus) dili fənnindən 30, riyaziyyat fənnindən 25 və xarici dil fənnindən 30 olmaqla 85 tapşırıq təqdim olunmuş, test tapşırıqlarının cavablandırılmasına 3 saat vaxt ayrılmışdı. İmtahan fənləri üzrə tapşırıqların strukturu aşağıdakı kimi olmuşdur:

- ***Xarici dil***
  - Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 3 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq;
  - Qapalı tipli 16 tapşırıq;
  - Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq; qapalı tipli 4 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq.
- ***Azərbaycan (rus) dili***
  - Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq;
  - Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq (cəmi 20 tapşırıq): qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 tapşırıq.
- ***Riyaziyyat***
  - Qapalı tipli 13 tapşırıq;
  - Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq;
  - Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq.

Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan veriblər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Bu imtahanda abituriyentlərə fənn kurikulumu əsasında hazırlanmış 27-si qapalı tipli və 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli olmaqla 30 test tapşırığı təqdim edilib. Tapşırıqların yerinə yetirilməsinə 1 saat 30 dəqiqə vaxt ayrılıb. Qapalı tipli tapşırıqlar üzrə hər düzgün cavab 1 balla qiymətləndirilib. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar isə markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır.

Bu il Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan iki dəfə - mayın 8-də və iyunun 12-də keçirilib.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri Azərbaycan dili (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, onların həmin nəticələri əsas götürülüb və "məqbul" almış hesab olunub. Həmin imtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunub və Azərbaycan dili (dövlət dili kimi) fənnindən yenidən imtahan veriblər.

2021-ci ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılıb.

İxtisas seçimi ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra aparılıb. İxtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili (rus dili) və riyaziyyat fənlərinin hər biri üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıb (xarici dil fənni üzrə bal məhdudiyyəti tətbiq edilmir). Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ixtisas seçimi ali təhsil müəssisələrinin boş qalan yerlərinə ixtisas seçimi ilə eyni vaxtda – sentyabrın 2-dən 7-dək internet vasitəsi ilə aparılıb. Abituriyentlərə eyni zamanda həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilib. Abituriyentlər elektron ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərib.

Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 40-dan az olmayan abituriyentlər buraxılıb (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir). "Xoreoqrafiya sənəti" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan az olmayan abituriyentlər iştirak ediblər (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir). Onlara xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslarla yanaşı, müsabiqə şərtlərini ödədikləri halda digər ixtisasların da kodlarını seçmək imkanı verilmişdi.

Sentyabrın 28-dən oktyabrın 2-dək tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunmuşdu. Müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının, digər abituriyentlər üçün keçirilmiş qəbul imtahanının nəticələrinə əsasən aparılmışdır. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində yalnız orta ixtisas təhsili müəssisələrinin 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərmişdir.

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 12471 tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 2190-ı özəl orta ixtisas təhsili müəssisələrinə (690 yer Bakı Biznes və Kooperasiya Kollecinə, 500 yer Odlar Yurdu Universitetinin "Odlar Yurdu" Kollecinə, 350 yer Bakı Avrasiya Kollecinə, 650 yer isə Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsinə) ayrılmışdı. Plan yerlərinin sayı ötən illə müqayisədə 5.42% (641 yer) artıb. Yerlərin 30.26%-i ödənişsiz, 69.74%-i isə ödənişli təhsil üçün ayrılıb. Ümumi plan yerlərinin 87.72%-i Azərbaycan, 3.21%-i rus, 9.08%-i isə Azərbaycan və rus bölmələri abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu.

Bu il 49 dövlət orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Ən çox plan yerləri 2 nömrəli Bakı Baza Tibb Kollecinə (680 yer), ən az isə Naxçıvan Musiqi Kollecinə (13 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.1.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (TAM ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	100	0	0	100	230	0	0	230	330
2	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	62	32	0	94	111	48	0	159	253
3	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	68	8	0	76	135	10	0	145	221
4	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	59	8	0	67	226	17	0	243	310
5	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	114	17	0	131	336	41	0	377	508
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	140	10	0	150	160	10	0	170	320
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	60	10	0	70	160	15	0	175	245
8	1 nömrəli Bakı Tibb Kolleci	20	0	166	186	0	0	314	314	500
9	2 nömrəli Bakı Baza Tibb Kolleci	64	0	190	254	111	0	315	426	680
10	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	13	4	0	17	11	0	0	11	28
11	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	62	0	0	62	58	0	0	58	120
12	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	32	32	0	0	49	49	81
13	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	35	35	0	0	10	10	45
14	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	40	0	0	40	175	0	0	175	215
15	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	50	0	0	50	240	0	0	240	290
16	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	59	0	0	59	146	0	0	146	205
17	Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci	30	0	0	30	15	0	0	15	45
18	Naxçıvan Tibb Kolleci	102	0	0	102	138	0	0	138	240

Cədvəl 4.1.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
19	Naxçıvan Musiqi Kolleci	0	0	0	0	13	0	0	13	13
20	Gəncə Tibb Kolleci	120	0	0	120	190	0	0	190	310
21	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	143	0	0	143	302	0	0	302	445
22	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	47	0	0	47	118	0	0	118	165
23	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	63	0	0	63	83	0	0	83	146
24	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	140	0	0	140	214	0	0	214	354
25	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	50	0	0	50	110	0	0	110	160
26	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	0	0	14	14	0	0	7	7	21
27	Quba Dövlət Sosial-İqtisadi Kolleci	18	0	0	18	32	0	0	32	50
28	Quba Tibb Kolleci	30	0	0	30	35	0	0	35	65
29	Şamaxı Dövlət Regional Kolleci	127	0	0	127	233	0	0	233	360
30	Mingəçevir Tibb Kolleci	110	0	0	110	160	0	0	160	270
31	Mingəçevir Turizm Kolleci	196	0	0	196	164	0	0	164	360
32	Şəki Tibb Kolleci	50	0	0	50	100	0	0	100	150
33	Şəki Dövlət Regional Kolleci	62	0	0	62	69	0	0	69	131
34	Şuşa Humanitar Kolleci	55	0	0	55	77	0	0	77	132
35	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	55	0	0	55	170	0	0	170	225
36	Ağdam Musiqi Kolleci	22	0	0	22	24	0	0	24	46
37	Ağdaş Dövlət Humanitar Kolleci	40	0	0	40	65	0	0	65	105
38	Ağcabədi Pedaqoji Kolleci	88	0	0	88	112	0	0	112	200
39	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	116	0	0	116	223	0	0	223	339
40	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	61	0	0	61	109	0	0	109	170
41	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	30	0	0	30	75	0	0	75	105
42	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	105	0	0	105	149	0	0	149	254
43	Lənkəran Tibb Kolleci	90	0	0	90	130	0	0	130	220
44	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	127	0	0	127	132	0	0	132	259
45	Astara Pedaqoji Kolleci	48	0	0	48	52	0	0	52	100
46	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	95	0	0	95	145	0	0	145	240
47	Saatlı Tibb Kolleci	30	0	0	30	30	0	0	30	60
48	Cəlilabad Tibb Kolleci	20	0	0	20	40	0	0	40	60
49	Masallı Dövlət Regional Kolleci	67	0	0	67	63	0	0	63	130
50	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	600	90	0	690	690
51	Odlar Yurdu Kolleci	0	0	0	0	500	0	0	500	500
52	Bakı Avrasiya Kolleci	0	0	0	0	350	0	0	350	350
53	Qərbi Kaspi Universiteti (orta ixtisas təhsili pilləsi)	0	0	0	0	570	80	0	650	650
	Cəmi	**3248**	**89**	**437**	**3774**	**7691**	**311**	**695**	**8697**	**12471**

Orta ixtisas təhsili müəssisələrinə qəbul üçün 77658 ərizə daxil olub, ixtisas seçimi mərhələsində isə 13143 abituriyent iştirak edib. Ötən illə müqayisədə cari ildə ixtisas seçimi mərhələsində iştirak edənlərin sayı 28.18% azalıb (5157 nəfər).

Sənəd verənlərin 48.64%-ni (37772 nəfər) oğlanlar, 51.36%-ni (39886 nəfər) qızlar, ixtisas seçimi mərhələsində iştirak edənlərin isə 35.65%-ni (4686 nəfər) oğlanlar, 64.35%-ni (8457 nəfər) qızlar təşkil edib. İxtisas seçimi mərhələsində daxil olmuş ərizələrin 95.91%-i Azərbaycan, 4.09%-i rus bölməsinə aid olub.

Dövlət orta ixtisas təhsili müəssisələrinin qəbul planı və abituriyent ərizələrinin sayının illər üzrə dinamikası 4.1.1 saylı şəkildəki diaqramlarda təqdim edilir. Şəkildən göründüyü kimi, 1993 və 1994-cü illərdə abituriyent ərizələrinin sayı plan yerlərinin sayından xeyli çox olub. Əslində, bu həmin illərdə abituriyentlərin orta ixtisas təhsili müəssisələrinə istəklərinin artmasının nəticəsi deyil, həmin təhsil müəssisələrinə qəbul imtahanlarının ali təhsil müəssisələri ilə birgə aparılmasının nəticəsi idi. O illərdə abituriyentlərə ali təhsil müəssisələri ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin də ixtisaslarını göstərmək imkanı verildiyindən, onlar əksər hallarda ərizələrində ilk yerlərdə ali təhsil müəssisələrinin, sonrakı yerlərdə isə orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını göstərirdilər. Nəticədə, onların böyük əksəriyyəti ali təhsil müəssisələrinə qəbul olduğundan orta ixtisas təhsili müəssisələrinin planı dolmurdu. Buna görə də bu təhsil pilləsi üzrə qəbul planının dolma faizi 1993-cü ildə cəmi 34.96%, 1994-cü ildə isə 52.79% təşkil etmişdi. Qeyd etmək lazımdır ki, orta ixtisas təhsili müəssisələrinə qəbulun ali təhsil müəssisələri ilə birgə aparıldığı illərdə yalnız orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını 1992-ci ildə 5466, 1993-cü ildə 848, 1994-cü ildə isə cəmi 454 nəfər abituriyent seçmişdi.

1995–1997-ci illərdə abituriyent ərizələrinin sayı qəbul planından az olmuş və planın yalnız 72-77%-ni təşkil etmişdi. 1998, 1999-cu illərdə bu fərq azalmış, 2000–2004-cü illərdə ərizələrin sayı qəbul planından bir qədər artıq olmuşdu. Bununla belə, ixtisaslar üzrə abituriyentlərin istəkləri qeyri-bərabər paylandığından bəzi ixtisaslarda yüksək müsabiqə vəziyyəti yaranmış, digərlərinə isə heç planın yarısı qədər də ərizə verilməmişdi. 2005, 2006, 2007, 2008, 2009 və 2010-cu illərdə, nəhayət, ərizələrin sayı plan yerlərinin sayını əhəmiyyətli dərəcədə (göstərilən illərə uyğun olaraq 2.3, 2.9, 3.9, 5.2, 4.5 və 3.5 dəfə) üstələmişdi. Lakin 2011-ci ildə müsabiqədə iştirak etmək üçün ümumi bala qoyulan tələb 50-dən 100-ə qaldırıldığı üçün abituriyentlərin ərizələrinin sayı əvvəlki ilə nəzərən azalmışdı. Son səkkiz ildə abituriyent ərizələrinin sayında kəskin artım müşahidə olunub. Bu orta ixtisas təhsili müəssisələrinə qəbulun buraxılış imtahanlarının nəticəsi əsasında aparılması (əvvəlki illərin məzunları müsabiqədə buraxılış imtahanı modelinə uyğun verdikləri imtahanın nəticəsi, cari ilin məzunları isə buraxılış imtahanlarında əldə etdikləri nəticə əsasında iştirak etmişlər) və cari ilin məzunları üçün müsabiqənin pulsuz olması ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, son yeddi ildə qəbul planı üzrə də artım həyata keçirilib. Xüsusilə 2018-ci ildə plan yerlərinin sayı 2017-ci illə müqayisədə birdən-birə 20.74% artmışdır. 2022-ci ildə də bu tendensiya davam etmiş və ötən illə müqayisədə plan yerləri 5.45% artmışdır.

QƏBUL PLANI VƏ ƏRİZƏLƏRİN* SAYI
(DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞSİZ VƏ ÖDƏNİŞLİ TƏHSİL ÜZRƏ)



Şəkil 4.1.1

* 2008-ci ildən etibarən ixtisas seçimi mərhələsində yalnız müsabiqə şərtlərini yerinə yetirən abituriyentlər iştirak edib.

Dövlət orta ixtisas təhsili müəssisələrinə ödənişli və ödənişsiz təhsil üzrə 1992–2022-ci illərin qəbul planlarının dinamikası 4.1.2 saylı şəkildəki diaqramda təqdim edilib. Bu təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul 1995-ci ildən aparıldığından diaqramda ondan əvvəlki illər üçün yalnız ödənişsiz təhsilin qəbul planı göstərilib.

Diaqramdan göründüyü kimi, 1995–2001-ci illər ərzində ödənişsiz təhsil üçün ayrılan plan yerləri sayca böyük üstünlüyə malik olub. Lakin 2002-ci ildən ödənişli və ödənişsiz təhsil üzrə qəbul planları, demək olar ki, bərabərləşdirilib. 2011-ci ildən isə artıq ödənişli təhsil üzrə qəbul planı üstünlüyə malik olub.

DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞSİZ VƏ ÖDƏNİŞLİ TƏHSİL ÜZRƏ QƏBUL PLANLARI



Şəkil 4.1.2

2022-ci ildə orta ixtisas təhsili müəssisələrinə qəbul üçün ayrılmış plan yerləri və ərizə vermiş abituriyentlərin sayı, təhsil bölmələri və ixtisaslar üzrə paylanma spektri, uyğun olaraq, 4.1.2, 4.1.3 və 4.1.4 saylı cədvəllərdə göstərilib.

Təqdim olunan ərizələrin paylanmasının təhlili göstərir ki, abituriyentlərin 84.06%-i texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları, 4.37%-i xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarını, 42.62%-i tibb ixtisaslarını, 8.67%-i kimya-texnoloji ixtisasları, 17.21%-i baytarlıq və aqronomluq ixtisaslarını, 36.75%-i humanitar ixtisasları və 2.69%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarını seçib. Qəbul planının bölgüsü isə belədir: plan yerlərinin 59.89%-i texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslara, 1.88%-i xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarına, 23.61%-i tibb ixtisaslarına, 0.68%-i kimya-texnoloji ixtisaslara, 3.38%-i baytarlıq və aqronomluq ixtisaslarına, 6.33%-i humanitar ixtisaslara və 4.22%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarına aiddir.

4.1.4 saylı cədvəldən göründüyü kimi, abituriyentlərin 21.85%-i (2872 nəfər) ərizələrində yalnız texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları, 9.50%-i (1249 nəfər) isə yalnız tibb ixtisaslarını qeyd edib.

Müsabiqə vəziyyəti 4.1.5 saylı cədvəldə təqdim edilib. Ən yüksək müsabiqə kimya-texnoloji ixtisasları üzrə olub. Bu ixtisaslar üzrə bir yerə, 3-4 abituriyent sənəd verib.

Ümumilikdə, bütün ixtisaslar üzrə müsabiqə vəziyyəti 1.054-ə bərabər olub, yəni bir yerə 1-2 abituriyent sənəd verib. Ötən illə müqayisədə müsabiqə vəziyyəti aşağı olub. Plan yerlərinin dolma faizi isə 95.59%-dan 89.01%-ə enib.

Cədvəl 4.1.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	İstiqamətlər	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Ümumi	Azərb. bölməsi	Rus Bölməsi	Ümumi
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	7113	356	0	7469	10550	498	11048
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	235	0	0	235	574	0	574
3	Tibb ixtisasları	1959	0	985	2944	5289	312	5601
4	Kimya-texnoloji ixtisaslar	85	0	0	85	1140	0	1140
5	Baytarlıq və aqronomluq	422	0	0	422	2262	0	2262
6	Humanitar ixtisaslar	750	40	0	790	4605	225	4830
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	375	4	147	526	341	13	354
	C Ə M İ	**10939**	**400**	**1132**	**12471**	**12605**	**538**	**13143**

Cədvəl 4.1.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İstiqamətlər	Azərb. bölməsi		Rus Bölməsi		Ümumi	
		ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	10550	83.70	498	92.57	11048	84.06
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	574	4.55	0	0.00	574	4.37
3	Tibb ixtisasları	5289	41.96	312	57.99	5601	42.62
4	Kimya-texnoloji ixtisaslar	1140	9.04	0	0.00	1140	8.67
5	Baytarlıq və aqronomluq	2262	17.95	0	0.00	2262	17.21
6	Humanitar ixtisaslar	4605	36.53	225	41.82	4830	36.75
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	341	2.71	13	2.42	354	2.69
	C Ə M İ	**12605**	**100.00**	**538**	**100.00**	**13143**	**100.00**

Cədvəl 4.1.4

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ƏRİZƏLƏRİN İXTİSASLAR ÜZRƏ PAYLANMASI

№	ABİTURİYENT ƏRİZƏLƏRİNİN BÖLGÜSÜ	ƏRİZƏLƏRİN	
		mütləq sayı	nisbi sayı, %
1	Yalnız texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslarının qeyd edildiyi ərizələr	2872	21.85
2	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarının qeyd edildiyi ərizələr	266	2.02
3	Yalnız tibb ixtisaslarının qeyd edildiyi ərizələr	1249	9.50
4	Yalnız kimya-texnoloji ixtisaslarının qeyd edildiyi ərizələr	1	0.01
5	Yalnız baytarlıq və aqronomluq ixtisaslarının qeyd edildiyi ərizələr	8	0.06
6	Yalnız humanitar ixtisaslarnın qeyd edildiyi ərizələr	27	0.21
7	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarının qeyd edildiyi ərizələr	259	1.97
8	Müxtəlif ixtisaslarının qeyd edildiyi ərizələr	8461	64.38
	Cəmi	**13143**	**100.00**

Cədvəl 4.1.5

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	İstiqamətlər	Azərb. bölməsi	Rus Bölməsi	Birgə	Ümumi
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	1.015	1.039		1.016
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	2.313			2.313
3	Tibb ixtisasları	1.630		2.047	1.584
4	Kimya-texnoloji ixtisaslar	3.237			3.237
5	Baytarlıq və aqronomluq	1.225			1.225
6	Humanitar ixtisaslar	2.102	1.830		2.089
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	0.665	0.750	0.762	0.664
	C Ə M İ	**1.035**	**1.005**	**1.880**	**1.054**

Orta ixtisas təhsili müəssisələrinin əyani şöbələrinin ixtisasları arasında ən yüksək müsabiqə texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar istiqaməti üzrə Tovuz Dövlət Sosial-İqtisadi Kollecinin "Meşə və park" (bir yerə 10.74 ərizə), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecin "Sosial iş" (bir yerə 10.70 ərizə), Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecinin "Qaynaq istehsalının metallurgiyası, texnologiyası və avadanlığı" (bir yerə 9.77 ərizə), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin "Kompüter sistemlərində proqram təminatı" (bir yerə 9.49 ərizə), xüsusi qabiliyyət tələb edən dizayn və idman ixtisasları istiqaməti üzrə Gəncə Dövlət Universitetinin nəzdində Regional Kolleci və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "Fiziki tərbiyə müəllimliyi" (bir yerə, müvafiq olaraq, 11.60, 6.97 ərizə), tibb ixtisasları istiqaməti üzrə Naxçıvan Tibb Kollecinin "Laboratoriya diaqnostikası" (bir yerə 11.32 ərizə), Mingəçevir Tibb Kollecinin "Əczaçılıq" (bir yerə 9.63 ərizə), kimya-texnoloji ixtisaslar istiqaməti üzrə Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kollecinin "Kimyəvi birləşmələrin keyfiyyətinə analitik nəzarət" (bir yerə 5.86 ərizə), baytarlıq və aqronomluq istiqaməti üzrə Tovuz Dövlət Sosial-İqtisadi Kollecinin "Baytarlıq" (bir yerə 6.55 ərizə), Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollecin "Baytarlıq" (bir yerə 5.40 ərizə), humanitar ixtisaslar

istiqaməti üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecin "Kinooperator sənəti" (bir yerə 11.08 ərizə), Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecinin "Məktəbəqədər təhsil" (bir yerə 10.93 ərizə), xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları istiqaməti üzrə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin "Dizayn (geyim dizaynı)" (bir yerə 12.89 ərizə), Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kollecinin "Dizayn (interyer)" (bir yerə 10.88 ərizə) ixtisaslarında olub.

Qəbul planı 20-dən az olmayan orta ixtisas təhsili müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisasları üzrə ən yüksək müsabiqə vəziyyəti Cəlilabad Tibb Kolleci (bir yerə 5.04 ərizə), Quba Tibb Kolleci (bir yerə 4.61 ərizə) və 1 nömrəli Bakı Tibb Kollecində (bir yerə 4.30 ərizə) yaranıb. Təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə isə ən yüksək müsabiqə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec (bir yerə 4.05 ərizə) və Quba Tibb Kollecində (bir yerə 3.63 ərizə) olub.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara 761 plan yeri ayrılmışdı. 928 abituriyent ixtisas seçimində bu ixtisasları öz ərizəsində göstərib. Qeyd edək ki, ötən il xüsusi qabiliyyət tələb edən ixtisasları öz ərizəsində 919 abituriyent göstərib.

Xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və həmin ixtisaslar üzrə ərizə vermiş abituriyentlərin sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 4.1.6

XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN SAYI

İXTİSAS	Qəbul planı	İxtisas seçimində ərizə vermiş abituriyentlərin sayı
Xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	235	574
Xüsusi qabiliyyət tələb edən musiqi və incəsənət ixtisasları	526	354

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulunun nəticələri haqqında məlumat sentyabrın 8-də DİM-in internet saytında yerləşdirilib və «Abituriyent» jurnalının 10-cu sayında dərc olunub. Qəbul olanların qeydiyyatından sonra boş qalan yerlərə əlavə yerləşdirmə aparılıb və nəticələr oktyabrın 3-də elan olunub. Müsabiqədə iştirak edənlərin 11100 nəfəri tələbə adını qazanıb. Bunlardan 3496 nəfəri dövlət təhsil müəssisələrinə ödənişsiz, 5756 nəfəri isə dövlət təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub. 1848 nəfər özəl orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Qəbul olanların 34.28%-i oğlan (3805 nəfər), 65.72%-i isə (7295 nəfər) qızdır.

Qəbul imtahanında iştirak edən və qəbul olan abituriyentlərin ballarının paylanma diaqramı 4.1.3 və 4.1.4 saylı şəkillərdə təqdim edilib. Xatırladaq ki, qəbul imtahanında toplanıla biləcək maksimal bal 300-ə bərabər idi.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.3

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.4

Qəbul imtahanında iştirak edən abituriyentlərin 18.18%-i 50-dən az, 8.22%-i isə 200-dən çox bal toplayıb.

Qəbul olan abituriyentlərin əksəriyyətinin (94.92%) imtahan nəticəsi 50-150 bal diapazonunda yerləşir. 50-100 bal intervalında nəticə göstərənlər qəbul olanların 56.83%-ni, 100-150 bal intervalında nəticə göstərənlər isə 38.09%-ni təşkil edib. İmtahan nəticələri ən yuxarı (200-231) bal diapazonunda nəticə göstərən abituriyentlərin nisbi sayı 0.22 faizdir. Qəbul olan abituriyentlərin yalnız 0.27%-i 41-50 bal diapazonunda nəticə göstərib.

İxtisas seçimində iştirak edənlərin 9046 nəfəri (68.83%) cari ilin məzunlarıdır. Onların 7667 nəfəri tələbə olmaq arzusunu reallaşdıra bilib. Beləliklə, cari il məzunlarının qəbulolma göstəricisi 84.76%, bütövlükdə orta ixtisas təhsili müəssisələrinə sənəd verənlərin qəbulolma göstəricisi isə 84.46% olub.

Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları üzrə plan yerlərinin 7113-ü Azərbaycan bölməsinin, 356-sı rus bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 10550, rus bölməsində 498 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 6227, rus bölməsində 308 nəfəri qəbul olub. Qəbul planı 87.49% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 91.31%, ödənişli əsaslarla olan ixtisaslarında isə 87.21% olub. Özəl təhsil müəssisələrinə qəbul planı 84.66% yerinə yetirilib.

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları üzrə plan yerlərinin hamısı (235 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 574 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin 232 nəfəri qəbul olub. Qəbul planı 98.72% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 100%, ödənişli ixtisaslarında isə 97.93% olub.

Tibb ixtisasları üzrə plan yerlərinin 1959-u Azərbaycan bölməsinin abituriyentləri üçün, 985-i hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Ərizələrində bu ixtisasları Azərbaycan bölməsində 5289, rus bölməsində isə 312 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 2843, rus bölməsində 76 nəfəri qəbul olub. Qəbul planı 99.15% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 99.65%, ödənişli əsaslarla olan ixtisaslarında isə 98.83% olub.

Kimya-texnoloji ixtisaslar üzrə plan yerlərinin hamısı (85 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 1140 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin 80 nəfəri qəbul olub. Qəbul planı 94.12% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 92.59%, ödənişli ixtisaslarında isə 94.83% olub.

Baytarlıq və aqronomluq ixtisasları üzrə plan yerlərinin hamısı (422 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 2262 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 264 nəfəri qəbul olub. Qəbul planı 62.56% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 68.89%, ödənişli ixtisaslarında isə 57.85% olub.

Humanitar ixtisaslar üzrə plan yerlərinin 750-si Azərbaycan, 40-ı rus bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 4605, rus bölməsində isə 225 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 700, rus bölməsində 38 nəfəri qəbul olub. Qəbul planı 93.42% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 98.34%, ödənişli əsaslarla olan ixtisaslarında isə 91.04% olub. Özəl təhsil müəssisələrində qəbul planı 86.67% yerinə yetirilib.

Xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları üzrə plan yerlərinin 375-i Azərbaycan, 4-ü rus, 147-si isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 341, rus bölməsində isə 13 abituriyent göstərmişdir. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 320, rus bölməsində 12 nəfəri qəbul olub. Qəbul planı 63.12% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 75.68%, ödənişli əsaslarla olan ixtisaslarında isə 50.20% olub. Özəl təhsil müəssisələrində qəbul planı 70.91% yerinə yetirilib.

Ötən illə müqayisədə plan yerlərinin yerinə yetirilmə faizi bütövlükdə 95.59%-dən 89.01%-ə qədər azalıb, qəbul olanların mütləq sayı isə 11308 nəfərdən 11100 nəfərədək (208 nəfər) azalıb. Müsabiqə və yerləşdirmənin nəticələri 4.1.7 – 4.1.9 saylı cədvəllərdə verilib.

Cədvəl 4.1.7

TAM ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Ümumi	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	7469	6227	308	6535	87.49
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	235	232	0	232	98.72
3	Tibb ixtisasları	2944	2843	76	2919	99.15
4	Kimya-texnoloji ixtisaslar	85	80	0	80	94.12
5	Baytarlıq və aqronomluq	422	264	0	264	62.56
6	Humanitar ixtisaslar	790	700	38	738	93.42
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	526	320	12	332	63.12
	C Ə M İ	**12471**	**10666**	**434**	**11100**	**89.01**

Cədvəl 4.1.8

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞSİZ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Ümumi	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	1806	1585	64	1649	91.31
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	90	90	0	90	100.00
3	Tibb ixtisasları	1147	1122	21	1143	99.65
4	Kimya-texnoloji ixtisaslar	27	25	0	25	92.59
5	Baytarlıq və aqronomluq	180	124	0	124	68.89
6	Humanitar ixtisaslar	302	280	17	297	98.34
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	222	161	7	168	75.68
	C Ə M İ	**3774**	**3387**	**109**	**3496**	**92.63**

Cədvəl 4.1.9

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞLİ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Ümumi	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	3603	3030	112	3142	87.21
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	145	142	0	142	97.93

Cədvəl 4.1.9 (ardı)

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Ümumi	
3	Tibb ixtisasları	1797	1721	55	1776	98.83
4	Kimya-texnoloji ixtisaslar	58	55	0	55	94.83
5	Baytarlıq və aqronomluq	242	140	0	140	57.85
6	Humanitar ixtisaslar	413	355	21	376	91.04
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	249	120	5	125	50.20
	C Ə M İ	**6507**	**5563**	**193**	**5756**	**88.46**

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanmış, onların əsasında balların paylanma histoqramları təyin edilmişdir. Hər iki bölmədə abituriyentlərin topladıqları balların paylanma histoqramı, demək olar ki, sağtərəfli asimmetriyaya malikdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 105.01, rus bölməsini təmsil edən isə 117.58 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 94.00-dən, rus bölməsində isə 110.55-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 298.3, rus bölməsində isə 287.9 olub.

Ərizə verən ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 45.30, riyaziyyatdan 26.16, ingilis dilindən 33.66, rus dilindən 33.34%-nə, rus bölməsində rus dilindən tapşırıqların 49.84, riyaziyyatdan 24.62, ingilis dilindən 43.12%-nə düzgün cavab verib. Qəbul olan ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 45.05, riyaziyyatdan 22.94, ingilis dilindən 29.12, rus dilindən 38.42%-nə, rus bölməsində rus dilindən tapşırıqların 46.91, riyaziyyatdan 20.84, ingilis dilindən 35.94%-nə düzgün cavab verib.

Yuxarıda da qeyd edildiyi kimi, orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində cari ilin məzunları buraxılış imtahanının, digərləri isə buraxılış imtahanının modelinə uyğun keçirilən qəbul imtahanının nəticələri əsasında iştirak ediblər. Müsabiqədə iştirak etmək üçün qoyulan tələblərə əsasən imtahanda iştirak edən 77230 abituriyentin 29.10%-i (22472 nəfər) Azərbaycan (rus) dili və riyaziyyat fənlərindən biri üzrə nisbi balı 10 baldan aşağı, daha 3.80%-nin (2932 nəfər) isə ümumi balı 50-dən az olduğu üçün ixtisas seçiminə buraxılmamışdır. Digər abituriyentlər isə minimal tələbi ödədiklərinə görə ixtisas seçimində iştirak etmək hüququ qazanıb və onlar imtahanda iştirak edənlərin 67.11%-ni təşkil edib.

Təhlilin nəticələri göstərir ki, ixtisas seçimində iştirak edənlərin çox az hissəsi (5.33%) həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə 40 bal və daha yüksək nəticə göstərib. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin isə 6.08%-i hər iki fənn üzrə 40 bal və daha yüksək nəticə göstərib. Göründüyü kimi, həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə ən azı 40 bal toplayanların qəbul olanlar arasındakı nisbi çəkisi ixtisas seçimində iştirak edənlər arasındakı nisbi çəkisinə nəzərən 1.14 dəfə çox olub.

İxtisas seçimində iştirak edən abituriyentlərin 4.06%-i xarici dil fənni üzrə 10-dan az bal toplayıb. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin arasında isə xarici dil fənni üzrə 10-dan az bal toplayanların nisbi çəkisi cəmi 3.37%-ə bərabər olub. Müsabiqədə iştirak etmək üçün xarici dil fənnindən toplanılan ballara heç bir məhdudiyyət qoyulmamışdır.

4.1.10 saylı cədvəldə orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerləri haqqında məlumat təqdim edilir. Cədvəldən göründüyü kimi, bu təhsil müəssisələrinin üçündə plan yerləri 100% dolub. 25 orta ixtisas təhsili müəssisəsində boş qalan yerlər 10 faizədək, iyirmi beşində isə 10%-dən yuxarıdır. Ağdam Musiqi Kollecinə tam orta təhsil bazasında tələbə qəbulunda plan yerlərinin 65.22%-i, Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinin 50%-i, Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kollecinin 42.86%-i, İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinin 41.25%-i boş qalıb.

Cari ildə tibb kollecləri arasında Quba Tibb Kolleci və Cəlilabad Tibb Kollecində plan yerlərinin hamısı dolub. Digər tibb kolleclərində isə plan yerlərinin dolma faizi 97%-dən yuxarı olub.

Cədvəl 4.1.10

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ BOŞ QALAN YERLƏR HAQQINDA MƏLUMAT

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
1	Ağdam Musiqi Kolleci	46	30	65.22
2	Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	28	14	50.00
3	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	21	9	42.86
4	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	240	99	41.25
5	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	254	93	36.61
6	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	170	62	36.47
7	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	45	16	35.56
8	Naxçıvan Musiqi Kolleci	13	4	30.77
9	Qərbi Kaspi Universiteti (orta ixtisas təhsili pilləsi)	650	191	29.38
10	Şuşa Humanitar Kolleci	132	34	25.76
11	Masallı Dövlət Regional Kolleci	130	33	25.38
12	Mingəçevir Turizm Kolleci	360	87	24.17
13	Astara Pedaqoji Kolleci	100	24	24.00
14	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	81	17	20.99
15	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	259	52	20.08
16	Şamaxı Dövlət Regional Kolleci	360	65	18.06
17	Ağcabədi Pedaqoji Kolleci	200	36	18.00
18	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	146	24	16.44
19	Bakı Biznes və Kooperasiya Kolleci	690	109	15.80
20	Şəki Dövlət Regional Kolleci	131	19	14.50
21	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	105	15	14.29
22	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	165	23	13.94
23	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	339	47	13.86
24	Quba Dövlət Sosial-İqtisadi Kolleci	50	6	12.00
25	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	225	23	10.22
26	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	120	12	10.00
27	Ağdaş Dövlət Humanitar Kolleci	105	10	9.52
28	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	205	13	6.34
29	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	445	27	6.07
30	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	215	13	6.05
31	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	245	14	5.71
32	Odlar Yurdu Kolleci	500	25	5.00
33	Bakı Avrasiya Kolleci	350	17	4.86
34	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	508	23	4.53
35	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	160	7	4.38
36	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	221	9	4.07
37	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	290	11	3.79
38	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	253	9	3.56
39	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	310	11	3.55
40	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	330	9	2.73
41	Naxçıvan Tibb Kolleci	240	5	2.08
42	Saatlı Tibb Kolleci	60	1	1.67
43	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	320	5	1.56
44	Lənkəran Tibb Kolleci	220	3	1.36
45	Şəki Tibb Kolleci	150	2	1.33
46	1 nömrəli Bakı Tibb Kolleci	500	5	1.00
47	Mingəçevir Tibb Kolleci	270	2	0.74
48	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	354	2	0.56
49	2 nömrəli Bakı Baza Tibb Kolleci	680	3	0.44
50	Gəncə Tibb Kolleci	310	1	0.32
51	Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci	45	0	0.00
52	Quba Tibb Kolleci	65	0	0.00
53	Cəlilabad Tibb Kolleci	60	0	0.00
	C Ə M İ	**12471**	**1371**	**10.99**

4.2 Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu

Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulunu 1995-1998-ci illərdə mərkəzləşdirilmiş qaydada Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, 1999-2004-cü illərdə isə orta ixtisas təhsili müəssisələrinin özləri aparıb. 2005-ci ildən etibarən bu təhsil pilləsinə qəbul imtahanlarının keçirilməsi yenidən TQDK-ya (indiki DİM) həvalə olunub.

Bu il ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu aprelin 5-dən 25-dək internet vasitəsilə aparılıb. Qəbul qaydaları və qəbul haqqında elan DİM-in internet saytında yerləşdirilib, qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat isə "Abituriyent" jurnalının 3-cü sayında dərc olunub. Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizetex/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurub və təsdiq ediblər (etdiriblər).

Müsabiqədə iştirak ödənişli olub. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamına əsasən orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olub. Bundan əlavə, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2635 nömrəli Sərəncamına əsasən aşağıdakı kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının da (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına təmin edilib:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Qəbul imtahanının nəticəsi 2 il qüvvədə olduğuna görə 2021-ci ildə qəbul imtahanında iştirak edən, lakin qəbul olmayan abituriyentlərin həmin ildə topladıqları bal ilə cari ildəki müsabiqədə (topladıqları balları cari ilin müsabiqə şərtlərini ödədikləri halda) iştirak etmək imkanları olub. Lakin həmin abituriyentlər cari ildə keçirilən imtahanda iştirak etmək istəyiblərsə, bu halda elektron ərizənin müvafiq bölməsində bu istəklərini qeyd edib və tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə ediblər. Bu zaman abituriyentlər müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəklərini ixtisas seçimi zamanı özləri müəyyən ediblər.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3. 2013-cü və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2 və 1.3 -cü yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər isə elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq SQK-larda təsdiq etdiriblər.

Ümumi orta (9 illik) təhsil səviyyəsini cari ildə bitirən abituriyentlər qəbul imtahanı verməmiş, müsabiqədə Azərbaycan (rus) dili, riyaziyyat və xarici dil fənlərindən buraxılış imtahanında (9-cu siniflər üzrə) əldə etdikləri nəticələr əsasında iştirak etmişdir. Bu təhsil səviyyəsini əvvəlki illərdə bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün Azərbaycan (rus) dili, riyaziyyat və xarici dil fənlərindən bir mərhələdən ibarət qəbul imtahanı vermişdir. İmtahanda abituriyentlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla 85 tapşırıq təqdim olunmuş, abituriyentlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 bal olmuşdur. Cari ildə qəbul imtahanında test tapşırıqları hazırlanarkən qapalı, cavablarının kodlaşdırılması və həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlardan istifadə olunmuşdur. Test tapşırıqlarının strukturu haqqında daha ətraflı məlumat cədvəl 5.1-də 9-cu siniflər üzrə buraxılış imtahanı bölməsində (bax: səh. 408) təqdim olunub. Qəbul imtahanı mayın 15-də Bakı, Şəki, Lənkəran, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində, Abşeron, Şəmkir, Bərdə, Sabirabad, Göyçay, Cəlilabad, Xaçmaz rayonlarında və Naxçıvan MR-də keçirilib.

Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (9-cu siniflər üzrə) topladıqları ballar əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq yuxarıda göstərilən tarixlərdə bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

– Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.

– Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən, müsabiqəsində iştirak etmək istədikləri ixtisasların tədris dilinə uyğun olaraq ərizənin "Test imtahanı verəcəyi dil (Bölmə)" bölməsində Azərbaycan və ya rus dilini seçiblər.

– Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər.

İxtisas seçimi avqustun 8-dən 17-dək internet vasitəsilə həyata keçirilib. İxtisas seçiminə qəbul (buraxılış) imtahanında ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıb (xarici dil fənni üzrə nisbi bal məhdudiyyəti tətbiq edilməyib). Hər bir abituriyent müxtəlif təhsil müəssisələrinin təhsili dövlət büdcəsinin vəsaiti hesabına və ödənişli olan 12-yə qədər ixtisas kodunu seçib. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirib. Qəbul qaydalarına əsasən müsabiqə zamanı həmin ardıcıllıq hüquqi əsas kimi nəzərə alınıb və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan dili (dövlət dili kimi) fənnindən (ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün) imtahan veriblər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Bu imtahanda abituriyentlərə 27-si qapalı tipli və 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli olmaqla 30 test tapşırığı təqdim edilib. Tapşırıqların yerinə yetirilməsinə 1 saat 30 dəqiqə vaxt ayrılıb. Qapalı tipli tapşırıqlar üzrə hər düzgün cavab 1 balla qiymətləndirilib. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar isə markerlər tərəfindən meyarlar əsasında $0, \frac{1}{3}, \frac{1}{2}, \frac{2}{3}$ və ya 1 balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalı idi.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan ümumtəhsil müəssisələrini (ümumi orta təhsil səviyyəsi üzrə) cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri Azərbaycan dili (dövlət dili kimi) fənni imtahanından nisbi balı ən azı 50 olduğu halda, onların həmin nəticələri əsas götürülüb və "məqbul" almış hesab olunub. Həmin imtahan üzrə nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunub və qəbul imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) fənnindən yenidən imtahan veriblər.

Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə imtahanın nəticəsi iki il qüvvədə olduğundan, 2021-ci ildə həmin imtahandan "məqbul" alan abituriyentlərin cari ildə bu imtahanda iştirak etmələrinə ehtiyac qalmayıb.

Azərbaycan dili (dövlət dili kimi) fənni imtahanından "məqbul" ala bilməyən abituriyentlər müsabiqəyə buraxılmayıblar.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən abituriyentlər imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödədiyi halda, imtahanların nəticəsi elan olunduqdan sonra, mayın 25-dən iyunun 3-dək eservices.dim.gov.az/qabiliyyet internet səhifəsinə daxil olaraq seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər.

Qabiliyyət imtahanlarında iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının cari ildə ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə (yalnız bir ixtisas üzrə) qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) olub. Bundan əlavə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları, şəhid ailəsinin üzvləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, məcburi köçkün statusu olan şəxslər, I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların da qeydiyyatdan keçdikləri bütün komissiyalar üzrə qabiliyyət imtahanlarında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olub. Qabiliyyət imtahanının nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 50-dən az olmayan (fənlər üzrə bal məhdudiyyəti qoyulmayıb) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılıb. "Xoreoqrafiya sənəti (sahələr üzrə)" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan abituriyentlər iştirak edib. Qəbul qaydalarına əsasən abituriyentlərə xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilib.

Qəbul planı (10127 yer) ötən illə müqayisədə 7.18% (678 yer) artıb. Plan yerlərinin 4478-i (44.22%) ödənişsiz, 5649-u (55.78%) isə ödənişli təhsil üzrə olub. Qəbul planının 93.82%-i Azərbaycan, 2.33%-i rus, 3.85%-i isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılıb. Qəbul planının 14.60%-i (1479 yer) xüsusi qabiliyyət tələb edən ixtisasların payına düşürdü.

40 orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Sayca ən çox plan yeri Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə (510 yer), ən az isə Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinə (73 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.2.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (ÜMUMİ ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	90	0	0	90	115	0	0	115	205
2	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	93	24	0	117	114	36	0	150	267
3	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	85	12	0	97	99	13	0	112	209
4	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	68	0	0	68	167	0	0	167	235
5	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	112	13	0	125	265	29	0	294	419
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	240	10	0	250	250	10	0	260	510
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	185	0	0	185	305	0	0	305	490

Cədvəl 4.2.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
8	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	39	25	0	64	9	0	0	9	73
9	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	77	22	0	99	81	22	0	103	202
10	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	39	39	0	0	40	40	79
11	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	165	165	0	0	50	50	215
12	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	110	0	0	110	270	0	0	270	380
13	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	150	0	0	150	150	0	0	150	300
14	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	151	0	0	151	229	0	0	229	380
15	Naxçıvan Dövlət Texniki Kolleci	66	0	0	66	134	0	0	134	200
16	Naxçıvan Musiqi Kolleci	88	0	0	88	51	0	0	51	139
17	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	143	0	0	143	257	0	0	257	400
18	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	143	0	0	143	152	0	0	152	295
19	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	118	0	0	118	119	0	0	119	237
20	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	135	0	0	135	145	0	0	145	280
21	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	0	0	75	75	0	0	21	21	96
22	Quba Dövlət Sosial-İqtisadi Kolleci	127	0	0	127	143	0	0	143	270
23	Şamaxı Dövlət Regional Kolleci	180	0	0	180	220	0	0	220	400
24	Mingəçevir Turizm Kolleci	115	0	0	115	95	0	0	95	210
25	Şəki Dövlət Regional Kolleci	190	0	0	190	166	0	0	166	356
26	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	54	0	0	54	46	0	0	46	100
27	Şuşa Humanitar Kolleci	77	0	0	77	78	0	0	78	155
28	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	127	0	0	127	177	0	0	177	304
29	Ağdam Musiqi Kolleci	49	0	0	49	56	0	0	56	105
30	Ağdaş Dövlət Humanitar Kolleci	150	0	0	150	185	0	0	185	335
31	Ağcabədi Pedaqoji Kolleci	95	0	0	95	110	0	0	110	205
32	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	116	0	0	116	140	0	0	140	256
33	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	88	0	0	88	92	0	0	92	180
34	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	100	0	0	100	140	0	0	140	240
35	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	121	0	0	121	120	0	0	120	241
36	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	101	0	0	101	98	0	0	98	199
37	Astara Pedaqoji Kolleci	144	0	0	144	156	0	0	156	300
38	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	73	0	0	73	107	0	0	107	180
39	Masallı Dövlət Regional Kolleci	93	0	0	93	87	0	0	87	180
40	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	280	20	0	300	300
	Cəmi	**4093**	**106**	**279**	**4478**	**5408**	**130**	**111**	**5649**	**10127**

1995–1998-ci illərdə ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün abituriyent ərizələrinin sayı plan yerlərindən 30-40% az olub. Qəbul imtahanlarının yenidən mərkəzləşdirilmiş qaydada keçirildiyi 2005-2006-cı illərdə bu təhsil müəssisələrində, zəif də olsa, müsabiqə vəziyyəti mövcud olub. Bu illərdə orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunu həmin məktəblərdə yaradılmış Sənəd Qəbulu Komissiyaları həyata keçirirdi. Sənəd qəbulu prosesində abituriyentlərin və onların valideynlərinin rahatlığını təmin etmək məqsədilə 2007-2012-ci illərdə respublikanın bütün regionlarının təhsil şöbələrində Sənəd Qəbulu Komissiyaları yaradılmışdı. Artıq on ildir ki barələrində DİM-in informasiya bazasında yetərli məlumatlar olan abituriyentlərə ərizələrini Sənəd Qəbulu Komissiyalarına müraciət etmədən internet vasitəsilə bilavasitə özlərinin təsdiq etməsinə imkan yaradılıb.

Cari ildə müsabiqənin nəticələri avqustun 18-də DİM-in internet saytında və "Abituriyent" jurnalının xüsusi buraxılışında yerləşdirilərək ictimaiyyətə təqdim olunub. Bundan sonra, sentyabrın 7-dən 11-dək orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunub. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində orta ixtisas təhsili müəssisələrinin 12-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstəriblər. Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri sentyabrın 12-də elan olunub.

Qəbul (buraxılış) imtahanlarında 41238 abituriyent iştirak edib. Onların 19323-ü oğlan (46.86%), 21915-i isə qız (53.14%) olub. Ötən illə müqayisə etdikdə, cari ildə qəbul (buraxılış) imtahanlarında iştirak edənlərin sayı 8998 nəfər artıb. Qeyd edək ki, orta ixtisas təhsili müəssisələrinə qəbul olub oranı bitirən şəxslərə "subbakalavr" peşə-ixtisas dərəcəsi verilir. Bu dərəcəyə malik olan şəxslər əmək bazarına ixtisaslı kadr kimi daxil olurlar. Bundan başqa, subbakalavrlar ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinin ixtisaslarının müsabiqəsində də iştirak etmək imkanı əldə edirlər. Fikrimizcə, bu sadalanan hallar abituriyentlərin orta ixtisas təhsili müəssisələrində təhsil almaq maraqlarını artırır.

İmtahan verən abituriyentlərin 16136-sı (39.13%) ixtisas seçimində iştirak etmək üçün ərizə verib. Ayrı-ayrı təhsil formaları üzrə qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyəti 4.2.2 və 4.2.3 saylı cədvəllərdə təqdim olunur.

İxtisas seçimində iştirak etmək üçün ərizələrin 97.65%-i (15756-sı) Azərbaycan, 2.35%-i (380-i) isə rus bölməsinə verilmişdi. Abituriyentlərin 42.06%-ni oğlanlar, 57.94%-ni isə qızlar təşkil edib.

Cədvəl 4.2.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	TƏHSİL FORMASI	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI*		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Ümumi	Azərb. bölməsi	Rus bölməsi	Ümumi
1	**Dövlət müəssisələrinə ödənişsiz təhsil üzrə**	**4093**	**106**	**279**	**4478**	**10485**	**340**	**10825**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3572	71	0	3643	9297	298	9595
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	521	35	279	835	1608	49	1657
2	**Dövlət müəssisələrinə ödənişli təhsil üzrə**	**5128**	**110**	**111**	**5349**	**14322**	**342**	**14664**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4605	100	0	4705	13353	315	13668
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	523	10	111	644	1712	36	1748

* İxtisas seçimində iştirak edənlər

Cədvəl 4.2.2 (ardı)

№	TƏHSİL FORMASI	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
3	**Özəl təhsil müəssisələri üzrə**	**280**	**20**	**0**	**300**	**3720**	**217**	**3937**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	280	20	0	300	3720	217	3937
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	0	0	0	0	0	0	0
Ümumi		**9501**	**236**	**390**	**10127**	**15756**	**380**	**16136**
- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar		8457	191	0	8648	14777	340	15117
- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar		1044	45	390	1479	1812	52	1864

Cədvəl 4.2.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	TƏHSİL FORMASI	Plan yerləri üzrə müsabiqə vəziyyəti			
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Ümumi
1	**Dövlət müəssisələrinə ödənişsiz təhsil üzrə**	**1.916**	**2.526**	**1.195**	**1.866**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.869	3.384	---	1.899
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	2.425	0.833	1.195	1.847
2	**Dövlət müəssisələrinə ödənişli təhsil üzrə**	**1.854**	**1.520**	**1.440**	**1.829**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.925	1.601	---	1.918
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1.533	0.860	1.440	1.428
3	**Özəl təhsil müəssisələri üzrə**	**4.252**	**2.087**	---	**4.107**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4.252	2.087	---	4.107
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	---	---	---	---
Ümumi		**1.634**	**1.526**	**0.895**	**1.593**
- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar		1.681	1.738	---	1.683
- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar		1.458	0.683	0.895	1.225

Müsabiqədə iştirak edən 16136 abituriyentdən 9572-si qəbul olub. Onlardan 4352-si dövlət təhsil müəssisələrinə ödənişsiz, 4932-si ödənişli, 288-i isə özəl təhsil müəssisəsinə ödənişli təhsil üzrə qəbul olub. Qəbul planı 94.52% yerinə yetirilib. Dövlət təhsil müəssisələrinə ödənişsiz təhsil üzrə qəbul planının dolma göstəricisi 97.19, ödənişli təhsil üzrə 92.20, özəl təhsil müəssisələri üzrə isə 96.00% olub. Qəbul olan abituriyentlərin 3744-ü (39.11%) oğlan, 5828-i isə (60.89%) qızdır.

Qəbulda iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda təsvir edilib. Hər bir fənn üzrə 100 bal olmaqla, maksimum toplanıla bilən bal 300-ə bərabərdir.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI	QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
	
Şəkil 4.2.1	Şəkil 4.2.2

Diaqramların müqayisəli təhlili göstərir ki, qəbul (buraxılış) imtahanında iştirak edənlər seçməsində imtahan nəticəsi 50–100 bal intervalında yerləşən abituriyentlər sayca üstünlük təşkil edirsə, qəbul olanlar seçməsində sayca üstünlük imtahan nəticəsi 100–150 bal intervalında yerləşənlərin tərəfindədir. Yerləşdirmə aparıldıqdan sonra 100–150 bal intervalına daxil olanların nisbi çəkisi 22.33%-dən (şəkil 4.2.1) 54.81%-ə (şəkil 4.2.2) qədər yüksəlib. İmtahanda toplanılan maksimal bal 288.2-yə bərabər olub.

Təhsil formaları üzrə aparılan müsabiqə və yerləşdirmənin nəticələri 4.2.4 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.4

ÜMUMİ ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	TƏHSİL FORMASI	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
1	**Dövlət müəssisələrinə ödənişsiz təhsil üzrə**	**4478**	**4245**	**107**	**4352**	**97.19**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3643	3513	67	3580	98.27
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	835	732	40	772	92.46
2	**Dövlət müəssisələrinə ödənişli təhsil üzrə**	**5349**	**4830**	**102**	**4932**	**92.20**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4705	4382	95	4477	95.15
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	644	448	7	455	70.65

Cədvəl 4.2.4 (ardı)

№	TƏHSİL FORMASI	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
3	**Özəl təhsil müəssisələri üzrə**	**300**	**268**	**20**	**288**	**96.00**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	300	268	20	288	96.00
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	0	0	0	0	--
Ümumi		**10127**	**9343**	**229**	**9572**	**94.52**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	8648	8163	182	8345	96.50
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1479	1180	47	1227	82.96

Orta ixtisas təhsili müəssisələri arasında daha yüksək müsabiqə vəziyyəti Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci, Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci və Bakı Biznes və Kooperasiya Kollecində yaranıb. Bu təhsil müəssisələrinin orta hesabla bir plan yerinə təqdim edilən ərizələrin sayı müvafiq olaraq 4.8, 4.4 və 4.0 olub.

Orta ixtisas təhsili müəssisələri arasında ən aşağı müsabiqə vəziyyəti Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci, Ağdam Dövlət Sosial-İqtisadi Kolleci, Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci, Quba Dövlət Sosial-İqtisadi Kolleci, Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci, Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci, Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci, Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi və Naxçıvan Musiqi Kollecində yaranıb. Bu təhsil müəssisələrində orta hesabla 1 plan yerinə 2-dən az ərizə verilib. Ağdam Musiqi Kolleci, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci və Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecində isə 1 plan yerinə 1-dən az ərizə verilib.

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanaraq, onların əsasında balların paylanma histoqramları təyin edilib. Hər iki bölmədə histoqram bir qədər asimmetrikdir. Asimmetriya müsbət, yaxud sağtərəflidir. Bu onu göstərir ki, ortastatistik nəticə göstərən abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlərə rastgəlmə ehtimalı daha yüksəkdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 83.47, rus bölməsini təmsil edən isə 97.41 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 77.90-dan, rus bölməsində isə 90.83-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 288.2, rus bölməsində isə 262.3 olub.

Azərbaycan bölməsində ortastatistik abituriyent Azərbaycan dili fənnindən 39.21, riyaziyyatdan 20.96, xarici dildən 23.31, rus bölməsində isə rus dilindən 45.81, riyaziyyatdan 21.15, xarici dildən 30.45 bal toplayıb.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul 9-cu sinif üzrə buraxılış imtahanı standartları əsasında aparılıb. İmtahanda iştirak edən 41238 abituriyentin 69.03%-i, heç olmasa, bir fənn üzrə 20 baldan, 96.79%-i 40 baldan aşağı nəticə göstərib. Abituriyentlərin əksəriyyəti (89.05%-i) xarici dil fənni üzrə 40 baldan aşağı nəticə göstərib. 187 abituriyent fənlərin hər biri üzrə ən azı 60 bal, 25 abituriyent isə ən azı 80 bal toplayıb. Qəbul olan 9572 abituriyentin 37.34%-i, heç olmasa, bir fənn üzrə 20 baldan, 94.08%-i 40 baldan aşağı nəticə göstərib. Qəbul olan abituriyentlərin arasında 47-si fənlərin hər biri üzrə ən azı 60 bal, 6-sı isə ən azı 80 bal toplayıb.

Yuxarıda qeyd olunduğu kimi, bu il ümumi orta təhsil bazasında 40 orta ixtisas təhsili müəssisəsinə qəbul aparılıb. Cədvəldən göründüyü kimi, 1 orta ixtisas təhsili müəssisəsində plan yerləri 100% dolub. 30 orta ixtisas təhsili müəssisəsində boş qalan plan yerləri 10 faizədək, qalan 9 orta ixtisas təhsili müəssisəsində isə 10%-dən yuxarıdır.

Orta ixtisas təhsili müəssisələri arasında qəbul planının ən az dolma göstəricisi Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecindədir. Cədvəldən göründüyü kimi, bu orta ixtisas təhsili müəssisəsinin plan yerlərinin 58.23%-i boş qalıb.

Son illər ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulla bağlı göstəricilər əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşıb. Müqayisə üçün qeyd edək ki, 1998-ci ildə orta ixtisas təhsili müəssisələrindən yalnız birində plan yerləri tam dolmuş, yarısına qədərində isə 50%-dən çox kəsirdə qalmışdı.

Orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerləri haqqında məlumat 4.2.5 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.5

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ BOŞ QALAN PLAN YERLƏRİ HAQQINDA MƏLUMAT

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlər	
			sayı	faizi
1	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	79	46	58.23
2	Ağdam Musiqi Kolleci	105	23	21.90
3	Naxçıvan Musiqi Kolleci	139	28	20.14
4	Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	73	12	16.44
5	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	215	29	13.49
6	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	202	25	12.38
7	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	180	22	12.22
8	Şəki Dövlət Regional Kolleci	356	43	12.08
9	Şamaxı Dövlət Regional Kolleci	400	41	10.25
10	Masallı Dövlət Regional Kolleci	180	17	9.44
11	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	199	16	8.04
12	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	510	37	7.25
13	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	180	13	7.22
14	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	295	19	6.44
15	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	237	14	5.91
16	Astara Pedaqoji Kolleci	300	16	5.33
17	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	400	20	5.00
18	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	240	12	5.00
19	Ağdaş Dövlət Humanitar Kolleci	335	15	4.48
20	Bakı Biznes və Kooperasiya Kolleci	300	12	4.00
21	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	267	10	3.75
22	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	304	11	3.62
23	Mingəçevir Turizm Kolleci	210	7	3.33
24	Ağcabədi Pedaqoji Kolleci	205	6	2.93
25	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	209	5	2.39
26	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	380	8	2.11
27	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	241	5	2.07
28	Naxçıvan Dövlət Texniki Kolleci	200	4	2.00
29	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	205	4	1.95
30	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	280	5	1.79
31	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	380	6	1.58
32	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	256	4	1.56
33	Quba Dövlət Sosial-İqtisadi Kolleci	270	4	1.48
34	Şuşa Humanitar Kolleci	155	2	1.29
35	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	490	6	1.22
36	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	300	3	1.00
37	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	100	1	1.00
38	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	419	3	0.72
39	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	235	1	0.43
40	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	96	0	0.00
	C Ə M İ	**10127**	**555**	**5.48**

5. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ

«Ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin (attestasiyasının) aparılması Qaydaları»na əsasən 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanına tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənləri daxil edilmişdir. Tədris dili Azərbaycan, rus və ya gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri yalnız riyaziyyat və xarici dil fənlərindən imtahan vermişdir. 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanında üzrsüz səbəbdən iştirak etməyən şagirdlərə attestat verilməmişdir.

Cari ildə həm 9, həm də 11-ci siniflər üzrə buraxılış imtahanlarında şagirdlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunmuş, şagirdlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 bal olmuşdur. Test tapşırıqlarının strukturu haqqında daha ətraflı məlumat cədvəl 5.1-də təqdim olunub.

Həm 9, həm də 11-ci siniflər üzrə buraxılış imtahanlarında tədris dili Azərbaycan dilindən fəqli olan şagirdlər yuxarıda qeyd olunan fənlərdən əlavə, dövlət dili kimi Azərbaycan dili fənnindən də imtahan veriblər.

İmtahanlar bölgələr üzrə aşağıdakı tarixlərdə keçirilmişdir:

- **Ümumi təhsil səviyyəsi üzrə buraxılış imtahanı:**
  - 16.04.2022-ci il tarixdə: Sabunçu, Sumqayıt (I hissə), Gəncə (Kəpəz), Qax, Balakən, Lənkəran, Ağdam, Tərtər, İsmayıllı, İmişli, Qusar, Biləsuvar, ölkə üzrə tədris gürcü dilində olan məktəblər;
  - 17.04.2022-ci il tarixdə: Binəqədi, Səbail, Abşeron (I hissə), Gəncə (Nizami), Oğuz, Zaqatala, Astara, Ağcəbədi, Şamaxı, Saatlı, Şabran, Siyəzən, Xızı;
  - 23.04.2022-ci il tarixdə: Qaradağ, Yasamal, Sumqayıt (II hissə), Goranboy, Naftalan, Tovuz, Cəlilabad (I hissə), Beyləqan, Ağdaş, Ağsu, Şirvan, Xaçmaz (I hissə), Qobustan, Hacıqabul;
  - 24.04.2022-ci il tarixdə: Xəzər, Xətai, Abşeron (II hissə), Mingəçevir, Şəmkir, Masallı (I hissə), Füzuli, Ucar, Zərdab, Neftçala, Quba (I hissə);
  - 30.04.2022-ci il tarixdə: Nəsimi, Nərimanov, Naxçıvan MR, Göygöl, Daşkəsən, Qazax, Gədəbəy, Cəlilabad (II hissə), Lerik, Şəki, Bərdə, Göyçay, Sabirabad, Xaçmaz (II hissə);
  - 01.05.2022-ci il tarixdə: Suraxanı, Nizami, Pirallahı, Samux, Ağstafa, Masallı (II hissə), Yardımlı, Qəbələ, Yevlax, Kürdəmir, Salyan, Quba (II hissə), ölkə üzrə tədris ingilis və fransız dilində olan məktəblər, Bakıdakı xüsusi məktəblər (internat məktəbləri, cəza çəkmə müəssisələrində olan məktəblər və s.), Çilov.

Qeyd 1: Bəzi şəhər və rayonlar üzrə şagirdlərin hərəkət intensivliyinin azaldılması məqsədilə onlar 2 hissəyə ayrılmış və müxtəlif günlərdə imtahan vermişlər. Yuxarıdakı siyahıda bu hal müvafiq olaraq hissələrlə adlandırılıb.

Qeyd 2: İşğaldan azad olunmuş rayonlardan olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

- **Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı:**
  - 05.03.2022-ci il tarixdə: Qaradağ, Xəzər, Yasamal, Nərimanov, Gəncə (Kəpəz), Qazax, Qax, Balakən, Yevlax, Ağdam, Göyçay, Ağdaş, Lənkəran, İmişli, Şirvan, Qusar, Biləsuvar, ölkə üzrə tədris gürcü dilində olan məktəblər;
  - 06.03.2022-ci il tarixdə: Nizami, Suraxanı, Binəqədi, Sumqayıt, Gəncə (Nizami), Ağstafa, Oğuz, Zaqatala, Beyləqan, Füzuli, Kürdəmir, Ucar, Cəlilabad, Saatlı, Neftçala, Şabran, Siyəzən, Xızı, ölkə üzrə tədris ingilis və fransız dilində olan məktəblər;
  - 12.03.2022-ci il tarixdə: Sabunçu, Səbail, Nəsimi, Naxçıvan MR, Goranboy, Naftalan, Göygöl, Daşkəsən, Tovuz, Gədəbəy, Şəki, Masallı, Astara, Bərdə, Tərtər, Ağsu, İsmayıllı, Sabirabad, Xaçmaz;
  - 13.03.2022-ci il tarixdə: Xətai, Abşeron, Pirallahı, Mingəçevir, Samux, Şəmkir, Qəbələ, Yardımlı, Lerik, Ağcabədi, Zərdab, Şamaxı, Salyan, Quba, Qobustan, Hacıqabul, Bakıdakı xüsusi məktəblər (internat məktəbləri, cəza çəkmə müəssisələrində olan məktəblər və s.), Çilov.

Qeyd 1: İşğaldan azad olunmuş rayonlardan olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

İmtahanda şagirdlərə təqdim olunan tapşırıqların strukturu

Cədvəl 5.1

Fənlər	9-cu siniflər üzrə buraxılış imtahanı	11-ci siniflər üzrə buraxılış imtahanı
Xarici dil	Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq; Qapalı tipli 16 tapşırıq; Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq. Cəmi: 30 tapşırıq	Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 3 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq; Qapalı tipli 16 tapşırıq; Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 və qapalı tipli 4 tapşırıq. Cəmi: 30 tapşırıq
Tədris dili	Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 8 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq (cəmi 20 tapşırıq); Cəmi: 30 tapşırıq	Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 tapşırıq (cəmi 20 tapşırıq); Cəmi: 30 tapşırıq
Riyaziyyat	Qapalı tipli 15 tapşırıq; Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 6 tapşırıq; Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq. Cəmi: 25 tapşırıq	Qapalı tipli 13 tapşırıq; Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq; Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq. Cəmi: 25 tapşırıq
Cəmi	85 tapşırıq (67 qapalı tipli, cavablarının kodlaşdırılması tələb olunan açıq tipli 6 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 12 tapşırıq)	85 tapşırıq (56 qapalı tipli, cavablarının kodlaşdırılması tələb olunan açıq tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 24 tapşırıq)

Balların hesablanması qaydaları aşağıdakı cədvəllərdə təqdim olunub:

Cədvəl 5.2

9-cu sinif buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənn	Maksimal bal	Test tapşırıqlarının sayı	Bal
Tədris dili (Azərbaycan dili, rus dili, gürcü dili)	**100**	**30 tapşırıq** (qapalı tipli 26 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{34}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri)	**100**	**30 tapşırıq** (qapalı tipli 26 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{34}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$
Riyaziyyat	**100**	**25 tapşırıq** (qapalı tipli 15, cavabların kodlaşdırılması tələb olunan açıq tipli 6 və həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{29}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,\ kod)}+n_{d(qapalı)})$

Cədvəl 5.3

11-ci sinif buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənnin adı	Maksimal bal	Tapşırıqların sayı	Bal
Tədris dili (Azərbaycan, rus və ya gürcü)	100	**30 tapşırıq** (qapalı tipli 20 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 10 tapşırıq)	$\frac{5}{2}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$
Riyaziyyat	100	**25 tapşırıq** (qapalı tipli 13 tapşırıq, cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 və həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq)	$\frac{25}{8}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,\ kod)}+$ $+n_{d(qapalı)})$
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	100	**30 tapşırıq** (qapalı tipli 23 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 7 tapşırıq)	$\frac{100}{37}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$

Qeyd 1: $n_{d(açıq,\ kod)}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\ yazılı)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

Qeyd 2: Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.

Qeyd 3: Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilə bilər.

Ötən ildə olduğu kimi, bu il də həm 9-cu, həm də 11-ci siniflər üzrə buraxılış imtahanında dinləmə mətnlərinə aid test tapşırıqlarından istifadə olunub. Həmin mətnlər DİM-in səsyazma studiyasında səsləndirilib və arxivləşdirilib.

İmtahanda şagirdlərə hər bir xarici dil fənni üzrə 1 dinləmə mətni təqdim olunub. Audioqurğuya yazılmış həmin mətn bütün imtahan zallarına hərəsində bir audioqurğu olmaqla paylanıb. İmtahan başlandıqda audioqurğu yerləşdiyi zərfdən çıxarılıb və işə salınıb. Dinləmə mətni üzrə təqdim olunan tapşırıqlarla tanış olmaları üçün 9-cu sinif şagirdlərinə 3 dəqiqə, 11-ci sinif şagirdlərinə isə 2 dəqiqə vaxt ayrılıb. Sonra dinləmə mətni 9-cu sinif şagirdləri üçün 3 dəqiqəlik, 11-ci sinif şagirdləri üçün isə 2 dəqiqəlik fasilə ilə 2 dəfə səsləndirilib.

Şagirdlərin yazılı və ətraflı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə işləri markerlər tərəfindən kompüterlərdə yoxlanılıb. Yoxlama prosesində DİM-in əməkdaşlarının hazırladığı «Onlayn Marker Sistemi» proqram təminatından istifadə olunub. Yoxlama prosesinin mümkün bütün mərhələləri avtomatlaşdırılmış və bütün təhlükəsizlik tədbirləri görülmüşdür. Belə ki, hər bir şagirdin cavab vərəqi proqram vasitəsilə ayrı-ayrı tapşırıqlara bölünərək hər bir tapşırıq fərqli markerlərə göndərilmiş və markerin qarşısında oturduğu kompüterin ekranında şagird haqqında heç bir məlumat olmamış, yəni tapşırığı kimin cavablandırdığı tam məxfi saxlanılmışdır. Bundan başqa, yoxlanan tapşırıq üzrə eyni bir iş ən azı iki marker tərəfindən yoxlanılmış, bu markerlərin qiymətləri üst-üstə düşmədiyi halda növbəti markerə müraciət olunmuş, proses ən azı 2 markerin eyni işə verdikləri qiymətlər üst-üstə düşənə qədər davam etdirilmişdir.

Hər imtahanın nəticələri elan edilərkən şəffaflıq məqsədilə şagirdlərin elektron səhifəsində onun yazı işinin skan versiyası, qiymətləndirmə meyarları və hər tapşırıq üzrə aldığı qiymətlər yerləşdirilmişdir. Nəticələrin elanından sonra fənn mütəxəssislərinin də daxil olduğu Apellyasiya Komissiyaları təşkil olunmuş, edilmiş müraciətlər araşdırılmış, haqlı iradlar nəzərə alınmış, əsassız iradlar üzrə isə şagirdlərə yazı işində etdiyi səhvləri göstərilməklə müvafiq izah verilmişdir. Qeyd edək ki, Apellyasiya Komissiyalarına ərizə qəbulu və apellyasiya prosesi «online» rejimdə həyata keçirilmişdir. Belə ki, müraciət edənlərin elektron ərizələrindəki seçimlərinə uyğun olaraq onlarla «Zoom» vasitəsilə video formatda və ya telefon vasitəsilə əlaqə saxlanılmışdır.

Aşağıda təqdim olunan 5.4 və 5.5 saylı cədvəllərdə həm 9, həm də 11-ci siniflər üzrə buraxılış imtahanlarında açıq tipli test tapşırıqlarının yoxlanılması prosesi haqqında statistik məlumat verilib:

Cədvəl 5.4

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat (9-cu siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri					Ümumi
	Azərbaycan dili	Rus dili	Gürcü dili	Riyaziyyat	Xarici dil	
Tapşırıqların ümumi sayı	603941	73744	412	585332	556236	1819665
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	191269 (31,67)	55389 (75,11)	188 (45,63)	384481 (65,69)	300520 (54,03)	931847 (51,21)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	412672	18355	224	200851	255716	887818
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda başqa marker(lər) tərəfindən də yoxlanılır)*	919995	38792	547	417433	541610	1918377
Orta hesabla bir tapşırığın yoxlanma sayı	2,23	2,11	2,44	2,08	2,12	2,16
Yoxlama prosesində iştirak edən markerlərin sayı	243	27	7	151	177	605
Orta hesabla bir markerə düşən yoxlama sayı	3785,99	1436,74	78,14	2764,46	3059,94	3170,87

Cədvəl 5.5

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat (11-ci siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri					Ümumi
	Azərbaycan dili	Rus dili	Gürcü dili	Riyaziyyat	Xarici dil	
Tapşırıqların ümumi sayı	1085030	103579	860	826651	829448	2845568
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	332635 (30,66)	66730 (64,42)	392 (45,58)	550967 (66,65)	388666 (46,86)	1339390 (47,07)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	752395	36849	468	275684	440782	1506178
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda başqa marker(lər) tərəfindən də yoxlanılır)*	1656335	76535	1190	567629	931962	3233651
Orta hesabla bir tapşırığın yoxlanma sayı	2,20	2,08	2,54	2,06	2.11	2.15
Yoxlama prosesində iştirak edən markerlərin sayı	283	30	7	161	208	689
Orta hesabla bir markerə düşən yoxlama sayı	5852,77	2551,17	170	3525,65	4480,59	4693,25

İmtahanın ümumi müddəti həm 9, həm də 11-ci siniflər üzrə 3 saat (tədris dili Azərbaycan, rus və gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri üçün imtahanın müddəti 2 saat) müəyyən edilmişdir.

Buraxılış imtahanlarından əvvəl şagirdlərə kömək məqsədilə tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənlərindən tapşırıq nümunələri hazırlanmış, yazı işinin qiymətləndirilməsi üçün meyarlar müəyyənləşdirilmiş və DİM-in internet saytında yerləşdirilmişdir.

Şagirdlərin rahatlığının təmin olunması üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir. Cari ildə 9-cu və 11-ci siniflərin buraxılış imtahanları 1030 imtahan mərkəzində təşkil olunmuşdur. İmtahanların təhlükəsizliyinin təmin olunması məqsədilə binalara buraxılış rejimini təşkil etmək üçün Daxili İşlər Nazirliyinin, Elm və Təhsil Nazirliyinin və Gənclər və İdman Nazirliyinin xətti ilə 2129 nəfər, imtahan binalarını imtahandan bir gün əvvəl yoxlayıb möhürlənməsinə isə 307 nəfər cəlb olunmuşdur.

İmtahanın idarə olunması üçün hər bir rayonda yerli məktəblərin müəllimlərindən ibarət nəzarətçilər seçilmiş, DİM-in əməkdaşları imtahandan əvvəl onlar üçün yerlərdə təlimlər keçmişlər. Ümumiyyətlə, imtahan prosesində respublikanın ümumi təhsil müəssisələrinin müəllimləri arasından 25250 nəfər nəzarətçi, ayrı-ayrı dövlət strukturlarının mütəxəssisləri arasından 3813 nəfər imtahan rəhbəri qismində iştirak etmişdir.

Hər buraxılış imtahanından sonra DİM-də və onun regional bölmələrində vətəndaşların buraxılış imtahanları ilə bağlı müraciətlərinə baxılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Buraxılış imtahanlarında cari ilin 221657 məzunu iştirak etmişdir. Onların 131180-i (3 nəfər yalnız Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak edib) 9-cu, 90477-si (4 nəfər yalnız Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak edib) isə 11-ci sinif şagirdləri olub. Qeyd edək ki, 2022-ci ildə respublika üzrə 9-cu və 11-ci sinif şagirdlərinin ümumi sayı, müvafiq olaraq, 133119 və 91352 nəfər idi. Göründüyü kimi, buraxılış imtahanlarında bu və ya digər səbəblərdən 2814 nəfər (9-cu və 11-ci siniflər üzrə, müvafiq olaraq, 1939 və 875 nəfər) iştirak etməmişdir.

Təəssüf ki, 9-cu sinif şagirdləri arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər və ya ümumiyyətlə, oxuyub-yazmağı bacarmayanlar da aşkar olunmuşdur. Beləliklə 9-cu sinif şagirdləri arasında 21 nəfər, 11-ci sinif şagirdləri arasında 2 nəfər olub. Bu cür halların imtahan rəhbərlərinin əksəriyyətinin protokollarında qeyd olunmamasını nəzərə alsaq, yuxarıda göstərilən faktların, əslində, daha çox olduğunu ehtimal etmək olar. Rayonlar üzrə oxumağı və yazmağı bacarmayan 9-cu sinif şagirdlərinin sayı belədir: Masallı rayonunda 4 nəfər, Goranboy, Gədəbəy və Quba rayonlarının hərəsində 2 nəfər, Abşeron, Astara, Cəlilabad, Kəlbəcər, Lənkəran, Lerik, Saatlı, Xocalı, Yardımlı rayonlarının, Bakı, Mingəçevir şəhərlərinin hərəsində 1 nəfər. 11-ci sinif şagirdlərindən oxumağı və yazmağı bacarmayanlar isə Ağdam və Qobustan rayonlarından olub.

9-cu sinif üzrə buraxılış imtahanında şagirdlərin nəticələri hər bir fənn üzrə 100 ballıq şkalada qiymətləndirilib. Buraxılış imtahanında iştirak edən ortastatistik şagird tədris dili fənni üzrə 46.87, riyaziyyat fənni üzrə 29.67, xarici dil fənni üzrə 32.15 bal toplayıb və ümumi balı 108.53-ə bərabər olub. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə balı (faizlə) tədris dili fənnindən 40.56, riyaziyyat fənnindən 10.36, xarici dil fənnindən 11.35-dir. Qapalı tipli test tapşırıqları üzrə isə bu göstərici tədris dili fənnindən 48.82–yə, riyaziyyat fənnindən 45.01-ə və xarici dil fənnindən 38.55-ə bərabər olub. Riyaziyyat fənnindən cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə orta bal (faizlə) 17.09-dur.

Aşağıdakı diaqramda hər bir fənn üzrə şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib.



Şəkil 5.1

Aşağıdakı cədvəldə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədrisi dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə imtahan nəticələri təqdim olunur.

Cədvəl 5.6

Fənlər	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
		0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	111547	1177	35990	38725	18054	11946	5655
	(100.00)	1.06	32.26	34.72	16.19	10.71	5.07
Fransız	2469	26	1057	851	352	155	28
	(100.00)	1.05	42.81	34.47	14.26	6.28	1.13
Alman	1101	8	368	512	168	37	8
	(100.00)	0.73	33.42	46.50	15.26	3.36	0.73
Ərəb	22	0	5	4	4	1	8
	(100.00)	0.00	22.73	18.18	18.18	4.55	36.36
Rus	15989	247	8167	5847	1283	388	57
	(100.00)	1.54	51.08	36.57	8.02	2.43	0.36
Azərbaycan dili (dövlət dili kimi)	11368	14	767	1934	2768	3986	1899
	(100.00)	0.12	6.75	17.01	24.35	35.06	16.70

11-ci sinif üzrə buraxılış imtahanında şagirdlərin nəticələri hər bir fənn üzrə 100 ballıq şkalada qiymətləndirilib. Buraxılış imtahanında iştirak edən ortastatistik şagird tədris dili fənni üzrə 46.23, riyaziyyat fənni üzrə 29.05, xarici dil fənni üzrə 36.59 bal toplayıb və ümumi balı 111.72-yə bərabər olub. Aşağıdakı diaqramda hər bir fənn üzrə şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib. Şəkillərdən də göründüyü kimi, şagirdlərin imtahanda əldə etdikləri nəticələr qənaətbəxş deyil. 9-cu sinfin buraxılış imtahanında olduğu kimi, 11-ci siniflər üzrə buraxılış imtahanında da şagirdlərin bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üzərində qurulan tapşırıqları yerinə yetirməkdə çətinlik çəkdiklərini görünür. Fənlər üzrə qapalı və açıq tipli tapşırıqların nəticələrini müqayisə etdikdə müəyyən olur ki, bu göstəricilər arasında böyük fərq var. Xüsusilə riyaziyyat fənni üzrə bu fərq daha böyükdür. Belə ki, ortastatistik şagirdin yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə balı (faizlə) tədris dili fənnindən 41.05, riyaziyyat fənnindən 12.59, xarici dil fənnindən 16.09-dur. Qapalı tipli test tapşırıqları üzrə isə bu göstərici tədris dili fənnindən 51.42–yə, riyaziyyat fənnindən 48.53-ə, xarici dil fənnindən 49.09-a bərabər olub. Riyaziyyat fənnindən cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə orta bal (faizlə) 24.40-dır. Bütün bu təhlillərdən belə qənaətə gəlmək olar ki, ümumtəhsil məktəblərində kurikulumun tətbiqi çox zəifdir və şagirdlərə aşılanan bacarıq və vərdişlər lazımi səviyyədə deyil.



Şəkil 5.2

Aşağıdakı cədvəldə tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədris dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə imtahan nəticələri də təqdim edilir.

Cədvəl 5.7

Fənlər	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
		0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	78201	426	25589	19173	16572	10096	6345
	(100.00)	0.54	32.72	24.52	21.19	12.91	8.11
Fransız	1448	22	667	337	279	114	29
	(100.00)	1.52	46.06	23.27	19.27	7.87	2.00
Alman	649	6	287	205	92	42	17
	(100.00)	0.92	44.22	31.59	14.18	6.47	2.62
Ərəb	27	1	5	3	6	6	6
	(100.00)	3.70	18.52	11.11	22.22	22.22	22.22
Rus	10072	228	5184	2048	1473	816	323
	(100.00)	2.26	51.47	20.33	14.62	8.10	3.21
Azərbaycan dili (dövlət dili kimi)	8334	1	294	808	1506	3301	2424
	(100.00)	0.01	3.53	9.70	18.07	39.61	29.09

Buraxılış imtahanlarında istifadə edilən tapşırıqların etibarlılığı klassik test nəzəriyyəsi əsasında təhlil olunmuşdur. 9-cu siniflər üzrə buraxılış imtahanında fənlər üzrə testlərin etibarlılıq əmsalları 0.86-0.93 (Küder-Riçardson (KR-20)), 11-ci siniflər üzrə buraxılış imtahanında isə 0.89-0.95 (KR-20) hüdudlarında yerləşir. Göründüyü kimi, bu il buraxılış imtahanlarında fənlər üzrə istifadə edilən testlər kifayət qədər etibarlı olmuşdur. Bundan başqa, hər bir imtahan zonasında istifadə edilən buraxılış imtahanı testlərinin Split-Half metodu və Mosye (Mosier) düsturu əsasında bütövlükdə etibarlılıq əmsalları da hesablanmışdır. İmtahan zonaları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, buraxılış imtahanı testlərinin etibarlılıq əmsalları 9-cu siniflər üzrə 0.93-0.96, 11-ci siniflər üzrə 0.95-0.97 intervallarında yerləşir. Təqdim edilən rəqəmlər sübut edir ki, 2022-ci ildə buraxılış imtahanlarında hər bir imtahan zonası üzrə tərtib edilmiş testlər çox yüksək etibarlılıq xassəsinə malikdir.

DİM buraxılış imtahanlarında şagirdlərə təqdim olunan testlərin məzmununu elə layihələşdirmişdi ki, aşağı və orta qabiliyyətlərin ölçülməsində maksimal dəqiqlik təmin edilsin. 5.1 saylı qrafikdə şagirdlərin Azərbaycan dili fənni üzrə bilik və bacarıq səviyyələrinə görə paylanması və hər bir test tapşırığına düşən informasiya əyrisi təqdim edilib. Təqdim olunan informasiya əyrisini və histoqramı müqayisə etdikdə, test tapşırıqlarının qabiliyyət səviyyələrinə görə daha çox şagirdin cəmləşdiyi hissədə bizə geniş informasiya verdiyini görürük. Bu isə imtahan verən şagirdlərin çoxunun qabiliyyətinin maksimum dəqiqliklə ölçülməsinə imkan verir. Qeyd olunan xüsusiyyətlər riyaziyyat fənni üzrə testlərdə müşahidə edilmir. 5.3 saylı qrafikdən də göründüyü kimi, kurikulumun tələbləri səviyyəsində tərtib edilmiş bu testlər 0.30 loqitdə yerləşən şagirdlərin bilik və bacarıqları haqqında maksimal informasiya əldə etməyə imkan verir. Qrafikdəki histoqrama nəzər saldıqda isə, demək olar ki, şagirdlərin yarısının qabiliyyət səviyyələrinin -0.95 loqitdən aşağıda yerləşdiyinin şahidi oluruq. Bunun başlıca səbəbi ümumtəhsil məktəblərində kurikulum üzrə dərslərin hələ də qənaətbəxş şəkildə tədris olunmamasıdır.

5.2 saylı qrafikdə Azərbaycan dili fənni, 5.4 saylı qrafikdə riyaziyyat fənni və 5.5 saylı qrafikdə ingilis dili fənni üzrə şagirdlərin buraxılış imtahanında müxtəlif tipli test tapşırıqları üzrə əldə etdikləri nəticələr arasındakı əlaqə göstərilib. Qrafiklərdən də göründüyü kimi, riyaziyyat fənni üzrə qapalı tipli və cavabları kodlaşdırılan açıq tipli test tapşırıqları üzrə orta nəticə göstərən şagirdlər belə yazılı şəkildə cavablandırılması tələbə olunan açıq tipli test tapşırıqları üzrə çox zəif nəticə göstəriblər. Azərbaycan dili və ingilis dili fənləri üzrə buna bənzər mənzərənin şahidi olsaq da, bu fənlər üzrə vəziyyət nisbətən yaxşıdır.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.1

AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.2

RİYAZİYYAT FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.3

RİYAZİYYAT FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.4

İNGİLİS DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.5

Buraxılış və qəbul imtahanlarının nəticələri əsasında eyni bir məzunun həm buraxılış, həm də qəbul imtahanlarındakı nəticələri arasında stoxastik əlaqənin xarakteri də araşdırılmışdır (5.8 saylı cədvələ bax).

Cədvəl 5.8

BURAXILIŞ VƏ QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ARASINDA KORRELYASİYA ƏMSALLARI

İXTİSAS QRUPU	Ana dili	Riyaziyyat
I	---	0.869
II	---	0.816
III	0.744	---

Cədvəldən göründüyü kimi, buraxılış və qəbul imtahanının nəticələri arasında əhəmiyyətli sayıla bilən statistik əlaqə mövcuddur. Korrelyasiya əmsalının bu göstəricilərini əsas götürdükdə, ortaya belə bir sual çıxır: yalnız eyni bir testin nəticələrindən həm yekun attestasiyanın, həm də ali təhsil müəssisələrinə tələbə qəbulunun aparılmasında istifadə etmək olarmı? Fikrimizcə, bu cür istifadə heç bir halda düzgün deyil. Belə ki, qəbul imtahanı testləri aşağı qabiliyyət intervalında qiymətləndirmədə yüksək dəqiqliyi təmin etmir. Buraxılış imtahanı testləri isə orta və yüksək qabiliyyət intervalında qiymətləndirmədə kifayət qədər effektiv deyil. Başqa sözlə, əgər biz qəbul imtahanı testlərini buraxılış imtahanında iştirak edən məzunlara təqdim etsək, o zaman məzunların çoxu müsbət qiymət ala bilməz və qiymətləndirmənin də keyfiyyəti aşağı olar. Buraxılış imtahanı testlərinin ali təhsil müəssisələrinə qəbul imtahanlarında istifadəsi isə orta və yüksək qabiliyyət səviyyəsinə malik olan abituriyentlərin diferensiasiyasının (bir-birindən fərqləndirilməsinin) keyfiyyətli aparılmasına mənfi təsir göstərər. Nəzərə alınmalıdır ki, keyfiyyətli aparılan qəbul imtahanı sistemi təhsilin keyfiyyətinin yüksəlməsinə təsir göstərən ən mühüm stimullaşdırıcı faktorlardan biridir.

5.6 saylı qrafikdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticəsi əsasında müsabiqədə iştirak edən abituriyentlərin buraxılış imtahanı testləri üzrə düzgün cavablarının paylanması (histoqramı) təqdim edilmişdir. Qrafikdən göründüyü kimi, ana dili və xarici dil fənləri üzrə balların paylanma histoqramları soltərəfli asimmetriyaya malikdir. Riyaziyyat fənni üzrə isə şagirdlərin kurikuluma əsaslanan tapşırıqların yerinə yetirilməsindəki çətinlikləri onların nəticələrinə də öz təsirini göstərib. Bu fənn üzrə şagirdlərin ballarının paylanma histoqramı normal paylanmaya yaxındır. Məlum olduğu kimi, yüksək hazırlıqlı abituriyentləri fərqləndirmək üçün paylanma sağtərəfli asimmetriyaya malik olmalıdır, yəni düzgün cavablandırılan test tapşırıqlarının sayı artdıqca yüksək bal toplayan abituriyentlərin sayı azalmalıdır. Bu da bir daha göstərir ki, buraxılış imtahanında yüksək hazırlıqlı abituriyentlərin diferensiasiyası zəifdir və bu abituriyentlərin bilik və bacarıqları haqqında daha dəqiq məlumat almaq üçün qəbul imtahanının keçirilməsi labüddür.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ƏSASINDA MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN BURAXILIŞ İMTAHANI TESTLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ PAYLANMASI



Qrafik 5.6

5.9 və 5.10 saylı cədvəllərdə 9-cu və 11-ci sinif şagirdlərinin buraxılış imtahanlarındakı nəticələri təhsil şöbələri üzrə təqdim edilmişdir. Göründüyü kimi, buraxılış imtahanlarında həm 9-cu, həm də 11-ci sinif şagirdləri arasında ən yüksək nəticələri Elm və Təhsil Nazirliyi (TEN) tabeli liseylərin və özəl liseylərin şagirdləri əldə etmişlər. 9-cu və 11-ci siniflərin buraxılış imtahanlarında TEN tabeli liseylərin və özəl liseylərin şagirdlərinin bütün fənlər üzrə topladıqları orta bal, müvafiq olaraq, 183.5-ə və 190.2-yə bərabər olub. Xatırladaq ki, maksimal toplanıla biləcək bal həm 9, həm də 11-ci siniflər üzrə 300-ə bərabərdir.

9-cu siniflər üzrə buraxılış imtahanında bölgələr arasında ən yüksək nəticəni Sumqayıt, Bakı, Naxçıvan şəhərlərinin, Qubadlı rayonunun, Mingəçevir şəhərinin şagirdləri göstərmişlər. Bu bölgələrin ortastatistik şagirdlərinin göstəriciləri, müvafiq olaraq, 132.3, 126.6, 125.2, 123.5 və 121.0 bala bərabər olmuşdur. Ən aşağı göstəricilər isə İmişli, Cəlilabad, Daşkəsən və Sabirabad rayonlarının şagirdlərinə (müvafiq olaraq, 79.8, 78.8, 76.7 və 76.5 bal) məxsusdur.

11-ci siniflər üzrə buraxılış imtahanında ən yüksək nəticəni Naxçıvan şəhərinin, Abşeron rayonunun, Bakı şəhərinin şagirdləri əldə etmişdir (müvafiq olaraq, 138.3, 135.5 və 130.2 bal). Ən aşağı göstəricilər isə Beyləqan, Sabirabad, Cəlilabad və Kürdəmir rayonlarının şagirdlərinə (müvafiq olaraq 79.3, 78.9, 77.4 və 77.0 bal) məxsusdur.

9-cu və 11-ci sinif şagirdlərinin ayrı-ayrı fənlər üzrə nəticələrinə nəzər salsaq görərik ki, ən yaxşı nəticələri TEN tabeli liseylərin və özəl liseylərin şagirdləri göstərmişlər. TEN tabeli liseylərin və özəl liseylərin 9-cu sinif şagirdlərinin tədris dili fənni üzrə orta balı 68.9%-ə, riyaziyyat fənni üzrə 53.1%-ə, xarici dil fənni üzrə 59.9%-ə bərabər olmuşdur. 11-ci sinif şagirdlərinin isə tədris dili fənni üzrə düzgün cavabları 68.5%, riyaziyyat fənni üzrə 49.1%, xarici dil fənni üzrə 67.9% təşkil etmişdir.

Regionlar üzrə 9-cu sinif şagirdləri arasında tədris dili fənnindən ən yaxşı nəticələr Sumqayıt (55.1), Bakı (54.6), Mingəçevir (54.0) şəhərlərinin, Abşeron (53.6), Oğuz (53.5) rayonlarının, riyaziyyat fənnindən Sumqayıt (38.7), Naxçıvan (36.9) şəhərlərinin, Şahbuz (36.1), Culfa (35.9) rayonlarının, xarici dil fənnindən isə Bakı (39.0), Sumqayıt (38.5), Naxçıvan (38.3), Mingəçevir (38.1) şəhərlərinin şagirdlərinə məxsusdur. Tədris dili fənni üzrə ən aşağı nəticələri Gədəbəy (33.1), Sabirabad (31.9), Daşkəsən (30.4) rayonlarının, riyaziyyat fənni üzrə Zərdab (21.4), Ucar (21.3), Ağcabədi (21.2) və Saatlı (21.1) rayonlarının, xarici dil fənni üzrə isə Qobustan (21.8), Sabirabad (21.4), Cəlilabad (21.1) və İmişli (21.0) rayonlarının şagirdləri göstərmişlər.

11-ci sinif şagirdləri arasında tədris dili fənni üzrə ən yaxşı göstəricilər Abşeron rayonunun (60.3), Mingəçevir (57.0), Naxçıvan (54.0) şəhərlərinin, Ordubad rayonunun (53.3), Bakı şəhərinin (53.0), riyaziyyat fənni üzrə Culfa rayonunun (39.8), Naxçıvan şəhərinin (37.6), Ordubad rayonunun (36.2), xarici dil fənni üzrə Naxçıvan (46.7), Bakı (44.7), Sumqayıt (43.9) şəhərlərinin, Qubadlı (41.7), Abşeron (41.0) rayonlarının şagirdlərinə məxsusdur. Tədris dili fənni üzrə ən aşağı göstərici Beyləqan (32.6), Saatlı (32.6), Cəlilabad (32.3), Kürdəmir (31.9) rayonlarının, riyaziyyat fənni üzrə Beyləqan (20.5), Şabran (20.5), Yevlax (19.8) rayonlarının, xarici dil fənni üzrə Lerik (23.4), Ağsu (23.1), Yardımlı (22.4) rayonlarının şagirdlərinə aiddir.

Cədvəl 5.9

9-CU SİNİF ŞAGİRDLƏRİNİN BURAXILIŞ İMTAHANINDAKI GÖSTƏRİCİLƏRİ

№	Təhsil şöbəsi	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçılarının sayı	Tədris dili (orta bal, %-lə)			Riyaziyyat fənni üzrə imtahan iştirakçılarının sayı	Riyaziyyat (orta bal, %-lə)				Xarici dil fənni üzrə imtahan iştirakçılarının sayı	Xarici dil (orta bal, %-lə)		
					qapalı	açıq	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi		qapalı	açıq	Cəmi
1	Liseylər (TN tabeli və özəl)	4495 (3954)	183.50	3974	70.36	63.96	68.86	4495	68.53	41.05	33.37	53.14	4475	67.08	36.65	59.92
2	Sumqayıt şəhəri	4771	132.33	4771	54.92	55.78	55.12	4771	52.96	27.48	20.35	38.69	4771	45.30	16.52	38.53
3	Bakı şəhəri	34550 (34548)	126.64	34548	55.75	50.83	54.59	34548	49.17	20.41	12.44	33.08	34548	45.93	16.34	38.96
4	Naxçıvan şəhəri	1146	125.17	1146	55.99	30.55	50.00	1146	57.14	17.15	13.78	36.90	1146	46.11	12.78	38.27
5	Qubadlı rayonu	987	123.51	987	52.88	50.92	52.42	987	50.22	22.70	13.86	34.49	987	43.39	14.51	36.60
6	Mingəçevir şəhəri	1410	120.98	1410	53.30	56.37	54.02	1410	43.44	18.46	9.43	28.88	1410	44.94	15.80	38.08
7	Abşeron rayonu	5232	118.62	5232	54.30	51.47	53.64	5232	44.21	17.48	7.43	28.52	5232	42.63	16.38	36.46
8	Şahbuz rayonu	175	117.80	175	50.92	26.55	45.19	175	56.88	16.10	12.14	36.09	175	43.69	13.21	36.52
9	Naftalan şəhəri	118	116.72	118	51.21	43.50	49.39	118	48.25	20.90	11.65	32.48	118	40.71	15.78	34.84
10	Oğuz rayonu	491	114.12	491	54.74	49.24	53.45	491	46.33	18.19	5.80	29.32	491	36.60	14.33	31.36
11	Culfa rayonu	408	111.37	408	50.05	23.89	43.89	408	56.19	16.54	12.44	35.91	408	38.95	7.57	31.57
12	Xocavənd rayonu	183	109.27	183	46.41	38.78	44.61	183	49.00	21.58	12.61	33.28	183	38.17	9.36	31.38
13	Zəngilan rayonu	541	109.25	541	49.24	41.35	47.38	541	44.81	16.39	9.38	29.14	541	39.40	11.02	32.72
14	Gəncə şəhəri	3796 (3795)	108.97	3795	48.78	41.99	47.18	3795	43.20	16.98	8.58	28.21	3795	39.79	13.41	33.58
15	Ordubad rayonu	447	108.03	447	51.39	25.21	45.23	447	53.68	15.77	11.15	34.09	447	35.74	5.82	28.70
16	Şuşa rayonu	370	107.74	370	48.01	46.71	47.71	370	42.47	18.56	12.59	29.27	370	36.75	11.32	30.76
17	Qax rayonu	591	107.14	591	47.01	48.39	47.33	591	46.28	24.28	13.89	32.79	591	33.09	7.32	27.02
18	İsmayıllı rayonu	1012	107.11	1012	47.57	50.47	48.25	1012	42.56	20.34	15.13	30.38	1012	34.42	9.13	28.47
19	Cəbrayıl rayonu	805	107.02	805	46.90	42.94	45.97	805	44.99	19.38	11.68	30.49	805	36.70	10.64	30.57
20	Laçın rayonu	1128	106.45	1128	47.99	42.96	46.81	1128	41.77	16.50	8.14	27.25	1128	38.65	12.05	32.39
21	Qəbələ rayonu	1495	105.38	1495	47.69	34.19	44.51	1495	47.46	18.04	11.84	31.54	1495	36.23	6.91	29.33
22	Zaqatala rayonu	1550	104.83	1550	49.47	39.79	47.20	1550	41.26	15.73	6.22	26.30	1550	36.72	13.81	31.33
23	Şirvan şəhəri	1075	103.71	1075	48.35	44.22	47.38	1075	42.09	15.60	9.81	27.70	1075	34.79	8.63	28.64
24	Şərur rayonu	814	103.48	814	47.95	19.61	41.29	814	53.25	13.25	8.69	32.67	814	35.96	8.60	29.52
25	Neftçala rayonu	929	103.26	929	47.01	48.19	47.29	929	39.32	14.91	7.46	25.47	929	37.24	8.62	30.50
26	Siyəzən rayonu	577	102.10	577	48.67	39.70	46.56	577	42.89	17.88	6.22	27.59	577	33.14	11.09	27.95
27	Şəki rayonu	2277	101.14	2277	47.32	25.23	42.12	2277	48.32	13.10	10.94	30.72	2277	35.03	6.47	28.30

Cədvəl 5.9 (ardı)

№	Təhsil şöbəsi	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçılarının sayı	Tədris dili (orta bal, %-lə)			Riyaziyyat fənni üzrə imtahan iştirakçılarının sayı	Riyaziyyat (orta bal, %-lə)				Xarici dil fənni üzrə imtahan iştirakçılarının sayı	Xarici dil (orta bal, %-lə)		
					qapalı	açıq	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi		qapalı	açıq	Cəmi
28	Füzuli rayonu	1297	99.41	1297	45.36	42.15	44.61	1297	37.73	13.17	6.75	24.09	1297	37.20	9.65	30.72
29	Balakən rayonu	1036	97.49	1036	43.06	41.84	42.77	1036	42.19	18.81	10.98	28.73	1036	32.19	5.82	25.98
30	Ağstafa rayonu	1006	97.40	1006	45.56	31.57	42.27	1006	45.67	16.00	9.53	29.55	1006	32.05	4.56	25.58
31	Kəngərli rayonu	260	96.70	260	44.23	19.41	38.39	260	50.26	11.22	7.40	30.35	260	34.84	5.58	27.95
32	Goranboy rayonu	1261	96.33	1261	43.56	35.92	41.76	1261	41.69	15.64	9.18	27.32	1261	32.63	9.76	27.24
33	Ağdaş rayonu	1347	96.08	1347	44.65	37.52	42.97	1347	41.33	16.11	8.67	27.09	1347	31.81	7.21	26.02
34	Salyan rayonu	1774	95.63	1774	45.13	31.18	41.84	1774	43.91	14.94	8.44	28.12	1774	32.33	4.05	25.67
35	Ağdam rayonu	2099	95.40	2099	43.81	38.83	42.64	2099	39.62	13.51	7.62	25.38	2099	33.44	7.75	27.39
36	Xızı rayonu	203	95.19	203	46.70	37.09	44.44	203	40.36	11.00	3.37	24.07	203	32.47	7.88	26.69
37	Quba rayonu	2213 (2208)	95.15	2213	45.79	40.33	44.51	2213	39.94	13.02	6.21	25.05	2208	31.62	5.64	25.51
38	Şabran rayonu	748 (745)	94.73	748	47.36	34.61	44.36	748	39.50	12.75	3.88	24.12	745	31.54	8.26	26.06
39	Lənkəran rayonu	2721	94.70	2721	41.90	40.89	41.66	2721	40.19	16.84	11.27	27.37	2721	31.60	6.42	25.67
40	Kəlbəcər rayonu	1380	94.54	1380	43.56	35.04	41.55	1380	39.29	13.20	7.25	25.04	1380	33.95	8.41	27.94
41	Yevlax rayonu	1410	94.18	1410	43.67	28.93	40.20	1410	43.33	12.10	6.62	26.73	1410	34.12	4.96	27.25
42	Tovuz rayonu	2168	93.90	2168	42.05	30.58	39.35	2168	41.89	16.49	9.17	27.60	2168	32.84	7.86	26.96
43	Şəmkir rayonu	2691	93.85	2691	42.67	38.54	41.70	2691	36.22	12.49	4.76	22.62	2691	35.74	9.36	29.53
44	Qazax rayonu	1111	93.76	1111	42.80	19.91	37.41	1111	46.04	11.49	8.24	28.45	1111	34.35	6.96	27.90
45	Babək rayonu	761	92.18	761	43.50	18.65	37.66	761	46.12	8.80	5.88	27.29	761	34.03	5.17	27.24
46	Astara rayonu	1497	92.17	1497	43.64	33.00	41.13	1497	39.74	14.12	4.56	24.72	1497	31.35	9.96	26.31
47	Şamaxı rayonu	1117 (1113)	91.80	1117	46.04	36.00	43.68	1117	38.86	11.73	3.24	23.41	1113	29.79	8.29	24.73
48	Göyçay rayonu	1430	91.55	1430	43.22	19.40	37.62	1430	43.46	9.30	7.40	26.43	1430	34.22	5.70	27.50
49	Ucar rayonu	918	90.70	918	43.49	40.83	42.87	918	34.63	10.84	4.04	21.25	918	32.70	6.69	26.58
50	Qusar rayonu	1205 (1196)	90.29	1205	39.95	39.08	39.74	1205	38.12	14.95	9.53	25.43	1196	30.94	5.62	24.98
51	Bərdə rayonu	2130	90.20	2130	42.24	19.41	36.87	2130	42.70	9.28	6.73	25.85	2130	34.20	5.64	27.48
52	Masallı rayonu	2498	89.92	2498	42.56	33.86	40.51	2498	38.79	12.06	6.30	24.28	2498	31.36	4.90	25.13
53	Xocalı rayonu	111	89.65	111	43.76	37.76	42.35	111	38.68	11.86	7.43	24.49	111	28.31	4.95	22.81
54	Zərdab rayonu	738	89.60	738	43.05	40.87	42.53	738	34.70	11.11	4.12	21.37	738	31.96	5.37	25.70
55	Sədərək rayonu	151	89.51	151	43.50	18.82	37.70	151	46.58	8.83	5.08	27.31	151	30.97	3.48	24.50
56	Xaçmaz rayonu	2458	88.96	2458	42.79	28.80	39.50	2458	40.04	10.50	7.45	24.92	2458	30.62	4.80	24.54
57	Kürdəmir rayonu	1356	88.59	1356	42.81	27.82	39.28	1356	41.40	12.38	6.48	25.75	1356	29.81	3.26	23.56
58	Hacıqabul rayonu	918	88.38	918	42.29	33.90	40.32	918	38.55	11.76	7.74	24.50	918	29.65	3.80	23.56
59	Biləsuvar rayonu	1316	88.36	1316	39.79	35.81	38.85	1316	39.50	16.50	9.44	26.44	1316	28.77	4.58	23.07
60	Beyləqan rayonu	1238	88.32	1238	41.31	32.59	39.26	1238	40.21	14.14	7.47	25.77	1238	28.96	4.90	23.30
61	Göygöl rayonu	874	87.96	874	39.98	17.83	34.77	874	42.53	8.96	6.19	25.55	874	34.32	5.95	27.64
62	Yardımlı rayonu	544 (543)	86.98	544	41.04	25.74	37.44	544	43.38	13.82	8.41	27.61	543	27.93	2.05	21.84
63	Lerik rayonu	567 (561)	86.98	567	41.46	19.43	36.28	567	44.76	11.93	8.83	28.05	561	28.25	3.03	22.31
64	Samux rayonu	835	86.45	835	40.60	25.34	37.01	835	40.59	11.08	5.30	24.74	835	31.26	3.43	24.71
65	Ağsu rayonu	746	85.56	746	41.16	33.86	39.44	746	38.27	11.89	7.28	24.25	746	27.51	3.54	21.86
66	Qobustan rayonu	390	85.35	390	41.55	33.46	39.65	390	37.01	11.71	8.53	23.90	390	27.44	3.53	21.81
67	Saatlı rayonu	1112	83.70	1112	41.59	29.84	38.82	1112	34.75	10.73	3.27	21.08	1112	28.58	8.27	23.80
68	Ağcabədi rayonu	1754	83.38	1754	41.25	27.55	38.02	1754	35.56	9.88	2.74	21.18	1754	29.16	8.00	24.18
69	Tərtər rayonu	889	82.18	889	37.46	32.11	36.20	889	35.46	12.73	6.59	22.78	889	28.87	4.79	23.20
70	Gədəbəy rayonu	970	82.14	970	38.17	16.75	33.13	970	41.81	9.45	7.52	25.64	970	29.53	3.34	23.36
71	İmişli rayonu	1374	79.75	1374	36.24	30.81	34.96	1374	36.70	12.80	8.02	23.83	1374	26.57	2.77	20.96
72	Cəlilabad rayonu	2561	78.75	2561	38.58	23.53	35.04	2561	37.21	8.75	5.62	22.59	2561	26.70	2.96	21.11
73	Daşkəsən rayonu	228 (227)	76.68	228	35.17	14.67	30.35	228	38.54	8.41	5.12	23.07	227	29.30	4.02	23.34
74	Sabirabad rayonu	2071	76.45	2071	37.01	15.42	31.93	2071	38.70	7.32	5.74	23.10	2071	27.28	2.40	21.42

Cədvəl 5.10

11-Cİ SİNİF ŞAGİRDLƏRİNİN BURAXILIŞ İMTAHANINDAKI GÖSTƏRİCİLƏRİ

№	Təhsil şöbəsi	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçılarının sayı	Tədris dili (orta bal, %-lə)			Riyaziyyat fənni üzrə imtahan iştirakçılarının sayı	Riyaziyyat (orta bal, %-lə)				Xarici dil fənni üzrə imtahan iştirakçılarının sayı	Xarici dil (orta bal, %-lə)		
					qapalı	açıq	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi		qapalı	açıq	Cəmi
1	Liseylər (TEN tabeli və özəl)	2856 (2332)	190.20	2332	73.96	62.96	68.45	2856	69.96	45.18	31.21	49.14	2856	78.22	50.83	67.87
2	Naxçıvan şəhəri	792	138.29	792	56.11	51.81	53.96	792	61.90	33.33	16.59	37.63	792	60.19	24.55	46.70
3	Abşeron rayonu	3247	135.47	3247	62.23	58.45	60.33	3247	49.77	32.06	20.29	34.12	3247	54.08	19.57	41.02
4	Bakı şəhəri	23515 (23511)	130.19	23511	57.89	48.10	52.99	23513	52.67	27.71	15.51	32.52	23513	58.03	22.73	44.67
5	Mingəçevir şəhəri	977	127.32	977	59.73	54.18	56.95	977	48.44	30.46	18.13	32.38	977	51.07	16.52	37.99
6	Sumqayıt şəhəri	3517 (3516)	126.83	3516	55.72	42.80	49.26	3516	51.62	31.62	17.66	33.65	3516	59.23	18.80	43.93
7	Qubadlı rayonu	648	126.02	648	55.56	47.50	51.53	648	51.59	31.20	15.92	32.81	648	58.00	14.88	41.68
8	Culfa rayonu	303	125.49	303	53.17	42.54	47.86	303	67.23	37.62	15.02	39.77	303	51.87	14.88	37.87
9	Naftalan şəhəri	76	125.08	76	54.87	47.04	50.95	76	60.73	24.74	11.56	33.60	76	52.97	20.11	40.53
10	Ordubad rayonu	263 (262)	124.55	263	55.49	51.15	53.32	263	60.28	32.70	15.01	36.18	262	47.39	15.02	35.13
11	Şahbuz rayonu	123	120.61	123	51.50	42.25	46.88	123	61.60	29.92	11.50	34.74	123	53.52	15.16	39.00
12	İsmayıllı rayonu	725	118.50	725	52.06	48.97	50.52	725	57.00	28.17	14.49	33.90	725	44.78	16.51	34.08
13	Qəbələ rayonu	1086	115.35	1086	55.34	49.63	52.48	1086	46.67	30.59	17.84	31.55	1086	43.49	11.36	31.32
14	Şəki rayonu	1734	113.26	1734	48.64	44.12	46.38	1734	54.93	26.93	14.53	32.89	1734	45.35	15.35	33.99
15	Zəngilan rayonu	408	110.17	408	50.22	42.35	46.28	408	47.10	21.67	11.67	27.64	408	50.27	13.25	36.25
16	Hacıqabul rayonu	459	110.13	459	54.65	46.99	50.82	459	48.47	29.89	16.11	31.42	459	38.77	10.07	27.90
17	Şərur rayonu	551	109.94	551	48.41	37.21	42.81	551	61.52	28.42	10.89	34.21	551	45.42	12.39	32.91
18	Salyan rayonu	1052	109.48	1052	52.10	45.11	48.60	1052	46.37	30.87	15.98	30.67	1052	41.51	11.66	30.21
19	Cəbrayıl rayonu	626	109.45	626	50.37	38.73	44.55	626	49.28	23.77	12.86	29.37	626	50.20	11.46	35.53
20	Qax rayonu	415	109.20	415	54.99	39.35	47.17	415	50.66	19.47	8.27	27.25	415	46.66	15.28	34.78
21	Şamaxı rayonu	705	107.52	705	53.72	46.79	50.25	705	44.72	24.79	12.99	27.74	705	40.37	11.75	29.53
22	Şuşa rayonu	235	107.25	235	48.49	42.69	45.59	235	45.37	19.40	9.75	25.74	235	48.38	15.47	35.92
23	Astara rayonu	824	106.81	824	45.90	37.88	41.89	824	57.34	27.16	10.44	32.12	824	44.97	12.86	32.81
24	Laçın rayonu	915	106.44	915	50.89	43.23	47.06	915	43.86	21.38	10.63	25.82	915	46.73	11.94	33.56
25	Quba rayonu	1429 (1415)	105.96	1429	53.61	49.20	51.40	1429	42.42	25.25	13.99	27.31	1415	37.73	10.32	27.35
26	Babək rayonu	524	105.71	524	48.15	39.28	43.71	524	52.86	25.19	10.51	30.02	524	44.83	10.89	31.98
27	Oğuz rayonu	401	105.07	401	49.21	37.91	43.56	401	45.04	23.49	12.11	27.28	401	47.27	12.83	34.23
28	Balakən rayonu	733	103.66	733	52.60	33.28	42.94	733	48.91	20.35	7.04	26.14	733	47.50	13.37	34.57
29	Gəncə şəhəri	2876	103.00	2876	50.23	34.23	42.23	2876	41.56	17.12	8.28	23.19	2876	51.89	14.07	37.58
30	Bərdə rayonu	1290	102.08	1290	45.54	38.22	41.88	1290	48.01	20.19	9.44	26.80	1290	45.41	13.69	33.40
31	Kəlbəcər rayonu	1247	102.00	1247	48.46	37.69	43.07	1247	44.61	20.61	10.35	25.89	1247	46.03	11.73	33.04
32	Kəngərli rayonu	159	101.81	159	45.60	36.19	40.90	159	52.88	23.90	10.74	29.93	159	44.90	8.18	30.99
Rayonun (şəhərin, təşkilatın) adı	İmtahanlara cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2;2.5)		Kafi [2.5;3.5)		Yaxşı [3.5;4.5)		Əla [4.5;5]		Qiymət yazılmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
AMEA	848	0	0	2	0,2	43	5,1	752	88,7	51	6,0
Yasamal	1015	1	0,1	1	0,1	50	4,9	922	90,8	41	4,0
Binəqədi	1673	0	0,0	4	0,2	77	4,6	1563	93,4	29	1,7
Səbail	616	0	0,0	1	0,2	44	7,1	561	91,1	10	1,6
Xətai	1719	0	0,0	6	0,3	77	4,5	1611	93,7	25	1,5
Xəzər	570	0	0,0	0	0,0	41	7,2	518	90,9	11	1,9
Nərimanov	1038	2	0,2	3	0,3	45	4,3	965	93,0	23	2,2
Suraxanı	866	0	0,0	6	0,7	49	5,7	786	90,8	25	2,9
Sabunçu	1814	0	0,0	10	0,6	92	5,1	1646	90,7	66	3,6
Nəsimi	913	0	0,0	6	0,7	44	4,8	844	92,4	19	2,1
Qaradağ	355	0	0,0	1	0,3	30	8,5	317	89,3	7	2,0
Nizami	945	0	0,0	4	0,4	57	6,0	861	91,1	23	2,4
Kəngərli	48	0	0,0	0	0,0	17	35,4	31	64,6	0	0,0
Naxçıvan	791	1	0,1	15	1,9	100	12,6	662	83,7	13	1,6
Babək	243	1	0,4	7	2,9	65	26,7	164	67,5	6	2,5
Ordubad	68	0	0,0	0	0,0	12	17,6	56	82,4	0	0,0
Sədərək	21	1	4,8	4	19,0	3	14,3	11	52,4	2	9,5
Culfa	79	1	1,3	7	8,9	20	25,3	40	50,6	11	13,9
Şərur	141	3	2,1	6	4,3	52	36,9	77	54,6	3	2,1
Şahbuz	31	0	0,0	2	6,5	10	32,3	19	61,3	0	0,0
Gəncə	1799	1	0,1	4	0,2	165	9,2	1576	87,6	53	2,9
Daşkəsən	56	0	0,0	2	3,6	14	25,0	40	71,4	0	0,0
Şəmkir	1006	0	0,0	24	2,4	262	26,0	707	70,3	13	1,3
Göygöl	164	0	0,0	2	1,2	21	12,8	138	84,1	3	1,8
Samux	125	0	0,0	1	0,8	14	11,2	109	87,2	1	0,8
Gədəbəy	174	1	0,6	6	3,4	26	14,9	135	77,6	6	3,4
Qazax	350	0	0,0	17	4,9	103	29,4	223	63,7	7	2,0
Ağstafa	324	0	0,0	11	3,4	57	17,6	254	78,4	2	0,6
Tovuz	361	0	0,0	3	0,8	71	19,7	283	78,4	4	1,1

Cədvəl 3 (ardı)

Rayonun (şəhərin, təşkilatın) adı	İmtahanlara cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2;2.5)		Kafi [2.5;3.5)		Yaxşı [3.5;4.5)		Əla [4.5;5]		Qiymət yazılmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
Sumqayıt	1575	1	0,1	9	0,6	96	6,1	1434	91,0	35	2,2
Abşeron	1228	0	0,0	5	0,4	56	4,6	1141	92,9	26	2,1
Xızı	21	0	0,0	0	0,0	0	0,0	21	100,0	0	0,0
Şamaxı	160	0	0,0	2	1,3	24	15,0	133	83,1	1	0,6
Qobustan	58	0	0,0	0	0,0	17	29,3	41	70,7	0	0,0
Mingəçevir	597	0	0,0	2	0,3	43	7,2	538	90,1	14	2,3
Goranboy	267	1	0,4	3	1,1	55	20,6	201	75,3	7	2,6
Yevlax	275	0	0,0	5	1,8	31	11,3	234	85,1	5	1,8
Şəki	1246	0	0,0	2	0,2	75	6,0	1140	91,5	29	2,3
Zaqatala	254	0	0,0	1	0,4	30	11,8	223	87,8	0	0,0
Balakən	188	0	0,0	4	2,1	21	11,2	158	84,0	5	2,7
Qəbələ	276	0	0,0	4	1,4	42	15,2	227	82,2	3	1,1
Qax	87	0	0,0	0	0,0	6	6,9	79	90,8	2	2,3
Oğuz	81	0	0,0	0	0,0	10	12,3	68	84,0	3	3,7
Bərdə	1258	5	0,4	8	0,6	137	10,9	1083	86,1	25	2,0
Şuşa	36	0	0,0	0	0,0	1	2,8	35	97,2	0	0,0
Ağcabədi	340	0	0,0	13	3,8	74	21,8	251	73,8	2	0,6
Ağdam	158	0	0,0	7	4,4	21	13,3	128	81,0	2	1,3
Tərtər	140	1	0,7	1	0,7	27	19,3	107	76,4	4	2,9
Göyçay	647	0	0,0	6	0,9	57	8,8	575	88,9	9	1,4
Ucar	217	0	0,0	3	1,4	32	14,7	180	82,9	2	0,9
Kürdəmir	379	0	0,0	4	1,1	65	17,2	308	81,3	2	0,5
Zərdab	108	0	0,0	1	0,9	26	24,1	81	75,0	0	0,0
Ağdaş	214	3	1,4	3	1,4	35	16,4	168	78,5	5	2,3
İsmayıllı	198	0	0,0	1	0,5	19	9,6	172	86,9	6	3,0
Ağsu	118	1	0,8	1	0,8	24	20,3	92	78,0	0	0,0
İmişli	264	3	1,1	7	2,7	84	31,8	160	60,6	10	3,8
Qubadlı	141	0	0,0	1	0,7	10	7,1	130	92,2	0	0,0
Füzuli	145	1	0,7	3	2,1	24	16,6	115	79,3	2	1,4
Beyləqan	224	0	0,0	7	3,1	57	25,4	156	69,6	4	1,8
Laçın	21	0	0,0	0	0,0	2	9,5	18	85,7	1	4,8
Zəngilan	61	0	0,0	0	0,0	1	1,6	59	96,7	1	1,6
Şirvan	611	0	0,0	6	1,0	71	11,6	524	85,8	10	1,6
Hacıqabul	153	1	0,7	2	1,3	41	26,8	108	70,6	1	0,7
Sabirabad	692	0	0,0	9	1,3	161	23,3	509	73,6	13	1,9
Biləsuvar	179	1	0,6	4	2,2	76	42,5	97	54,2	1	0,6
Neftçala	220	0	0,0	2	0,9	32	14,5	180	81,8	6	2,7
Salyan	769	1	0,1	6	0,8	126	16,4	621	80,8	15	2,0
Saatlı	202	0	0,0	8	4,0	43	21,3	143	70,8	8	4,0
Lənkəran	1196	0	0,0	3	0,3	159	13,3	1017	85,0	17	1,4
Astara	257	2	0,8	4	1,6	73	28,4	170	66,1	8	3,1
Lerik	132	1	0,8	3	2,3	22	16,7	105	79,5	1	0,8
Yardımlı	95	0	0,0	6	6,3	21	22,1	66	69,5	2	2,1
Cəlilabad	552	1	0,2	15	2,7	133	24,1	396	71,7	7	1,3

Cədvəl 3 (ardı)

Rayonun (şəhərin, təşkilatın) adı	İmtahanlara cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2;2.5)		Kafi [2.5;3.5)		Yaxşı [3.5;4.5)		Əla [4.5;5]		Qiymət yazılmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
Masallı	551	1	0,2	18	3,3	149	27,0	373	67,7	10	1,8
Quba	519	0	0,0	6	1,2	44	8,5	458	88,2	11	2,1
Qusar	175	0	0,0	4	2,3	25	14,3	140	80,0	6	3,4
Xaçmaz	1155	2	0,2	8	0,7	98	8,5	1028	89,0	19	1,6
Şabran	88	0	0,0	2	2,3	9	10,2	77	87,5	0	0,0
Siyəzən	50	0	0,0	2	4,0	9	18,0	37	74,0	2	4,0
DİM	444	0	0,0	1	0,2	15	3,4	424	95,5	4	0,9
CƏMİ	**37175**	**38**	**0,1**	**367**	**1,0**	**4170**	**11,2**	**31800**	**85,5**	**800**	**2,2**

Qeyd: İmtahana iştirak edən 37175 nəzarətçidən 800-nə qiymət verilməmişdir. Bunlardan 242-si ehtiyat nəzarətçi olmuş, 558-i zalda olduqları halda fəaliyyətləri qiymətləndirilməmişdir.

2015–2022-ci illərdə buraxılış və qəbul imtahanlarında nəzarətçilərin qiymətləndirmə meyarları üzrə paylanması aşağıdakı diaqramda təqdim edilir.



Şəkil 1

Qrafikdən göründüyü kimi, 2020-ci il istisna olmaqla fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi getdikcə artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi ya sabit qalmış, ya da əsasən azalmışdır. 2020-ci ildə fəaliyyəti əla qiymətləndirilənlərin sayının azalmasının və "kafi" və "qeyri-kafi" qiymətləndirilənlərin sayının artmasının əsas səbəbi qəbul imtahanlarının yeni imtahan mərkəzlərində nəzarətçi kimi təcrübəsi az olan müəllimlərlə keçirilməsidir. Digər illərdə fəaliyyəti "əla" qiymətləndirilən nəzarətçilərin sayının artmasını nəzarətçi bazasının ən yaxşıların seçilməsinə imkan verəcək şəkildə geniş olması, nəzarətçilər və imtahan rəhbərləri ilə təlimlərin kiçik qruplar şəkilində interaktiv üsullarla aparılması, zal nəzarətçi işinin yaxşılaşdırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi (mükafatlandırma, təltif, fəaliyyəti yüksək qiymətləndirilənlər barədə işlədikləri müəssisələri məlumatlandırılma) və "zal nəzarətçisi sertifikatı" alan nəzarətçilərin imtahanlarda öncəlikli iştirakının təmin edilməsi kimi faktorlarla izah etmək olar. Bu tendensiyanın səbəblərindən biri də "Zal nəzarətçilərinin fəaliyyətinin qiymətləndirilməsi meyarları"nın imtahan rəhbərləri tərəfindən getdikcə daha dəqiq tətbiq edilməsidir.

Ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsində iştirak edən nəzarətçilər bazasının fənlər üzrə ümumi tərkibi ilə (şəkil 2) qayda pozuntusuna yol verən nəzarətçilərin fənlər üzrə tərkibi (şəkil 3) müqayisə edilərək cari ildəki qəbul imtahanlarında hansı ixtisas müəllimlərinin yol verilən qayda pozuntularında daha çox paya malik olması aşkarlanmışdır.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN NƏZARƏTÇİLƏRİN İXTİSAS FƏNLƏRİ ÜZRƏ PAYLANMASI (FAİZLƏ)



Şəkil 2

QƏBUL İMTAHANLARINDA NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSUNA YOLVERMƏ FAİZİ (İXTİSASLAR ÜZRƏ)



Şəkil 3

Cari ildə qəbul imtahanlarında qayda pozuntusuna yol verənlərin 33,7%-i ibtidai təhsil, 12,1%-i digər ixtisaslara, 10,7%-i isə tarix ixtisasına sahib nəzarətçilərdir. 2021-ci ildə qayda pozuntusuna yol verənlərin 32%-i ibtidai təhsil, hər biri 12,2% olmaqla tarix və ingilis dili ixtisasına malik nəzarətçilərdir. 2020-ci ildə qayda pozuntusuna yol verənlərin 34,5%-i ibtidai təhsil, 14%-i tarix müəllimləri idi. 2019-cu ildə isə belə hallara yol verənlərin 20,9%-i ibtidai təhsil, 14,9%-i ingilis dili, 12,3%-i tarix, 9,8%-i ana dili və ədəbiyyat, 6,8%-i kimya, 3,8%-i əmək təlimi müəllimləri olmuşdur.

2010–2019-ci illərdə qəbul imtahanlarında iştirak edən ana dili və ədəbiyyat müəllimlərinin sayının nəzarətçilərin ümumi sayının kiçik bir hissəsini (2010-cu ildə 9,8%, 2011-ci ildə 12,2%, 2012-ci ildə 14,8%, 2013-cü ildə 17,4%, 2014-cü ildə 14,6%, 2015-ci ildə 16,3%, 2016-cı ildə 12,9%, 2017-ci ildə 10,7%, 2018-ci ildə 11,3%, 2019-cu ildə 8,5%) təşkil etməsinə baxmayaraq, yol verilən qayda pozuntularının böyük bir hissəsi (uyğun olaraq 2010-cu ildə 18,4%, 2011-ci ildə 24,2%, 2012-ci ildə 16,1%, 2013-cü ildə 33,6%, 2014-cü ildə 25,1%, 2015-ci ildə 27,7%, 2016-cı ildə 20,6%, 2017-ci ildə 17,7% , 2018-ci ildə 12,7%, 2019-cu ildə 9,8%) onların payına düşürdü. Aradakı fərqin ilbəil azalması bazaya yeni ana dili və ədəbiyyat müəllimlərinin götürülməməsi və fəaliyyəti qeyri-qənaətbəxş hesab edilənlərin bazadan çıxarılması ilə əlaqədar idi. Nəhayət, 2020-ci ildə ana dili və ədəbiyyat müəllimləri ilə bağlı bu tendensiya sona çatdı. Belə ki, bu göstəricilər 2020-ci ildə uyğun olaraq 4,7%, 2,8% , cari ildə isə 6,4% və 3,8% olmuşdur.

Bu nəticələrə əsasın demək olar ki, riyaziyyat, fizika, biologiya və coğrafiya müəllimləri imtahan zallarını daha yaxşı idarə edirlər. İdman müəllimlərinin son illərdəki nəticələrinin yaxşılaşmasını da bazaya bu ixtisas üzrə yeni nəzarətçilərin götürülməməsi və cari bazada ən bacarıqlıların saxlanılması ilə izah etmək olar.

4 saylı cədvəldə cari ildə buraxılış və qəbul imtahanlarında nəzarətçilər tərəfindən qayda pozuntusu hallarının bölgələr üzrə paylanması təqdim edilir.

Cədvəl 4

QAYDA POZUNTUSU HALLARININ BÖLGƏLƏR ÜZRƏ PAYLANMASI

Rayonun (şəhərin, təşkilatın) adı	Qəbul imtahanlarında			Buraxılış imtahanlarında		
	(1)	(2)	(3)	(1)	(2)	(3)
AMEA	287	2	0,7	561	0	0
Yasamal	349	2	0,6	666	1	0,2
Binəqədi	624	9	1,4	1049	3	0,3
Səbail	230	5	2,2	386	1	0,3
Xətai	696	11	1,6	1023	7	0,7
Xəzər	231	0	0,0	339	2	0,6
Nərimanov	372	7	1,9	666	7	1,1
Suraxanı	370	2	0,5	496	2	0,4
Sabunçu	583	14	2,4	1231	4	0,3
Nəsimi	348	5	1,4	565	0	0,0
Qaradağ	162	3	1,9	193	1	0,5
Nizami	407	8	2,0	538	1	0,2
Kəngərli	2	0	0,0	46	1	2,2
Naxçıvan	416	11	2,6	375	8	2,1
Babək	57	1	1,8	186	3	1,6
Ordubad	0	0	0	68	0	0,0
Sədərək	0	0	0	21	1	4,8
Culfa	0	0	0	79	1	1,3
Şərur	0	0	0	141	9	6,4
Şahbuz	0	0	0	31	0	0,0
Gəncə	897	19	2,1	902	3	0,3
Daşkəsən	5	0	0,0	51	0	0,0
Şəmkir	454	60	13,2	552	17	3,1
Göygöl	15	1	6,7	149	2	1,3
Samux	14	0	0,0	111	1	0,9
Gədəbəy	0	0	0	174	4	2,3
Qazax	75	11	14,7	275	7	2,5
Ağstafa	180	39	21,7	144	3	2,1
Tovuz	11	0	0,0	350	7	2,0
Sumqayıt	565	13	2,3	1010	1	0,1
Abşeron	508	10	2,0	720	2	0,3
Xızı	3	0	0,0	18	0	0,0
Şamaxı	0	0	0	160	1	0,6
Qobustan	0	0	0	58	0	0,0
Mingəçevir	191	0	0,0	406	3	0,7
Goranboy	1	0	0,0	266	4	1,5
Yevlax	15	0	0,0	260	3	1,2
Şəki	643	6	0,9	603	1	0,2
Zaqatala	15	1	6,7	239	4	1,7
Balakən	11	0	0,0	177	4	2,3
Qəbələ	14	0	0,0	262	5	1,9
Qax	2	0	0,0	85	0	0,0
Oğuz	10	0	0,0	71	0	0,0

Cədvəl 4 (ardı)

Rayonun (şəhərin, təşkilatın) adı	Qəbul imtahanlarında			Buraxılış imtahanlarında		
	(1)	(2)	(3)	(1)	(2)	(3)
Bərdə	629	25	4,0	629	7	1,1
Şuşa	9	0	0,0	27	0	0,0
Ağcabədi	25	0	0,0	315	6	1,9
Ağdam	0	0	0	158	1	0,6
Tərtər	15	1	6.7	125	0	0,0
Göyçay	340	9	2,6	307	3	1,0
Ucar	42	1	2,4	175	2	1,1
Kürdəmir	109	5	4,6	270	2	0,7
Zərdab	0	0	0	108	1	0,9
Ağdaş	17	1	5,9	197	5	2,5
İsmayıllı	26	2	7,7	172	2	1,2
Ağsu	6	0	0,0	112	2	1,8
İmişli	0	0	0,0	264	7	2,7
Qubadlı	58	0	0,0	83	0	0,0
Füzuli	4	0	0,0	141	2	1,4
Beyləqan	9	0	0,0	215	4	1,9
Laçın	13	0	0,0	8	0	0,0
Zəngilan	30	0	3,3	31	0	0,0
Şirvan	329	11	0,0	282	3	1,1
Hacıqabul	13	0	8,6	140	3	2,1
Sabirabad	198	17	0,0	494	3	0,6
Biləsuvar	0	0	0	179	8	4,5
Neftçala	46	0	0,0	174	0	0,0
Salyan	456	17	3,7	313	5	1,6
Saatlı	12	1	8,3	190	2	1,1
Lənkəran	499	10	2,0	697	3	0,4
Astara	37	1	2,7	220	4	1,8
Lerik	17	0	0,0	115	5	4,3
Yardımlı	0	0	0	95	6	6,3
Cəlilabad	9	0	0,0	543	5	0,9
Masallı	153	11	7,2	398	12	3,0
Quba	59	2	3,4	460	5	1,1
Qusar	11	0	0,0	164	4	2,4
Xaçmaz	534	11	2,1	621	3	0,5
Şabran	1	0	0,0	87	2	2,3
Siyəzən	0	0	0	50	3	6,0
DIM	111	0	0.0	333	2	0,6
CƏMİ	**12580**	**365**	**2.9**	**24595**	**246**	**1,0**

Qeyd1: (1). Rayon üzrə imtahanda iştirak edən nəzarətçilərin sayı, **(2)**. Rayon üzrə qayda pozuntusuna yol verənlərin sayı; **(3).** Rayon üzrə qayda pozuntusuna yol verənlərin sayının rayon üzrə imtahanda iştirak edən nəzarətçilərin sayına nisbətinin faizlə ifadəsi.

Qeyd2. Adları tünd qara rəngdə qeyd olunan rayonlarda həm cari, həm əvvəlki illərin məzunları üçün keçirilən buraxılış imtahanları ilə yanaşı qəbul imtahanlarının II mərhələsi də keçirilmişdir. Digər rayonlarda yalnız cari ilin məzunları üçün buraxılış imtahanları keçirilmişdir. Lakin yalnız cari ilin məzunları üçün buraxılış imtahanları keçirilən rayonların əsasən sertifikatlı nəzarətçiləri qonşu rayonlarda keçirilən qəbul imtahanlarına dəvət edilmişdir.

Cədvəldən göründüyü kimi, həm buraxılış, həm də ali təhsil müəssisələrinə qəbul imtahanlarının keçirildiyi bəzi rayonlarda, məsələn, Şəmkir, Qazax, Ağstafa, Bərdə, Kürdəmir, Salyan və Masallıda qayda pozuntusu hallarına daha çox şərait yaradılmışdır.

Şəmkir, Qazax, Ağstafa və Kürdəmir rayonları 2020 və 2021-ci ildə də qayda pozuntusuna daha çox yol verən rayonlar arasında idi.

Yalnız buraxılış imtahanlarının keçirildiyi rayonlar üzrə qayda pozuntusu hallarına ən çox Ağdaş, Biləsuvar, Lerik, Yardımlı, Siyəzən, Sədərək və Şərur rayonlarında rast gəlinir.

Qəbul və buraxılış imtahanlarında kompüter proqramı vasitəsilə köçürməyə yol verdiyi müəyyənləşdirilən nəzarətçilərin ümumi sayı 346, imtahan rəhbərləri tərəfindən və imtahanda baş verən xüsusi halların araşdırılması zamanı təlimata zidd digər pozuntulara yol verdiyi müəyyənləşdirilən nəzarətçilərin ümumi sayı 265 nəfərdir. Bunlardan ağır köçürməyə yol verən nəzarətçilərin sayı 65, digər ciddi təlimat pozuntularına yol verən nəzarətçilərin sayı 59 nəfərdir. Bu göstəricilər buraxılış imtahanları üzrə uyğun olaraq 113, 133, 14 və 37, qəbul imtahanları üzrə 233, 132, 51 və 22-dir.

Araşdırmalar göstərir ki, imtahan təcrübəsi artdıqca nəzarətçilərin qayda pozuntusuna yolvermə hallarında da azalma müşahidə olunur (5 saylı cədvələ bax).

Cədvəl 5

NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSU HALLARI

(İMTAHANLARDA İŞTİRAK SAYI ÜZRƏ)

İştirak sayı	İştirak edən nəzarətçilərin		Qayda pozuntusuna yol verən nəzarətçilərin	
	sayı	faizi (ümumi iştirak sayına nəzərən)	sayı	faizi (qayda pozuntusuna yol verənlərin cəminə nəzərən)
ən çox 5	2759	20,7	119	19,8
6 - 15	3295	24,7	178	29,6
16 - 35	5183	38,9	233	38,8
ən az 36	2084	15,6	71	11,8

Cari ildə keçirilən imtahanlarda iştirak etmiş nəzarətçilər arasından indiyə qədər cəlb olunduğu bütün imtahanlarda:

- təyin olunduğu zallarda köçürmə faktı aşkarlanmayan;
- bir qayda olaraq, cəlb olunduğu bütün imtahanlarda iştirak edən;
- qeyri-kafi qiymət almayan, yekun qiyməti 4-dən yuxarı olan və cari ildə yekun qiymətini daha da yaxşılaşdıran;
- heç bir təlimata zidd pozuntulara yol verməyən və cari ildə imtahan rəhbərinin protokollarında "yaxşı" və "əla" ilə qiymətləndirilən;
- 600-dən yuxarı bal toplayan abituriyentlər tərəfindən fəaliyyətinə verilən rəy "yaxşı" və "əla" olan;
- imtahanlarda ən azı 15 dəfə (son iki il ərzində 3 dəfə, o cümlədən qəbul imtahanlarında heç olmasa 1 dəfə) iştirak edən nəzarətçilər müəyyənləşdirilmiş və fəaliyyətləri yüksək qiymətləndirilmişdir.

Belə nəzarətçilərin sayı 1830 nəfərdir.

CARİ İLDƏ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ FƏALİYYƏTİ YÜKSƏK QİYMƏTLƏNDİRİLƏN ZAL NƏZARƏTÇİLƏRİNİN SAYI

Cari ildə fəaliyyəti yüksək qiymətləndirilən zal nəzarətçilərinin sayı 1830 nəfərdir. Onların 30 nəfəri fəxri fərmanla təltif edilmişdir.

Cədvəl 8

1. Təhsil müəssisələri üzrə paylanma

S/s	Təhsil müəssisəsinin adı*	Nəzarətçi sayı
1.	Şəki şəhəri üzrə sertifikatlı nəzarətçilər	23
2.	Gəncə şəhəri üzrə sertifikatlı nəzarətçilər	15
3.	Xaçmaz şəhəri 9 nömrəli tam orta məktəb	13
4.	Sumqayıt şəhəri üzrə sertifikatlı nəzarətçilər	11
5.	Şəki şəhəri 1 nömrəli tam orta məktəb	10
6.	Şəki şəhəri 11 nömrəli tam orta məktəb	10
7.	Azərbaycan Texnologiya Universiteti	9
8.	Şəki şəhəri 18 nömrəli tam orta məktəb	9
9.	Qəbələ şəhəri 4 nömrəli tam orta məktəb	9
10.	Lənkəran şəhəri 5 nömrəli tam orta məktəb	9
11.	Lənkəran şəhəri xarici dil təmayüllü internat tam orta məktəbi	9

* Bu kateqoriyadan olan təhsil müəssisələrinin sayı 968-dir.

Cədvəl 9

2. İxtisas fənləri üzrə paylanma

S/s	İxtisasın adı	Nəzarətçi sayı
1.	Tarix	340
2.	İbtidai təhsilin pedaqogika və metodikası	308
3.	Biologiya	208
4.	Fizika	208
5.	Coğrafiya	175
6.	Digər ixtisaslar	199
7.	Kimya	127
8.	Əmək təlimi	69
9.	İngilis dili	60
10.	Riyaziyyat	52
11.	İdman	37
12.	Digər xarici dillər	15
13.	Ana dili və ədəbiyyat	32

Bu siyahıda 3 məktəb 8 nəfərlə, 6 məktəb 7 nəfərlə, 7 məktəb 6 nəfərlə, 26 məktəb 5 nəfərlə, 36 məktəb 4 nəfərlə, 100 məktəb 3 nəfərlə, 230 məktəb 2 nəfərlə, 548 məktəb 1 nəfərlə təmsil olunub.

YEKUN STATİSTİKA



Şəkil 4

Diaqramdan göründüyü kimi, bu il buraxılış imtahanlarına və ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə cəlb edilmiş nəzarətçi-müəllimlərin, köçürmələr də nəzərə alınmaqla, 85,2%-nin fəaliyyəti əla, 10,7%-nin yaxşı, 0,8%-nin kafi, 1,8%-nin isə qeyri-kafi qiymətləndirilib.

Fəaliyyəti kafi qiymətləndirilən müəllimlərin nəzarətçi kimi hazırlıq səviyyəsinin artırılması məqsədi ilə hər il olduğu kimi, gələn il də təlimlərin ayrı-ayrı qruplarda təşkil olunması və onların növbəti ilin sınaq imtahanlarına cəlb olunması və fəaliyyətlərinin ayrıca izlənilməsi nəzərdə tutulur. Fəaliyyəti qeyri-kafi qiymətləndirilən müəllimlər isə cari ilin nəzarətçilər bazasından çıxarılıb.

DİM nümunəvi işi ilə seçilən və fəaliyyəti əla qiymətləndirilən müəllimləri ilboyu müxtəlif dövlət qurumlarına keçirilən işə qəbul imtahanlarına da dəvət edir, nəzarətçilər üçün keçirilən təlimlərdə onların təcrübəsindən istifadə edilir və həmin nəzarətçilər imtahan rəhbərliyinə namizədlər siyahısına daxil edilir.

Xatırladaq ki, cari il də daxil olmaqla (1830 nəfər) indiyə qədər DİM-in keçirdiyi imtahanlarda nümunəvi fəaliyyətinə görə fərqlənmiş 5599 nəzarətçiyə təşəkkür elan edilmiş, onların 421-i fəxri fərmanla təltif olunmuşdur.

Nəzarətçilərin fəaliyyətinin təhlilinin nəticələri barədə, bir qayda olaraq, hər il Elm və Təhsil Nazirliyinə, müvafiq rayon (şəhər) təhsil şöbələrinə və ümumtəhsil müəssisələrinə məlumat verilir.

Nəticə

2022-ci ildə buraxılış və ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə cəlb edilmiş nəzarətçi-müəllimlərin fəaliyyətinin təhlili ilə bağlı əldə olunan nəticələr:

- Qəbul imtahanları üçün nəzarətçi bazası ən yaxşılarının seçilməsi üçün əsasən yetərli olmuşdur. Belə ki, cari ildə nəzarətçilərin 45,2%-i qəbul imtahanlarının II mərhələsində, 68,8%-i buraxılış imtahanlarında, 84,6%-i isə hər iki imtahanda iştiraka cəlb olunmuşdur. İmtahanlara cəlbedilmə faizi, Gəncə şəhəri istisna olmaqla, həm buraxılış, həm də qəbul imtahanlarının II mərhələsinin keçirildiyi rayonlar üzrə 85%-dən yuxarı olmuşdur. Yalnız cari ilin məzunları üçün buraxılış imtahanlarının keçirildiyi bəzi rayonlar (Xəzər, Suraxanı, Sabunçu, Daşkəsən, Samux, Goranboy, Zaqatala, Balakən, Zərdab, Ağdaş, Ağsu, İmişli, Beyləqan) üzrə də imtahanlara cəlbedilmə faizi 85-dən yuxarı olmuşdur. Cəlilabad, Masallı, Quba, Sumqayıt, Abşeron rayonlarında nəzarətçi sayı az olduğundan buraxılış imtahanları iki gündə keçirilir. Seçim imkanlarının daha geniş olmasını təmin etmək üçün növbəti ildə bu rayonlar üzrə nəzarətçi sayının artırılmasına ehtiyac var.

Buraxılış imtahanları və ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə cəlb edilmiş (38376 cəlb) nəzarətçilərin 27,2%-i (10443 cəlb) sertifikatlı zal nəzarətçiləridir (buraxılış imtahanlarında 24,3%-i, qəbul imtahanlarının II mərhələsində 32,8%-i) .

- Əlaqələndiricilərin nəzarətçiləri imtahana cəlb etməsi işi ilə əlaqədar müsbət tendensiya davam edir. Belə ki, buraxılış imtahanlarında və qəbul imtahanlarının II mərhələsində nəzarətçi vəsiqəsini götürdüyü halda imtahana gəlməyənlərin faizi 3,1 olmuşdur (qəbul imtahanlarının II mərhələsində 4,6%, buraxılış imtahanlarında 2,6%). Cari ildə cəlb olunanların 2,2%-i isə imtahanda üzrlü səbəblərdən iştirak etməmişdir.
- 2020-ci il istisna olmaqla fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi getdikcə artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi isə ya sabit qalmış, ya da azalmışdır. 2020-ci ildə fəaliyyəti əla qiymətləndirilənlərin sayının azalmasının və "kafi" və "qeyri-kafi" qiymətləndirilənlərin sayının artmasının əsas səbəbi qəbul imtahanlarının yeni imtahan mərkəzlərində qəbul imtahanları təcrübəsi az olan nəzarətçilərlə keçirilməsidir.

Qəbul və buraxılış imtahanlarında iştirak edən sertifikatlı nəzarətçilərin (10074 dəfə) 90,3%-i əla, ümumilikdə isə 96,6%-i yaxşı və əla (digər nəzarətçilərdə bu faizlər uyğun olaraq 83,8% və 97%-dir) qiymətlər almışdır. Əla qiymətlilərin müqayisəsində sertifikatlı nəzarətçilər müsbət mənada fərqlənirlər.

Əla qiymətləndirilən nəzarətçilərin artması (2020-ci il istisna olmaqla) yalnız nəzarətçi kontingentinin yaxşıların seçiminə imkan verəcək şəkildə geniş olması, təlimlərdə təlim metodlarının dəyişdirilməsi, stimullaşdırıcı tədbirlərin tətbiqi, sertifikatlı nəzarətçilərin cəlb edilməsi və s. bu kimi yuxarıda qeyd olunan səbəblərlə izah olunmur. Eyni zamanda təhlil onu göstərir ki, imtahan rəhbərlərinin nəzarətçiləri yaxşı və xüsusilə də əla qiymətlərlə qiymətləndirməyə meyilli olmaları da bu artıma təsir göstərmişdir. Odur ki, imtahan rəhbərləri ilə təlimlərdə bu məsələyə diqqətin artırılması nəzərdə tutulur.

- Cari ilin araşdırmalarında yalnız kompüter proqramı ilə müəyyənləşdirilən köçürmə halları deyil, digər ciddi təlimat pozuntuları (imtahan rəhbərləri tərəfindən və xüsusi araşdırma zamanı müəyyələşdirilən mobil telefondan istifadəyə göz yummaq, sual kitabçalarının dəyişdirilməsi və s.) da nəzərə alınmışdır. İmtahan rəhbərləri və nəzarətçilərlə ilboyu aparılan təlimat işinin nəticəsi kimi qayda pozuntusu hallarının azalması tendensiyası davam edir. Cari ildə qəbul imtahanlarının II mərhələsində nəzarətçilərin 1,6%-i, buraxılış imtahanlarında 2,9%-i, ümumən isə 1%-i qayda pozuntularına yol vermişdir. Qayda pozuntusu hallarının azalmasında çoxvariantlılığın tətbiqi və iştirakçıların imtahan zalında tək-tək əyləşdirilməsi faktorlarının da böyük təsiri var.
- Nəzarətçilərin ixtisasına görə qayda pozuntuları hallarının araşdırılması riyaziyyat, fizika, biologiya və coğrafiya ixtisaslı müəllimlərin qayda pozuntularına nisbətən daha az yol verdiklərini və imtahan zallarını daha yaxşı idarə etdiklərini göstərir. Lakin tarix, ingilis dili və digər xarici dillər və ibtidai sinif müəllimlərinin daha çox köçürməyə yol verdikləri tendensiyası davam edir.

Zal nəzarətçisi sertifikatı almış nəzarətçilərin ixtisaslar üzrə qayda pozuntularına yol verməsi hallarının araşdırılması zamanı da eyni nəticələr ortaya çıxır.

- Həm buraxılış, həm də ali təhsil müəssisələrinə qəbul imtahanlarının keçirildiyi bəzi rayonlarda qayda pozuntusu hallarına daha çox şərait yaradılmışdır: Şəmkir, Qazax, Ağstafa, Bərdə, Kürdəmir, Salyan, Masallı. Yalnız buraxılış imtahanlarının keçirildiyi rayonlar üzrə qayda pozuntusu hallarına ən çox bu rayonlarda rast gəlinir: Ağdaş, Biləsuvar, Lerik, Yardımlı, Siyəzən, Sədərək və Şərur. Şəmkir istisna olmaqla qayda pozuntusu halları, demək olar ki, regional bölmə mərkəzlərinin yerləşdiyi rayonlardan kənarda baş verir.
- Araşdırma göstərir ki, nəzarətçilərin təcrübəsi artdıqca qayda pozuntularına yol verilməsi halları azalır.

Dövlət qulluğu üzrə müsahibələrə buraxılma və sertifikatlarla iş sahəsində informasiya sistemlərinin rolu, yeniliklər, fəaliyyətin təhlili

M.M.Abbaszadə, B.B.Xəlilov, V.O.Əkbərov, H.R.Zeynalov

2022-ci ildə dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak edərək uğur qazanmış şəxslərin sertifikat əldə etmək üçün qeydiyyatdan keçdikdən sonra sənədlərinin yoxlanılması, dövlət qulluğuna qəbul edilməsinin mümkün olub-olmaması haqqında məlumatların yerləşdirilməsi, sertifikatların təqdim edilməsi, müsabiqənin müsahibəsi, ümumi müsahibə və daxili müsahibələrdə iştirak üçün müraciət edən şəxslərin sənədlərinin düzgünlüyünün və qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifənin tutulma şərtlərinə uyğunluğunun yoxlanılması Dövlət İmtahan Mərkəzi tərəfindən uğurla davam etdirilmişdir. Qeyd edilən fəaliyyət istiqamətlərində görülən işlər Mərkəzin "Namizəd-müsahibə", "Dövlət qulluqçularının Reyestri", "Ehtiyat kadrlar", "Tələbə-məzun" və s. informasiya sistemlərinin vasitəsilə həyata keçirilmiş və məlumat bazaları əsasında müxtəlif statistik və analitik təhlillər aparılmışdır.

2022-ci ildə qövlət qulluğuna qəbul olmaq üçün müsabiqənin test imtahanı mərhələsində iştirak edərək uğur qazanmış və sertifikat əldə etmək üçün elektron qaydada müraciət etmiş namizədlərin sənədlərinin yoxlanılması barədə statistik məlumatlar Cədvəl 1-də təqdim edilir.

Cədvəl 1.

Dövlət qulluğuna qəbul sertifikatı əldə etmək üçün müraciət etmiş namizədlərin sənədlərinin yoxlanılması

İl	İmtahanda uğurlu nəticə əldə etmişdir	Müraciət etmişdir	Razılıq verilmişdir	İmtina verilmişdir
2022	4849	4708	4707	1

Sertifikatların çap edilərək təqdim edilməsi üçün Mərkəzin Direktorlar Şurasının sədri tərəfindən müvafiq əmr imzalandıqdan sonra "Namizəd-müsahibə" sistemi üzərindən hər bir namizədə e-mail vasitəsi ilə elektron bildiriş göndərilir. Bildirişdə namizədlərin sertifikatları əsas binadan və yaxud regional bölmələrdən əldə edə bilmələri haqqında məlumat verilir. 2022-ci ildə dövlət qulluğuna qəbul sertifikatlarının namizədərə təqdim edilməsi barədə statistik məlumatlar Cədvəl 2-də verilir:

Cədvəl 2.

İl	Sertifikat təqdim edilib	Sertifikat təqdim edilməyib	
		Namizəd qeydiyyatdan keçməyib	Namizəd sertifikatı götürməyib
2022	1963	141	2744

Namizədlərin əldə etdikləri qəbul sertifikatlarının növlər üzrə paylanması barədə statistik məlumatlar Cədvəl 3-də təqdim edilir:

Cədvəl 3.

İl	Sertifikat növləri															
	AB1	AB2	AB3	AB4	AC1	AC2	AC3	AC4	BA1	BA2	BA3	BA4	BB1	BB2	BB3	BB4
2022	1	2	3	11	10	21	41	53	62	148	293	444	573	694	1059	1434

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirmək istəyən şəxs sertifikatın qüvvədə olma müddətinin son ilində, lakin həmin sertifikatın qüvvədə olma müddətinin bitmə tarixindən gec olmayaraq növbəti sertifikat almaq üçün imtahanlarda iştirak edərək fəaliyyətin davam etdirilməsi sertifikatı (FDES) almalıdır.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə 31 may 2021-ci il tarixli, 340-VIQD nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən 10 avqust 2016-cı ildən əvvəl dövlət qulluğuna qəbul olmuş və inzibati vəzifələrdə qulluq stajı 10 ildən az olan dövlət qulluqçuları yuxarı vəzifəyə iddia etdikdə cari vəzifəsinə uyğun FDES sertifikatı almalıdır.

Qeyd edilən müddəaların icrasını təmin etmək məqsədilə Dövlət İmtahan Mərkəzi 2022-ci il ərzində dövlət qulluqçuları üçün ilk dəfə FDES imtahanları keçirmişdir. İmtahanlarda uğur qazanaraq FDES sertifikatı əldə etmək hüququ qazanmış dövlət qulluqçuları barədə statistika Cədvəl 4-də verilir:

Cədvəl 4.

FDES	Sertifikatların ümumi sayı	Tutduğu vəzifəyə uyğun	Tutduğu vəzifədən aşağı vəzifəyə uyğun	Təqdim edilib	Namizəd sertifikatını götürməyib
Dövlət qulluğunda hazırki vəzifədə fəaliyyətin davam etdirilməsi	720	601	119	129	591
Yuxarı vəzifəyə iddia	108	77	31	14	94

Dövlət qulluqçularının əldə etdikləri FDES sertifikatlarının növlər üzrə paylanması barədə statistik məlumatlar Cədvəl 5-də təqdim edilir:

Cədvəl 5.

İl	FDES növləri															
	AB1	AB2	AB3	AB4	AC1	AC2	AC3	AC4	BA1	BA2	BA3	BA4	BB1	BB2	BB3	BB4
2022	1	0	3	6	6	6	12	11	14	33	61	73	73	162	186	181

Məlumdur ki, elektron hökumət sahəsində dövlət siyasətinin və tənzimləməsinin həyata keçirilməsi əsas vəzifələrdən biridir. Bununla əlaqədar Dövlət İmtahan Mərkəzi mütəmadi olaraq vətəndaşlara yeni elektron xidmətlər təqdim edir. Hazırda sertifikatlar namizədlərə kağız daşıyıcılarda verilir. Bu isə vaxt itkisinə və əlavə xərclərin yaranmasına səbəb olur. Qeyd edilənləri nəzərə alaraq, sertifikatların kağız daşıyıcılardan imtina edilərək elektron formada təqdim edilməsi üçün qanunvericiliyə dəyişiklik edilməsi barədə müvafiq dövlət orqanlarına təkliflər verilmişdir.

Yuxarıda qeyd edildiyi kimi, dövlət qulluğu vəzifəsini tutmaq üçün müsahibələrdə iştirak etmək istəyən namizədlər barədə məlumatların yoxlanılması müvafiq informasiya sistemləri vasitəsilə həyata keçirilir. 2022-ci ildə müsahibələrdə iştirak etmək üçün elektron qeydiyyatdan keçmiş namizədlər barədə zəruri sənədlərin yoxlanılmasının "Namizəd-müsahibə" sistemi üzrə nəticələri Cədvəl 6-də əks olunur.

Cədvəl 6.

Müsahibə növü	İmtina edilib										Namizəd imtina edib	Razılıq verilib
	Vəzifə-yə uyğun sertifikatı yoxdur	İxtisas tələbi uyğun deyil	İntizam tənbeh tədbiri var	Ödənilməmiş məhkumluğu var	Təhsil məlumatları uyğun deyil*	Zəruri sənədlər tam təqdim edilməyib	Qulluq stajı uyğun deyil	Qanunvericilik tələbləri pozulub	Müsahibədə iştirak hüququ yoxdur	Cəmi		
Müsabiqə üzrə müsahibə	0	6	5	0	17	80	158	0	0	**266**	81	**11244**
Ümumi müsahibə	2	2	2	0	12	39	231	18	86	**392**	27	**830**
Daxili müsahibə	2	1	5	0	4	34	144	7	1	**198**	9	**714**
Cəmi:	**4**	**9**	**12**	**0**	**33**	**153**	**533**	**25**	**87**	**856**	**117**	**12788**

* "Tələbə-məzun" dövlət elektron məlumat sistemi (TMMS) və namizədin daxil etdiyi təhsil məlumatları arasında fərq var, TMMS-də məlumat yoxdur, diplom həqiqi deyil və s.

Mövcud qanunvericiliyə görə müsahibələrə qeydiyyatdan keçmiş və müraciətinə Mərkəz tərəfindən sənədləri yoxlanıldıqdan sonra razılıq verilmiş namizədlər buraxılırlar. 2022-ci ildə müsahibələrdə iştirak etmiş və uğur qazanmış namizədlər barədə məlumatlar Cədvəl 7-də təqdim edilir.

Cədvəl 7.

Müsahibələr	Müsahibədə iştirak barədə							Müsahibədən uğurla keçənlər barədə					
	Uyğundur	Uyğun deyil	İştirak etməyib	Etibarsız sayılıb	Başqa vaxta keçirilib	Ləğv edilib	Cəmi	Vəzifəyə təyin edilib	Ehtiyata daxil edilib	Ehtiyatdan imtina edib	Vəzifədən imtina edib	Qərar qəbul edilməyib	Cəmi
Müsabiqə üzrə müsahibə	1154	3489	516	15	40	58	**5272**	659	422	68	2	3	**1154**
Ümumi müsahibə	201	345	27	1	5	0	**579**	173	24	1	0	3	**201**
Daxili müsahibə	420	181	25	2	5	1	**634**	372	43	2	0	3	**420**
YEKUN:	**1775**	**4015**	**568**	**18**	**50**	**59**	**6485**	**1204**	**489**	**71**	**2**	**9**	**1775**

Cədvəl 7-dən göründüyü kimi, 2022-ci il ərzində müsahibədə iştirak etmiş 6485 namizəddən 1775 nəfəri (27.3%) iddia etdikləri vəzifəyə uyğun hesab edilmiş, onların 1204-ü isə dövlət orqanlarında infibati vəzifələrə təyin edilmişdir ki, bu da müsahibədə iştirak edənlərin 18.5 faizini, müsahibədən uğurla keçənlərin 67.8 faizini təşkil edir.

Mövcud qanunvericiliyə əsasən doktorontura üzrə Azərbaycan dili və xarici dil, aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlər və peşəkar mühasibat sertifikatının verilməsi imtahanları Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Bu imtahanlarda müvəffəqiyyət qazanmış namizədlərə müvafiq sertifikat və şəhadətnamələr verilir. Mərkəz imtahan nəticələri, sertifikat və şəhadətnamələrə dair məlumat bazasını formalaşdıraraq "Namizəd-müsahibə" elektron informasiya sisteminə daxil etmişdir.

2022-ci ildə həmin imtahanlarda uğur qazanmış namizədlərin əldə etdiyi sertifikat və şəhadətnamələr barədə statistik məlumatlar Cədvəl 8-də verilir.

Cədvəl 8.

Sertifikat növü	Sertifikatların ümumi sayı	Təqdim edilib	Namizəd sertifikatını götürməyib
Peşəkar mühasib sertifikatı	792	275	517
Xarici dil üzrə fəlsəfə doktoru imtahanının nəticələrinə dair şəhadətnamə	252	95	157
Əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının nəticələrinə dair şəhadətnamə	4	2	2

Beləliklə, Mərkəz tərəfindən hazırlanmış elektron informasiya sistemlərinin tətbiqi sertifikatlar, müsahibələrə buraxılma və müsahibələrin keçirilməsi üzrə işlərin daha sürətlə və effektiv formada həyata keçirilməsinə, həmçinin müxtəlif növ hesabatların və analitik təhlillərin aparılmasına imkan yaradır.

Dövlət İmtahan Mərkəzinin dövlət qulluğu sahəsi üzrə elektron informasiya sistemlərində yeniliklər, fəaliyyətin təhlili

M.M.Abbaszadə, B.B.Xəlilov, V.O.Əkbərov, S.A.Əliyev

Dövlət İmtahan Mərkəzi Nizamnaməsinə uyğun olaraq dövlət qulluğu sahəsində fəaliyyətini - dövlət qulluqçularının Reyestrinin aparılması, ehtiyat kadrlarla iş, qanunvericiliyin icra vəziyyətinin öyrənilməsi, dövlət qulluğuna qəbulla bağlı sertifikatın əldə edilməsi üçün test imtahanlarının keçirilməsi, sertifikatların təqdim edilməsi, müsabiqə, ümumi müsahibə və daxili müsahibələrin keçirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, 2019–2025-ci illər üçün Dövlət Strategiyasında nəzərdə tutulmuş bəndlərin yerinə yetirilməsi, etik davranış və qiymətləndirmə, müxtəlif analitik hesabatların hazırlanması, təqdim edilməsi, məlumat bazalarının və proqram sistemlərinin yaradılması və təkmilləşdirilməsi işlərini 2022-ci ildə uğurla davam etdirmişdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28-1-ci maddəsinə əsasən dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirmək istəyən şəxs sertifikatın qüvvədə olma müddətinin son ilində, lakin həmin sertifikatın qüvvədə olma müddətinin bitmə tarixindən gec olmayaraq növbəti sertifikat almaq üçün müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən keçirilən imtahanlarda iştirak etməli və yenidən sertifikat almalıdır.

2018-ci ildə əldə edilmiş sertifikat əsasında dövlət qulluğuna qəbul olmuş şəxslərin həmin sertifikatlarının qüvvədə olma müddətinin son ili 2022-ci ilə təsadüf etdiyindən yuxarıda qeyd edilən maddənin tələblərinin icrası ilə bağlı Dövlət İmtahan Mərkəzi bu istiqamətdə zəruri işlər həyata keçirmişdir. Belə ki, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi sertifikatının (FDES) əldə edilməsi üçün keçriləcək imtahanlrın məzmunu müəyyən edilmiş, "Dövlət qulluqçularının Reyestri" informasiya sisteminə sertifikatın müddətinin bitməsini və FDES-in alınmasının zəruriliyini əks etditrən yeni bildiriş və hesabatlar əlavə edilmiş, imtahan nəticələri ilə bağlı məlumat bazası formalaşdırılmışdır.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə 31 may 2021-ci il tarixli 340-VIQDA nömrəli Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə əsasən 2016-cı il 10 avqust tarixədək dövlət qulluğuna qəbul edilmiş və inzibati vəzifədə qulluq stajı 10 ildən az olan şəxslər də ümumi və daxili müsahibələr vasitəsilə daha yüksək inzibati vəzifənin tutulması üçün müraciət etdiyi halda, əvvəlcə FDES əldə etməlidir. Bununla bağlı həmin kateqoriyadan olan şəxslərə Mərkəz informasiya sistemləri vasitəsilə müvafiq bildirişlər göndərir və müvafiq maddənin icrası ilə bağlı zəruri tədbirlər həyata keçirir.

2022-ci ilin may ayından etibarən Mərkəz FDES əldə etməli olan şəxslər üçün imtahanların keçirilməsinə başlamışdır. Keçirilmiş imtahanlarda iştirak etmiş şəxslərin sayı və müvəffəqiyət göstəriciləri Cədvəl 1-də təqdim edilir.

Cədvəl 1.

Dövlət qulluqçusunun tutuduğu inzibati vəzifə üzrə FDES imtahanı			**Dövlət qulluqçusunun iddia etdiyi yuxarı inzibati vəzifə üzrə FDES imtahanı**		
İştirak edib	**FDES əldə edib**		**İştirak edib**	**FDES əldə edib**	
	Tutduğu vəzifəyə uyğun	**Tutduğu vəzifədən aşağı**		**İddia etdiyi vəzifəyə uyğun**	**İddia etdiyi vəzifədən aşağı**
1130	601	119	182	77	31

Yuxarıda qeyd edildiyi kimi, Dövlət İmtahan Mərkəzinin "Dövlət qulluqçularının Reyestri", "Ehtiyat kadrlar", "Namizəd-müsahibə" və dövlət qulluğu ilə bağlı digər informasiya sistemləri qanunvericilikdə baş verən dəyişikliklərlə əlaqədar mütəmadi olaraq yenilənir və funksionl imkanlarla zənginləşdirilir. Məsələn, "Dövlət qulluqçularının Reyestri" informasiya sistemində hər bir dövlət qulluqçusunun şəxsi anketinə hazırda çalışdığı vəzifəyə uyğun sertifikatın növü və sertifikatın bitmə tarixi haqqında məlumat əlavə edilmişdir. Bu kateqoriyadan olan müvafiq məlumatları Reyestrin "Hesabatlar" bölməsindən hər bir dövlət orqanı üzrə siyahı formasında əldə etmək mümkündür.

Mövcud qanunvericiliyə əsasən dövlət orqanı müsahibələrdə uğur qazanmış namizədlər həmin orqana təqdim olunduqdan sonra qəbul etdiyi qərar barədə Dövlət İmtahan Mərkəzinə məlumat verməlidir. Belə ki, eyni vəzifə üzrə müsabiqə üzrə müsahibədə uğur əldə etmiş şəxslərdən biri dövlət orqanı tərəfindən vəzifəyə təyin edilməli, digərləri isə ehtiyat kadrlar siyahısına daxil edilməlidir. Cədvəl 2-də 2022-ci ildə müsabiqənin müsahibəsində uğur qazanmış şəxslər barədə məlumatlar təqdim edilir.

Cədvəl 2.

№	Dövlət orqanının adı	Dövlət qulluğuna qəbul edilib	Ehtiyata daxil edilib	Ehtiyat-dan imtina edib	Digər müsahibə üzrə vəzifəyə təyin edilib	Dövlət orqanının qərarı gözlənilir
1	Azərbaycan Respublikasının Hesablama Palatası	4	0	1	0	0
2	Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası	2	0	0	0	0
3	Azərbaycan Respublikasının Baş Prokurorluğu	3	0	0	0	0
4	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi	48	129	5	0	0
5	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	38	21	1	0	0
6	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi	52	13	4	0	0
7	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	15	12	5	0	0
8	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	19	13	2	0	0
9	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi	4	2	0	0	0
10	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	56	14	2	0	0
11	Azərbaycan Respublikasının Energetika Nazirliyi	8	14	0	0	0
12	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	46	22	1	0	0
13	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi	8	12	0	0	0
14	Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi	8	4	0	0	0
15	Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi	7	0	0	0	0
16	Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi	46	24	10	0	0
17	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	7	33	0	0	0
18	Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi	1	0	0	0	0
19	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	27	36	7	0	0
20	Azərbaycan Respublikası Audiovizual Şurası	2	0	0	0	0
21	Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi	67	12	18	0	0
22	Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi	1	3	0	0	0

Cədvəl 2 (ardı)

№	Dövlət orqanının adı	Dövlət qulluğuna qəbul edilib	Ehtiyata daxil edilib	Ehtiyat-dan imtina edib	Digər müsahibə üzrə vəzifəyə təyin edilib	Dövlət orqanının qərarı gözlənilir
23	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	2	1	0	0	0
24	Bakı Apellyasiya Məhkəməsi	17	8	1	0	0
25	Gəncə Apellyasiya Məhkəməsi	2	0	0	0	0
26	Sumqayıt Apellyasiya Məhkəməsi	9	4	0	0	0
27	Şirvan Apellyasiya Məhkəməsi	9	0	0	0	0
28	Şəki Apellyasiya Məhkəməsi	1	0	0	0	0
29	Bakı Ağır Cinayətlər Məhkəməsi	8	1	1	0	0
30	Gəncə Ağır Cinayətlər Məhkəməsi	1	0	0	0	0
31	Lənkəran Ağır Cinayətlər Məhkəməsi	2	0	0	0	0
32	Şəki Ağır Cinayətlər Məhkəməsi	1	1	0	0	0
33	Gəncə Hərbi Məhkəməsi	0	0	1	0	0
34	Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası	1	0	0	0	0
35	Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi	4	0	0	0	0
36	Bakı şəhəri Xətai Rayon Məhkəməsi	3	1	0	0	0
37	Bakı şəhəri Xəzər Rayon Məhkəməsi	4	0	0	0	0
38	Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi	2	0	1	0	0
39	Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi	8	6	0	0	0
40	Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi	8	1	0	0	0
41	Bakı şəhəri Nizami Rayon Məhkəməsi	2	1	0	0	0
42	Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi	5	13	1	0	0
43	Bakı şəhəri Səbail Rayon Məhkəməsi	4	0	0	0	0
44	Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi	6	0	1	0	0
45	Bakı şəhəri Yasamal Rayon Məhkəməsi	8	3	0	0	0
46	Abşeron Rayon Məhkəməsi	1	1	0	0	0
47	Ağdaş Rayon Məhkəməsi	0	1	0	0	0
48	Ağstafa Rayon Məhkəməsi	2	0	0	0	0
49	Astara Rayon Məhkəməsi	3	0	0	0	0
50	Daşkəsən Rayon Məhkəməsi	1	1	0	0	0
51	Gədəbəy Rayon Məhkəməsi	1	3	0	0	0
52	Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi	1	0	0	0	0
53	Gəncə şəhəri Nizami Rayon Məhkəməsi	0	0	1	0	0
54	Goranboy Rayon Məhkəməsi	1	0	0	0	0
55	Göygöl Rayon Məhkəməsi	1	0	1	0	0
56	Kürdəmir Rayon Məhkəməsi	1	1	0	0	0
57	Lerik Rayon Məhkəməsi	1	0	0	0	0
58	Lənkəran Rayon Məhkəməsi	0	0	1	0	0
59	Masallı Rayon Məhkəməsi	2	0	0	0	0
60	Mingəçevir Şəhər Məhkəməsi	3	1	0	0	0
61	Oğuz Rayon Məhkəməsi	1	0	0	0	0
62	Qobustan Rayon Məhkəməsi	1	0	0	0	0
63	Quba Rayon Məhkəməsi	0	0	1	0	0
64	Saatlı Rayon Məhkəməsi	2	0	0	0	0
65	Sabirabad Rayon Məhkəməsi	1	1	0	0	0
66	Salyan Rayon Məhkəməsi	1	0	0	0	0
67	Samux Rayon Məhkəməsi	2	0	0	0	0
68	Sumqayıt Şəhər Məhkəməsi	13	0	0	0	0
69	Şamaxı Rayon Məhkəməsi	1	0	0	0	0
70	Şəki Rayon Məhkəməsi	2	0	0	0	0

Cədvəl 2 (ardı)

№	Dövlət orqanının adı	Dövlət qulluğuna qəbul edilib	Ehtiyata daxil edilib	Ehtiyat-dan imtina edib	Digər müsahibə üzrə vəzifəyə təyin edilib	Dövlət orqanının qərarı gözlənilir
71	Şəmkir Rayon Məhkəməsi	0	2	0	0	0
72	Tovuz Rayon Məhkəməsi	1	0	0	0	0
73	Ucar Rayon Məhkəməsi	1	1	0	0	0
74	Xaçmaz Rayon Məhkəməsi	1	1	0	0	0
75	Yardımlı Rayon Məhkəməsi	0	1	0	0	0
76	Zaqatala Rayon Məhkəməsi	1	0	0	0	0
77	Sumqayıt İnzibati Məhkəməsi	3	0	0	0	0
78	Şəki İnzibati Məhkəməsi	0	0	0	0	0
79	Şirvan Kommersiya Məhkəməsi	1	0	0	0	0
80	Şəki Kommersiya Məhkəməsi	1	0	0	0	0
81	Bakı İnzibati Məhkəməsi	8	7	1	0	0
82	Gəncə İnzibati Məhkəməsi	1	1	0	0	0
83	Bakı Kommersiya Məhkəməsi	2	0	0	0	0
84	Gəncə Kommersiya Məhkəməsi	2	0	0	0	0
85	Sumqayıt Ağır Cinayətlər Məhkəməsi	5	2	1	0	0
	YEKUN:	**645**	**428**	**68**	**0**	**0**

Ümumi müsahibə və daxili müsahibədə uğur qazanmış namizədlər barədə məlumatlar isə Cədvəl 3-də verilmişdir.

Cədvəl 3.

Müsahibə növü	Dövlət qulluğunda vəzifəyə təyin edilib	Ehtiyata daxil edilib	Ehti-yatdan imtina edib	Təyin edil-məyib	Təyi-natdan imtina edib	Dövlət orqanı qərar verməlidir	Cəmi
Ümumi müsahibə	173	24	1	0	0	3	**201**
Daxili müsahibə	372	43	2	0	0	3	**420**

Cədvəl 3-dən görünür ki, yeni dəyişikliyə əsasən 2022-ci ildə ümumi və daxili müsahibədən uğurla keçmiş 67 nəfər şəxs, ümumilikdə isə müsabiqənin müsahibəsində uğur qazanmış şəxslər də olmaqla 495 nəfər Ehtiyat kadrlar siyahısına daxil edilmişdir.

Dövlət İmtahan Mərkəzinin dövlət qulluğuna aid informasiya sistemlərindən dövlət orqanları aktiv şəkildə istifadə edir. Ehtiyat kadrlar siyahısına daxil edilmiş şəxslər barədə məıumatları sorğu əsasında Mərkəz dövlət orqanlarına təqdim edir. Dövlət orqanı ehtiyat kadrı vəzifəyə təyin etmək istədikdə Mərkəz həmin vəzifənin uyğunluğunu (analoji olub-olmaması, vəzifənin tutulma şərtləri və s.) qanunvericiliyə əsasən yoxlayır. Cədvəl 4-də 2022-ci ildə Ehtiyat kadrlar siyahısında olan və ehtiyatdan vəzifəyə təyin edilmiş şəxslər barədə statistik məumatlar təqdim edilmişdir.

Cədvəl 4.

Ehtiyat kadrın növü	31.12.2022-ci ilədək Ehtiyat kadrlar siyahısında olan şəxslərin sayı	2022-ci il ərzində Ehtiyat kadrlar siyahısından vəzifəyə təyin edilənlərin sayı
Müsabiqə	1048	175
Ümumi müsahibə	56	15
Daxili müsahibə	79	13
Dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı	52	16
Dövlət orqanının ləğvi	36	2
Cəmi	**1271**	**221**

"Dövlət qulluqçularının Reyestri" sistemi üzrə dövlət orqanları tərəfindən dövlət qulluqçuları barədə məlumatların vaxtında, tam və düzgün daxil edilməsi prosesi 2022-ci il ərzində davam etmişdir. Reyestr sistemindən dövlət orqanlarında vakant vəzifələr barədə məlumat əldə edilməsində, namizədlərin müsahibələrə buraxılmasında, dövlət qulluqçularına qulluq stajı barədə arayış verilməsində, vəzifə təyinatlarının qanunvericilik tələblərinə uyğun aparılmasının müəyyən edilməsində, müxtəlif analitik və statistik hesabatların hazırlanmasında və digər proseslərdə Mərkəz və dövlət orqanları aktiv istifadə edir. Sistemin istifadəyə verilmiş yeni versiyasında mütəmadi olaraq funksional imkanlar genişləndirilir, yeni hesabatlar formalaşdırılır. Sistemdən istifadə ilə bağlı dövlət orqanlarının məsul şəxsləri təlimatlandırılmış, onların yeni versiya ilə bağlı sualları cavablandırılmışdır. Hazırda Reyestrin məlumat bazasında 23500-dək dövlət qulluqçusu, 2150-dək müddətli əmək müqaviləsi əsasında dövlət qulluğu vəzifələrində çalışan şəxslər barədə məlumatlar mövcuddur. İl ərzində müddətli əmək müqaviləsi əsasında çalışan 139 şəxs imtahan nəticəsində sertifikat əldə etmiş və onların 27 nəfəri müsahibələrdə iştirak edərək dövlət qulluğu vəzifəsinə təyin edilmişdir. 2022-ci ildə inzibati vəzifələr üzrə dövlət qulluğuna qəbul edilmiş belə şəxslər barədə statistik məlumatlar Cədvəl 5-də verilmişdir. Statistikada 2022-ci ildən əvvəlki illərdə müsahibələrdə uğur qazanmış və 2022-ci ildə vəzifəyə təyin edilmiş şəxslər də nəzərə alınmışdır.

Cədvəl 5.

№	Dövlət orqanının adı	İştirak edən namizəd sayı	Uğur qazanan namizəd sayı	Təyin edilən namizəd sayı
1	Azərbaycan Respublikasının Hesablama Palatası	1	0	0
2	Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası	2	2	2
3	Azərbaycan Respublikasının Baş Prokurorluğu	2	2	2
4	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi	50	38	17
5	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	3	2	3
6	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi	20	18	11
7	Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi	8	3	8
8	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	19	12	11
9	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi	4	3	3
10	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	30	24	20
11	Azərbaycan Respublikasının Energetika Nazirliyi	7	4	4
12	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	2	1	1
13	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi	4	2	4
14	Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi	9	9	8
15	Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi	7	4	6
16	Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi	20	9	4
17	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	9	6	7
18	Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi	0	0	2
19	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	30	10	18
20	Azərbaycan Respublikası Audiovizual Şurası	2	2	0
21	Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi	138	64	48
22	Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi	1	1	1
23	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	0	0	1

Cədvəl 5 (ardı)

№	Dövlət orqanının adı	İştirak edən namizəd sayı	Uğur qazanan namizəd sayı	Təyin edilən namizəd sayı
24	Gəncə Apellyasiya Məhkəməsi	5	2	2
25	Sumqayıt Apellyasiya Məhkəməsi	4	3	1
26	Şirvan Apellyasiya Məhkəməsi	8	7	7
27	Şəki Apellyasiya Məhkəməsi	1	0	0
28	Bakı Ağır Cinayətlər Məhkəməsi	1	1	1
29	Gəncə Ağır Cinayətlər Məhkəməsi	1	0	0
30	Lənkəran Ağır Cinayətlər Məhkəməsi	1	1	1
31	Şəki Ağır Cinayətlər Məhkəməsi	1	1	1
32	Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi	5	3	3
33	Bakı şəhəri Xəzər Rayon Məhkəməsi	4	2	2
34	Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi	1	1	1
35	Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi	6	6	4
36	Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi	6	4	4
37	Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi	4	2	2
38	Bakı şəhəri Səbail Rayon Məhkəməsi	2	2	2
39	Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi	6	2	2
40	Bakı şəhəri Yasamal Rayon Məhkəməsi	4	2	2
41	Abşeron Rayon Məhkəməsi	5	1	1
42	Ağdaş Rayon Məhkəməsi	3	0	0
43	Astara Rayon Məhkəməsi	3	2	2
44	Bərdə Rayon Məhkəməsi	1	0	0
45	Daşkəsən Rayon Məhkəməsi	2	0	0
46	Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi	1	0	0
47	Gəncə şəhəri Nizami Rayon Məhkəməsi	1	0	0
48	Göygöl Rayon Məhkəməsi	2	2	1
49	Hacıqabul Rayon Məhkəməsi	2	0	0
50	Lənkəran Rayon Məhkəməsi	3	3	2
51	Masallı Rayon Məhkəməsi	2	0	0
52	Mingəçevir Şəhər Məhkəməsi	2	2	2
53	Qobustan Rayon Məhkəməsi	1	1	1
54	Quba Rayon Məhkəməsi	4	0	0
55	Saatlı Rayon Məhkəməsi	2	2	2
56	Salyan Rayon Məhkəməsi	1	1	1
57	Sumqayıt Şəhər Məhkəməsi	13	11	11
58	Şəki Rayon Məhkəməsi	1	1	1
59	Şəmkir Rayon Məhkəməsi	1	0	0
60	Zaqatala Rayon Məhkəməsi	1	1	1
61	Sumqayıt İnzibati Məhkəməsi	2	2	2
62	Şəki İnzibati Məhkəməsi	1	1	0
63	Şirvan Kommersiya Məhkəməsi	1	1	1
64	Sumqayıt Kommersiya Məhkəməsi	1	0	0
65	Bakı İnzibati Məhkəməsi	2	2	2
66	Gəncə İnzibati Məhkəməsi	2	0	0
67	Gəncə Kommersiya Məhkəməsi	2	0	0
68	Sumqayıt Ağır Cinayətlər Məhkəməsi	5	4	3
	YEKUN:	**495**	**292**	**249**

2022-ci il ərzində "Dövlət qulluqçularının Arayış Sistemi" vasitəsilə dövlət qulluqçularına dövlət qulluğu stajı barədə arayışların Mərkəz tərəfindən verilməsi davam etmişdir. Arayışlar Mənzil İnşaatı Dövlət Agentliyinə və İpoteka və Kredit Zəmanət Fonduna təqdim edilməsi məqsədilə dövlət qulluçularının müraciəti əsasında Mərkəzin xüsusi proqram sisteminin köməyi ilə hazırlanır. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 1 may 2018-ci il tarixli 30 nömrəli Fərmanının 6-cı hissəsinin icrasını təmin etmək məqsədilə 21 fevral 2022-ci il tarixdə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu ilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi arasında elektron məlumat mübadiləsi haqqında razılaşma imzalanmışdır. Razılaşmaya əsasən Fonda müraciət edən dövlət qulluqçularının soyadı, adı, ata adı, təvəllüdü, dövlət qulluğunda qulluq stajı, ixtisas dərəcəsi, dövlət qulluğunda əmək fəaliyyəti barədə məlumatlar müvafiq sorğu əsasında real vaxt rejimində Mərkəz tərəfindən Elektron Hökumət Portalı üzərindən Fonda ötürülür.



Təqdim edilən diaqramda dövlət qulluğunda qulluq stajı haqqında arayış alınması barədə statistik məlumat verilmişdir. 2022-ci il ərzində dövlət qulluğunda qulluq stajı ilə bağlı arayış əldə edilməsi məqsədilə Mərkəzə 1017 şəxs müraciət etmişdir. Bu şəxslər barədə müvafiq məlumatlar araşdırılmış və 706 arayış Mənzil İnşaatı Dövlət Agentliyi, 209 arayış isə İpoteka və Kredit Zəmanət Fondu üzrə olmaqla ümumilikdə 915 arayış vətandaşlara təqdim edilmək üçün hazırlanmışdır. Arayışla bağlı Mərkəzə müraciət etmiş 102 şəxsə səbəbi bildirilməklə imtina verilmişdir.

“Şagird-məzun” dövlət elektron məlumat sistemi üzrə 2022-ci ildə ümumtəhsil müəssisələrində təhsilalanların yekun attestasiyası barədə analitik və statistik təhlil

M.M.Abbaszadə, V.O.Əkbərov, X.R.Məmmədov

Əvvəlki tədris ilində olduğu kimi, 2021/2022-ci tədris ilində də ümumtəhsil müəssisələrində təhsilalanların yekun attestasiyasını Dövlət İmtahan Mərkəzi COVİD-19 pandemiyasına görə xüsusi şəraitdə aparmışdır. Bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları”na edilmiş dəyişikliyə uyğun olaraq IX sinifdə buraxılış imtahanlarının bir mərhələdə keçirilməsi barədə qərar qəbul edilmişdir. Şagirdlər tədris dili, riyaziyyat və xarici dil fənlərindən, Azərbaycan dilindən fərqli dildə təhsil alan şagirdlər isə əlavə olaraq dövlət dili kimi Azərbaycan dili fənnindən imtahan vermişdir.

Respublikanın ümumtəhsil məktəblərində 2022/2023-cü tədris ilində istifadədə olan 5-11-ci sinif dərsliklərinin də elmi-metodiki monitorinqi aparılıb. Monitorinq nəticəsində dərsliklərdəki mübahisəli məqamlar, məzmun uyğunsuzluqları, tərcümənin keyfiyyəti araşdırılıb, qüsurlar müəyyənləşdirilib və test bankının təkmilləşdirilməsində, buraxılış və qəbul imtahanları üçün sual kitabçalarının formalaşdırılmasında xidməti istifadə üçün bütün fənlər üzrə metodik tövsiyələr (19 tövsiyə) hazırlanıb. Tövsiyələr kitabça şəklində nəşr edilərək müvafiq şöbələrə təqdim edilib.

Buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə bağlı Azərbaycan dili, rus dili, riyaziyyat, kimya, fizika, biologiya, tarix, coğrafiya, ingilis dili və informatika fənləri üzrə hazırlıq kurslarının fəaliyyəti davam edib. Bu müddət ərzində 3 dəfə: yanvar, aprel və noyabr aylarında kurslar keçirilib. Kurslarda Bakı, Gəncə, Göyçay, Lənkəran, Şirvan, Xaçmaz, Şəki və Bərdədən elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər və pedaqoji profilli ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak ediblər. Onlayn – "Zoom" platforması üzərindən isə 6 hazırlıq kursu təşkil olunub. Kursu müvəffəqiyyətlə keçən 269 nəfər (yanvar ayında 33, aprel ayında 57, noyabr ayında 179) sertifikat alıb. Onların şəxsi məlumatları "Elektron məlumat bazası"na daxil edilib.

2022-ci il üzrə Hesabat xarakterli icmalın sonunda onu da qeyd etməyi lazım bilirik ki, Dövlət İmtahan Mərkəzi ilə Milli Qəhrəman Mübariz İbrahimov adına Bağça-Məktəb-Lisey Kompleksi arasında bağlanmış müqavilə əsasında Kompleksdə mart ayında 4-11-ci siniflər üzrə keçirilmiş monitorinq imtahanı üçün də 1904 sayda tapşırıq hazırlanıb.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara tələbə qəbulu

Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üzrə XQTİ-lərə tələbə qəbulu

Xüsusi qabiliyyət tələb edən ixtisaslar (XQTİ) üzrə təhsil almaq istəyən və imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödəyən abituriyentlər imtahanların nəticəsi elan olunduqdan sonra müəyyən edilmiş vaxtlarda DİM-in internet saytının eservices.dim.gov.az/erizebak/qabiliyyet səhifəsinə daxil olub seçdikləri xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. Qəbul qaydalarında müəyyən edilmiş kateqoriyadan olan abituriyentlərin seçdikləri komissiyalar üzrə qabiliyyət imtahanlarında iştirakları dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir.

Dövlət İmtahan Mərkəzi ilin əvvəlində qabiliyyət imtahanlarının keçirilməsi qaydaları, qəbul proqramları, imtahanlara hazırlığa dair metodiki tövsiyələr, qiymətləndirmə meyarları və digər materialları "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Xüsusi qabiliyyət imtahanları" jurnallarının müvafiq saylarında dərc edərək qabiliyyət imtahanlarına hazırlaşanların istifadəsinə vermişdir.

Qabiliyyət imtahanları DİM-in təşkil etdiyi xüsusi komissiyalar tərəfindən mərkəzləşdirilmiş qaydada aparılmışdır.

Abituriyentlərə 1 istiqamət üzrə ən çoxu 4 Qabiliyyət İmtahanı Komissiyası üzrə qeydiyyatdan keçmək imkanı verilmişdi. 2022-ci ildə **16840** abituriyent elektron ərizəsində V ixtisas qrupunu qeyd etmişdi ki, bunlardan 548-i subbakalavr idi.

Əksər komissiyalarda abituriyentlər bir qabiliyyət imtahanı fənni üzrə imtahan vermişdir. Xüsusi qabiliyyət imtahanları təsviri sənət, musiqi, memarlıq, teatr, kino və xoreoqrafiya sənəti, eləcə də bədən tərbiyəsi və idman istiqamətləri üzrə keçirilmişdir. Bundan əlavə, İslamşünaslıq ixtisasına qəbul üçün müsahibələr də keçirilmişdir.

2022-ci ildə təxminən 17 min abituriyent üçün xüsusi qabiliyyət imtahanları təşkil edilmişdir. Qabiliyyət imtahanları 17 iyun tarixindən 8 avqust tarixinədək Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Lənkəran, İsmayıllı, Tovuz və Xaçmaz şəhərlərində keçirilmişdir. Komissiyalarda xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə mütəxəssis hazırlığını həyata keçirən ali təhsil müəssisələrindən, müxtəlif yaradıcılıq ittifaqlarından və idman federasiyalarından dəvət edilmiş ekspertlər təmsil olunmuşdur.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının yekun nəticəsi ixtisasın xüsusiyyətindən asılı olaraq, məqbul və ya balla qiymətləndirilib. Abituriyentlərə öz ərizələrində qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilmişdi. Seçim imkanlarının bu şəkildə genişləndirilməsi, bir tərəfdən, qabiliyyət tələb edən ixtisaslara qəbulda müsabiqə vəziyyətinin yaxşılaşmasına, digər tərəfdən isə müsabiqə zamanı seçimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

Son illərdə ən aşağı müsabiqə vəziyyəti xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə olub. Dövlət İmtahan Mərkəzi bunu nəzərə alaraq, gənclərin bu ixtisaslara marağını artırmaq və onların qəbul imtahanlarına hazırlığına kömək məqsədilə xüsusi qabiliyyət tələb edən ixtisaslara dair metodiki materiallar hazırlamış, müxtəlif maarifləndirici tədbirlər həyata keçirmişdir. Qeyd edək ki, cari ilin məzunları V qrup üzrə müsabiqədə əlavə qəbul imtahanı vermədən, bilavasitə buraxılış imtahanlarının nəticələri əsasında iştirak ediblər. Bununla yanaşı, 2021-ci ildəki imtahanın nəticəsi 2022-ci ildə də qüvvədə olmuş, yəni 2021-ci ildə V qrup üzrə qəbul imtahanında iştirak edən, həmçinin tam orta təhsili 2021-ci ildə bitirərək buraxılış imtahanı verən abituriyentlər müsabiqə şərtlərini ödədikləri halda, həmin imtahanların nəticələri əsasında 2022-ci ildə V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək imkanı əldə etmişdir.

2022/2023-cü tədris ili üçün V ixtisas qrupunun XQTİ-ləri üzrə, ümumilikdə, 3888 plan yeri ayrılmışdı (bundan əlavə, 83 yerə müsabiqədənkənar qəbul aparılıb). 12244 nəfər (11696 abituriyent və 548 subbakalavr)
V qrupun ixtisasları üzrə müsabiqədə iştirak etmiş, onların 8983-ü qabiliyyət imtahanını müvəffəqiyyətlə vermişdir.

2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinə keçirilmiş qabiliyyət imtahanlarının istiqamətlər üzrə statistikası aşağıdakı cədvəllərdə verilmişdir. Cədvəldə qabiliyyət imtahanı komissiyaları üzrə abituriyentlərin imtahan nəticələri faizlərlə göstərilmişdir. Müsabiqə şərtlərinə görə, komissiyalar üzrə tələb olunan minimal nəticə 6 bal olmuşdur. Müəllimlik ixtisasları üzrə imtahan nəticələri məqbul və ya qeyri-məqbulla qiymətləndirilmişdir.

İstiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	5115	1830
Musiqi	1407	826
Memarlıq	378	248
Teatr, kino və xoreoqrafiya	776	212
Bədən tərbiyəsi və idman	9070	5826
İlahiyyat	94	41

2022/2023-cü tədris ili üçün təşkil olunmuş qabiliyyət imtahanları komissiyaları üzrə tələbə qəbulunun nəticələri

Komissiya kodu	Komissiyanın adı	Müsabiqə şərti		Qeydiyyatdan keçib	Məqbul alıb	Qiymətlər					
		Qabiliyyət imtahanının qiyməti	Test balı			10	9	8	7	6	5
** 10	Rəngkarlıq	6	60	160	30	0 (0.0%)	1 (3.2%)	9 (29.0%)	15 (48.4%)	5 (16.1%)	0 (0.0%)
** 11	Qrafika	6	60	260	20	0 (0.0%)	0 (0.0%)	5 (25.0%)	8 (40.0%)	7 (35.0%)	0 (0.0%)
** 12	Heykəltəraşlıq	6	60	82	4	0 (0.0%)	0 (0.0%)	1 (11.1%)	3 (33.3%)	0 (0.0%)	0 (0.0%)
* 13	Təsviri incəsənət müəllimliyi	6	60	1120	720	3 (0.3%)	34 (3.9%)	95 (10.8%)	171 (19.4%)	417 (47.3%)	64 (7.3%)
** 14	Dizayn	6	60	1927	678	10 (0.7%)	49 (3.4%)	140 (9.8%)	204 (14.3%)	275 (19.3%)	174 (12.2%)
** 15	Dekorativ sənət	6	60	604	231	2 (0.6%)	29 (9.3%)	68 (21.7%)	106 (33.9%)	26 (8.3%)	0 (0.0%)
** 20	Fortepiano, orqan, klavesin (BMA)	6	60	101	46	0 (0.0%)	12 (13.8%)	10 (11.5%)	11 (12.6%)	13 (14.9%)	22 (25.3%)
** 21	Orkestr alətləri (BMA)	6	60	49	41	14 (31.1%)	12 (26.7%)	10 (22.2%)	4 (8.9%)	1 (2.2%)	0 (0.0%)
** 22	Xalq çalğı alətləri (AMK)	6	60	49	44	16 (36.4%)	10 (22.7%)	10 (22.7%)	6 (13.6%)	2 (4.5%)	0 (0.0%)
** 23	Xalq çalğı alətləri	6	60	149	113	36 (29.3%)	27 (22.0%)	27 (22.0%)	13 (10.6%)	10 (8.1%)	6 (4.9%)
** 24	Akademik vokal (BMA)	6	60	20	13	4 (25.0%)	5 (31.3%)	2 (12.5%)	1 (6.3%)	1 (6.3%)	1 (6.3%)
** 25	Xanəndəlik	6	60	107	68	10 (11.1%)	23 (25.6%)	14 (15.6%)	15 (16.7%)	6 (6.7%)	10 (11.1%)
** 26	Populyar musiqi və caz ifaçılığı	6	60	37	14	0 (0.0%)	3 (14.3%)	4 (19.0%)	6 (28.6%)	1 (4.8%)	0 (0.0%)
** 27	Dirijorluq	6	60	20	14	5 (29.4%)	7 (41.2%)	2 (11.8%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)
** 28	Milli vokal	6	60	38	10	3 (15.8%)	4 (21.1%)	1 (5.3%)	1 (5.3%)	1 (5.3%)	0 (0.0%)
** 29	Bəstəkarlıq	6	60	1	1	1 (100.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)
** 30	Musiqişünaslıq	6	60	48	20	1 (3.8%)	4 (15.4%)	7 (26.9%)	6 (23.1%)	2 (7.7%)	0 (0.0%)
** 31	İnstrumental ifa	6	60	205	105	12 (8.3%)	32 (22.2%)	32 (22.2%)	18 (12.5%)	11 (7.6%)	6 (4.2%)
* 32	Musiqi müəllimliyi	6	60	255	181	18 (8.8%)	30 (14.7%)	43 (21.1%)	46 (22.5%)	44 (21.6%)	10 (4.9%)
** 36	Populyar musiqi və caz ifaçılığı	6	60	20	7	3 (25.0%)	1 (8.3%)	3 (25.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)
* 40	Memarlıq	6	200	369	246	20 (7.2%)	48 (17.3%)	49 (17.6%)	57 (20.5%)	72 (25.9%)	0 (0.0%)
** 50	Aktyor sənəti	6	60	232	83	2 (1.3%)	19 (11.9%)	24 (15.0%)	12 (7.5%)	26 (16.3%)	6 (3.8%)
** 51	Rejissorluq	6	100	69	16	0 (0.0%)	4 (9.5%)	1 (2.4%)	2 (4.8%)	9 (21.4%)	1 (2.4%)

Komissiya kodu	Komissiyanın adı	Müsabiqə şərti		Qeydiy-yatdan keçib	Məqbul alıb	Qiymətlər					
		Qabiliyyət imtahanının qiyməti	Test balı			10	9	8	7	6	5
** 52	Operator sənəti	6	60	103	15	4 (7.7%)	2 (3.8%)	0 (0.0%)	5 (9.6%)	4 (7.7%)	0 (0.0%)
** 53	Xoreoqrafiya	6	30	354	94	17 (13.3%)	15 (11.7%)	27 (21.1%)	15 (11.7%)	20 (15.6%)	1 (0.8%)
* 61	Məşqçilik (Bakı)	6	60	3692	2431	1279 (46.3%)	449 (16.3%)	272 (9.9%)	347 (12.6%)	84 (3.0%)	0 (0.0%)
* 62	Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi(Bakı)	6	60	3140	1968	1143 (54.3%)	287 (13.6%)	233 (11.1%)	261 (12.4%)	44 (2.1%)	0 (0.0%)
** 65	Dizayn	6	60	51	3	0 (0.0%)	0 (0.0%)	1 (2.9%)	0 (0.0%)	2 (5.7%)	1 (2.9%)
** 67	Rəngkarlıq (NDU)	6	60	55	7	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	3 (37.5%)	4 (50.0%)	0 (0.0%)
** 69	Bəstəkarlıq (NDU)	6	60	2	0	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)
* 70	Təsviri incəsənət müəllimliyi(NDU,NMİ)	6	60	105	22	0 (0.0%)	0 (0.0%)	1 (1.6%)	2 (3.2%)	19 (30.6%)	4 (6.5%)
** 71	Fortepiano (NDU)	6	60	17	8	0 (0.0%)	2 (16.7%)	3 (25.0%)	2 (16.7%)	1 (8.3%)	0 (0.0%)
** 72	Orkestr alətləri (NDU)	6	60	4	3	0 (0.0%)	0 (0.0%)	1 (33.3%)	1 (33.3%)	1 (33.3%)	0 (0.0%)
** 73	Musiqişünaslıq (NDU)	6	60	37	11	0 (0.0%)	0 (0.0%)	3 (11.5%)	4 (15.4%)	4 (15.4%)	0 (0.0%)
** 74	Xalq çalğı alətləri (NDU)	6	60	28	18	4 (21.1%)	4 (21.1%)	3 (15.8%)	4 (21.1%)	3 (15.8%)	1 (5.3%)
** 75	Dirijorluq (NDU)	6	60	3	3	0 (0.0%)	1 (33.3%)	2 (66.7%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)
* 76	Musiqi müəllimliyi (NDU)	6	60	20	13	0 (0.0%)	3 (17.6%)	2 (11.8%)	3 (17.6%)	5 (29.4%)	0 (0.0%)
* 77	Memarlıq (NDU)	6	200	9	2	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	2 (50.0%)	0 (0.0%)
* 78	Məşqçilik (NDU)	6	60	375	271	151 (49.2%)	49 (16.0%)	29 (9.4%)	34 (11.1%)	8 (2.6%)	0 (0.0%)
* 79	Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi (NDU)	6	60	253	182	112 (58.0%)	27 (14.0%)	19 (9.8%)	19 (9.8%)	5 (2.6%)	0 (0.0%)
** 80	Aktyor sənəti (NDU)	6	60	18	4	0 (0.0%)	1 (9.1%)	2 (18.2%)	1 (9.1%)	0 (0.0%)	2 (18.2%)
* 81	Təsviri incəsənət müəllimliyi (GDU)	6	60	301	51	0 (0.0%)	1 (0.6%)	2 (1.2%)	3 (1.7%)	45 (26.2%)	8 (4.7%)
* 83	Musiqi müəllimliyi (GDU)	6	60	145	66	0 (0.0%)	4 (4.1%)	15 (15.3%)	13 (13.3%)	34 (34.7%)	1 (1.0%)
* 84	Məşqçilik (GDU)	6	60	777	516	280 (48.5%)	87 (15.1%)	52 (9.0%)	83 (14.4%)	14 (2.4%)	0 (0.0%)
* 85	Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi (GDU)	6	60	833	458	276 (53.8%)	77 (15.0%)	37 (7.2%)	58 (11.3%)	10 (1.9%)	0 (0.0%)
** 87	Dizayn (ADAU)	6	60	356	42	0 (0.0%)	1 (0.5%)	3 (1.4%)	8 (3.7%)	30 (14.0%)	16 (7.5%)
* 89	Təsviri incəsənət müəllimliyi (LDU)	6	60	94	22	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	3 (4.4%)	19 (27.9%)	7 (10.3%)
* 90	Dini Psixoloji Komissiya	6	150	94	41	3 (4.2%)	2 (2.8%)	10 (13.9%)	4 (5.6%)	22 (30.6%)	2 (2.8%)
* 93	Musiqi müəllimliyi (LDU)	6	60	34	19	0 (0.0%)	2 (8.0%)	5 (20.0%)	5 (20.0%)	7 (28.0%)	0 (0.0%)
** 95	Xanəndəlik (NDU)	6	60	8	4	0 (0.0%)	2 (50.0%	1 (25.0%)	1 (25.0%)	0 (0.0%)	0 (0.0%)
** 96	Milli vokal (NDU)	6	60	10	4	0 (0.0%)	0 (0.0%)	2 (40.0%)	0 (0.0%)	2 (40.0%)	0 (0.0%)

Ali təhsil müəssisələrinin magistratura səviyyəsi üzrə XQTİ-lərə tələbə qəbulu

Ali təhsilin magistratura səviyyəsinə təsviri sənət, musiqi, teatr, kino və xoreoqrafiya sənətləri istiqamətləri üzrə qabiliyyət imtahanları keçirilib. Bakalavrlar 28 Qabiliyyət İmtahanı Komissiyası üzrə imtahanlarda iştirak ediblər. İmtahanlar Bakı şəhərində 4 binada təşkil olunub. Ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul üçün 68, 69 və 70 №-li proqramlar üzrə keçirilmiş qabiliyyət imtahanlarına **188** bakalavr qeydiyyatdan keçmişdi.

Orta ixtisas təhsili müəssisələrinin XQTİ-lərinə tələbə qəbulu

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul imtahanları Bakıdan əlavə respublikanın 8 bölgəsində təşkil olunub. İmtahanlar xüsusi qabiliyyət tələb edən ixtisasların xüsusiyyətlərinə uyğun olaraq 4 istiqamət üzrə keçirilib:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Teatr, kino və xoreoqrafiya sənəti
4. Bədən tərbiyəsi və idman

Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin XQTİ-lərinə qəbul üçün **5273** nəfər qeydiyyatdan keçmişdi.

Ümumi orta təhsil bazasında istiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	1083	235
Musiqi	1380	918
Teatr, kino və xoreoqrafiya	259	76
Bədən tərbiyəsi və idman	2551	1147

Tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin XQTİ-lərinə qəbul üçün **4131** nəfər qeydiyyatdan keçmişdi.

Tam orta təhsil bazasında istiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	1228	353
Musiqi	459	177
Teatr, kino və xoreoqrafiya	175	19
Bədən tərbiyəsi və idman	2269	1121

İmtahan günü tapşırıqların qiymətləndirilməsi həyata keçirilmiş və imtahan nəticələri operativ olaraq hər bir abituriyentin öz internet səhifəsində əksini tapmışdır. Qiymətləndirmədən sonra dərhal apellyasiya komissiyaları təşkil edilmiş və imtahan nəticələrinə dair müraciətlərə baxılmışdır.

Qabiliyyət imtahanı ekspertlərinin informasiya sistemi

2022-ci ildə xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün imtahan verən abituriyentlərin tapşırıqlarının peşəkar kadrlar tərəfindən qiymətləndirilməsini təmin etmək üçün Dövlət İmtahan Mərkəzində qabiliyyət imtahanı ekspertlərinin informasiya sisteminin (QABİS) təkmilləşdirilməsi davam etdirilmişdir.

DİM-in vətəndaşlara göstərdiyi elektron xidmətlər

M.M.Abbaszadə, Ç.C.Xəlilov

DİM-də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işlər 2022-ci ildə də intensiv şəkildə davam etdirilmişdir. İKT istər ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, istər rezidenturaya, istər orta ixtisas təhsili pilləsinə qəbul prosesinin, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarının, istərsə də dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmişdir. Bununla da yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Belə ki, 2022-ci ildə DİM tərəfindən göstərilən elektron xidmətlərdən 12 milyon 171 mindən artıq istifadə qeydə alınmışdır.

DİM tərəfindən 2022-ci ildə göstərilən elektron xidmətlərin təsnifatı:

№	Elektron xidmətin adı	Xidmətdən istifadələrin sayı				
		I rüb	II rüb	III rüb	IV rüb	Cəmi
1	Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu	182404	128472	13570	5533	**329979**
2	Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi	813851	1453155	118121	25919	**2411046**
3	Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu		2477	115338	400	**118215**
4	Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi	167653	3798852	1238308	179069	**5383882**
5	Namizədlərə onların cavab kartlarının qrafik təsvirlərinin internet vasitəsilə verilməsi	30673	2003448	148963	70596	**2253680**
6	Bakalavrların bakalavr pilləsinə qəbul olmaq üçün təqdim etdikləri ərizələrin iş nömrələrinin axtarışı	31076	11249	1652	1085	**45062**
7	Sınaq imtahanına yazılış				3215	**3215**
8	Onlayn sınaq imtahanının keçirilməsi					
9	İnternetdə video mühazirələr	288500	251500	234000	361900	**1135900**
10	DİM-in virtual ödəmə kartlarının onlayn və qısa mesaj (SMS) vasitəsilə satışı					
11	DİM nəşrlərinin və onların elektron versiyalarının onlayn satışı	1254	1699	2887	1086	**6926**
12	DİM-in yenilikləri barədə SMS məlumatlandırma					
13	Vətəndaşların DİM-in rəhbərliyinin və məsul işçilərinin qəbuluna onlayn yazılması					
14	Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) aparılan təhsilalanların DİM-in "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması	138805	176789	14211	3683	**333488**
15	Müsabiqə və müsahibə nəticələri barədə məlumatların verilməsi					**150194**
16	Dövlət qulluqçularının Reyestrindən məlumatların verilməsi					
17	Dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsi barədə müraciətlərin qəbulu					
18	Dövlət qulluğu stajı kalkulyatoru					**73**
	Cəmi	**1654216**	**7827641**	**1887050**	**652486**	**12171660**

DİM-in 2022-ci ildə keçirdiyi imtahanlarda 525251nəfər iştirak etmişdir.

Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci ildə keçirilən imtahanlarda iştirakçı sayları barədə məlumat

Ümumi təhsilin ümumi və tam orta təhsil səviyyələri üzrə imtahanlar	
Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı	134330
Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı	97475
Buraxılış imtahanları çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı	20127
Cəmi:	**251932**

Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları	
Ali təhsilin bakalavriat səviyyəsinə I- V qruplar üzrə (I mərhələ) və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə əvvəlki illərin məzunları üçün qəbul imtahanı	20618
Ali təhsilin bakalavriat səviyyəsinə I-IV qruplar üzrə qəbul imtahanı (II mərhələ)	135538
Ali təhsilin bakalavriat səviyyəsinə qəbul imtahanları çərçivəsində coğrafiya fənnindən imtahan	5096
Ali təhsilin bakalavriat səviyyəsi üzrə jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	703
Ali təhsilin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün ana dili və xarici dil üzrə fərq imtahanları (cari ilin məzunları üçün)	2086
Qəbul imtahanları çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı	1624
Ali təhsilin bakalavriat səviyyəsinin və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	17827
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları (əvvəlki illərin məzunları üçün)	12022
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün ana dili və xarici dil üzrə fərq imtahanları (cari ilin məzunları üçün)	160
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	5163
Ali təhsilin magistratura səviyyəsinə qəbul imtahanı	31930
Ali təhsilin magistratura səviyyəsinin xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahanı	187
Ali təhsilin magistratura səviyyəsi üzrə jurnalistika ixtisasına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahanı	33
Azərbaycan Respublikası Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnsitutunun magistraturasına qəbul imtahanı	81
Ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə sınaq imtahanı	3213
Ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə coğrafiya fənnindən sınaq imtahanı	2
Cəmi:	**236283**

Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul imtahanı	
Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul imtahanı	3182
Cəmi:	**3182**

Doktoranturaya qəbul imtahanı	
Doktoranturaya qəbul ilə bağlı xarici dillər, habelə əcnəbilərin Azərbaycan dili imtahanları	2195
Doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər, habelə əcnəbilərin Azərbaycan dili imtahanları	1033
Cəmi:	**3228**

Hərbi təhsil müəssisələrinə qəbul imtahanı	
Hərbi liseylərə qəbul imtahanı	1735
Dövlət Sərhəd Xidmətinin xüsusi məktəbinə qəbul imtahanı	916
Cəmi:	**2651**

Dövlət qulluğuna və dövlət orqanlarına işə qəbul imtahanı	
Dövlət qulluğuna işə qəbul imtahanı	10489
Dövlət qulluğuna işə qəbul imtahanı (elektron imtahan)	376
Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə imtahan	892
Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi imtahan (elektron imtahan)	355
Dövlət vergi orqanlarına işə qəbul imtahanı	2504
Ədliyyə orqanlarına işə qəbul imtahanı (elektron imtahan)	154
Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul olmaq istəyən namizədlər üçün imtahan	478
Hakimlərin seçimi üzrə imtahan	46
Hakimlərin seçimi üzrə imtahan (elektron imtahan)	182
Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün imtahan (elektron imtahan)	656
Miqrasiya orqanlarına qulluğa qəbul olmaq istəyən namizədlər üçün imtahan	357
Peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün imtahanının I mərhələsi	1741
Peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün imtahanının II mərhələsi	1615
Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədilə şəhadətnamə almaq istəyən namizədlər üçün imtahanı (elektron imtahan)	70
Uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə sınaq imtahanı	349
Uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə imtahanı	1992
Cəmi:	**22256**

Beynəlxalq imtahanlar	
SAT imtahanı	516
TOEFL iBT imtahanı	485
GRE imtahanı	77
Pearson VUE ixtisaslaşma imtahanları	41
Akademik ingilis dili imtahanı (PTE Academic)	23
Beynəlxalq rus dili imtahanı (ТРКИ)	11
ICDL imtahanı	337
Cambridge TKT	148
Cəmi:	**1638**

Digər imtahanlar	
X sinif şagirdləri üçün xarici dil fənnindən monitorinq imtahanı	1224
"SABAH" qruplarına qəbul imtahanının 2- ci mərhələsi üzrə imtahan	2397
ADA Məktəbinin XI sinif şagirdləri üçün riyaziyyat fənnindən monitorinq imtahanı	460
Cəmi:	**4081**
Ümumi cəm:	**525251**

DİM-də aparılan elmi-metodiki işlər və fənn seminarları haqqında statistik məlumatlar

1992–2022-ci illərdə DİM-də (TQDK-da) APARILMIŞ ELMİ-METODİKİ İŞLƏR

ÜMUMİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI ÜZRƏ

	1992	1993	1994	1995-1997	1998	1999-2000	2001-2003	2004-2009	2010-2021	2022
FƏNN KURİKULUMLARI ÜZRƏ QƏBUL PROQRAMLARI										
METODİKİ VƏSAİTLƏR										
QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI										
TEST TAPŞIRIĞI TOPLULARI										
STATİSTİK TƏDQİQATLAR										
TELEVİZİYA VERİLİŞLƏRİ										
SINAQ İMTAHANLARI										
PSİXOLOJİ KÖMƏK VƏ PEŞƏYÖNÜMÜ İŞİ										
İNTERNET VASİTƏSİLƏ İNFORMASİYA MÜBADİLƏSİ XİDMƏTİ										
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN VƏSAİTLƏR										
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN ELEKTRON VƏSAİTLƏR										
TƏCRÜBƏLİ EKSPERTLƏRİN FƏNLƏR ÜZRƏ VİDEO-MÜHAZİRƏLƏRİ										

ALİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI (MAGİSTRATURA) ÜZRƏ

	2005-2006	2007-2008	2009	2010	2011	2012	2013	2014	2015-2022
QƏBUL PROQRAMLARI									
MODEL TESTLƏR									
TEST TAPŞIRIQLARININ ELMİ-METODİKİ İZAHI VƏ TÖVSİYƏLƏR									
MƏNTİQ TESTLƏRİ									
İNFORMATİKA ÜZRƏ VƏSAİT									
SINAQ İMTAHANLARI									
ONLAYN SINAQ İMTAHANLARI									

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ ÜZRƏ (REZİDENTURA)

	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022
QƏBUL PROQRAMLARI												
MODEL TESTLƏR												
TEST TAPŞIRIQLARININ ELMİ-METODİKİ İZAHI VƏ TÖVSİYƏLƏR												
SINAQ İMTAHANLARI												
ONLİNE SINAQ İMTAHANLARI												
BAZA FƏNLƏRİ ÜZRƏ TEST TOPLUSU (rezidenturaya hazırlaşanlar üçün vəsait)												
Сборник тестов по базовым дисциплинам (пособие для готовящихся в резидентуру)												
BAZA FƏNLƏRİ ÜZRƏ TEST TAPŞIRIĞI NÜMUNƏLƏRİ VƏ ONLARIN İZAHI (rezidenturaya hazırlaşanlar üçün vəsait) azərbaycan və rus dillərində												
İXTİSAS FƏNLƏRİ ÜZRƏ TEST TOPLUSU (rezidenturaya hazırlaşanlar üçün vəsait)												
Сборник тестов по дисциплинам специальности (пособие для готовящихся в резидентуру)												
İNSAN ANATOMİYASI (rezidenturaya hazırlaşanlar ucun vəsait)												
BİOLOJİ KİMYA (rezidenturaya hazırlaşanlar ucun vəsait)												
TERAPEVTİK STOMATOLOGİYA (rezidenturaya hazırlaşanlar ucun vəsait)												
Терапевтическая стоматология (пособие для поступающих в резидентуру, электронная версия)												
PATOLOJİ FİZİOLOGİYA (dərs vəsaiti)												
НОРМАЛЬНАЯ ФИЗИОЛОГИЯ (пособие для поступающих в резидентуру)												
БИОЛОГИЧЕСКАЯ ХИМИЯ (пособие для поступающих в резидентуру)												
АНАТОМИЯ ЧЕЛОВЕКА (пособие для поступающих в резидентуру)												
ПАТОЛОГИЧЕСКАЯ ФИЗИОЛОГИЯ (пособие для поступающих в резидентуру)												
ГИСТОЛОГИЯ (пособие для поступающих в резидентуру)												
Фармакология (пособие для поступающих в резидентуру, электронная версия)												
ПАТОЛОГИЧЕСКАЯ АНАТОМИЯ (пособие для поступающих в резидентуру, электронная версия)												
PATOLOGİya (patoloji anatomiya) (rezidenturaya hazırlaşanlar ucun vəsait)												
Медицинская микробиология и иммунология (пособие для поступающих в резидентуру, электронная версия)												

DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ ÜZRƏ

	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022
I-XI SİNİFLƏR ÜZRƏ DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ											
DƏRSLİK PORTALI											
DİM-nin NƏŞRLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ											

ELMİ-METODİKİ SEMİNARLARIN İŞTİRAKÇILARININ SAY TƏRKİBİ

ÜMUMİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI ÜZRƏ

№	FƏNNİN ADI	Ümumi say tərkibi	Onlardan		
			professorlar	dosentlər	məktəb müəllimləri
1	Azərbaycan dili və ədəbiyyatı	238	7	15	216
2	Azərbaycan dili (rus bölməsi üçün)	46	1	5	40
3	Rus dili və ədəbiyyatı	108	2	9	97
4	Rus dili (Azərbaycan bölməsi üçün)	67	1	3	63
5	Riyaziyyat	302	4	25	273
6	Fizika	247	7	35	205
7	Kimya	205	6	23	176
8	Biologiya	185	3	19	163
9	Tarix	233	4	21	208
10	Coğrafiya	187	5	17	165
11	İngilis dili	184	0	6	178
12	Qərb dilləri (alman, fransız)	75	2	4	69
13	Şərq dilləri (ərəb, fars)	52	3	2	47
	Cəmi	*2129*	*45*	*184*	*1900*

ALİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI: MAGİSTRATURA ÜZRƏ

№	FƏNNİN ADI	Ümumi say tərkibi	Onlardan		
			Professorlar, elmlər doctorları	Dosentlər, fəlsəfə doktorları	Ali təhsil müəssisələrinin müəllimləri, elmi mərkəzlərin mütəxəssisləri, doktorant və dissertantlar
1	Psixometriya (məntiq)	12	1	4	7
2	İnformatika	16	2	4	10
3	Xarici dillər	46	6	18	22

REZİDENTURA ÜZRƏ*

№	Rezidentura üzrə	Ümumi say tərkibi	Onlardan				
			professor	dosent	baş müəllim	assistent	həkim
1	Baza fənləri	56	8	31	6	11	-
2	İxtisas fənləri:						
	Müalicə işi, Pediatriya istiqaməti	62	3	39	8	7	5
	Stomatologiya istiqaməti	27	4	9	3	9	2
	Tibbi profilaktika istiqaməti	22	2	12	5	3	1

* Cədvəldə seminarlarda iştirak etmək hüququ olanların ümumi sayı verilmişdir. Pandemiya ilə əlaqədar olaraq seminarlar əsasən onlayn qaydada aparılmışdır.

DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ ÜZRƏ

№	Seminarın adı	Ümumi say tərkibi		
		Bakı və Sumqayıt şəhərləri üzrə	Regionlar üzrə	Cəmi
1.	Azərbaycan dili və ədəbiyyatı	260	232	492
2.	Azərbaycan dili (rus bölməsi üçün)	46	0	46
3.	Rus dili və ədəbiyyatı	108	34	142
4.	Rus dili (Azərbaycan bölməsi üçün)	67	31	98
5.	Riyaziyyat	302	225	527
6.	Fizika	247	175	422
7.	Kimya	207	167	374
8.	Biologiya	185	156	341
9.	Tarix	233	163	396
10.	Coğrafiya	187	153	340
11.	İngilis dili	180	83	263
12.	Qərb dilləri (alman, fransız)	75	40	115
13.	Şərq dilləri (ərəb, fars)	52	0	52
14.	İbtidai siniflər	1541	158	1699

Qeyd: COVİD -19 pandemiyası ilə bağlı ciddi karantin qaydaları nəzərə alınaraq , 2020-2022- ci illərdə elmi-metodiki seminarlar müvafiq fənlər üzrə işçi qrupları kimi fəaliyyət göstərib.

Təhsilin qiymətləndirilməsi sahəsində beynəlxalq əməkdaşlıq və strateji inkişaf layihələri

- **Dillər üzrə ümumavropa çərçivə sənədinin (CEFR) Azərbaycan dilinə tərcümə edilməsi ilə bağlı görülən işlər**

Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində Dövlət İmtahan Mərkəzinin (DİM) təşkilatçılığı ilə dillər üzrə ümumavropa çərçivə sənədi (CEFR) Azərbaycan dilinə tərcümə edilmişdir. Belə ki, DİM tərəfindən CEFR sənədinin ingilis dilindən Azərbaycan dilinə tərcümə edilməsi layihəsini həyata keçirmək üçün Azərbaycan Dövlət Tərcümə Mərkəzi ilə 2020-ci ilin mart ayında əməkdaşlıq sazişi imzalanmış və sənədin tərcüməsi 2021-ci ildə yekunlaşmışdır. Hazırda tərcümə edilmiş sənəd redaktə olunmaqdadır. Sənədin Azərbaycan dilinə tərcüməsi mövcud dil (Azərbaycan dili və xarici dillər) proqramlarının təkmilləşdirilməsi, qiymətləndirmə standartlarının beynəlxalq çərçivə sənədi əsasında tərtibi və müqayisə edilməsinə, həmçinin tədris prosesinin təsbit olunmuş dil standartları əsasında təşkilinə xidmət edəcəkdir.

- **Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya ilə əməkdaşlıq və təmsilçilik**

1. 6 yanvar 2022-ci il tarixində DİM-in əməkdaşı Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA) idarə heyətinin üzvü seçilmişdir. Qeyd edək ki, IAEA 1977-ci ilin aprelində ABŞ-ın Nyu-Cersi ştatının Prinston şəhərində keçirilən beynəlxalq konfransda yaradılmışdır. Həmin ildən etibarən, təhsildə qiymətləndirmə sahəsində mövcud olan problemlər və onların həll yollarının araşdırılması məqsədilə 50-dən çox ölkədən olan nümayəndələr hər il təşkil olunan konfranslarda bir araya gəlir və müzakirələr aparırlar. Belə ki, DİM biliyin qiymətləndirilməsi sahəsində dövlətlərarası əməkdaşlığın qurulması, yeni qiymətləndirmə metodlarının tətbiq olunması, bu sahədə Azərbaycanın təcrübəsini paylaşmaq, eyni zamanda beynəlxalq təcrübələri öyrənmək məqsədilə Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya ilə sıx əməkdaşlıq edir. DİM 1999-cu ildən IAEA-nın daimi üzvüdür və iki dəfə (2007-ci və 2019-cu illərdə) təşkilatın illik konfransına ev sahibliyi etmişdir.
2. 2022-ci il 2-7 oktyabr tarixlərində Meksika Birləşmiş Ştatlarının paytaxtı Mexiko şəhərində Anaxuak Universitetinin təşkilatçılığı ilə Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA: International Association for Educational Assessment) "Qiymətləndirmənin keyfiyyətli təhsilə töhfələri" mövzusunda keçirilmiş 47-ci illik konfransında DİM-in Direktorlar Şurasının sədri və əməkdaşları ölkəmizi təmsil etmişdir. Belə ki, DİM-in Strateji inkişaf şöbəsinin müdiri Niderlandın İmtahan və Sertifikatlaşdırma üzrə Tədqiqat Mərkəzinin (RCEC - Research Centre for Examination and Certification) direktoru ilə birgə "Qiymətləndirmə təşkilatlarının keyfiyyətinin təmin edilməsi: Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin RCEC tərəfindən auditi ilə bağlı araşdırma – uğur hekayəsi" və ayrıca olaraq "Azərbaycanda ingilis dilinin qiymətləndirilməsinə aid islahatların Dillər üzrə ümumavropa çərçivə sənədinə (CEFR) uyğunlaşdırılmış xarici dil kurikulumunun inkişafına təsiri" mövzusunda təqdimatlar etmişdir. Bununla yanaşı, DİM-in əməkdaşı konfransın "Ali təhsil müəssisələrinə qəbul üçün qiymətləndirmə" və "K-12 qiymətləndirməsi" adlı sessiyalarına moderatorluq etmişdir.

   Konfransda DİM-in Statistik araşdırmalar və elmi layihələşdirmə şöbəsinin əməkdaşı "Azərbaycan Respublikasında buraxılış imtahanlarının nəticələrinin təhlili" adlı məruzə ilə çıxış etmişdir.

   DİM-in texnoloji tərəfdaşı olan "Bakinity" şirkəti konfransın sponsoru olmaqla yanaşı, sərgi iştirakçılarından biri olmuşdur. Belə ki, DİM "Bakinity" şirkəti ilə birgə konfransın rəsmi sərgisində iştirakçılara imtahanların təhlükəsizliyi üçün bir sıra həll yollarını nümayiş etdirmişdir.

3. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinə qəbul prosesi

2022/2023-cü tədris ili üçün Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinə Azərbaycan Respublikası vətəndaşları üçün tələbə qəbulu elan edilmiş və bakalavriat səviyyəsi üzrə 3 yer ayrılmışdır. Test imtahanının nəticələri elan olunduqdan sonra DİM-in əməkdaşları tərəfindən 6 nəfər namizəd ilə onlayn müsahibə keçirilmişdir. Müsahibədə namizədlərin ümumi dünyagörüşü, Azərbaycan və ingilis dilləri üzrə danışıq bacarıqları yoxlanılmışdır.

- **İKT istiqamətində yerli və beynəlxalq əməkdaşlıq tədbirlərində iştirak**

1. 7 mart tarixində DİM-in Direktorlar Şurasının sədri və DİM-in struktur bölmə rəhbərləri ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti və "ASAN xidmət"in nümayəndə heyəti arasında görüş keçirilmişdir. Görüşdə tərəflər arasında aşağıdakı sahələrə dair qarşılıqlı əməkdaşlıq imkanları müzakirə edilmişdir:
   - Rəqəmsallaşdırma və texnoloji təminat;
   - Elektron məlumat sistemləri;
   - Qiymətləndirmə sahəsində yeni mexanizm və alətlərin yaradılması;
   - Dövlət qulluğunda sərişte modeli;
   - Dövlət qulluqçularının peşəkar inkişafı və sertifikatlaşdırılması;
   - İKT bacarıqlarına dair beynəlxalq imtahanlar.
2. 5-7 sentyabr tarixlərində Koreya Respublikasının İnçxon şəhərində Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) Asiya və Sakit Okean üzrə İnformasiya və Kommunikasiya Texnologiyalarının İnkişafı Təlim Mərkəzinin (APCICT) və Koreya Respublikasının Elm və İKT Nazirliyinin birgə təşkilatçılığı ilə "Davamlı inkişaf naminə qabaqcıl İKT istiqamətləri" adlı təlim proqramının təqdimatında DİM-in Strateji inkişaf şöbəsinin müdiri iştirak etmişdir. Proqram çərçivəsində aşağıdakı mövzulara dair təqdimatlar nümayiş etdirilmişdir:
   - Qabaqcıl İKT istiqamətlərinin izahı, əhatə dairəsi və xüsusiyyətləri;
   - Davamlı inkişaf məqsədlərinə nail olmaqda qabaqcıl İKT istiqamətlərinin rolu və əhəmiyyəti;
   - Qabaqcıl İKT istiqamətlərinə dair fəaliyyətin hazırlanması və tətbiqi zamanı nəzərə alınmalı olan əsas çətinliklər, maneələr və risklər;
   - Dövlət sektorunda tətbiq olunan üç əsas texnologiya və qlobal məsələlərin hər biri ilə bağlı siyasətin cari vəziyyəti;
   - Qabaqcıl İKT istiqamətlərinin effektiv və səmərəli inkişafı və tətbiqi üçün siyasət üzrə tövsiyələr və beynəlxalq əməkdaşlıq imkanları.

   Daha sonra tədbir "Qabaqcıl İKT istiqamətlərinə giriş", "Süni intellekt", "Blokçeyn" və "Əşyaların interneti" adlı sessiyalar ilə davam etdirilmişdir.
3. 7-11 noyabr tarixlərində Koreya Respublikasının İnçxon şəhərində Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) Asiya və Sakit Okean üzrə İnformasiya və Kommunikasiya Texnologiyalarının İnkişafı Təlim Mərkəzinin (APCICT) və Koreya Respublikasının Elm və İKT Nazirliyinin birgə təşkilatçılığı ilə İKT sahəsində qadınların fəaliyyətini dəstəkləyən "Rəqəmsal Liderlər Proqramı" adlı təlim proqramının təqdimatında DİM-in E-imtahanlar və müsahibələrin təşkili departamentinin əməkdaşı da iştirak etmişdir.

- **Elmi fəaliyyətlərə həsr olunmuş tədbirlər**

1. DİM 2021/2022-ci tədris ili üçün tələbə qəbulunun nəticələrinin elmi-statistik təhlilini başa çatdırmış və onu "Abituriyent" jurnalının 12-ci nömrəsində dərc edərək ictimaiyyətə təqdim etmişdir. 2022-ci il 10 iyun tarixində DİM jurnalın həmin nömrəsinin təqdimatını keçirmişdir. Bir sıra araşdırmalar, məsələn, "Ayrı-ayrı rayonların qəbul imtahanlarındakı nəticələrinə dair statistik məlumatlar", "Qəbul və buraxılış imtahanlarının nəticələrinin gender aspektləri", "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada", "Neft-qaz profilli ixtisaslar statistikada" "Abituriyent" jurnalının 12-ci nömrəsinə əlavə kimi ayrıca kitabça şəklində nəşr edilir.

2. 23 sentyabr tarixində DİM-in rəhbər heyəti və əməkdaşları məşhur rus fiziki akademik Roald Saqdeyevin elmi fəaliyyətinə həsr olunmuş görüşdə iştirak etmişdir. DİM-də təşkil olunmuş görüşdə plazma fizikası üzrə ekspert Roald Saqdeyev nitqində elmi fəaliyyətindən danışmış və öz şəxsi təcrübələrini iştirak edən əməkdaşlar ilə paylaşmışdır. Görüş zamanı müxtəlif ölkələrdən olan gənclərin elmə marağının artırılmasına dair fikir mübadiləsi də aparılmışdır.

- **İnstitusional inkişaf üzrə beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi**

1. 31 mart tarixində DİM-də "The International Baccalaureate®" (IB) ("Beynəlxalq bakalavriat") təşkilatının Avropa, Afrika və Yaxın Şərq ölkələrində IB proqramının inkişafı və tanınması üzrə baş meneceri, Avropa Azərbaycan məktəbinin direktoru və DİM-in əməkdaşlarının iştirakı ilə görüş keçirilmişdir. Görüşdə DİM tərəfindən 2019-cu ildən etibarən aparılan beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu haqqında statistik göstəricilər və IB nəticələrinin həqiqiliyinin yoxlanılması üzrə beynəlxalq platformaya dair məlumat təqdim olunmuş, mövzu ətrafında fikir mübadiləsi aparılmışdır. Görüşün sonunda əməkdaşlıq istiqamətlərinə dair təkliflər səsləndirilmişdir.
2. 6 iyul tarixində DİM-in rəhbərliyi Britaniya Şurası təşkilatının Azərbaycan üzrə rəhbəri Nərgiz Hacıyeva ilə görüşmüşdür. Görüş zamanı tərəflər xarici dil, xüsusilə də ingilis dili imtahanlarının beynəlxalq standartlara uyğunlaşdırılması, müəllimlərin peşə hazırlığının dəstəklənməsi, xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul üzrə imtahanların təşkili prosesi, gələcək əməkdaşlıq perspektivləri, həmçinin Azərbaycan Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 5-ci iclasında səsləndirilən məsələlər müzakirə edilmişlər.
3. 28 sentyabr tarixində DİM-in rəhbərliyi və Qazaxıstanın Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyinin layihə rəhbəri arasında görüş keçirilmişdir. Görüşdə DİM-in Direktorlar Şurasının sədri və Direktorlar Şurasının sədr müavini, Qazaxıstanın Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyinin layihə rəhbəri və DİM-in digər əməkdaşları iştirak etmişlər. Qonaqlara DİM-in fəaliyyəti haqqında məlumat verilmiş və təcrübə mübadiləsinin əhəmiyyətli olduğu bildirilmişdir. Agentliyin nümayəndəsi də DİM-in işləri və Beynəlxalq IAAR akkreditasiyası barədə təqdimat etmiş, bu təşkilatın akkreditasiya və reytinq üzrə fəaliyyətinə DİM ilə əməkdaşlıq edən fənn ekspertlərinin cəlb olunması imkanları müzakirə olunmuşdur.
4. 6-7 oktyabr tarixlərində Qazaxıstanın Almatı şəhərində Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin (IAAR) təşkilatçılığı ilə "Qlobal təhsil məkanında transmilli əməkdaşlıq" mövzusunda VI Mərkəzi Asiya Beynəlxalq Forumunda DİM-in Direktorlar Şurası sədrinin müavini Namiq Babayev və Yoxlama-ölçmə materiallarının işlənməsi departamentinin müdiri Natiq Əliyev iştirak etmişlər. Namiq Babayev Forumun açılışındakı plenar iclasda çıxış edərək, DİM-in fəaliyyət istiqamətləri, beynəlxalq əməkdaşlıq sahəsində görülən işlər və tərəfdaşları, Mərkəzin keçirdiyi beynəlxalq imtahanlar və tələbələrin mobilliyinə verilən töhfələr haqqında iştirakçılara məlumat vermişdir.
5. 3 oktyabr - 11 noyabr tarixlərində DİM, Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutunun birgə əməkdaşlığı çərçivəsində Niderland Krallığının CİTO – Niderland Milli Təhsil İnsitutunun dəstəyi ilə həyata keçirilmiş 55 ekspertin iştirakı ilə "Riyaziyyat və təbiət elmləri üzrə PISA yönümlü sualların yazılması istiqamətində ekspertlərin hazırlığı" layihəsinin təlimləri baş tutmuşdur. Layihə aşağıdakı məsələləri əhatə etmişdir:
   - Situasiya tipli test tapşırıqlarının hazırlanması və quruluşuna dair ümumi nəzəriyyə;
   - Spesifikasiyalara əsaslanan test tapşırıqlarının tərtibinə dair suallar;
   - "PISA 2021" çərçivə sənədində riyazi savadlılıq və funksional savadlılığın qiymətləndirilməsi;
   - Savadlılığın qiymətləndirilməsindəki kontekstlər: nəzəriyyə və təcrübə; Azərbaycan və Niderland nümunələri;
   - Bacarıq yönümlü (competency based) qapalı test tapşırıqlarının tərtibinə dair suallar;
   - Açıq sualların tərtib olunması və qiymətləndirilməsi meyarlarının hazırlanması.

6. 29 noyabr - 1 dekabr tarixlərində DİM və Azərbaycanda Fransız İnstitutunun (IFA) birgə təşəbbüsü ilə fransız dili üzrə mütəxəssislərin davamlı peşəkar inkişafı üçün 3 günlük təlim proqramı həyata keçirilmişdir. Qiymətləndirmə materiallarının hazırlanması və ekspertizası ilə bağlı xarici təlimçi Amandin Kitel tərəfindən keçirilmiş təlimdə 21 ekspert iştirak etmişdir.

- **İctimaiyyətlə iş - "Açıq qapı" günləri**

1. 2 mart tarixində qəbul imtahanlarının ikinci mərhələsi üzrə sınaq imtahanında ən yüksək nəticə göstərən 25 abituriyent "Açıq qapı" gününə dəvət olunmuşdur. Yüksək nəticə göstərən abituriyentlərə hədiyyə olaraq DİM tərəfindən "Abituriyent" jurnalının 2022-ci il tarixli 1-ci sayı, "Abituriyent" nəşrlərinə dair broşür və otk.az portalında yerləşdirilmiş sınaq imtahanlarından ödənişsiz faydalanmaq üçün 20 AZN dəyərində kupon təqdim edilmişdir.
2. 4 mart tarixində fevralın 20-də keçirilmiş magistratura səviyyəsinə qəbul imtahanında ən yüksək nəticə göstərən 25 bakalavr DİM-də təşkil edilən "Açıq qapı" gününə dəvət olunmuşdur. 2 bakalavr görüşə DİM-in "Facebook" səhifəsi vasitəsilə canlı yayımla qoşulmuşdur. Yüksək nəticə göstərən bakalavrlara hədiyyə olaraq DİM-in "Korporativ məlumat kitabı" və dövlət qulluğuna qəbul üzrə müsabiqənin test imtahanı mərhələsinə hazırlaşanlara elmi-metodik kömək məqsədi ilə tərtib olunmuş "500 test tapşırığı" adlı tapşırıqlar toplusu təqdim olunmuşdur.
3. 18-27 aprel tarixlərində DİM-in əməkdaşları ADA Universitetinin təşkil etdiyi "Məşğulluq həftəsi" layihəsində "spiker" qismində iştirak etmişlər. 17 may tarixində isə ADA Universitetinin "Məşğulluq həftəsi"nin iştirakçısı olmuş, bakalavriat və magistratura səviyyəsində təhsil alan 13 nəfər tələbəsi üçün "Açıq qapı" günü keçirilmişdir. Müsahibə əsasında seçilmiş namizədlər arasında qiymətləndirmə zamanı ən yüksək nəticə göstərən 3 tələbə DİM-də 2 aylıq təcrübə keçmək imkanı əldə etmişdir.
4. 1 iyunda Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Açıq qapı" günü keçirilmişdir. DİM-də təşkil edilmiş "Açıq qapı" gününə Mərkəzin əməkdaşlarının 9-16 yaş aralığında olan övladları dəvət edilmişdir. İştirakçılara DİM-in keçirdiyi yerli və beynəlxalq imtahanlar, sınaq imtahanları platforması olan otk.az və e-psixoloq.az internet saytlarının imkanları haqqında təqdimatlar nümayiş etdirilmişdir. Onlar, həmçinin DİM-in fəaliyyəti və göstərdiyi xidmətlər ilə də yaxından tanış olmuşlar. DİM-in psixoloq əməkdaşları uşaqlarla tək-tək görüşərək, onlarla maarifləndirici söhbət aparmışlar.

Beynəlxalq əməkdaşlıq və strateji inkişaf istiqamətində imzalanmış anlaşma memorandumları

1. 7 aprel tarixində DİM ilə Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin rəhbər şəxsləri arasında görüş keçirilmiş, tərəflər arasında daha əvvəl imzalanmış Anlaşma Memorandumu yenilənmişdir. Qeyd edək ki, DİM-in dəstəyi ilə Gürcüstanın tədris Azərbaycan dilində olan orta məktəblərində işləyən Azərbaycan dili və ədəbiyyatı müəllimləri üçün müəllimlərin peşə-ixtisas imtahanı üzrə qiymətləndirmə aləti həmin fənni tədris edənlərin attestasiyası zamanı diferensial əməkhaqlarının müəyyən edilməsində istifadə olunur.
2. 15 aprel tarixində DİM, Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi (METM), İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi (DVXTM), Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası (APFM), Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası (ARPA) və Gənc Mühasiblər İctimai Birliyi (GMİB) arasında Anlaşma Memorandumunun imzalanmasına həsr olunan tədbir keçirilmişdir. Anlaşma Memorandumu "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 may 2019-cu il tarixli Qərarını əsas götürərək, PMS üzrə imtahanların məzmunu və strukturunun təkmilləşdirilməsi və təbliğatı, maliyyə, mühasibat və vergi uçotu sahəsindəki yeniliklərin ictimaiyyətə birgə çatdırılması və tətbiqi, eləcə də qeyd edilən sahələr üzrə mütəxəssislərin peşəkar inkişafına dair qarşılıqlı əməkdaşlıq məqsədi daşıyır.
3. 9 iyun tarixində DİM və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin rəhbər şəxsləri arasında bədən tərbiyəsi və idman istiqaməti üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanlarının şəffaflığını təmin etmək, bu sahədə uğurlu beynəlxalq təcrübəni ölkə şərtlərinə uyğun tətbiq etmək və peşəkar kadrların formalaşmasına töhfə vermək məqsədilə Anlaşma Memorandumu imzalanmışdır.
4. 10 iyun tarixində DİM və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki Təhsil Tələbə Krediti Fondu (TTKF) arasında Anlaşma Memorandumu imzalanmışdır. Bu memorandum Azərbaycan Respublikasında əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq, gənclərin əmək bazarında yer tutmalarına dəstək olmaq, eyni zamanda TTKF və onun təklif etdiyi imkanlar barədə məlumatlılığın artırılması məqsədi daşıyır.
5. 22 iyun tarixində DİM və Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövləq Aqrar Universiteti və Xəzər Universiteti arasında Anlaşma Memorandumları imzalanmışdır. Əməkdaşlığın məqsədi maliyyə sahəsində savadlılığın artırılması, maliyyə, mühasibat və audit ixtisasları üzrə fənn proqramları, tədris planları və semestr imtahanlarının təkmilləşdirilməsi, onların beynəlxalq və yerli kvalifikasiyalara uyğunlaşdırılmasıdır.
6. 1 sentyabr tarixində DİM və "LANDAU School" Tədris Kompleksi arasında Anlaşma Memorandumunun imzalanmasına həsr olunan tədbir keçirilmişdir. Əməkdaşlıq çərçivəsində tərtib edilmiş elmi-metodik vəsaitlər həm qəbul, həm də 9-cu və 11-ci sinif buraxılış imtahanlarına hazırlaşanlar üçün nəzərdə tutulmuşdur. Vəsaitlərin hazırlanmasında əsas məqsəd abituriyentlərin ali təhsil müəssisələrinə qəbula müstəqil hazırlaşa bilmələridir.
7. 1 dekabr tarixində gənclərin peşə seçimi imkanlarının genişləndirilməsinə və əmək bazarında öz peşə profillərinə uyğun yer tutmalarına dəstək olmaq məqsədilə DİM və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin rəhbər şəxsləri arasında Anlaşma Memorandumu imzalanmışdır.
8. 13 dekabr tarixində DİM və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəhbər şəxsləri tərəfindən iki qurum arasında əməkdaşlığın təşviq və inkişaf etdirilməsinə töhfə vermək məqsədilə Anlaşma Memorandumu imzalanmışdır.

Dövlət qulluğu sahəsində beynəlxalq əməkdaşlıq və strateji inkişaf layihələri

1. 17 fevral tarixində DİM tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA (Support for Improvement in Governance and Management – Rəhbərlik və idarəetmədə təkmilləşdirməyə dəstək) proqramı çərçivəsində dövlət qulluğunda "Səriştə modelinin təsdiqlənməsi" üzrə pilot layihənin onlayn təlimi keçirilmişdir. Təlimin keçirilməsində əsas məqsəd DİM-in vəzifə təhlili və səriştələrin hazırlanmasına dair bacarıqlarını inkişaf etdirmək, "gələcəyə dair baxış" üsulu və "fokus qruplarla müsahibə" üsulları haqqında nəzəri bilikləri təqdim etməkdən ibarət olmuşdur.
2. 23-27 may tarixlərində Özbəkistan Respublikasının Prezidenti yanında Dövlət Qulluğunun İnkişafı Agentliyinin nümayəndə heyəti Bakı şəhərində işgüzar səfərdə olmuşdur. DİM-də keçirilən görüşlərin məqsədi açıq rəqabət sisteminin optimallaşdırılması, milli kadr ehtiyatının formalaşdırılması, habelə dövlət qulluğuna namizədlərin seçimində şəffaflığın, ədalətliliyin və obyektivliyin təmin edilməsi istiqamətində Azərbaycan Respublikasının qabaqcıl təcrübəsini öyrənmək olmuşdur. Bu məqsədlə Özbəkistan nümayəndə heyəti üçün Azərbaycan Respublikasında dövlət qulluğuna qəbul sisteminə dair təqdimat nümayiş etdirilmişdir.
3. 8-10 iyun tarixlərində Regional Xab və Qazaxıstan İnsan Resursları Menecerləri Assosasiyasının birgə təşkilatçılığı ilə Qazaxıstanın Türküstan şəhərində özəl və dövlət sektoru təşkilatlarının səmərəliliyinin artırılmasında insan resurslarının idarə edilməsinin rolu və əhəmiyyəti ilə bağlı keçirilən "İnsan Kapitalı Forum"unda DİM-in nümayəndələri də iştirak etmişlər. DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov tədbir iştirakçılarına Azərbaycanın dövlət qulluğu sistemində insan kapitalının rolu barədə məlumat vermişdir.
4. 14 iyun tarixində DİM-in Strateji inkişaf şöbəsinin müdiri Böyük Britaniyanın paytaxtı London şəhərində Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 5-ci iclasında iştirak etmişdir. İclasda tərəflər arasında təhsildə qiymətləndirmə, dövlət qulluğu və maliyyə sahəsində sertifikasiya üzrə əməkdaşlıq imkanlarının yaradılması ilə bağlı razılıq əldə edilmişdir.
5. 24 iyun tarixində DİM-in əməkdaşı Şərq Tərəfdaşlığı proqramının dövlət qulluğu üzrə regional layihəsi çərçivəsində onlayn dəyirmi masada iştirak etmiş və "Azərbaycanda dövlət qulluqçuları üçün peşəkar inkişaf imkanları" adlı təqdimatla çıxış edərək "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"da əks olunan dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi istiqaməti, DİM-in təşkil etdiyi təlimlər və sahə üzrə fəaliyyəti, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının qeyd edilən istiqamət üzrə fəaliyyəti barədə tədbir iştirakçılarına məlumat vermişdir.
6. 28-29 iyul tarixlərində DİM-in Direktorlar Şurasının sədri Türkiyə Respublikası Prezidenti Administrasiyasının İnsan Resursları Ofisinin ev sahibliyi, üzv və müşahidəçi dövlətlərin əlaqədar qurumlarının nümayəndələrinin iştirakı ilə İstanbul şəhərində keçirilmiş "Türk Dövlətləri Təşkilatı I İnsan Resursları Görüşü"ndə iştirak etmişdir. Görüşdə Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstandan olan nümayəndələr insan resurslarının idarə edilməsi ilə bağlı təcrübələrini paylaşmış və gələcəkdə türk dövlətləri arasında həyata keçiriləcək çoxtərəfli əməkdaşlıq istiqamətlərinə dair müzakirələr aparmışdır.
7. 2 avqust tarixində DİM-in və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəhbərliyi arasında görüş keçirilmişdir. Görüşdə ali təhsil müəssisələrinə tələbə qəbulunun göstəriciləri və Dövlət Qulluqçuları Reyestrinin aparılması mövzusunda təqdimatlar nümayiş etdirilmişdir.
8. 24 avqust tarixində DİM-in və Qazaxıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (QRDİA) rəhbərliyi arasında görüş keçirilmişdir. DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, QRDİA-nın rektoru Yerlan Abil, DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov və DİM-in digər əməkdaşlarının iştirak etdiyi görüşdə Dövlət Qulluqçuları Reyestrinin aparılması mövzusunda təqdimatlar nümayiş etdirilmişdir.

9. 21 sentyabr tarixində DİM-in rəhbər işçiləri Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əməkdaşlarının müşayiət etdiyi Efiopiya Federativ Demokratik Respublikasının Dövlət Qulluğu Komissiyasının nümayəndə heyətini qəbul etmişdir. Qonaqlar Azərbaycanda dövlət qulluğu sistemi, o cümlədən "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"nın əsas inkişaf istiqamətləri və fəaliyyət planları ilə yaxından tanış olmuşlar. DİM-in sədr müavini Bəhram Xəlilov çıxışı zamanı sahə üzrə əldə edilən təcrübənin paylaşılması, dövlət qulluğu sisteminin təkmilləşdirilməsi üçün beynəlxalq təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti ilə əlaqədar məsələlərə toxunmuşdur.
10. 22 noyabr tarixində Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nümayəndələri DİM-ə işgüzar səfər etmişlər. Görüşdə iştirak edən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Azərbaycan üzrə ölkə meneceri Piotr Gorecki, SIGMA (Rəhbərlik və İdarəetmədə Təkmilləşdirməyə Dəstək) proqramının baş siyasət məsləhətçisi Blanca Lázaro və DİM-in əməkdaşları dövlət qulluğunda sərişte modelinin qurulması, təkmilləşdirilməsi və icrası ilə əlaqədar gələcək əməkdaşlığa dair müzakirələr aparmışlar.
11. 20-21 dekabr tarixlərində DİM, Dövlət Qulluğu üzrə Astana Regional Xabı və Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Dövlət Qulluğu Komissiyasının birgə təşkilatçılığı ilə "21-ci əsrdə dövlət qulluğu üzrə nailiyyət əsaslı insan resurslarının idarə edilməsi" adlı beynəlxalq seminar keçirilmişdir. Tədbirdə bir sıra Xab iştirakçısı olan ölkələrdən dövlət sektorunda insan resurslarının idarə edilməsi siyasətinin hazırlanması və həyata keçirilməsinə cavabdeh olan dövlət qurumlarını təmsil edən rəhbər şəxslər iştirak etmişdir.

- **Dövlət qulluğu sahəsində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) ilə əməkdaşlıq**

1. 10-15 may tarixlərində DİM-in əməkdaşları Gürcüstanın paytaxtı Tbilisi şəhərində Şərq Tərəfdaşlığı (ŞT) Regional İdarəçilik İslahatı Fondu və GIZ Regional Fondunun birgə təşkilatçılığı ilə ŞT ölkələrinin iştirakı ilə Dövlət İdarəçilik İslahatı üzrə II "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi" layihəsinin ilk təliminə iştirak etmişlər. Təlim kursu "Liderliyin tələbləri və spesifik problemləri", "Müasir liderlik", "Peşəkar ünsiyyət üsulları", "Məqsədlərin müəyyən edilməsi", "Planlaşdırma və mümkün müdaxilələr", "Təşkilatda proseslərin təhlili", "Xidmətlərin idarə edilməsi və müştərilərə qayğı", "Təşkilatın marketinqi" kimi mövzularda Almaniyanın dövlət qulluğu və özəl xidmət sektorunda həmkarlar ittifaqlarının aparıcı təşkilatı olan "DBB Akademie"nin direktoru tərəfindən keçirilmişdir.
2. 24-29 iyul tarixlərində DİM-in əməkdaşları Gürcüstanın Batumi şəhərində Şərq Tərəfdaşlığı Regional İdarəçilik İslahatı Fondu və GIZ Regional Fondunun birgə təşkilatçılığı ilə ŞT ölkələrinin iştirakı ilə Dövlət İdarəçilik İslahatı üzrə II "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi" layihəsi çərçivəsində baş tutmuş "ŞT ölkələrinin dövlət qulluğunda regional rəhbər qrupu üçün idarəetmə və liderlik" üzrə 3-cü təlim kursunda iştirak etmişlər.
3. 26-30 sentyabr tarixlərində Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində GIZ-in "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi" layihəsinin ikinci mərhələsi çərçivəsində Şərq Tərəfdaşlığı ölkələrinin nümayəndələri üçün "ŞT ölkələrində yaxşı idarəçilik üzrə payız məktəbi" təşkil olunmuşdur. DİM-in əməkdaşı GIZ, Hertie Məktəbi və Alterbridge Beynəlxalq İdarəetmə və Kommunikasiya Universitetinin birgə təşkilatçılığı ilə keçirilən təlimdə iştirak etmişdir. Payız məktəbi "Beynəlxalq münaqişələrin idarə edilməsi", "Siyasətçilər üçün effektiv yazı", "Dövlət sektorunda innovasiya və transformasiya", "Dövlət sektorunda siyasi ünsiyyət və süni intellekt", "Süni intellekt və insanların idarə edilməsi" və digər mövzuları əhatə etmişdir. Təlimlər Almaniyanın dövlət qulluğu sahəsi də mütəxəssisləri tərəfindən aparılmışdır.
4. 8-10 noyabr tarixlərində DİM-in əməkdaşları Gürcüstanın paytaxtı Tbilisi şəhərində Şərq Tərəfdaşlığı Regional İdarəçilik İslahatı Fondu və GIZ Regional Fondunun birgə təşkilatçılığı ilə "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi" layihəsi çərçivəsində "Dövlət qulluğunda vəzifələrin dəyişməsi - yeni reallıqlar, imkanlar və çağırışlar" mövzusunda keçirilmiş dəyirmi masada iştirak etmişlər.
5. 14-25 noyabr tarixlərində DİM-in əməkdaşı Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində Şərq Tərəfdaşlığı Regional İdarəçilik İslahatı Fondu və GIZ Regional Fondunun birgə təşkilatçılığı ilə "Peşəkar dövlət qulluğu və peşə təhsili üzrə təlim" layihəsi çərçivəsində "Şərq Tərəfdaşlığı ölkələrində peşəkar dövlət qulluğu" adlı təlimdə iştirak etmişdir.

- **Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycanda dövlət qulluğu sistemində islahatlara dəstək" texniki yardım layihəsi**

1. 14 iyul tarixində Avropa İttifaqının maliyyələşdirdiyi və DİM-in həyata keçirdiyi "Azərbaycanda dövlət qulluğu sistemində islahatlara dəstək" texniki yardım layihəsinin rəsmi açılış tədbiri "Fairmont Baku" hotelində baş tutmuşdur. Tədbirdə bir sıra dövlət və özəl qurumların rəhbər şəxsləri, Avropa İttifaqının Azərbaycan Respublikasındakı səfiri və nümayəndələri, həmçinin beynəlxalq ekspertlər daxil olmaqla, ümumilikdə, 150-yə yaxın şəxs iştirak etmişdir. Qeyd edək ki, iki il davam etməsi nəzərdə tutulan layihənin yekununda əvvəlcədən müəyyən edilmiş 21 nəticənin əldə olunması hədəflənir. Layihənin gedişatında 2022-ci il ərzində yerinə yetirilmiş bir sıra bəndlər və məqsədlər yekunlaşdırılmış, texniki yardım layihəsinin beynəlxalq ekspertləri tərəfindən aşağıdakı istiqamətlər üzrə işlər görülmüşdür:

- Nəticə 1.1. 19-20 oktyabr tarixlərində "Dəyər axını xəritəsinin yaradılması – prosesin təkmilləşdirilməsi" mövzusunda seminar təşkil olunmuşdur. Biznes proseslərinin təhlili üzrə mütəxəssis Robertas Serenas spiker qismində çıxış edərək DİM-in müvafiq struktur bölmələrinin əməkdaşlarının iştirakı ilə keçirilən seminarda iş prosesinin səmərəliliyinin artırılması ilə əlaqədar bir sıra biznes yanaşmalarına dair müzakirələr aparmışdır.
- Dövlət qulluğu Strategiyasının icrasının, eləcə də cari hüquqi (o cümlədən qanunvericilik aktlarına dəyişiklik layihələri) və institusional çərçivənin, o cümlədən DİM-in təşkilati strukturunun qiymətləndirilməsi, DİM-in strukturunda və iş proseslərində edilməli dəyişikliklərlə bağlı tövsiyələrin də olduğu hesabat hazırlanmışdır;
- Nəticə 1.2. Dövlət qulluğuna qəbul, təlim və xidməti fəaliyyətin qiymətləndirilməsi üçün dövlət qulluğuna dair tələbləri, zəruri bacarıq və bilikləri, qiymətləndirmə mexanizmlərini müəyyən edən yeni səriştə modeli ilə əlaqədar müvafiq istiqamətlər üzrə işlər icra olunmuş, görülmüş tədbirlər və təkliflərlə bağlı hesabat hazırlanmışdır;
- Nəticə 2.1. Təlim ehtiyaclarının öyrənilməsi məqsədilə beynəlxalq ekspertlər tərəfindən DİM-in əməkdaşları, dövlət orqanlarının nümayəndələri və müstəqil ekspertlərlə müsahibələr keçirilmiş, anket sorğusu təşkil edilmiş, ehtiyaclarla bağlı ilkin vəziyyət müəyyənləşdirilmişdir;
- Nəticə 2.2. 29 noyabr tarixində "Avropa İttifaqının üzvü olan dövlətləri dövlət qulluğu ilə bağlı təcrübələri: işə qəbul, qulluqda yüksəliş, xidməti fəaliyyətin qiymətləndirilməsi" mövzusunda təlim təşkil olunmuşdur. Təlim zamanı texniki yardım layihəsinin qrup rəhbəri, ekspert Edvardas Zukauskas Avropa İttifaqına üzv dövlətlər – Litva, İrlandiya və Portuqaliyanın dövlət qulluğuna qəbul zamanı uğurlu iş təcrübələrini iştirakçılarla bölüşmüşdür;
- Nəticə 2.3. 24-28 oktyabr tarixlərində DİM-in əməkdaşları, Dövlət Qulluğunu İdarəetmə Şurasının katibi vəzifəsini icra edən, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdir müavini və layihənin beynəlxalq eksperti Belçika Krallığının paytaxtı Brüssel şəhərinə təşkil edilən təlim səfərində iştirak ediblər. Beş gün davam edən təlimdə Belçika və onun federal idarəsi, dövlət xidməti daxilində səriştə əsaslı işə qəbul və seçim, dövlət qulluğunda rəhbər şəxslərin işə qəbulu və seçilməsi, insan resurları və liderlik - liderliyə dair yeni federal baxış, federal administrasiya daxilində bacarıqların artırılması və insan resurslarının inkişafı mövzularına dair təqdimatlar nümayiş etdirilmişdir;
- Nəticə 3.1 Bacarıq və performansın qiymətləndirilməsini və namizəd hesabatını təmin edən DİM-in sistemlərinin rəqəmsallaşdırılmasının təmin edilməsi və yaxud təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi üçün mövcud sistemlər araşdırılmış, təkliflərin də olduğu hesabat hazırlanmışdır;
- Nəticə 3.2. 14 iyul tarixində layihə ilə əlaqədar açılış tədbiri keçirilmişdir.

Beynəlxalq imtahanların təşkili və məlumatlılığın artırılması istiqamətində görülmüş tədbirlər

1. Azərbaycanda mühasibatlıq sahəsində ACCA (İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası) imtahanlarının dəstəklənməsi və təbliğatı məqsədi ilə 18 mart tarixində DİM ACCA ilə birgə "Reach New Horizons with ACCA" ("ACCA ilə yeni üfüqlərə çat") vebinarını təşkil etmişdir. ACCA ilə birgə təşkil edilən vebinarda DİM-in tərəfdaşı olan Azərbaycan Dövlət İqtisad Universiteti, Xəzər Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Mingəçevir Dövlət Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetindən 50-yə qədər tələbə və akademik heyət iştirak etmişdir.
2. ACCA ilə əməkdaşlıq çərçivəsində 15 sentyabr tarixində DİM-in inzibati binasında, 78 nəfərin iştirak etdiyi "EY və ACCA ilə yeni üfüqlərə doğru'' adlı ödənişsiz seminar təşkil olunmuşdur. Tədbirdə DİM-in Direktorlar Şurasının sədri, ACCA-nın Türkiyə qolunun (Türkiyə, Azərbaycan və Gürcüstan) rəhbəri, Market inkişafı üzrə meneceri, "Ernst & Young Global Limited Azərbaycan"ın (EY) nümayəndələri və Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələr iştirak etmişlər. Layihə çərçivəsində tərəflərin birgə səyi ilə gənclərin məşğulluğunu təşviq etmək, tələbələrə imtahanlardan və gələcək işəgötürənlərlə müsahibələrdən uğurla keçmək üçün onların ACCA sertifikatlaşdırılmasına başlamasına kömək göstərilməsi nəzərdə tutulur. EY Azərbaycan layihənin 2 seçim mərhələsindən uğurla keçən 3 tələbənin ACCA kvalifikasiya imtahanlarında iştirakı üçün hazırlıq materiallarını təmin edəcək və qeydiyyat xərclərini qarşılayacaqdır.
3. 15 avqust tarixindən etibarən Pearson VUE (Virtual University Enterprises) imtahanlarının keçirilməsi DİM-in yeni ünvanında davam etmişdir. Pearson VUE təşkilatının rəsmi kompüter əsaslı test mərkəzi olaraq DİM-in beynəlxalq sertifikat təqdim edən PTE Academic (Akademik ingilis dili testi), həmçinin müxtəlif ixtisas sahələrinə aid (İT, maliyyə, mühasibat, menecment, audit, layihələrin idarə edilməsi və s.) 140-dan çox imtahanı keçirmək hüququ var.
4. 26 avqust tarixində "Make Your Application Stand out with the GRE® General Test" ("Ərizənizi GRE ümumi testi ilə fərqləndirin") adlı onlayn məlumat sessiyası keçirilmişdir. Sessiyanın spikeri ETS Global təşkilatının nümayəndəsi Maria Kirilova sessiya ərzində "GRE® Ümumi test"inin məzmunu, qeydiyyat və imtahan mərkəzləri, hazırlaşmağa kömək edən vasitələr və ödənişsiz hazırlıq materialları mövzularında iştirakçıları məlumatlandırmışdır. Vebinarda 59 nəfər iştirak etmişdir.
5. 10 sentyabr tarixində DİM-də Kembric ingilis dili üzrə "Young Learners" imtahanının iştirakçılarına beynəlxalq sertifikatların təqdimatına həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə 2 iyul 2022-ci il tarixində keçirilmiş "Young Learners" imtahanının 10 azyaşlı iştirakçısı və onların valideynləri iştirak etmişdir.
6. 13 sentyabr tarixində DİM-də ilk dəfə olaraq Əsas Cərrahiyyə Müayinələri üçün Kolleclərarası Komitə (Intercollegiate Committee for Basic Surgical Examinations - ICBSE) tərəfindən idarə edilən Kral Cərrahlar Kollecinin kolleclərarası üzvlük imtahanı (Intercollegiate Membership examination of the Royal Colleges of Surgeons (MRCS Part A)) keçirilmişdir. İmtahanda 2-si əcnəbi olmaqla 3 nəfər iştirak etmişdir.
7. 16 sentyabr tarixində DİM Kembric İngilis dili Nəşriyyat və Qiymətləndirmə Sindikatı ilə birgə Kembric ingilis dili üzrə kvalifikasiyaları barədə 31 nəfərin iştirak etdiyi vebinar təşkil etmişdir. Vebinarın spikeri Kembric İngilis dili Nəşriyyat və Qiymətləndirmə Sindikatının Ukrayna və Qafqazda biznesin inkişafı üzrə baş meneceri Darina Sizuk "Kembric ingilis dili üzrə kvalifikasiyaları" barədə ətraflı məlumat vermiş və beynəlxalq tanınma, səviyyə imtahanları (A1, A2, B1, B2), əlçatan hazırlıq imkanları, nailiyyət yönümlü nəticələr və müddətsiz sertifikat kimi mövzular haqqında danışmışdır.
8. 17 sentyabr tarixində DİM Kembric ingilis dili üzrə "Young Learners" ("Azyaşlı öyrənənlər") imtahanının iştirakçılarına beynəlxalq sertifikatların təqdimatına həsr olunmuş tədbir keçirmişdir. "Young Learners" imtahanı DİM və Mərkəzin həmkarlar ittifaqı təşkilatının birgə təşəbbüsü ilə DİM əməkdaşlarının övladları üçün keçirilmişdir. Tədbirdə 17 nəfər azyaşlı və onların valideynləri iştirak etmişdir.

9. 30 sentyabr tarixində DİM “Open new doors with your TKT certificate” (“TKT sertifikatınla yeni qapılar aç”) adlı onlayn məlumat sessiyası keçirmişdir. 38 nəfərin iştirak etdiyi sessiyada Darina Sizuk TKT (Teaching Knowledge Test – Tədris bilik və bacarıqları üzrə test) imtahanlarının modulları, hazırlıq prosesi, sertifikatların verdiyi üstünlüklər və yaratdığı karyera imkanları mövzularında iştirakçıları məlumatlandırmışdır.
10. 6 oktyabr tarixində DİM-in əməkdaşı tərəfindən Azərbaycan Turizm və Menecment Universitetinin tələbələri üçün “Xarici dil üzrə qiymətləndirmə imtahanları - Kembric ingilis dili üzrə kvalifikasiyaları” mövzusunda məlumat sessiyası təşkil olunmuşdur. İştirakçılara DİM-in təşkil etdiyi bir sıra beynəlxalq imtahanlar – ACCA, ICDL, Pearson Vue, TPKИ, TOEFL iBT, GRE, SAT, xüsusilə də Kembric ingilis dili kvalifikasiyaları barədə geniş məlumat verilmişdir. Tədbirdə ümumilikdə 40 nəfər olmaqla, tələbə və akademik heyət iştirak etmişdir.
11. 7 oktyabr tarixində DİM-də Kembric ingilis dili üzrə TKT imtahanının iştirakçılarına beynəlxalq sertifikatların təqdimatına həsr olunmuş tədbir keçirilmişdir. DİM-in əməkdaşı tərəfindən Mərkəzin təşkil etdiyi beynəlxalq imtahanlar haqqında təqdimat edilmiş və iştirakçıların sualları cavablandırılmışdır.
12. 15 oktyabr tarixində DİM-in əməkdaşları Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Dövlət Məşğulluq Agentliyinin mərkəzi karyera filialının tərəfdaşlığı və “World” karyera və peşə mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən Təhsil və Peşə Mərkəzlərinin 1-ci Tanıtım Sərgisində iştirak etmişlər. Sərginin keçirilməsində məqsəd təhsil və peşə mərkəzlərinin fəaliyyəti haqqında ictimaiyyəti məlumatlandırmaq, eyni zamanda onların xidmətləri haqqında daha geniş məlumat vermək idi. DİM-in Strateji inkişaf şöbəsinin əməkdaşları tədbirdə iştirak edərək gənclərə beynəlxalq imtahanlar üzrə xidmətlər, DİM-in e-psixoloq.az elektron portalında təklif olunan konsultasiyalar və psixoloji testlər haqqında ətraflı məlumat vermiş, onları maraqlandıran sualları cavablandırmışlar.
13. 21 oktyabr tarixində DİM-də tədris mərkəzlərinə Kembric ingilis dili kvalifikasiyaları üzrə rəsmi Hazırlıq Mərkəzi statusunun verilməsinə həsr olunmuş tədbir keçirilmiş və əməkdaşlıq müqaviləsi imzalanmışdır. Əməkdaşlıq müqaviləsinin məqsədi ingilis dilini tədris edən müəllim heyətinin peşəkarlığının artırılması və öyrənənlərin ingilis dili üzrə bilik və bacaraqlarının inkişaf etdirilməsidir.
14. 24 oktyabr tarixində DİM-in əməkdaşları tərəfindən ADA Universitetində ingilis dilində “Enrich your study and work opportunities with Cambridge Qualifications” (“Kembric kvalifikasiyaları ilə təhsil və iş imkanlarınızı genişləndirin”) adlı məlumat sessiyası keçirilmişdir. 15 nəfərin iştirak etdiyi görüşün yekununda tələbələrin sualları cavablandırılmışdır.
15. 11 noyabr tarixində DİM-in əməkdaşları Bakı Dövlət Universitetində SABAH qruplarının tələbələri üçün Kembric ingilis dili kvalifikasiyaları və ICDL (International Computer Driving Licence – Kompüter bacarıqları üzrə beynəlxalq lisenziya) imtahanı haqqında məlumat sessiyası keçirmişdir. Sessiyada 180 nəfər tələbə və akademik heyət iştirak etmişdir.
16. 2 dekabr tarixində DİM-in əməkdaşı Azərbaycan Memarlıq və İnşaat Universitetində Kembric ingilis dili kvalifikasiyaları barəsində məlumat sessiyası keçirmişdir. Sessiyada 25 nəfər iştirak etmişdir.
17. 2022-ci ildən etibarən DİM “ICDL Computer and Online Essentials” Modulunu artıq Azərbaycan dilində təklif edir. “Project planning”, “Artificial Intelligence (AI)”, “Internet of things (IoT)” adlı modulların Azərbaycan dilinə tərcüməsi işlərinə başlanılmışdır.
18. 9 dekabr tarixində DİM-in əməkdaşı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 80 nəfər tələbə və akademik heyəti üçün Mərkəzin təşkil etdiyi beynəlxalq imtahanlar barədə məlumat sessiyası keçirmişdir.
19. 10 dekabr tarixində DİM-də ilk dəfə Kembricin kompüter əsaslı “B1 Preliminary for schools” imtahanı keçirilmişdir. İmtahanda 1-i xarici vətəndaş olmaqla 6 nəfər azyaşlı iştirak etmişdir.

2022-ci ildə keçirilmiş beynəlxalq imtahanlara dair statistik məlumatlar

Beynəlxalq imtahanlarda iştirak edənlərin sayı



Qeyd: DİM-in keçirdiyi beynəlxalq imtahanlarda Türkiyə, Gürcüstan, İran, Nigeriya, Türkmənistan, Əfqanıstan, Koreya və Rusiyadan olan əcnəbilər də iştirak etmişlər.

SAT imtahanlarında iştirak edənlərin sayı (imtahan tarixləri üzrə)



Pearson VUE ixtisaslaşma imtahanlarının növlər üzrə bölgüsü



Müsabiqədənkənar qəbul və beynəlxalq kvalifikasiyalar əsasında tətbiq olunan azadolmalar

1. ADA Universitetinə müsabiqədənkənar qəbul olunmaq üçün ABŞ-ın Kolleclər Şurasının ("College Board") "Higher Education Reporting" portalı vasitəsilə DİM-ə abituriyentlərin SAT imtahan nəticələri göndərilmiş, həmin portal vasitəsilə nəticələrin həqiqiliyi DİM-də yoxlanılmış və nəticələr qəbul üçün təsdiqlənmişdir.
2. Xarici dil üzrə fəlsəfə doktoru imtahanından azad olunmaq üçün ingilis dili üzrə beynəlxalq IELTS və TOEFL, alman dili üzrə beynəlxalq TestDaF və fransız dili üzrə DELF/DALF dil sertifikatlarını təqdim edənlərin sertifikatlarının həqiqiliyi DİM-də yoxlanılmış və qəbul üçün uyğunluğu təsdiqlənmişdir.
3. Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq üçün IBIS – "International Baccalaureate Information System" ("Beynəlxalq bakalavriat informasiya sistemi") vasitəsilə abituriyentlərin "IB Diploma Programme" qiymətləri DİM-ə göndərilmiş, həmin portal vasitəsilə onların həqiqiliyi yoxlanılmış və nəticələr qəbul üçün təsdiqlənmişdir.

"IB Diploma Programme" məzunlarından ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin sayı (ali təhsil müəssisələri üzrə)



4. Bundan əlavə, SAT imtahanının nəticələrinə əsasən 190 nəfər ADA Universitetinə qəbul olunmuşdur.

SAT imtahanının nəticələrinə əsasən qəbul olan abituriyentlərin bölgüsü (ixtisaslar üzrə)



5. 2022-ci ildə Peşəkar Mühasib Sertifikatı (PMS) imtahanını uğurla keçmiş və PMS sertifikatını almış namizədlərdən 170-i maliyyə və mühasibatlıq sahəsində bir sıra beynəlxalq sertifikatlardan birini təqdim edərək Peşəkar Mühasib Sertifikatı imtahanının I mərhələsindən azad olunmuşdur. Təqdim edilən sertifikatların həqiqiliyi DİM-də yoxlanılmış və I mərhələdən azadolunma üçün keçərliliyi təsdiqlənmişdir.

***Beynəlxalq sertifikatların siyahısı:**

Sıra №	Qurum	İmtahan
1.	The Association of Chartered Certified Accountants (ACCA)	FR - Financial Reporting
		DipIFR – Diploma in International Financial Reporting
2.	Chartered Institute of Management Accountants (CIMA)	F2 – Advanced Financial Reporting
3.	CPA – A Certified Public Accountant	
4.	The Institute of Chartered Accountants in England and Wales (ICAEW)	ACA – Associate Chartered Accountant Program
5.	Institute of Certified Financial Managers (ICFM)	Diploma in International Financial Reporting Standards (IFRS)
6.	Chartered Institute of Public Finance & Accountancy (CIPFA)	

Müqavilə əsasında keçirilən imtahanların təşkilinin koordinasiyası

1. **Diplomatik xidmətə qəbul.** DİM 23 yanvar tarixində Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul olmaq istəyən namizədlər üçün imtahan keçirmişdir. 460 nəfərin iştirak etdiyi imtahan Bakı və Naxçıvanda təşkil edilmişdir.

2. **Vergi orqanlarında inzibati rəhbər vəzifələr üçün namizədlərin idarəetmə bacarıqlarının qiymətləndirilməsi.** DİM Dövlət Vergi Xidmətinin sifarişi əsasında 11 aprel tarixində vergi orqanlarında inzibati rəhbər (idarəetmə) vəzifələr üçün ehtiyat kadrlar bazasının formalaşdırılması məqsədilə namizədlərin idarəetmə bacarıqlarının qiymətləndirilməsi üçün kompüter əsaslı test imtahanı keçirmişdir.

3. **Uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəbi və mərkəzlərinə müəllimlərin işə qəbulu.** DİM Mədəniyyət Nazirliyi ilə birgə avqustun 7-də ilk dəfə uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəbi və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə test imtahanı keçirmişdir. İmtahan kağız daşıyıcılar vasitəsilə Bakı şəhərində təşkil olunmuş, qeydiyyatdan keçən 1992 namizəddən 1709 nəfər imtahanda iştirak etmişdir.

4. **SABAH qruplarına qəbul.** 15 may tarixində SABAH qruplarına tələbə seçimi müsabiqəsinin test imtahanı mərhələsi keçirilmişdir. 2400-ə yaxın tələbə üçün təşkil edilən imtahan Bakı şəhərində keçirilmişdir.

“Yüksəliş” müsabiqəsi çərçivəsində təşkil olunan tədbirlər və koordinasiya olunan fəaliyyət

1. 15 yanvar tarixində "Yüksəliş" müsabiqəsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinin növbəti iclası keçirilmişdir. DİM-in Direktorlar Şurasının sədr müavininin iştirak etdiyi iclasda 2022-ci ildə “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı konsepsiyanın müəyyənləşdirilməsi, tərəfdaşlar, imtahanların modeli, ümumi qaydalar, mexanizmlər müzakirə olunmuş və aidiyyəti üzrə müvafiq tapşırıqlar verilmişdir.

   DİM tərəfindən müsabiqənin fəaliyyətində dəstək verilmiş istiqamətlər:

   - Qeydiyyat mərhələsi;
   - Ümumi biliklərin qiymətləndirilməsi mərhələsi (onlayn);
   - Qabiliyyət üzrə yoxlama imtahanı mərhələsi (onlayn);
   - İmtahanın təşkilinə hazırlıq və icarə;
   - Qabiliyyət üzrə yoxlama imtahanı mərhələsi (əyani);
   - İdarəetmə potensialının qiymətləndirilməsi mərhələsi (əyani);
   - Mayers-Briqqs Tipoloji İndikatoru (MBTI) testinin həyata keçirilməsi;
   - ICDL imtahanının təqdim olunması;
   - İştirakçı və ekspertlər üçün təlimatların tərcüməsi (yarımfinal mərhələsi);
   - İştirakçı və ekspertlər üçün təlimatların tərcüməsi (final mərhələsi);
   - Nəticələrin elmi-statistik təhlili və sifarişçiyə təqdim edilməsi.

2. 12 may tarixində DİM-in əməkdaşları “Yüksəliş” İctimai Birliyi və “Opalus Partners Group” şirkətinin birgə təşkilatçılığı ilə “Müasir idarəçinin yüksəlişi (biliklər və kompetensiyalar)” mövzusunda təşkil olunmuş tədbirdə iştirak etmişlər. Tədbirdə ölkənin tanınmış şirkətlərinin top menecerləri, dövlət və özəl sektorun insan resursları üzrə təcrübəli mütəxəssisləri və “Yüksəliş” müsabiqəsinin qalibləri təcrübələrini bölüşərək, müasir idarəçinin uğur qazanması üçün tələb olunan bilik və səriştələrlə bağlı fikir mübadiləsi aparmışlar. Rəqabətli insan kapitalının formalaşması, bu sahədə olan prioritetlər, yanaşmalar və “Yüksəliş” müsabiqəsinin bu istiqamətlərdə verə biləcəyi töhfələr, eyni zamanda müsabiqədə qiymətləndirilən səriştələrin siyahısı əsas müzakirə mövzusu olmuşdur.

3. 1 iyul tarixində DİM “Yüksəliş” müsabiqəsinin yarımfinal mərhələsi üçün “ICDL - Computer and Online Essentials” modulu üzrə 320 nəfər namizəd üçün imtahan təşkil etmişdir.

4. 15 iyul tarixində keçirilmiş “Yüksəliş” müsabiqəsinin final mərhələsinin açılış mərasimində “Müasir çağırışlar və insan kapitalının formalaşması” mövzusunda gedən müzakirənin birinci panelində DİM-in Direktorlar Şurasının sədri çıxış etmişdir.

5. 18 noyabr tarixində DİM-in Direktorlar Şurasının sədri “Yüksəliş” müsabiqəsinin ekspertlər qrupu ilə “İnsan kapitalı: qiymətləndirmə və inkişaf” mövzusuna həsr olunan görüş keçirmişdir.

“YAŞAT” Fondu ilə əməkdaşlıq çərçivəsində görülən işlər

1. 21 yanvar tarixində DİM və “YAŞAT” Fondunun birgə təşkilatçılığı ilə vətənimizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə şəhid olmuş şəxslərin məktəbli övladlarının iştirakı ilə tədbir keçirilmişdir. Tədbir iştirakçılarına DİM-in nəşr etdirdiyi müxtəlif dərs vəsaitləri və otk.az portalı vasitəsilə keçirilən sınaq imtahanlarına ödənişsiz kuponlar hədiyyə edilmişdir. İştirakçılara kuponların istifadə qaydaları və otk.az portalının fənlər və siniflər üzrə sınaq imtahanları, IX və XI sinif şagirdləri üçün onlayn buraxılış imtahanları, siniflər üzrə interaktiv test kitabları, interaktiv test topluları və digər xidmətləri haqqında məlumat verilmişdir. DİM Naxçıvan, Gəncə, Bərdə, Tovuz və Şirvan şəhərlərində analoji tədbirlər həyata keçirmişdir.
2. 12 fevral tarixində DİM və “YAŞAT” Fondunun birgə təşkilatçılığı ilə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə şəhid olmuş qəhrəmanlarımızın məktəbli övladlarının iştirakı ilə Biləsuvar, Göyçay, Şəki və Xaçmaz şəhərlərində görüşlər keçirilmişdir. Tədbirlərdə 4 noyabr 2021-ci il tarixində DİM ilə “YAŞAT” Fondu arasında əməkdaşlığa dair imzalanan Memorandumun əsas məqsədinin şəhid ailələrinin üzvlərinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara dəstək vermək, onların təhsilinə, gələcək karyerasının planlaşdırılmasına və inkişafına əməli yardım göstərmək olduğu bildirilmişdir.
3. 9 mart tarixində DİM-in təşkilatçılığı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş şəxslərin övladlarının iştirakı ilə görüş keçirilmişdir. Görüşün iştirakçılarına DİM tərəfindən nəşr olunan müxtəlif dərs vəsaitləri və otk.az portalı vasitəsilə keçirilən sınaq imtahanlarına ödənişsiz kuponlar hədiyyə edilmişdir. DİM “YAŞAT” Fondu ilə əməkdaşlıq çərçivəsində 2021-2022-ci tədris ili üçün 600-dən çox şəhid övladını ehtiyacına uyğun olaraq köməkçi tədris materialları ilə təmin etmişdir. Bu müddət ərzində DİM-in inzibati binasında, eləcə də regional bölmələr tərəfindən keçirilən tədbirlərdə müxtəlif səbəblərdən iştirak edə bilməyən 336 şəhid övladına da ehtiyacları əsasında DİM-in vəsaitlərinin göndərilməsi təmin edilmişdir. Bakı və ətraf ərazilərə, həmçinin Sumqayıt şəhərinə çatdırılmaya “Proton&Alib Ekspress” şirkəti tam dəstək göstərmişdir.
4. DİM “Kainat-HM” MMC Kainat Tədris Mərkəzi ilə birgə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan müharibədə iştirak etmiş qazilərdən təhsilini ali təhsil müəssisələrində davam etdirmək istəyən 5 nəfəri ödənişsiz əsaslarla hazırlıq kursuna cəlb edib. Ali təhsil müəssisələrinə qəbul imtahanlarının birinci və ikinci mərhələlərinə daha yaxşı hazırlaşmaları üçün qazilər DİM tərəfindən lazımi metodik vəsaitlərlə təmin ediliblər.

DİM-in ictimaiyyətin istifadəsinə verdiyi nəşrlər

"Abituriyent" jurnalı özünün bütün sayları, xüsusi buraxılış və nəşrləri ilə ictimaiyyətin, xüsusilə də abituriyentlərin və təhsil işçilərinin maarifləndirilməsinə xidmət göstərir, qəbul kampaniyasının bütün gedişi, mərhələləri, istiqamətləri barədə dolğun, dəqiq və etibarlı informasiya mənbəyi rolunu oynayır.

Rəsmi, elmi-metodiki, informativ nəşrlərin təsnifatı belədir:

Rəsmi materiallar

- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydaları;
- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydalarının təfsilatını açıqlayan qəbul elanları;
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul qaydaları, müsabiqə şərtləri və bunların təfsilatını açıqlayan normativ sənədlər;
- tələbə qəbulu prosesinin ayrı-ayrı istiqamət və mərhələləri üzrə ictimaiyyətə ünvanlanan elanlar;
- ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları proqramları;
- ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları modellərinə uyğun tapşırıq nümunələri;
- ali təhsil müəssisələrinə və hərbi liseylərə qəbul imtahanları proqramları;
- ali təhsil müəssisələrinə və hərbi liseylərə qəbul imtahanı modellərinə uyğun tapşırıq nümunələri;
- ali təhsil müəssisələrinə qəbul imtahanlarında zəif cavablandırılan tapşırıqların izahlarına dair metodik tövsiyələr;
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar və plan yerləri:
- ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu;
- ali təhsil müəssisələrinə, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı:
- təhsilin müxtəlif pillə və səviyyələrinə tələbə qəbulunun və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili.

DİM-in və LANDAU School-un birgə layihəsi

İmtahanlara hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsaitlər

Bu vəsaitlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin ümümtəhsil məktəbləri üçün qüvvədə olan fənlər üzrə tədris proqramları və dərsliklər əsasında hazırlanmış DİM-in qəbul proqramlarına tam uyğundur.

Vəsaitdə hər bir bölməyə aid mövzuların sonunda həmin mövzu üzrə və hər bir bölmənin sonunda ümumiləşdirici tapşırıqlar təqdim edilib. Həmçinin bölmənin sonunda yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və mənbə əsasında hazırlanan 3 tapşırıq da təqdim olunub. Bu struktur qəbul imtahanına müstəqil hazırlaşanlara orta məktəbdə öyrəndikləri bilik və bacarıqları təkrar etməyə, tapşırıqları yerinə yetirmə bacarıqlarını inkişaf etdirməyə şərait yaradır.

Vəsaitdəki tapşırıqların düşündürücü və məntiqi olmasına, mühakiməyürütmə, tətbiqetmə, təhliletmə və s. bacarıqların inkişafına şərait yaratmasına xüsusi diqqət yetirilib. Cavabı yazı ilə ifadə olunan tapşırıqların təqdim edilməsində məqsəd, ilk növbədə, bilik və bacarıqların qiymətləndirilməsini dünya standartlarına uyğunlaşdırmaqdır. Bu tip tapşırıqlar müstəqil düşünmək, qərar vermək və əldə edilən nəticələri təqdim etmək bacarıqlarını daha yaxşı yoxlamağa imkan verir.

“Yeni təhsil proqramı (kurikulum) üzrə qiymətləndirmə tapşırıqları” vəsaitləri

Yeni təhsil proqramlarına (kurikulumlara) uyğun hazırlanmış bu vəsaitlərdən istifadə etməklə məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi həyata keçirilir. Vəsaitdən həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmədə istifadə olunur.



5-11-ci siniflər

5-11-ci siniflər

6-11-ci siniflər

6-11-ci siniflər



6-11-ci siniflər

5-11-ci siniflər



6-11-ci siniflər



7-11-ci siniflər

6-11-ci siniflər



5-11-ci siniflər

“İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları” vəsaitləri

Bu kitabçalar respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 1-4-cü sinif dərsliklərinin hər bir mövzusu üzrə hazırlanmışdır.

Kitabçaya daxil edilən tapşırıqların hər biri şagirdlərin idrakyömümlü, məntiqi, nəzəri bilik və bacarıqlarını yoxlamağa imkan verir. Bu tapşırıqlarla tədris prosesində diaqnostik, formativ, summativ qiymətləndirmə aparmaq mümkündür.

Kitabçadan ümumi təhsil müəssisələrində qiymətləndirmə vasitəsi kimi, həmçinin pedaqoji yönümlü ali təhsil müəssisələrində və müəllimlər üçün təlim kurslarında metodiki material kimi istifadə oluna bilər.

Test topluları

Bu toplulara DİM (əvvəlki TQDK) tərəfindən müxtəlif illərdə və müxtəlif təyinatlı imtahanlarda, habelə "Abituriyent" jurnalının ayrı-ayrı saylarında dərc edilmiş test modelləri daxildir. Bununla yanaşı, hər topludakı test tapşırıqlarının 25 faizini heç bir imtahanda istifadə olunmamış tapşırıqlar təşkil edir. Onlar test bankındakı tapşırıqların əsas modellərini əhatə edir və gələcəkdə imtahanlara düşməsi istisna olunmur.

Test topluları şagirdlər, abituriyentlər, müəllimlər, test tərtibi ilə məşğul olan mütəxəssislər və ümumiyyətlə, testologiyaya maraq göstərənlər üçün dəyərli örnəkdir. Eyni zamanda, təlim-tədris prosesində biliyin qiymətləndirilməsində istifadə üçün faydalı vəsaitdir.

"Xüsusi qabiliyyət imtahanları" buraxılışları

"Abituriyent" jurnalının xüsusi buraxılışı olan bu jurnalda ali və orta ixtisas təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, burada xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar əksini tapıb.

Peşəyönümü xarakterli vəsaitlər

DİM (TQDK) öz fəaliyyətinin xüsusiyyətinə uyğun olaraq hər zaman gənclərin peşə-ixtisas yönümünə kömək göstərilməsinə böyük önəm verib. Bu istiqamət üzrə nəşrləri mövzu dairəsinə görə belə qruplaşdırmaq olar:

- ali təhsil müəssisələri və onların ixtisaslar şəbəkəsi haqqında nəşrlər;
- peşə-ixtisas seçiminə dair psixoloq məsləhətləri, sahə mütəxəssislərinin tövsiyələri;
- beynəlxalq təhsil proqramları haqqında materiallar;
- tələbə qəbulu müsabiqəsində ali və orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə formalaşan keçid ballarına aid materiallar;
- "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər;
- "Ali təhsil müəssisələrinin bakalavr ixtisasları" kitabları;
- "Abituriyentin məlumat kitabı".

Sonuncu iki nəşr ixtisas qruplarına uyğun olaraq 4 kitabdan ibarət hazırlanmışdır. Birinci kitabda (I qrup) 65 ixtisas, ikinci kitabda (II qrup) 19 ixtisas, üçüncü kitabda (III qrup) 43 ixtisas, dördüncü kitabda isə (IV qrup) 22 ixtisas haqqında məlumatlar əksini tapmışdır. Hər bir ixtisas haqqında informasiyada həmin

- ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması;
- ixtisasın xarakteristikası, təyinatı;
- ixtisas üzrə hazırlanan bakalavrlara təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları;
- hazırlanan mütəxəssisin gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Magistraturaya və rezidenturaya qəbula aid xüsusi buraxılışlar

Bu məcmuələrdə qəbul qaydaları və elanları, qəbul aparılan ixtisaslar, plan yerləri, imtahanların təşkili və keçirilməsinə aid yeniliklər, qəbul olanların siyahısı, ixtisaslar üzrə keçid balları, DİM-in digər qərar, məlumat və elanları, eyni zamanda metodiki materiallar təqdim olunmuşdur.

Rezidenturaya qəbul imtahanlarına hazırlaşanlar üçün vəsaitlər

Vəsaitlər Azərbaycan Tibb Universitetinin tədris proqramı və rezidenturaya qəbul imtahanı proqramı əsasında hazırlanmışdır. Vəsaitlər tərtib olunarkən elmin müasir nailiyyətlərindən istifadə edilmiş, tədris prosesində qarşıya çıxan konkret problemlərə daha çox diqqət yetirilmişdir. Vəsaitlərdən Azərbaycan Tibb Universitetinin, eləcə də tibb təhsili verən digər tədris müəssisələrinin tələbələri və müvafiq fənləri tədris edən müəllimlər istifadə edə bilərlər.

Dövlət qulluğuna qəbul olmaq istəyənlər üçün “Dövlət qulluğu” xüsusi buraxılışları

Dövlətimiz tərəfindən dövlət qulluğu və digər kadr siyasəti məsələlərində daha mükəmməl və şəffaf modelə nail olmaq mədsədilə müntəzəm olaraq müvafiq tədbirlər həyata keçirilir, qanunvericilik bazasında zəruri dəyişikliklər edilir, yeni normativ hüquqi aktlar qəbul olunur. Dövlət İmtahan Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən biri də bu sahədə vahid dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək, dövlət qulluğuna qəbulu mərkəzləşdirilmiş qaydada, müsabiqə əsasında şəffaf şəraitdə aparmaqdan ibarətdir.



DİM ictimaiyyəti bu sahə ilə bağlı maarifləndirməyi və zəruri məlumatlarla təmin etməyi də əsas vəzifələrindən biri hesab edir. “Abituriyent” jurnalının xüsusi buraxılışı olan “Dövlət qulluğu” jurnalının nəşrlərində bilik sahələri üzrə hazırlanmış proqramlar, qanunvericilik bazasında baş verən dəyişikliklər, test tapşırığı nümunələri, müsabiqəyə təqdim olunmuş vakant vəzifələrin siyahısı və digər zəruri məlumatlar təqdim olunmuşdur.

Elmi-statistik araşdırmaların nəticələrinə dair vəsaitlər

Tələbə qəbulu sistemində müasir informasiya texnologiyalarından istifadə olunması həm də ölkədə təhsilin vəziyyətinə dair geniş məlumat bazasına yiyələnməyə imkan verir. Bu məlumatların təhlili, əldə olan materialların pedaqoji ictimaiyyətə çatdırılması, qabaqcıl təcrübənin yayılması, çatışmazlıqların aidiyyəti təşkilatların diqqətinə çatdırılması təhsilin inkişafı ilə bağlı strateji qərarların qəbul olunması üçün mühüm əhəmiyyət kəsb edir. Odur ki, hər il qəbul imtahanlarının nəticələrinə əsasən ölkədə məktəb təhsilinin vəziyyətinin elmi-statistik təhlili aparılır və araşdırmanın nəticələri çap edilib təhsil ictimaiyyətinə çatdırılır. Aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi “Tələbə qəbulunun gender aspektləri” (“Qadınlar statistikada”), “Kənd təsərrüfatı profilli ixtisaslar statistikada” və “Neft-qaz ixtisasları statistikada” adlı kitabçalar hazırlanır. Bunlarla bərabər, ölkənin hər bir rayonunun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar da çap edilib müvafiq təhsil orqanlarına göndərilir. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

Əvvəlki illərdə olduğu kimi, bu il də DİM ali və orta ixtisas təhsili məktəblərinə tələbə qəbulunun nəticələrinə əsasən təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgə və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali məktəblərin reytinqi, magistraturaya və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlərə dair əhatəli araşdırmalar aparılıb.

DİM 2022-ci ildə: görülmüş işlərin, tədbir və yeniliklərin xronologiyası

Redaksiyamız bu ənənəvi rubrikada Dövlət İmtahan Mərkəzinin cari ildəki fəaliyyətinin xronologiyasını təqdim edir. Burada Mərkəzin 2022-ci ildə gördüyü əsas işlər, həyata keçirdiyi tədbirlər, əldə etdiyi mühüm nailiyyətlər xronoloji ardıcıllıqla əks etdirilib.

♦ 5 və 6 yanvar tarixlərində fizika, rus dili (tədris dili), biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 6 yanvarda "Magistr" xüsusi buraxılışının 1-ci nömrəsi nəşr edilib. Jurnalda Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları, məntiqi təfəkkür, xarici dillər və informatika üzrə qəbul imtahanı proqramları, həmçinin məntiqi təfəkkürün yoxlanılması üzrə çoxseçimli və açıq tipli test tapşırığı nümunələri Azərbaycan və rus dillərində təqdim edilib.

♦ Yanvarın 6-dan martın 9-dək cari ildə keçiriləcək imtahanlarda nəzarətçi qismində iştirak edəcək şəxslər üçün təlimlər keçirilib.

♦ 7 yanvarda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 8 yanvarda TOEFL imtahanı keçirilib. İmtahanda 15 nəfər iştirak edib.

♦ 9 yanvarda DİM-də GRE beynəlxalq imtahanı keçirilib. İmtahanda 8 nəfər iştirak edib.

♦ 10 yanvardan etibarən cari ildə keçiriləcək imtahanlarda buraxılış rejimini aparacaq qadın əməkdaşların seçimi üçün müsahibə və təlimlər başlayıb.

♦ 10 yanvarda informatika fənni üzrə işçi qrupunun iclası keçirilib. Gündəlik məsələ informatika fənni üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı modelinin müzakirəsi olub.

♦ 10 – 11 yanvar tarixlərində ingilis dili, Azərbaycan dili və kimya fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 11, 13, 17, 19, 21 və 25 yanvar tarixlərində IEA-ETS Tədqiqat İnstitutu (IERI) tərəfindən təhsil sahəsi üzrə kütləvi qiymətləndirmədə Müasir Test Nəzəriyyəsi (IRT) və tam seçmə modelinin istifadəsinə (population modeling) dair onlayn qış məktəbi təşkil edilib.

♦ 12 yanvar – 2 fevral tarixlərində ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsi üzrə sınaq imtahanına qeydiyyat aparılıb.

♦ 12 yanvarda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ Yanvarın 13-dən fevralın 3-dək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat aparılıb.

♦ 13 yanvarda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclası keçirilib. Hər iki fənn üzrə işçi qrupunun iclasında gündəlik məsələ sınaq imtahanında istifadə edilmiş tapşırıqların təhlili olub. Aparılmış elmi-statistik təhlil tapşırıqların fənn kurikulumlarının tələblərinə və qüvvədə olan dərsliklərə uyğunluğunu təsdiq edib.

♦ 14 yanvarda ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə keçirilmiş sınaq imtahanlarında ən yüksək nəticə göstərən 18 abituriyent Dövlət İmtahan Mərkəzində "Açıq qapı" günündə iştirak edib. 6 abituriyent isə görüşə onlayn qaydada qoşulub. DİM-in məsul işçiləri abituriyentləri və onların valideynlərini maraqlandıran sualları cavablandırıblar.

♦ 15 yanvarda "Yüksəliş" müsabiqəsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinin növbəti iclası keçirilib. İclasda 2022-ci ildə "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı konsepsiyanın müəyyənləşdirilməsi, tərəfdaşlar, imtahanların modeli, ümumi qaydalar və mexanizmlər müzakirə olunub.

♦ 15 – 16 yanvar tarixlərində onlayn formada tarix və ingilis dili fənləri üzrə buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının ilk məşğələləri keçirilib.

♦ 17 yanvarda magistraturaya qəbul imtahanının modeli üzrə keçirilmiş sınaq imtahanında ən yüksək nəticə göstərən 25 bakalavr Dövlət İmtahan Mərkəzində keçirilmiş "Açıq qapı" gününə dəvət olunub. 10 bakalavr regionlarda olmasına və digər səbəblərə görə görüşə onlayn qaydada qoşulub.

♦ 17 – 18 yanvar tarixlərində Dövlət İmtahan Mərkəzində Azərbaycan dili, ingilis dili və kimya fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 18 yanvar – 18 fevral tarixlərində buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə vasitələrinin hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.

♦ 18 yanvarda "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası" mövzusunda təlim təşkil edilib. Təlimdə Xarici İşlər Nazirliyində inzibati vəzifə tutan dövlət qulluqçuları və diplomatik nümayəndəliklərin əməkdaşları iştirak ediblər.

♦ 19 yanvarda Dövlət İmtahan Mərkəzi ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün "Abituriyent" jurnalının xüsusi buraxılışlarını nəşr edib.

♦ 19 yanvarda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 19 yanvarda ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən təsviri sənət istiqaməti üzrə işçi qrupunun növbəti iclası keçirilib. İclasda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının və Azərbaycan Memarlıq və İnşaat Universitetinin təsviri sənət istiqamətinə aid ixtisasları üzrə kadr hazırlığını həyata keçirən mütəxəssisləri iştirak ediblər.

♦ 21 yanvarda Kənd Təsərrüfatı Nazirliyi və Gənclər və İdman Nazirliyində inzibati vəzifələrin 2-4-cü təsnifatına uyğun olan dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər) aid 9 inzibati vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.

♦ 21 yanvarda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə təhsil ictimaiyyətinin bir qrup nümayəndəsi və ekspertlərlə görüş keçirib. Sədr görüşdə DİM-in hazırki fəaliyyəti, qarşıda duran əsas məsələlər, tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin bəzi statistik göstəriciləri – bölgələr üzrə məzunların orta ballarının paylanması, onların qəbul kampaniyasında iştirakı üzrə müxtəlif diaqramlar, ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin buraxılış imtahanlarında topladıqları ballara görə paylanması və s. haqqında məlumat verib.

♦ 21 yanvarda xüsusi qabiliyyət imtahanlarında iştirak edən nəzarətçilər üçün təlimlərə başlanılıb. Təlimdə iştirakçılara istiqamətlər üzrə xüsusi qabiliyyət imtahanlarının xüsusiyyətləri, imtahan zalında nəzarətçilərin yerinə yetirdikləri vəzifələr, abituriyentin davranış qaydaları və s. barədə təqdimat edilib.

♦ 21 yanvarda Dövlət İmtahan Mərkəzi və "YAŞAT" Fondunun birgə təşkilatçılığı ilə vətənimizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə şəhid olmuş şəxslərin məktəbli övladlarının iştirakı ilə tədbir təşkil edilib. Tədbir iştirakçılarına DİM-in nəşr etdirdiyi müxtəlif dərs vəsaitləri və otk.az saytı vasitəsilə keçirilən sınaq imtahanlarına ödənişsiz kuponlar hədiyyə edilib. İştirakçılara kuponların istifadə qaydaları və otk.az saytının "fənlər və siniflər üzrə sınaq imtahanları", "IX və XI sinif şagirdləri üçün onlayn buraxılış imtahanları", "interaktiv siniflər üzrə test kitabları", "interaktiv test topluları" və digər xidmətləri haqqında məlumat verilib.

♦ 22 yanvarda TOEFL imtahanı keçirilib. İmtahanda 17 nəfər iştirak edib.

♦ 23 yanvarda dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda 59 namizəd iştirak edib.

♦23 yanvarda Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul imtahanı keçirilib. İmtahan kağız daşıyıcılar vasitəsilə Bakı və Naxçıvan şəhərlərində, ümumilikdə 3 binada təşkil olunub. İmtahanda iştirak etmək üçün 478 namizəd qeydiyyatdan keçib. İmtahanının keçirilməsi üçün 3 ümumi imtahan rəhbəri, 5 imtahan rəhbəri, 45 nəzarətçi-müəllim, 6 buraxılış rejimi əməkdaşı ayrılıb.

♦ 23 yanvarda fizika, kimya və biologiya fənləri üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının ilk məşğələləri keçirilib.

♦ 24 yanvarda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Hər iki fənn üzrə işçi qruplarının iclaslarında gündəlik məsələ onlayn sınaq imtahanı üçün tapşırıqların müzakirəsi olub.

♦ 25 yanvarda Dövlət İmtahan Mərkəzinin Müsahibələrin təşkili şöbəsinin müdiri Xədicə Əzimova və şöbənin aparıcı məsləhətçisi Kamran Səfərovun iştirakı ilə dövlət qulluğu üzrə müsahibələrdə müstəqil ekspert qismində iştirak edən şəxslərlə onlayn görüş təşkil edilib.

♦ 26 yanvarda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 27 yanvarda "Magistr" jurnalının 2-ci nömrəsi nəşr edilib.

♦ 27 yanvarda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclası keçirilib. Hər iki fənn üzrə işçi qrupunun iclasında gündəlik məsələ ali təhsil müəssisələrinə 2021-ci ildə keçirilmiş qəbul imtahanında abituriyentlərin cavab verməkdə çətinlik çəkdiyi bəzi tapşırıqların izahına dair metodik tövsiyənin hazırlanması olub.

♦ 28 yanvarda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Hər iki fənn üzrə işçi qruplarının iclasında gündəlik məsələ ali təhsil müəssisələrinə qəbul imtahanının modelinə uyğun onlayn sınaq variantlarının müzakirəsi olub. Müzakirələrdə tapşırıqların fənn kurikulumunun məzmun standartlarının tələblərinə və qüvvədə olan dərsliklərə uyğunluğu yoxlanılıb.

♦ 28 yanvarda Dövlət İmtahan Mərkəzinin Müsahibələrin təşkili şöbəsinin müdiri Xədicə Əzimova və şöbənin digər əməkdaşlarının iştirakı ilə dövlət qulluğu üzrə müsahibələrdə dövlət orqanının nümayəndəsi qismində iştirak edən şəxslərlə onlayn görüş təşkil edilib.

♦ 28 yanvarda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsi" mövzusunda təlim keçirilib.

♦ 29 yanvarda TKT (Teaching Knowledge Test) – ingilis dili müəllimlərinin xarici dil bacarıqlarını beynəlxalq səviyyədə təsdiq edən kvalifikasiya imtahanı keçirilib. İmtahanda 7 nəfər iştirak edib.

♦ 29 yanvarda ADA məktəbinin XI sinif şagirdləri üçün riyaziyyat fənnindən monitorinq imtahanı keçirilib.

♦ 30 yanvarda coğrafiya fənni üzrə qəbul imtahanında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun ilk məşğələsi keçirilib.

♦ 31 yanvarda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Hər iki fənn üzrə işçi qruplarının iclaslarında gündəlik məsələ onlayn sınaq imtahanı üçün tapşırıqların müzakirəsi olub.

♦ 31 yanvarda informatika fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda hazırlanması nəzərdə tutulan "İnformatika" vəsaitinin "İnformasiya və informasiya prosesləri" bölməsi müzakirə olunub.

♦ Fevralın 1-dən 10-dək Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına sənəd qəbulu aparılıb.

♦ Fevralın 1-dən martın 28-dək Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbinin V sinfinə qəbul imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 1 fevralda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda gündəlik məsələ ali təhsil müəssisələrinə qəbul imtahanının modelinə uyğun onlayn sınaq variantının müzakirəsi olub.

♦ 1 fevralda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsi" mövzusunda təlim keçirilib.

♦ Fevralın 2-də fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Hər iki fənn üzrə iclaslarda gündəlik məsələ ali təhsil müəssisələrinə qəbul imtahanının modelinə uyğun onlayn sınaq variantının müzakirəsi olub.

♦ 3 fevralda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə iclaslarda ali təhsil müəssisələrinə qəbul imtahanının modelinə uyğun onlayn sınaq imtahanı müzakirə olunub.

♦ 4 fevralda "İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları" vəsaitləri nəşr olunub. "İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları" vəsaitləri Dövlət İmtahan Mərkəzi tərəfindən ibtidai sinif şagirdləri üçün fənn kurikulumunun təlim nəticələri əsasında hazırlanıb.

♦ 4 fevralda "Rezidentura" xüsusi buraxılışının 1-ci nömrəsi nəşr edilib. Bu nömrədə rezidenturaya qəbul qaydaları, rezidentura üzrə ixtisas seşimi cədvəli, baza fənləri üzrə qəbul proqramları, qəbul imtahanında istifadə olunmuş bəzi test tapşırıqlaının izahı və tövsiyələr, test tapşırığı nümunələri və s. məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ 4 fevralda Dövlət İmtahan Mərkəzində coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə iclaslarda ali təhsil müəssisələrinə qəbul imtahanının modelinə uyğun onlayn sınaq imtahanı müzakirə olunub.

♦ 4 fevralda GRE General Test imtahanı keçirilib. İmtahanda 2 nəfər iştirak edib.

♦ 4 fevralda Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmiş 460 nəfərdən ən yüksək nəticə göstərən ilk 100 namizəd müsahibədə iştirak etmək hüququ qazanıb.

♦ 2 və 4 fevral tarixlərində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsi" mövzusunda onlayn təlimlər keçirilib.

♦ 6 fevralda coğrafiya fənni üzrə qəbul imtahanında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun növbəti məşğələsi keçirilib.

♦ 7 – 28 fevral tarixlərində 11 dövlət orqanında inzibati vəzifələrin 2-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elanı verilib.

♦ 7 fevralda Azərbaycan dili fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda qəbul və buraxılış imtahanı modelinə uyğun onlayn sınaq imtahanları müzakirə olunub.

♦ 7 fevralda informatika fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda hazırlanması nəzərdə tutulan "İnformatika" vəsaitinin "İnformasiya və informasiya prosesləri" bölməsi müzakirəsi davam etdirilib.

♦ 8 fevralda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda IV ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanının modelinə uyğun onlayn sınaq variantı müzakirə olunub.

♦ 8 fevralda Azərbaycan dili (dövlət dili) vəsaitinin təkmilləşdirilmiş nəşri çap edilib.

♦ 8 və 9 fevral tarixlərində dövlət qulluqçuları üçün "İnsan resurslarının idarə edilməsi" mövzusunda təlim keçirilib.

♦ 9 – 11 fevral tarixlərində fizika, rus dili (tədris dili), biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclaslarda ali təhsil müəssisələrinə qəbul imtahanının modelinə uyğun onlayn sınaq imtahanı materialları müzakirə edilib.

♦ Fevralın 12-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 20 nəfər iştirak edib.

♦ 12 fevralda Dövlət İmtahan Mərkəzi və "YAŞAT" Fondunun birgə təşkilatçılığı ilə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə şəhid olmuş qəhrəmanlarımızın məktəbli övladlarının iştirakı ilə Biləsuvar, Göyçay, Şəki və Xaçmaz şəhərlərində görüşlər keçirilib. Tədbir iştirakçılarına DİM-in nəşr etdirdiyi müxtəlif dərs vəsaitləri (ümumilikdə 586 ədəd) hədiyyə olunub, həmçinin otk.az saytı vasitəsilə keçirilən sınaq imtahanlarına ödənişsiz kuponlar təqdim edilib.

♦ 13 fevralda ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə sınaq imtahanı və inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul imtahanı keçirilib.

♦13 fevralda Dövlət İmtahan Mərkəzi tərəfindən buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların yoxlanılmasına dair hazırlıq kurslarının tarix, coğrafiya və ingilis dili fənləri üzrə növbəti məşğələləri keçirilib.

♦ 14 fevralda inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün fevralın 13-də keçirilən test imtahanının nəticələri elan olunub. İmtahanda 1650 nəfər iştirak edib. 525 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 14-15 fevral tarixlərində Azərbaycan dili, ingilis dili, informatika və kimya fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 16 – 24 fevral tarixlərində Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinə Azərbaycan Respublikası vətəndaşları üçün tələbə qəbulu elan edilib.

♦ Fevralın 16-dan martın 11-dək inzibati dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə test imtahanına qeydiyyat aparılıb.

♦16 fevralda fizika və rus dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə iclaslarda respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 6-cı sinif dərslikləri təhlil olunub.

♦ Fevralın 17-dən martın 31-dək Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsis edilmiş "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsi aparılıb.

♦ Fevralın 17-dən martın 18-dək 19 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vakant vəzifələrin tutulması üzrə ümumi müsahibə elanı verilib.

♦ 17 fevralda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə iclasda respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 6-cı sinif dərslikləri təhlil olunub.

♦17 fevralda Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA proqramı çərçivəsində dövlət qulluğunda "Sərişdə modelinin təsdiqlənməsi" üzrə pilot layihənin növbəti onlayn təlimi keçirilib. Pilot layihə üzrə təlimin keçirilməsində əsas məqsəd DİM-in nümayəndələrinin vəzifə təhlili və sərişdələrin hazırlanmasına dair bacarıqlarını inkişaf etdirmək və "gələcəyə dair baxış üsulu" və "fokus qruplarla" müsahibə üsulları haqqında nəzəri bilikləri təqdim etmək olub.

♦18 fevralda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə iclasda gündəlik məsələ respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 7-11-ci sinif dərsliklərinin təhlili olub.

♦ 19 fevralda TOEFL imtahanı keçirilib. İmtahanda 13 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ 20 fevralda ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı keçirilib. İmtahan respublikanın 7 şəhərində – Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 71 binada təşkil edilib. İmtahanda iştirak üçün 17097 bakalavr ərizə təqdim edib.

♦ 5 və 17 – 18 fevral tarixlərində dövlət qulluqçuları üçün "Əmək qanunvericiliyinin tətbiqi" mövzusunda təlim keçirilib. Təlim zamanı Azərbaycan Respublikası Əmək Məcəlləsinin vəzifələri və prinsipləri, əmək müqavilələri, əmək müqaviləsi üzrə işçinin əsas hüquqları, işəgötürənin əsas hüquqları, vəzifələri və məsuliyyəti, əmək müqaviləsinin bağlanmasının əsasları və qaydası, əmək müqaviləsinin forması, müddəti, əvəzçilik üzrə əmək müqaviləsinin bağlanması və tənzimlənməsi, əmək kitabçalarının tərtib edilmə və mühafizə qaydaları, istirahət vaxtı və işçilərin məzuniyyət hüquqları, əmək məzuniyyətinin növləri və s. mövzular barədə iştirakçılar məlumatlandırılıb və bu səpkidə bir sıra müzakirələr aparılıb.

♦ 21 fevralda informatika fənni üzrə işçi qrupun iclası keçirilib. Gündəlik məsələ hazırlanması nəzərdə tutulan "İnformatika" vəsaitinin "Kompüter qrafikası" və "Veb-proqramlaşdırma" bölmələrinin müzakirəsi olub.

♦ 21 – 22 fevral tarixlərində Azərbaycan dili, ingilis dili və kimya fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər üç fənn üzrə iclasda gündəlik məsələ ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklərin təhlili olub.

♦ 23 fevralda fizika və rus dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə iclaslarda gündəlik məsələ ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklərin təhlilinin davamı olub.

♦23 fevralda müsahibələrin təşkili şöbəsinin müdiri Xədicə Əzimova, həmin şöbənin aparıcı məsləhətçisi Kamran Səfərov və Hüquqi təminat, dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov tərəfindən "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə Dövlət İmtahan Mərkəzinin əməkdaşları və müstəqil ekspertlər iştirak ediblər.

♦ 24 fevralda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə işçi qrupunun iclasında sınaq imtahanında istifadə edilmiş tapşırıqları təhlil olunub.

♦ 22 və 24 fevral tarixlərində dövlət qulluqçuları üçün "Əmək qanunvericiliyinin tətbiqi" mövzusunda təlim keçirilib. Təlim zamanı iştirakçılar əmək məzuniyyətinin növləri, əmək məzuniyyəti və onun verildiyi iş ili, məzuniyyətin müddətləri, əmək stajına görə əlavə məzuniyyətlərin müddətləri və verilmə qaydası, yaradıcılıq və təhsil məzuniyyətləri, sosial məzuniyyətlər, ödənişsiz məzuniyyətlər, məzuniyyət hüququnun həyata keçirilməsi qaydaları, məzuniyyət vaxtı üçün əmək haqqının ödənilməsi qaydaları və s. mövzular barədə məlumatlandırılıb və bir sıra müzakirələr aparılıb.

♦ 25 fevralda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 25 fevralda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə il ərzində keçiriləcək imtahanların qrafiki, ali və orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunun başlanması, eləcə də DİM-in həyata keçirdiyi layihələrlə əlaqədar mətbuat konfransı keçirib.

♦ 28 fevralda «Abituriyent» jurnalının 1-ci nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları, qəbul imtahanının ikinci mərhələsi üçün I, II, III və IV ixtisas qruplarına daxil olan fənlər üzrə qəbul imtahanı proqramları, ədəbiyyat siyahısı, tapşırıq nümunələri, balların hesablanma qaydası, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elanları və digər zəruri materiallar dərc olunub.

♦ 28 fevralda Dövlət İmtahan Mərkəzinin Müsahibələrin təşkili şöbəsinin müdiri Xədicə Əzimova, həmin şöbənin aparıcı məsləhətçisi Kamran Səfərov və Hüquqi təminat, dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov tərəfindən "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə Dövlət İmtahan Mərkəzinin və Sumqayıt Apellyasiya Məhkəməsinin əməkdaşları iştirak ediblər.

♦28 fevralda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 1 martda zal nəzarətçilərinin fəaliyyətinin sertifikatlaşdırılması prosesi başa çatıb. Zal nəzarətçisi sertifikatı əldə etmiş 680 nəfər imtahanların idarə edilməsi prosesinə cəlb edilib.

♦ 1 martda dövlət qulluqçuları üçün "Əmək qanunvericiliyinin tətbiqi" mövzusunda təlim keçirilib. Təlim zamanı iştirakçılar əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi qaydaları, intizam tənbehinin verilməsi qaydaları, işəgötürən və işçinin qarşılıqlı maddi məsuliyyətini müəyyən edən hallar, əmək haqqından tutulmalara yol verilən hallar və bunun icrası qaydası və s. mövzular barədə məlumatlandırılıb və bir sıra müzakirələr aparılıb.

♦ 2 martda Dövlət İmtahan Mərkəzi ilə İpoteka və Kredit Zəmanət Fondu arasında elektron məlumat mübadiləsi haqqında razılaşma imzalanıb.

♦ 2 martda qəbul imtahanlarının ikinci mərhələsi üzrə sınaq imtahanında ən yüksək nəticə göstərən 25 abituriyent "Açıq qapı" gününə dəvət olunub. 10 abituriyent regionlarda olmasına və üzrlü səbəblərə görə görüşə onlayn qoşulub. DİM tərəfindən yüksək nəticə göstərən abituriyentlərə hədiyyə olaraq "Abituriyent" jurnalının 2022-ci il tarixli 1-ci nömrəsi, "Abituriyent" nəşrlərinə dair broşür və otk.az internet saytında yerləşdirilmiş sınaq imtahanlarından ödənişsiz faydalanmaq üçün 20 AZN dəyərində kuponlar təqdim edilib.

♦ 1 – 2 mart tarixlərində kimya, fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 3 martda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ Martın 4-dən 17-dək 2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulu elan edilib.

♦ 4 martda magistratura səviyyəsinə qəbul imtahanında ən yüksək nəticə göstərən 25 bakalavr Dövlət İmtahan Mərkəzində "Açıq qapı" gününə dəvət olunub. 2 bakalavr görüşə DİM-in "Facebook" səhifəsi vasitəsilə canlı yayımla qoşulub.

♦ 4 martda Dövlət İmtahan Mərkəzində xüsusi qabiliyyət imtahanlarında iştirak edən nəzarətçilər üçün təlim keçirilib. Təlimdə iştirakçılara istiqamətlər üzrə xüsusi qabiliyyət imtahanlarının xüsusiyyətləri, imtahan zalında nəzarətçilərin yerinə yetirdikləri vəzifələr, abituriyentin davranış qaydaları və digər məsələlər barədə təqdimat nümayiş etdirilib. Bununla yanaşı, təlimdə iştirakçıların sualları cavablandırılıb, imtahan zamanı yarana biləcək konkret sutiasiyalara uyğun tövsiyələr verilib.

♦ 5 martda 15 şəhər və rayonda tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanın təşkil edilməsi üçün, 105 imtahan binası, 1757 imtahan zalı ayrılıb. İmtahanın idarə olunmasına 105 ümumi imtahan rəhbəri, 282 imtahan rəhbəri, 2178 nəzarətçi–müəllim, 214 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 105 bina nümayəndəsi ayrılıb.

♦ 5 və 6 mart tarixlərində TOEFL iBT imtahanı keçirilib. İmtahanda ümumilikdə 12 nəfər iştirak edib.

♦ 6 martda 16 şəhər və rayonda tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanların təşkil edilməsi üçün, 111 imtahan binası, 1863 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 111 ümumi imtahan rəhbəri, 304 imtahan rəhbəri, 2328 nəzarətçi–müəllim, 228 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 111 bina nümayəndəsi ayrılıb.

♦ 6 martda Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün 318 namizəd qeydiyyatdan keçib. 12 namizəd imtahana gəlməyib. İmtahanda iştirak edən 306 namizəddən 142 nəfər 60 və daha yüksək bal toplayaraq ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ 7 martda DİM-in yeni inzibati binasında "ASAN xidmət"in nümayəndə heyəti ilə görüş keçirilib. Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və Mərkəzin struktur bölmə rəhbərləri ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Qonaqlar əvvəlcə DİM-də yaradılan ölkəmizin milli qiymətləndirmə üzrə tarixini əks etdirən muzeylə tanış olublar. İştirakçılara milli qiymətləndirmə sisteminin yaradılması və inkişaf tarixi barədə məlumat verilib.

♦ 9 martda Dövlət İmtahan Mərkəzi "Abituriyent" jurnalının 2-ci nömrəsini nəşr etdirib. Bu nömrədə 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu elanının tam mətni, müsabiqə şərtləri dərc edilib.

♦ Martın 9-dan 31-dək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin aprel ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 9 martda Dövlət İmtahan Mərkəzi tərəfindən Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş şəxslərin övladlarının iştirakı ilə görüş keçirilib. Görüşdə 10 məktəbli iştirak edib.

♦ 9 martda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə iclasda gündəlik məsələ ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklərin təhlili olub.

♦ 9 martda DİM yeni və təcrübəsi az olan nəzarətçilər üçün təlimləri yekunlaşdırıb. Təlimlərdə nəzarətçilər cari ildə keçiriləcək test imtahanlarının texnologiyaları, imtahan materialları və qaydalar barədə ətraflı məlumatlandırılıb və onlara imtahanda idarəetmə ilə bağlı metod və üsullar izah edilib. Bütün respublika ərazisini əhatə edən təlimlərə 7362 nəzarətçi dəvət olunub. Onların 595-i təlimlərdə iştirak edə bilməyib. Təlimlərdə üzrsüz səbəblərdən iştirak edə bilməyənlər "Nəzarətçilərin elektron bazası"ndan xaric edilib.

♦ 10 martda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 11 martda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 12 martda 17 şəhər və rayonda tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanın təşkil edilməsi üçün, ümumilikdə 124 imtahan binası, 2058 imtahan zalı ayrılıb. İmtahanın idarə olunmasına 124 ümumi imtahan rəhbəri, 329 imtahan rəhbəri, 2524 nəzarətçi –müəllim, 249 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 124 bina nümayəndəsi ayrılıb.

♦ 12 martda DİM-də SAT imtahanı təşkil olunub. İmtahanda 2 əcnəbi olmaqla, ümumilikdə 91 nəfər iştirak edib.

♦ 13 martda dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda 74 namizəd iştirak edib.

♦ 13 martda tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 98 imtahan binası, 1495 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 98 ümumi imtahan rəhbəri, 250 imtahan rəhbəri, 1869 nəzarətçi–müəllim, 180 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 98 bina nümayəndəsi ayrılıb.

♦ 14 martda ilk peşə-ixtisas təhsili müəssisələrinin tədrisi Azərbaycan dilindən fərqli dildə olan bölmələrinin şagirdləri üçün buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili) imtahanı keçirilib. İmtahan Bakı şəhərində 1 binada təşkil olunub.

♦ 14 martda ədəbiyyat və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. İşçi qruplarının iclaslarında gündəlik məsələ 5 – 11-ci sinif dərslikləri əsasında hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçalarının yeni nəşrlərinin təhlili olub.

♦ 14 martda informatika fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda hazırlanması nəzərdə tutulan "İnformatika" vəsaitinin "Kompüterin proqram təminatı" bölməsi müzakirə olunub, həm nəzəri hissənin, həm də həmin hissəyə aid olan "Müstəqil qiymətləndirmə tapşırıqları"nın və "Ümumiləşdirici tapşırıqlar"ın müzakirəsi aparılıb.

♦ 15 martda Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib. İclasda 7 – 11-ci sinif dərslikləri əsasında hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçalarının yeni nəşrləri təhlil olunub.

♦ 16 martda Dövlət İmtahan Mərkəzində fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 16 martda korrupsiyaya qarşı mübarizə üzrə aparıcı beynəlxalq qeyri-hökumət təşkilatı olan "Transparency İnternational" Azərbaycan təşkilatı və Dövlət İmtahan Mərkəzinin birgə əməkdaşlığı ilə dövlət qulluqçularına korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları mövzusunda təlim keçirilib. Təlimdə Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin 35 əməkdaşı iştirak edib.

♦ 16 martda ilk peşə-ixtisas təhsili müəssisələrinin tədrisi Azərbaycan dilindən fərqli dildə olan bölmələrinin şagirdləri üçün 2022-ci il martın 14-də keçirilən Azərbaycan dili imtahanının nəticələri elan olunub.

♦ 17 martda korrupsiyaya qarşı mübarizə üzrə aparıcı beynəlxalq qeyri-hökumət təşkilatı olan Transparency İnternational Azərbaycan təşkilatı və Dövlət İmtahan Mərkəzinin birgə əməkdaşlığı ilə dövlət qulluqçularına korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları mövzusunda təlim keçirilib. Təlimdə Sumqayıt Rayon İcra Hakimiyyətinin 15 əməkdaşı iştirak edib.

♦ 16 – 17 mart tarixlərində Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksinin IV–XI sinif şagirdlərinin qiymətləndirilməsi üçün buraxılış və qəbul imtahanlarının əhatə etdiyi fənlər üzrə imtahanlar keçirilib. İmtahanlar Kompleksin inzibati binasında təşkil olunmuş bu imtahanlarda, ümumilikdə 300 şagird, o cümlədən lisey şagirdləri ilə yanaşı, Kompleksdə təhsil almaq üçün qeydiyyatdan keçmiş şagirdlər də iştirak ediblər.

♦ 2 – 17 mart tarixlərində dövlət qulluqçuları üçün "Kargüzarlıq və elektron sənəd dövriyyəsi sistemləri " mövzusunda onlayn təlim keçirilib. Təlim zamanı sənədlərin hazırlanması və rəsmiləşdirilməsi üçün ümumi tələblər, sənədlərin dövriyyəsinin təşkili, sənədlərin qeydə alınması və məlumat aparatının quruluşu, sənədlərin icrasına nəzarətin təşkili, işlərin nomenklaturunun tərtib edilməsi, qovluqların formalaşdırılması, arxivə təhvil verilməyə hazırlanması və cari arxivdən istifadə qaydaları, elektron sənədlərlə bağlı kargüzarlığın aparılmasının xüsusiyyətləri və s. mövzular barədə iştirakçılar məlumatlandırılıb və bu səpkidə bir sıra müzakirələr aparılıb.

♦ 18 martda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. İclaslarda işçi qruplarının üzvləri ilə bərabər DİM-lə ekspert kimi əməkdaşlıq etmək üçün elektron qeydiyyatdan keçmiş şəxslər də iştirak ediblər.

♦ Martın 18-dən aprelin 6-dək 13 dövlət orqanında inzibati vəzifələrin 3 – 7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elanı verilib.

♦ 18 martda DİM-in ACCA ilə birgə təşkil etdiyi vebinarda DİM-in tərəfdaşı olan 6 universitetin tələbə və müəllim heyəti iştirak edib. "Zoom" platforması üzərindən keçirilən vebinar yeni nəsil mühasibatlıq və maliyyə mütəxəssisləri üçün mühasibatlıq və maliyyənin gələcəyi, eləcə də ACCA kvalifikasiyalarının yaratdığı imkanlar barədə maarifləndirmə məqsədini daşıyıb.

♦20 martda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov Amerika Birləşmiş Ştatlarının Florida ştatının Ceksonvill şəhərində Amerika Dövlət İdarəçiliyi Cəmiyyətinin (American Society for Public Administration, ASPA) illik konfransı çərçivəsində Dövlət Qulluğu üzrə Astana Regional Xab (Xab) tərəfindən "Transformasiyada müxtəliflik: postsovet ölkələrində dövlət idarəçiliyi" mövzusunda təşkil edilmiş panel sessiyada çıxış edib. Panel sessiyanın əsas məqsədi postsovet ölkələrinin dövlət idarəçiliyi sistemində son 30 il ərzində baş vermiş transformasiya proseslərini və onların müxtəlifliyinin xarakterini təhlil etmək, habelə dövlətlərin üzləşdiyi çətinlikləri müəyyən etmək və onların inkişaf istiqamətində həyata keçirəcəyi tədbirləri müzakirə etmək olub.

♦ Martın 26-da DİM-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 13 nəfər iştirak edib.

♦ 28 martda Dövlət İmtahan Mərkəzində Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 28 martda informatika fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda hazırlanması nəzərdə tutulan "İnformatika" vəsaitinin "Mətnlərin emalı" bölməsi müzakirə olunub.

♦ 28 – 31 mart tarixlərində Dövlət İmtahan Mərkəzinin aparat rəhbəri Vəfadar Misirov Dövlət Qulluğu üzrə Astana Regional Xabın (Xab) dəvəti ilə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində 8-ci "Dünya Hökumət Sammiti" (World Government Summit) çərçivəsində nazirlərin iştirakı ilə keçirilən "dəyirmi masa" da iştirak edib. Dəyirmi masada Dördüncü Sənaye İnqilabı və COVID-19 pandemiyası, o cümlədən onların dünya əmək bazarlarına və dövlət sektorlarına təsiri, habelə dövlət qulluğuna təsir edən və dövlət qulluğunu cəmiyyətin dəyişən ehtiyaclarına uyğunlaşdırmaq üçün həll edilməli olan mövcud problemlər müzakirə olunub.

♦ 29 martda Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib. İclasda 7–11-ci siniflər üçün hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçaları ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklər ilə müqayisəli təhlil olunub.

♦ 29 martda DİM-in təşkilatçılığı ilə ABŞ Səfirliyinin region üzrə ingilis dili müşaviri Dövlət İmtahan Mərkəzi, Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutunun nümayəndələri ilə görüşüb.

♦ 30 mart – 23 aprel tarixlərində peşəkar mühasib sertifikatı (PMS) almaq istəyən namizədlər üçün I mərhələ imtahanına qeydiyyat aparılıb.

♦ 30 mart – 14 may tarixlərində peşəkar mühasib sertifikatı (PMS) almaq istəyən namizədlər üçün II mərhələ imtahanına qeydiyyat aparılıb.

♦ 30 martda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. Hər iki fənn üzrə iclaslarda 7-ci siniflər üçün hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçaları dərsliklərin Elm və Təhsil Nazirliyinin trims.edu.az saytında ictimai müzakirə üçün yerləşdirilən yenidən işlənmiş variantları ilə müqayisəli təhlil olunub.

♦ 30 martda Dövlət İmtahan Mərkəzinin Müsahibələrin təşkili şöbəsinin müdiri Xədicə Əzimova, həmin şöbənin aparıcı məsləhətçisi Kamran Səfərov və Hüquqi təminat, dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim keçiriblər. Təlimdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları iştirak edib.

♦ 31 martda dim.gov.az saytının ziyarətçiləri üçün vətəndaşlar tərəfindən Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq tez-tez verilən suallar əsasında çatbot (süni sual-cavab simulyasiyası) hazırlanıb. Çatbotun hazırlanmasında məqsəd istifadəçilərin maarifləndirilməsinə dəstək olmaq, tez-tez verilən sualları və onlara cavabları təqdim etmək və bununla da lazımi məlumatın daha tez əldə olunmasını təmin etməkdir.

♦ 31 martda DİM-də GRE imtahanı təşkil olunub. İmtahanda 3 nəfər iştirak edib.

♦ 31 martda DİM-də The International Baccalaureate® (IB) təşkilatının Avropa, Afrika və Yaxın Şərq ölkələrində IB proqramının inkişafı və tanınması üzrə baş meneceri Vedrana Pavletik, Avropa Azərbaycan məktəbinin direktoru Françesko Bankini və DİM-in İctimaiyyətlə əlaqələr və kargüzarlıq departamentinin rəhbəri Nigar Hüseynova, Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn və şöbənin digər əməkdaşlarının iştirakı ilə görüş keçirilib. Görüşdə DİM tərəfindən 2019-cu ildən etibarən aparılan beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu haqqında statistik göstəricilər və IB nəticələrinin həqiqiliyinin yoxlanılması üzrə beynəlxalq platformaya dair məlumat təqdim olunub və mövzu ətrafında fikir mübadiləsi aparılıb.

♦ 31 martda biologiya və tarix, 1 apreldə isə coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 1 apreldə tam orta (11 illik) təhsil səviyyəsi üzrə 5-6 mart tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub.

♦ 3 apreldə əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı; müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı; qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı; mart ayında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş cari ilin XI sinif şagirdləri üçün buraxılış imtahanı; eksternat qaydasında XI sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı; buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş əvvəlki illərin XI sinif məzunları üçün buraxılış imtahanı keçirilib.

♦ 4 apreldə 12 dövlət orqanında inzibati vəzifələrin 4 – 7-ci təsnifatına uyğun olan vakant vəzifələrin tutulması üzrə ümumi müsahibə elanı verilib.

♦ 4 apreldə Dövlət İmtahan Mərkəzində Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. İclasda Azərbaycan dili fənni üzrə 5-ci sinif üçün qiymətləndirmə tapşırıqları kitabçası və ingilis dili fənni üzrə isə "Happy Campers" dərsliyi əsasında 3-cü sinif üçün yeni qiymətləndirmə tapşırıqları kitabçasının hazırlanması ilə bağlı müzakirələr aparılıb.

♦ Aprelin 5-dən 25-dək 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə ümumi (9 illik) orta təhsil bazasında tələbə qəbulu elan edilib.

♦ 5 apreldə Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib. İclasda respublikanın ümumtəhsil məktəblərində qüvvədə olan 8-ci sinif kimya dərsliyi əsasında hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçası dərsliklə müqayisəli təhlil olunub.

♦ Aprelin 6-dan 25-dək Dövlət İmtahan Mərkəzinə daxil olan çoxsaylı müraciətlər nəzərə alınaraq ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu sistemi yenidən aktiv edilib.

♦ 6 apreldə fizika və rus dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. İclasda fizika fənni üzrə 6-cı siniflər üçün, rus dili fənni üzrə isə 5-ci siniflər üçün qiymətləndirmə tapşırıqları kitabçaları müzakirə olunub.

♦ 7 apreldə biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. İclasda hər iki fənn üzrə respublikanın ümumtəhsil məktəblərində qüvvədə olan 6-ci sinif biologiya və Azərbaycan tarixi dərslikləri əsasında hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçaları dərsliklə müqayisəli təhlil olunub.

♦ 6 apreldə DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ilə Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin (MQİM) direktoru Sofia Qorqodze, həmçinin hər iki qurumun rəhbər şəxslərinin – DİM-in Direktorlar Şurasının sədr müavini Namiq Babayev və MQİM-in direktor müavinləri Kakha Jamburia və Levan Sabaurinin iştirakı ilə onlayn formada görüş keçirilib. Görüşdə qurumlar arasında artıq iki ildir rəsmi şəkildə davam edən əməkdaşlığa dair qarşılıqlı məmnunluq ifadə edilib və həyata keçirilən işlərin qurumlar arasında əlaqələrin möhkəmlənməsində əhəmiyyətli olduğu vurğulanıb. İclasda tərəflər arasında daha əvvəl imzalanan Anlaşma Memorandumu yenilənib.

♦ 8 apreldə Dövlət İmtahan Mərkəzində coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 8 apreldə qabiliyyət imtahanı ekspertlərinin informasiya sisteminin (QABİS) təkmilləşdirilməsi və yeni ekspertlərin əlavə edilməsi məqsədilə təqdimat keçirilib.Təqdimatda DİM-in əməkdaşları, Odlar Yurdu Universiteti, Gəncə Dövlət Universiteti, BDU-nun Qazax filialı, Bakı Xoreoqrafiya Akademiyası və Tovuz Dövlət Sosial İqtisadi Kolleci tərəfindən təyin edilən məsul şəxslər iştirak ediblər.

♦ 9 apreldə TOEFL imtahanı keçirilib. İmtahan DİM-in inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanda 7 nəfər iştirak edib.

♦ 10 apreldə inzibati vəzifələrin B növünə aid olan BA və BB qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğuna qəbul imtahanı və Dövlət Sərhəd Xidmətinin Xüsusi məktəbinin V sinfinə qəbul imtahanı keçirilib.

♦ 11 apreldə Dövlət Sərhəd Xidməti Xüsusi məktəbinin V sinfinə qəbul olmaq üçün keçirilən imtahanın nəticələri elan edilib. İmtahanda iştirakı nəzərdə tutulan 916 nəfərdən 30-u imtahana gəlməyib.

♦ 11 apreldə inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün aprelin 10-da keçirilən test imtahanının nəticələri elan olunub.

♦ 11 apreldə Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. İclaslarda respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 6-cı sinif dərslikləri əsasında hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçaları dərsliklərlə müqayisəli təhlil olunub.

♦11 apreldə vergi orqanlarında inzibati rəhbər (idarəetmə) vəzifələri üçün ehtiyat kadrlar bazasının formalaşdırılması məqsədilə namizədlərin idarəetmə bacarıqlarının qiymətləndirilməsi üçün kompüter əsaslı test imtahanı keçirilib. İmtahanda 78 nəfər iştirak edib.

♦ 12 apreldə kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib. İclasda respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 7-ci sinif kimya dərsliyi əsasında hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçası dərsliklə müqayisəli təhlil olunub.

♦ 12 apreldə tam orta (11 illik) təhsil səviyyəsi üzrə 12 – 13 mart 2022-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub.

♦ 13 apreldə fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 14 apreldə GRE General Test imtahanı keçirilib. İmtahanda 2 nəfər iştirak edib.

♦ 14 apreldə biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 14 apreldə 9 dövlət orqanında inzibati vəzifələrin 2-4-cü təsnifatına uyğun olan 22 vəzifənin tutulması üçün daxili müsahibə elanı verilib.

♦ Aprelin 15-dən mayın 10-dək "Cambridge Assessment English" beynəlxalq qiymətləndirmə qurumunun rəsmi test mərkəzi olan Dövlət İmtahan Mərkəzi ingilis dili müəllimlərinin xarici dil bacarıqlarını beynəlxalq səviyyədə təsdiq edən TKT (Teaching Knowledge Test) kvalifikasiyasının modulları (TKT Modul 1;TKT Modul 2;TKT Modul 3;TKT Module YL (azyaşlı öyrənənlər);TKT Module CLIL (dilin məzmunla inteqrativ tədrisi)) üzrə imtahana qeydiyyat aparılıb.

♦ 15 apreldə DİM, Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası, Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası və Gənc Mühasiblər İctimai Birliyi arasında Anlaşma Memorandumunun imzalanmasına həsr edilmiş tədbir keçirilib.

♦ 15 apreldə DİM "Peşəkar mühasib" adlı metodik vəsait nəşr edib. Metodik vəsait peşəkar mühasib sertifikatı verilməsi üçün keçirilən test imtahanına (I və II mərhələ) hazırlaşanlar və ictimaiyyətin bu sahə ilə maraqlanan təbəqəsi üçün nəzərdə tutulub.

♦ 15 apreldə coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 15 apreldə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Təhsil və bacarıqlar üzrə direktoru, eləcə də PISA (Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramı) rəhbəri Andreas Şleyxer ilə görüşüb. İclasda DİM-in beynəlxalq əməkdaşlıq layihələri, PISA yönlü tapşırıqların gələcəkdə imtahanlarda istifadə olunması məqsədilə Elm və Təhsil Nazirliyinin dəstəyi ilə bu il keçirilməsi nəzərdə tutulan təlimlər və İƏİT-in SIGMA proqramı çərçivəsində "Dövlət qulluğunda səriştə modelinin tətbiqi" pilot layihəsi haqqında məlumat verilib.

♦ 16 apreldə Bakı şəhərinin Sabunçu rayonunda, Ağdam, Balakən, Biləsuvar, İmişli, İsmayıllı, Qax, Qusar, Tərtər rayonlarında, Sumqayıt (I hissə), Lənkəran və Gəncə (Kəpəz) şəhərlərində ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanlarda 23107 şagirdin iştirakı nəzərdə tutulub. İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 100 imtahan binası, 1750 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 100 ümumi imtahan rəhbəri, 282 imtahan rəhbəri, 2166 nəzarətçi-müəllim, 206 buraxılış rejimi əməkdaşı (mühafizə) və 100 bina nümayəndəsi ayrılıb.

♦ 17 apreldə 12 şəhər və rayonda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanlarda 21749 şagirdin iştirakı nəzərdə tutulub. İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 92 imtahan binası, 1650 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 92 ümumi imtahan rəhbəri, 268 imtahan rəhbəri, 2053 nəzarətçi-müəllim, 194 buraxılış rejimi əməkdaşı (mühafizə), 92 bina nümayəndəsi ayrılıb.

♦ Aprelin 18-dən mayın 13-dək inzibati dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə test imtahanına qeydiyyat aparılıb.

♦ 18 apreldə Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. İclaslarda respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 8-ci sinif dərslikləri əsasında hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçaları dərsliklərlə müqayisəli təhlil olunub.

♦ 19 apreldə kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib.

♦ 19 apreldə Dövlət İmtahan Mərkəzi ACCA ilə birgə mühasibatlıq və maliyyə mütəxəssisləri üçün vebinar təşkil edib. Görüşdə DİM-in tərəfdaşı olan universitetlərin tələbə və müəllim heyəti iştirak edib. Vebinar yeni nəsil mühasibatlıq və maliyyə mütəxəssisləri üçün mühasibatlıq və maliyyənin gələcəyi, eləcə də ACCA kvalifikasiyalarının yaratdığı imkanlar barədə maarifləndirmə məqsədi ilə keçirilib.

♦ 19 apreldə DİM-də musiqi sənəti istiqaməti üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanlarını müzakirə etmək məqsədilə bir sıra ali təhsil müəssisələrinin rəhbər şəxsləri ilə görüş keçirilib. İclasın keçirilməsində əsas məqsəd bu il musiqi sənəti istiqaməti üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanlarını müzakirə etmək idi.

♦ 20 apreldə fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 20 apreldə DİM-in inzibati binasında TOEFL imtahanı keçirilib. İmtahanda 13 nəfər iştirak edib.

♦ 21 apreldə mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları daxil olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 4 – 7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 51 dövlət orqanında 281 vakant inzibati vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ 21 apreldə DİM-də təsviri sənət və memarlıq istiqamətləri üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanlarını müzakirə etmək məqsədilə bir sıra ali təhsil müəssisələrinin rəhbər şəxsləri ilə görüş keçirilib. İclasda təsviri sənət istiqaməti üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanları müzakirə edilib.

♦ Aprel 22-dən oktyabrın 23-dək buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə vasitələrinin hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.

♦ 21 apreldə biologiya və tarix, aprelin 22-də isə coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 23 apreldə Bakı şəhərinin Qaradağ, Yasamal rayonlarında, Ağdaş, Ağsu, Beyləqan, Cəlilabad (I hissə), Hacıqabul, Goranboy, Qobustan, Tovuz, Xaçmaz (I hissə) rayonlarında, Naftalan, Şirvan və Sumqayıt (II hissə) şəhərlərində ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanlarda 21337 şagirdin iştirakı nəzərdə tutulub. İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 96 imtahan binası, 1611 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 96 ümumi imtahan rəhbəri, 258 imtahan rəhbəri, 2005 nəzarətçi-müəllim, 198 buraxılışı rejimi əməkdaşı (mühafizə) və 96 bina nümayəndəsi ayrılıb.

♦ 23 apreldə 3 apreldə keçirilən imtahanların nəticələri elan olunub Bu imtahanlarında iştirakı nəzərdə tutulan 26128 nəfərdən 2115 nəfər imtahana gəlməyib. 15 nəfər isə tələb olunan qaydaları pozduğu üçün imtahandan xaric olunub.

♦ 25 apreldə 10 şəhər və rayonda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanda 21790 şagirdin iştirakı nəzərdə tutulub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 97 imtahan binası, 1660 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 97 ümumi imtahan rəhbəri, 266 imtahan rəhbəri, 2077 nəzarətçi-müəllim, 183 buraxılış rejimi əməkdaşı və 97 bina nümayəndəsi ayrılıb.

♦ Aprelin 25-dən mayın 5-dək rezidenturaya qəbulun I mərhələsinin (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi) 1-ci cəhdində iştirak etmək üçün namizədlərin qeydiyyatı aparılıb.

♦25 apreldə "Rezidentura" jurnalının 2-ci sayı nəşr edilib. Bu nömrədə qəbul elanının tam mətni, rezidenturaya ərizə verən namizəd üçün təlimat, "Namizədin elektron ərizəsi"nin doldurulma qaydası, onun nümunəsi, rezidenturaya ixtisas fənləri üzrə qəbul imtahanı proqramları, test tapşırığı nümunələri və digər materiallar Azərbaycan və rus dillərində təqdim edilib.

♦ 25 apreldə Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 25 apreldə ingilis dili fənni üzrə buraxılış imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun birinci mərhələsinin ilk məşğələsi keçirilib.

♦26 apreldə kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib.

♦26 apreldə kimya fənni üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun birinci mərhələsinin ilk məşğələsi keçirilib.

♦27 apreldə Dövlət İmtahan Mərkəzində fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib. İclaslarda respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 11-ci sinif dərslikləri əsasında hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabçaları dərsliklərlə müqayisəli təhlil olunub. Təhlil nəticəsində kitabçaların məzmununda təkmilləşmələr aparılıb, dərsliklərdəki dəyişikliklər nəzərə alınıb.

♦ 27 apreldə fizika və rus dili (tədris dili) fənləri üzrə qəbul və buraxılış imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının birinci mərhələsinin ilk məşğələləri keçirilib.

♦ 27 apreldə biologiya və tarix fənləri üzrə, 28 apreldə isə coğrafiya fənni üzrə hazırlıq kurslarının ilk məşğələləri keçirilib.

♦ 28 apreldə DİM-də bədən tərbiyəsi və idman istiqaməti üzrə keçiriləcək qabiliyyət imtahanlarını müzakirə etmək məqsədilə Gənclər və İdman Nazirliyi, Bədən Tərbiyəsi və İdman Akademiyası və DİM-in rəhbər şəxsləri arasında görüş keçirilib. Görüşdə qabiliyyət imtahanı proqramları təsdiq olunub.

♦ 28 apreldə Dövlət İmtahan Mərkəzində biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ Aprelin 29-dan mayın 5-dək doktorantura və dissertantura səviyyəsində xarici dil üzrə qəbul imtahanında iştirak etmək istəyən namizədlərin sənəd qəbulu prosesi aparılıb.

♦ 29 apreldə Dövlət İmtahan Mərkəzi Gənc Mühasiblər İctimai Birliyi ilə PMS imtahanlarına dair panel müzakirə təşkil edib.

♦ 29 apreldə Dövlət İmtahan Mərkəzində coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 29 apreldə 11 dövlət orqanında inzibati vəzifələrin 3-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elanı verilib.

♦ 30 apreldə DİM-in inzibati binasında TOEFL imtahanı keçirilib. İmtahanda 19 nəfər iştirak edib.

♦ 30 apreldə Dövlət İmtahan Mərkəzi tərəfindən Bakı şəhərinin Nəsimi, Nərimanov rayonlarında, Naxçıvan Muxtar Respublikasında, Bərdə, Cəlilabad (II hissə), Daşkəsən, Gədəbəy, Göyçay, Göygöl, Qazax, Lerik, Sabirabad, Xaçmaz (II hissə) rayonlarında, Şəki şəhərində ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahanlarda 24864 şagirdin iştirakı nəzərdə turulub. İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 107 imtahan binası, 1919 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 107 ümumi imtahan rəhbəri, 317 imtahan rəhbəri, 2345 nəzarətçi-müəllim, 231 buraxılışı rejimi əməkdaşı (mühafizə), 107 bina nümayəndəsi ayrılıb.

♦ 1 mayda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanı keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 100 imtahan binası, 1494 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 100 ümumi imtahan rəhbəri, 253 imtahan rəhbəri, 1883 nəzarətçi-müəllim, 168 buraxılış rejimi əməkdaşı (mühafizə) və 100 bina nümayəndəsi ayrılıb.

♦ 1 mayda ingilis dili fənni üzrə buraxılış imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun ilk mərhələsinin ikinci məşğələsi keçirilib.

♦ 4 mayda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 4 mayda fizika və rus dili fənləri üzrə qəbul və buraxılış imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının ilk mərhələsinin ikinci məşğələləri keçirilib.

♦ 5 mayda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 6 mayda riyaziyyat və coğrafiya fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 5 mayda biologiya və tarix, 6 mayda isə coğrafiya fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ 7 mayda DİM-də SAT imtahanı təşkil olunub. İmtahanda 104 nəfər iştirak edib.

♦ 8 mayda tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan ümumi təhsil müəssisələrinin cari ilin 9-cu və 11-ci sinif şagirdləri, həmçinin ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən əvvəlki illərin məzunları üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə test imtahanı keçirilib. İmtahan ümumilikdə 21 şəhər və rayonda, 95 binada təşkil olunub. İmtahanda xüsusi təyinatlı təhsil müəssisələrinin – cəzaçəkmə müəssisələrində yerləşən məktəblərin, internat məktəblərinin şagirdləri də iştirak ediblər.

♦ 8 mayda inzibati rəhbər vəzifələrə aid olan AB, AC və inzibati icraçı vəzifələrə aid olan BA, BB vəzifə qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanları keçirilib. Bu imtahanda 87 namizəd iştirak edib. 17 namizəd tələb olunan şərtləri ödəyərək uğur qazanıb.

♦ 8 mayda peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi (mühasibat üzrə) keçirilib. İmtahanın keçirilməsi üçün 2 ümumi imtahan rəhbəri, 4 imtahan rəhbəri, 41 nəzarətçi-müəllim, 4 buraxılış rejimi (mühafizə) əməkdaşı cəlb olunub.

♦ 18 – 27 aprel tarixlərində DİM-in Strateji inkişaf şöbəsi ilə Psixoloji qiymətləndirmə və diaqnostika şöbəsinin əməkdaşları "ADA" Universitetinin dəvəti ilə universitetin nəzdində təşkil olunan "Məşğulluq həftəsində" (Employability Week) "spiker" qismində iştirak ediblər.

♦ 8 mayda ingilis dili fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib.

♦ Mayın 10-dan 17-dək 2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının ikinci cəhdində iştirak etmək üçün qeydiyyat elan edilib.

♦ 10 mayda DİM-də GRE imtahanı təşkil olunub. İmtahanda 2 nəfər iştirak edib.

♦ 10 mayda inzibati vəzifələrin BB vəzifə qrupu üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün mayın 8-də keçirilən test imtahanının nəticələri elan olunub.

♦ 10 mayda Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib.

♦ 10 mayda Dövlət İmtahan Mərkəzində Ulu Öndər, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə tədbir keçirilib.

♦ 10 mayda kimya fənni üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun ilk mərhələsinin ikinci məşğələsi keçirilib.

♦ 11 mayda Dövlət İmtahan Mərkəzində fizika və ədəbiyyat (rus bölməsi) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 11 – 27 may tarixlərində ali təhsil müəssisələrinin və 11 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına (XQTİ) qəbul olmaq istəyən abituriyentlərin qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyatı aparılıb.

♦ 11 mayda fizika və rus dili fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ Mayın 12-dən iyulun 1-dək ali təhsil müəssisələrinə qəbul olmaq istəyən subbakalavrların qeydiyyatı aparılıb.

♦ 12 mayda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 11-12 may tarixlərində Dövlət İmtahan Mərkəzində ilk dəfə olaraq sağlamlıq imkanları məhdud, gözdən əlil bir namizəd üçün kağız daşıyıcılar vasitəsilə TOEFL iBT imtahanı keçirilib. İmtahanın ilk 2 sessiyası mayın 11-də, digər 2 sessiyası isə mayın 12-də təşkil olunub.

♦ 12 mayda "Yüksəliş" İctimai Birliyi və "Opalus Partners Group" şirkətinin birgə təşkilatçılığı ilə "Müasir idarəçinin yüksəlişi (biliklər və kompetensiyalar)" mövzusunda tədbir təşkil olunub.

♦ 12 və 13 may tarixlərində biologiya, tarix və coğrafiya fənləri üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının birinci mərhələsinin üçüncü məşğələləri keçirilib.

♦ 13 mayda riyaziyyat və coğrafiya fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 13 mayda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavinləri Namiq Babayev və Bəhram Xəlilov, aparat rəhbəri Vəfadar Misirov, departament və şöbə müdirləri, eləcə də işğaldan azad olunan rayonların sakinləri olan bir qrup DİM əməkdaşı Şuşa şəhərində "Xarıbülbül" Festivalının ikinci günündə təşkil olunan tədbirlərdə iştirak ediblər.

♦ 14 mayda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 18 nəfər iştirak edib.

♦ 15 mayda SABAH qruplarına tələbə seçimi müsabiqəsinin test imtahanı mərhələsi keçirilib. İmtahanda 2397 tələbənin iştirakı nəzərdə tutulub. İmtahanın keçirilməsi üçün 10 imtahan binası, 176 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 10 ümumi imtahan rəhbəri, 28 imtahan rəhbəri, 227 nəzarətçi-müəllim, 22 buraxılış rejimi əməkdaşı (mühafizə), 10 bina nümayəndəsi ayrılıb.

♦ 15 mayda rezidenturaya qəbul imtahanının birinci mərhələsi (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı, birinci cəhd) keçirilib. İmtahanların keçirilməsi üçün ümumilikdə 6 imtahan binası, 14 imtahan rəhbəri, 6 ümumi imtahan rəhbəri, 109 nəzarətçi-müəllim, 13 buraxılış rejimi əməkdaşı (mühafizə) və 6 bina nümayəndəsi ayrılıb.

♦ 15 mayda dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda 95 namizəd iştirak edib. 22 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 15 mayda əvvəlki illərin məzunları üçün 9 illik təhsil bazasında kolleclərə qəbul imtahanı; müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı; qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı; aprel-may aylarında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş cari ilin IX sinif şagirdləri üçün buraxılış imtahanı; eksternat qaydasında IX sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı; buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş əvvəlki illərin IX sinif məzunları üçün buraxılış imtahanı keçirilib. İmtahanların idarə olunmasına 59 ümumi imtahan rəhbəri, 174 imtahan rəhbəri, 1332 nəzarətçi-müəllim, 132 buraxılış rejimi əməkdaşı və 59 bina nümayəndəsi ayrılıb. İmtahanda 14112 nəfərin iştirakı nəzərdə tutulub.

♦ 10 – 15 may tarixlərində Gürcüstanın paytaxtı Tbilisi şəhərində Şərq Tərəfdaşlığı (ŞT) Regional İdarəçilik İslahatı Fondu və GIZ (Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı) Regional Fondunun birgə təşkilatçılığı, ŞT ölkələrinin iştirakı ilə Dövlət İdarəçilik İslahatı üzrə II "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi (PTT)" layihəsinin ilk təlimi baş tutub. Dövlət İmtahan Mərkəzinin (DİM) Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn və Hüquqi təminat, dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov regional layihənin "ŞT ölkələrinin dövlət qulluğunda regional rəhbər qrupu üçün idarəetmə və liderlik" üzrə təlim kursunda iştirak ediblər.

♦ 16 mayda xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq istəyənlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının 1-ci nömrəsi nəşr edilib.

♦ 16 mayda SABAH qruplarına qəbul olmaq üçün mayın 15-də keçirilmiş imtahanın nəticələri elan edilib.

♦ 16 mayda rezidenturaya qəbul olmaq üçün 15 may 2022-ci ildə keçirilmiş baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının birinci cəhdinin nəticələri elan edilib.

♦ 16 mayda ingilis dili fənni üzrə buraxılış imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun ilk mərhələsinin dördüncü məşğələsi keçirilib.

♦ 17 mayda Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib.

♦ 17 mayda "ADA" Universitetinin təşkil etdiyi "Məşğulluq həftəsi"nin (Employability Week) iştirakçıları Dövlət İmtahan Mərkəzinin "Açıq qapı" gününə dəvət olunub. ADA Universitetinin 13 nəfər bakalavr və magistr tələbəsi DİM-də yaradılmış və ölkəmizin milli qiymətləndirmə sisteminin tarixini əks etdirən muzeylə tanış olublar.

♦ Mayın 17-də ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə 23-24 aprel 2022-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub.

♦ Mayın 18-dən 29-dək doktoranturada oxuyan iddiaçıların xarici dil üzrə, həmçinin, əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında iştirak etmələri üçün qeydiyyat elan edilib.

♦ 17 mayda Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin əməkdaşlarına "Korrupsiyaya qarşı mübarizə və Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məsələləri" mövzusunda təlim keçirilib.

♦ 18 mayda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün imtahanın 2022-ci il mayın 8-də keçirilən I mərhələsinin nəticələri elan olunub.

♦ 18 mayda Dövlət İmtahan Mərkəzində fizika və ədəbiyyat (rus bölməsi) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ Mayın 18-dən iyunun 19-dək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin iyun ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat elan edilib.

♦ 18 mayda fizika və rus dili fənləri üzrə qəbul və buraxılış imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının ilk mərhələsinin dördüncü məşğələləri keçirilib.

♦ 18 mayda imtahanlara cəlb olunan Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif institutlarının əməkdaşları, həmçinin dövlət qurumları, idarə və təşkilatlarda, təhsil müəssisələrində çalışan şəxslərin iştirakı ilə iclas keçirilib. Görüşdə imtahanların təşkili, iştirakçılar üçün zəruri şəraitin yaradılması, imtahanlarda baş verən hallar və s. məsələlər müzakirə olunub.

♦ 19 mayda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 19 mayda biologiya fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib.

♦ 20 mayda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 20 mayda Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə mayın 8-də keçirilən test imtahanının nəticələri elan olunub.

♦ Mayın 21-də DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 20 nəfər iştirak edib.

♦ 21 mayda 17 şəhər və rayonda III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda 91 imtahan binası, 1607 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 91 ümumi imtahan rəhbəri, 264 imtahan rəhbəri, 2020 nəzarətçi–müəllim, 263 buraxılış rejimi əməkdaşı, 91 bina nümayəndəsi ayrılıb.

♦ 22 mayda II ixtisas qrupu (o cümlədən III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda 98 imtahan binası, 1715 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 98 ümumi imtahan rəhbəri, 280 imtahan rəhbəri, 2138 nəzarətçi–müəllim, 240 buraxılış rejimi əməkdaşı, 98 bina nümayəndəsi ayrılıb.

♦ 23 mayda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ Mayın 23-dən 31-dək ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul olmaq istəyən, lakin mayın 8-də keçirilən Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak etməyən və ya "qeyri-məqbul" qiymət alan abituriyentlərin növbəti imtahana qeydiyyatı aparılıb.

♦ 23 mayda DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ilə Özbəkistanın Dövlət Qulluğunun İnkişafı Agentliyinin nümayəndələri arasında görüş keçirilib.

♦ 23 mayda ingilis dili fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib.

♦ Mayın 24-dən 31-dək 9 illik təhsil bazasında kolleclərə qəbul olmaq üçün sənəd verən, lakin mayın 8-də keçirilən Azərbaycan dili imtahanında iştirak etməyən və ya "qeyri-məqbul" qiymət alan abituriyentlərin qeydiyyatı aparılıb.

♦ Mayın 24-dən 31-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu sistemi yenidən aktiv edilib.

♦ 24 mayda Dövlət İmtahan Mərkəzi Ədliyyə Nazirliyi ilə birgə notariat fəaliyyəti ilə məşğul olmaq məqsədilə şəhadətnamə almaq istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahanda iştirak etmək üçün 70 namizəd qeydiyyatdan keçib. 41 namizəd müsabiqə şərtini ödəyərək – 55 və daha yüksək bal toplamaqla ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ 24 mayda kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib.

♦ 24 mayda kimya fənni üzrə qəbul imtahanında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun ilk mərhələsinin dördüncü məşğələsi keçirilib.

♦25 maydan 3 iyunadək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına (XQTİ) qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.

♦ Mayın 25-dən iyunun 7-dək hakim vəzifəsinə qəbul olmaq üçün Hakimlərin Seçki Komitəsi tərəfindən qeydiyyata alınmış namizədlərin imtahana qeydiyyatı aparılıb.

♦ 25 mayda fizika və ədəbiyyat (rus bölməsi) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 25 mayda fizika və ədəbiyyat (rus bölməsi) fənləri üzrə işçi qruplarının növbəti iclasları, fizika və rus dili fənləri üzrə qəbul və buraxılış imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının ilk mərhələsinin beşinci məşğələsi keçirilib.

♦ 26 mayda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 26 mayda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə 30 aprel və 1 may 2022-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub.

♦ 27 mayda Dövlət İmtahan Mərkəzində coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 23 – 27 may tarixlərində Özbəkistan Respublikasının Prezidenti yanında Dövlət Qulluğunun İnkişafı Agentliyinin nümayəndə heyəti açıq rəqabət sisteminin optimallaşdırılması, milli kadr ehtiyatının formalaşdırılması, habelə dövlət qulluğuna namizədlərin seçimində şəffaflığın, ədalətliliyin və obyektivliyin təmin edilməsi istiqamətlərində Azərbaycan Respublikasının qabaqcıl təcrübəsi ilə tanış olmaq məqsədilə ölkəmizdə işgüzar səfərdə olub. Proqram çərçivəsində qonaqlara DİM-in müxtəlif struktur bölmələrinin əməkdaşları tərəfindən "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, dövlət qulluğuna qəbul sistemi, test imtahanlarının və müsahibələrin təşkili, dövlət qulluğu sahəsində elektron xidmətlər, dövlət qulluqçularının reyestrinin aparılması, Azərbaycan Respublikasında səriştə modelinin yaradılması istiqamətində beynəlxalq layihələr, müsahibələr, müsahibə proqramlarının hazırlanması, müsahibə elanlarının verilməsi, ehtiyat kadrların idarə edilməsi, səriştə modeli çərçivəsində hazırlanmış qiymətləndirmə vasitələri mövzularında təqdimatlar edilib.

♦ 27 mayda Dövlət İmtahan Mərkəzində 28 May Müstəqillik Günü ilə əlaqədar tədbir keçirilib.

♦ 29 mayda ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanı (II cəhd) və peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının II mərhələsi (qanunvericilik üzrə) keçirilib. Magistraturaya qəbul imtahanında iştirak üçün 14843 bakalavr ərizə təqdim edib. İmtahanda 5 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil və hərəkət məhdudiyyətli) bakalavr da iştirak edib. PMS imtahanı isə Bakıda 2 binada təşkil olunub. İmtahanda iştirak etmək üçün 522 nəfər müraciət edib.

♦ 31 mayda orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyənlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının 2-ci nömrəsi nəşr olunub. Bu nömrədə orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına (XQTİ) qəbul olmaq istəyən abituriyentlər üçün qəbul proqramları çap edilib. Jurnalda Təsviri sənət, Musiqi sənəti, Teatr, kino və xoreoqrafiya sənəti, Bədən tərbiyəsi və idman istiqamətləri üzrə qabiliyyət imtahanları haqqında geniş məlumat verilib.

♦ 31 mayda Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə işçi qrupunun növbəti iclası keçirilib.

♦ İyunun 1-dən 5-dək əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul imtahanının 1-ci mərhələsinin 2-ci cəhdində iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 1 iyunda ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına mayın 29-da keçirilmiş qəbul imtahanının (II cəhd) nəticələri elan edilib.

♦ 1 – 3 iyun tarixlərində magistraturada 68, 69 və 70 saylı qəbul proqramlarına aid ixtisaslaşmaları seçmək istəyən bakalavrların qeydiyyatı aparılıb.

♦ 1 iyunda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 1 iyunda ümumi orta (9 illik) təhsil bazasında mayın 15-də keçirilən imtahanların nəticələri elan olunub.

♦ 1 iyunda Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar DİM-də təşkil edilən "Açıq qapı" gününə Mərkəzin əməkdaşlarının 9-16 yaş aralığında olan övladları dəvət edilib. Tədbir zamanı uşaqlar DİM-də yaradılmış və ölkəmizin milli qiymətləndirmə sisteminin tarixini əks etdirən muzeylə tanış olublar.

♦ 1 iyunda rus dili fənni üzrə buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun ikinci mərhələsinin (praktik) birinci məşğələsi keçirilib.

♦ 2 iyunda "5 – 6 yaşlı uşaqların psixoloji diaqnostikası və inkişafı" adlı metodiki vəsait nəşr edilib. Metodiki vəsait 5 – 6 yaşlı uşaqların ibtidai təhsilə psixoloji hazırlıq səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi məqsədilə nəşr edilib.

♦ 2 iyunda xüsusi qabiliyyət imtahanlarında iştirak edən imtahan rəhbərləri üçün təlim keçirilib. Təlimdə iştirakçılara istiqamətlər üzrə xüsusi qabiliyyət imtahanlarının xüsusiyyətləri, imtahan binasında rəhbərlərin yerinə yetirdikləri vəzifələr, abituriyentin davranış qaydaları və s. barədə təqdimat nümayiş etdirilib. Bununla yanaşı, təlimdə iştirakçıların sualları cavablandırılıb, imtahan zamanı yarana biləcək konkret situasiyalara uyğun tövsiyələr verilib.

♦ 2 iyunda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 2 iyunda biologiya və tarix fənləri, 3 iyunda isə coğrafiya fənni üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ İyunun 3-dən 6-dək ali təhsil müəssisələrinin magistraturalarının jurnalistika üzrə ixtisaslaşmalarına qəbul üçün keçirilən qabiliyyət imtahanında iştirak etmək istəyən namizədlərin qeydiyyatı aparılıb.

♦ 3 iyunda "Magistr" jurnalının 3-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" təqdim olunub.

♦ 3 iyunda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 3 iyunda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat, dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov və Müsahibələrin təşkili şöbəsinin aparıcı məsləhətçisi Kamran Səfərov tərəfindən "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Maliyyə Nazirliyinin əməkdaşları iştirak ediblər.

♦ 4 iyunda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 20 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ 4 iyunda I ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda 90 imtahan binası, 1603 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 90 ümumi imtahan rəhbəri, 265 imtahan rəhbəri, 2007 nəzarətçi-müəllim, 247 buraxılış rejimi əməkdaşı, 90 bina nümayəndəsi ayrılıb.

♦ 5 iyunda I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda 70 imtahan binası, 1262 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 70 ümumi imtahan rəhbəri, 211 imtahan rəhbəri, 1557 nəzarətçi–müəllim, 188 buraxılış rejimi əməkdaşı, 70 bina nümayəndəsi ayrılıb.

♦ 6 iyunda DİM-in informatika fənni üzrə işçi qrupunun üzvləri ilə Azərbaycan Texniki Universitetinin İKT yönlü fakültələrinin əməkdaşları arasında görüş keçirilib. Görüşdə 2023-cü ildə I ixtisas qrupu üzrə ali təhsil müəssisələrinin İKT istiqamətli ixtisaslarına keçiriləcək qəbul imtahanı üçün proqram, imtahan modeli, həmçinin abituriyentlərə metodik kömək göstərmək məqsədilə hazırlanan vəsait və s. müzakirə olunub.

♦ 6 iyunda ingilis dili fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib.

♦ 6 – 7 iyunda Azərbaycan dili, ingilis dili və kimya fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 7 iyunda II və III ixtisas qrupları üzrə 21 – 22 may 2022-ci il tarixlərində keçirilən qəbul imtahanlarının nəticələri elan edilib.

♦ 7 iyunda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün mayın 29-da keçirilən imtahanın II mərhələsinin nəticələri elan olunub

♦ 7 iyunda kimya fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib.

♦ 8 iyunda fizika və ədəbiyyat (rus bölməsi) fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 8 iyunda Dövlət İmtahan Mərkəzi ilə Hakimlərin Seçki Komitəsi tərəfindən hakim vəzifəsinə qəbul olmaq istəyən namizədlərlə test imtahanı keçirilib. İmtahanda 182 nəfər iştirak edib. 109 nəfər 60 və daha yüksək bal toplamaqla müsabiqə şərtini ödəyərək növbəti mərhələyə buraxılıb.

♦ 8 iyunda fizika və rus dili fənləri üzrə buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun ikinci mərhələsinin (praktik) ikinci məşğələləri keçirilib.

♦ 8 – 10 iyun tarixlərində Regional Xab və Qazaxıstan İnsan Resursları Menecerləri Assosasiyasının birgə təşkilatçılığı ilə Qazaxıstanın Türküstan şəhərində özəl və dövlət sektoru təşkilatlarının səmərəliliyinin artırılmasında insan resurslarının idarə edilməsinin rolu və əhəmiyyəti ilə bağlı "İnsan Kapitalı Forum"u keçirilib. DİM-in nümayəndələri "İnsan Kapitalı Forum"u və Nazarbayev Universitetinin Dövlət Siyasəti üzrə Ali Məktəbinin konfransında iştirak ediblər. DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov Azərbaycanın dövlət qulluğu sistemində insan kapitalının rolu barədə tədbir iştirakçılarına məlumat verib.

♦ 9 iyunda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 9 iyunda Dövlət İmtahan Mərkəzi və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin rəhbər şəxsləri arasında keçirilən görüşdə Anlaşma Memorandumu imzalanıb.

♦ 9 iyunda biologiya və tarix fənləri, 10 iyunda isə coğrafiya fənni üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ İyunun 9-dan 11-dək jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahanı keçirilib.

♦ 10 iyunda Dövlət İmtahan Mərkəzi "Abituriyent" jurnalının 2021/2022-ci tədris ili üçün tələbə qəbulunun nəticələrinin elmi-statistik təhlilin də dərc olunduğu 12-ci nömrəsinin təqdimatı keçirilib.

♦ 10 iyunda Dövlət İmtahan Mərkəzi və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki "Təhsil Tələbə Krediti Fondu" arasında Anlaşma Memorandumu imzalanıb.

♦ 10 iyunda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 12 iyunda hər hansı səbəbdən buraxılış imtahanı çərçivəsində ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə 2022-ci il mayın 8-də keçirilən Azərbaycan dili imtahanında iştirak etməyən cari ilin məzunları və həmin imtahanda iştirak edib "qeyri-məqbul" qiymət alan cari və əvvəlki illərin abituriyentləri üçün "Azərbaycan dili" fənnindən ikinci test imtahanı keçirilib.

♦ 12 iyunda doktorantura və dissertanturaya xarici dildən qəbul imtahanı və fəlsəfə doktoru imtahanları keçirilib.

♦ 13 iyunda 8 dövlət orqanında inzibati vəzifələrin 2-4-cü təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elanı verilib.

♦ 10 və 13 iyunda DİM-də ali təhsil müəssisələrinin magistraturalarının ixtisas seçiminə buraxılan bakalavrlar haqqında tam olmayan təhsil məlumatlarının "Tələbə-məzun" bazasına daxil edilməsi məqsədilə ali məktəb nümayəndələri üçün təlim keçirilib.

♦ 13 iyunda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 13 iyunda DİM-də bədən tərbiyəsi və idman istiqamətləri üzrə qabiliyyət imtahanları ilə bağlı təlim keçirilib.

♦ 13 – 14 iyun tarixlərində ingilis dili və kimya fənləri üzrə hazırlıq kurslarının sonuncu məşğələləri keçirilib.

♦ 14 iyunda Azərbaycan Respublikasının Rəqəmsal İnkisaf və Nəqliyyat Nazirliyinin əməkdaşları üçün "Liderlik və idarəetmənin əsasları" mövzusunda təlim keçirilib.

♦ 14 iyunda DİM-in əməkdaşı Azərbaycan Respublikası və Birləşmiş Krallığın Hökumətlərarası Əməkdaşlıq Komissiyasının Londonda keçirilmiş 5-ci iclasında iştirak edib. İclasda tərəflər arasında təhsildə qiymətləndirmə, dövlət qulluğu və maliyyə sahəsində sertifikasiya üzrə əməkdaşlıq imkanlarının yaradılması ilə bağlı razılıq əldə olunub.

♦ 15 iyunda də DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 17 nəfər iştirak edib.

♦ 16 iyunda biologiya və tarix fənləri üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun üçüncü mərhələsinin (praktik) yekun məşğələləri keçirilib.

♦ 16 iyunda biologiya və tarix fənləri üzrə işçi qruplarının növbəti iclası keçirilib.

♦ 17 iyunda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının növbəti iclası keçirilib.

♦ 17 iyunda coğrafiya fənni üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun üçüncü mərhələsinin (praktik) yekun məşğələsi keçirilib.

♦ 17 iyunda I və IV ixtisas qrupları üzrə 4-5 iyun tarixlərində keçirilən qəbul imtahanlarının nəticələri elan edilib.

♦ 17 iyunda Dövlət İmtahan Mərkəzi tərəfindən rezidenturaya qəbul imtahanının birinci mərhələsi (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı, ikinci cəhd) keçirilib.

♦ 19 iyunda dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələrə qəbul üzrə test imtahanı, inzibati rəhbər vəzifələrə aid olan AC və inzibati icraçı vəzifələrə aid olan BA, BB vəzifə qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi imtahanı keçirilib.

♦ 16 – 19 iyun tarixlərində dil bilikləri üzrə Ümumavropa çərçivə sənədinin (CEFR) tələblərinə uyğun olaraq doktoranturaya və dissertanturaya xarici dil üzrə qəbul və fəlsəfə doktoru imtahanları, habelə əcnəbi vətandaşların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının danışıq bloku üzrə imtahanı keçirilib.

♦ 20 iyunda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının növbəti iclasları keçirilib.

♦ 20 iyunda Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə iyunun 12-də keçirilən test imtahanının nəticələri elan olunub.

♦ 20 iyunda dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə iyunun 19-da keçirilən imtahanların nəticələri elan olunub.

♦21 iyunda DİM-də Azərbaycana səfər edən ACCA-in (İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası) Türkiyə Regional Mərkəzinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə tərəflər gələcək əməkdaşlıq perspektivləri, Peşəkar Mühasib Sertifikatı (PMS) imtahanlarının təkmilləşdirilməsi istiqamətində ortaq layihələrin həyata keçirilməsi, PMS sahibi olan şəxslərin ACCA-in müvafiq modullarından azad olması mexanizmləri, maliyyə və mühasibatlıq sahəsinə dair peşəkar inkişaf proqramlarının hazırlaması kimi məsələləri müzakirə ediblər.

♦ 21 iyunda rezidenturaya qəbul olmaq üçün 19 iyun 2022-ci il tarixində keçirilmiş baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının ikinci cəhdinin nəticələri elan edilib.

♦ 22 iyunda DİM və UNEC, AzTU, BMU, MDU, ADAU və Xəzər Universiteti arasında Anlaşma Memorandumları imzalanıb.

♦ 22 iyunda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının növbəti iclası keçirilib.

♦ 22 iyun fizika və rus dili (tədris dili) fənləri üzrə buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun üçüncü mərhələsinin (praktik) yekun məşğələsi keçirilib.

♦23 iyun tarixindən musiqi sənəti üzrə xüsusi qabiliyyət imtahanlarında fərdi konsertmeyster kimi iştirak edən musiqiçilərin qeydiyyatı başlayıb.

♦ 23 iyunda "İnformatika" vəsaiti nəşr olunub. Vəsaitdə qəbul proqramına daxil edilmiş bütün mövzular əhatə olunub. Burada nəzəri materialla bərabər, hər mövzunun sonunda müstəqil qiymətləndirmə tapşırıqları və bölmənin sonunda isə ümumi yekunlaşdırıcı tapşırıqlar verilib.

♦ İyunun 24-dən iyulun 22-dək dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib.

♦ 24 iyunda Şərq Tərəfdaşlığı (ŞT) Regional İdarəçilik İslahatı Fondu və GIZ (Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı) Regional Fondunun birgə təşkilatçılığı ilə ŞT ölkələrinin iştirakı ilə Dövlət İdarəçilik İslahatı üzrə II "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi" (PTT) layihəsi ilə bağlı onlayn dəyirmi masa keçirilib.

♦ 25 iyunda "Magistr" jurnalının 4-cü nömrəsi nəşr edilib. Bu nömrədə 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA-nın) magistraturalarına qəbul üçün ixtisaslaşma seçimi haqqında elan dərc edilib.

♦ 25 iyunda DİM-də GRE imtahanı keçirilib. İmtahanda 4 nəfər iştirak edib.

♦ 25 iyunda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 19 nəfər iştirak edib.

♦ 28 iyunda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsinə ümumi baxış " mövzusunda təlim keçirilib.

♦ 28 iyunda hakimliyə namizədlərlə yazılı imtahan keçirilib. Yazılı imtahanda test mərhələsindən 60 və daha artıq bal toplamış 46 namizəd iştirak edib.

♦ İyunun 29-dan iyulun 5-dək ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq üçün ixtisaslaşma seçimi aparılıb.

♦ 29 iyunda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsinə ümumi baxış " mövzusunda təlim keçirilib.

♦ 30 iyunda 11 dövlət orqanında inzibati vəzifələrin 2-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elanı verilib.

♦ 30 iyunda GRE General Test imtahanı keçirilib. İmtahanda 1 nəfər iştirak edib.

♦ 30 iyunda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları üçün "Liderlik və idarəetmənin əsasları" mövzusunda təlim keçirilib.

♦ 6 iyulda 12 şəhər və rayonda III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda 70 imtahan binası, 1242 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 70 ümumi imtahan rəhbəri, 206 imtahan rəhbəri, 1556 nəzarətçi–müəllim, 202 buraxılış rejimi əməkdaşı, 70 bina nümayəndəsi ayrılıb.

♦ 6 iyulda Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə "British Council" təşkilatının Azərbaycan üzrə rəhbəri Nərgiz Hacıyeva ilə görüşüb. Görüş zamanı tərəflər xarici dil, xüsusilə də ingilis dili imtahanlarının beynəlxalq standartlara uyğunlaşdırılması, müəllimlərin peşə hazırlığının dəstəklənməsi, xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul üzrə imtahanların təşkili prosesi və gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

♦ 7 iyulda II ixtisas qrupu (o cümlədən III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda 67 imtahan binası, 1177 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 67 ümumi imtahan rəhbəri, 195 imtahan rəhbəri, 1474 nəzarətçi–müəllim, 167 buraxılış rejimi əməkdaşı, 67 bina nümayəndəsi ayrılıb.

♦ 7 iyulda DİM Ədliyyə Nazirliyi ilə birlikdə ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahanda iştirak üçün namizədliyi qeydə alınmış 154 nəfərdən 13 nəfər imtahana gəlməyib. 55 və daha çox bal toplamış 70 namizəd müsabiqənin ikinci mərhələsinə – müsahibəyə buraxılıb.

♦ 7 iyulda Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşları üçün "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" mövzusunda təlim keçirilib.

♦ 8 iyulda ali təhsilin magistratura səviyyəsinə qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələri elan olunub. Müsabiqənin nəticələrinə əsasən, ixtisaslaşma seçimində iştirak edən 14293 bakalavrdan 11510 nəfəri ali təhsil müəssisələrinin magistraturalarına qəbul olunub.

♦ İyulun 8-dən 22-dək beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin sənəd qəbulu aparılıb.

♦ İyulun 8-dən avqustun 9-dək "Cambridge Assessment English"in rəsmi test mərkəzi kimi "Azyaşlı öyrənənlər" (Young Learners) üçün imtahana qeydiyyatı aparılıb.

♦ 9 iyulda Dövlət İmtahan Mərkəzi "Magistr" jurnalının 5-ci nömrəsini nəşr edib. Bu nömrədə 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul olanların siyahısı, ixtisaslaşmalar üzrə minimal keçid balları, o cümlədən dövlət sifarişi üzrə müsabiqə nəticəsində formalaşmış keçid balları və digər zəruri məlumatlar dərc olunub.

♦ 9 iyulda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 20 nəfər iştirak edib.

♦13 iyuldan etibarən 20 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vakant vəzifələrin tutulması üçün ümumi müsahibə elanı verilib.

♦ 14 iyulda Avropa İttifaqının (Aİ) maliyyələşdirdiyi və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin həyata keçirdiyi "Azərbaycanda dövlət qulluğu sistemində islahatlara dəstək" layihəsinin rəsmi açılış tədbiri keçirilib. Tədbirdə bir sıra dövlət və özəl qurumların rəhbər şəxsləri, Avropa İttifaqının Azərbaycan Respublikasındakı səfiri və nümayəndələri, həmçinin beynəlxalq ekspertlər daxil olmaqla, ümumilikdə 150-yə yaxın şəxs iştirak edib.

♦ 15 iyulda Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları üçün "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" mövzusunda təlim keçirilib.

♦ 15 iyulda doktorantura və dissertanturaya xarici dildən qəbul imtahanı və fəlsəfə doktoru imtahanlarının nəticələri elan olunub.

♦ 15 iyulda DİM-də ICDL (International Computer Driving Licence - Beynəlxalq Kompüter İşlətmə Lisenziyası) imtahanının Workforce proqramının "Cyber Security" üzrə imtahanı təşkil olunub. İmtahan 45 dəqiqə müddətində aparılıb və 4 nəfər iştirak edib.

♦ 17 iyulda uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə sınaq imtahanı keçirilib.

♦ 18 iyulda uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə iyulun 17-də keçirilən sınaq imtahanının nəticələri elan olunub. Sınaq imtahanında iştirak etmək üçün qeydiyyatdan keçmiş 349 nəfərdən 17-si imtahana gəlməyib.

♦ İyulun 21-dən avqustun 21-dək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin avqust ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 21 iyulda 16 şəhər və rayonda I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda 110 imtahan binası, 1921 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 110 ümumi imtahan rəhbəri, 310 imtahan rəhbəri, 2392 nəzarətçi–müəllim, 269 buraxılış rejimi əməkdaşı, 110 bina nümayəndəsi ayrılıb.

♦ 21 – 24 iyul tarixlərində islamşünaslıq ixtisasına qəbul olmaq üçün müsahibədə iştirak etmək istəyən abituriyentlərin Dini Psixoloji Komissiya üzrə qeydiyyatı aparılıb.

♦ 22 iyulda II və III ixtisas qrupları üzrə 6-7 iyul tarixlərində keçirilən qəbul imtahanlarının nəticələrini elan edilib.

♦ 23 – 26 iyul tarixlərində III ixtisas qrupu üzrə imtahan verən və "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.

♦ 23 iyulda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 20 nəfər iştirak edib.

♦ 23 iyulda "Cambridge Assessment English"in rəsmi test mərkəzi kimi "Azyaşlı öyrənənlər" (Young Learners) üçün imtahan keçirilib. İmtahanda 26 nəfər iştirak edib.

♦ 24 iyulda dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda 77 namizəd iştirak edib.

♦ 24 – 29 iyul tarixlərində Gürcüstanın Batumi şəhərində Şərq Tərəfdaşlığı Regional İdarəçilik İslahatı Fondu və GIZ (Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı) Regional Fondunun birgə təşkilatçılığı ilə ŞT ölkələrinin iştirakı ilə Dövlət İdarəçilik İslahatı üzrə II "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi (PTT)" layihəsinin növbəti təlimi baş tutub. Dövlət İmtahan Mərkəzinin Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn və Hüquqi təminat, dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov regional layihənin "ŞT ölkələrinin dövlət qulluğunda regional rəhbər qrupu üçün idarəetmə və liderlik" üzrə 3-cü təlim kursunda iştirak ediblər.

♦ 25 iyulda "Rezidentura" xüsusi buraxılışının 3-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində 2022/2023-cü tədris ili üçün rezidenturaya qəbul imtahanının ikinci mərhələsi və ixtisas seçimi haqqında elan, "Namizədin elektron ərizəsi"ndə ixtisasların seçimi və təsdiqi üçün təlimat, "Namizədin elektron ərizəsi"ndə ixtisas seçimi formasının nümunəsi, rezidenturaya qəbul aparılan ixtisaslar və onların plan yerləri dərc edilib.

♦ 28 – 29 iyul tarixlərində İstanbulda "Türk Dövlətləri Təşkilatı I İnsan Resursları Görüşü" keçirilib. Görüşdə DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə "Dövlət qulluğunda insan resurslarının idarə edilməsi" mövzusunda təqdimatla çıxış edib.

♦ 29 iyul – 3 avqust tarixlərində memarlıq ixtisasına qəbul olmaq istəyən abituriyentlərin/subbakalavrların qabiliyyət imtahanında iştirak etmək üçün qeydiyyatı aparılıb.

♦ 30 iyulda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 20 nəfər iştirak edib.

♦ 31 iyulda Dövlət İmtahan Mərkəzi Müdafiə Nazirliyinin hərbi liseylərinə qəbul imtahanı keçirib. İmtahan Bakı və Naxçıvan şəhərlərində ümumilikdə 7 binada təşkil olunub.

♦ İyulun 31-də 2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirilib. İmtahan Bakı şəhərində və DİM-in regional bölmələrinin yerləşdiyi Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz şəhərlərində təşkil olunub. İmtahanın keçirilməsinə 10 imtahan binası, 52 zal, 14 imtahan rəhbəri, 65 nəzarətçi-müəllim cəlb olunub.

♦ 31 iyulda Dövlət Miqrasiya Xidməti ilə birlikdə Azərbaycan Respublikasının miqrasiya orqanlarına qulluğa qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib.

♦ 1 avqustda miqrasiya orqanlarına qəbul imtahanının nəticələri elan edilib. İmtahanda iştirak etmək üçün namizədliyi qeydə alınan 357 nəfərdən 23-ü imtahana gəlməyib. İmtahan nəticələrinə əsasən 125 nəfər müsabiqə şərtini ödəyərək növbəti mərhələdə iştirak etmək hüququ qazanıb.

♦ 2 avqustda Dövlət İmtahan Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəhbərliyi arasında görüş keçirilib. Görüşdə DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, DİA-nın rektoru Urxan Ələkbərov, DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov və digər əməkdaşları iştirak ediblər. Görüşdə ali təhsil müəssisələrinə tələbə qəbulunun göstəriciləri və Dövlət Qulluqçuları Reyestrinin aparılması mövzusunda təqdimatlar nümayiş etdirilib.

♦ 3 avqustda hərbi liseylərə qəbul imtahanının nəticələri elan edilib.

♦ Avqustun 3-də DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 7 nəfər iştirak edib.

♦ 3 avqustda I və IV ixtisas qrupları üzrə 21 iyulda keçirilən qəbul imtahanlarının nəticələri elan edilib.

♦ 4 avqustda DİM "Abituriyent" jurnalının 3-cü nömrəsini və "Ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 2021-ci ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları"nı nəşr etdirib.

♦ 4 avqustda jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün keçirilmiş qabiliyyət imtahanının nəticələri açıqlanıb. İmtahanda iştirak etmək hüququ qazanmış 703 abituriyentdən 135 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən abituriyentlərdən 532 nəfər "məqbul" qiymət alıb.

♦ 4 avqustdan 1 sentyabradək dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanında iştirak etmək istəyən dövlət qulluqçularının qeydiyyatı aparılıb.

♦ 5 avqustda "Magistr" jurnalı 6-cı nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində 2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarının boş qalan yerlərinə qəbul haqqında elan, müsabiqə şərtləri, "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"ndə ixtisaslaşmaların seçilməsi və təsdiqi üçün təlimat, "Bakalavrın elektron ərizəsi"ndə ixtisaslaşma seçimi formasının nümunəsi, ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerləri olan ixtisaslaşmalarının siyahısı, magistratura səviyyəsinə dövlət sifarişi ilə qəbulun proqnozu və digər zəruri məlumatlar təqdim olunub.

♦ 6 avqustda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 8 nəfər iştirak edib.

♦ 7 avqustda uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə test imtahanı keçirilib. İmtahan Bakı şəhərində kağız daşıyıcılar vasitəsilə 8 binada təşkil olunub. İmtahanda iştirak etmək üçün 1992 namizəd qeydiyyatdan keçmişdi. İmtahanının keçirilməsi üçün 8 ümumi imtahan rəhbəri, 24 imtahan rəhbəri, 180 nəzarətçi-müəllim, 24 buraxılış rejimi əməkdaşı ayrılıb.

♦ Avqustun 8-dən 14-dək ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA-nın) magistraturalarının boş qalan yerlərinə qəbul olmaq üçün ixtisaslaşma seçimi aparılıb.

♦ Avqustun 8-dən 17-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbul olmaq üçün ixtisas seçimi aparılıb.

♦ 8 avqustda uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə test imtahanının nəticələri elan olunub. İmtahanda iştirakı nəzərdə tutulan 1992 nəfərdən 283 nəfər imtahana gəlməyib.

♦ 8 avqustda "Abituriyent" jurnalının 4-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, ali təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar, dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çap edilib.

♦ Avqustun 10-dan 13-dək Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə əlavə kursant qəbulu elan edilib.

♦ 10 avqustda II və III ixtisas qrupu abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçalar nəşr olunub.

♦ 10 avqustda orta ixtisas təhsili pilləsi üzrə "Subbakalavr" peşə-ixtisas dərəcəsi almış və ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq istəyən şəxslər üçün "Abituriyent" jurnalının xüsusi buraxılışı nəşr edilib.

♦ Avqustun 10-dan 24-dək DİM ETS Global təşkilatı ilə əməkdaşlıq çərçivəsində "GRE Ümumi test imtahanları" barədə məlumat sessiyasına qeydiyyat elan edib.

♦ 11 avqustda Dövlət İmtahan Mərkəzi rezidenturaya hazırlaşanlara kömək məqsədilə "Patologiya (Patoloji anatomiya)" adlı vəsait nəşr etdirib.

♦ Avqustun 11-dən sentyabrın 9-dək inzibati dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə test imtahanına qeydiyyat aparılıb.

♦ 11 avqustda DİM-də ТРКИ (Тест по русскому языку как иностранному) imtahanı təşkil edilib. 1 namizəd Xarici dillər üzrə Ümumavropa tövsiyə çərçivə sənədinin (CEFR) səviyyələri əsasında hazırlanmış ТРКИ imtahanının ən yuxarı səviyyəsi – C2 üzrə imtahan verib. Dördüncü sertifikat səviyyəsini (ТРКИ-IV / C2) seçmiş namizəd üçün imtahan kompüter vasitəsilə keçirilib.

♦ Avqustun 12-dən sentyabrın 15-dək Dövlət İmtahan Mərkəzi TKT (Teaching Knowledge Test) imtahanlarına qeydiyyat elan edib.

♦ 15 avqustda I və IV ixtisas qrupunda müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlər üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçalar nəşr edilib.

♦ 15 avqustda ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarının boş qalan plan yerlərinə keçirilən müsabiqənin nəticələri elan olunub.

♦ 15 avqustda Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən "Abituriyent Məsləhət Mərkəzləri"nin işçiləri üçün ali təhsil müəsssiələrinə ixtisas seçiminin başlanması ilə əlaqədar növbəti onlayn təlim keçirilib. Təlim zamanı iştirakçılara ixtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər haqqında məlumat verilib. Abituriyentlərin imtahan ballarının paylanması, qəbul planı, müsabiqə şərtləri nəzərə alınaraq ixtisas qrupları üzrə ümumi vəziyyət təhlil edilib.

♦ Avqustun 16-dan 28-dək ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün abituriyentlərin (subbakalavrların) ixtisas seçimi aparılıb.

♦ 16 avqustda "Magistr" jurnalının 7-ci nömrəsi nəşr edilib. Bu nömrədə 2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerlərinə qəbulun nəticələri dərc olunub. Jurnalda həmçinin ixtisaslaşmalar üzrə minimal keçid balları və dövlət sifarişli yerlər üzrə müsabiqə nəticəsində alınmış keçid balları təqdim olunub.

♦ 16 avqustda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçiminin başlanması ilə əlaqədar mətbuat konfransı keçirib. Mətbuat konfransında "Abituriyent Məsləhət Mərkəzləri", abituriyentlərin ixtisas seçimi zamanı diqqət yetirməli olduğu məsələlər, ixtisas qrupları üzrə plan yerləri və s. məsələlər haqqında məlumat verilib.

♦ 16-23 avqust tarixlərində Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi tibb ixtisası üzrə əlavə sənəd qəbulu aparılıb.

♦ Avqustun 16-da GRE General Test imtahanı keçirilib. İmtahanda 2 nəfər iştirak edib.

♦ Peşəkar mühasib sertifikatı almaq istəyən namizədlərin imtahanda iştirak etmək üçün növbəti qeydiyyatı 1-ci mərhələ üzrə 17 avqust–15 sentyabr, 2-ci mərhələ üzrə 23 avqust–29 sentyabr tarixlərində aparılıb.

♦ 17 avqustda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 20 nəfər iştirak edib.

♦ 18 avqustda ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan edilib.

♦ 18 avqustda Dövlət İmtahan Mərkəzinin əməkdaşları ali təhsil müəssisələrində fəaliyyət göstərən "Abituriyent Məsləhət Mərkəzləri"ndə olublar. DİM nümayəndələri mərkəzlərdə olan cari vəziyyətlə tanış olub, məsləhət və ixtisas seçimi üçün müraciət etmiş abituriyentlərə kömək göstərilməsi prosesini izləyib və öz tövsiyələrini veriblər.

♦ 19 avqustda V ixtisas qrupu abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabça təqdim olunub.

♦ 19 avqustda "Abituriyent" jurnalının xüsusi buraxılışı nəşr edilib. Bu nömrədə ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı, qəbul olduqları ixtisasların kodları, ixtisaslar üzrə formalaşmış keçid balları və digər zəruri məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ 19 – 24 avqust tarixlərində Naxçıvan Dövlət Universitetinin "Hərbi Tibb" ixtisasına qəbul üzrə əlavə sənəd qəbulu aparılıb.

♦ Avqustun 22-dən 26-dək 1 nömrəli Bakı Tibb Kollecində təhsil almaq istəyən 1-ci və 2-ci dərəcəli gözdən əlil abituriyentlərin sənəd qəbulu aparılıb.

♦ 22 avqustda inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün avqustun 21-də keçirilən test imtahanının nəticələri elan olunub.

♦ 23 avqustda rezidenturaya qəbul imtahanının II mərhələsinin nəticələri elan olunub.

♦ 23 avqustda "İnsan resurslarının idarə edilməsinə ümumi baxış" mövzusunda növbəti təlim təşkil olunub. Təlimdə Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları iştirak ediblər.

♦ 24 avqustda dövlət orqanlarında vakant inzibati vəzifələrin tutulması üçün daxili müsahibə elan edilib.

♦ 24 avqustda Dövlət İmtahan Mərkəzi və Qazaxıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəhbərliyi arasında görüş keçirilib. Görüşdə Dövlət Qulluqçuları Reyestrinin aparılması mövzusunda təqdimatlar nümayiş etdirilib.

♦ Avqustun 25-dən 30-dək rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi aparılıb.

♦ 25 avqustda GRE General Test imtahanı keçirilib. İmtahanda 2 nəfər iştirak edib.

♦ Avqustun 26-dan oktyabrın 12-dək Dövlət İmtahan Mərkəzi "Cambridge Assessment English"in rəsmi test mərkəzi kimi "Azyaşlı öyrənənlər" (Young Learners) üçün imtahana qeydiyyat elan edib.

♦ 26 avqustda "Make Your Application Stand out with the GRE® General Test" adlı məlumat sessiyası keçirilib. Sessiyanın spikeri ETS Global təşkilatının nümayəndəsi Maria Kirilova sessiya ərzində "GRE Ümumi test"inin məzmunu, qeydiyyat və imtahan mərkəzləri, hazırlaşmağa kömək edən vasitələr və ödənişsiz hazırlıq materialları mövzularında iştirakçıları məlumatlandırıb.

♦ 27 avqustda DİM-də SAT imtahanı keçirilib. İmtahanda 105 nəfər iştirak edib.

♦ 30 avqustda "Abituriyent" jurnalının 5-ci nömrəsi və və "Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 2021-ci ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları" nəşr edilib.

♦ 30 avqustda GRE General Test imtahanı keçirilib. İmtahanda 5 nəfər iştirak edib.

♦ 31 avqustda 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan edilib.

♦ 1 sentyabrda "Abituriyent" jurnalının 6-cı nömrəsi nəşr edilib. Bu nömrədə 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı qruplar üzrə çap olunub.

♦ 1 sentyabrda DİM və "LANDAU School" Tədris Kompleksi arasında Anlaşma Memorandumunun imzalanmasına həsr olunan tədbir keçirilib.

♦ 1 sentyabrda 2022/2023-cü tədris ili üçün əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub. Qəbul imtahanının nəticələrinə əsasən müsabiqədə iştirak edən 548 namizəddən (hərbi tibb fakültəsini bitirmiş namizədlər istisna olmaqla) 437 nəfər təhsilini rezidenturada davam etdirmək hüququ qazanıb.

♦ 1 sentyabrda "Abituriyent" jurnalının 7-ci nömrəsi nəşr edilib. Bu nömrədə 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, ali təhsil müəssisələrinin boş qalan yerləri olan ixtisaslar, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu və digər zəruri məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ 2 sentyabrda "Rezidentura" xüsusi buraxılışının 4-cü nömrəsi nəşr edilib. Bu nömrədə 2022/2023-cü tədris ili üçün rezidenturaya qəbul olanların siyahısı, müsabiqə nəticələrinə görə alınmış keçid balları və digər zəruri məlumatlar təqdim olunub.

♦ Sentyabrın 2-dən 7-dək ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul olmaq istəyən abituriyentlərin ixtisas seçimi aparılıb.

♦ 4 sentyabrda 2022-ci ildə keçirilmiş buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən 9-cu və 11-ci sinif şagirdləri, o cümlədən eksternat qaydasında imtahan verənlər üçün əlavə imtahan keçirilib.

♦ 6 sentyabrda DİM-də GRE beynəlxalq imtahanı keçirilib. İmtahanda 3 nəfər iştirak edib.

♦ 6 sentyabrdan 5 oktyabradək dövlət qulluğunun A və B növünə aid vakant inzibati vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ 7 sentyabrda "Abituriyent" jurnalının 8-ci nömrəsi nəşr edilib.

♦ Sentyabrın 7-dən 11-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerləri üzrə ixtisas seçimi aparılıb.

♦ Sentyabrın 7-də DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 18 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ 5 – 7 sentyabr tarixlərində DİM-in əməkdaşı "Davamlı inkişaf naminə qabaqcıl İKT istiqamətləri" adlı regional təlim proqramında iştirak edib. Regional təlim proqramı Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İnformasiya və Kommunikasiya Texnologiyalarının İnkişafı Təlim Mərkəzi tərəfindən Koreya Respublikasında keçirilib.

♦ 8 sentyabrda GRE General Test imtahanı keçirilib. İmtahanda 5 nəfər iştirak edib.

♦ 8 sentyabrda ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri elan olunub.

♦ 9 sentyabrda "Abituriyent" jurnalının 9-cu və 10-cu nömrələri nəşr edilib.

♦ 9 sentyabrda sentyabrın 4-də keçirilən 9-cu və 11-ci sinif şagirdləri üçün buraxılış imtahanı və Azərbaycan dili (dövlət dili kimi) imtahanının nəticələri elan olunub.

♦ 9 sentyabrda DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov onlayn formada müxtəlif rayon və şəhərlərdə məskunlaşan vətəndaşları qəbul edib. Görüşdə əsasən dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və digər məsələlərlə əlaqədar vətəndaşlar tərəfindən müraciətlər edilib.

♦ 10 sentyabrda Dövlət İmtahan Mərkəzində Kembric ingilis dili üzrə "Young Learners" imtahanının iştirakçılarına beynəlxalq sertifikatların təqdim edilməsi mərasimi keçirilib. Tədbirdə 2 iyul 2022-ci il tarixində keçirilmiş "Young Learners" imtahanının 10 azyaşlı iştirakçısı və onların valideynləri iştirak ediblər.

♦ 11 sentyabrda inzibati rəhbər vəzifələrə aid olan AB, AC və inzibati icraçı vəzifələrə aid olan BA, BB vəzifə qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanı keçirilib. Bu imtahanda 107 namizəd iştirak edib. 71 namizəd tələb olunan şərtləri ödəyərək uğur qazanıb.

♦ 11 sentyabrda dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda 69 namizəd iştirak edib. 32 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 12 sentyabrda ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub.

♦ 12 sentyabrda dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi (BB altqrupu) üzrə sentyabrın 11-də keçirilən imtahanın nəticələri elan olunub.

♦ 13 sentyabrda "Abituriyent" jurnalının xüsusi buraxılışında 9 illik təhsil bazasında kolleclərin boş qalan yerlərinə qəbul olmuş abituriyentlərin siyahısı, ixtisaslar üzrə minimal keçid balları nəşr olunub.

♦ 13 sentyabrda DİM-də Kral Cərrahlar Kollecinin kolleclərarası üzvlük imtahanı keçirilib. İmtahanda 2 əcnəbi olmaqla 3 nəfər iştirak edib.

♦ 15 sentyabrda Dövlət İmtahan Mərkəzində hakimliyə namizədlərlə yazılı imtahan keçirilib. Yazılı imtahanda test mərhələsindən 60 və daha artıq bal toplamış 107 namizəd iştirak edib.

♦ 15 sentyabrda DİM-in inzibati binasında 78 nəfərin iştirak etdiyi "EY və ACCA ilə yeni üfüqlərə doğru'' adlı ödənişsiz seminar təşkil olunub.

♦ 16 sentyabrdan 6 oktyabradək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin oktyabr ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 16 sentyabrda Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" mövzusunda təlim keçirilib.

♦ 16 sentyabrda Dövlət İmtahan Mərkəzi "Cambridge University Press & Assessment English" ilə birgə ingilis dili üzrə kvalifikasiyalar barədə vebinar keçirib. İngilis dilində keçirilən vebinarda 31 nəfər iştirak edib.

♦ 17 sentyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 19 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ 17 sentyabrda Dövlət İmtahan Mərkəzində Kembric ingilis dili üzrə "Young Learners" imtahanının iştirakçılarına beynəlxalq sertifikatların təqdimolunma mərasimi keçirilib. Tədbirdə 17 nəfər azyaşlı və onların valideynləri iştirak ediblər.

♦ 19 sentyabrda musiqi sənəti istiqaməti üzrə ali təhsil müəssisələrinin mütəxəssisləri ilə görüş keçirilib. Görüşdə 2023/2024-cü tədris ili üçün musiqi sənəti istiqaməti üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanları haqda müzakirələr aparılıb.

♦ 20 – 28 sentyabr tarixlərində DİM və "Cambridge University Press & Assessment" ingilis dili üzrə TKT imtahanları barədə vebinara qeydiyyat elan edib.

♦ Sentyabrın 20-dən oktyabrın 31-dək İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən sənədləri qəbul edilmiş namizədlərin test imtahanına qeydiyyatı aparılıb.

♦ 21 – 26 sentyabr tarixlərində rezidenturaya boş qalan plan yerlərinə, eləcə də Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsi üçün nəzərdə tutulmuş plan yerlərinə qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub.

♦ 21 sentyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 4 nəfər iştirak edib.

♦ 21 sentyabrda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əməkdaşlarının müşayiət etdiyi Efiopiya Federativ Demokratik Respublikasının Dövlət Qulluğu Komissiyasının nümayəndə heyətini qəbul edib.

♦ 22 sentyabrda DİM-in "İNFORMATİKA" vəsaitinin təkmilləşdirilmiş II nəşri çap edilib.

♦ 22 sentyabrda Ukraynanın Dövlət Qulluğu üzrə Milli Agentliyi tərəfindən onlayn formada "Rişelye forumu 2022: dövlət qulluğunda yeni modelin arxitekturası" adlı tədbir təşkil edilib. Forumda Azərbaycan, Ukrayna, Latviya, Xorvatiya, Litva, Polşa, İsveçrə və bir sıra digər ölkələrdən nümayəndələr çıxış edərək öz ölkələrinin təcrübələrini paylaşıblar.

♦ 23 sentyabrda Azərbaycan Respublikasının Energetika Nazirliyinin 29 əməkdaşı üçün "İnsan resurslarının idarə edilməsinə ümumi baxış " mövzusunda təlim keçirilib.

♦ 23 sentyabrda bəzi dövlət orqanlarının əməkdaşları üçün "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" mövzusunda təlim keçirilib.

♦ 24 sentyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 3 nəfər iştirak edib.

♦ 25 sentyabrda peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi (mühasibat uçotu üzrə) keçirilib. İmtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 3 binada təşkil olunub. İmtahanının keçirilməsi üçün 3 ümumi imtahan rəhbəri, 9 imtahan rəhbəri, 64 nəzarətçi-müəllim, 8 buraxılış rejimi əməkdaşı cəlb olunub.

♦26 sentyabrda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat və dövlət qulluğu məsələləri şöbəsinin müdiri Vüqar Əsgərov tərəfindən "Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının praktiki tətbiqi məsələləri" mövzusunda təlim təşkil edilib. Təlimdə Baş Prokurorluğun 15 əməkdaşı iştirak edib.

♦ 27 sentyabrda DİM-də Anım Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə torpaqlarımızın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi yad edilib.

♦ Sentyabrın 28-dən oktyabrın 2-dək tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə ixtisas seçimi aparılıb.

♦ 26 sentyabrda "Abituriyent" jurnalının 11-ci nömrəsi nəşr edilib. Bu nömrədə 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, qəbul aparılan ixtisasların siyahısı, plan yerləri haqqında məlumatlar Azərbaycan və rus dillərində dərc olunub.

♦ 28 sentyabrda DİM-in rəhbərliyi və Qazaxıstanın Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyinin (Agentlik, IAAR) layihə rəhbəri arasında görüş keçirilib.

♦ 28 sentyabrda Dövlət İmtahan Mərkəzinin Psixoloji qiymətləndirmə və diaqnostika şöbəsinin Psixoloji iş və maarifləndirmə sektorunun müdiri Xavər Dadaşova tərəfindən "Münaqişələrin idarə olunması" mövzusunda təlim təşkil edilib. Təlimdə Baş Prokurorluğun 12 əməkdaşı iştirak edib.

♦29 sentyabrda DİM-də GRE imtahanı təşkil olunub. İmtahanda 1 nəfər iştirak edib.

♦ 30 sentyabrda "Open new doors with your TKT certificate" adlı onlayn məlumat sessiyası keçirilib. Tədbirdə 50 nəfər iştirak edib.

♦ 1 oktyabrda DİM-də SAT imtahanı keçirilib. İmtahanda 6 əcnəbi olmaqla, ümumilikdə 110 nəfər iştirak edib.

♦ Oktyabrın 3-dən noyabrın 3-dək TKT (Teaching Knowledge Test) imtahanlarına qeydiyyat aparılıb.

♦ 3 oktyabrda tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbulun nəticələri elan olunub.

♦ 3 oktyabrda "Abituriyent" jurnalının xüsusi buraxılışı dərc edilib. Jurnalda tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə qəbul olmuş abituriyentlərin siyahısı, ixtisaslar üzrə minimal keçid balları və s. məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ 3 oktyabrda Dövlət İmtahan Mərkəzində Azərbaycan dili, ingilis dili, fransız dili və informatika fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 4 oktyabrda Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə işçi qrupunun iclası keçirilib.

♦ Oktyabın 5-dən dekabrın 2-dək zal nəzarətçisi sertifikatı almaq üçün nəzarətçilərin elektron qeydiyyatı aparılıb.

♦ 5 oktyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 11 nəfər iştirak edib.

♦ 5 oktyabrda fizika, rus dili (tədris dili) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 6 oktyabrda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat və dövlət qulluğu məsələləri şöbəsinin müdiri Vüqar Əsgərov "Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi" mövzusunda təlim təşkil edib. Təlimdə Baş Prokurorluğun 14 əməkdaşı iştirak edib.

♦ 6 oktyabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 6 oktyabr tarixində Azərbaycan Turizm və Menecment Universitetinin tələbələri üçün "Xarici dil üzrə qiymətləndirmə imtahanları - Kembric İngilis dili üzrə Kvalifikasiyalar" mövzusunda infosessiya təşkil olunub.

♦ 6 – 7 oktyabr tarixlərində Qazaxıstanın Almatı şəhərində Akreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin (IAAR) təşkilatçılığı ilə "Qlobal təhsil məkanında transmilli əməkdaşlıq" mövzusunda VI Mərkəzi Asiya Beynəlxalq Forumu keçirilib.

♦ 7 oktyabrda Dövlət İmtahan Mərkəzində coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦7 oktyabrda prokurorluq orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahanda iştirak etmiş 363 namizəddən 175 nəfər müsabiqə şərtini (70 və daha çox bal) ödəyərək növbəti mərhələyə buraxılıb.

♦ 9 oktyabrda peşəkar mühasib sertifikatı imtahanının II mərhələsi (qanunvericilik üzrə) keçirilib. İmtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 3 binada təşkil olunub. İmtahanın keçirilməsi üçün 3 ümumi imtahan rəhbəri, 7 imtahan rəhbəri, 53 nəzarətçi-müəllim, 7 buraxılış rejimi (mühafizə) əməkdaşı cəlb olunub.

♦ 10 oktyabrda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün imtahanın sentyabrın 25-də keçirilən I mərhələsinin nəticələri elan olunub.

♦10 oktyabrda Azərbaycan dili, Azərbaycan dili (dövlət dili), ingilis dili, fransız dili və informatika fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 10 oktyabrda İqtisadiyyat Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Audiovizual Şuranın əməkdaşları üçün təlim keçirilib.

♦ 11 oktyabrda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib.

♦ 12 oktyabr – 15 dekabr tarixlərində imtahan binalarına buraxılış rejimini həyata keçirən qadın əməkdaşların cəlb olunması məqsədilə namizədlərin elektron qeydiyyatı aparılıb.

♦ 12 oktyabrda Dövlət İmtahan Mərkəzində fizika, rus dili (tədris dili) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 13 oktyabrda "Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının praktiki tətbiqi məsələləri" mövzusunda təlim təşkil edilib. Təlimdə Qida Təhlükəsizliyi Agentliyinin 119 əməkdaşı iştirak edib.

♦ 13 oktyabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ Oktyabrın 13-dən noyabrın 2-dək dövlət qulluğu vəzifələrinin BB qrupu, noyabrın 10-dək isə AB, AC, BA qrupları üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə növbəti test imtahanına qeydiyyat aparılıb.

♦ 13 oktyabrdan 10 noyabradək dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat aparılıb.

♦ 14 oktyabrda Dövlət İmtahan Mərkəzinin Təlimlər üzrə sektorunun əməkdaşı Miranə Rüstəmli tərəfindən "İş yerində sosial münasibətlər və təşkilati mədəniyyət" mövzusunda təlim təşkil edilib. Təlimdə Dövlət Turizm Agentliyinin 20 əməkdaşı iştirak edib.

♦ 14 oktyabrda Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin əməkdaşları üçün "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" mövzusunda təlim keçirilib.

♦ 14 oktyabrda coğrafiya, alman dili və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 15 oktyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 4 nəfər iştirak edib.

♦ 15 oktyabrda Strateji inkişaf şöbəsinin əməkdaşları Təhsil və Peşə Mərkəzlərinin I Tanıtım Sərgisində iştirak ediblər.

♦ 16 oktyabrda dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələrə aid olan vəzifə qrupları üzrə test imtahanı keçirilib.

♦ 17 oktyabrda Dövlət İmtahan Mərkəzi və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Dövlət Qulluğuna Qəbul üzrə Hazırlıq Proqramı" çərçivəsində "Dövlət qulluğuna dair qanunvericilik" mövzusunda təlim kursu təşkil edilib.

♦ 17 oktyabrda inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün oktyabrın 16-da keçirilən test imtahanının nəticələri elan olunub.

♦ 17 oktyabrda Dövlət İmtahan Mərkəzində Azərbaycan dili, Azərbaycan dili (dövlət dili), ingilis dili, fransız dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 18 oktyabrda zal nəzarətçisi sertifikatı əldə etmək istəyən namizədlərlə müsahibə mərhələsinə başlanılıb.

♦ 18 oktyabrda Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə işçi qrupunun iclası keçirilib.

♦ 18 oktyabrda Dövlət İmtahan Mərkəzinin Müsahibələrin təşkili şöbəsinin müdiri Xədicə Əzimova və şöbənin digər əməkdaşlarının iştirakı ilə dövlət qulluğu üzrə müsahibələrdə müstəqil ekspert qismində iştirak edən şəxslərlə onlayn görüş təşkil edilib.

♦ 19 oktyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 9 nəfər iştirak edib.

♦ 19 oktyabrda "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası" mövzusunda təlim təşkil edilib. Təlimdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin 28 əməkdaşı iştirak edib.

♦ 19 oktyabrda fizika, rus dili (tədris dili) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 19 – 20 oktyabr tarixlərində Dövlət İmtahan Mərkəzində "Dəyər axını xəritəsinin yaradılması – prosesin təkmilləşdirilməsi" mövzusunda seminar təşkil olunub.

♦ 20 oktyabrda Dövlət İmtahan Mərkəzində biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 21 oktyabrda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib. Təlimdə Dövlət İmtahan Mərkəzinin əməkdaşları və müstəqil ekspertlər iştirak edib.

♦ 21 oktyabrda coğrafiya, alman dili və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 21 oktyabrda tədris mərkəzlərinə Kembric İngilis dili Kvalifikasiyaları üzrə rəsmi hazırlıq mərkəzi statusunun verilməsinə həsr olunmuş tədbir keçirilib.

♦ 21 oktyabrda Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" mövzusunda təlim keçirilib.

♦ 24 oktyabr tarixindən "Riyaziyyat və təbiət elmləri üzrə PISA yönümlü sualların yazılması istiqamətində ekspertlərin hazırlığı" layihəsi çərçivəsində təbiət elmləri üzrə təlimlərin keçirilməsinə başlanılıb.

♦ 24 oktyabrda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün oktyabrın 9-da keçirilən imtahanın II mərhələsinin nəticələri elan olunub.

♦ 24 oktyabrda DİM-in Strateji inkişaf şöbəsinin əməkdaşları "ADA" Universitetində "Enrich your study and work opportunities with Cambridge Qualifications" adlı ingilis dilində məlumat sessiyası keçiriblər.

♦ 24 – 28 oktyabr tarixlərində "Azərbaycanda dövlət qulluğu sistemində islahatlara dəstək" texniki yardım layihəsi çərçivəsində Belçika Krallığının paytaxtı Brüssel şəhərinə təlim səfəri təşkil edilib.

♦ 24 oktyabrda Azərbaycan dili, ingilis dili, fransız dili fənləri üzrə, sonrakı gün isə kimya fənni üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 25 oktyabrda peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi üzrə noyabrın 27-də keçiriləcək imtahana qeydiyyat elan edilib.

♦ 26 oktyabrda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyində inzibati vəzifələrin 3-4-cü təsnifatına uyğun olan dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər) aid 3 inzibati vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.

♦ 26 oktyabrda DİM rus bölməsi abituriyentləri üçün "İNFORMATİKA" vəsaitini çap edib.

♦ 26 oktyabrda fizika, rus dili (tədris dili) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 27 oktyabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 28 oktyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 29 oktyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 13 nəfər iştirak edib.

♦ 31 oktyabrda 2022/2023-cü tədris ilində ümumtəhsil müəssisələrində keçiriləcək buraxılış imtahanları və yekun attestasiya ilə əlaqədar görüləcək işlərlə bağlı Dövlət İmtahan Mərkəzinin yeni təqvim planı təsdiq edilib.

♦ 31 oktyabr – 1 noyabr tarixlərində ədəbiyyat, ingilis dili, fransız dili və kimya fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 31 oktyabrda Energetika Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi arasında mövcud əməkdaşlıq çərçivəsində "Münaqişələrin idarə edilməsi" mövzusunda təlim keçirilib.

♦ Noyabrın 2-dən 7-dək "Young Learners" (Azyaşlı öyrənənlər) kvalifikasiya imtahanlarına qeydiyyat aparılıb.

♦ 2 noyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 8 nəfər iştirak edib.

♦ 2 noyabrda fizika, rus dili (tədris dili) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 2 noyabrda Mədəniyyət Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi arasında mövcud əməkdaşlıq çərçivəsində "Münaqişələrin idarə edilməsi" mövzusunda təlim keçirilib.

♦ 3 noyabrda GRE General Test imtahanı keçirilib. İmtahanda 10 nəfər iştirak edib.

♦ 3 noyabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 3 noyabrda Mədəniyyət Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi arasında mövcud əməkdaşlıq çərçivəsində "Münaqişələrin idarə edilməsi" mövzusunda təlimin ikinci hissəsi təşkil olunub. Təlimə Mədəniyyət Nazirliyinin 14 əməkdaşı cəlb olunub.

♦ 3 noyabrda Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin 17 nəfər əməkdaşı üçün "İnsan resurslarının idarə edilməsinə ümumi baxış " mövzusunda təlim keçirilib.

♦ 4 noyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 4 noyabrda Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin 25 nəfər əməkdaşı üçün "Liderlik və idarəetmənin əsasları " mövzusunda təlim keçirilib.

♦ 5 noyabrda "Magistr" xüsusi buraxılışının 1-ci nömrəsi nəşr edilib. Jurnalda Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları, məntiqi təfəkkür, xarici dillər və informatika üzrə qəbul imtahanı proqramları, həmçinin məntiqi təfəkkürün yoxlanılması üzrə çoxseçimli və açıq tipli test tapşırığı nümunələri Azərbaycan və rus dillərində çap edilib.

♦ 5 noyabrda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" mövzusunda təlim keçirilib.

♦ 5 noyabrda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat və dövlət qulluğu məsələləri şöbəsinin müdir müavini Lalə Qədirova "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda təlim təşkil edib. Təlimdə Diasporla İş üzrə Dövlət Komitəsinin 31 əməkdaşı iştirak edib.

♦ 5 noyabrda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 5 noyabrda Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib.

♦ 5 noyabrda Dövlət İmtahan Mərkəzində Təhsildə Yeni Çağırışlar III Beynəlxalq Forumunun məruzəçiləri və təşkilatçıları ilə görüş keçirilib. Qonaqlar əvvəlcə ölkəmizin milli qiymətləndirmə sisteminin tarixini əks etdirən muzeylə olublar. Muzeydə iştirakçılara ölkəmizdə milli qiymətləndirmə sisteminin yaradıldığı dövrdən indiyə qədər görülmüş işlərə dair ətraflı məlumat verilib. Həmçinin Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul və buraxılış imtahanları ilə bağlı ölkə üzrə statistik məlumatları əks etdirən Azərbaycan Respublikasının elektron xəritəsi nümayiş etdirilib.

♦ 7 – 11 noyabr tarixlərində Koreya Respublikasının İnçxon şəhərində Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) Asiya və Sakit Okean üzrə İnformasiya və Kommunikasiya Texnologiyalarının İnkişafı Təlim Mərkəzinin (APCICT) və Koreya Respublikasının Elm və İKT Nazirliyinin birgə təşkilatçılığı ilə "Rəqəmsal Liderlər Proqramı"" adlı təlim proqramının təqdimatı keçirilib. Tədbirdə Dövlət İmtahan Mərkəzinin E-imtahanlar və müsahibələrin təşkili departamentinin baş məsləhətçisi Gülmirə İsayeva da iştirak edib.

♦ 10 noyabrda "Nəzarətçilərin elektron qeydiyyatı" sistemi ilə işləyəcək əlaqələndiricilər üçün treninq keçirilib. Treninqdə Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun, həmçinin qeyd olunan şəhərlərdə məskunlaşmış qaçqın və məcburi köçkün rayonlarının ümumi təhsil müəssisələrinin əlaqələndiriciləri və Dövlət İmtahan Mərkəzinin regional bölmə mərkəzlərinin məsul şəxsləri iştirak ediblər.

♦ 10 noyabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 8 – 10 noyabr tarixlərində Gürcüstanın paytaxtı Tbilisi şəhərində Şərq Tərəfdaşlığı Regional İdarəçilik İslahatı Fondu və GIZ (Almanya Beynəlxalq Əməkdaşlıq Təşkilatı) Regional Fondunun birgə təşkilatçılığı ilə "Peşəkar dövlət qulluğu və peşə təhsili və təlimi" layihəsi çərçivəsində "Dövlət qulluğunda vəzifələrin dəyişməsi – yeni reallıqlar, imkanlar və çağırışlar" mövzusunda dəyirmi masa keçirilib.

♦ 11 noyabrda "Riyaziyyat və təbiət elmləri üzrə PISA yönlü sualların yazılması istiqamətində ekspertlərin hazırlığı" layihəsi çərçivəsində keçirilən təlimlər prosesi başa çatıb. Təlimlər onlayn şəkildə riyaziyyat fənni istiqamətində seminar və praktiki məşğələlərin keçirilməsi üzrə beynəlxalq təcrübəsi olan Sjoerd Crans, təbiət elmləri istiqamətində isə Roel Visseren tərəfindən keçirilib. Təlimlərdə DİM-in nümayəndələri, riyaziyyat fənni və təbiət elmləri istiqamətində buraxılış və qəbul imtahanlarında tapşırıqların tərtib olunması və ekspertizası üzrə DİM-lə əməkdaşlıq edən ekspertlər, Elm və Təhsil Nazirliyinin nümayəndələri, Təhsil İnsitutunun əməkdaşları iştirak ediblər.

♦ 11 noyabrda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat və dövlət qulluğu məsələləri şöbəsinin müdir müavini Lalə Qədirova "Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi" mövzusunda təlim keçirib. Təlimdə Azərbaycan Respublikası Energetika Nazirliyinin 31 əməkdaşı iştirak edib.

♦ 11 noyabrdan 1 dekabradək DİM-in internet səhifəsində peşəkar mühasib sertifikatı imtahanının II mərhələsi üzrə imtahana qeydiyyat aparılıb.

♦ 11 noyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 11 noyabrda DİM-in Strateji inkişaf şöbəsinin əməkdaşları Bakı Dövlət Universitetində SABAH qruplarının tələbələri üçün Kembric ingilis dili kvalifikasiyaları və ICDL (International Computer Driving Licence) imtahanı haqqında məlumat sessiyası keçiriblər. Sessiyada 180 nəfər iştirak edib.

♦ 12 noyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 7 nəfər iştirak edib.

♦ 13 noyabrda dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib.

♦ 13 noyabrda inzibati rəhbər vəzifələrə aid olan AB, AC və inzibati icraçı vəzifələrə aid olan BA, BB vəzifə qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanı keçirilib.

♦ 13 noyabrda inzibati rəhbər vəzifələrə aid olan AB, AC və inzibati icraçı vəzifələrə aid olan BA, BB vəzifə qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanı keçirilib.

♦ 14 noyabrdan dekabrın 1-dək doktoranturada təhsil alan iddiaçıların xarici dil üzrə, həmçinin əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında iştirak etmələri üçün qeydiyyat aparılıb.

♦ 14 noyabrda dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi (BB altqrupu) üzrə noyabrın 13-də keçirilən imtahanın nəticələri elan olunub.

♦ 14 – 25 noyabr tarixlərində DİM-in Psixoloji qiymətləndirmə və diaqnostika şöbəsinin müdiri Pərviz Kazımov Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində Şərq Tərəfdaşlığı Regional İdarəçilik İslahatı Fondu və GIZ (Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı) Regional Fondunun birgə təşkilatçılığı ilə "Peşəkar dövlət qulluğu və peşə təhsili üzrə təlim" layihəsi çərçivəsində "Şərq Tərəfdaşlığı ölkələrində peşəkar dövlət qulluğu" adlı təlimdə iştirak edib.

♦ 14 noyabrda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 15 noyabrda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələri müzakirə olunub.

♦ 16 noyabrda DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 6 nəfər iştirak edib.

♦ 16 noyabrda fizika, rus dili (tədris dili) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 17 – 20 noyabr tarixlərində Dövlət İmtahan Mərkəzi fransız dili üzrə mütəxəssislərin davamlı peşəkar inkişafı üçün təlimlərə qeydiyyat elan aparıb.

♦ 17 noyabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclasda hər iki fənn üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələri müzakirə olunub.

♦ 18 noyabrda Dövlət İmtahan Mərkəzi və otk.az portalı yeni layihəyə start verib. Şagirdlərin biliyinin qiymətləndirilməsi üçün fənlər üzrə sınaq imtahanı sual kitabçaları dərc olunub.

♦ 18 noyabrda dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanlarında iştirak etmək üçün qeydiyyat elan edilib.

♦ 18 noyabrda Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyi və 2022-ci ildə keçirilən imtahanlarda fəaliyyəti yüksək qiymətləndirilən imtahan rəhbərləri və nəzarətçilərin mükafatlandırılmasına həsr olunan tədbir keçirilib. Araşdırmanın nəticələrinə əsasən nümunəvi fəaliyyətinə görə 1830 nəzarətçi – müəllimə təşəkkür elan edilib, o cümlədən 30 zal nəzarətçisi, 5 imtahan rəhbəri fəxri fərmanla təltif edilib.

♦ 18 noyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Hər iki fənn üzrə gündəlik məsələ ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ 18 noyabrda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə "Yüksəliş" müsabiqəsinin ekspertlər qrupu ilə "İnsan kapitalı: qiymətləndirmə və inkişaf" mövzusuna həsr olunan görüş keçirib.

♦ 18 noyabrda Dövlət İmtahan Mərkəzinin Psixoloji iş və maarifləndirmə sektorunun böyük məsləhətçisi Sevinc Məmmədova tərəfindən "Tədris prosesində motivasiya" mövzusunda vebinar keçirib.

♦ 20 noyabrda "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin musabiqəsinin keçirilməsi haqqında" Əsasnaməyə müvafiq olaraq vergi orqanlarına işə qəbul olunmaq istəyən namizədlər üçün test imtahanı keçirilib.

♦ 21 noyabrda 20 noyabrda vergi orqanlarında işləmək istəyən namizədlər üçün keçirilən test imtahanının nəticələri elan edilib.

♦ 21 – 22 noyabr tarixlərində Azərbaycan dili, ingilis dili, fransız dili və kimya fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 22 noyabrda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat və dövlət qulluğu məsələləri şöbəsinin müdir müavini Lalə Qədirova "Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının tətbiqi məsələləri" mövzusunda təlim keçirib. Təlimdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 19 əməkdaşı iştirak edib.

♦ 23 noyabrda fizika, rus dili (tədris dili) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 24 noyabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 25 noyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 25 noyabrda DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov vətəndaşları qəbul edib. Görüşdə ümumilikdə 5 nəfər iştirak edib. 4 nəfər əyani, 1 nəfər isə onlayn formada qəbul edilib.

♦ 25 noyabrda Sumqayıt şəhərində Dövlət İmtahan Mərkəzinin əməkdaşları Şərqi Zəngəzur regional təhsil idarəsinin və tabeliyində olan rayon təhsil sektorlarının məsul şəxsləri, həmçinin ümumi təhsil məktəblərinin "Şagird-məzun" sistemi üzrə əlaqələndiriciləri üçün 2022/2023-cü tədris ili üzrə Təqvim planı, buraxılış sinif məzunlarının yekun attestasiyası, şagirdlər haqqında məlumatların "Şagird-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi və digər məsələlərlə bağlı seminar keçirib.

♦ 26 noyabr tarixindən etibarən buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair Azərbaycan dili, riyaziyyat, ingilis dili, informatika, kimya, fizika, biologiya, coğrafiya və tarix fənləri üzrə iki aylıq hazırlıq kursları fəaliyyətə başlayıb.

♦ 26, 27 və 28 noyabr tarixlərində fizika, biologiya, riyaziyyat, ingilis dili, Azərbaycan dili və informatika fənləri üzrə hazırlıq kurslarının ilk məşğələləri keçirilib.

♦ 27 noyabrda peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi (mühasibat uçotu üzrə) keçirilib. İmtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 3 binada təşkil olunub. İmtahanın keçirilməsi üçün 3 ümumi imtahan rəhbəri, 6 imtahan rəhbəri, 54 nəzarətçi-müəllim, 6 buraxılış rejimi əməkdaşı cəlb olunub.

♦28 noyabrda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclaslarda tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında istifadə edilmiş və açıqlanmış bir variant müzakirə olunub.

♦28 – 30 noyabr tarixlərində Dövlət İmtahan Mərkəzinin əməkdaşları Qarabağ, Mərkəzi Aran və Dağlıq Şirvan regional təhsil idarələrinin və tabeliklərində olan rayon təhsil sektorlarının məsul şəxsləri, həmçinin ümumi təhsil məktəblərinin "Şagird-məzun" sistemi üzrə əlaqələndiriciləri üçün 2022/2023-cü tədris ili üzrə Təqvim planı, buraxılış sinif məzunlarının yekun attestasiyası, şagirdlər haqqında məlumatların "Şagird-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi və digər məsələlərlə bağlı seminarlar keçirib.

♦ 29 noyabrda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda gündəlik məsələ 2022-ci ildə ali təhsil müəssisələrinə I ixtisas qrupu üzrə qəbul imtahanında istifadə edilmiş tapşırıqların müzakirəsi olub.

♦29 noyabrda Dövlət İmtahan Mərkəzində "Avropa İttifaqı üzv dövlətlərinin dövlət qulluğu ilə bağlı təcrübələri: işə qəbul, qulluqda yüksəliş, xidməti fəaliyyətin qiymətləndirilməsi" mövzusunda təlim təşkil olunub.

♦ 29 noyabrda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat və dövlət qulluğu məsələləri şöbəsinin müdir müavini Lalə Qədirova "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası" mövzusunda Energetika Nazirliyi, sonra isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində təlim təşkil edib.

♦ 30 noyabrda Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbər vəzifəli şəxsləri üçün "İnsan resurslarının idarə edilməsinə ümumi baxış" mövzusunda təlim keçirilib.

♦ 29 – 30 noyabr tarixlərində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində "Kargüzarlıq və elektron sənəd dövriyyəsi sistemləri" mövzusunda təlim keçirilib.

♦ 30 noyabrda Dövlət İmtahan Mərkəzində fizika, ədəbiyyat (rus bölməsi) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclaslarda 2022-ci ildə ali təhsil müəssisələrinə qəbul imtahanlarında I ixtisas qrupu üzrə fizika, III ixtisas qrupu üzrə ədəbiyyat (rus bölməsi) fənnindən, tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında isə rus dili (əsas xarici dil) fənnindən istifadə edilmiş və açıqlanmış bir variant müzakirə olunub.

♦ 30 noyabrda "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası" mövzusunda təlim təşkil edilib. Təlimdə Qida Təhlükəsizliyi Agentliyinin 78 əməkdaşı iştirak edib.

♦ 1 dekabrda DİM-də GRE imtahanı keçirilib.

♦ 1 dekabrda tarix və biologiya fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Hər iki iclasda 2022-ci ildə ali təhsil müəssisələrinə qəbul imtahanlarında istifadə edilmiş test tapşırıqları müzakirə olunub.

♦ 1 dekabrda kimya və tarix fənləri üzrə qəbul imtahanlarında istifadə ediləcək qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının ilk məşğələləri keçirilib.

♦ 1 dekabrda DİM və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin rəhbər şəxsləri arasında görüş keçirilib. Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov, eləcə də DİM-in və nazirliyin müvafiq struktur bölmələrinin rəhbər şəxslərinin iştirak etdiyi bu görüşdə tərəflər arasında qarşılıqlı iş birliyinin qurulması ilə gənclərin peşə seçimi imkanlarının genişləndirilməsinə və əmək bazarında öz peşə profillərinə uyğun yer tutmalarına dəstək olmaq məqsədilə Anlaşma Memorandumu imzalanıb.

♦ 1 dekabrda Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsində "Kargüzarlıq və elektron sənəd dövriyyəsi sistemləri" mövzusunda təlim keçirilib.

♦ 2 dekabrda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat,dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası" mövzusunda təlim keçirib. Təlimdə Dövlət Statistika Komitəsindən 39 nəfər rəhbər vəzifəli şəxs iştirak edib.

♦2 dekabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Coğrafiya fənni üzrə iclasda 2022-ci ildə ali təhsil müəssisələrinə II ixtisas qrupu üzrə qəbul imtahanında istifadə edilmiş tapşırıqlar təhlil olunub. Riyaziyyat fənni üzrə iclasda isə tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanında istifadə edilmiş və açıqlanmış bir variant müzakirə olunub.

♦2 dekabrda coğrafiya fənni üzrə qəbul imtahanında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kursunun ilk məşğələsi keçirilib.

♦ 3 dekabrda Dövlət İmtahan Mərkəzində TOEFL iBT imtahanı keçirilib. İmtahanda 9 nəfər iştirak edib.

♦ 3 dekabrda DİM-də SAT imtahanı keçirilib. İmtahanda 1 əcnəbi olmaqla, ümumilikdə 106 nəfər iştirak edib.

♦ 2 dekabrda DİM-in Strateji inkişaf şöbəsinin əməkdaşları Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbələri üçün Kembric ingilis dili kvalifikasiyaları və ICDL (International Computer Driving Licence) imtahanı haqqında məlumat sessiyası keçiriblər.

♦ 3 – 4 dekabr tarixlərində fizika, biologiya və riyaziyyat fənləri üzrə hazırlıq kursunun növbəti məşğələləri keçirilib.

♦ 5 dekabr tarixində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin 16 əməkdaşı üçün "Liderlik və idarəetmənin əsasları " mövzusunda təlim keçirilib.

♦ 5 dekabrda DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov onlayn formada vətəndaş qəbulu keçirib. Görüşdə dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri və müsahibələrin keçirilməsi ilə əlaqədar müraciətə baxılıb.

♦ 5 dekabrda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Hər iki fənn üzrə iclasda tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında istifadə edilmiş və açıqlanmış bir test variantı müzakirə olunub. Tapşırıqlar imtahan nəticələrinin statistik göstəriciləri əsasında çətinlik dərəcəsi, qabiliyyət göstəricisi və mövzulara uyğunluq baxımından təhlil edilib.

♦ 5 dekabrda ingilis dili, Azərbaycan dili və informatika fənləri üzrə hazırlıq kurslarının məşğələləri keçirilib.

♦ 6 dekabrda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasda 2022-ci ildə ali təhsil müəssisələrinə I ixtisas qrupu üzrə qəbul imtahanında istifadə edilmiş test tapşırıqları müzakirə olunub.

♦ 6 dekabrda kimya fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib.

♦ 5 – 6 dekabr tarixlərində DİM-in nümayəndə heyəti "Yeni əsrin istedad mərkəzi" mövzusunda təşkil olunan İstanbul İnsan Resursları Forumunda iştirak edib. Forum çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin Dövlət İdarəçilik Qurumları və Akademiyalarının iştirakı ilə "Türk Dövlətləri Təşkilatının "E-insan" mövzusunda seminar"ı da keçirilib.

♦ 5 – 7 dekabr tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəhbər vəzifəli şəxsləri üçün "Liderlik və idarəetmənin əsasları " mövzusunda təlim keçirilib. Təlimdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 15 nəfər rəhbər vəzifəli şəxsi iştirak edib.

♦ 7 dekabrda Dövlət İmtahan Mərkəzində TOEFL iBT imtahanı keçirilib. İmtahanda 1 əcnəbi olmaqla, ümumilikdə 8 nəfər iştirak edib.

♦ 7 dekabrda fizika, ədəbiyyat (rus bölməsi) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 8 dekabr 2022-ci ildən 24 yanvar 2023-cü ilədək buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə vasitələrinin hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.

♦ 8 dekabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclaslarda 5 iyun 2022-ci il tarixində ali təhsil müəssisələrinə IV ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanında biologiya fənnindən, 21 may 2022-ci il tarixində III ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanında isə tarix fənnindən istifadə edilmiş tapşırıqları müzakirə olunub.

♦ 8 dekabrda tarix fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib. Moderator – Hafiz Cabbarov respublikanın təhsil sistemində tətbiq edilən milli və beynəlxalq qiymətləndirmə haqqında və imtahanlarda istifadə edilən tapşırıq tipləri barədə təqdimatla çıxış edib.

♦ 5 – 9 dekabr tarixlərində Dövlət İmtahan Mərkəzinin regional bölmələrinin əməkdaşları tərəfindən Quba – Xaçmaz, Mil – Muğan, Şirvan – Salyan, Şəki – Zaqatala, Gəncə – Daşkəsən və Qazax – Tovuz regional təhsil idarələri və tabeliklərində olan rayon təhsil sektorlarının məsul şəxsləri, həmçinin ümumi təhsil məktəblərinin "Şagird-məzun" sistemi üzrə əlaqələndiriciləri üçün 2022/2023-cü tədris ili üzrə Təqvim planı, buraxılış sinifləri məzunlarının yekun attestasiyası, şagirdlər haqqında məlumatların "Şagird-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi və digər məsələlərlə bağlı seminarlar keçirilib.

♦ 8 – 9 dekabr tarixlərində Gəncə şəhərində yerləşən ali təhsil müəssisələrinin yuxarı kurs tələbələri ilə dövlət qulluğuna qəbul mövzusunda maarifləndirici görüş keçirilib. Görüşdə 500-dən çox tələbə və gənclər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatı nümayəndələri iştirak ediblər.

♦ 9 dekabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Coğrafiya fənnindən 22 may 2022-ci il tarixində ali təhsil müəssisələrinə II ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanında istifadə edilmiş tapşırıqlar, riyaziyyat fənnindən isə 16 aprel 2022-ci il tarixində ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanında istifadə edilmiş və açıqlanmış bir variant müzakirə olunub.

♦ 9 dekabrda coğrafiya fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib. Moderator – Nərminə Seyfullayeva respublikanın təhsil sistemində tətbiq edilən milli və beynəlxalq qiymətləndirmə haqqında və imtahanlarda istifadə edilən tapşırıq tipləri barədə təqdimatla çıxış edib.

♦ 9 dekabrda Astana şəhərində Qazaxıstan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasının, Astana Dövlət Qulluğu üzrə Regional Xabın və Qazaxıstan Respublikasının Dövlət Qulluğu Məsələləri Agentliyinin təşkilatçılığı ilə "Dövlət qulluğunda insan resursları: personalın strateji idarəetməsinə keçid" mövzusunda İnsan Resursları Forumu keçirilib. Forumda Qazaxıstan, Türkiyə, Cənubi Koreya, Macarıstan,Tacikistan, Qırğızıstan və s. ölkələrin dövlət qulluğu orqanlarının rəhbərləri, dövlət qurumlarının nümayəndələri və müvafiq sahə üzrə ekspertlər iştirak ediblər. Forumun məqsədi xidmət yönlü dövlət aparatının qurulması istiqamətində ölkələr qarşısında duran çağırışlar, dövlət qulluğunun inkişafı sahəsində müşahidə olunan qlobal və regional tendensiyalar və s. məsələləri müzakirə olunub.

♦ 9 dekabrda DİM-in Strateji inkişaf şöbəsinin əməkdaşı DİA-nın tələbələri üçün Kembric ingilis dili kvalifikasiyaları haqqında məlumat sessiyası keçirib.

♦ 10 dekabrda Dövlət İmtahan Mərkəzində TOEFL iBT imtahanı keçirilib. İmtahanda 1 əcnəbi olmaqla, ümumilikdə 11 nəfər iştirak edib.

♦ 10 dekabrda Dövlət İmtahan Mərkəzində ilk dəfə məktəblilər üçün Kembricin kompüter əsaslı "B1 Preliminary for Schools" imtahanı keçirilib. İmtahanda 1 əcnəbi olmaqla, ümumilikdə 6 nəfər iştirak edib.

♦ 11 dekabrda Bakı və Naxçıvan şəhərlərində doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər üzrə fəlsəfə doktoru imtahanı keçirilib. İmtahanın keçirilməsi üçün ümumilikdə 3 bina, 5 imtahan rəhbəri, 3 ümumi imtahan rəhbəri, 38 nəzarətçi-müəllim, 4 buraxılış rejimi əməkdaşı (mühafizə) ayrılıb.

♦ 11 dekabrda peşəkar mühasib sertifikatı imtahanının II mərhələsi (qanunvericilik üzrə) keçirilib. İmtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 2 binada təşkil olunub. İmtahanın keçirilməsi üçün 2 ümumi imtahan rəhbəri, 6 imtahan rəhbəri, 44 nəzarətçi-müəllim, 4 buraxılış rejimi əməkdaşı cəlb olunub.

♦ 11 dekabrda fizika, biologiya fənləri üzrə qəbul, riyaziyyat fənni üzrə ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyələri üzrə həm buraxılış, həm də qəbul imtahanlarında istifadə ediləcək qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq kurslarının ilk mərhələsinin üçüncü məşğələsi keçirilib.

♦ 12 dekabrda Dövlət İmtahan Mərkəzində Ulu Öndər, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə bağlı anım tədbiri keçirilib. Dövlət İmtahan Mərkəzinin əməkdaşları Heydər Əliyevin DİM-in inzibati binasında yerləşən büstünün önünə gül dəstələri qoyublar və ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

♦ 12 dekabrda Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat, dövlət qulluğu siyasəti və dövlət strategiyası ilə iş sektorunun müdiri Elnur Abbasov "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası" mövzusunda təlim təşkil edib. Təlimdə Dövlət Turizm Agentliyindən 15 nəfər iştirak edib.

♦ 13 dekabrda "Magistr" jurnalının 2-ci nömrəsi nəşr edilib. Jurnalda ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul haqqında elanın tam mətni, "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası, müsabiqə şərtləri, "Bakalavrın elektron ərizəsi" formasının doldurulma qaydası və onun nümunəsi, magistratura səviyyəsinə qəbula hazırlaşan bakalavrlara kömək məqsədilə ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü), informatika üzrə bilikləri, xarici dilləri bilmə səviyyəsini yoxlayan test tapşırığı nümunələri dərc edilib.

♦ 13 dekabrda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün 2022-ci il noyabrın 27-də keçirilən imtahanın I mərhələsinin nəticələri elan olunub.

♦ 12 – 13 dekabr tarixlərində Azərbaycan dili, ingilis dili və kimya fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Azərbaycan dili və ingilis dili fənləri üzrə iclaslarda 5 mart 2022-ci il tarixində tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanında istifadə edilmiş və açıqlanmış bir variant, kimya fənnindən isə 5 iyun 2022-ci il tarixində ali təhsil müəssisələrinə I ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanında istifadə edilmiş tapşırıqların müzakirəsi olub.

♦ 12 – 13 dekabr tarixlərində Azərbaycan dili, ingilis dili, informatika və kimya fənləri üzrə hazırlıq kurslarının məşğələləri keçirilib.

♦ 13 dekabrda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə T.Şevçenko adına Kiyev Dövlət Universitetinin Dövlət İdarəçiliyi və Dövlət Qulluğu Elmi Tədris İnstitunun direktoru Komaxa Larisa və onun müavini Qura Viktoriyanı qəbul edib. Görüşdə tərəflər arasında dövlət qulluğu məsələləri ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparılıb.

♦ 13 dekabrda Dövlət İmtahan Mərkəzi və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəhbər şəxsləri arasında qarşılıqlı iş birliyinin qurulması, mövcud münasibətlərin inkişaf etdirilməsi, o cümlədən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin və direktorların işə qəbulu ilə bağlı memorandum imzalanıb.

♦ 14 dekabrda Dövlət İmtahan Mərkəzinin əməkdaşları "GradeMaker" şirkətinin elektron formada ölçmə-qiymətləndirmə alətlərinin yazılması və onlayn test bankı məhsulunun təqdimatında iştirak ediblər.

♦ 14 dekabrda fizika, ədəbiyyat (rus bölməsi) və rus dili (əsas xarici dil) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 15 dekabr 2022-ci ildən 15 yanvar 2023-cü ilədək dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanlarında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 15 dekabrda GRE imtahanı təşkil olunub. İmtahanda 4 nəfər iştirak edib.

♦ 15 dekabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclaslarda 5 iyun 2022-ci il tarixində ali təhsil müəssisələrinə IV ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanında biologiya fənnindən və 21 may 2022-ci il tarixində III ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanında tarix fənnindən istifadə edilmiş test tapşırıqları müzakirə olunub.

♦ 15 dekabrda tarix fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib. Moderator Hafiz Cabbarov ali təhsil müəssisələrinə qəbul imtahanları üçün qiymətləndirmə vasitələrinin, o cümlədən cavabı yazı ilə ifadə olunan tapşırıqların hazırlanmasına dair tələblərlə bağlı təqdimat edib.

♦ 16 dekabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclaslarda 22 may 2022-ci il tarixində II ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanında coğrafiya fənnindən və 4 iyun 2022-ci il tarixində ali təhsil müəssisələrinə I ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanında riyaziyyat fənnindən istifadə edilmiş test tapşırıqları müzakirə olunub.

♦ 16 dekabrda coğrafiya fənni üzrə hazırlıq kursunun növbəti məşğələsi keçirilib.

